


# HEYDƏR ƏLİYEV

## MİLLİ-SİYASİ ELİTAMIZIN ZİRVƏSİ

Vaqif Abdullayev

VAQİF ABDULLAYEV

# HEYDƏR ƏLİYEV
## MİLLİ-SİYASİ ELİTAMIZIN ZİRVƏSİ



Anam məni Azərbaycanımız üçün dünyaya gətirib.
Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycan
mənim qibləgahımdır.

**HEYDƏR ƏLİYEV**

VAQİF  ABDULLAYEV

# HEYDƏR ƏLİYEV
## MİLLİ-SİYASİ
## ELİTAMIZIN ZİRVƏSİ

Təhsil

BAKI–2019

**Abdullayev V.**
A14 **Heydər Əliyev – milli-siyasi elitamızın zirvəsi.** Bakı, «Təhsil», 2019, 408 səh.

Siyasi elmlər doktoru, professor Vaqif Abdullayevin bu kitabında Azərbaycan milli elitasının formalaşma tarixi, bu fasiləsiz prosesin son qırx ilində Heydər Əliyevin müstəsna xidmətləri sosioloji və politoloji rakursdan, «millət-lider-elita» aspektindən işıqlandırılır. Müəllifin bundan öncə nəşr edilmiş «Millət ideyası: siyasi aspekt» (1998), Prezident İlham Əliyev haqqında 1999-cu ildə yazdığı «O, böyük siyasətə hazırdır» kitabı ingilis, latış, ukrayn və gürcü dillərinə tərcümə olunmuş, «Azərbaycan yeni diplomatiya məkanında» (2000), «Müstəqilliyimizin strategiyası» (2003), «Sülh və sabitlik Prezidenti» (2005), «Planetar təfəkkürlü lider» (2007) kimi əsərləri bu mövzuya keçid rolu oynamışdır. Vaqif Abdullayev göstərir ki, milli-siyasi elitamız həm çarizm və onun sonluğunda doğulan ilk müstəqil respublika, həm də sovet dönəmində, özəlliklə Heydər Əliyevin siyasi rəhbərliyə gəlişi ilə epoxaların ekstremallığına baxmayaraq, millətin varlığını qoruması və inamla gələcəyə addımlamasında üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirmiş, milli inkişafı təmin etməyi bacarmışdır. Müstəqilliyin bərpasından sonra elitanın formalaşma prosesi Yeni Azərbaycan Partiyasının bazasında yeni məzmun kəsb etmişdir.

Vaqif Abdullayev YAP Siyasi Şurasının üzvüdür. II çağırış Milli Məclisinin deputatı olmuş, Xızı və Beyləqan RİH-nin başçısı vəzifəsində çalışmışdır.

**A $\frac{4502020000}{053}$ 2019**

**© Vaqif Abdullayev, 2019**

## KİTABIN İÇİNDƏKİLƏR

### I FƏSİL

***Azərbaycan Xalq Cümhuriyyəti: ilk və kövrək addımlar***


1.1. Dövrün siyasi mənzərəsi, siyasi təşkilatlanma.................11
1.2. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra siyasi elitanın fəaliyyəti ................25
1.3. Paris Sülh Konfransında Azərbaycanın diplomatik missiyası ........................................................50


### II FƏSİL

***14 iyul 1969-cu il – milli-siyasi intibahın başlanğıcı***


2.1. Azərbaycanda müasir siyasi elitanın formalaşması xüsusiyyətləri ..................................................................59
2.2. Heydər Əliyev fenomeni SSRİ miqyasında.....................74
2.3. Keçid dövrü və yeni tipli siyasi elitanın formalaşması ....................................................108


### III FƏSİL

***Heydər Əliyevin idarəçilik üslubu milli-siyasi konsepsiya kimi***


3.1. Heydər Əliyevin siyasi baxışlarında başlıca kateqoriya – milli şüur .......................................132
3.2. Siyasi elitanın dünyagörüşündə milli-tarixi şüur amili ....................................................166
3.3. Heydər Əliyevin siyasi konsepsiyasında siyasi sosiallaşma prosesinin yeri .................................185

3.4. Siyasi qətiyyət anlayışı Heydər Əliyevin
xarizmasında mühüm cəhət kimi ..................................195
3.5. Diaspor məsələsi: diaspor elitamızın
milli dəyəri kimi...........................................................216

**IV FƏSİL**

***İlham Əliyev – yeni yüzilliyin yeni lideri***

4.1. İlham Əliyev şəxsiyyəti:
«Xalq-Lider-Elita» müstəvisində..................................243
4.2. İlham Əliyevin «Hakimiyyət»
konsepsiyası: milli dövlətçilik ölçülərində ....................268
4.3. Sosial sahə mühüm istiqamət kimi ................................287

**V FƏSİL**

Mehriban Əliyeva – milli-siyasi elitamızın qadın obrazı .....317

**VI FƏSİL**

***Yeni Azərbaycan Partiyası – cəmiyyətimizin siyasi avanqardı***

5.1. Yeni impuls – 91 ziyalının müraciəti .............................348
5.2. Yeni Azərbaycan Partiyasının fəaliyyət dinamikası.......362
5.3.Yeni zirvələrə doğru........................................................376

**Heydər Əliyev – Gələcək (nəticə əvəzi)** .............................397
**Ədəbiyyat**.........................................................................405

# GİRİŞ

Bu gün Heydər Əliyevin siyasi baxışları çərçivəsində müasirlik və siyasi elita barədə düşünərkən çox önəmli və milli əhəmiyyətli bir fenomendən söhbət açmış oluruq.

Əgər dünyanın mövcud siyasi mənzərəsinə nəzər salsaq, görərik ki, ABŞ-dan Rusiyaya, Yaponiyadan İndoneziyaya, Yunanıstandan İraqa qədər insan və cəmiyyətin həyatında geosiyasətin rolu son dərəcə artmış, onun qanunauyğunluqlarını dərk etməyə maraq prioritet dəyərə çevrilmişdir. Lakin bununla belə, konkret ölkələrdə və regionlarda siyasi problemlərin və vəziyyətlərin müxtəlif xarakterli olmasına baxmayaraq, daxili siyasi və beynəlxalq proseslərin əksəriyyətində oxşar inkişaf modelləri mövcuddur: inteqrasiya və dezinteqrasiya, əməkdaşlıq və konflikt, tərəqqi və böhran və s. Demək olar ki, bu və ya digər dərəcədə qarşılıqlı şəkildə bir-birlərini şərtləndirən, həmin proseslər arasında müəyyən dialektik asılılıq da var.

Məhz buna görə də siyasi həyatın, ümumdünya inkişafının bu spesifik xarakteri səriştəli siyasətçilər, siyasi ekspertlər və analitiklər hazırlamaq baxımından qarşıda tamamilə yeni tipli vəzifələr qoyur, daha dəqiq deyilsə, yeni formasiyalı siyasi elita, ümumiyyətlə, milli elitanın formalaşmasını aktuallaşdırır.

Gəlin, öz milli reallıqlarımızdan çıxış edək. Azərbaycanın XX əsr tarixində iki dəfə taleyüklü siyasi dönüş olmuşdur. Hər iki tarixi dönüşdə ən dəhşətli faciə – elitanın kökündən məhv edilməsi siyasəti həyata keçirilib. Sivilizasiya tarixi göstərir ki, elitası olmayan dövlət nəinki çox sürməz, heç inkişaf da etməz. İspan filosofu Ortaqa-i-Qassetin dəyərli bir fikri var: «Aristokratizmdən məhrum olan cəmiyyət məhvə məhkumdur».

Ölkələrin böyük əksəriyyətində, xüsusilə inkişaf etmiş ölkələrdə normal siyasi, intellektual elita fəaliyyət göstərir. Təbii ki, bu ölkələrdəki elita əsrlər boyu formalaşdıqdan sonra siyasi arenaya çıxmışdır.

Elita millətin intellektini, idarəçiliyini, təkcə fövqəladə genetik təbiətə malik insanların deyil, hətta sadə təbəqələrdən çıxmış fitri istedadlı fərdlərin mənəvi-əxlaqi keyfiyyətlərini özündə ehtiva edir. Elita bütün dövrlərdə hər bir dövlətin siması, beyni, bir sözlə, mahiyyəti olmuş və olmaqdadır. Elitanın fəaliyyətinə dövlətin gündəlik həyatının bütün sahələrində – elmdə, maarifdə, incəsənətdə, mühafizə orqanlarında, orduda və təbii ki, hakimiyyət strukturlarında həmişə ehtiyac duyulmuşdur.

Zadəganlığın tarixi göstərir ki, müharibə başlayan kimi birinci olaraq cəbhəyə məhz elitar ailələrin övladları gedirdilər. Onlar çox yaxşı dərk edirdilər ki, öz vətənlərini müdafiəyə gedirlər, çünki ölkəni onlardan başqa heç kəs müdafiə etməz, Vətənin şərəfini öz vətəndaşlarından başqa heç kəs qorumaz. Məhz elita ölkənin digər vətəndaşları üçün nümunə olur. Əgər elitanın hər hansı nümayəndəsi şərəfsiz bir hərəkətə yol verərsə, bu, bütün cəmiyyətdə hadisə kimi qəbul edilir.

Elitanın yoxluğundan, sönüklüyündən söhbət düşərsə deməliyik ki, bu hal təkcə sovet Azərbaycanında deyil, keçmiş sovet məkanının bütün respublikalarında hökm sürüb.

Keyfiyyətli insan materialı olmadan hər hansı bir siyasi və iqtisadi tədbiri normal səviyyədə həyata keçirmək mümkün deyil.

Bu gün biz təfəkkürlü, vicdanlı vətəndaşlarımızın siyasətdə fərqlənməsi və dövlətin mühüm qərarlarının həllində fəal iştirakına nail olmaq üçün intellektual, səfərbəredici addımları cəsarətlə atmalıyıq. Ümummilli lider Heydər Əliyev əbəs yerə demirdi ki, gəncləri, intellekti yüksək, fəaliyyətində bacarıqlı və vicdanlı insanları irəli çəkib, ümumi işimiz xatirinə, vətənin, dövlətçiliyimizin tərəqqisində onların potensialından istifadə etmək lazımdır.

1999-cu il sentyabrın 20-də Respublika sarayında əsrin müqaviləsinin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ARDNŞ-nın Birinci vitse prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin dolğun və məzmunlu məruzəsi bir daha göstərdi ki, Heydər Əliyev gənclərin irəli çəkilməsində, intellekti yüksək, bacarıqlı və vicdanlı insanların vətənin, dövlətçiliyimizin tərəq-

qisində potensialından hərtərəfli istifadə olunmasının vacibliyini qeyd edərkən tamamilə düzgün kadr strategiyası mövqeyində durub, gələcəkdə milli elitamızın hərtərəfli formalaşması üçün önəmli yol göstərib.

Milli elita hər şeydən əvvəl Azərbaycan xalqının, onun dövlətçiliyinin maraqlarını ardıcıl və ləyaqətlə həyata keçirən intellektual potensialdır. İlham Əliyevin yüksək səviyyəli məruzəsi göstərdi ki, o bir intellektual kimi ölkəmizin mənafelərini əsl vətəndaşlıq mövqeyindən qorumağa həmişə hazırdır. İlham Əliyev məruzəsində deyib: «Biz xarici şirkətlərə deyirdik: Siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin – Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür bir səhvə yol verə bilmərik». Bu əsl diplomatik çeviklik, intellektual təfəkkür, milli ideyaya bağlılıq səviyyəsində deyilmiş fikirdir. Biz şübhə etmirik ki, məhz bu cür aydın vətəndaşlıq mövqeyi milli elitanın yüksək siyasi əxlaqi dəyərlərinin formalaşmasında əvəzsiz örnək olacaqdır.

Bu gün təəssüflə etiraf etmək lazımdır ki, şərəf, təmizlik, xeyirxahlıq, vətəndaşların və dövlətin naminə fədakarlıq – bütün bu kimi keyfiyyətlər planet səviyyəsində xeyli məziyyətindən düşmüş, əxlaqi dəyərini itirmişdir.

Cəmiyyətin həmişə fəlsəfi refleksiyaya ehtiyacı olmuşdur, yəni insanlar böhranlı anlarda ətraf aləmə kənardan baxıb əxlaqi düşüncələrə dalmağı lazım bilirlər. Gəlin, Azərbaycanımıza nəzər salaq. Biz bu gün təbii sərvətlərimizdən başqa daha hansı dəyərlərə malikik? Hansı insani resurslara arxalanırıq?

Heç şübhəsiz ki, bizim yeganə milli nailiyyətimiz ümummilli lider Heydər Əliyevdir. Əgər gerçəkliyə Heydər Əliyevin siyasət fəlsəfəsi ölçülərindən yanaşsaq, açıq deyilməlidir ki, hazırda siyasi elitamız heç də tam formalaşmamışdır. Bugünkü həyatımızda ən böyük sosial qıtlıq dövlət təfəkkürlü siyasətçilərimizin kifayət qədər olmamasıdır.

Unudulmamalıdır ki, azadlığını və müstəqilliyini əldə etmiş Azərbaycan xalqının ciddi siyasi potensialı, dövlətçiliyimizin intellektual dayağı olan elitası əvəzsiz siyasi resursdur. Bu gün biz nəyə malikik? Hər halda real fakt budur ki, bu gün Yeni Azərbaycan Partiyasından başqa elə bir partiya yoxdur ki, millət ona söykənsin, yaxud onun siyasi idealına rəğbətlə yanaşsın, dövlətçiliyimizi daha da inkişaf etdirmək üçün bütün məsuliyyəti üzərinə götürmüş olsun. Bu da həqiqətdir ki, hakimiyyətdə olmaq naminə can atanlar bu gün millət üçün son dərəcə gərəkli intellektual potensiala malik elita yaratmaqdan çox uzaqdırlar.

Buna görə də, hazırda ən mühüm vəzifə Yeni Azərbaycan Partiyasının sıralarını daha da möhkəmləndirmək, YAP-da mövcud siyasi ənənəni daha da təkmilləşdirməkdir. Bir qayda olaraq, hər bir partiyanın qurultayı görülmüş işlərə qiymət verməklə yanaşı, əməli fəaliyyətin yeni taktiki və strateji istiqamətlərini müəyyənləşdirib, partiyanın keyfiyyətcə daha yüksək inkişaf mərhələsinə daxil olmasını stimullaşdırır. Lakin hər bir normal demokratik partiyanın böyük üstünlüyü onun sıralarında cəmiyyətdə siyasi sistemin «işləməsi» üçün milli-siyasi elitanın formalaşmasıdır. Akademik R.Mehdiyevin dediyi kimi «məhz elitanın səviyyəsi, onun keyfiyyət göstəriciləri cəmiyyətin vəziyyətinin ən mühüm göstəricilərindən biri, dövlətin inkişaf dinamikasının əlamətidir».

Şübhə etmirik ki, ulu öndərin qurucusu olduğu Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi altında sıralarını daha da möhkəmlədəcək, siyasi elitamızın formalaşmasındakı önəmli rolunu uğurla həyata keçirəcəkdir.

# I FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ: İLK VƏ KÖVRƏK ADDIMLAR

*Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.*

**Heydər Əliyev**
*Ümummilli lider*

## *1.1. Dövrün siyasi mənzərəsi, siyasi təşkilatlanma*

Vaxtilə alman filosofu Hegel yazırdı ki, tarixdən ibrət götürməyənlərə, onun barəsində yalnız fəlsəfəçilik edənlərə və deməli, onu nəzərə almayanlara tarix heç nə öyrətmir. Lakin tarix onu öyrənmək istəməyənlərə də ibrət dərsi verir – o, bu dəfə insanları nadanlıq və biganəliyə görə cəzalandırır. Ulu öndər bu tarixi həqiqəti çox gözəl bilir və tövsiyə edirdi ki, hər bir siyasətçi xalqın tarixi yaddaşına biganə olmamalı, vətəninin keçmiş tarixini bilməlidir.

Bu gün biz milli inkişafımızın çox önəmli yetirməsi olan siyasi elitamızın formalaşması tarixinə nəzər salarkən ümummilli lider Heydər Əliyevin «xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrıl-

masın» – konseptual fikrini elmi-nəzəri tədqiqatlarımızın diqqət mərkəzində saxlamalıyıq.

Azərbaycanın gələcəyi qarşısında tarixi məsuliyyəti dərk etməyə çalışdıqda ölkəmizin ən yeni tarixində dövlətçiliyimiz üçün olduqca təhlükəli dövr kimi qiymətləndirilən 1991–1992-ci illəri və 1993-cü ilin birinci yarısında tüğyan edən siyasi-iqtisadi, hərbi anarxiyanı ürəkağrısı ilə xatırlayarkən ilk Azərbaycan Respublikasının – 1918–1920-ci illərdə tarix səhnəsində olmuş Azərbaycan Demokratik Respublikasının taleyini unutmaq mümkün deyil.

Bəşəriyyətin inkişaf dialektikası sübut edir ki, hər bir xalqın sosial-siyasi inkişafını milli elitanın fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyildir. Siyasi elita bütün zamanlarda olmuşdur. Lakin milli zəmində götürsək, deyə bilərik ki, Azərbaycanın milli-siyasi elitasının formalaşma tarixinin ilk addımları Şərqdə ilk demokratik idarəçilik yolunu seçmiş Azərbaycan Demokratik Respublikasının fəaliyyəti ilə bağlıdır.

Bu baxımdan problemə aydınlıq gətirmək üçün, ilk növbədə, siyasi elita kateqoriyasının müasir anlamının qısaca şərhini vermək yerinə düşər.

Hələ e.ə. 430-cu ildə Qədim Yunanıstanın məşhur siyasi xadimi Perikl demişdir: «Çox az adam siyasəti yarada bilər, lakin siyasət barədə mühakimə yürütməyi hamı bacarır». Tarixi inkişafın gedişində, demək olar ki, bütün ölkələrdə cəmiyyət idarə olunan çoxluğa və idarə edən azlığa bölünmüşdür. İdarəetməni həyata keçirən həmin azlığın, daha doğrusu, idarəetmə funksiyasını yerinə yetirən azlığın hakimiyyətə gəlməsi və hakimiyyət sükanını idarə etməsi üçün onun xüsusi şəxsi keyfiyyətlərə və peşəkarlıq bacarığına malik olması tələb olunur. Bu, xüsusi təbəqəni hakimlik edən, yaxud siyasi elita adlandırırlar. İdarəetmə orqanlarının və inzibati funksiyaların differensasiyası və ixtisaslaşması başlandığı andan hər bir siyasi-sosial təşkilat cəmiyyətin idarə edənlərə və idarə olunanlara bölünməsini tənzimləyir.

Fransız dilindən elita sözü ən yaxşılar, seçilmişlər mənasında tərcümə olunur. Elita anlayışı ən müxtəlif söz birləşmələrində

nəsə müstəsna bir halı, seçilən, görkəmli keyfiyyətləri olan şəxsləri bildirir. Adətən öz fəaliyyəti sahəsində ən yüksək indeksə sahib, cəmiyyətdə ən yüksək nüfuza, statusa, sərvətə malik insanlar elita adlanırlar. Elitaya aid olunan «görkəmli», «nüfuzlu», «tanınmış», «sayılan» şəxslərdir.

İctimai həyatın müxtəlif sahələrində – elmdə, istehsalatda, incəsənətdə, idmanda və s. elita təbəqəsi olur. Siyasi elita isə hakimiyyət sükanına real iddiası olan tanınmış insanlardan ibarətdir. Siyasi elita dövlət hakimiyyəti orqanlarında, siyasi partiyalarda, ictimai təşkilatlarda rəhbər vəzifə tutan və ölkədə siyasətin işlənib hazırlanmasına və həyata keçirilməsinə təsir göstərən sayca çox olmayan insanlar təbəqəsidir.

Siyasi elita cəmiyyətdə hakim qüvvə olan və cəmiyyəti idarə edən təbəqədir. Bu təbəqəni təşkil edənlərin əksəriyyəti yüksək rütbəli, öz hakim funksiyaları və səlahiyyətləri olan peşəkar siyasətçilərdir. Buna görə də elitaya cəmiyyətdə yüksək, ləyaqətli yeri olan dövlət qulluqçuları daxildir.

Siyasi elitanın meydana gəlməsi aşağıdakı başlıca faktorlarla şərtlənir:

– insanların psixoloji və sosial xüsusiyyətləri, onların eyni olmayan, bənzərsiz imkanları və siyasətdə iştirak etmək arzusu ilə;
– idarəetməni peşəkarcasına bacarmağı tələb edən əmək bölgüsü qanunu ilə, müəyyən ixtisaslaşma fenomeni ilə;
– idarəetmə əməyinin yüksək sosial əhəmiyyəti və müvafiq stimullaşdırma ilə;
– sosial güzəştlərin əldə edilməsi üçün idarəetmə fəaliyyətindən istifadənin geniş imkanları ilə;
– siyasi rəhbərlər üzərində hərtərəfli nəzarət həyata keçirməyin praktiki imkanları ilə;
– əsas maraqları siyasətdən uzaq olan geniş əhali kütləsinin siyasi passivliyi ilə.

Siyasi elita heç də təsadüf üzündən hakimiyyət bacarığına malik olan şəxslərdən ibarət deyildir. Bu müəyyən qabiliyyətlərə, peşəkarlıq vərdişlərinə, biliklərə, bacarıqlara malik olan sosial qrup-

dur. Məhz bu səbəbdən siyasi elita dövlət idarəçiliyinin mərkəzi vəsiləsidir, cəmiyyətin siyasi inkişafının istiqaməti və gedişi, siyasi sistemin funksional fəaliyyəti onun necə formalaşmasından asılıdır.

Cəmiyyətdə elitanın funksiyaları idarəetmədə, iqtisadiyyatda və s. əksini tapır, onun rolunu isə cəmiyyət həyatı müəyyən edir:

1. Elitalar sosial qrupun, bütün sinfin siyasi iradəsinin müəyyənləşdirilməsində və bu iradənin reallaşdırılması mexanizmlərinin işlənib hazırlanmasında çox mühüm rol oynayırlar.
2. Elitalar öz qrupunun, sinfinin siyasi məqsədlərinin formalaşmasında, onların proqram sənədlərinin işlənib hazırlanmasında müstəsna rola malikdir.
3. Elitalar qrupun, sinfin siyasi təmsilçiliyi üzrə fəaliyyətini tənzimləyir, ona lazımi istiqamət verir.
4. Elitalar idarəetmə və rəhbər kadrların əsas ehtiyat qüvvəsi, siyasi və dövlət idarəçiliyinin müxtəlif sahələrində rəhbərlərin yerləşdirilməsi, bu sahələr üçün rəhbər işçilərin seçilməsinin mərkəzidir. Deməli, bu sahədə ən məsuliyyətli məqam layiqli və ləyaqətli siyasətçilərin seçilməsidir.

Bütün bunlarla yanaşı, ən mühüm məsələ siyasi elitanın tərkibi problemidir. Bu təkcə hakimiyyətin xarakterinin təhlili üçün deyil, həm də onun perspektivini aşkar etmək üçün olduqca vacibdir. Çünki siyasi hakimiyyətin sosial keyfiyyəti onun başında duran siyasətçilərdən, bütövlükdə isə siyasi elitadan asılıdır.

Siyasi elita termininin müasir anlamına aydınlıq gətirmək üçün son illər sovet (kommunist) rejimi ilə mübarizə aparmış ictimai hərəkatın tərkibinə nəzər salmaq lazımdır. Dövrümüzün demokratik hərəkatında aşağıdakı sosial-siyasi qrupların nümayəndələri üstünlük təşkil etmişlər:

– Ziyalılar. Onlar öz peşəkar fəaliyyətləri sayəsində köhnə rejimin repressiv xarakterini çox həssas duyaraq, onun perspektivsizliyini dərk edən zümrəni təşkil edənlərdir.
– Cəmiyyətdə demokratik dəyərlərin və milli dirçəlişin tərəfdarlarının olduğu kütləvi təbəqələr, yəni kommunist rejiminin ideya əleyhdarları.

– Əvvəlki rejimdən ziyan çəkmiş adamlar, yəni təkcə repressiyaya məruz qalanlar, dissidentlər, siyasi məhbuslar deyil, həm də totalitarizmdən mənəvi həyatı şikəst olmuş insanlar.
– Partiya elitasından çıxmış bəzi intellektuallar. Məhz onların əlləri KİV-ə çatdığı üçün rəsmi ideologiyaya hiss ediləcək zərbəni vura bilmişlər.
– Təsərrüfat elitasının demokratik, islahatçı, bazar oriyentasiyalı nümayəndələri.
– Hakimiyyət və idarəetmə strukturlarındakı praqmatiklər. Onlar üçün hansı Allaha etiqad göstərməyin əhəmiyyəti yoxdur, təki idarəçilikdə, hakimiyyət strukturlarında olsunlar. Onlara bəzən «şəraitə görə demokratlar» da deyirlər.
– Ən müxtəlif sosial qruplardan olan autsayder – karyeristlər. Onlar cəmiyyətdə mövqe tutmaq üçün demokratik hərəkatdan sosial «lift» kimi istifadə etməyə can atanlardır.

Lakin sadaladığımız nümayəndələrin heç də hamısı yeni elitaya daxil ola bilməmişlər. İlk üç qrupdan çıxanların bütövlükdə hakimlik, idarə etmək üçün o qədər də praktiki hazırlığı olmamışdır. Digər qrupları təmsil edənlər isə hakimiyyətə daxil olmağa yol tapmışlar. Burada nəzərə çarpan odur ki, yeni siyasətçilər, bu və ya digər dərəcədə, bilavasitə, yaxud dolayı, sosial, ya da peşəkarlıq cəhətdən köhnə hakim dairələrlə əlaqəli olmuş, onların təsir orbitinə düşə bilmişlər. Bundan əlavə, yeni elitada «islahatçıların» və «praqmatiklərin» yüksək xüsusi çəkiyə malik olması yeni elitanın köhnə elitanın məcrasında yarandığı barədə fikir söyləməyə əsas verir.

Müasir politoloji fikirdə, çox təəssüf ki, milli-siyasi elitanın formalaşması mexanizmləri problemi kifayət qədər öyrənilməmişdir. Burada incə bir məqam var: postsovet dövründə siyasi elitaların dəyişməsi, əvəzlənməsi baş veribmi? Bu problemin nəzərdən keçirilməsinin ən vacib metodologiyası müqayisəli təhlildir.

**Sovet elitası:**

1. Qapalı, sirkulyasiyası yüksək olmayan elita idi. Onun tərkibinə daxil olmaq çoxlu formal meyarlar (partiyalılıq, iş

stajı, sosial mənşə, yaş, şəxsi sədaqət, siyasi loyallıq) əsasında mümkün idi. Seçim mexanizmi təyinat vasitəsilə həll edilirdi.

2. Ayrıca mövcud olan iqtisadi elita yox idi, çünki siyasi elitanın monopoliyası mülkiyyətə də şamil edilirdi. Dövlət mülkiyyəti, yəni ideoloji qiyafə geydirilmiş xalq mülkiyyəti idi və üstəlik də strateji resurslar dövlətin sərəncamında idi.
3. İnhisarçı hökmranlığa malikdir. Müxalifətin formalaşdırılmasının hər cür cəhdlərinin yatırılması və məhv edilməsi inhisarçı hökmranlıq sayəsində həyata keçirilirdi. Buna görə də kontrelita, əks elita mövcud olmamışdır.
4. Partiyadaxili münasibətlərin xarakteri ideoloji birliyə əsaslanan yüksək dərəcədə birlik sayəsində müəyyən edilirdi.
5. Real təmsilçilik dərəcəsi aşağı idi.

Müasir Azərbaycan elitası daha aşkar, yüksək dərəcədə sirkulyasiyaya malikdir. Onun tərkibinə daxil olmaq qeyri-formal meyarlar və daha çox insanın şəxsi keyfiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Seçim mexanizmi–demokratik seçkilərdir:

1. Cəmiyyətin bazartipli iqtisadiyyata keçməsilə əlaqədar olaraq, xüsusi mülkiyyət institutunun yaranması sayəsində müstəqil sosial qrup kimi iqtisadi elita yaranmışdır.
2. Cəmiyyətin demokratikləşməsi ilə bağlı olaraq, müxalifətin yaranması sayəsində inhisarçı hökmranlığa son qoyulmuşdur. Lakin müxalifət zəif olduğundan, xalqdan uzaq düşdüyündən mövcud müxalifət real qüvvəyə çevrilə bilməmiş, əslində iflic vəziyyətinə düşmüşdür.
3. Elitadaxili münasibətlər də demokratik prinsiplərə əsaslanır. Milli Məclisin tərkibindən göründüyü kimi, xalq təmsilçiliyi daha geniş xarakter almışdır. Təbii ki, bu proses daha da təkmilləşmə istiqamətində gedir. Son seçkilərin nəticələrindən göründüyü kimi milli elitanın keyfiyyət tərkibi, yəni Yeni Azərbaycan Partiyasının tərkibi keyfiyyətcə daha da yaxşılaşır. Elitanın təhsil səviyyəsinin yüksəlməsi və gənc siyasətçilərin axını isə onun potensialını daha da artırmışdır.

Heydər Əliyevin siyasət məktəbindən, onun siyasət fəlsəfəsindən bəhrələnən siyasətçilər yetişmiş və onlar idarəetmə təcrübəsi qazanmışlar.

İndi isə milli elitamızın formalaşmasını şərtləndirən sosial-tarixi proseslərin şərhinə qayıdaq.

Biz, ilk respublikanın – AXC-nin fəaliyyət göstərdiyi dövrün siyasi mənzərəsi problemini araşdırarkən belə bir ideyadan çıxış edirik: Şərqdə ilk parlamentli dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsi sırf regional tarixi hadisə deyil, xarakterinə görə unikal əsr olan XX əsrin əvvəllərində dünyada baş verən ziddiyyətli hadisələrin məntiqi ilə bağlı milli-siyasi hadisə olmuşdur. Həqiqətən də, XX əsrin əvvəli üçün dünyanın siyasi xəritəsi böyük dəyişikliklərə məruz qalmışdı. İqtisadi cəhətdən inkişaf etmiş çox da böyük olmayan ölkələr qrupu XX əsrin əvvəllərində dünyanı müstəmləkələrə bölərək siyasi ambisiyalarını başa çatdırmışdılar. Böyük Britaniya, Almaniya, Danimarka, İspaniya, İtaliya, Niderland, Portuqaliya, ABŞ, Fransa, Yaponiya metropoliya, onların zəbt etdikləri ərazilər isə müstəmləkə adlanırdı. Bundan əlavə, formal olaraq müstəqil sayılan bir çox Asiya və Latın Amerikası dövlətləri bu və ya digər dərəcədə Avropa ölkələrindən, yaxud ABŞ-dan asılı vəziyyətdə idilər. O dövrün məlumatlarına görə (1900-cü il), dünya ərazisinin 54,9%-ni müstəmləkə mülkləri təşkil edirdi. Bu ərazilərdə dünya əhalisinin 35%-dən çoxu yaşayırdı. Ən iri metropoliya Böyük Britaniya idi. Onun müstəmləkələrində müstəmləkə əhalisinin 70%-ə yaxını yaşayırdı. İri müstəmləkə imperiyalarının yaradılması dünyanın siyasi mənzərəsində elə bir dəyişikliklər yaratmadı. Metropoliya – dövlətlər və müstəmləkə ölkələr, həmçinin onların xalqları arasında münasibətlər iqtisadi əlaqələr üzərində deyil, onlara zorakılıq tətbiq etmək prinsipi əsasında qurulmuşdu. Dünyanın imperalist dövlətlər arasında bölünməsi imperalizm rəqabəti ilə müşayiət olunur, çox zaman müstəmləkə xalqları ilə müharibələrə və xalqların müqavimətinə gətirib çıxarırdı. XX əsrin əvvəlində dönüş baş verdi: aydın oldu ki, müstəmləkə ölkələrinin bölünməsi

uğrunda müharibələrin başlanması, azadlıq inqilablarının yetişməsi və məzlum xalqların hərbi müqavimətləri erası başlayır. Sanki Qərb və Şərq sivilizasiyalarının real toqquşması vəziyyəti yaranmışdı.

Dünyanın metropoliyalara və müstəmləkələrə bölünməsi sivilizasiyaların avropasentrist konsepsiyalarını meydana gətirmişdi. Bu konsepsiyaların əsasında duran ümumi ideya hər bir fenomenə Avropa ölkələrinin inkişafı prizmasından baxmaqdan ibarət idi. Halbuki, ümumi, qlobal bəşər sivilizasiyasını sivilizasiyaların və mədəniyyətlərin məcmusu müəyyən edir.

XIX əsrin sonunu və XX əsrin əvvəlində Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasının qarşı-qarşıya qoyulması ideyası Avropa dünya inkişafı konsepsiyalarında üstünlük təşkil edirdi. Özlüyündə belə qarşıdurma obyektiv reallıqları əks etdirirdi. «Ənənəvi» (Şərq) və Avropa sivilizasiyasına özünəməxsusluq, spesifik cəhətlər və fərqlər xasdır, lakin bu konsepsiyalar həmin sivilizasiyanın qarşıdurması üçün əsas ola bilməz.

«Ənənəvi» cəmiyyət üçün təbiətdən və coğrafi mühitdən yüksək dərəcədə asılılıq, fərdin öz sosial qrupu, etnosu, yaxud ictimai təbəqəsi ilə sıx əlaqəsi xüsusilə səciyyəvidir.

Sənaye sivilizasiyası ölkələrində, yəni kapitalist münasibətlərinin – bazar, xüsusi mülkiyyət, rəqabət, muzdlu əmək münasibətlərinin bərqərar olduğu Avropa dövlətlərində və ABŞ-da azadlıq, bərabərlik, fərdin müstəqilliyi, onun sosial mənşədən asılı olmaması kimi dəyərlər üstünlük təşkil edirdi.

XIX əsr Avropa mütəfəkkirlərinin əksəriyyəti texniki tərəqqini sivilizasiyanın başlıca, müəyyənedici cəhəti hesab edir və buna görə də «qabaqcıl» Qərb sivilizasiyasını «geri qalmış» Şərq sivilizasiyasına qarşı qoyurdu. Aydındır ki, texniki tərəqqi sivilizasiyalı inkişafın səviyyəsini və xarakterini müəyyən edən sosial keyfiyyətlərdən biridir. Lakin bununla bağlı insan cəmiyyətinin ümumi durumu, burada insanın yeri, onun təbiət və kollektivlə münasibətləri kimi prinsipləri qəbul etməmək də düzgün deyildir. Ona görə ki, sivilizasiyaları «geri qalmış» və «qabaqcıl» kateqoriyalara bölən təlimlər yuxarıdakı prinsipləri nəzərə almırlar.

Ümumiyyətlə, konsepsiyaların xarakterindən göründüyü kimi Qərb politoloqları və kulturoloqları öz xalqlarının Şərq mədəniyyətindən götürdükləri dəyərləri də xatırlatmağı unudurlar. Yalnız XX əsrin əvvəlində – sənaye inkişafının eybəcər və qüsurlu nəticələri aydın olduqda və sürətlə silahlanma və müharibə təhlükəsi üzə çıxdıqda müxtəlİf sivilizasiyaların nisbəti haqqında daha dərin təsəvvürlər formalaşmağa başladı.

XX əsrin sonunda isə sivilizasiyalı inkişaf probleminə müasir yanaşma metodologiyası işlənib hazırlandı və dünyanın bütövlüyü prinsipi qəbul edildi. Beləliklə, lokal sivilizasiya nəzəriyyələrindən planetar sivilizasiyanın formalaşması haqqında konsepsiyalar meydana gəldi. Beynəlxalq informasiyanın, texnikanın, mədəni nailiyyətlərin intensiv mübadiləsi, insanların ünsiyyət münasibətləri, müxtəlif iqtisadi, siyasi və mədəni həyatın formalarının təsiri – bütün bunlar XX əsrin sonunda planetar xarakter kəsb etdi və bəşəriyyət qlobal sivilizasiyanın təşəkkülü prosesinə daxil oldu.

Qısaca təsvir etdiyimiz dünyanın ümumi siyasi mənzərəsi onunla sıx dialektik vəhdətdə olan «doğma» mühitə – XX əsrin əvvəllərində Qafqazda cərəyan edən etnosiyasi və sosiomədəni proseslərə təsir göstərməyə bilməzdi. Biz, təbii ki, daha çox o dövrdə Qafqaz regionunda gedən geosiyasi proseslərə nəzər salmaq istərdik.

XX əsrin başlanğıcında Qafqaz regionu ən mühüm strateji mərkəzlərdən biri kimi Birinci Dünya müharibəsinin gedişinə və Orta Asiyada hərbi-siyasi hadisələrə geosiyasi təsir göstərmişdir. Təsadüfi deyildir ki, alman geosiyasətçisi Karl Hanshofer Qafqazı dünya xəritəsində «kontinentlərin (qitələrin) hərbi döyüşləri zonası» kimi qeyd etmişdir.

Birinci Dünya müharibəsi illərində Antanta ilə Üçlər İttifaqı, həmçinin hər iki tərəfin düşməni olan Sovet Rusiyası arasında Qafqaz–Xəzər regionunda hökmranlıq etmək uğrunda geosiyasi mübarizə Orta Şərqdə prioritet xarakter almışdı. Bu geosiyasi məqsədə nail olmaq yolunda başlıca vasitə Qafqazın ən böyük sənaye – maliyyə mərkəzi olan Bakı şəhərini ələ keçirmək idi. Təkcə bunu demək kifayətdir ki, Bakı şəhəri o dövrdə Rusiya

neftinin 80%-ni, dünya neftinin 15%-ni verirdi. Bu şəhərin fəth edilməsi Xəzər dənizi akvatoriyası üzərində tam nəzarətin həyata keçirilməsi demək idi. O dövrdə Bakı neftinə tam sahiblik edən Rusiya hökumətinin – RSFSR-in xarici işlər komissarı O.V.Çiçerin yazırdı: «Bakı elə gözəl qızdır ki, hər bir macəra axtaran yadelli onu öz doğma evindən oğurlayıb aparmaq istəyir».

Bakının sənaye şəhəri kimi beynəlxalq əhəmiyyətini yüksək çar nümayəndəsi belə obrazlı xarakterizə etsə də, amma bu gözəl şəhərdə həyat o qədər də sakit və rəvan deyildi. XX əsrin əvvəlində Rusiya imperiyasını çalxalayan siyasi və sosial sarsıntılar imperiyanın müstəmləkələrində, xüsusilə Bakıda da, əks-səda yaratmışdı. Burada yaranmağa başlayan siyasi partiyalar Azərbaycanın siyasi həyatına yeni nəfəs gətirmiş, sonralar Şərqdə ilk parlamentli respublikanın meydana gəlməsi üçün şərait yaratmışdı.

İctimai proseslərin məntiqi gedişi belə olmuşdu ki, Rusiya və Azərbaycanda sosialist partiyalar liberal və millətçi partiyalardan əvvəl yaranmışdı. XIX əsrin 90-cı illərinin sonunda üzvləri əsasən Azərbaycana Rusiyadan və İrandan köçüb-gəlmiş fəhlə və kəndlilərdən ibarət ilk sosial-demokratik dərnəklər yaranmağa başlamışdı. Əvvəllər dərnək formasında fəaliyyət göstərmiş sosialist təmayüllü Bakı eserlər təşkilatı isə daha çox tanınırdı.

Bu dövrdə Azərbaycanda siyasi həyat maraqlı və rəngarəng idi. 1905-ci il oktyabrın 17-də bəyan edilmiş Manifestdən sonra Bakının da siyasi mənzərəsi yeni görkəm almış, kadetlər və oktyabrçılar partiyalarının şöbələri yaranmış, mədəni-maarif və xeyriyyə cəmiyyətləri meydana gəlmişdi. Lakin siyasi həyata yenilik gətirən ən mühüm amil ilk milli Azərbaycan siyasi partiyalarının yaranması idi. «Hümmət» partiyasından sonra (bu partiya öz fəaliyyətinə hələ 1903-1904-cü illərdə sosial-demokratik partiya kimi başlamışdı) Gəncədə və Bakıda 1905-ci ilin sonunda yaranmış türk sosial-federalistlərin «Qeyrət» partiyası Qafqazın Rusiyadan ayrılması və müsəlman əhalisinə muxtariyyət verilməsi tələbi ilə çıxış edirdi. Bu partiyanın siyasi kredosunu dəstəkləyən

Azərbaycan liberal ziyalıları çoxsaylı müraciətləri ilə yüksək vəzifəli məmurlardan müsəlman əhalisinə imperiyanın xristian əhalisi ilə bərabər, eyni siyasi, vətəndaş və dini hüquqlar verilməsini tələb edirdilər.

Azərbaycanlıların milli mənlik şüurunun artmasının bariz ifadəsi 1906–1911-ci illərdə «Difai» və «Müsavat» partiyalarının yaranması oldu. Azərbaycan cəmiyyətinin siyasi mənzərəsinə xüsusi rəngarənglik verməklə yanaşı, bu partiyalar həm də cəmiyyətin siyasi mədəniyyətinin artmasından xəbər verirdi.

Məlum olduğu kimi, dəqiq desək, 1991-ci ilə qədər Azərbaycan tarixşünaslığında nəinki siyasi tarix fənni olmamış, yalnız bir partiyanın – Sovet İttifaqı KP-nın tarixinin öyrənilməsi vacib sayılmışdır. Belə bir siyasi inhisarçılığın hökmranlıq etməsi isə XX əsrin əvvəlində Azərbaycanın siyasi həyatının obyektiv işıqlandırılması baxımından böyük maneələr yaratmışdır. Təkcə bunu demək kifayətdir ki, «Daşnakstyun» və «Ocaq» kimi avantürist erməni partiyalarının Azərbaycan xalqına qarşı terrorçu fəaliyyəti qətiyyən düzgün qiymətləndirilmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin baş verdiyi 1905–1907-ci illərdə «Difai» və «Hümmət» təşkilatlarının yaranması barədə verilən hər bir informasiyaya qadağa qoyulmuşdu.

Bu dövrün siyasi mənzərəsinin təsvir edilməsinə mane olan amillərdən biri tədqiqatlarda kifayət qədər sənədli bazanın zəif olması və elə bu səbəbdən də sübutsuz nəticələrin təqdim edilməsi idi. Bu hal Heydər Əliyevin dediyi kimi, «tarixi olduğu kimi yazmaq lazımdır» mövqeyinin həyata keçirilməsinə mane olurdu.

Məlumdur ki, Türkmənçay müqaviləsinə görə Şimali Azərbaycanın Rusiya imperiyasının ərazisinə qatılmasından sonra çarizm Azərbaycanda ruslaşma siyasətinə başlamışdı. Lakin çarizmin məqsədyönlü güclü imperiya təzyiqlərinə baxmayaraq, Azərbaycan ziyalıları maarifçilik ideyalarının təbliği işini daha da gücləndirdilər və bununla da milli-elitanın formalaşması üçün intellektual zəmin hazırlamış oldular. 1875-ci il iyulun 22-də Azərbaycanın görkəmli

publisisist və maarifçisi H.Zərdabinin redaktorluğu ilə nəşr olunmağa başlayan «Əkinçi» qəzeti milli dövri mətbuatın, həm də milli oyanışın əsasını qoydu. Qəzetdə demokratik ideyaların təbliği çar senzurasının diqqətindən yayınmamış və ciddi narahatçılıq yaratmışdı. Bu səbəbdən də çar hökuməti 1877-ci ildə qəzetin nəşrini qadağan edən qərar vermişdi. «Əkinçi»nin ardınca sonralar «Ziyayi-Qafqasiyyə» və «Kəşkül» qəzetləri də nəşr olunmağa başladı.

Regionda sosial-siyasi vəziyyəti, xüsusilə ruslaşma siyasətini həmin dövrdə daha da gücləndirən çarizmin senzurası ictimai-siyasi ideyaların ölkədə geniş kütlə içərisində yayılmasına qətiyyən imkan vermirdi. Yalnız uzun sükutdan sonra 1903–1904-cü illərdə Tiflisdə nəşr olunan «Şərqi-Rus» qəzeti müəyyən canlanma yaratmışdı. Məhəmməd ağa Şaxtaxtinskinin rəhbərliyi ilə işıq üzü görən bu qəzet bir ildən sonra Bakıya köçürülmüş və az müddətdən sonra orada bağlanmışdı.

Çar hökuməti yürütdüyü siyasətə demokratik don geyindirmək məqsədilə verdiyi 17 oktyabr manifestinin ucqarlarda yayılmasınan və azadlıq ideyalarının təbliğinin qarşısını almağa hər vasitə ilə çalışırdı. Buna baxmayaraq, çarizm Azərbaycanda milli-siyasi canlanmanın qarşısını almaqda aciz idi. Bu səbəbdən regionda, xüsusilə Azərbaycanda, imperiya siyasətinin ayrılmaz metodu kimi milli ixtilaflar salınır, qanlı toqquşmalara səbəb olan erməni Azərbaycan qırğınları törədilir, əhalinin siyasi mədəniyyətinin zəifliyi ucbatından bütün bunlara nail olunurdu. XX əsrin əvvəllərində bu proses daha intensiv xarakter almağa başladı. Dəhşətli hal bu idi ki, XX əsrin başlanğıcında Azərbaycan türklərinin siyasi həyatında baş verən oyanma prosesinə çarizmin ideologiyası antierməni ünsürünü də əlavə etmişdi. Məhz bu mənfur siyasəti ifşa edən M.S.Ordubadi yazırdı: «1905-1906-cı illərdə ermənilər təkcə İrəvan və Yelizavetpol quberniyalarında 200-dən çox müsəlman kəndini dağıdıb yerlə-yeksan etmişlər».

Ermənilərlə toqquşmalar xalqımıza ciddi ziyan yetirsə də, Azərbaycan türklərində ümumi və amansız düşmənə qarşı birləş-

mək meylini gücləndirdi və siyasi oyanışa xidmət edən təşkilatların yaradılmasına təkan verdi. Bu faktor həm də Rusiya imperiyasının ucqarlarda apardığı milli siyasətin simasını bir daha açdı. Digər tərəfdən, çar hökumətinin Zaqafqaziyada milli-azadlıq hərəkatının qarşısını almaq üçün məqsədli şəkildə düşündüyü erməni-müsəlman toqquşmaları, azərbaycanlılara qarşı yeritdiyi ayrı-seçkilik siyasəti ölkəmizdə milli düşüncəyə və əqidəyə söykənən, milləti bu ağır vəziyyətdən çıxarmağa qadir olan bir siyasi təşkilatın yaradılmasına ehtiyac doğururdu.

Regionda siyasi vəziyyətin məhz rus imperiya siyasəti nəticəsində kəskinləşməsini bir faktdan daha aydın görmək mümkündür. Birinci Dünya müharibəsi ərəfəsində II Nikolay Qafqazda olarkən ermənilərə osmanlılara qarşı əməkdaşlıq təklif etmişdi. O, Tiflisdəki nitqində demişdi: «Qoy rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin. Çar hökumətinin himayəsi altında qan qardaşlarımızla birləşərək, nəhayət, hürriyyət və ədalət nemətlərinə qovuşacaqsınız. Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Sizi əmin edirəm, arzunuz yerinə yetiriləcək». Bu «erməni-rus qardaşlığına» erməni kilsəsi də xeyir-dua vermişdi.

Belə bir sosial siyasi şəraitdə, 1911-ci ildə «Müsavat» partiyası yarandı. Partiyanın həmin ildə yazılmış ilk proqramında əsas ideya bütün dünya müsəlmanlarını birliyə çağırış idi. Səkkiz maddədən ibarət Proqramda müsəlman ölkələrinin müstəqilliyinin bərpasına, bu ölkələrə mənəvi və maddi yardım göstərilməsinə, habelə müsəlmanların tərəqqisi, onların iqtisadi həyatının inkişafı üçün bütün mübarizə formalarının gücləndirilməsinə çağırış əksini tapmışdı. Partiyanın Proqramında və «Müsavat»ın 1912-ci il Birinci Balkan Müharibəsinin başlanması ilə əlaqədar yaydığı intibahnamədə göstərilirdi ki, müsəlman xalqlarının birləşməsi ideyası, hər şeydən əvvəl, bu xalqları o zaman Türkiyə əleyhinə vahid cəbhədə çıxış edən Qərb ölkələri və Rusiya imperiyasına

qarşı birgə mübarizəyə qaldırmaq üçün atılan mühüm siyasi addım idi. Belə bir milli siyasi Partiyanın yaranması göstərirdi ki, Azərbaycanda müasir təfəkkürlü siyasətçilər yetişir, yeni tipli siyasi elita formalaşmağa başlayır. İlk siyasi elitamızın nümayəndələri dövrün və öz reallıqlarının konkret vəziyyətini realistcəsinə qiymətləndirə bilirdilər.

1917-ci il oktyabrın 25-dən 31-dək Bakıda Birləşmiş «Müsavat» partiyasının I qurultayında qəbul edilmiş Proqramda real şəraitdən çıxış edərək, Azərbaycana milli-ərazi muxtariyyəti verilməsi uğrunda gələcək mübarizədə partiyanın taktika və strategiyası müəyyənləşdirilmişdi. Proqramda elan edilirdi ki, Rusiya dövlət quruluşuna görə vətəndaşların hüquq və azadlıqlarının konstitusiya ilə qorunacağı demokratik-federativ respublika olacaqdır. Proqramda həmçinin Rusiya imperiyasında yaşayan xalqların gələcək dövlət quruluşunun formaları federasiya və milli-məhəlli muxtariyyət kimi müəyyənləşdirilirdi. Federasiyaya daxil olan muxtar vahidlər öz aralarında, əsasən, iqtisadi baxımdan ittifaq bağlamalı, müdafiə məsələləri, maliyyə və gömrük sistemləri, xüsusi siyasət, dəmir yolları və s. isə mərkəzi hakimiyyətin sərəncamında olmalı idi.

Muxtar vilayətlərin hər birində rəsmi dil yerli xalqın, yəni həmin vilayətin əksəriyyətini təşkil edən əhalinin danışdığı dil olmalı idi. Parlamentə cinsindən, milliyyətindən və dini etiqadından asılı olmayaraq, 20 yaşına çatmış bütün vətəndaşlar seçilə bilərdilər. Rusiya ərazisində yaşayan bütün türk xalqları üçün milli və mədəni ittifaq yaradılması nəzərdə tutulurdu.

Yeni tipli milli siyasətçilərimiz Proqramda dini məsələlərə də yer ayırmışdılar. Qeyd olunurdu ki, milli mənsubiyyətinə və dini məzhəbinə fərq qoyulmadan Rusiya müsəlmanları üçün müfti (şeyxülislam) seçilməlidir. Vətəndaş hüquqları sahəsində milliyyətindən, dini etiqadından, partiya mənsubiyyətindən asılı olmayaraq, federativ respublikanın bütün vətəndaşlarının qanun qarşısında bərabərliyi irəli sürülürdü. Türk qadınlarına seçki hüququ verilirdi.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, «Müsavat» partiyasının meydana gəlməsi Azərbaycan türklərinin siyasi mədəniyyətinin formalaşmasından, müasir tipli siyasətçilərin meydana gəlməsindən, milli-siyasi elitanın formalaşması prosesindən xəbər verirdi.

## *1.2. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra siyasi elitanın fəaliyyəti*

Qafqaz bölgəsində gedən siyasi proseslər göstərdi ki, dünya tarixinə kontinental imperiya kimi düşən çar Rusiyası Azərbaycan xalqının dövlətçilik ənənələrinin məhv edilməsi, türk-müsəlman xalqlarının milli mənlik şüurunun və qədim dövlətçilik ənənələrinin itirilməsi siyasəti yeridərək Cənubi Qafqazı bu siyasətin qanlı qırğın meydanına çevirmişdi. Dəhşətli Rusiya planı olan sona qədər ruslaşdırmanın məqsədi Cənubi Qafqazı türk-müsəlman əhalisindən təmizləmək, bundan sonra İran və Türkiyənin əlini Qafqazdan bir dəfəlik üzüb isti dənizlərə çıxmaq, bununla da rus xarici siyasətinin başlıca niyyəti olan Hindistana daxil olmaq idi. Bu məqsədə nail olmaq yolunda Rusiya özünün bu gün də ağrılı problemə çevrilmiş çirkin niyyətini həyata keçirə bildi: İrandan və Türkiyədən köçən erməniləri kütləvi surətdə Qarabağda, Naxçıvan və İrəvan xanlıqlarının ərazisində yerləşdirdi. Bu regiona təkcə ermənilər deyil, müxtəlif mənşəli xristian əhali də köçürülürdü. I Pyotrun vəsiyyətinə sadiq qalan Çar Rusiyası diplomatiyası özünün Qafqazda hegemonluq siyasətini möhkəmləndirmək üçün ermənilərlə türk-müsəlman əhali arasında qırğınlar törədirdi. Həmin qanlı siyasət ölkənin şimal-qərb hüdudlarında da həyata keçirilirdi. Bu da səbəbsiz deyildi. Məhz qədim dövlətçilik ənənəsinə malik Azərbaycana dəhşətli zərbə endirilməli idi. Təsadüfi deyildi ki, məhz Şimali Azərbaycan çarizmin qəddar müstəmləkə rejiminə qarşı milli müqavimət hərəkatının əsas mərkəzinə çevrilmişdi.

Rejimin qeyri-insani mahiyyətini dərindən dərk edən, o dövrdəki milli elitamızın özülünü təşkil edən ziyalılarımız Azərbaycan

xalqının milli azadlıq hərəkatına rəhbərlik etmiş, müsəlman türklərini mübariz xalq kimi tanıtmışdılar.

XX yüzilliyin əvvəllərində Rusiya imperatorluğu dərin hərbi-siyasi və iqtisadi böhrandan xilas olmaq üçün islahatlara başlayarkən böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən himayə olunan Azərbaycan ziyalıları hələ 1905-ci ildən başlayaraq, bütün başqa tələblərlə yanaşı, ölkənin türk-müsəlman əhalisinin imperatorluğun mərkəzi hakimiyyət orqanlarında təmsil olunmasını, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb edilməsini tələb edir, bu sahədə ayrı-seçkiliyin, məhdudiyyətin aradan qaldırılması uğrunda mübarizə aparırdılar. Ulu Öndərin qeyd etdiyi kimi, «XIX əsrin sonu – XX əsrin əvvəlləri, dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində öz təsirini göstərmişdi. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdi».

Milli ruhlu Azərbaycan ziyalıları yüksək siyasi əqidə nümayiş etdirərək milli hərəkatın önündə gedirdilər. Qeyd edək ki, Rusiya imperatorluğunun bütün türk-müsəlman əhalisini çarizmə qarşı birləşdirmək və bu məqsədlə vahid siyasi təşkilat yaratmaq ideyası da məhz Azərbaycan ziyalıları tərəfindən irəli sürülmüşdü. 1905-ci il Ümumrusiya müsəlmanlarının Nijni Novoqorodda keçirilmiş I qurultayında «Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri»nə həsr olunmuş əsas məruzə ilə məhz Azərbaycan siyasi elitasının görkəmli nümayəndəsi Əlimərdan bəy Topçubaşov çıxış etmişdi.

Son dərəcə mürəkkəb bir siyasi şəraitdə Azərbaycanda yeni milli elitanın formalaşmasının bir təzahürü də mürəkkəb vəziyyətdə aparılan gərgin mübarizə nəticəsində Əlimərdan bəy Topçubaşovun, İsmayıl xan Ziyadxanovun, Əbdürrəhim bəy Haqverdiyevin, Məmmədtağı Əliyevin və Əsədullah bəy Muradxanovun 1906-cı ildə Rusiyanın ilk parlamentinə – I Dövlət Dumasına deputat seçilmələri oldu. O dövrdə bu Dumanın çağırılması çar hökuməti tərəfindən mütləqiyyət Rusiyasını parlamentli monarxiyaya çevirmək cəhdi kimi qiymətləndirilmişdi.

Rusiya Dumasının ən böyük fraksiyalarından birinə – Müsəlman fraksiyasına Əlimərdan bəy Topçubaşov seçilmişdi. Azərbaycanlı deputatlar Dumadakı çıxışlarında Rusiya imperatorluğunun Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını tutarlı faktlar əsasında cəsarətlə pisləyir, yalnız azərbaycanlıların deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər.

Deputat İsmayıl xan Ziyadxanovun çıxışından gətirdiyimiz iqtibas bunu əyani göstərir: «Biz (Azərbaycan) bir əsr əvvəl işğal edilmişik. Bizə heç hüquq verilməmişdir. Kölə halına salınmışıq. Milli varlığımıza təcavüz edilmişdir. Bir sıra ali məktəbə qəbul olunmağımıza qadağa qoyulmuşdur. Dövlət idarələrində türk məmurlarına rast gəlmək mümkün deyildir. Torpaq azlığından əziyyət çəkirik. Lakin buraya (Azərbaycana) Rusiyadan axın-axın kəndlilər köçürülür. Bilavasitə dövlətin əli ilə törədilən milli qırğın zəminində qana boyanmış bu torpaqlarda rus kəndliləri üçün planlaşdırdığınız yaşayış məntəqələri quracaqsınız. Bu, hökumətin gizli surətdə hazırlayıb həyata keçirdiyi «parçala və hökmranlıq et» idarə tərzindən başqa bir şey deyildir. İki ildən bəri qan dəryasında boğulan Vətənimdə insan cəsədlərinin üstündən keçirik. Artıq səbrimiz tükənmişdir».

Milli-siyasi elitanın başqa bir qrupunu təşkil edən II Dövlət Dumasının üzvləri – Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şaxtaxtlı və Zeynal Zeynalov da öz sələfləri kimi çarizmin bütün sahələrdə, o cümlədən dövlət idarəçiliyində yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə qarşı kəskin etirazlarını bildirirdilər.

Ucqarlarda çarizmə qarşı kəskin etiraz çıxışları – və kəskin tənqid təkcə Azərbaycan təmsilçiləri tərəfindən deyil, digər regionların deputatları tərəfindən də edilirdi. III Dövlət Dumasına keçirilən seçkilərsə çarizmin müsəlman xalqlarına qarşı milli ədavət simasını bir daha açdı. Belə ki, bu Dumaya seçkilər zamanı imperatorluğun türk-müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlardakı əhali seçki hüququndan məhrum edil-

miş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Məhz bu səbəbdən də əvvəlkindən fərqli olaraq III Dövlət Dumasında Azərbaycanı yalnız bir deputat – Xəlil bəy Xasməmmədov təmsil edirdi. IV Dövlət Dumasında isə Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi Məmməd Yusif Cəfərov idi.

Beləliklə, deyə bilərik ki, Rusiyanın Dövlət dumalarına seçilmiş Azərbaycan deputatlarının, demək olar ki, hamısı milli-siyasi elitamızın təşəkkülündə mühüm rol oynayan görkəmli ziyalılar olmaqla yanaşı, həmçinin milli-istiqlal hərəkatının qabaqcıl nümayəndələri idilər. Mühüm cəhət bu idi ki, Azərbaycanın ilk diplomatik elitası Rusiyanın Dövlət dumalarında dövrə görə zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar zamanın siyasi biliklərinə dərindən yiyələnərək Qərbin parlament həyatını yaxından izlədiklərindən Rusiya gerçəkliyindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların təmin olunduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər. Rusiya dumalarında siyasi xadim kimi formalaşan elitar siyasətçilərimiz başa düşürdülər ki, Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğur. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı bu prosesi daha da sürətləndirdi.

Deyilənlər belə bir fikir söyləməyə əsas verir ki, I Dünya müharibəsi ərəfəsində və gedişində (1914–1918) monarxist Rusiya imperatorluğunun dağılması üçün real tarixi şərait yaranarkən, Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə görə, həm də görkəmli siyasətçilərin formalaşmasına, onların müasir idarəçilik mədəniyyətinə yiyələndiklərinə görə müstəqil dövlət yaratmağa hazır idi.

Azərbaycanın siyasi həyatını dərindən öyrənən Heydər Əliyev bu dövr barədə yazırdı: «XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, formalaşan görkəmli ictimai-siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı».

1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. Kontinental imperiyanın ərazisində respublika tipli dövlət forması yaratmaq üçün Müəssislər Məclisinə seçkilərdən, monarxiya rejimi aradan qaldırdıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratmasına baxmayaraq uzun müddət hakimiyyətdə qala bilmədi.

Rusiyada Fevral inqilabından sonra mərkəzi dövlət hakimiyyəti orqanı kimi Dövlət Dumasının Müvəqqəti komitəsi və Petroqrad Soveti təşkil edilmişdi. Müvəqqəti hökuməti ilk olaraq ABŞ (9(22) mart), sonra isə Böyük Britaniya və Fransa (11 (24) mart) tanımışdı.

Müvəqqəti hökumət 3 (16) martda tərkibi, vəzifələri və s. haqqında bəyannamə, 6 (19) martda isə «Rusiya vətəndaşlarına müraciət» qəbul etmişdİ. Hökumətin proqramı həmin sənədlərdə əks olunmuşdu.

Bu hökumət vəzifələrini yerinə yetirmək üçün müəyyən addımlar atsa da, Rusiya və onun ucqarları üçün həyati əhəmiyyətə malik olan milli, aqrar, sülh və s. məsələlərin həlli sahəsində zəruri dəyişikliklər həyata keçirə bilmədi. Çünki «böyük və bölünməz Rusiya» prinsipindən çıxış edir, xalqların öz müqəddəratını təyinetmə hüququnu tanımırdı. Müvəqqəti hökumət, bütün ucqarlar kimi, Cənubi Qafqazı da Rusiyanın tərkibində saxlamağa çalışırdı. Xarici siyasət xəttində Birinci Dünya müharibəsinin davam etdirilməsi əsas yer tuturdu. Müvəqqəti hökumətin siyasətindən narazılıq nəticəsində hökumət əleyhinə çıxışlar genişlənir, siyasi böhran (aprel, iyun böhranları, iyul hadisələri) dərinləşirdi. Qısa müddət ərzində hökumətin tərkibi dörd dəfə dəyişdirilmişdi. Ölkədə siyasi və iqtisadi vəziyyətin sürətlə pisləşdiyi şəraitdə bolşeviklər oktyabrın 25-də (7 noyabr) çevriliş edərək, hakimiyyəti ələ aldılar. Həmin gün səhər Petroqraddan qaçmış Kerenski istisna olmaqla, Müvəqqəti hökumətin üzvləri oktyabrın 25-dən 26-na keçən gecə həbs olundular. II Ümumrusiya sovetlər qurultayı Müvəqqəti hökumətin devrildiyini elan etdi. Lenin başda olmaqla sovet hökuməti yaradıldı.

Cənubi Qafqazda mərkəzi diyar hakimiyyət orqanı kimi Xüsusi Zaqafqaziya Komissarlığı yaradılmışdı. Lakin Xüsusi Zaqafqaziya Komissarlığı və yerlərdə yaradılmış icraiyyə komitələri həyati əhəmiyyətli orqanlara çevrilmədi. Müvəqqəti hökumətin Şimali Azərbaycandakı siyasəti də özünü doğrultmadı, Oktyabr çevrilişi ilə yeni tarixi şərait yarandı.

Bolşeviklər Müəssislər Məclisini buraxdıqdan sonra 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini, başqa sözlə, Zaqafqaziya parlamentini yaratdılar.

Zaqafqaziya seymində Müsəlman fraksiyasını Rusiyanın Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, həmçinin bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Xalqın seçdiyi deputatlardan ibarət olan Zaqafqaziya seyminin Müsəlman fraksiyası, əslində, Zaqafqaziya Müsəlman Şurası idi və bütün Cənubi Qafqazın müsəlman parlamenti funksiyasını yerinə yetirirdi.

Maraqlı və eyni zamanda qanunauyğun hal idi ki, Dövlət dumalarında olduğu kimi, Qafqazın ümumi mənafeyi ilə bağlı məsələlərdə Zaqafqaziya seyminin də ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918 il aprelin 22-də Zaqafqaziya seymi Cənubi Qafqazın müstəqilliyini elan etdi və Zaqafqaziya Demokratik Federativ Respublikası yaradıldı. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə, gürcü nümayəndələr Seymdən çıxdılar və 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

Mayın 27-də Seymin Müsəlman fraksiyasının üzvləri də özlərinin ayrıca iclasını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində, Azər-

baycanın ilk Parlamenti yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu bəy Məmmədbəyov, Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik – Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər bəy Axundov, Məhəmməd Məhərrəmov, Cavad bəy Məlik – Yeqanov və Hacı Səlim Axundzadənin iştirak etdiyi həmin iclasda Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi (Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov səsvermədə bitərəf qaldılar). Həmin dövrdə Əqdnamə və ya Misaqi-milli adlanan bu sənədi Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfı bəy Rüstəmbəyov, Nəriman bəy Nərimanbəyov, Cavad bəy Məlik – Yeqanov, Mustafa Mahmudov imzaladılar.

İstiqlal bəyannaməsi bütün türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılmasından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal bəyannaməsində deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.
6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Göründüyü kimi, bu sənəd dövrün siyasi-demokratik ideallarına tam cavab verirdi.

Azərbaycanın istiqlal mübarizəsi tarixinin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq ulu öndər Heydər Əliyev vermişdir: «Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı».

Azərbaycan Milli Şurası həmin iclasda bitərəf Fətəlİ xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi:

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri;
Xosrov Paşa bəy Sultanov – Hərbi nazir;
Məmməd Həsən Hacınski – Xarici işlər naziri;
Nəsib bəy Yusifbəyli – Maliyyə və xalq maarifi naziri;

Xəlil bəy Xasməmmədov – Ədliyyə naziri;
Məmməd Yusif Cəfərov – Ticarət və sənaye naziri;
Əkbər ağa Şeyxülislamov – Əkinçilik və əmək naziri;
Xudadat bəy Məlik-Aslanov – Yollar və poçt-teleqraf naziri;
Camo bəy Hacınski – Dövlət nəzarəti naziri.

Yenicə yaradılmış Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il mayın 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi. Konstantinopol (İstanbul), Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen və Tokioya göndərilən həmin radioqramlarda, eyni zamanda, bildirilirdi ki, Cümhuriyyət Hökuməti müvəqqəti olaraq Yelizavetpolda (Gəncə) fəaliyyət göstərəcəkdir. Bundan əlavə, xarici işlər naziri M.H.Hacınski Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəydən məxfi teleqramla xahiş etdi ki, Avropa dövlətlərinin paytaxtlarındakı türk səfirlikləri Azərbaycanın həmin ölkələrdəki nümayəndəlikləri funksiyasını da öz üzərlərinə götürsünlər.

Beləliklə, Şimali Azərbaycanda 100 ildən artıq bir dövr ərzində davam etmiş azadlıq mübarizəsi nəticəsində, çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında xalqın qədim dövlətçilik ənənələri yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

Cümhuriyyətin siyasi xadimlərinin çox böyük tarixi xidmətləri bu oldu ki, onlar yurdun şimalında Rusiya işğalından sonrakı dövrdə unutdurulmuş müqəddəs «Azərbaycan» möhürünü xalqa qaytardılar. Xalqın siyasi dirçəldilməsinin təzahürü olan yeni dövlət dünyanın siyasət meydanına «Azərbaycan» adı ilə qədəm qoydu.

Cümhuriyyət xadimləri Azərbaycan tarixində parlament mədəniyyətinin də əsasını qoydular. Onlar İstiqlal bəyannaməsinin 6-cı bəndində «Azərbaycanın başında xalqın seçdiyi Milli Şura

durur» fikrini qanuniləşdirməklə, Milli Şuranın ilk Azərbaycan Parlamenti, onun elan etdiyi Cümhuriyyətin isə Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər.

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun, Cənubi və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı qırğını, soyqırımını davam etdirirdilər. Mart soyqırımı, Şamaxı qırğınları, Quba qırğınları, Naxçıvanda soyqırımı, Zəngəzur qırğınları, Şərqi Anadoluda soyqırımı, Cənubi Azərbaycanda soyqırımı faktlarını qeyd etmək kifayətdir. On minlərlə türk-müsəlman əhalisi ancaq milli və dini mənsubiyyətinə görə qətlə yetirilir və əmlakları talan edilir, yüzlərlə yaşayış məntəqəsi, maddi mədəniyyət abidələri, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mənəvi sərvətlər yerlə-yeksan olunurdu. Azərbaycan xalqının cəlladları olan S.Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən tamamilə məhv edilmək təhlükəsi qarşısında qalmışdı. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət daha da kəskinləşməkdə və bütün Cənubi Qafqaz üçün yeni təhlükə – bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinmək!

Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşən və çıxış yolu tapa bilməyən xalqa layiqincə rəhbərlik edə bildilər.

1918-ci il iyunun 16-da Milli Şura və Hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü. Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ilk Hökumət böhranı baş verdi. Bu zaman Batum müqaviləsinin (1918) şərtlərinə əsasən, soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gələn və artıq Gəncədə olan Qafqaz İslam Ordusunun baş komandanı Nuru

paşa ilə Milli Şura üzvləri arasında fikir ayrılığı yarandı. Hökumətin inqilabi tədbirlər həyata keçirəcəyindən ehtiyat edən Azərbaycan burjuaziyası və mülkədarların işə qarışması nəticəsində Nuru paşa ilə Azərbaycan Milli Şurası və Hökuməti arasında ixtilaf yarandı və bu, vəziyyəti daha da ağırlaşdırdı. Çətinliklə qazanılmış istiqlalın itirilməsi təhlükəsi vardı.

Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməyə məcbur oldu: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni – ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibi belə idi: Nazirlər Şurasının sədri – Fətəli xan Xoyski; nazirlər – Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov, Musa bəy Rəfiyev.

Azərbaycan Milli Şurası çətinliklə əldə olunmuş istiqlalın itirilməsindən ehtiyat edərək, o zaman həm də qərara aldı ki, qısa müddət ərzində Müəssislər Məclisi çağırılmalı, o vaxta qədər isə Fətəli xan Xoyski Hökuməti hakimiyyəti öz əlində saxlamalı, heç kimə güzəştə getməməlidir. Azərbaycan Milli Şurası, eyni zamanda, Hökumətin hüquq və səlahiyyətlərini də dövrün demokratik tələbləri səviyyəsində müəyyənləşdirmişdi. Hökumət Azərbaycanın dövlət müstəqilliyini, mövcud siyasi azadlıqları ləğv edə bilməzdi və aqrar məsələ, həmçinin bunun kimi digər mühüm məsələlər barədə inqilabi qanunları dəyişdirmək hüququna malik deyildi. Qalan məsələlərdə isə Hökumətə müstəqil hərəkət etmək səlahiyyəti verilirdi. Müvəqqəti hökumət altı aydan gec olmayaraq Müəssislər Məclisi çağırmalı idi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti – Azərbaycan Milli Şurası siyasətdə özünün ilk addımlarını atmağa başladı. Mayın 27-dən iyunun 17-dək davam edən və cəmi

20 günlük ilk fəaliyyəti dövründə iki mühüm qərar qəbul edildi: birincisi – Azərbaycanın istiqlalı elan olundu və İstiqlal bəyannaməsi qəbul etdi; ikincisi – Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan Hökuməti formalaşdırıldı və 1918-ci ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı, yəni Azərbaycanın bir hissəsində – Şimali Azərbaycanda respublika quruluşu yaradıldı.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti çox ağır beynəlxalq və daxili şəraitdə, faktiki olaraq, soyqırımı taleyini yaşayan Azərbaycan xalqını tarixin qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu. Vəziyyəti daha da mürəkkəbləşdirən S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin ermənilərdən ibarət silahlı qüvvələrinin Bakıdan Gəncəyə doğru yürüşə başlaması oldu. Artıq Göyçay ətrafında qanlı döyüşlər gedirdi. Belə bir şəraitdə, təcili olaraq, müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökumət yaranmış vəziyyətdən çıxmaq üçün elə ilk günlərdən qəti tədbirlərə əl atmalı oldu. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu Əlahiddə Azərbaycan Korpusuna çevrildi. Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri Hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da, faktiki olaraq, Azərbaycan silahlı qüvvələrinin yaradılması demək idi. İyunun 27-də Azərbaycan–türk dili dövlət dili elan olundu. Dövlət quruculuğu daha da genişləndirildi. Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Milli orduya səfərbərlik keçirildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci Dünya müharibəsi

(1914–1918) dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımı vəhşiliklərini və əhalinin əmlakının talan olunması məsələlərini araşdırıb, cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə, əslində, azərbaycanlılara qarşı soyqırımlara hüquqi qiymət verilməsinin əsası qoyuldu. Bundan əlavə, Hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 1-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında qanun qəbul olundu. Tarixən çox qısa vaxt ərzində həyata keçirilən bütün bu tədbirlərə baxmayaraq, Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini ölkənin bütün ərazisində bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. Bu isə asan məsələ deyildi. Çünki Qafqaz İslam Ordusunun və Azərbaycan Hökumətinin hərbi planlarından xəbərdar olan S.Şaumyan Cümhuriyyət Hökumətinə sərbəstlik imkanı yaratmamaq üçün Bakı Sovetinin, əsasən, ermənilərdən ibarət olan yaxşı silahlanmış bolşevik-daşnak qoşunlarına Gəncə üzərinə yürüş əmri vermişdi. Kürdəmir artıq daşnakların əlinə keçmişdi (1918, 12 iyun). Lakin Göyçay uğrunda gedən qanlı döyüşlərdə türk və azərbaycanlılardan ibarət Qafqaz İslam Ordusu xalq könüllülərinin fəal köməyi ilə bolşevik-daşnak hərbi birləşmələrini darmadağın etdi. İyunun 20-də Şamaxı azad olundu və Bakıya yol açıldı. Türk əsgərlərinin Azərbaycan hərbi qüvvələri ilə birlikdə həyata keçirdiyi müzəffər İstiqlal yürüşünün növbəti hədəfi Bakı idi.

1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İsiam Ordusu və xalq könüllü dəstələrinin birləşmiş qüvvələri Bakını azad etdi. Şəhər S.Şaumyanın bolşevik – daşnak rejimindən sonra hakimiyyəti ələ keçirən və ingilis generalı Denstervilin hərbi qüvvələrinin müdafiə etdiyi daşnak və eser-menşevik törtöküntülərindən – «Sentrokaspi diktaturasından təmizləndi.

1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Cümhuriyyət Hökuməti Bakıya köçdü və Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin siyasi fəaliyyət dairəsi genişləndi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin iyunda qəbul edilmiş dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına sadiq qalan Xoyski hökuməti, eyni zamanda, Müəssislər Məclisinin çağırılması üçün hazırlıq görməyə başladı. Lakin Bakının azad olunması nəticəsində yaranmış əlverişli daxili vəziyyət uzun sürmədi. Birinci Dünya müharibəsində (1914–1918) məğlub olan Türkiyə Mudros barışığına (1918) əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu. Cənubi Qafqaz Böyük Britaniyanın təsir dairəsinə keçdi. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı general Tomsona Bakını tutmaq əmri verildi. İngilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də general Tomsonun hərbi qüvvələri Bakıya daxil oldu. Bakıda Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. Bu fakt Azərbaycanın istiqlalının əleyhinə olan qüvvələri, xüsusən, daşnakları yenidən fəallaşdırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi taleyində belə ağır şəraitin baş verməsinə baxmayaraq, Fətəli xan Xoyski Hökuməti siyasi sabitliyini itirmədi. Dövlət quruculuğu ardıcıl və uğurlu siyasət əsasında davam etdirildi. Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da keçirilən iclasında Azərbaycan parlamentçiliyi tarixinin çox mühüm qərarları qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyəti fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Avropa ölkələri ilə münasibətlərə uyğun demokratik inkişaf yolu tutdu.

19 noyabr tarixli iclasda belə bir demokratik çağırış səslənmişdi: Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət olmadığı üçün Azərbaycan Milli Şurasında qeyri millətlər də təmsil olunmalı, daha doğrusu, Azərbaycan ərazisində yaşayan bütün xalqların nümayəndələri Parlamentdə yer almalıdır. Hətta, sayları çox az olduğundan seçkilərdə iştirak edə bilməyən gürcülər və polyakların da hərəsinin Parlamentdə bir deputatla təmsil olunması qərara alındı. Bu, Azərbaycan elitasının o dövrü üçün çox mühüm dövlətçilik addımı kimi siyasi tolerantlığın bariz təzahürü idi.

Azərbaycan Milli Şurasının 1918-ci il 19 noyabr tarixli iclasının qanununa əsasən, hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman deputat birbaşa yeni yaradılan Parlamentin tərkibinə daxil edildi. Müsəlmanlar üçün nəzərdə tutulmuş boş qalan yerlərə 36 deputat və digər millətlərin nümayəndələri yenidən seçilməli və yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalı idi.

Göründüyü kimi, 1918-ci ilin mart soyqırımından cəmi yarım il keçməsinə baxmayaraq, qanuna əsasən Azərbaycan Parlamentində erməni nümayəndəsinin iştirakı da təmin edilməli idi. Ozamankı tarixi şəraitdə atılan bu addım Azərbaycan xalqının demokratik təbiətinə, insan haqlarına nə qədər dərin hörmətlə yanaşmasına parlaq sübutdur. Bu həmçinin formalaşmaqda olan siyasi elitamızın humanist təbiətindən xəbər verirdi.

1918-ci il dekabrın 7-də saat 13:00-da H.Z.Tağıyevin qızlar məktəbinin binasında (hazırkı Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün demokratik prinsipləri əsasında formalaşdırılmış ilk Parlament idi. Azərbaycan Milli Şurasının 1918-ci il 19 noyabr tarixli qanununa əsasən, Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə seçkilərdə iştirak etmək hüququ olmayan xalqlar da təmsil olunurdular.

Parlamentin açılışında «Müsavat» fraksiyasının təklifi ilə bu zaman səfərdə olan Əlimərdan bəy Topçubaşov (qiyabi olaraq) Parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Rəhim bəy Əlağa oğlu Vəkilov Parlamentin katibi təsdiq olundu. Ə.Topçubaşov Azərbaycanda olmadığı üçün Parlamentin fəaliyyətinə H.Ağayev rəhbərlik etdi. Parlamentin ilk iclasında Fətəli xan Xoyski Hökumətinin istefası qəbul edildi və yeni Hökumətin təşkil olunması qərara alındı. Yeni Hökumətin təşkili yenidən Fətəli xan Xoyskiyə tapşırıldı.

1918-ci il dekabrın 26-da Parlament F.X.Xoyski proqramanı qəbul etdi və onun təşkil etdiyi Hökumətə etimad göstərilməsi barədə qərar çıxardı. Elə həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinə xalqın inamlı dəstəyini görən general Tomson dekabrın 28-də Fətəli xan Xoyski Hökumətini Azərbaycanın yeganə qanuni yerli hakimiyyət orqanı kimi tanıdı.

Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Əsas önəmli hal bu idi ki, bu sahədə qəbul edilən qanun və qərarların müzakirəsində Parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər.

Dünyada beynəlxalq münasibətlərin mürəkkəb şəraitində fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan xalqının milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Bu baxımdan parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Xalqımızın maariflənməsində müstəsna rol oynayan milli universitetin açılması Cümhuriyyət xadimlərinin və milli ziyalıların Azərbaycan cəmiyyəti qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azər-

baycan Xalq Cümhuriyyəti süqut etsə də, milli şüurun formalaşmasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. 1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra Bakı Dövlət Universiteti öz tarixi missiyasını yenə şərəflə davam etdirdi və bu gün də davam etdirməkdədir.

Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Parlamenti və Hökuməti, vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti Hökumətin təklifinə əsasən, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qərar qəbul etdi. Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün xüsusi müsabiqə komissiyası da yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərildi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc isə orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilmədilər.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınmasından ötrü də böyük iş aparırdı. Bununla bağlı Cümhuriyyət Parlamenti 1918-ci il dekabrın 28-də Parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimi Ə.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında iştirak edən müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınmasına nail olsa da, 11-ci Qırmızı ordunun Şimali Azərbaycanı işğal etməsi xəbəri onun bu sahədəki fəaliyyətini yarımçıq qoydu. Əlimərdan bəy Topçubaşov və onu müşayiət edən digər Cümhuriyyət xadimləri bir daha vətənə dönə bilmədilər və siyasi mühacir həyatını yaşamağa məcbur oldular.

Azərbaycan Parlamentinin və Cümhuriyyət Hökumətinin çox mühüm və daim diqqət mərkəzində saxladığı önəmli bir məsələ yaxın qonşularla münasibətləri və sərhəd məsələlərini tənzimləmək olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama salınmışdı. Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan–Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmadı. Bu gün də Ermənistan Respublikası Azərbaycana və Türkiyəyə qarşı yeni ərazi iddiaları irəli sürməkdədir.

Azərbaycan Cümhuriyyəti dövründə İranla da bir sıra müqavilə və sazişlər imzalandı, həmin sənədlər Parlamentdə də təsdiq olundu. 1920-ci ilin martında İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdı.

Azərbaycan Xalq Cümhuriyyəti, ümumiyyətlə, mövcud olduğu qısa tarixi dövr ərzində, son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitdə olduqca fəal xarici siyasət yeritdi. Belə ki, 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycan haqqında xüsusi qərar qəbul edilməsinə nail oldu. Həmin qərara əsasən, konfrans iştirakçısı olan ölkələr Azərbaycanı müstəqil dövlət kimi de-fakto tanıdılar.

Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Belçika, Hollandiya, Yunanıstan, Polşa, İsveçrə, İsveç, Danimarka, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və s. ölkələrlə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər imzaladı.

Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə, Parlamentin 155 iclası keçirilmişdi ki, bunun 10-u Azərbaycan Milli Şurasının (1918, 27 may – 19 noyabr), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (1918, 7 dekabr 1920, 27 aprel) olmuşdur.

Parlamentdə müzakirə üçün 270-dən çox qanun layihəsi təqdim edilmiş, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə olunur, yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi. Bu fakt da parlamentdə demokratik əhvali-ruhiyyənin mövcudluğundan xəbər verir.

Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin və Hökumətinin fəaliyyəti son dərəcə mürəkkəb beynəlxalq və ziddiyyətli daxili şəraitdə keçmişdir. Ozamankı beynəlxalq vəziyyətdə Şimali Azərbaycanın (habelə digər Cənubi Qafqaz respublikalarının) müstəqil dövlət halında yaşaması mümkün deyildi. Bakı neftinə yiyələnməyə can atan və ingilisləri regiondan sıxışdırıb çıxarmağa çalışan Sovet Rusiyası Denikini məğlub etdikdən sonra yerli bolşevik təşkilatlarını səfərbərliyə alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün daxildə geniş pozuculuq fəaliyyətinə başlamışdı. Moskvadan göstəriş alan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası hakimiyyət çevrilişi həyata keçirmək üçün xüsusi qərargah yaratmışdı. Parlamentin və hökumətin fəaliyyətini iflic vəziyyətinə salan «sosialistlər», «Daşnaksutyun fraksiyası», «Erməni fraksiyası», «Slavyan-rus cəmiyyəti» və digər Parlament fraksiyalan sovet-bolşevik müdaxiləsini tezləşdirmək üçün əlverişli zəmin yaradılmasında canfəşanlıq edirdilər. Üstəlik də, Azərbaycandan yeni ərazilər qoparmaq üçün əlverişli məqamın yetişməsini görən ermənilər bolşevik Rusiyası ilə əlbir olaraq Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə birgə plan hazırladılar. Həmin plana əsasən Ermənistan Respublikası Qarabağda və Gəncəbasarda ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı qiyamlarını təşkil etdi və qiyamçılara kömək pərdəsi altında Azərbaycana qarşı müharibəyə başladı. Cümhuriyyət Hökuməti bütün hərbi qüvvələrini Qarabağ cəbhəsinə yönəltməyə məcbur olduğundan ölkəmizin şimal sərhədləri bolşevik müdaxiləçilərinin üzünə açıldı.

Sovet Rusiyası, eyni zamanda, hələ 1918-ci ilin noyabrında Bakını və bütün Cənubi Qafqazı ələ keçirmək üçün konkret hərbi hazırlıq tədbirləri görməyə başlamışdı. Rusiya hərbi-inqilab şurasının qərarı ilə XI və XII orduların, həmçinin Həştərxan Xəzər donanmasının daxil edildiyi ayrıca Xəzər Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi Qafqazı) işğal etmək üçün «Bakı əməliyyatı» adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı. V.İ.Lenin hələ 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermişdi. Martın 30-da isə Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə yaradılmış «operativ qərərgah»ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi ki, «ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq. Hərəkat başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq». İşğal ərəfəsində – aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda (Mahaçqala) XI Qırmızı ordunun komandanlığı, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası nümayəndələrinin müşavirələri keçirildi. Müşavirələrdə açıqlanan birgə əməliyyatlar planına görə aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışı və həmin gün XI Qırmızı ordunun Azərbaycan sərhədini keçməsi nəzərdə tutulurdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir.

İşğalçıların hərbi əməliyyat planına əsasən, müdaxiləçi sovet qoşunları müstəqil Azərbaycanın dövlət sərhədlərini Anadoluda Qazi Mustafa Kamal Paşanın başçılıq etdiyi İstiqlal savaşına «köməyə getmək» pərdəsi altında keçməyi planlaşdırmışdı. İşğalçılar buna əməl etdilər. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə işğalçı XI Qırmızı ordu hissələri müharibə elan etmədən müs-

təqil Azərbaycan dövlətinin sərhədlərini keçdi və Bakıya hücum etdi. Liman şəhəri Bakı dənizdən də mühasirəyə alındı. Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında mühüm obyektləri ələ keçirdilər.

Əslində Azərbaycan Xalq Cümhuriyyətinin devrilmiş olduğu həmin şəraitdə, işğalçıların diktəsi ilə hərəkət edən kommunistlərin nümayəndə heyəti Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum verdi. Bununla əlaqədar olaraq, hələ martın 30-da Nəsib bəy Yusifbəylinin istefasından sonra yeni Hökumətin (VI kabinet) təşkil olunması tapşırılmış Məmməd Həsən Hacınskinin başçılığı ilə xüsusi komissiya yaradıldı. Azərbaycan bolşevikləri ilə sıx əlaqə saxlayan M.H.Hacınski kommunistlərlə danışıqlar apardı. Göstərilən ultimatum və komissiyanın apardığı danışıqların nəticələri Məmməd Yusif Cəfərovun sədrliyi ilə Parlamentin sonuncu (145-ci) iclasında müzakirə olundu. İclas aprelin 27-də axşam saat 20.45-də başlandı və 23.25-dək davam etdi.

Ultimatum barədə məlumat verən M.H.Hacınski bildirdi ki, hakimiyyət bu gün axşam kommunistlərə təhvil verilməlidir; AK(b)P-nin Mərkəzi Komitəsi bildirir ki, əks təqdirdə hakimiyyətin Qırmızı Orduya təhvil verilməsi üçün əlindən gələni edəcəkdir. Kommunistlər həm də xəbərdarlıq edirlər ki, əgər biz bu gecə hakimiyyəti onlara təhvil verməsək, Parlamentdə təmsil olunan siyasi partiyalar, o cümlədən «Müsavat» partiyası qadağan olunacaqdır. M.H.Hacınski həmçinin, məlumat verdi ki, kommunistlər bizim təkliflərimizə baxmaqdan imtina etdilər və xəbərdarlıq etdilər ki, hakimiyyətin könüllü surətdə təslim edilməyəcəyi halda, bunun nəticələri üçün bütün məsuliyyət Parlament üzvlərinin üzərinə düşür. Çıxışının sonunda M.H.Hacınski Parlament üzvlərini mövcud vəziyyətdə «millətin qurtuluşu naminə» düzgün qərar qəbul etməyə çağırdı.

Bununla belə, qan tökülməsinin qarşısını almaq üçün hakimiyyətin yalnız müəyyən şərtlərlə, hər şeydən əvvəl, vətənin müstəqilliyinin saxlanılması şərti ilə kommunistlərə verilməsi razılaşdırıldı. Nəticədə, Parlament səs çoxluğu ilə aşağıdakı şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanının tam istiqlaliyyəti mühafizə edilir;
2. Azərbaycan Kommunist Firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;
3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;
4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;
5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlament və Hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;
6. Qırmızı Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;
7. Yeni hökumət, haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti mühasirə şəraitində keçirdiyi həmin iclasında da özünün demokratik ənənələrinə və istiqlalçılıq ideyalarına sadiq qaldı.

Lakin işğalçılar Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin hakimiyyəti dinc yolla, qan tökülmədən kommunistlərə təhvil vermək haqqında qərarına məhəl qoymadılar. Beləliklə, Sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və XI Qırmızı ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris Sülh Konfransının iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti –

Azərbaycan Xalq Cümhuriyyəti aradan qaldırıldı və onun ərazisi işğal olundu. Azadlığının və müstəqil dövlətinin müdafiəsinə qalxmış xalqın müqavimət hərəkatı qan içində boğuldu. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hakimiyyət strukturları məhv edildi. Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatıldı.

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. «Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitlə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Yusifbəyli, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xududat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Sultanməcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir» (Heydər Əliyev).

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, müsəlman Şərqində, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyəti qısa tarixi bir müddətdə öz fəaliyyəti ilə göstərdi ki, siyasi elita dövlətçiliyin mühüm sütunlarından biridir. Təsadüfi deyildir ki, o, özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə, heç də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədi ilə hələ 1918-ci il avqustun 23-də Əlimərdan bəy Topçubaşovu fövqəladə elçi və səlahiyyətli nazir kimi İstanbula göndərmişdi. Burada o, rəsmi görüşlər keçirmiş, Azərbaycanla bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmışdı.

İstanbulda vəziyyəti müşahidə edən Almaniya nümayəndələri yəqin etmişdilər ki, Azərbaycan Hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək fikrində deyildir. Belə olduqda, onlar Bakı barəsində planlarını reallaşdırmaq üçün Sovet Rusiyası ilə gizli danışıqlara başlamışdılar.

Sovet Rusiyasının işə qarışması isə Azərbaycan Hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Almaniya–Rusiya danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri doğrulmadı. «Sentrokaspi»çilər və avqust ayının əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya – Rusiya danışıqları 1918-ci il 27 avqust sazişinin imzalanması ilə nəticələndi.

İstanbulda olan və Almaniya ilə Rusiya arasındakı gizli sövdələşmədən xəbər tutan Azərbaycan diplomantları 27 avqust sazişi ilə bağlı Almaniyanın Türkiyədəki səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya–Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. 1918-ci

ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edirdi. Sentyabr ayının 15-də Azərbaycan – Osmanlı hərbi qüvvələri Bakını yadellilərdən azad etdilər. Bakının azad edilməsi Tələt paşanın Berlində apardığı danışıqlara müsbət təsir göstərdi. Danışıqlar nəticəsində, sentyabrın 23-də Almaniya-Osmanlı protokolu imzalandı. Protokola görə Almaniya 27 avqust sazişindən imtina etməli oldu. Almaniya Azərbaycanı diplomatik cəhətdən tanıyacağını bildirir, onun müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağına yardım göstərəcəyini vəd edirdi. Türkiyə isə Sovet Rusiyası Azərbaycanın müstəqilliyini tanıyacağı halda, öz qoşunlarını Brest sülhü üzrə müəyyən edilmiş sərhədlərə çəkəcəyini öhdəsinə götürürdü.

1918-ci ilin payızında Almaniya–Türkiyə bloku məğlub oldu. Məğlubiyyət ərəfəsində Azərbaycan Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula gələn Əlimərdan bəy Topçubaşov oktyabr ayında Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. Oktyabrın 30-da yalnız Türkiyə üçün deyil, Azərbaycan üçün də son dərəcə ağır olan Mudros barışığı (1918) imzalandı. Barışığa görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli idi. Türkiyənin nəzarəti altında olan Cənubi Qafqaz dəmiryolu müttəfiqlərin nəzarətinə verilirdi. Türkiyə, eyni zamanda, Bakının müttəfiqlər tərəfindən işğal edilməsinə etiraz etməməli idi. Noyabrın 4-də Əlimərdan bəy Topçubaşov Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası verdi.

Mudros barışığına əsasən, 1918-ci il noyabrın 17-də ingilis generalı U.Tomsonun başçılıq etdiyi müttəfiq qoşunları Bakıya daxil oldular. Bundan əvvəl isə Azərbaycan Hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini yenicə bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciət qəbul etmişdi. Müttəfiqlərin müdaxiləsi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoyurdu. Bakıdakı vəziyyətlə yaxından tanış olduqdan sonra rus və erməni milli şuralarının ciddi səylərinə baxmayaraq, general U.Tomson bildirdi ki, Britaniya komandanlığı Azərbaycan Hö-

kumətinə və onun baş nazirinə böyük hörmət bəsləyir. Çünki Xoyski «Bakıda ən bacarıqlı adamlardan biridir» və yeni koalisiya hökuməti təşkil edilənə qədər onun Hökuməti ölkədə yeganə hakimiyyət olaraq qalır.

## *1.3. Paris Sülh Konfransında Azərbaycanın diplomatik missiyası*

Nəzərdən keçirilən dövrün mühüm əlamətlərindən biri Azərbaycanda yeni tipli diplomatik elitanın formalaşması olmuşdur. Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı bu baxımdan xüsusi mərhələ idi. Paris Sülh Konfransı diplomatiya tarixində – Birinci Dünya müharibəsində (1914–1918) qalib gəlmiş dövlətlərin məğlub dövlətlərlə sülh müqavilələrini hazırlamaq və bağlamaq üçün çağırdıqları beynəlxalq konfrans adlandırılır.Konfrans fasilələrlə 1919-cu il yanvarın 18-dən 1920-ci il yanvarın 21-dək davam etmişdi. Əvvəlcə konfransda 27 dövlətin nümayəndələri iştirak edirdi. Sonra iştirakçıların sayı tədricən artdı. Dövrün ən tanınmış dövlət xadimləri, siyasətçilər, diplomatlar, hərbçilər konfransın rəhbər heyətində və işçi qruplarında təmsil olunurdular. Bu konfrans Avropa siyasi elitası ilə ilk ciddi üzləşmə idi və Azərbaycan siyasətçiləri öz intellektual səviyyələri ilə bu ciddi sınaqdan üzüağ çıxdılar.

Fransanın baş naziri J.Klemanso konfransın prezidenti, ABŞ-ın dövlət katibi R.Lansinq, Böyük Britaniyanın baş naziri D.Lloyd Corc, Orlando (İtaliya) və Sayandzi (Yaponiya) vitse-prezidentlər seçildilər. J.Klemanso, D.Lloyd Corc və ABŞ prezidenti V.Vilsondan ibarət «böyük üçlük» yaradıldı. Onlar – Dördlər və Beşlər Şuraları konfransın əsas işçi orqanları idi. Birinci Dünya müharibəsindən sonra dövrün ən mühüm məsələləri, müharibədən sonrakı yenidənqurma, məğlub dövlətlərlə sülh müqavilələrinin bağlanması, o zaman deyildiyi kimi, «rus məsələsi» və digər məsələlər konfransın gündəliyinə daxil edilmişdi. Onu da qeyd

edək ki, «rus məsələsi»nin qoyulması yeni yaranmış Cənubi Qafqaz respublikalarının konfransda fəaliyyətini məhdudlaşdırırdı.

Dağılmış Rusiya imperiyasının ərazisində yeni yaranmış müstəqil milli dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyəti də dünya dövlətləri tərəfindən tanınmaq, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, respublikanın suverenliyini və ərazi bütövlüyünü təmin etmək baxımından Paris Sülh Konfransına böyük ümid bəsləyirdi.

Azərbaycan hökumətinin nümayəndələri Qafqazdakı müttəfiq qoşunlarının komandanı general V.Tomsonla apardığı danışıqların gedişində Azərbaycanın beynəlxalq sülh konfransında iştirakına təminat almışdılar. Britaniya hökumətinin Bakıya gələn rəsmi nümayəndəsi general Corc Miln də öz bəyanatlarında bunu təsdiqləmişdi. General Tomson Azərbaycan hökumətinə yazılı şəkildə bildirmişdi ki, bütün mübahisəli ərazi məsələləri sülh konfransının qərarı ilə həll ediləcəkdir.

Bu məqsədlə 1918-ci il dekabrın 26-da təşkil olunmuş yeni Azərbaycan hökumətinin ilk addımı dekabrın 28-də Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyənləşdirmək oldu. Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşov sülh konfransına gedəcək heyətin başçısı, Məmməd Həsən Hacınski isə onun müavini təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü – Əhməd Ağayev və Əkbər ağa Şeyxülislamov daxil idi. Mir Yaqub Mehdiyev, Ceyhun Hacıbəyli və Məhəmməd Məhərrəmovdan ibarət məsləhətçilər qrupu da müəyyən olundu.

1919-cu il yanvarın 4-də Bakıdan yola düşən nümayəndə heyəti Tiflisdə və Batumda bir sıra ciddi görüşlərdən sonra yanvarın 20-də İstanbula çatdı. Nümayəndə heyəti ayın 22-də burada Ə.Topçubaşovun sədrliyi ilə ilk iclasını keçirdi və iş bölgüsü apardı. İclasda nümayəndə heyətinin tərkibinə texniki işçilər – ekspertlər (Əli bəy Hüseynzadə və V.Marçevski), katiblər (Səffət Məlikov və Ələkbər bəy Topçubaşov), tərcüməçilər – A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), H.Məmmədov (fransız

və türk dilləri), sədrin şəxsi katibi (Rəşid bəy Topçubaşov) də qatıldılar.

Lakin Azərbaycan nümayəndələri elə ilk gündən Parisə getməkdə ciddi çətinliklərlə üzləşdilər. Nümayəndə heyətinin iki üzvü – Ə.Hüseynzadə və Ə.Ağayev İstanbulda müttəfiqlər tərəfindən həbs edildi. Ə.Hüseynzadəni həbsdən azad etdirmək mümkün olsa da, Parisə getməyə viza verilmədi. Ə.Ağayev isə Malta adasına sürgün olundu.

Azərbaycan nümayəndə heyəti Parisə getmək üçün 3 ay İstanbulda viza gözləməli oldu. Bu müddətdə İstanbulda böyük dövlətlərin ali komissarlarına, Sülh konfransının sədrinə və həmsədrlərinə, digər rəsmi orqanlara müraciət edildi. Nəhayət, Azərbaycan nümayəndələri aprelin 22-də İstanbuldan Parisə yola düşdülər.

Parisə gəldikdən sonra gənc respublikanın diplomatlarının ilk mühüm işi «Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu» adlı sənədi konfransın keçirildiyi ingilis və fransız dillərində hazırlayıb nəşr etdirmək oldu. 50 səhifədən və on dörd bölmədən ibarət olan memorandumda Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, iqtisadiyyatı, müasir durumu haqqında ən ümumi məlumatlar əksini tapmışdı.

Nümayəndə heyəti may ayı ərzində Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər keçirdi. Mayın 23-də ingilis nümayəndə heyətinin üzvü ser Luiz Malletlə görüş oldu. Ayın 28-də, Cümhuriyyətin birinci ildönümü günü ABŞ prezidenti V.Vilson, Ə.Topçubaşov başda olmaqla, Azərbaycan nümayəndələrini qəbul etdi. Ə.Topçubaşov ABŞ prezidentinə Azərbaycan haqqında geniş məlumat verərək, bu barədə müxtəlif arayışları, ölkənin sülh konfransından tələblərini ona təqdim etdi. Altı bənddən ibarət olan bu sənəddə Azərbaycanın müstəqilliyinin tanınması; Vilson prinsiplərinin Azərbaycana da şamil edilməsi; Azərbaycan nümayəndələrinin sülh konfransına buraxılması; Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması; ABŞ hərbi departamentliyinin Azərbaycana hərbi yardım

göstərməsi; ABŞ-la Azərbaycan arasında diplomatik münasibətlərin qurulması xahiş edilirdi.

Danışıqların gedişində Qafqaza xüsusi Amerika missiyası göndərmək barədə razılıq əldə olundu. Lakin bu missiya Bakıya xeyli gec, 1919-cu ilin oktyabrında gəlib çatdı. Azərbaycan nümayəndələrinin prezident V.Vilson tərəfindən qəbul edilməsi diplomatik elitamız üçün Azərbaycan Demokratik Respublikasını tanıtmaq baxımından əhəmiyyətli hadisə idi.

Paris Sülh Konfransının Ali Şurası may ayı ərzində «rus məsələsi»ni iki dəfə müzakirə edərək, 1919-ci il 26 may və 12 iyun tarixli notaları ilə admiral Kolçak hökumətini ümumrusiya hökuməti kimi tanıdı. Parisə gəlmiş yeni dövlətlərin nümayəndələri Kolçak hökumətinin tanınmasını etirazla qarşıladı. İyunun 18-də Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belarusiya və Ukrayna nümayəndələri tərəfindən imzalanmış etiraz Bəyannaməsi ABŞ prezidenti V.Vilsona təqdim edildi.

Parisdə olan Qafqaz təmsilçiləri (Azərbaycan, Gürcüstan, Dağlılar Respublikası) iyunun 15 və 18-də Azərbaycan nümayəndə heyətinin yerləşdiyi «Klaric» mehmanxanasında Denikin təhlükəsini müzakirə etdilər, iyunun 23-də isə sülh konfransına etiraz notası verdilər.

Azərbaycan diplomatlarının qarşısında duran mühüm məsələlərdən biri ermənilərin qondarma «Böyük Ermənistan» iddialarına qarşı mübarizə aparmaq idi. Ermənilər özlərini «böyük müttəfiqlərin kiçik müttəfiqi» hesab edib, Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər «Böyük Ermənistan» yaratmaq xülyasına düşmüşdülər. Onlar nəinki Anadolunun 6 vilayətinə, eyni zamanda, Kilikiyaya, hətta Cənubi Azərbaycanın bir hissəsinə də iddia edirdilər. Paris, London, xüsusilə Vaşinqton onların əsassız iddialarını müdafiə edirdi. Ermənilərin Sülh Konfransına təqdim etdiyi tələblərdə ucsuz-bucaqsız ərazilərlə yanaşı, böyük məbləğdə təzminat ödənilməsi də nəzərdə tutulurdu. Azərbaycan nümayəndə heyəti bu tələblərlə bağlı xüsusi bəyanatla çıxış etdi. 1919-cu ilin iyununda Azərbaycan nümayəndələri İrəvan Müsəlman

Milli Şurasının İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında hazırladığı məlumatı Avropa və Amerika dövlətlərinin Parisdəki nümayəndələrinə çatdırdılar. Məlumatda qeyd edilirdi ki, mübahisəli ərazilər nəzərə alınmadan, azərbaycanlılar Ermənistan əhalisinin yarısını təşkil etsələr də, ən adi insan hüquqlarından məhrumdurlar.

1919-cu ilin yayında Azərbaycan hökumətinin qətiyyəti nəticəsində Qarabağda Azərbaycan Cümhuriyyətinin suveren hüquqları bərpa edildikdən sonra Ə.Topçubaşovun Paris Sülh Konfransının sədrinə təqdim etdiyi məlumatda göstərilirdi ki, «Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökumətinə tabe olması haqqında qətnamə qəbul etmişlər».

Paris Sülh Konfransında müzakirə edilən mühüm məsələlərdən biri də mandatlıq məsələsi idi. Vilson layihəsi əsasında təşkil edilən Millətlər Cəmiyyəti nizamnaməsinin 22-ci maddəsi mandatlıq sisteminin təsis olunması üçün hüquqi baza yaradırdı. Azərbaycanın mandatlıq sisteminə marağı xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. Xüsusilə Azərbaycana formaca fərqli, mahiyyətcə isə eyni münasibət böyük dövlətlərin simasında himayəçi axtarışını zərurətə çevirmişdi. 1919-cu ilin iyul-avqust aylarında Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının Parisdəki nümayəndələrinin Qafqazda Britaniya və İtaliya himayədarlığının perspektivləri ilə bağlı keçirdikləri müzakirələrdə Azərbaycan diplomatları Britaniya təhlükəsizlik sisteminə daxil olmağa daha çox üstünlük verirdilər. Lakin avqustun 25-də ingilis qoşunları Azərbaycanı tərk etdikdən sonra oriyentasiya məsələsi bir daha aktuallaşdı.

Qafqaz və Azərbaycan mandatına maraq göstərən dövlətlərdən biri də ABŞ idi. 1919-cu il iyulun 5-də amerikalı polkovnik Haskel Ermənistana ali komissar təsdiq edildi. Avqustun 28-də Haskel Bakıya gələrək, baş nazir Nəsib bəy Yusifbəyli ilə danışıqlarda Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etməklə yanaşı, Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaratmaq ideyasını da irəli sürdü. Bu ideya Azərbaycan hökuməti, yerli əhali, son nəticədə, sülh konfransı

tərəfindən qəbul olunmadı. Parisdə olan Ə.Topçubaşov bu məsələ ilə bağlı sülh konfransının sədrinə etiraz notası təqdim etmişdi.

Vudro Vilsonun tapşırığı ilə 1919-cu ilin payızında general Harbordun başçılığı ilə Anadoluya və Cənubi Qafqaza missiya göndərildi. Amerika missiyası İrəvan və Tiflisdən sonra, oktyabrın əvvəllərində Bakıya gələrək, baş nazir N.Yusifbəyli və digər rəsmi şəxslərlə görüşlər keçirdi. Oktyabrın 16-da Parisə qayıdan Amerika missiyası ABŞ Dövlət Katibinin müavini F.Polka, az sonra Dövlət Departamentinə və prezident V.Vilsona geniş hesabat təqdim etdi. Bu hesabat Qafqaz mandatının götürülməsinin əleyhinə idi. 1919-cu ilin payızında Versalda olan bağlı diplomatlarımız Azərbaycan həqiqətləri ilə təbliğat işlərini xeyli genişləndirdilər. ABŞ-da lobbi qrupunun yaradılması istiqamətində ilk addımlar atıldı. Ağqvardiyaçı rus generallarının məğlubiyyətindən sonra, 1919-cu ilin payızından başlayaraq Versal Ali Şurasının, xüsusilə Böyük Britaniyanın Qafqaza, ilk növbədə, Azərbaycana marağı xeyli artdı. Böyük Britaniyanın baş naziri 1919-cu ilin noyabrında parlamentin icmalar palatasındakı çıxışında Azərbaycanın və Gürcüstanın tanınması ideyasını irəli sürdü. 1919-cu ilin noyabr-dekabrında beynəlxalq şəraitin yeni yaranmış dövlətlərin xeyrinə dəyişdiyini nəzərə alaraq, Azərbaycan siyasi xadimləri respublikanın Millətlər Cəmiyyətinə qəbul olunması barədə memorandum hazırlayıb cəmiyyətin katibliyinə təqdim etdilər.

1920-ci ilin yanvarında Qafqazda bolşevik təhlükəsinin reallaşması Antanta dövlətlərini ciddi düşünməyə vadar etdi. Öz sərvətləri ilə zəngin olan Azərbaycanın müstəqilliyinin tanınması təxirəsalınmaz vəzifəyə çevrildi. Bu məqsədlə Böyük Britaniya tərəfinin təşəbbüsü ilə yanvarın 10-da Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Fransa Xarici İşlər Nazirliyində keçirilən sessiyada Cənubi Qafqaz dövlətlərinin məsələsi çox geniş müzakirə edildi. Böyük Britaniyanın baş naziri D.Lloyd Corc Qafqazdakı vəziyyət barədə ətraflı məlumat verdi. Yanvarın 11-də Versal Ali Şurasının iclasında Böyük Britaniyanın xarici işlər naziri C.Kerzonun təklifi ilə Ali Şura Azərbaycanın müstəqilliyini

de-fakto tanıdı. Ali Şuranın qərarında deyilirdi: «Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar». 1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində sovet Rusiyasının hərbi uğurları nəticəsində Denikin qüvvələri darmadağın edilmişdi. Qırmızı ordu hissələri Şimali Qafqaz ərazisinə soxularaq, sürətlə Cənubi Qafqazdakı müstəqil dövlətlərin sərhədlərinə yaxınlaşırdı. «Dünya inqilabı» şüarını xarici siyasət fəaliyyətinin əsas prinsipinə çevirmiş sovet Rusiyası 1920-ci ilin əvvəllərindən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinə diplomatik təzyiqləri daha da artırmışdı. Yeni yaranmış digər gənc dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyətinin də bolşevik təhlükəsinə qarşı təkbaşına mübarizə aparması qeyri-mümkün idi. Görkəmli diplomat Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransında (1919–1920) iştirak edən siyasətçilərimiz böyük dövlətlərdən Azərbaycan Xalq Cümhuriyyətinə dərhal hərbi yardım göstərməyi xahiş etmişdilər. Böyük dövlətlərin başçıları aydın dərk edirdilər ki, sovet Rusiyasının təcavüzü təhlükəsi qarşısında Azərbaycanın və Gürcüstanın diplomatik baxımdan tanınması hələ kifayət deyildir. Bolşevizmin Yaxın və Orta Şərq ölkələrinə yayılmasının qarşısını almaq üçün, Azərbaycan və Gürcüstana hərbi yardım göstərilməsi böyük dövlətlərin də maraqlarına cavab verirdi. Beləliklə, 1920-ci il yanvarın 15-də Versalda toplanmış hərbi eskpertlər şurası Azərbaycana və Gürcüstana hərbi yardım göstərilməsi məsələsini müzakirə etdilər. Məsələnin ciddiliyini nəzərə alan Böyük Britaniya özünün yüksək rütbəli hərbçilərini – hərbi nazir U.Çörçilli, imperiya baş qərargahının rəisi feldmarşal H.Vilsonu, admirallığın birinci lordu U.Lonqu, admiral lord Bittini və b. Parisə göndərmişdi. Fransanın baş naziri J.Klemansonun tapşırığı ilə Fransa Xarici İşlər Nazirliyinin baş katibi Jül Kambon həmin gün Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşərək, onların bolşevik təcavüzü təhlükəsi ilə əlaqədar fikirlərini öyrənmişdi. Kambon bu respublikaların hərbi, maliyyə və b. yardımlara ehtiyacları olması barədə Klemansoya məlumat versə də, Klemanso həmin məlumatları qənaətbəxş

hesab etməmiş və yanvarın 16-da hərbi ekspertlərin onun sədrliyi ilə keçirilən müzakirələrin yanvarın 17-də H.Vilsonun sədrliyi ilə aparılacaq iclasda, Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə davam etdirilməsini zəruri saymışdı. Yanvarın 17-də keçirilən iclasda isə Azərbaycana və Gürcüstana yardım göstərilməsi məsələsi müzakirə olunsa da, müttəfiqlərin Qafqaza hərbi qüvvə göndərməsi məsələsinə toxunulmadı. Yanvarın 19-da İngiltərə, Fransa, İtaliya və digər dövlətlərin hökumət başçılarının iştirakı ilə Paris Sülh Konfransı Ali Şurasının iclasında Cənubi Qafqaz respublikalarının vəziyyəti müzakirə olundu. Marşal F.Foş müttəfiqlərin hərbi ekspertlər şurasının məruzəsi ilə çıxış etdi. İclasda ciddi mübahisə doğuran məsələ bu respublikalara göstəriləcək yardımın hansı formada və səviyyədə olması ilə bağlı idi. F.Foş, H.Vilson, U.Çörçill, J.Klemanso Cənubi Qafqaza ordu göndərilməsində israrlı olduqları halda, Böyük Britaniyanın və İtaliyanın baş nazirləri Lloyd Corc və Nitti yalnız hərbi sursat verilməsini zəruri hesab edirdilər.

Lloyd Corcun Azərbaycana və Gürcüstana göndəriləcək yardımla bağlı sualına hər iki nümayəndəlik adından İ.Sereteli cavab vermişdi. O, bildirmişdi ki, müttəfiqlərin yardımına böyük ehtiyac var və daha faydalı olardı ki, ordu göndərilsin. Lloyd Corcun Azərbaycanın silahlı qüvvələri haqqında sorğusuna cavab verən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin müşaviri M.Məhərrəmov zəruri silah-sursatın olacağı təqdirdə Azərbaycanın qısa müddətdə 100 min nəfəri orduya səfərbər edə biləcəyini bildirmişdi. Əlimərdan bəy Topçubaşov isə Ənzəlidəki ingilis donanmasının Bakının müdafiəsinə mühüm yardım göstərə biləcəyini nəzərə çatdırmışdı.

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin siyasi cəhətdən tanınması Ə.Topçubaşov başda olmaqla, bütövlükdə,Azərbaycan diplomatlarının – Cümhuriyyət hökumətinə başçılıq edən siyasi elitanın uğurlu fəaliyyətinin nəticəsi idi. Beləliklə, Azərbaycan Versal Ali Şurasının tanıdığı ilk türk və müsəlman respublikası oldu.

Cənubi Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasının müttəfiqlər tərəfindən de-fakto tanınması təklif olundu. İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaza ordu göndərilməsinin qeyri-mümkünlüyünü, yardımın yalnız silah-sursat formasında olmasının vacibliyini bildirdi. O, açıq bəyan etdi ki, bu respublikalar hərbi qüvvələrini möhkəmləndirmək üçün özləri ciddi tədbirlər görməlidirlər. 19 yanvar iclasında Qafqaz məsələsinə dair 4 bənddən ibarət qərar qəbul olundu: 1) Ermənistan və Dağıstan de-fakto tanınmalıdır. Qərar Türkiyə ilə bağlı aparılacaq müzakirələrdə Ermənistanın sərhədləri məsələsinə toxunmur; 2) Müttəfiq dövlətlər Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik deyillər; 3) Müttəfiqlər Cənubi Qafqaz respublikalarına silah, hərbi sursat və ərzaq göndərməklə yardım göstərəcəklər; 4) Marşal Foşdan və Feldmarşal Vilsondan Cənubi Qafqaz respublikalarına göndəriləcək hərbi sursatın konkret şəkildə nədən ibarət olacağı və hansı yolla çatdırılacağı məsələlərinə baxmaları xahiş edilirdi.

Paris Sülh Konfransı Ali Şurasının 1920-ci il 19 yanvar tarixli bu qərarı ilə müttəfiqlər, əslində, Azərbaycana və Gürcüstana bolşevik təcavüzü qarşısında kömək göstərmədilər. Bu məsələni daim diqqət mərkəzində saxlayan sovet Rusiyası Parisdə aparılan müzakirələrin məhz bu cür sonluqla bitməsini razılıqla qarşıladı. Bu qərarla böyük dövlətlər Sovet Rusiyasının keçmiş çar Rusiyası sərhədlərini yenidən bərpa etmək səylərini de-fakto tanımış oldular. Qərar Azərbaycan və Gürcüstanın müstəqil dövlətlər kimi aradan qaldırılmasına yol açdı. Heydər Əliyev də təcrübəli siyasətçi kimi başa düşürdü ki, yeni siyasətin-islahatlar siyasətinin dəqiq ünvanı belədir. Bu proseslərin sabitliyinə inam sadəcə xəyalpərvər nikbinlik, müasir siyasi dəbə haqq qazandırmaq deyildir. O, sivil ümumdünya cəmiyyətinin yaradılması yolunda sülhü daha da möhkəmləndirən obyektiv meyillərə əsaslanırdı. Müasir Azərbaycan da öz müstəqil dövlətçiliyini belə bir beynəlxalq reallıqlar şəraitində qorumalı və inkişaf etdirməli idi.

# II FƏSİL

## 14 İYUL 1969-cu İL – MİLLİ-SİYASİ İNTİBAHIN BAŞLANĞICI

*Azərbaycan xalqının etimadını qazanaraq prezident seçilməyimi və müstəqil Azərbaycana bu ağır dövrdə prezidentlik etməyimi əvvəlki dövrlərdəki rəhbərliyimdən şərəfli və qiymətli hesab edirəm.*

**Heydər Əliyev**
*Ümummilli lider*

### *2.1. Azərbaycanda müasir siyasi elitanın formalaşması xüsusiyyətləri*

Danılmaz həqəqətdir ki, müasir Azərbaycan Respublikası hazırkı iqtisadi-siyasi gücü və zəngin potensialı ilə Heydər Əliyevin şah əsəridir. Amma unutmaq olmaz ki, bu şah əsər indiki halına birdən-birə gəlib çatmamışdır.Bu nəticənin arxasında uzun illərin əzabları – yuxusuz gecələr, gərgin təşkiltaçılıq, təbliğatçılıq və filosof əməyi dayanır.

Müasir Azərbaycanda milli elitanın formalaşmasının öz spesifikası vardır. Politoloji ədəbiyyatda bu prosesin üç mərhələsi göstərilir. Ötən əsrin 70-ci illərində, Heydər Əliyevin təşəbbüsü ilə minlərlə gənc azərbaycanlı təhsil almaq üçün Sovet İttifaqının müxtəlif şəhərlərinə göndəriləndə, o dövrdə ölkəmizin iqtisadi, mədəni, yaradıcı, hərbi, siyasi elitasının formalaşmasına böyük ehtiyac duyulurdu. O dövrdə sovet rejiminin qeyri-rus xalqlarına münasibəti baxımından qəbul edilən qərarların icrası zamanı siyasi-ideoloji çətinliklərlə üzləşilirdi. Məhz Heydər Əliyevin yaxından iştirakı ilə qəbul edilən siyasi əhəmiyyətli qərarlar kadrların yetişdirilməsi, rotasiyası, əvəzlənməsi və dövlət qulluğunda işə yeni, intellektual və bacarıqlı gənclərin cəlb olunması

prosesinə təkan verdi. Siyasət meydanında ilk addımlarını atan hər bir azərbaycanlı kadra milli dəyər kimi yanaşan Heydər Əliyevin xidmətlərindən biri də onun gənclərimizin orduda xidmət etdikləri vaxt, onların əsasən, tikinti sahələrinə və ya yardımçı işlərə göndərilməsi «ənənə»sinə son qoyması oldu. O, qətiyyətli mövqeyi sayəsində azərbaycanlılar arasından müxtəlif qoşun növləri üçün zabitlər hazırlanmasına nail ola bilmişdi.

Ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq sovet Azərbaycanında Heydər Əliyevin davamlı fəaliyyəti nəticəsində kadr siyasətinin çox mühüm bir istiqaməti formalaşmışdır. Dövrün siyasi idarəçilik qaydalarına uyğun keçmiş komsomol və məsul partiya işçiləri özlərinin bilik və təcrübələri çərçivəsində Azərbaycanda ən yüksək vəzifələrə irəli çəkilmiş, sonralar isə siyasi elitanın əsas özəyini təşkil etmişlər. Biz bununla heç də devrilmiş sovet rejiminin üstünlüyünü qeyd etmək niyyətində deyilik. Əksinə, sovet Azərbaycanının rəhbərliyinin müdrikliyi bunda idi ki, o, dövrün öz xüsusiyyətlərindən çıxış edərək idarəçilərin yeni elitasının yaradılması üçün zaman kəsiyinin keçilməsini və Azərbaycan gənclərinin – gələcəyin milli elitasının nümayəndələrinin intellektual səviyyəsinin artırılmasına yönəlmiş bir sıra idarəçilik prinsiplərinin təkmilləşdirilməsinin vacibliyini başa düşürdü.

1987-ci ilin axırlarında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən kənarlaşdırılandan sonra kadr siyasətində əldə edilmiş pozitiv təcrübəyə biganə yanaşıldı. Kremlin elitası ilə Azərbaycan hakimiyyətinin əvvəlki əlaqələri qırıldı. Bizcə, məsələnin belə konfliktli vəziyyətə düşməsi xeyli dərəcədə siyasi təfəkkürün zəifliyi və bu fenomenin dövlətçiliyin yaradılması və idarə edilməsi üçün həddindən artıq vacib olmasının başa düşülməməsi ilə bağlı idi.

Hazırda Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan hökumətinin kadr siyasəti cəmiyyətin inkişaf təkamülünün müəyyən edilməsinə simmetrik yanaşmaya əsaslanır. Başqa sözlə desək, kadrların yeni, intellektual və müstəqil düşüncəli insanlarla

əvəz edilməsinin təkamül xarakteri əvvəlki nəsillərin ənənələrinin və təcrübəsinin qəbul olunması, onlara hörmət edilməsi, müasir inkişafın və postmodernist məntiqin tələblərinə uyğun olaraq yenilik gətirən ideyaların tətbiq edilməsi prinsipi əsasında qurulur. Artıq danılmaz faktdır ki, vərdiş olunmuş normaları bir anda dəyişmək mümkün deyildir. Belə bir transformasiya üçün vaxt və qüvvə, dövlətin və cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsində dövrün siyasi reallıqlarının nəzərə alınması tələb olunur.

Bu gün ölkəmizin innovasiyalı inkişafına keçidin zəruriliyi məsələsi çox ciddi problem kimi ortaya qoyulmuşdur. Bu kontekstdə innovasiyanın inkişafı üçün insan kapitalının reallaşdırılmasına, ümumi rifah səviyyəsini təkmilləşdirmək məqsədi ilə insanların potensial imkanlarından səmərəli istifadəyə əsaslanan strategiyanın işlənib hazırlanmasına ehtiyac duyulur. Belə qərarları qəbul etmək səlahiyyətinə malik müasir hakim elitanın üzərinə düşən vəzifə kontekstində XXI əsrdə innovasiyalı inkişaf prosesi iki istiqamətdə başa düşülür: innovasiya layihələrini reallaşdırmaq və innovasiya potensialının inkişafı. Cəmiyyətdə innovasiya mədəniyyətinin istənilən səviyyədə olmaması innovasiya durğunluğu kimi arzuedilməz vəziyyət yaradır. Hər cür innovasiya inkişafı yalnız əsas innovasiya prosesi deyil, həmçinin onun həyata keçirilməsi üçün vacib olan faktorlar və şəraitin inkişafıdır, yəni innovasiya prosesinin inkişafıdır. Ölkəmizdə innovasiyanın başlıca funksiyası Azərbaycanın siyasi, iqtisadi və sosiomədəni institutlarını modernləşdirməkdən ibarətdir. Həm də bu proses bütün sahələrdə kompleks yanaşma nəzərə alınmaqla getməlidir. Bilməliyik ki, Azərbaycanın ən cəlbedici ölkəyə çevrilə bilmək potensialı var və çevrilməlidir. Elitanı bu gün təmsil edən və sabah təmsil edəcək insanların məsuliyyətinin mahiyyəti məhz bundan ibarətdir.

Əgər azad insanın inkişafı dövlətimizin qəti prioritetidirsə, deməli, gənc nəslin təhsil səviyyəsinin artırılması millətin özünü qoruyub saxlamasının və təkmilləşdirməsinin vacib şərtidir.

Bizcə, başlıca amil gənc, kreativ və intellektual insanların istedadından istifadə edilməsi, dövlətin innovasiyalı inkişafının və həyata keçirilən siyasətin varisliyinin təmin edilməsi qabiliyyətidir. Ona görə də, milli təhsil sistemi müasir dövrün tələblərini və standartlarını, yeni nəslin yetişdirilməsinə və tərbiyə olunmasına zəruri olan bilikləri və texnologiyaları, dünyada cərəyan edən ümumi meyillərə müvafiq olan metodları əhatə etməlidir. Bilməliyik ki, hər bir yaradıcı gəncin zəkası və intellekti ona sosial qrupların digər üzvlərindən fərqlənmək, öz potensialını dövlətin milli inkişafı naminə reallaşdırmaq imkanı verir.

Yalnız belə yanaşıldıqda ölkədə həm yeni hakim elitanın, həm də əks elitanın formalaşmasına şərait yarana bilər. Çünki aydın məsələdir ki, Azərbaycan cəmiyyətində baş verən transformasiya prosesləri şəraitində elitanın strukturlaşması perspektivdə indiki elitanı əvəz etməli olan gələcək nəsillər üçün baza yaradır. Sabah milli elitanı təmsil edəcək insanlar arasında, sözsüz ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə bu gün xaricdə təhsil alan və ya gələcəkdə təhsil almağa göndəriləcək 5000 gəncin bir qismini də görəcəyik. Ona görə də, ölkə Prezidenti bu nəcib işə rəvac verərək, yeni siyasi, iqtisadi, mədəni, intellektual elitanın formalaşmasının Azərbaycanın sivilizasiyalı gələcəyi üçün vacibliyini və aktuallığını nəzərə almışdır.

Prezident İlham Əliyevin milli idealının əsasında belə bir nəcib məqsəd durur: Azərbaycan elə bir sosiomədəni məkana çevrilməlidir ki, burada hər bir azərbaycanlı özünün inkişafı üçün imkanlarını və arzularını reallaşdıra bilsin. Əlbəttə, biz heç də cənnət yaratmaq xülyasında deyilik, lakin reallıqlarımızdan çıxış edərək dərk etməliyik ki, fərdin özünü yalnız peşəkar və yaradıcı baxımdan reallaşdırması, prinsipial məsələlərdə özünə sağlam tənqidi mövqedən yanaşması istedadlı gəncin siyasətə qoşulmasında mühüm addımdır.

Dövlət qulluğunda çalışan təcrübəli kadrlar etiraf edirlər ki, Prezident Aparatında rəhbər strukturlarda işləməyə başlayanların əksəriyyəti 26-36 yaşlarında cavanlardır. Onlar üçün dövlət işi

Qərbin transmilli korporasiyaları ilə orta və ya uzunmüddətli müqavilədən daha maraqlıdır. Prezident İlham Əliyev öz qabiliyyətini xarici şirkətlərdə sınayan insanların istedadına qayğı ilə yanaşmaqla yanaşı, hər bir gənci dövlət idarəçiliyi işinə hazırlamağı da öz konsepsiyasında ön plana çəkir. Onun fikrincə, sağlam ambisiyalı gənclərin özlərindən yaşca böyük və daha təcrübəli olanlarla rəqabət aparmaq istəyini idarəçilik baxımından düzgün qiymətləndirmək lazımdır. Belə gənclər dövlət qulluğuna təzə, faydalı yeniliklər gətirə bilərlər. İdarəçilikdə məhz belə gənclərə arxalanmaqla inkişafa mane olan çox əngəlləri aradan qaldırmaq mümkündür. Dövlətimizin gələcəyi üçün belə gənclər nəinki örnək ola, hətta sağlam elitanın özəyi statusuna yiyələnə də bilərlər.

Milli elitanın əsas missiyası dövlət müstəqilliyini, mədəni-tarixi dəyərləri, cəmiyyətin milli identikliyini qoruyub saxlamaqdan ibarətdir. Lakin bütün bunlar yalnız o zaman mümkün ola bilər ki, milli elita öz millətini dünyadakı inkişaf mərhələsinə uyğun olan iqtisadi, sosial və hərbi-siyasi mövqelərlə təmin edə bilsin. Elitanın fəaliyyətinin əsas mənası, öz amalını millət və dövlət qarşısında məsuliyyət kimi ifadə etməsidir.

Qloballaşma prosesləri dünyanın mənzərəsini sürətlə dəyişdirir və belə bir şəraitdə dinamik qlobal transformasiyaların mahiyyətini dərk edərək qlobal düşünüb, lokal hərəkət edən kreativ insanların rolu daha real əhəmiyyət kəsb edir. Eyni zamanda, nəzərə alınmalıdır ki, yeni idarəçilərin keyfiyyəti zamanın tələblərinə, həmçinin dərin qloballaşma, postsənaye dəyərlərinin gözə görünməyən təzyiqi şəraitində sürətlə inkişaf etməkdə olan yüksək texnologiyaların meyarlarına müvafiq olmalıdır.

Bəşəriyyətin tarixi təcrübəsi göstərir ki, müxtəlif dövrlərdə elitanın rolu cəmiyyətin vəziyyətini, onun transformasiya dinamikasını müəyyənləşdirir. Bir daha aydın olur ki, cəmiyyətin daxili və xarici dəyişikliklərinin əsas istiqamətləri elitanın fəaliyyəti, intellekti ilə bağlıdır. 1993-cü ildən 2003-cü ilə qədər milli elitanın rolu ölkədə xaosu aradan qaldırmaq, onu parçalanmaqdan

qorumaq məqsədi ilə mürəkkəb, qeyri-standart qərarlar qəbul etməkdən, inkişaf strategiyasını işləyib hazırlamaqdan, sabitliyə nail olmaqdan, ümumi maliyyə çətinliklərini aradan qaldırmaqdan, asayişi və qanunçuluğu bərpa etməkdən, ölkənin idarə olunmasında dövlət institutlarının rolunu artırmaqdan, cəmiyyətin sosial-siyasi həmrəyliyini təmin etməkdən ibarət idisə, bu gün elitanın missiyası yeni tələblər irəli sürən şəraitin ümumi mənzərəsindən çıxış edərək, əhəmiyyətli dərəcədə yeniləşmiş, transformasiya etmişdir. Buna müvafiq olaraq, o dövrdə təkcə siyasi elitanın deyil, bütövlükdə milli elitanın formalaşması da məhz xalqımızı və ziyalılarımızı düşündürən məsul vəzifələrin həlli nəzərə alınmaqla baş verir, bunun üçün gərgin düşüncə, siyasi iradə, çeviklik, həssaslıq, yüksək məsuliyyət hissi, müdriklik və istedad tələb olunurdu. Bütün bunlar müstəqil dövlətin qurulması strategiyasını düzgün müəyyənləşdirməyə və dövlətçiliyin möhkəmləndirilməsini təmin edən səmərəli institusional bazanın təməlini qoymağa imkan verirdi. Bu, dialektik bir proses idi.

Ölkəmizin bu mürəkkəb tarixi dövrün yeni ziyalı nəslinin düşüncə obyekti olmuşdu. Təkcə daxili deyil, həm də xarici xarakterli bir sıra ciddi problemləri, həmçinin iqtisadi inkişafın çatışmazlıqlarını və sosiomədəni transformasiyanın çətinliklərini nəzərə almaq vacib idi. Belə ki, Azərbaycan cəmiyyəti bir sıra siyasi, iqtisadi və sosiomədəni problemlər kontekstində transformasiya proseslərinə hazır olmaması faktı ilə üzləşdi. Cəmiyyətimiz çoxdan can atdığı müstəqilliyə nail olsa da, müstəqillik suveren inkişafın başqa amillərini üzə çıxarmışdı. Hakimiyyətin prosesləri idarə etməyə qabil olan səmərəli dövlət idarəçiliyi sistemini yaratmaq, yaxud qondarma «demokratikləşmə»nin cəmiyyət daxilində qarşılıqlı münasibətlərin prinsiplərinin müəyyənləşməsi üçün mümkün variantları arasında seçim etmək lazım gəlirdi. Bəzi dövlətlərin təcrübəsi göstərir ki, müstəqil dövlətçiliyin təşəkkülü dövrlərində mərkəzləşmiş və güclü hakimiyyətin olmaması mərkəzdənqaçan qüvvələrin fəallaşmasına şərait yaradır. Bunun nəticəsində isə hakimiyyətin nüfuzu və dövlətin imici itirilir. Məhz

buna görə də ötən əsrin 90-cı illərində – Heydər Əliyevin hakimiyyətdə olduğu ölkəmizin ali idarəedici təbəqəsini təmsil edən elita bütünlüklə dövlət hakimiyyətinin bərpasına, dövlətə zidd silahlı qruplaşmalara, hakimiyyətsizlik, anarxiya və özbaşınalıq dövrünün mənfi nəticələrinə qarşı mübarizəyə səfərbər edilmişdi.

Azərbaycanda hakim elita başa düşürdü ki, ölkədə bir neçə il davam etmiş anarxiya və ixtilaflar dövründən sonra inkişaf vektorunu tez bir zamanda kökündən dəyişmək, siyasətçilərin tez bir vaxtda başqaları ilə əvəzlənməsi olduqca çətin işdir. Yeni təfəkkürlü, qabiliyyətli və peşəkar kadrların idarəetmə sisteminə mərhələlərlə cəlb edilməsi ilə məşğul olmaq lazım idi. Akademik Ramiz Mehdiyev düzgün olaraq belə qeyd edib: «Buna görə də tələsməmək, əvvəlki iqtidarın vəzifəyə təyin etdiyi bir sıra şəxslərə «möhlət vermək» və onların əslində kim olduğunu cəmiyyətə göstərmək üçün tələsmədən hərəkət etmək lazım gəlirdi». O dövrdə elitanın bütün qrupları başa düşmürdü ki, vətəndaşların səbri tükənməz deyil və bu şəraitdə cəmiyyət həmin qruplar arasında gedən «tayfalararası dava» kimi problemli bir dövrdən keçməli idi.

Heydər Əliyevin kadr təyinatına önəm verdiyini, kadr seçiminə nə qədər diqqətlə yanaşmasını onunla sıx təmasda olan elita nümayəndələri yaxşı bilirlər. Onun kadr siyasəti dövlətçiliyin formalaşmasının başlanğıc mərhələsində vəzifəyə yeni təyin olunanların səmərəli işini təşkil etməyə, eyni zamanda, kadr ehtiyatı perspektivləri barədə düşünməyə imkan verirdi. Lakin təcrübə bunu da göstərirdi ki, kadrların heç də hamısı hakimiyyət sınağından uğurla çıxmır, tələblərə cavab vermir və qarşılarında qoyulan vəzifələri səmərəli şəkildə yerinə yetirə bilmirdilər. Hər halda ictimaiyyətə bu və ya digər vəzifədə çalışarkən işində kobud nöqsanlara və səhvlərə yol verənlərin adları məlumdur. İnsanın özü fəlsəfi baxımdan mürəkkəb bir sistemdir, ona görə də təəssüf ki, onu bütünlüklə tanımaq asan məsələ deyildir. Bütün bunlara baxmayaraq, kadr siyasətinin mahiyyəti obyektiv olaraq Azərbaycan cəmiyyətinin inkişaf dinamikasına cavab verməyənləri üzə çıxarmaqdan və

onları yeni, daha bacarıqlı və bilikli kadrlarla əvəz etməkdən ibarət idi.

Heydər Əliyevin hakimiyyəti illərində – bu isə bir epoxadır – siyasi elitanın təkamülü kadrlarda dövlətçilik təfəkkürünün gücləndirilməsi meyli ilə səciyyələnirdi, eyni zamanda, onun məqsədi bütün cəmiyyətin birliyinə nail olmaq idi. Qloballaşma əsrində nüfuzlu dövlət hakimiyyəti sistemi qurmaq üçün ilk növbədə təsirli idarəetmə mexanizminin təməlini qoymaq, qarşıdakı islahatların və dəyişikliklərin institusional bazisini yaratmaq, cəmiyyətin inkişaf strukturunu formalaşdırmaq və təkmilləşdirmək ön plana çəkilmişdi. Başqa sözlə, Prezidentin təyin etdiyi məsul işçilərin siyasi uzunömürlülüyü, onun komandasının fəaliyyət səmərəliliyi qarşıda duran vəzifələri düzgün təyin etmək və bacarıqlı komanda seçmək səriştəsindən asılı idi. Bu kontekstdə dövlətçiliyin möhkəmləndirilməsinin artıq növbəti mərhələsində obyektiv olaraq kadr təyinatlarının keyfiyyət probleminin həllinə olan tələblər daha yüksək idi.

Sovet dövründə Heydər Əliyevlə, habelə müstəqillik əldə edildikdən sonra yeni dövrün gənc və intellektual, kommunizmin və «sosialist inqilabı»nın təsiri altında olan nümayəndələri ilə çiyin-çiyinə işləyənlərin çoxuna yeni dövlətçiliyin qurulmasında iştirak etmək imkanı verilmişdi. Bəzən qeyri-populyar qərarlar qəbul etməyin vacib olduğu yeni şəraitdə həmin gənclərin çoxu özünü doğrultdu.

70-ci illərdə olduğu kimi, ötən əsrin 90-cı illərinin ortalarında da Heydər Əliyevin komandasında kadr dəyişiklikləri və təyinatlar başlananda ilk növbədə vicdanlılığı və dövlətçilik ideyalarına sədaqəti şübhə doğurmayan insanlara ehtiyac duyulmuşdu. Dövlətçilik ideyalarından bəhs edərkən bu məsələ başqa cür deyil, məhz bu şəkildə başa düşülməlidir: o dövrdə heç kəs və heç vaxt hakimiyyətdə olanlara sədaqət barədə danışmırdı, hərçənd, dövlət strukturlarında çalışanlar üçün ləyaqət və loyallıq həmişə prioritet məsələ olmuşdur və indi də belədir. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə və indi İlham Əliyevin prezidentliyi dövründə dövlətçilik etikası üçün vacib olan yalnız dövlətçiliyə, Vətənə

sədaqət, əməksevərlik və məsuliyyət, təşəbbüskarlıq və təvazökarlıq kimi keyfiyyətlər prioritet məsələlərdir və bunlar millətin və dövlətin maraqlarını qəti şəkildə həmişə öz mənafeyindən və xeyrindən üstün tutmaq deməkdir. Müasir Azərbaycan elitasının yerinin və rolunun başa düşülməsinin başlıca meyarı məhz budur. Elita o şəxslərdən ibarətdir ki, onlar üçün Azərbaycan təkcə hamıya məlum olan «Odlar yurdu», doğulduğu yer, insana çörək və iş vermiş torpaq, dostların və qohumların olduğu məkan deyildir. Azərbaycanın milli elitasının əksəriyyəti üçün bu, uğrunda hər kəsin hər şeyi qurban verməyə hazır olduğu müqəddəs anlayışdır.

Lakin təcrübə bunu da göstərir ki, bu illər ərzində hansısa ictimai, yaradıcı vəzifə tutmuş, lakin zamanın sınağından çıxa bilməmiş, özlərinin merkantil maraqları naminə milli mənafelərə xəyanət yoluna qədəm qoyaraq yeni şəraitə, yeni həyatın prinsiplərinə uyğunlaşa bilməyən kadrlar da olmuşdur. Təbii ki, belə qüsurlardan və naqisliklərdən tez bir zamanda yaxa qurtarmaq mümkünsüzdü. Çünki keçid dövrünün çətinlikləri, o vaxta qədər məlum olmayan ziddiyyətləri yeni proseslərə hazır olmayan, siyasi mədəniyyətləri çox zəif olan insanların davranışına mənfi, çaşdırıcı təsir göstərirdi. Təbii ki, reallıqları başa düşənlər bilirdilər ki, bir sıra sosial-psixoloji problemlər, o cümlədən insan amili yeni və güclü dövlət quruculuğu prosesini çətinləşdirəcək, bu hallara son qoymaq üçünsə qanunvericilik əsasında və güzəştsiz mübarizə aparmaq lazım gələcəkdir.

«90-cı illərin əvvəlindəki oxlokratiya hakimiyyətinin mövcudluğu müəyyən təbii hal idi, o, bəlkə də gözlənilən universal demokratik dəyərlərə keçidin mühüm tarix məqamı idi və görünür tale belə imiş ki, cəmiyyət dövlətçiliyin inkişafının belə bir ağrılı dövrünü keçməliydi. Ernst Nikiş haqlı olaraq yazıb: «Hakimiyyətdə olanların təsir göstərmək imkanları kölgədə qalaraq iflic olduğu və ya neytrallaşdığı vaxtda avam kütlənin hakimiyyəti yaranır, bu hakimiyyət kütlələri azad edir. Onları yüksək təbəqəyə tabe olmağa məcbur etmir və beləliklə, demokratiyanın özünün məqsədindən yan keçir». (Akademik Ramiz Mehdiyev)



*Azərbaycan vətəndaşı ölkəsinin gələcəyini Heydər Əliyevin siyasi kursundan kənarda təsəvvür etmir.*



*Mən öz mənalı həyatımı xalqımın bu gününə və sabahına həsr etmişəm.*

Azərbaycan gerçəkliyində bu və ya digər şəkildə təzahür edən labüdlük olmuşdur. Lakin sonradan – Heydər Əliyevin siyasət məktəbinin təsiri ilə rasional və optimal idarəçilik sayəsində elitanı təkamül yolu ilə transformasiya etməyə müvəffəq olduq. Bu, çox vacib məsələdir və elitanın özünün daxilində dinamik inkişafın olmasını, oxlokratiyanın mövcud qaydasını, apriori, təsdiq kimi qəbul edən komformist təbəqələrdən «azad olmağı» nəzərdə tuturdu. Heydər Əliyevlə birlikdə hakimiyyətə gəlmiş elita bu yolla dövlətçiliyin möhkəmlənməsi və siyasi sabitliyin təmin olunması missiyasını uğurla yerinə yetirdi və perspektivdə onun vəzifəsi sabitliyin təmin edilməsinin bərqərar olmuş bu formatının qorunub saxlanılmasından və idarəçilərin yeni nəslinə ötürülməsindən ibarət idi.

Müasir qloballaşma prosesləri və ölkənin inkişaf dinamikası bəzən elə bir sosiomədəni mühit yaradır ki, elita özü təkbaşına yüksək intellektual potensial yaratmaq və onu saxlamaq iqtidarında olmur. Planetar miqyaslı dəyişikliklər, təfəkkürün transformasiyası və postmodernin gətirdiyi yeni davranış normaları keyfiyyətcə yeni dünya görüşlü idarəçilərin – menecerlərin formalaşmasına ehtiyac yaradır. Ona görə də iqtidarın kadr siyasətinin əsasında «millətin intellektual və yaradıcı resursu»nu, insan kapitalının bazisini formalaşdırmaq missiyası durur. Bu yolu çoxdan keçmiş inkişaf etmiş demokratiyaların yeni demokratiyalara təklif etdiyi təcrübə yaradıcı şəkildə öyrənilməlidir. «İnsan kapitalı» ideyasının gerçəkləşdirilməsi prosesi gələcəkdə azərbaycanlı məmurun, tələbənin, sahibkarın, ictimai xadimin və b. həyat tərzini əhəmiyyətli dərəcədə dəyişmək potensialına malikdir. Beləliklə, innovasiya təfəkkürünə yiyələnmiş və cəmiyyətin, dövlətin daha intensiv və dinamik inkişafı naminə gərəkli olan kadrların yetişdirilməsi respublika idarəçilik sistemi üçün prioritet vəzifədir.

Bu sosial tələbin həyata keçirilməsi prosesində regionlarda bir sıra aktual məsələlərin həlli vacibdir. Dövlət qulluqçuları qarşısında yüksək tələblər qoyulmasına baxmayaraq, keçmişin ətaləti nazirliklərin və müxtəlif dövlət müəssisələrinin idarə, şöbə və

başqa bölmələrinin rəhbərlərinin ciddi qüsuru və onların transformasiyasına əsas maneədir. Bu gün Azərbaycan dövlətçiliyin nümunəsində görmək mümkündür ki, hakimiyyət strukturlarında siyasi elita iqtisadi inkişafın yüksək sürətini təmin etməyə qadirdir. Lakin bəzən yerlərdə yeni nəslin potensialından düzgün istifadə olunmaması və ya bunu həyata keçirmək üçün kifayət qədər təcrübənin olmaması problemi ilə də üzləşirik. Təsərrüfat idarəçiliyi strukturlarının bəzi rəhbərlərinin hələ də köhnə modellərlə düşünməsi gənc, intellektual kadrların xidmət iyerarxiyasında irəliləməsi işində süni maneələrə çevrilir, bu isə yeni-tipli elitanın formalaşması prosesində çətinlik yaradır. Akademik Ramiz Mehdiyev haqlı olaraq bu barədə yazır: «Millətin intellektual və yaradıcı resursuna bu cür münasibət yolverilməzdir. Ona görə də dövlət strukturlarında kadrların yeni ruhda formalaşması imkanlarını və hər bir qulluqçunun müvafiq potensialını hərtərəfli təhlil etmək lazımdır. Bəzən mən öz əməkdaşını düz on il eyni vəzifədə saxlayan dövlət strukturunun rəhbərini başa düşməyə çətinlik çəkirəm. Belə halda sual doğur ki, əgər əməkdaş uğurla çalışırsa və normal mənəvi-əxlaqi keyfiyyətləri varsa, onun rotasiyası və nəticə etibarilə vəzifəsinin artırılması barədə vaxtında düşünməyə dəyər. Lakin əgər onun ixtisas səviyyəsinin aşağı, işinin səmərəsiz olduğuna görə vəzifəsinin artırılacağı gözlənilmirsə, onda belə bir sual vermək lazımdır: təqsirkar kimdir – işçinin seçilməsinə vicdanla yanaşmayan və ya onun qarşısında vəzifələri düzgün qoymayan rəhbər, yoxsa təhsil səviyyəsinin və digər şəxsi keyfiyyətlərinin aşağı olmasına görə öz vəzifələrinin öhdəsindən gələ bilməyən əməkdaş?» Bizcə, bu, kadr siyasətinə realist yanaşmanın ibrətamiz nümunəsidir.

Bəzən peşəkarlıq, intellekt idarəçilikdə daha az tələb edilən keyfiyyətlərdir. Təcrübə göstərir ki, bir çox dövlət müəssisələrində şəxsi sədaqət prinsipi hələ də üstün prinsipdir və bu, xidməti vəzifədə irəliləyiş üçün xarakterik haldır. Belə proteksionizm mühitində siyasi elitanın formalaşmasından söhbət gedə bilməz. Yeri gəlmişkən, Prezident İlham Əliyev «Azərbaycan XXI əsrdə

– uğurun strategiyası» mövzusunda keçirilən beynəlxalq konfrans iştirakçıları ilə görüşdə effektiv dövlətçilik strukturunun təşəkkülündə praktikada mübarizə aparılan mənfi amillərdən bəhs edərkən bu məsələyə də toxunmuşdur. O, qeyd etmişdir ki, kadrları rəhbərlərə münasibətdə yarınma, yaltaqlıq səviyyəsinə görə qiymətləndirmək qətiyyən yolverilməzdir.

Demokratikləşmə yolunu seçmiş Azərbaycan cəmiyyəti üçün insan kapitalı yüksək dəyərdir. Məhz buna görə də Prezident İlham Əliyev insan kapitalının inkişafını prioritet vəzifə kimi müəyyən etmişdir. Vətəndaşın inkişafı üçün sərmayə qoyulması, onun fərdi keyfiyyətlərinin və qabiliyyətlərinin inkişaf etdirilməsi, yeni menecerlər sinfinin yaradılması, intellektin perspektivdə sürətli inkişafın prioritet amili kimi müəyyən edilməsi bu ideyanın əsas elementləridir. İlham Əliyevin kadr siyasətinin mahiyyəti ondan ibarətdir ki, yaradıcı zəka sahibləri, intellektual, kreativ kadrlar, gənc və qabiliyyətli insanlar daim dövlətin və cəmiyyətin diqqətində olsunlar.

XXI əsrdə milli elitaya verilən tələblər sistemi keçmişdəkindən fərqlidir. İndi elita təkcə, bütövlükdə dövlətin inkişafına görə, cavabdeh olan insanlar qrupunun formalaşmasına görə məsuliyyət daşımır. Bu günün reallıqlarında yeni islahatlar dövrünün, innovasiya düşüncəsinə malik, iqtisadiyyatın, sosial, daxili və xarici siyasətlə əlaqədar ortaya atdığı problemlərin qeyri-populyar həlli yollarını təklif etməyi bacaran insanların idarəçilər sisteminə cəlb olunması vəzifəsini məhz elita öz üzərinə götürməlidir. Ona görə ki, o, idarəetmənin bir keyfiyyət səviyyəsindən digərinə ağrısız və planlı şəkildə keçidini təmin edən sosial-siyasi qüvvədir. Başqa sözlə desək, bu gün demokratik islahatların həyata keçirilməsi prosesinə düşünən, fəaliyyətinə tənqidi yanaşan, öz peşəkarlığına inamı olan və daxilən azad ziyalılar və qulluqçular cəlb edilməlİdir. Dövləti mənəvi-siyasi simasını itirmiş fərdlər deyil, məhz vəzifə məsuliyyətini dərk edən elitar təfəkkürə malik şəxsiyyətlər inkişaf etdirə, Heydər Əliyevin idarəçilik fəlsəfəsinin prinsiplərini rəhbər tutanlar gələcəyə apara bilərlər. İlham Əliyevin

əqidəsincə, biz günün reallıqlarında baş verən proseslərin sosial-psixoloji çətinliklərindən əziyyət çəkən subyektləri yox, məhz əsl peşəkarların, kreativ mütəxəssislərin tərbiyə olunmasını ön plana çəkməliyik.

Beləliklə, demək mümkündür ki, akademik Ramiz Mehdiyevin təklif etdiyi təsnifata görə, son iki onillikdə Azərbaycanda elitanın təkamülü üç formada baş vermişdir:

«Yuxarıdan» – Bu, Moskvanın Ə.Vəzirovu ölkə rəhbəri təyin etməsi və bunun nəticəsində yeni elitanın toplanmasıdır. Əvvəlki elitanı onun «zəifləməsinə» görə deyil, «yeni» siyasətin həyata keçirilməsi məqsədi ilə əvəz edirdilər və bu siyasət ölkəni fəlakətə gətirib çıxardı. Yenə də Moskvanın təyin etdiyi A.Mütəllibov faktiki olaraq, Ə.Vəzirovun rəhbər tutduğu eyni sxem üzrə hərəkət edirdi;

«Aşağıdan» – Ə.Əliyevin (Elçibəyin) xalq çıxışları və nəticə etibarilə dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlməsi. Bu rejim praktik olaraq, hər yerdə elitanın dəyişdirilməsi ilə səciyyəvi idi. Ə.Əliyev də hakimiyyətə kütləvi xalq çıxışları nəticəsində və ölkə parlamenti deputatlarının tələbi ilə gəlmişdi. Bütün bunlar Ə.Elçibəyi və onun komandasını hakimiyyəti Heydər Əliyevə təhvil verməyə məcbur etdi;

Elitanın «rəvan» əvəz edilməsi Prezident İlham Əliyev ilə bağlıdır. Onun kadr siyasəti, yəni elitanın dəyişdirilməsi varisliklə səciyyələnir. Bu, o deməkdir ki, elitanın yeniləşməsi zəruri hallarda yeni nəsil insanların hesabına baş verir.

Müstəqil Azərbaycan Respublikası öz tarixi inkişafının yeni mərhələsini yaşayır. Milli gerçəkliyimizdə siyasi elitanın formalaşması xarici zərurətdən deyil, daxili zərurətdən, milli maraqları effektiv həyata keçirmək ehtiyacından yaranmışdır. Bu zərurətin mahiyyəti real siyasi gerçəkliyimizi aşkar edən elementlərdən biridir. Milli elitamızın vacibliyi konsepsiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla reallaşdırdığı siyasətin mahiyyətini müəyyən edir.

Beləliklə, demək olar ki, Azərbaycanda yenitipli elitanın formalaşmasını şərtləndirən başlıca sosial-siyasi sosiomədəni prinsiplər ilk növbədə müstəqil Azərbaycan dövlətinin inkişaf mərhələləri ilə əlaqəlidir. Bu faktor isə Heydər Əliyevin dövlətçilik fəaliyyətinin mərhələləri ilə birbaşa bağlıdır.

## *2.2. Heydər Əliyev fenomeni SSRİ miqyasında*

XX əsrin əvvəllərində xalqımızın qabaqcıl ziyalıları dövlət müstəqilliyinin bərpasını mühüm milli vəzifə kimi irəli sürmüşlər. Qeyd etdiyimiz kimi, Birinci Dünya müharibəsi zamanı yaranmış əlverişli geosiyasi şəraitdə Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə olaraq dövlət müstəqilliyini respublika formasında bərpa edərək, yeni bir dönəmin başlanğıcını qoydu. İyirmi üç aylıq siyasi ömrü ərzində Avropanın bir sıra inkişaf etmiş dövlətləri tərəfindən de-fakto tanınan Azərbaycan Xalq Cümhuriyyəti sosial, iqtisadi, siyasi, mədəni və başqa sahələrdə geniş dövlət proqramı işləyib hazırlayaraq, demokratik tədbirləri həyata keçirməyə başladı. Lakin Azərbaycanın dövlət müstəqilliyini tanımaq niyyətində olmayan bolşevik Rusiyası geosiyasi xaosdan istifadə edərək Cümhuriyyət hökumətini devirdi. Azərbaycanın dövlət müstəqilliyinə son qoyuldu və işğalçı Rusiya hakimiyyəti quruldu. İdarəçilik üçün göstərişlər mərkəzdən verilsə, xarici siyasət fəaliyyəti ləğv edilsə də, yaradılmış Azərbaycan SSR-də dövlət və hökumət strukturları nominal fəaliyyət göstərirdi.

1920–1930-cu illərdə Azərbaycanda həyata keçirilən bolşevik siyasəti mahiyyətcə ruslaşdırma, milli qüvvələrin məhv edilməsi demək idi. Xüsusən Bakı şəhəri başqa xalqların nümayəndələrinin köçürülməsi nəticəsində milli simasını itirirdi. Hələ I Pyotrun Xəzərsahili ərazilərə işğalçı yürüşləri dövründən başlayaraq, bu işğalın tərkib hissəsi olan «Bakı və Azərbaycan» modelini sovet hökuməti özünəməxsus metodlarla həyata keçirməyə başlamışdı. Neftlə zəngin Bakını 1918–1920-ci illərdə Rusiyaya birləşdirmək

niyyəti 1920-ci ilin aprelində baş verən işğaldan sonra da aktuallığını saxlayırdı. RK(b)P-nin (1921) X qurultayında etdiyi məruzədə Stalin sosial-iqtisadi və mədəni inkİşaf baxımından Bakının Azərbaycandan fərqli olduğunu elan etmişdi. Onun «Azərbaycanda kapitalizm yalnız Bakıda inkişaf etmişdi» mülahizəsini xatırlayaq.

Lakin bunu da qeyd etmək vacibdir ki, istiqlal uğrunda mübarizə aparan ziyalılar 1920–1930-cu illərdə repressiyaya məruz qalsalar da, sovet hakimiyyətinin siyasəti heç də həmişə antiazərbaycan mahiyyəti daşımamışdır. Mədəni inqilab illərində xalqın ziyalılarına qarşı qəddar repressiya metodları tətbiq edilsə də, savadsızlığın ləğvi istiqamətində həyata keçirilən tədbirlər, məktəblərin, mədəni-maarif müəssisələrinin, ali və orta ixtisas təhsilli ocaqların geniş şəbəkəsinin yaradılması, nəhəng tikinti-quruculuq işlərinin aparılması böyük tarixi əhəmiyyət kəsb edirdi. Amma buna baxmayaraq, repressiya öz məkrli işini görürdü. Həmin illərdə Azərbaycanın milli mədəniyyətinə vurulan ziyanı H.Əliyev belə təsvir edirdi: «1937–1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdir. Hüseyn Cavid, Mikayıl Müşfiq, Tağı Şahbazi, Salman Mümtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdir».

Həmin illərdə repressiyalar nəticəsində milli ziyalıların məhv edilməsinə təsir edən amillərdən biri heç şübhəsiz ki, Azərbaycan rəhbərliyi daxilində yekdilliyin, səmimi birliyin olmaması, vəzifə hərisliyi idi. Buna baxmayaraq, 30-cu illərin qanlı repressiyaları istiqlal fikrini tamamilə məhv edə bilmədi, milli adət-ənənələrimizi qoruyub saxlaya bildik.

İkinci Dünya müharibəsi illərində yaranmış şəraitdən istifadə edən Azərbaycan siyasi mühacirəti və Stalin repressiyasının qurbanı olmamaq üçün SSRİ-yə dönməyən həmvətənlərimiz istiqlal ideyalarını xarici ölkələrdə, əsasən Türkiyədə yaratdıqları müxtəlif dərnək və cəmiyyətlərdə öz fəaliyyətləri ilə yaşadırdılar.

Müharibədən sonrakı stalinizm illərində də Azərbaycanda istiqlal fikrinin yenidən dirçəlməsi və inkişafı üçün real şərait yaranmadı. Çünki istiqlal ideyalarının daşıyıcısı olan milli elitanın təqib olunması davam edirdi. Stalinin ölümü və onun şəxsiyyətinə pərəstişin pislənilməsi sovet cəmiyyətində yeni ab-hava yaratdı. Ölkədəki inzibati-amirlik sistemində nisbi yumşalma baş verdi. Yaradıcı ziyalıların əsərlərində xalqın azadlıq ideyaları ilə bağlı məsələlər sətiraltı şəkildə, çox ehtiyatla bədii təcəssümünü tapmağa başladı. 1950-ci illərdə xalqın milli-mədəni inkişafı ilə bağlı bəzi siyasi-mədəni məsələlər, xüsusən ana dili məsələsi siyasi faktor kimi meydana gəldi. Kremlin elitası Azərbaycanda ana dilinə dövlət statusu verilməsinə məcbur oldu. Lakin Azərbaycan rəhbərliyində yekdilliyin, təcrübənin olmaması nəticəsində bir növ konfliktli vəziyyət yarandı. Bu fakt əhalinin bir qismi, xüsusən rəsmi strukturlarda çalışan, hələ də çoxluq təşkil edən qeyri-azərbaycanlılar arasında narazılığa səbəb oldu. Belə şəraitdə Moskva imperiya simasını bir daha göstərdi. Nəticədə tədricən inkişaf etməyə başlayan milli məsələlərin qaldırılmasına qadağa qoyuldu. Üstəlik milli elita anlayışına ideoloji tənqid obyekti kimi yanaşan Kreml Azərbaycan haqqında millətçi respublika kimi mənfi imic formalaşdırırdı. Bunun nəticəsində Azərbaycan rəhbərləri dəyişdirildi.

Azərbaycan xalqını, onun elitasını düşündürən milli məsələ ilə bağlı bir sıra problemlər 1960-cı illərdə bəzi ziyalılar tərəfindən ehtiyatla qaldırılmağa başlansa da, həll edilməmişdi. Ümumiyyətlə, 60-cı illərdən bəhs edərkən Heydər Əliyev təcrübəli siyasətçi kimi, o dövrün daha kardinal probleminə toxunurdu. Onun fikrincə, qətiyyətlə bildirmək olar ki, həmin illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Heydər Əliyev hakimiyyətə gələrkən Azərbaycan xalqının görkəmli sənət xadimlərini, milli ruhlu ziyalılarını düşündürən, həllini gözləyən çoxlu problemlər hələ də qalırdı. Əvvəlki illərdə siyasi hakimiyyət daxilində yekdilliyin olmaması, xalqla hakimiyyət arasında uçurumun dərinləşməsi, ziyalıların siyasi hakimiyyətdən uzaqlaşdırılması, milli ziyalılara soyuq münasibətin davam etməsi, milli ədəbiyyatın, milli-mənəvi dəyərlərin məhv edilməsi, tarixi abidələrə ögey münasibət bəslənilməsi, ana dilinin təsir dairəsinin məhdudlaşdırılması, milli hərbçi kadrların hazırlanmaması, sovet ordusu sıralarında yüksək rütbəli azərbaycanlı hərbçilərin olmaması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmaması, Azərbaycan xalqının dünyada tanınmaması və ya az tanınması, əsassız erməni iddialarının qarşısının lazımınca alınmaması, Cənubi Azərbaycan məsələsi, türk dünyası ilə əlaqələrin yaradılmaması belə problemlərdən idi. Reallığa əsaslanaraq hərəkət edən böyük siyasətçi və dövlət xadimi olan Heydər Əliyev Azərbaycanın bu problemlərini həlli vacib olan başlıca problemlər hesab edirdi.

Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi, dini dəyərlərinə sıx bağlılığı, sovet gerçəkliyində xalqını düşündürən problemlərin həll edilməməsi, Azərbaycan və dünya tarixini, o cümlədən beynəlxalq məsələləri mükəmməl bilməsi, türk və müsəlman dünyasına, həmçinin Cənubi Azərbaycan məsələlərinə dərindən nüfuz etməsi, xüsusi xidmət orqanlarında işlərkən Azərbaycan xalqına qarşı yönəldilmiş neqativ siyasəti görməsi və bir sıra digər amillər onun müstəqil dövlətçilik fəlsəfəsinin formalaşmasına təsir etmişdi.

Bu amillər deməyə əsas verir ki, Heydər Əliyevin siyasi fəaliyyətini sovet dövlətinin ümumi siyasətindən təcrid olunmuş şəkildə qiymətləndirmək düzgün olmazdı. O, özü həmişə qeyd edirdi ki, biz Sovet dövründə yaşamışıq, bu dövr bizim tariximizin ayrılmaz mərhələsidir. Hətta belə bir şəraitdə də, danılmaz faktdır ki, Ulu Öndər rejimin ən kiçik imkanlarından xalqın mənafeyi naminə istifadə edirdi. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi,

sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970–1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır. Ümumiyyətlə, tarixi şəxsiyyətlərin xidmətlərinə qiymət verərkən müasir tələblər baxımından deyil, siyasətçinin göstərdiyi fəaliyyət mühitinin inkişaf qanunauyğunluqlarından çıxış etmək lazımdır. Bu metodoloji baxımdan çıxış edilsə, Heydər Əliyevin fəaliyyətinə özündən əvvəlki xadimlərlə müqayisədə obyektiv qiymət vermək olar. O, özündən əvvəlki rəhbərlərin bacarmadıqlarını böyük məharətlə, reallıqları düzgün qiymətləndirən rəhbər kimi həyata keçirmişdir. Ondan sonrakı rəhbərlər isə nəinki Heydər Əliyevdən irəli getmədilər, əksinə, problemləri həll etməyərək Azərbaycanı daha da geriyə atdılar. Nəticədə Azərbaycan aqressiv erməni separatizmi, Ermənistan silahlı dəstələrinin hücumları, azərbaycanlıların tarixi-etnik torpaqlarından vəhşicəsinə qovulması faktı ilə üz-üzə qaldı. Azərbaycan böyük fəlakətlərə düçar oldu.

Maarif və təhsilin inkişafı Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi olduğundan o, öz fəaliyyətində çox ciddi şəkildə təhsil və elmə xüsusi diqqət verirdi. Azərbaycan xalqının bütün sovet tarixi ərzində məktəb və maarifinin ən yüksək inkişafı 1970–1980-ci illərə təsadüf edir. Xalqın maariflənməsini siyasi elitanın formalaşmasında ön plana çəkən Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan məktəb tikintisi meydanına çevrilmişdi. 1969–1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi, yəni ildə orta hesabla təxminən 7 məktəb tikilib istifadəyə verildi. Həmin illərdə Azərbaycan məktəbinin maddi-texniki bazası, təchizatı yaxşılaşdı, məktəb kitabxanalarının fondları zənginləşdi. Şagirdlərin əmək tərbiyəsinə diqqət yetirilir, məktəb emalatxanaları və müxtəlif peşə yönümlü sahələr inkişaf etdirilirdi. Özü də bu tədbirlər Moskvanın respublikanın büdcəsinə sərt limit qoyduğu şəraitdə həyata keçirilirdi.

Heydər Əliyev qeyd edirdi ki, 70 il ərzində Azərbaycanın Sovet hakimiyyəti Sovet dövləti çərçivəsində yaşaması dövrünü

əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdı.

Heydər Əliyevin Azərbaycan müəllíminə göstərdiyi qayğı nəticəsində 1970–1980-ci illərdə Azərbaycanda müəllimlik ən nüfuzlu peşə, müəllim isə hörmətli şəxs sayılırdı.

Əvvəlki illərdə təhsil almaq imkanı olmayan işçilər üçün axşam məktəbləri açılmışdı. Onun hakimiyyəti dövründə kənd yerlərindən gələn uşaqların ali təhsil almalarından və kəndi ixtisaslı kadrlarla təmin etməkdən ötrü müsabiqədənkənar qəbula yerlər ayrılmışdı. Həmin gənclər təhsil aldıqdan sonra öz doğma yaşayış yerlərinə qayıdaraq çalışırdılar. Bunun sayəsində Azərbaycanın ucqar kənd məktəblərində ali təhsilli müəllimlərin sayı artdı.

Məktəbi ixtisaslı kadrlarla təmin etməkdən ötrü təyinat sistemi mühüm yer tuturdu. Çox zaman təyinat yerinə gedənlər – başqa rayonlardan olan gənclər təyinat müddəti başa çatdıqdan sonra geri dönməyərək orada qalıb ailə qurur və yerli camaatla qaynayıb-qarışırdılar. 70-ci illər Azərbaycanın kənd məktəblərində biliklərə yiyələnmə sistemi yaxşılaşmışdı. Təyinatla kəndə gedən müəllimlər mənzillə, mənzil kirayə haqqı ilə təmin olunur, onlara vergidə güzəştlər edilirdi. Bir sözlə, respublikada ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət verilirdi. Ulu Öndər başa düşürdü ki, milli elitanın formalaşması orta məktəbdə mənimsənilmiş kamil biliklər sistemindən çox asılıdır.

Heydər Əliyev azərbaycanlı gənclərin dünyanın müasir elm və mədəniyyət nailiyyətlərini mənimsəməsinə diqqət yetirərək, onların ölkənin qabaqcıl ali məktəblərində ümumittifaq büdcəsi hesabına təhsil almalarına önəm verirdi. Həmin tələbələrə qayğı göstərilir, problemləri həll edilir, onlarla Bakıda və Moskvada müntəzəm görüşlər keçirilirdi. 1970–1980-ci illərdə Azərbaycan savadlılar ölkəsinə çevrilmişdi. Həmin illər, eyni zamanda, milli mənlik şüurunun, milli mədəniyyətin, adət-ənənələrin qorunmasında, özünə inam hissinin güclənməsində mühüm tarixi əhəmiyyət və məzmun daşıyan bir dövr–milli elitanın formalaşması dövrü idi.

Heydər Əliyevin ədəbiyyata qayğısı onun milli dövlətçilik konsepsiyasının tərkib hissəsi idi. Çünki mədəniyyətdə, ədəbiyyatda xalqın milli ruhu, milli yaddaşı yaşayırdı. Buna görə də Heydər Əliyev Azərbaycan ədəbiyyatına və ədəbi irsə qayğı kontekstində Azərbaycan klassik irsinə xüsusi önəm verir, klassiklərin yubileylərinin yüksək səviyyədə keçirilməsinə şəxsən özü rəhbərlik edirdi. Bu sahədə onun qəbul etdiyi qərarlar müstəsna əhəmiyyətli idi. O, belə tədbirlərlə milli elitanın formalaşması prosesinə yeni məna kəsb etdirirdi.

Heydər Əliyev Azərbaycan jurnalistikasına da xüsusi diqqət göstərir, siyasi elitanın formalaşmasında jurnalistlərin rolunu xüsusi qeyd edir, onların qurultaylarında maraqlı tövsiyələr verirdi. Onun I katib kimi çalışdığı illərdə yazıçı, şair, jurnalist peşəsi cəmiyyətdə böyük nüfuza malik idi. Azərbaycan ədəbiyyatına, yazıçı və şairlərə xüsusi diqqət və qayğı göstərməklə Heydər Əliyev özündən əvvəlki rəhbərlərdən daha faydalı işlər görmüşdür. Şair və yazıçıların çoxu etiraf edir ki, sovet rejiminə və senzurasına baxmayaraq, Azərbaycan ədəbiyyatına heç vaxt 70-ci illərdəki kimi qayğı göstərilməmişdir. Bu qayğının ən önəmli nəticəsi o idi ki, xalqın öz ədəbiyyatına marağı, bütövlükdə isə ədəbi irsə vətəndaşlıq münasibəti xeyli artmışdı. 1970–1980-ci illər Azərbaycanın yaradıcı ziyalıları üçün zahirən ideoloji riayət etmək dövrü idi. Əslində onların yaratdıqları xalqda milli şüuru dirçəldir, özünə inam və müstəqillik hissləri aşılayırdı. Azərbaycan ədəbiyyatının inkişafına yönəlmiş siyasətində Heydər Əliyev istiqlal ideyasını xalqın fəlsəfi dünyagörüşü kimi qiymətləndirirdi.

Xalqın milli ruhunun, tarixi keçmişinin hopduğu milli incəsənətimizin qorunması və inkişafı da Heydər Əliyevin xüsusi diqqətində olmuşdur. Milli incəsənətə vətəndaş münasibəti, onun elitanın formalaşmasında rolu H.Əliyevin siyasət fəlsəfəsinin əsas konseptual prinsiplərindən idi. Azərbaycan incəsənətinin sovet dövründə ən yüksək inkişaf mərhələsi məhz H.Əliyevin hakimiyyət illərinə aiddir. 1970-ci illərdə və 1980-ci illərin ortalarında Azərbaycan incəsənətinin coşqun yüksəlişi illərində

Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilirdi. Bəstəkarlar qurultaylarının iştirakçıları Heydər Əliyevin maraqlı tövsiyələrini bu gün də xatırlayırlar. Ulu Öndər həmçinin onların məişət problemlərinin həlli ilə bağlı göstərişlər verir, dövlət əhəmiyyətli bu işlərə özü nəzarət edirdi.

1970-ci illərdə və 1980-ci illərin ortalarında Bakının memarlıq siması yeni, zəngin görkəm aldı, xalqımızın mütəfəkkirlərinə layiqli heykəllər ucaldı. Azərbaycan dilinə qayğı və hörmət Heydər Əliyevin siyasət fəlsəfəsinin tərkib hissəsi idi. Məhz onun qətiyyətli siyasəti sayəsində respublika Konstitusiyasında Azərbaycan dili dövlət dili olaraq təsbit edildi. Bu gün hamı etiraf edir ki, bütün sovet tarixi ərzində Azərbaycan dili ilk dəfə olaraq məhz 1970–1980-ci illərdə, sözün əsl mənasında, dövlət dili kimi kargüzarlıq dilinə çevrildi. Önəmli cəhət o idi ki, dövlət müstəqilliyi bərpa edilmiş digər türk və müsəlman respublikalarında dil məsələsində meydana çıxan ciddi problemlər Azərbaycanda yaranmasa da ölkəmiz o dövrdə beynəlmiləl respublika sayılırdı. Bu faktorlar Heydər Əliyevin xalq qarşısında müstəsna tarixi xidmətinin bariz nümunəsidir. Ana dilinin saflığı uğrunda ardıcıl və qətiyyətlə çalışmasının nəticəsi idi ki, onun rəhbərliyi dövründə dilçi alimlərin əsərləri dövlət mükafatına layiq görülmüşdü.

Beləliklə, deyə bilərik ki, Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək üçün tələb olunan sosial-siyasi şərtlərin çoxu məhz Heydər Əliyevin hakimiyyəti dövründə formalaşmışdı. Heydər Əliyev müstəqillik haqqında yazırdı: «Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqil-

liyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrdən səmərəli istifadə olunmasını tələb edirdi».

Heydər Əliyev hakimiyyətə gələrkən sovet ordusu sıralarında yüksək rütbəli azərbaycanlıların sayı çox az idi. Milli zabit heyəti, demək olar ki, yox idi. O, azərbaycanlı hərbçi kadrların hazırlanması məqsədilə azərbaycanlıların döyüş-texniki hərbi hissələrində qulluq etməsi, ölkənin ali hərbi məktəblərinə göndərilməsi sahəsində xeyli iş görmüşdü.

Azərbaycan xalqı bütün sınaqlardan keçərək, bütün təhlükələrin qarşısını alaraq müstəqilliyini qoruyub və daim inkişaf etdirib. İndi biz qətiyyətlə deyə bilərik ki, Azərbaycan xalqı bu nailiyyətlərlə fəxr edə bilər.

Heydər Əliyevin ordu quruculuğu sahəsində misilsiz tarixi xidmətlərinin aktuallığı bu gün böyük möhtəşəmliyi ilə daha aydın üzə çıxır. O, haqlı olaraq belə qeyd edirdi: «Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordumuzun yaranmasıdır. Mən dəfələrlə demişəm və bu gün də deyirəm. Biz heç bir dövlətə təcavüz etmək istəmirik. Heç bir dövlətin torpağında gözümüz yoxdur. Dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı dostluq, əməkdaşlıq əlaqələri qururuq və bundan sonra da bunu davam etdirəcəyik. Bu işdə bizim çox böyük nailiyyətlərimiz var. Azərbaycan artıq dünya miqyasında, beynəlxalq təşkilatlarda öz yerini tutubdur və hər yerdə cəsarətlə öz sözünü demək, öz tələblərini qoymaq imkanına malikdir. Ancaq, eyni zamanda, Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən, təkcə bu gün yox, gələcəkdə də həmişə öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır».

Heydər Əliyev hərbi liseyin milli əhəmiyyətini belə təsvir edir: «Bu lisey mənim üçün doğma övlad kimidir. Çünki məlumdur, 1971-ci ildə, – artıq 30 ildən çox vaxt keçibdir, – mən hansı çətinliklərlə bu liseyin əsasını qoydum və hərbi sahədə ixtisaslaşdırılmış orta məktəb yaratdım. Burada muzeydə mənə dedilər ki, o vaxt biz məktəbə gəncləri, uşaqları cəlb edirdik. Ancaq bu iş o qədər də uğurlu getmirdi, çünki çoxları bunun nə olduğunu anlamırdı. Məktəbin birinci buraxılışında, yəni ilk qəbuldan 3 il sonra buranı qurtaranlar cəmi 49 nəfər olubdur. Amma indi baxın, hərbi lisey böyük bir ordu hissəsi təsəvvürü yaradır. İndi 800 nəfər qəbul olunur. 600 nəfər burada, 200 nəfər isə liseyin Naxçıvan filialında oxuyur. Bu gözəl nəticədir...

Hərbi lisey həmişə Ulu Öndərin qəlbində olmuşdur. O, həmişə iftixar hissi ilə belə qeyd edirdi: «1971-ci ildən hər il mən buraya gəlmişəm, kursantlarla, müəllimlərlə, zabitlərlə görüşmüşəm. Nə üçün? Çünki Azərbaycanın rəhbəri kimi, mən diqqəti buraya cəlb edəndə, təbiidir ki, bütün başqa təşkilatlar da buna qoşuldular. Düzdür, bu da çətinliklə oldu. Çünki insanlar hələ bunu anlaya bilmirdilər. Ancaq anladılar və indi hərbi liseyə kömək edirlər».

O, sonralar xatırlayırdı: «Mən 1982-ci ildə Moskvada işləməyə getdim. Ancaq hər il məktəblə maraqlanırdım. Xatirimdədir, 1984-cü ildə mən Moskvadan bir neçə günlüyə Bakıya gəlmişdim. İşlərim çox idi, amma mən hərbi liseyə gəlməyi özüm üçün əsas vəzifələrdən hesab etdim. Buraya gəldim, vəziyyyəti gördüm. Ondan sonra gedib Moskvadan məktəbə əlavə yardımlar etdim. Beləliklə, hərbi lisey inkişaf edirdi. Ancaq təəssüflər olsun ki, 1989-1990-cı illərdə Azərbaycandakı hakimiyyətsizlik, hərcmərclik, xaos buna da öz təsirini göstərmişdi. Hərbi liseyə lazımi diqqət göstərilməmişdi...»

«Bilirsiniz, sizə səmimi deyirəm, Naxçıvanski adına Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam...» – Heydər Əliyev gözəl bilirdi ki, Avropa xalqları, Rusiya dövləti həmişə

öz hərbi elitası ilə fəxr etmişlər, bu təbəqəni milli elitadan ayırmamışlar. Ulu Öndər də Azərbaycanda intellektual hərbi elitanın formalaşmasına səy göstərirdi.

Hərbi liseyin şəbəkəsi hazırda genişlənməkdədir. Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında da Cəmşid Naxçıvanski adına hərbi liseyin filialı açılmışdır. Muxtar Respublikanın hərbçi peşəsinə yiyələnmək arzusunda olan gəncləri heç bir problemlə üzləşmədən burada təhsil alırlar. Hazırda hərbi liseydə 1775 kursant, o cümlədən Naxçıvan filialında 444 kursant təhsil alır. Tədrisin təşkilinə kifayət qədər zabit və müəllim heyəti cəlb edilmişdir. Əvvəlki illərdən fərqli olaraq, indi liseyin 2000 nəfərlik yeməkxanası, müasir qazanxanası, camaşırxanası, 3 yataqxana korpusu, örtülü hovuzu, trenajor salonları, 2 idman salonu, 2 sıra meydanı, avtoparkı və atıcılıq tiri vardır.

Çətin və ağır yollardan keçən Azərbaycan xalqı dövlət müstəqilliyini möhkəmləndirərək onu, əbədi, yaşarlığını isə dönməz etmişdir. Bu yolda xalqımız böyük fədakarlıq göstərib, çox cahanşümül işlər görmüşdür. Onlardan ən mühümü Azərbaycanın Milli Ordusunun yaranması, ordu quruculuğunun həyata keçirilməsi, Azərbaycan dövlətinin güclü, qüdrətli orduya malik olmasıdır. Bu sahədə görülən işlər öz müsbət nəticəsini verir. Bu gün Azərbaycan həqiqətən güclü, qüdrətli orduya malikdir.

Bütün bu nailiyyətlərin nəticəsidir ki, bu gün Azərbaycan xalqı öz müstəqil dövlətini ən böyük tarixi sərvəti sayır. Xalq dövlətini qoruyur və qoruyacaqdır. Azərbaycan dövlətinin müstəqilliyi əbədidir. Ulu Öndərin dediyi kimi, hər birimiz çalışmalıyıq ki, gələcəkdə də bunu təmin edək. Bunun üçün isə dövlətimizin bütün başqa təsisatları ilə bərabər, güclü ordusu da olmalıdır. Elə məhz buna görə də Heydər Əliyev bu işə sonralar da önəm verəcək yazırdı: «Azərbaycanda 1993–1994-cü illərdən sonra güclü ordu yaradılması ilə məşğuluq və indi artıq buna nail olmuşuq. Ancaq biz bununla qane olmamalıyıq. Biz ordumuzu daha da güclü etməliyik, müasir tələblərə uyğun etməliyik. Ordumuz

Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi üçün daim hazır olmalıdır...

Azərbaycan hökuməti öz ordusunu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müasir silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcək və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik!»

Əliyevşünaslıqla bağlı tədqiqatlarda deyilən belə fikirlə biz də razıyıq: «Heydər Əliyev və Milli Ordu» mövzusunda tarixi araşdırmalar apararkən, bir daha aydın olur ki, 1970-ci illərdə Azərbaycan Respublikasının rəhbəri Bakıda yerləşmiş Ali Ümumqoşun Komandirlər Məktəbinin Komandanlığı ilə sıx əlaqə saxlamış, bu məktəblərdə azərbaycanlı gənclərin təhsil almasına bilavasitə qayğı göstərmişdir.

Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının əsasının hələ 1992-ci ildə qoyulmasına baxmayaraq, onun problemləri, əsasən də kadr problemi həll olunmamışdı. Bu problem bütövlükdə ordu quruculuğunun kadr probleminin tərkib hissəsi olmaq etibarı ilə məhz Ali baş Komandan Heydər Əliyev tərəfindən həll edildi. Onun tələbi, daimi diqqəti və qayğısı sayəsində respublikamızda Milli Hərbi Aviasiya Məktəbi yaradıldı, 1997-ci ilin payızında isə məktəbin ilk zabit buraxılışı oldu.

Son illər ali hərbi məktəblərdə görülən təşkilati-struktur dəyişiklikləri və maraqlı tədbirlər gələcəkdə yüksək ixtisaslı zabit kadrlarının formalaşmasında, deməli, hərbi elitanın hazırlanmasında zəruri baza rolunu oynayacaq.

Bununla belə, Silahlı Qüvvələr üçün kadr hazırlığını gələcəkdə təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Bakı Ali Hərbi Dənizçilik Məktəbi – Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Hərbi Aviasiya Məktəbi isə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır ki, bu da respublikanın hərbi təhsil müəssisələri sistemində onların statusunu daha da artırmışdır.

«Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı qəsdə layiqli cavab verməyə qadirdir!» Heydər Əliyevin bu fikri, təbii ki, ordu quruculuğu işinin daha da yaxşılaşdırılmasına çağırışdır.

Silahlı Qüvvələrin təlim mərkəzlərində dünyanın ən qabaqcıl, müasir ordularının döyüş və mənəvi-psixoloji hazırlıq üsullarından istifadə edilir. Bu istiqamətdə NATO bloku ilə yaradılmış sıx əlaqələr, bir çox böyük dövlətlərin Azərbaycanla hərbi əməkdaşlıq sahəsində imzaladığı müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Son dövrlər Azərbaycan Silahlı Qüvvələri NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində təşkil olunan bütün tədbirlərdə, təlimlərində fəal iştirak edərək, dünya dövlətlərinin ordu quruculuğu sahəsində qabaqcıl təcrübələrinə yiyələnirlər.

Azərbaycan Respublikası Prezidentinin beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində, Avropada sabitliyin təmin edilməsində NATO-nun rolunu qiymətləndirməsi 1994-cü ilin may ayında Brusselə səfəri zamanı NATO çərçivəsi sənədlərini imzalaması ilə nəticələndi. Bununla da NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» proqramına qoşulan Azərbaycan sonradan bu proqram daxilində keçirilən tədbirlərdə fəal iştirak etməyə başladı. 1997–2001-ci illərdə Silahlı Qüvvələrimizin hərbi qulluqçuları «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində sülhməramlı, humanitar və digər tədbirlərin həyata keçirilməsində fəal iştirakçıya çevrilmişdilər. Sülhməramlı taqımımız Türkiyə Silahlı Qüvvələrinin Kosovadakı taborunun tərkibində sülhməramlı missiyanı yerinə yetirmişdir ki, bu da Azərbaycanın NATO-nun bu proqramının genişləndirilməsi istiqamətində apardığı işləri dəstəkləməsi deməkdir.

Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli, 755 saylı fərmanına əsasən «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Yardım Fondu»nun yaradılması ordu quruculuğunda yeni uğurlu addım olmaqla yanaşı, Silahlı Qüvvələrimizin müasir texnika ilə təmin edilməsinə, maddi-texniki bazasının yerləşdirilməsinə, hərbi qulluqçuların məişət problemlərinin həll edilməsi və döyüş ruhunun yüksəldilməsinə, Silahlı Qüvvələrdə

vahid komandanlığın daha da möhkəmləndirilməsinə zəmanət verirdi...

Bu gün Azərbaycan Ordusunun hər bir əsgər və zabiti Heydər Əliyevin diqqət və qayğısına cavab olaraq Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və Nizamnaməyə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hər an hazırdır.

Həqiqətən də C.Naxçıvanski adına hərbi məktəbin açılması o dövrün ən böyük hadisəsi kimi qiymətləndirilməlidir. Heydər Əliyev İkinci Dünya müharibəsində iştirak etmiş yüksək rütbəli azərbaycanlı hərbçilərin tanıdılması, adlarının əbədiləşdirilməsi işində də təqdirəlayiq fəaliyyət göstərmişdir.

Bütün bunlar, xüsusən Azərbaycanda hərbi məktəblərin açılması, azərbaycanlı hərbçi kadrların hazırlanması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi ölkədə hərbi elitanın formalaşması üçün sosial bazanın yaradılması baxımından Heydər Əliyevin müstəsna xidmətlərinə bariz nümunədir. 1970–1980-ci illərdə sovet ordusu sıralarında xidmət etmiş azərbaycanlı zabitlər sonradan Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə aparmış, milli orduda xidmətlərini davam etdirmişlər.

Azərbaycanın beynəlxalq siyasət aləmində tanıdılması da Heydər Əliyevin siyasi konsepsyasının təməl prinsiplərindən biri olmuşdur.

Heydər Əliyev mərkəzi orqanlarla işgüzar əlaqələr yaratmaqla Azərbaycan Xarici İşlər Nazirliyinin funksiyalarını və səlahiyyətlərini xeyli genişləndirməyə nail olmuşdu. O, siyasətçi qətiyyəti ilə respublikaya lazım olan hər bir işi inadla həyata keçirməyi bacarırdı. Heydər Əliyev azərbaycanlılardan ibarət peşəkar diplomat kadrların təhsil almalarına çalışmış, qəbul üçün Moskvadan limit alaraq onların ixtisaslarını artırmalarından, xarici ölkələrdəki sovet səfirliklərində diplomatik fəaliyyət göstərmələrindən ötrü xüsusi fəallıq nümayiş etdirmişdir, Xarici İşlər Nazirliyinin ştat heyətini yaxşılaşdırmaqla, o, sözün əsl mənasında diplomatik elitanın formalaşması üçün real bazanın əsasını qoymuşdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycana xarici ölkələrin rəsmi nümayəndə heyətlərinin və diplomatlarının səfərləri əvvəlki illərlə müqayisədə intensiv xarakter almışdı. Azərbaycan sovet rejiminin qapalı xarakterinə baxmayaraq, milli azadlıq mübarizəsi aparan xalqlar, xüsusən türk və müsəlman xalqları üçün nümunə rolunu oynamağa başlamışdı. Azərbaycan rəhbəri təkcə Kremldə deyil, həm də Yaxın və Orta Şərq xalqları və dövlət başçıları tərəfindən ən hörmətli, nüfuzlu dövlət adamı, siyasi xadim kimi qəbul olunurdu. Müsəlman dünyası Heydər Əliyevlə fəxr edirdi. Kreml regionla bağlı mürəkkəb problemlərin, xüsusən münaqişələrin həllində onun xidmətindən istifadə edir, nüfuzuna arxalanırdı.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan beynəlxalq elmi, mədəni və s. tədbirlərin keçirildiyi məkana çevrilmişdi. Respublika alimlərinin, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin xarici ölkələrə səfərləri çoxalmış, dünyanın qabaqcıl elmi mərkəzləri ilə əlaqələri genişlənmiş və əməkdaşlığı inkişaf etmişdi. Azərbaycan alimlərinin xarici ölkələrin alimləri ilə birgə elmi-tədqiqat işlərinin diapazonu artmışdı. Respublikamızda səfərdə olan xarici ölkə alimləri Azərbaycan xalqının tarixi keçmişi, mədəniyyəti, incəsənəti, sosial-iqtisadi və b. sahələrdə qazandığı uğurlarla tanış olur, ən əsası, öz ölkələrindəki həmkarlarının təsəvvüründə ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına təsir göstərirdilər. Bu işdə intellektual elitanın rolu danılmazdır.

1970–1980-ci illərdə xarici ölkələrdə çalışan azərbaycanlı mütəxəssislərin sayı artmaqla yanaşı, onların içərisində ali təhsilli müəllim, həkim, mühəndis və b. peşə sahiblərinin xüsusi çəkisi də yüksəlmişdi. Heydər Əliyevin xalqının savadlı, bilikli, istedadlı nümayəndələrinin xarici ölkələrdə işləmələrinə çalışması onun rasional kadr siyasəti yeritməsinə bariz nümunədir. Belə düşünülmüş siyasət həm də siyasi mahiyyət daşıyırdı. Bütün bunlar Azərbaycanın tarixini, mədəniyyətini tanıdır, təbliğ edir, bununla da ölkəmizin müsbət imicini yaradırdı. Xarici ölkələrdə Azərbaycana və azərbaycanlılara qiymət verilərkən, ilk növbədə Heydər

Əliyevin siyasətçi şəxsiyyəti, dünyagörüşü, bacarığı milli simvol kimi qəbul edilirdi.

Heydər Əliyevin daxili və xarici siyasətində xaricdə yaşayan soydaşlarımıza münasibəti xüsusi milli lider qayğısı kimi qəbul edilməlidir. Sovet rejiminə baxmayaraq, o, xarici ölkələrdə yaşayan həmvətənlərlə sistemli əlaqələrin qurulması işi ilə bilavasitə məşğul olurdu. Vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlıların sayının müəyyənləşdirilməsi və mühacirət tarixinin dövrləşdirilməsi barədə göstəriş bilavasitə Heydər Əliyevin təşəbbüsüdür. Onun göstərişi ilə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradılmışdı. «Vətən» cəmiyyətinin yaradılması təşəbbüsü də Heydər Əliyevə məxsusdur. Xarici ölkələrdə yaşayan həmvətənlərlə bağlı sistemli siyasətin müəllifi olan Heydər Əliyev xaricdəki azərbaycanlıların şimallılara və cənublulara bölünməsinin qəti əleyhdarı olmuş, ana dilini və Azərbaycan tarixini unutmamaları barədə ciddi tövsiyələr vermişdir. Xarici ölkələrdəki azərbaycanlı cəmiyyətlərinə Bakıdan kitablar, milli geyimlər, albomlar, milli musiqi nümunələri yazılmış vallar və s. göndərilirdi. Azərbaycanlıların yaratdıqları təşkilatlar xaricdə yaşayan həmvətənlər arasında istiqlal fikrini yayır, sovet rejiminin qadağalarına baxmayaraq, Azərbaycanın təbliğ edilməsini milli mənafelərinin qorunmasını ön plana çəkirdi.

Heydər Əliyevin dövlət siyasətində siyasi mühacirətə münasibəti mühüm yer tutur. Bu barədə daha ətraflı sonrakı fəsillərin birində söhbət açacağıq. Siyasi mühacirətin təqib olunması Heydər Əliyevi çox qayğılandırırdı və o, soydaşlarımızı yaşadıqları ölkələrin ümumi dəyərləri əsasında əməkdaşlıq etməyə çağırırdı. Cəsarətlə qeyd etmək olar ki, Azərbaycan mühacirətinə düzgün siyasi davranış yolunu məhz Heydər Əliyev göstərdi. Elə buna görə də xaricdəki azərbaycanlılar onu təbliğ edir, ona rəğbətlə yanaşır, milli lider kimi məhz onu qəbul edirdilər. Ulu Öndərin müdrik tövsiyələri sayəsində həmvətənlərimiz tarixi vətənlərinə maraq göstərir, vətənə səfərləri zamanı ölkəmizin

mədəniyyət, elm, təhsil və iqtisadiyyat sahəsində qazandığı uğurlara sevinirdilər.

İstər tarixi-nəzəri, istərsə də praktik kontekstdə götürsək, Cənubi Azərbaycan məsələsini mükəmməl bilən, hələ İkinci Dünya müharibəsi illərində iki Azərbaycanın birləşdirilməsi, cənubi azərbaycanlıların hüquqlarının qorunması naminə çalışan, Təbrizdə Azərbaycan Demokratik Partiyasının üzvlərini bütöv, vahid Azərbaycan uğrunda mübarizəyə ruhlandıran Heydər Əliyev respublikanın rəhbəri kimi həmin problemin həllinə xüsusi önəm verir və həmişə xüsusi diqqətdə saxlayırdı. Onun bu sahədəki fəaliyyətinin dəyərli məhsulu Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibliyin yaradılması idi.

Elə bu səbəbdən də cənubi azərbaycanlılar Şimali Azərbaycanın inkişafında qazanılan uğurlara sevinir, Ulu Öndərin dünyada siyasi fəaliyyəti ilə fəxr edir, onun Cənubi Azərbaycan naminə atdığı müsbət addımları yüksək qiymətləndirirdilər.

Kreml elitasında Yaxın və Orta Şərq siyasətini dərindən bilən diplomat təcrübəli dövlət xadimi kimi məhz Heydər Əliyevlə hesablaşırdılar. Suriya–İsrail, bəzi ərəb ölkələrinin daxilində baş verən konfliktlərin həllində, xüsusən Livan və YXDR-də gedən vətəndaş müharibəsinin dayandırılmasında Heydər Əliyevin nüfuzundan istifadə edilmişdi. Müsəlman ölkələrinin rəhbərləri və siyasi dairələri onun tövsiyələrinə diqqət və hörmətlə yanaşır, məsləhətlərini yerinə yetirirdilər.

Heydər Əliyevin siyasət fəlsəfəsinin mühüm qayələrindən biri müsəlman dünyasının sovet dövləti ilə dostluğuna nail olmaq idi. Önəmli cəhət bu idi ki, onun SSRİ-nin diplomatik siyasətinin həyata keçirilməsində fəal iştirakı əslində Azərbaycanın dünyada rolunu artırırdı. Heydər Əliyev SSRİ-nin müsəlman dünyası ilə əlaqələrinin inkişaf etdirilməsində, müsəlmanların mənafelərinin qorunmasında müdrik siyasətçi kimi realist və optimal hərəkət edirdi.

O, sovet rejimi şəraitində türk dövlətləri arasında rəsmi siyasi əlaqələrin qurulmasının mümkün olmadığını başa düşərək,

xalqları bir-biri ilə daha çox yaxınlaşdıran mədəni əməkdaşlığın inkişafına xüsusi diqqət yetirirdi. Qeyd etdiyimiz kimi, Azərbaycanın Türkiyə və türk dünyası ilə əlaqələrinin qurulub inkişaf etdirilməsi Heydər Əliyevin dövlətçilik siyasətinin mühüm prinsipi idi. O, özünün çevik siyasəti ilə istənilən tədbir üçün Moskvanın razılığını əldə edir, xalq və respublika əleyhinə mənfi münasibətin formalaşmasının qarşısını əvvəlcədən alırdı. O dövrdə bu çox ciddi siyasi məsələ idi və bunu yalnız Heydər Əliyevin siyasi iradəsi sayəsində etmək mümkün idi.

Heydər Əliyev Azərbaycanda yaşayan məshəti türklərinin ali təhsil alması probleminə, onların yaşayış şəraitinin yaxşılaşdırılması məsələsinə də müstəsna əhəmiyyət verirdi. O, SSRİ-nin türk xalqları arasında mədəni əlaqələri genişləndirməyin təşəbbüskarı kimi bir çox hallarda Kremlin nəzərini bu işə cəlb etdirməyə nail olmuşdu.

Heydər Əliyev sovet dövləti ilə Türkiyə arasında o qədər də sadə olmayan münasibətlərin yumşaldılması məsələsinin vacibliyinə Kremlin siyasi elitasını inandıra bilirdi. «Soyuq müharibə» illərində SSRİ–Türkiyə münasibətlərində müəyyən problemlərin meydana çıxmasına baxmayaraq, Azərbaycan mətbuatında Türkiyə haqqında xoş məramlı məqalələr dərc edilirdi, Türkiyə mətbuatında isə Azərbaycan əleyhinə olan materialların sayının azalmasında Heydər Əliyevin çevik siyasətinin müstəsna rolu olmuşdu.

Bu çevik siyasətin nəticəsidir ki, türk mətbuatının müəyyən dairələri ilə səmərəli əlaqələr qurmaq mümkün oldu. «Dəmir pərdə» ideologiyası şəraitində fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev milli lider kimi türk dünyasının tanınmış siyasətçisi imicini də qazana bildi.

Türkiyədə yaşayan Azərbaycan mühacirətinin nümayəndələri kommunizmə, sovet quruluşuna nifrət bəsləmələrinə baxmayaraq, Heydər Əliyevin xalqının milli-mənəvi inkişafına göstərdiyi qayğısını təqdir edir, şəninə xoş sözlər deyir onun, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, üzv seçilməsinə və SSRİ

Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsinə, Kreml elitasında nüfuz qazanmasına sevinirdilər.

Heydər Əliyev fəaliyyətində türk xalqının milli azadlıq mübarizəsini, yüksək qiymətləndirərkən, Türkiyənin suverenliyinin möhkəmləndirilməsinin mühüm siyasi əhəmiyyətini dəyərləndirərkən obyektiv olaraq bunun Azərbaycanın müstəqilliyi üçün də əhəmiyyətini qeyd edirdi.

Məlumdur ki, sovet dövründə antisovet meyilli müəllimlərin auditoriyalara girməsi SSRİ DTK-sı üçün arzu edilən deyildi. Həmin şəxslər daim nəzarət altında olur, gənclərlə ünsiyyət saxlamalarına imkan verilmirdi. SSRİ DTK-nın sədri Y.Andropov 1970-ci il 12 may tarixində 1281-A №-li məxfi məktubla Sov.İKP MK-ya müraciət edərək bildirirdi ki, bir sıra orta və ali məktəblərdə əvvəllər antisovet fəaliyyəti üstündə mühakimə edilmiş bəzi şəxslər müəllim işləyərək tələbə və gənclərə mənfi təsir edirlər. O, belə şəxslərin tədris prosesindən uzaqlaşdırılmasını, işə götürülərkən isə həmin amilə diqqət yetirməyi tövsiyə edirdi. Bundan sonra ölkədə həmin istiqamətdə fəaliyyət sərtləşdirilsə də, Azərbaycan rəhbəri rejimdən narazı olan müəllimləri Universitetdən uzaqlaşdırmağa meyil etmir, onlara toxunmurdu. Antisovet baxışları ilə tanınmış professor Abbas Zamanov, Xəlil Rza, Bəxtiyar Vahabzadə, Əbülfəz Əliyev və onlarla başqaları ali məktəb auditoriyalarında dərs verməkdə davam edirdilər. Rast gəlinən antisovet, millətçi təzahürlər çox vaxt elə yerindəcə ört-basdır olunur, profilaktik tədbirlərlə tərbiyə işləri görülür, alimlər, ziyalılar rejimin cəngindən xilas edilirdilər.

1975-ci ildə Heydər Əliyevə belə bir informasiya çatır: Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi Əbülfəz Əliyev (Elçibəy) millətçilik üstündə həbs edilib. Buna operativ reaksiya verən Heydər Əliyev DTK sədrindən həmin məsələni şişirtməməyi xahiş edir. DTK sədri onun bu xahişinə əməl edir. Heydər Əliyev məsələni araşdırdıqdan sonra öyrənir ki, Ə.Əliyev bir qrup şəxslə çayxanalarda, universitet auditoriyalarında Rusiyanın Azərbaycanı

işğal etməsi, müstəmləkəçilik siyasəti yeritməsi, xalqın ağır vəziyyəti barədə söhbətlər edir. Elə buna görə də onu həbs ediblər. Heydər Əliyev məsələni dərindən öyrənərək bu söhbətlərin dövlət üçün heç bir təhlükə törətmədiyi qənaətinə gəlir və bir müddət sonra Ə.Əliyev həbsdən azad edilir.

Heydər Əliyev vətənini ürəkdən sevən, onun qayğıları ilə yaşayan Böyük Vətəndaş kimi tarixçilərimizi narahat edən problemlərə həssaslıqla yanaşırdı. O, bilirdi ki, bir çox xalqların görkəmli tarixçiləri milli elitanın ən nüfuzlu nümayəndələri kimi qiymətləndirilirlər.

Arxeoloq Əsədulla Cəfərov «Heydər Əliyev və Azərbaycanda arxeologiya elminin inkişaf» adlı məqaləsində belə bir fikir yazıb: «1970-ci illərin ortalarında Azərbaycan Albaniyasının paytaxt şəhəri olan Qəbələnin məhv olmaq təhlükəsi yaranmışdı. SSRİ Müdafiə Nazirliyinin planına əsasən, Qəbələ Radiolokasiya Stansiyasının (RLS) tikintisi üçün yüksək gərginlikli elektrik xətlərinin qədim Qəbələ şəhərinin ərazisindən keçməsi nəzərdə tutulmuşdu. Bu barədə Tarix İnstitutunun direktoru, akademik İqrar Əliyev o vaxt Azərbaycan KP MK-nin Birinci katibi işləyən Heydər Əliyevə məlumat verdikdən sonra məsələ Sov.İKP MK Siyasi Bürosunda müzakirə edilmiş və Ulu Öndərimizin nüfuzu və dəmir məntiqi sayəsində qədim Qəbələ şəhərinin zəngin maddi-mədəni tarixi abidələri məhv olmaq təhlükəsindən xilas edilmişdi».

Akademik İqrar Əliyev çox sonralar qədim tarixə malik Qəbələnin məhv olma təhlükəsindən xilas edilməsini yüksək dəyərləndirərək Ulu Öndərin bu xidmətini öz vətəninə, tariximizə və mədəniyyətimizə bağlı mərd bir şəxsiyyətin addımı kimi qiymətləndirmişdi. O yazırdı: «Heydər Əliyevin tapşırığı ilə Q.Xəlilovun sədrliyi altında Dövlət Komissiyası yaradıldı və biz səhəri gün Qəbələyə yola düşdük. Vəziyyət doğrudan da acınacaqlı idi. Burada məlum oldu ki, indiki məşhur Qəbələ RLS-in tikinti layihəsi o zaman Azərbaycan SSR layihə institutlarının birində işləyən milliyyətcə erməni qadını tərəfindən hazırlanıbmış və qədim paytaxt Qəbələnin üzərində tikilməli imiş».



*Heydər Əliyev Azərbaycan xalqının iftixar və qürur mənbəyidir.*



*Milli-siyasi intibahımızın başlanğıcı Heydər Əliyevlə bağlıdır.*

Beləliklə, Azərbaycan SSR-in rəhbəri Heydər Əliyev bu məsələ ilə bağlı qəti addımlar atdıqdan sonra qədim Qəbələ şəhəri üzərində qurulmuş bütün qurğular sökülmüş, tarixi abidədən uzaqlaşdırılmış və şəhərdən kənarda qurulmuşdu. Heydər Əliyevin səyi nəticəsində «Azərbaycan xalqının dövlətçilik abidəsi olan Qəbələ şəhəri xilas edildi».

Bu hadisə sovet dövründə yüksək rütbəli şəxs tərəfindən siyasi qətiyyətin bariz nümunəsi idi. Heydər Əliyevin bu siyasi qətiyyətli addımı Azərbaycan tarixçilərində milli-vətənpərvərlik hissini daha da artırmışdı.

Doğrudur, Azərbaycan tarixinin kompleks şəkildə araşdırılmasına və tarixi tədqiqatların məqsədyönlü surətdə təşkilatlandırılması işinə hələ 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması ilə başlanılmışdı. Bu qurumun yaradılması ilə Azərbaycanın tarixi problemlərinin elmi surətdə tədqiqi işini həyata keçirə biləcək akademik elmi-tədqiqat institutunun – bugünkü A.A.Bakıxanov adına Tarix İnstitutunun əsası qoyulmuşdu.

Elmi-tədqiqat işlərinin intensiv xarakter alması nəticəsində 1929-cu ildə həmin cəmiyyətin kadrları sayəsində Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun tərkibində Tarix və Etnoqrafiya şöbəsi yaradılmışdır. 1932-ci ildə həmin İnstitut SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Sektorunun tərkibinə daxil edilmişdir. 1935-ci ildə isə bu sektorun bazasında SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı nəzdində müstəqil Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılması haqqında qərar qəbul olunmuş və institut 1936-cı ildən fəaliyyətə başlamışdır. SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı tərkibində isə Tarix İnstitutu ayrıca bir elmi-tədqiqat müəssisəsi kimi 1940-cı ildən yaradılmışdır. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası təşkil olunarkən Tarix İnstitutu müstəqil elmi müəssisə kimi onun tərkibinə daxili edilmişdir. Sonradan – 1951-ci ildə Tarix İnstitutu Azərbaycan SSR Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutuna çevrilmiş, 1956-cı ildə AMEA Rəyasət

Heyəti yanında Fəlsəfə Sektoru yaradıldıqdan sonra yenidən əvvəlki adı ilə – müstəqil institut kimi fəaliyyət göstərməyə başlamışdır.

Xatırladaq ki, XX əsrin 60-cı illərində Qarabağ diyarının dünya şöhrətli qədim insan düşərgələrində – Azıx və Tağlar mağaralarında arxeoloji tədqiqat işlərinə başlanmışdı. Azərbaycan arxeologiya elmində silinməz izi olan Məmmədəli Hüseynovun rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın Qarabağın Quruçay ərazisində apardığı elmi-tədqiqat işləri zamanı müəyyən edilmişdir ki, hələ çox qədim zamanlardan bu ərazidə canlı həyatın inkişafı üçün əlverişli təbii coğrafi şərait olmuşdur. Qazıntılar sübut etdi ki, Azərbaycanın ilk sakinləri paleolit dövründə Azıx və Tağlar mağaralarında yaşamışlar.

1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR-in Mərkəzi Komitəsinin Birinci katibi təyin edildiyi gündən dövrün ideoloji çətinliklərinə baxmayaraq, respublikanın bütün iqtisadi, ictimai, sosial sahələrində olduğu kimi, elm və təhsil sahələrində də azərbaycançılıq siyasətini həyata keçirməyə başladı. Bu siyasət çox incə üsulla həyata keçirilir və gələcəyə köklənmiş strateji sahələri əhatə edirdi. Elm və təhsil strategiyasını milli mənafelərlə uzlaşdıran Heydər Əliyev Azərbaycanın elmi potensialını tez bir zamanda diqqətə götürərək, respublikamızı SSRİ-nin qabaqcıl respublikaları sırasına qaldırmağı bacardı. Onun respublikaya rəhbərlik etdiyi birinci dövrdə elmi elitanın yüksəlməsi, xaricdə təhsil alan tələbələrin sayının artması, yüksəkixtisaslı kadrların hazırlanması işinin səmərəli şəkildə həyata keçirilməsi, yeni təhsil və elm ocaqlarının açılması, ilk hərbi məktəbin təşkili və digər bu kimi milli elitanın formalaşmasına kömək edən tədbirlər həyata keçirildi.

Heydər Əliyevin siyasi elita konsepsiyasının fundamental prinsipi olan vətənpərvərlik tərbiyəsi hər bir sahədə olduğu kimi, Azərbaycan tarixi sahəsində də çox əhəmiyyətli problem olmuşdur. Tarix elminin tədqiqi və təhsili işinin yüksəlişi Heydər Əliyevin hakimiyyətdə olduğu birinci dövrdən başlamışdır. 1974-cü

ildə yerli arxeoloq kadrların formalaşdırılması işi nəzərə alınaraq, respublikada arxeoloji kəşfiyyat işlərini sistemləşdirmək məqsədilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun tərkibində arxeologiya və etnoqrafiya sektoru təşkil edilmişdi.

XX əsrin 1970–1980-ci illərinin ən böyük elmi nəşri, xalqımızın milli şüurunun yetkinliyindən xəbər verən Azərbaycan Sovet Ensiklopediyası olmuşdur. Bu çoxcildli əsərdə bütün elm sahələri ilə yanaşı, Azərbaycanın tarixi ilə bağlı maraqlı materiallar əksini tapmışdır. Dövrün ciddi ideoloji təsirləri altında qədim Azərbaycan dövlətləri, tarixi məkanlar, tarixi şəxsiyyətlər, milli qəhrəmanlar, tarixi terminlər və digər tarixi kateqoriyalar ensiklopediyada təfsilatı ilə verilmişdir. Ensiklopediyanın böyük redaksiya heyətinin əməyi danılmazdır. Məhz Heydər Əliyevin təəssübkeşliyi ilə ensiklopediyaçılar bir neçə ideoloji məsələlər və erməni alimlərinin hücumlarından qorunmuşdular. Əslində ensiklopediyada ideologiya və siyasət olmamalı, yalnız faktlar verilməlidir. Lakin sonralar həmin ensiklopediya heyətindən olan tarixçilərin xatirələri onu deməyə imkan yaratdı ki, ensiklopediya işi heç də siyasətdən kənar olmamış və Heydər Əliyev kommunist rejimi dövründə real tariximizi yazmağa çalışanları himayə etmiş, onları siyasi təqiblərdən qorumuşdur. Sonralar, 2004-cü il yanvarın 12-də Prezident İlham Əliyevin imzaladığı Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında Sərəncamda Azərbaycan Sovet Ensiklopediyası belə dəyərləndirilmişdir: «1976–1987-ci illərdə çap olunmuş «Azərbaycan Sovet Ensiklopediyası» Azərbaycan tarixində bilik və məlumatların bütün sahələrini əhatə edən ilk universal xarakterli fundamental əsər olmuşdur. Böyük elmi potensialın cəlb olunması ilə hazırlanan bu oncildli ensiklopediyanın nəşri Azərbaycanın elmi və mədəni həyatında mühüm hadisəyə çevrilmişdir».

«Azərbaycan tarixi» yeddicildliyinin yazılmasında əməyi olan ictimai elmlərin nümayəndələrinin formalaşaraq inkişaf etmələri bilavasitə Ulu Öndərin qayğısı nəticəsində olub. Ziya Bünyadov, Cəmil Quliyev, İqrar Əliyev, Sara Aşurbəyli, Teymur

Bünyadov, Tofiq Köçərli, Qaraş Mədətov, Mahmud İsmayılov və başqalarının Azərbaycan tarixinə aid tədqiqat işləri xalqın milli-tarixi şüurunun formalaşmasında mühüm rol oynamışdır.

Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına «Beynəlmiləlçilik» şüarı milli düşüncəyə isə kommunist ideologiyası mənfi təsir göstərirdi. Müttəfiq xalqların tarixi SSRİ tarixinin kölgəsində qalırdı. Vətən tarixi unutdurulur, «sovet gənclərinə» «SSRİ tarixi» adı altında rus-slavyan xalqlarının tarixi tədris və təbliğ edilirdi. Məsələn, 70-ci illərdə müttəfiq respublikaların elmlər akademiyalarının tarix institutlarının əksəriyyəti öz xalqlarının çoxcildlik tarixini hazırlamağı planlaşdırmışdılar. O cümlədən «Azərbaycan tarixi»nin 9 cilddə yazılması üçün Baş redaksiya şurası yaratmış, cildlərin redaksiya heyəti təsdiq edilmişdi. Qərarın səhəri günü cildlərin redaksiyaları, müəllifləri artıq fəaliyyətə başlamışdılar. Bu təşəbbüs «ideoloji rəhbərliyi», əsasən, MK-nın katibi «boz kardinal» M.A.Suslovu çox narahat etmişdi. Hətta Sov. İKP Mərkəzi Komitəsində bu məsələ respublika rəhbərlərinin və tarixçilərin iştirakı ilə müzakirə olunmuşdu. Müzakirədə hər respublikanın fərdi «çoxcildlik» tarixinin əvəzinə regionlar (zonalar) üzrə birgə kitabın yazılması məsləhət görülmüşdü. Bu səbəbdən bir müddət respublikalar üzrə çoxcildlik tarixin yazılması ləngidildi. Ancaq Azərbaycan KP MK Birinci katibi Heydər Əliyevin və Qazaxıstan KP MK Birinci katibi D.Ə.Kunayevin Moskvaya məktubları sayəsində işə yenidən başlanıldı.

Heydər Əliyev Kremlin ideologiyasına baxmayaraq, Azərbaycan tarixinin tədqiqi və yazılması ilə bağlı tapşırıqlar verməyi unutmurdu. Lakin tarix elmi ictimai-siyasi elm olduğundan hakim ideologiyanın təzyiqləri üzündən tədqiqatların obyektiv aparılması mümkün olmurdu. Buna baxmayaraq, bir çox alimlərin əsərləri işıq üzü gördü. Lakin bu əsərlərdə də xalqın əsl milli tarixi əksini olduğu kimi tapmadı, bir çox məqamlarda saxtalaşdırmalara, təhriflərə yol verildi. XX əsrin 80-ci illərinin sonlarında başlayan məlum siyasi hadisələrin və milli hərəkatın vüsət alması sayəsində isə fundamental «Azərbaycan tarixi» çoxcildliyi yazılıb

başa çatdırıldı. Bu iş yalnız Heydər Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində reallaşdı. Xalqın obyektiv tarixi biliklərə, xüsusilə vətən tarixinə daim artmaqda olan marağını nəzərə alaraq, Elmlər Akademiyasının Rəyasət Heyəti 1997-ci il sentyabr ayının 24-də çoxcildli «Azərbaycan tarixi»nin hazırlanıb nəşr edilməsini də qərara aldı və bu iş də uğurla həyata keçirildi.

Heydər Əliyevin liderlik fəaliyyəti sayəsində 1969-1987-ci illərdə Azərbaycan nəinki SSRİ-də, həmçinin dünyada daha çox tanınmış və nüfuzlu ölkəyə çevrilmişdi. Məhz düzgün düşünülmüş tədbirlər sayəsində o, Azərbaycan xalqını bir xalq olaraq tanıtdı, milli mədəniyyətimizi inkişaf etdirdi, xalqa arxalanaraq onda milli ləyaqət hissini gücləndirdi və Azərbaycan cəmiyyətində həmrəyliyi bərqərar etdi. Hakimiyyətlə xalq arasında anlaşmaya nail olmuş Heydər Əliyev hakimiyyət strukturlarında da yüksək intizam və işgüzar şərait yarada bilmişdi.

Heydər Əliyev üçün Dağlıq Qarabağ problemi ən ağrılı milli məsələ idi. Ekspertlərin fikrincə, Qarabağ problemi SSRİ-nin dağılmasının detanatoru olmuşdur. Ulu Öndər deyirdi: «1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə, vətəndaşların Konstitusiya hüquqlarının qorunmasına qarşı yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi.

«Qara statistika»nın məlumatına görə, SSRİ 1991-ci il dekabrın 25-də saat 19:00-da dağıldı. Hələ müharibə dövründə ABŞ-ın Rusiyadakı səfiri Harriman demişdi ki, Rusiyada gələcəyin deyil, bəşəriyyətin uzaq keçmişinin cəmiyyəti qurulmuşdur – onun sonunun labüdlüyü məhz bundadır. Sonralar isə, 1960-cı ildə Riçard Nikson demişdi ki, N.S.Xruşşovun nəvələri azad cəmiyyətdə yaşayacaqlar. Xruşşov isə həmin dövrdə elan etmişdi ki, kommunizm hər cür kapitalizmi birdəfəlik və həmişəlik basdıracaqdır.

Bir sözlə, Sovetlər İttifaqı dağıldı, onun son zərbəsi isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya imperiya qoşunlarının yeridilməsi oldu. Qorbaçov, Rıjkov, Jazov, Primakov komandasının digər üzvləri birsəslə elan etdilər ki, Bakıya qoşun yeridilməsində məqsəd SSRİ-nin dağılmasına imkan verməmək idi.

Hər halda qanlı hadisə baş verdi. Günahsız soydaşlarımızın taleyinə faciə yazıldı. O dövrdə «istefada» olan Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinin binasına gələrək özünün ittiham nitqini söylədi. Vətənpərvərlik əhəmiyyətini itirməyən bu nitqin mətnini eynilə veririk:

*«Əziz həmvətənlərim!*

*Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.*

*Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmamış hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm...*

*Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya-siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.*

*Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti*

*sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yalnış siyasi manevrləri ilə xalqla özü arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.*

*İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir...*

*Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.*

*Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır».*

Kremlin məkrli siyasət məkanı olması həqiqətini Heydər Əliyevin sonralar «Nedelya» qəzetinin müxbirinə verdiyi müsahibəsindəki bir epizod da çox yaxşı xarakterizə edir: «1990-cı il yanvarın 19-da gözlənilmədən Qorbaçov zəng etdi. Məni qəbul etmək, dinləmək barədə təkidlə etdiyim xahişlərə üç il məhəl qoymamışdı. Xahişlərim isə şəxsi məsələlərlə bağlı deyildi –

məni Qarabağdakı hadisələr narahat edirdi. Yox, keçmiş «yoldaş» məni qəbul etmirdi ki, etmirdi. İndi isə, budur deyir: Bakıda vəziyyət pisdir, Azərbaycana nə isə bir əlac tapmaq lazımdır. Axı siz onun həyəcanlı-hamar nitqini eşitmisiniz. Buna görə də başa düşə bilmədim: ona görə pisdir ki, mən günahkaram, yaxud məndən kömək istəyir? Sonra söhbət kəskin şəkil aldı, mən təfərrüata varmaq istəmirəm, lakin biz yenə acılı-ağrılı fikirlərlə ayrıldıq. Ən başlıcası isə, heç cür təsəvvürümə gətirə bilmirdim ki, o, Bakıya qoşun yeritmək və oradakı iğtişaşları güc işlətməklə yatırmaq barədə artıq qərar qəbul etdikdən sonra mənə zəng etmişdir. Faciə baş verdi. Bundan sonra bütün gecəni yata bilmədim. Hey fikirləşdim, nəhayət, başa düşdüm ki, adamlar fəlakətə düçar olanda kənarda qala bilmərəm».

Bizə elə gəlir ki, Heydər Əliyevin Kreml elitasında fəaliyyətinin öyrənilməsinin müstəsna əhəmiyyəti vardır. Daha dəqiq desək, bu fenomen hələ axıra kimi tədqiq edilməmişdir. Halbuki, Heydər Əliyev dühası və Sovet İttifaqı bir şəxsiyyətdə iki epoxanın yerləşdirilməsidir.

Moskvalı müəllif A.Karavayev qeyd edir ki, Heydər Əliyevin Kremldə beşillik fəaliyyəti çox gur, mənalı və olduqca məhsuldar olmuşdur. Onun fəaliyyətinin əsas dövrləri kimi Heydər Əliyevin Azərbaycan epoxası və Heydər Əliyevin Rusiya epoxası dövrlərini göstərmək olar. Bu gün onun şəxsiyyəti Rusiyada və Azərbaycanda Sovet hakimiyyətinin ali strukturlarında özü-özünü şəxsiyyət edən (self-made) insan simvoludur. Sovet dövrünə nəzərən Kremldə onu çox zaman Azərbaycanın Atatürkü adlandırırdılar. Ən əsası budur ki, o, daha miqyaslı tarixi irsini böyük bir dövlətin liderlərindən biri kimi məhz Moskvada qoymuşdur.

Faktlara müraciət edək. Onun nəzarətində 12 nazirlik var idi. O, maşınqayırma, ticarət, yüngül sənaye (təkcə bu sahədə 3 milyon adam məşğul idi, 3700 müəssisə işləyirdi), nəqliyyat və rabitəni idarə edirdi. Onun sərəncamında mədəniyyət və təhsil sahələri yerləşirdi. Heydər Əliyev 1984-cü ildən sovet məktəbinin islahat komissiyasına rəhbərlik etmiş, 1986-cı ildə isə sosial

inkişaf üzrə SSRİ Nazirlər Soveti Bürosunun sədri vəzifəsini tutmuşdu. O, həmçinin qarışıq iqtisadiyyatlı ölkələrdə profili olmayan layihələrin reallaşdırılmasında da fəal iştirak etmişdi. O dövrün Nazirlər Sovetinin və Siyasi Bürosunun ən mühüm sənədlərində Heydər Əliyevin imzası vardı. Məsələn, o, Nazirlər Sovetinin Operativ Məsələlər üzrə Komissiyasına başçılıq etmişdi, bu komissiyaya hökumətin və bir sıra nazirliklərin müavinləri daxil idi. Heydər Əliyevin gəlişi ilə bu komissiya Nazirlər Sovetinin rəhbər orqanına çevrilmişdi. O, Sovet İttifaqının iqtisadi idarəçiliyi ilə bağlı mühüm məsələləri həll edir, cavabdehləri məruzə etməyə çağırır və sahə rəhbərlərinə tapşırıqlar verirdi. Komissiyanı bəzən «ikinci siyasi büro» adlandırırdılar. Bundan əlavə, Yaxın Şərq istiqamətləri üzrə beynəlxalq əlaqələr sahəsində də onun əvəzsiz xidmətləri olmuşdur.

Moskvalılar sosial sahədə və səhiyyə işində onun apardığı islahatları bu gün də xatırlayırlar. Onun təşəbbüsü ilə ilk kompleks diaqnostik mərkəzlər yaradılmış, dəstəyi sayəsində cərrahlara açıq ürəkdə ilk əməliyyatlar aparmağa icazə verilmişdi. Heydər Əliyevin təşəbbüsü ilə Svyatoslav Fyodorun mikrocərrahiyyə mərkəzinin fəaliyyətinə start verilmişdi. O, S.Fyodorovun Volqada üzən çay teploxodunda mobil laboratoriya yaradılmasında yaxından iştirak etmişdi.

1987-ci ilin avqustunda Sov.İKP MK-nın «2000-ci ilədək sağlamlığın qorunmasının və SSRİ səhiyyəsinin yenidən qurulmasının inkişafının əsas istiqamətləri haqqında» qəbul etdiyi qətnamə «erkən» yenidənqurmanın ən mühüm sənədi olmaqla, səhiyyə sahəsində vəziyyətin yaxşılaşmasında, maddi-texniki bazasının yenilənməsində müstəsna rol oynadı. Moskvalılar bu islahatı «Heydər Əliyev təşəbbüsü» adlandırırdılar. Heydər Əliyevin əhali arasında populyarlığını bu faktı xatırlatmaqla da diqqətə çatdırmaq olar: 2007-ci ilin yazında «Exo Moskvi» radiostansiyası son yüz il ərzində Rusiyanın görkəmli insanları haqqında reytinq sorğusu keçirmişdir. Dinləyicilər əlifba qaydasında cavab verməli idilər. Maraqlıdır ki, «A» hərfi üzrə ən layiqli,

şəxslər arasında Anna Axmatova, Yuri Afanasyev ilə yanaşı Heydər Əliyevin də adı çəkilmişdi.

Heydər Əliyevin Sovet dövründəki, xüsusilə Siyasi Büro elitasındakı populyarlığını tam ölçüdə yalnız dövrün kontekstini bilmək və o illərin rəhbərlərinin qavrama stereotiplərini başa düşmək sayəsində dərk etmək olar. Tez bir zamanda texnogen fəlakət yerlərində olmaq, ölkənin iri tikintilərinə şəxsən getmək, müxtəlif peşə sahibləri və elita ilə görüşüb ünsiyyət yaratmaq insanlarla başa düşülən dildə söhbət etmək heç də o dövrdə, normal siyasi və inzibati praktika kimi qəbul edilmirdi. Çünki «yerlərdə» olmaq sovet dövrü rəhbərlərinin psixoloji davranışına xas deyildi. O illərdə belə fəallıq sovet cəmiyyəti üçün ən azı qeyri-adilik sayılırdı. Heydər Əliyevin belə fəallığı rəqiblərini qıcıqlandırırdı. O, hər cür şəraitə uyğunlaşa bilirdi. Çoxları bu keyfiyyəti sovet sistemi okeanında «xilas kəməri» kimi başa düşürdü. Təcrübə göstərdi ki, sovet rejimini çökdürən amillərdən biri də məhz bu «sovet stereotipi» olmuşdur. Heydər Əliyev isə əsl mübariz xarakterini ömrünün sonunadək saxlaya bilmişdi.

SSRİ-nin strateji əhəmiyyətli obyekti sayılan Baykal–Amur magistralı, müstəqillik əldə edildikdən sonra Rusiyanın olur. Heydər Əliyev SSRİ Nazirlər Şurasının sədrinin birinci müavini kimi bu tikintinin kuratorluğunu həyata keçirmişdir. Təsəvvür edək ki, 4324 km. dəmiryolundan, onlarla çay üzərindəki 2230 körpüdən, 20 dəmiryol dayanacağından, dəmiryolu sahələri və qəsəbələrdən ibarət olan «əsrin tikintisi»nə Heydər Əliyev rəhbərlik etmişdir. H.Əliyevlə işləyənlər qeyd edirlər ki, o, kreativ mürəkkəb, bəzən riskli qərarlar qəbul etməyi bacarırdı. 2008-ci ilin iyulunda BAM-ın ən iri stansiyalarından birinə – Angoy şəhərindəki stansiyaya Heydər Əliyevin adı verilmişdi.

Heydər Əliyevin Kreml elitasında nüfuzu və istedadı barədə çox yazmaq olar. O, hələ axıra kimi tədqiq olunmamış fenomendir. Onun sovet sistemində karyerasının öyrənilməsi müasir islahatlar və siyasi mübarizə kontekstində bu gün də aktuallığını saxlayır.



*Heydər Əliyev: «Mən də, övladlarım da Azərbaycanın müstəqilliyi üçün hər an şəhid olmağa hazırıq».*



*Heydər Əliyev: «Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir».*

Ən önəmli isə budur ki, taleyin hökmü onu yenidən Azərbaycana qaytardı.

Heydər Əliyevin həmin illərdə gördüyü işlərə nəzər salarkən qətiyyətlə demək mümkündür ki, onun siyasi fəaliyyətinin sovet dövrü mərhələsinin ideoloji əsasında da milli ideya – azərbaycançılıq ideyaları dururdu. XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan dövlətinin bərpa edilməsinə aparan yol məhz Heydər Əliyevin siyasi fəaliyyəti sayəsində formalaşmışdır.

## *2.3. Keçid dövrü və yeni tipli siyasi elitanın formalaşması*

Ulu öndər Heydər Əliyevin keçid dövründə mürəkkəb problemlərin həllinə yönəldilmiş praktiki və siyasi fəaliyyəti böyük nəzəri maraq kəsb edir. Odur ki, diqqəti dövlət idarəçiliyi strategiyasına Heydər Əliyev töhfəsinin bəzi cəhətlərinə yönəltmək istərdik.

Keçid dövrü – dağıtma, köhnəni dəyişdirmə, yenini yaratma və onu bərqərar etmə dövrüdür. Hər bir ölkənin, xalqın həyatında keçid dövrü dəyərlərin yenidən qiymətləndirilməsi, mövqelərin yenidən nəzərdən keçirilməsi, ideyaların və konsepsiyaların zamanla səsləşməsi ilə səciyyələnir. Bir ictimai-iqtisadi və siyasi sistemdən digərinə keçməklə xarakterizə olunan bu dövrdə ictimai həyatın, o cümlədən cəmiyyətin və dövlətin köhnə idarəetmə prinsiplərindən imtina edilməsi məsələsi obyektiv problem kimi ortaya çıxır. Təəssüf ki, sosial idarəetmə nəzəriyyələrində, əsasən, Qərb siyasət fəlsəfəsində kapitalist cəmiyyətinin və kapitalist dövlətinin sabit dəyərləri və meyilləri, dövlət idarəçiliyinin sosialist ideyaları əksini tapmışdır. Əvvəla, keçid dövrü problemi istər sosialist, istərsə də burjuaziya sosial idarəetmə təlimlərinin ən zəif həlqəsidir. İkincisi, XX əsrin 90-cı illərinə qədər fəlsəfi politoloji tədqiqatlarda keçid dövrü birmənalı şəkildə belə şərh edilirdi – məhz kapitalizmdən sosializmə keçid dövrü, yəni nisbətən aşağı formasiyadan daha yüksək formasiyaya keçid dövrü.

Ona görə də sosial və dövlət idarəçiliyinin bütün kompleks problemləri sosializm quruculuğu, yeni cəmiyyətin həll etdiyi problemlər, həyata keçirdiyi vəzifələr kontekstinə daxil edilirdi. Həm də dövlət idarəçiliyinin bu məsələlərinə, sosializm quruculuğunun vəzifələrinə siyasi rejimin metodologiyasına və ideoloji məqsədlərinə uyğun olaraq baxmaq lazım gəlirdi. Başqa bir məsələ: dövlət idarəçiliyi nəzəriyyəsi tarixin «əks inkişaf»ını, sosializmdən kapitalizmə hərəkətin kompleks problemlərini və vəzifələrini dərk etməyə hazır deyildi.

Tarixin əks istiqamətdə inkişafı heç də keçmiş yola qayıtmaq kimi başa düşülməməlidir. Ən azı ona görə ki, MDB-nin digər ölkələrində olduğu kimi, Azərbaycanda da sosializməqədərki dövr sabit kapitalist münasibətləri və inkişaf etmiş kapitalizm dövrü olmamışdır. Bu dövrdə kapitalist və feodal münasibətləri eyni zamanda mövcud olmuşdur. Ona görə də müasir keçid dövrünün başlıca vəzifəsi 1920-ci ilin apreləqədərki dövründə bərqərar olmuş yarıkapitalist münasibətlərinə qayıtmaqdan ibarət deyildi. Bu dövrün əsas məqsədi cəmiyyəti demokratiya və hüquqi prinsiplərə, demokratik mədəniyyətə, ümumbəşəri və milli dəyərlərin əlaqələndirilməsi və uyğunlaşdırılmasına əsaslanan sabit və inkişaf etmiş kapitalist münasibətlərinə gətirib çıxarmaqdan ibarətdi.

Bu baxımdan Heydər Əliyevin ideya-nəzəri, siyasi, dövlət və praktiki fəaliyyəti böyük nəzəri və praktiki maraq kəsb edir. Onun siyasət fəlsəfəsi ideyalarla o qədər zəngindir ki, onların öyrənilib ümumiləşdirilməsi keçid dövründə dövlət quruculuğunun dialektikası, bu dövrə aid dövlət idarəçiliyinin strukturu, məqsəd və vəzifələri, həmçinin keçid dövrünün subyekt-obyekt münasibətləri haqqında mühüm ideyalar irəli sürmək baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Onun dövlətçiliyin, dövlət suverenliyinin və xalq kütlələrinin cəlb olunmasına yönəldilmiş siyasi fəaliyyətinin də nəzəriyyə və praktika üçün böyük əhəmiyyəti vardır. Bizə elə gəlir ki, keçid dövrünün sosial-siyasi problemləri həmişə nüfuzlu sosial-

fəlsəfi araşdırmaların aktual tədqiqat predmeti olmalıdır. Burada Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi dövrün ilk mərhələsi nəzərdə tutulur. Bu həmin dövr idi ki, təcavüzkar Ermənistan Azərbaycan rayonlarını bir-birinin ardınca işğal edir, bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşımız ölkənin işğal olunmamış ərazilərində məskunlaşır, hər bir siyasi partiya, klan və mafioz qurum özünə silahlı dəstələr yaradırdı. Məhz bu dövrdə erməni, bütövlükdə isə xristian təbliğat maşını Azərbaycanın və azərbaycanlıların dünyada mənfi obrazının yaradılması üçün dəridən-qabıqdan çıxırdılar. Belə bir şəraitdə yenidən hakimiyyətə qayıtmış Heydər Əliyevin qarşısında böhranlı cəmiyyətdə hakimiyyətə, ədalətə inamını itirmiş, incidilmiş və alçaldılmış xalqın ləyaqətini və mənliyini bərpa etmək vəzifəsi dururdu.

O, xalqına belə bir sosial-psixoloji həqiqəti başa saldı: «Suverenliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir».

Həmin dövrün böhranlı mərhələsində H.Əliyev dövlət idarəçiliyinin başlıca vəzifəsi kimi cəmiyyətin həmrəylik zərurətini əsas sayırdı.

Məlumdur ki, onun 1993-cü ildə hakimiyyətə ikinci dəfə gəldiyi dövrdə xalq cəbhəçilərdən, müsavatçılardan üz döndərmiş, insanların hakimiyyətə, siyasətçilərə, dövlət strukturlarına inamı itmişdi. Bütövlükdə xalq və cəmiyyət çaşqın vəziyyətə düşmüşdü. Odur ki, hətta cüzi səhvlərə də yol vermədən, dərhal ciddi tədbirlər həyata keçirilməli idi. Məhz belə tədbirlər həqiqətən həyata keçirildi, nəticələr isə xalqın gözü qarşısındadır.

Naxçıvan Muxtar Respublikasının əhalisi dünya mənzərəsinin məhz belə bir dönəmində Heydər Əliyevi muxtar respublikaya rəhbərlik etməyə dəvət etdi. Vətəni Naxçıvanı həyatı qədər sevsə də, o, bir neçə gün bu təklifi qəbul etməmişdi. Ona görə ki, özünü yenidən dövlət işinə bağlamaq niyyətində deyildi. Heydər Əliyev sonralar bu məsələni «Nedelya» qəzetinin müxbirinə verdiyi müsahibədə belə qeyd etmişdi: «1987-ci ildə məni Sov.İKP MK Siyasi Bürosundan istefaya «göndərəndə» özümə söz verdim ki, dövlət fəaliyyətinə bir daha qayıtmayacağam.

Uzun müddət buna əməl etdim, hətta siyasətlə də məşğul olmadım».

Lakin Böyük Vətəndaş o vaxt nəinki Naxçıvandakı, hətta bütün ölkədəki ağır şəraitə biganə qala bilməzdi. Bu Heydər Əliyevin insani ləyaqəti ilə bir araya sığmırdı. Belə bir qayıdış həqiqətən də Naxçıvan üçün tarixi bir şans oldu. Heydər Əliyev haqlı olaraq etiraf etmişdi ki, «bəlkə də Allah naxçıvanlılara və Azərbaycanın qədim müqəddəs torpağı olan Naxçıvana rəhm etmişdi ki, məni Naxçıvana getməyə məcbur etdi».

O, Naxçıvana gələrək muxtar respublikanın ağrılı problemləri ilə operativ şəkildə məşğul olmağa başladı. Amma o, görürdü ki, respublika hamının gözü önündə dağılır. Vaxtilə qoyub getdiyi çiçəklənən ölkə gündən-günə ağır vəziyyətə düşür. Nəsə ciddi bir addım atılmalıdır, sonra gec ola bilər. Bu zaman Naxçıvana – yanına çoxları, Azərbaycanın hər yerindən adamlar gəlirdilər. Onları qəbul edir, söhbət əsnasında rasional məsləhətlər verir, özünün dediyi kimi, bu adamların dərdlərinə şərik çıxır, nə mümkündürsə, edirdi. Ancaq heç bir iddiası yox idi. Məqsədi yalnız böhran içində zəifləyən Naxçıvanda normal həyatı təmin etmək idi.

1992-ci ilin fevralında Azərbaycanda hakimiyyət dəyişikliyi baş verən zaman Naxçıvana – Heydər Əliyevin yanına sıravi vətəndaşlardan başqa, Azərbaycanın bir çox görkəmli insanları, ziyalıları, dövlət adamları, hətta mətbuat səhifələrində onun əleyhinə çıxıb fəaliyyətini nankorcasına dananlar və onu tənqid edənlər də gedir, Azərbaycanın Ali Sovetinin sessiyalarında onun çıxışlarına mane olan adamlar da ona müraciət edirdilər. O, Azərbaycana – Bakıya dəvət olunurdu. Lakin təcrübəli siyasətçi, öz həyat fəlsəfəsinə sadiq qalan Ulu Öndər bunların heç birini qəbul etmədi. Siyasətdə hər şeyi bağışlamaq olur, amma xəyanəti yox! Bu, onun həyat fəlsəfəsinin əxlaq kredosu idi. Gələnlər, heç olmasa, bir həqiqəti başa düşmüşdülər: Heydər Əliyev Azərbaycana lazımdır. Lakin yüksək vətəndaşlıq əqidəsinə, siyasətçi ləyaqətinə malik bu insan qətiyyətini bir daha göstərərək onlarla bir yolun yolçusu olmayacağını bildirdi. «Hesab edirəm ki,

sizinlə bir yolda gedə bilmərəm» – Ulu Öndərin onlara son sözü bu olmuşdu.

Heydər Əliyev həmişə xatırlayırdı: «Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayıbdır. Demək, biz o vaxt nə qədər uzaqgörənlik etmişik, ölkəmizdə olan vəziyyəti nə qədər düzgün qiymətləndirmişik və partiyamızın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən etmişik».

1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyillərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhd göstərirdilər.

Bu dövrdə Heydər Əliyev müdrik uzaqgörənliklə deyirdi ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər nəticədə SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdı. Bunun ardınca baş verən hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri kimi hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi.

XXI əsrin ilk ilində – 2001-ci ildə Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsinin onilliyi ilə bağlı yığıncaqda

H.Əliyev demişdi: «Sözsüz ki, əsrin, minilliyin ilk ilində qeyd olunan bu yubiley bizim tariximizin ən mühüm mərhələlərindən birinə çevriləcəkdir. Müstəqilliyə gedən yollar heç də asan və hamar olmayıbdır. Təəssüf olsun ki, bu gün də ən yaxın tariximizi təhrif etmək, onu müxtəlif siyasi qüvvələrin «xeyrinə» saxtalaşdırmaq meyilləri duyulurdu. Bu dözülməz haldır».

Keçdiyimiz tarixi yola nəzər salarkən aydın olur ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir.

Beləliklə, 1991-ci il oktyabrın 18-də «Müstəqillik haqqında» Konstitusiya aktının qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin dördüncü mərhələsi başlandı. Azərbaycan xalqı o vaxtdan azad, sərbəst yaşayır, müstəqil dövlətini idarə edir. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir.

Hadisələri Naxçıvandan diqqətlə izləyən Heydər Əliyev deyirdi: «1991-ci ildə, demək olar ki, Azərbaycan üçün dövlət müstəqilliyi tabaqda gətirilib Azərbaycan rəhbərliyinin qarşısına qoyulduğu halda, hələ fikirləşirdilər ki, biz müstəqil dövlət olmamalıyıq. Ancaq tarix bunların hamısına cavab verdi. SSRİ dağıldı və onun dağılması tarixi zərurətdən irəli gələn hadisə idi. SSRİ-nin dağılması nəticəsində Azərbaycan da öz müstəqilliyini elan etdi. Baxmayaraq ki, bu müstəqilliyə meyli olmayan, yaxud onu istəməyən adamlar nə qədər müqavimət göstərsələr də, heç bir şeyə nail ola bilmədilər».

Yaşlı nəsil yaxşı xatırlayır, 1991-ci ilin əvvəlində – fevral ayında Heydər Əliyev ilk dəfə gəlib Ali Sovetin sessiyasında ürək yanğısı ilə çıxış etmişdi. Lakin təəssüf ki, təcrübəli siyasətçini dinləmək əvəzinə ona qarşı cürbəcür təzyiqlər, böhtanlar, təhqirlər yağdırmışdılar. «Mən o vaxt nə dedim? Demişdim ki, Dağlıq Qarabağ tamamilə əldən gedib, Dağlıq Qarabağ artıq Azərbaycanın deyil və Dağlıq Qarabağ haqqında Azərbaycan dövlətinin konsepsiyası, siyasəti yoxdur». Onun fikrincə desək, bütün işlər pərakəndə halda görülürdü. Kim haradasa bir tüfəng ata bilirsə,

atır, kim haradasa nə edə bilirsə, edir. Siyasət yoxdur. Haqlı fikirdir: çoxları şahiddir ki, Ali Sovet siyasətdən uzaq siyasətbaşlar meydanına çevrilmişdi.

Həqiqətən də «1988-ci ildən başlayaraq konkret, real bir konsepsiya və düşünülmüş siyasət olmadığına, özünü siyasətçi hesab edənlər problemlərin həlli yollarını birlikdə axtarıb tapa bilmədiklərinə görə Azərbaycan belə böhranlı vəziyyətə düşmüşdü. Təkcə Dağlıq Qarabağın özü yox, Azərbaycanın Dağlıq Qarabağ ətrafında yerləşən yeddi rayonu, azərbaycanlılar yaşayan rayonlar da işğal olunmuşdu. Düzgün siyasətin olmaması hərc-mərcliyə, xaosa gətirib çıxarmışdı. Heydər Əliyev düzgün olaraq belə qeyd etmişdi: «Bu işdə günahkar çoxdur. Həm o – 1988-ci ildə Azərbaycanda «fəaliyyət» göstərən hakimiyyət, həm ondan sonrakı hakimiyyət – 1990-cı ilin yanvar faciəsində tökülən qanlar üzərində Azərbaycanda hakimiyyətə gəlmiş qüvvələr, həm də ondan sonra hakimiyyəti əlinə keçirmiş Xalq Cəbhəsi, Müsavat – hamısı günahkardır».

Təbii ki, bu siyasətbazların səriştəsizliyi nəticəsində əldən verilmiş mövqeləri bir gündə, bir ayda, bir ildə bərpa etmək mümkün deyildi. O dövrdə siyasətdən uzaq, müdrik sözünü eşitmək mədəniyyəti olmayan cılız siyasətçilər deyirdilər: 1993-cü ildə Heydər Əliyev gəldi, bəs niyə bir şey etmədi? Ulu Öndər özü yaxşı cavab vermişdi: «Heydər Əliyevin sehrli çubuğu yoxdur, Heydər Əliyev insandır. Bəli, böyük siyasətçidir, onun böyük siyasəti var. Ancaq bu cür ağır və mürəkkəb məsələni bir gündə həll etmək mümkün idimi? Mümkün deyildi».

Azərbaycan gərginlik bataqlığı içində idi. Ölkəni sabit vəziyyətə gətirmək mümkün deyildi. Bir tərəfdən iqtisadi böhran, ikinci tərəfdən daxildə qarışıqlıq yaradan qanunsuz silahlı dəstələr, ölkəni talayıb-dağıdan cinayətkarlar, əmin-amanlığı, sabitliyi tamamilə pozmuşdular. Bununla yanaşı Ermənistan silahlı birləşmələrinin Azərbaycan torpaqlarını ardıcıl surətdə işğal etməsi və belə şəraitdə hər bir cinayətkar dəstənin, hər bir cinayətkarın öz şəxsi məqsədləri üçün planlı şəkildə bilərəkdən yeni cinayətlər

törətməsi – bunlar 1993–1994-cü illərin Azərbaycan reallıqları idi. Məhz, Ulu Öndərin qətiyyətli mövqeyi sayəsində bu neqativ halların qarşısı alındı.

Lakin çox təəssüf ki, zaman keçdikcə insanlar rahat yaşayışın təmin olunmasından sonra tam arxayınçılığa uyaraq 1993–1994-cü ildəki vəziyyətin bütün ağırlığını tez unutdu.

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində ölkə böhrandan çıxdı. 1990-cı ildən 1994-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı dağılma dövrünü keçmişdi. Əgər Azərbaycanın son dövr tarixinə nəzər salsaq, bunu təxminən belə təsnif etmək olar: 1988-ci ildən Azərbaycanda qeyri-sabitlik hökm sürmüşdü. Dağlıq Qarabağ münaqişəsi, Ermənistan–Azərbaycan münaqişəsi Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatını gərginləşdirmiş, daxili vəziyyət sabitliyini itirmişdi.

1992–1993-cü illərdə isə ölkədə vəziyyət daha gərgin və ağır idi. Həm torpaqların böyük bir qismi işğal olunmuş, həm də Azərbaycanın daxilində parçalanma qüvvələrinin «fəaliyyəti nəticəsində» Azərbaycan artıq parçalanmışdı.

Məlum olduğu kimi 1988-ci ildən sonra Ermənistan Respublikasının ərazisindən qovulan 200 mindən artıq azərbaycanlı, 50 mindən çox Axıska türkü, Dağlıq Qarabağın ərazisindən – doğma yurdlarından qovulmuş azərbaycanlılar və nəhayət, Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan zorakılıqla qovulmuş soydaşlarımız birlikdə bir milyon qaçqın ordusu təşkil edirdi. Onların Azərbaycanın başqa bölgələrində ağır şəraitdə yaşaması, bir tərəfdən, ölkəmizin nə qədər çətin, faciəli vəziyyətdə olduğuna, ikinci tərəfdən isə Azərbaycan xalqının nə qədər dözümlü, dəyanətli olduğuna sübut idi. Qaçqın düşmüş, çox əzab-əziyyətlərə məruz qalmış, faciəli həyat keçirmiş bu adamlar nə qədər mətanətli, nə qədər insanpərvər idilər.

Ulu Öndər qaçqınlar və məcburi köçkünlər probleminə xüsusi həssaslıqla yanaşırdı. O, Azərbaycan Respublikası Milli Məclisinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məsələnin müzakirəsinə həsr edilmiş (23.01.2001) iclasında de-

mişdi: «Dünyanın bir çox regionlarında qaçqınlar problemi böyük bəlalara, xalqların, insanların, ölkələrin faciələrinə gətirib çıxarıbdır. Ona görə də indi bu, ümumbəşəri, ümumdünyəvi problemlərin içərisində ən mühüm problemlərdən biridir».

Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikası son illərdə üzləşdiyi problemlər indi Azərbaycan Respublikasının həyatında yaranan çətinliklərin, gərginliklərin əsas səbəblərindən biridir. Ona görə ki, bu problemlər Azərbaycan dövlətinin varlığına daha yaxındır, insanların ehtiyaclarına qayğı Azərbaycan hakimiyyəti üçün daha böyük əhəmiyyət kəsb edir. Həmin məsələlərə dövlətin xüsusi həssaslığı və bu problemlərin ardıcıl surətdə həlli Azərbaycan Respublikasının bu günü və gələcəyi üçün çox əhəmiyyətlidir.

Ulu Öndər qaçqınlar probleminin Azərbaycan kimi kiçik bir ölkə üçün xüsusilə faciəli problem olmasını dünya birliyinə çatdırmaq üçün demişdi: «Azərbaycan xalqı son illər düşdüyü vəziyyətin bütün əzab-əziyyətini görərək, hiss edərək qaçqınlar probleminin bəşəriyyət üçün nə qədər ağır bir problem olduğunu dərindən dərk edir. Xalqımız dünyanın hər bir yerində qaçqınların, məcburi köçkünlərin vəziyyətini dərindən anlayır, onların çəkdiyi əzab-əziyyətləri öz əzab əziyyətləri hesab edir».

Heydər Əliyev hər bir xarici səfərində dünya ictimaiyyətinə belə bir həqiqəti çatdırırdı ki, Azərbaycan Respublikasının ərazisində olan qaçqınların, məcburi köçkünlərin vəziyyəti ən ağır, ən çətin, ən dözülməzdir. Ölkəmizdə soydaşlarımızın qaçqınlar, köçkünlər vəziyyətinə düşməsi səbəbləri də başqa regionlardakından çox fərqlidir. Bunların hamısı Azərbaycan Respublikası üçün – kiçik bir ölkə, dövlət üçün olduqca çətin və ağır problemlər yaradır.

Dünya ictimaiyyəti daha dərindən dərk etməlidir ki, respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın, erməni millətçi dairələrinin Azərbaycan Respublikasına, Azərbaycan ərazisinə qəsb etmək məqsədi ilə keçirdiyi hərbi əməliyyatların nəticəsidir. Bu hadisələrin hamısı öz başlanğıcını 1988-ci ildən götürüb.

Bütün bu çətinliklərə baxmayaraq, sonrakı dövrdə Azərbaycan hökuməti bir tərəfdən iqtisadiyyatı normal vəziyyətə gətirməli, ikinci tərəfdən isə ictimai-siyasi sabitliyi təmin etməli idi. Həmin dövrdə beynəlxalq aləmdə Azərbaycanın tanıdılması onun beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətini artırmalı idi. Bu məqam Heydər Əliyevin xarici siyasətində xüsusi əhəmiyyət kəsb edirdi. Bu taleyüklü problemlərin həlli Ulu Öndərin çox böyük enerji və zəkası sayəsində uğurla həyata keçirilirdi.

Həlli yolunda xüsusi səriştəlik tələb edən bütün bu tədbirlərin həyata keçirilməsi sayəsində tezliklə əhalinin çoxdan arzuladığı ictimai-siyasi sabitlik təmin edildi. İctimai-siyasi sabitliyi saxlamaq üçünsə təkcə hüquq-mühafizə orqanlarının, yaxud başqa sosial-siyasi orqanların fəaliyyəti kifayət etmirdi. Heydər Əliyev deyirdi: «İctimai-siyasi sabitliyi saxlamaq üçün eyni zamanda ölkənin iqtisadiyyatında ciddi dəyişikliklər etmək lazım idi, insanların həyatında ciddi dəyişikliklər etmək lazım idi. Biz bunlara da nail olduq».

1990-cı ildən 1994-cü ilə qədər Azərbaycanın iqtisadiyyatının inkişafı ildə 20-25 faiz aşağı düşmüşdü. Ölkənin 1993-cü və 1994-cü illərdəki vəziyyətini xatırlayaq. Taxıl ölkənin bir nömrəli probleminə çevrilmişdi. İnsanların çörəklə təmin olunması üçün taxıl tapılmırdı. Belə bir ağır dövrdə cinayətkar qruplar bu vəziyyətdən istifadə edərək, Azərbaycanın mal-dövlətini talan edirdilər, insanlar çox əziyyət çəkirdilər. Məhsulların qiyməti üzərində heç bir nəzarət yox idi, manatın dəyəri gündən-günə sürətlə aşağı düşürdü. Məhz belə bir şəraitdə, 1994-cü ildə ölkə rəhbərliyi atəşkəsə nail oldu. Bu barədə Heydər Əliyev deyirdi: «1994-cü ildə biz atəşi dayandırmışıq. Bəziləri bu barədə də müxtəlif fikirlər söyləyirlər. Mən bu gün bir də bəyan edirəm ki, 1994-cü ilin may ayında atəşin dayandırılması çox vacib tədbir idi və biz buna tam şüurlu olaraq getdik. Ötən dövr də bunu göstərir ki, baxmayaraq, məsələ həll olunmayıbdır, – bu tədbir həyata keçirilməli idi. İndi təəssüflər olsun ki, çoxları müharibəni yaddan çıxarıb, rahat yaşayır, sakitdirlər. Təəssüflər olsun ki, müharibə

vaxtı necə idi, bunu unudublar. İnsanlar sakit yaşayırlar, iqtisadiyyatımız inkişaf edir, xarici investisiyalar gəlir, dövlət quruculuğu prosesi gedir, müstəqilliyimiz möhkəmlənir. Azərbaycan cəsarətli xarici siyasət aparır. Bunların hamısının müharibə şəraitində həyata keçirilməsi mümkün deyildi».

Amma belə bir müsbət cəhəti də qeyd etmək lazımdır ki, Azərbaycan diplomatiyası heç bir digər qüvvə müdaxilə etmədən Ermənistanla Azərbaycan arasında atəşkəsi saxlaya bilmişdi.

1995-ci ildə Heydər Əliyevin düzgün iqtisadi siyasəti nəticəsində iqtisadiyyatdakı tənəzzülün qarşısı alındı. Ondan sonrakı illər – 1996-cı, 1997-ci, 1998-ci və 1999-cu illər artıq Azərbaycanda iqtisadiyyatın inkişaf dövrü kimi qiymətləndirilməlidir.

Həyatımızın inkişaf dialektikası göstərdi ki, sabitliyin bərpa edilməsi və iqtisadiyyatın böhrandan çıxması paralel proseslər kimi getmişdir. Müstəqil, demokratik dövlət kimi Azərbaycanın sosial institutlarını yaratmaq mühüm dövləti vəzifə kimi qarşıda dururdu. 1995-ci ildə ilk Konstitusiyamızın qəbul edilməsi – ilk dəfə demokratik şəraitdə ali qanunvericilik orqanının seçilməsi nəticəsində Azərbaycanın gələcək ictimai-siyasi həyatı üçün ən böyük hüquqi baza yarandı.

Ondan sonrakı dövrdə Azərbaycanda demokratiyanın, iqtisadiyyatın inkişaf etdirilməsi nəticəsində ölkəmizdə ictimai-siyasi vəziyyət ilbəil sabitləşirdi. Məhz bu sosial tədbirlər bugünkü günün reallıqlarını təmin etmişdir.

1990–1994-cü illərdəki ağır vəziyyətdən Azərbaycanın iqtisadiyyatını xilas etmək və bundan sonra onun ardıcıl inkişafını təmin etmək kimi vəzifələrin öhdəsindən gəlmək – mətbuatda etiraf edilirdi ki, bu, postsovet məkanında nadir hal kimi qiymətləndirilməlidir. Azərbaycanın iqtisadi göstəriciləri artıq beynəlxalq maliyyə mərkəzləri tərəfindən – Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Birliyinin İqtisadi Komissiyası tərəfindən nəzarət altında idi. Xarici mətbuat səhifələrində Azərbaycanın ictimai həyatındakı göstəricilər yüksək nümunə kimi işıqlandırılırdı. Belə ki, ümum-

daxili məhsul ilbəil artır, sənaye istehsalı, kənd təsərrüfatı istehsalı, kapital qoyuluşu yüksəlirdi. Bunların nəticəsində də insanların rifahı yaxşılaşırdı. Xarici mətbuatda etiraf edilirdi ki, bütün bunlar ölkə rəhbərliyinin həyata keçirtdiyi düzgün, rasional daxili siyasətin nəticəsində mümkün olmuşdur. Demokratik, hüquqi dövlət quruculuğu və bu prosesin ardıcıl surətdə həyata keçirilməsi, iqtisadiyyatda müxtəlif islahatların aparılması, insanlara sərbəstlik verilməsi, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, Azərbaycana sərmayənin cəlb olunması – bütün bunlar milli inkişafımıza təkan verən böyük kompleks siyasi-iqtisadi proseslər idi. Təbii ki, bunların bu qısa müddətdə düzgün həyata keçirilməsi Heydər Əliyev iradəsini tələb edirdi. Məhz bunun nəticəsində Azərbaycanın göstəriciləri Müstəqil Dövlətlər Birliyi ölkələrinin göstəriciləri içərisində üstün yer tuturdu.

1990-cı illərin sonu üçün ölkədə həm siyasi sferada, həm dövlət quruculuğu sahəsində, həm də iqtisadi sahədə islahatlar çox ahəngdar gedirdi. Heydər Əliyev deyirdi: «Bunlar hamısı kompleks şəkildə Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesini təşkil edir. Əgər biz iqtisadi islahatları ağıllı, düşüncəli və uzaqgörənliklə aparmasaydıq, bu nailiyyətləri əldə edə bilməzdik».

Artıq 1999-cu ildə Azərbaycanda əldə olunan ümumdaxili məhsulun artması özəl sektorun payına düşürdü. Bu, düzgün islahatların nəticəsi idi. Sənayedə artımın 30 faizi, kənd təsərrüfatında 98 faizi, ticarətdə 98 faizi, tikintidə təxminən 46-50 faizi, yük daşımalarında təxminən 45-50 faizi özəl sektorun hesabına düşürdü. Bu, o deməkdi ki, o dövrdə iqtisadi islahatlarımız öz konkret nəticələrini verməyə başlamışdı. Hər halda 1993–1994-cü illərdə ağır vəziyyətdə olan müəssisələrin tam gücü ilə işləməsi təmin olunmuşdu. Bu, iqtisadiyyatın inkişaf dinamikası ilə dövrün tələbatları dinamikasının üst-üstə düşməsindən xəbər verirdi.

Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycana xarici sərmayənin cəlb olunması çox əhəmiyyətli böyük iqtisadi nəticələr

vermişdi. Heydər Əliyev qeyd edirdi: «Bizi gözü götürməyənlər, yaxud da bizə düşmən gözü ilə baxanlar belə deyirlər ki, bəli, Azərbaycana xarici investisiya gəlir, ancaq bu, təkcə neft sektorunadır. Amma həqiqətdə 1994–1999-cu illərdə Azərbaycana 5 milyard Amerika dolları həcmində vəsait, sərmayə qoyulubdur. Bunun yarısı neft sektoruna, yarısı isə başqa sektorlara qoyulubdur. 1999-cu ildə isə qoyulan təxminən 1 milyard 600 milyon dollar investisiyanın 60 faizi qeyri-neft sektoruna, 40 faizi neft sektorunadır».

Həqiqətən də kiçik bir ölkəyə dörd il içərisində 5 milyard dollar həcmində investisiyanın qoyulması iqtisadiyyatın sonrakı inkişafı üçün böyük imkanlar yaratmışdır. Bu nailiyyətlərin əldə olunmasında o dövrdə formalaşmaqda olan yeni Azərbaycan elitasının müstəsna rolu olmuşdur. Bütövlükdə isə, bu göstəricilər həm də gənc respublikanın imicinin yüksək olmasından xəbər verirdi.

Həmin dövrdə Azərbaycanda Heydər Əliyevin əsasını qoyduğu milli diplomatiyamızın da mühüm nailiyyətləri olmuşdur.

Heydər Əliyev bir strateq kimi başa düşürdü ki, müasir inteqrasiya prosesləri fonunda dünya dövlətləri arasında xarici siyasət münasibətlərinin xarakteri, sivilizasiyalı ölkələrin diplomatik əlaqələri bu gün daha çox dialoq prinsipinə söykənir. Azərbaycan Respublikası sülhsevər siyasətə söykənən diplomatik fəaliyyəti ilə beynəlxalq siyasətin başlıca prinsipini çox məharətlə həyata keçirib və bunun müsbət nəticələri isə yaşadığımız günlərdə bütün reallığı ilə özünü göstərir. Azərbaycan xalqının xoşbəxtliyidir ki, Ulu Öndər diplomatiyanın bütün incəliklərini özündə təcəssüm etdirərək, dialoq aparmaq mədəniyyətini mükəmməl mənimsəyib ən mürəkkəb və çətin müqabil tərəflərlə müzakirələrdə belə nəinki konstruktiv qərarların qəbul edilməsinə nail olmuş, həm də Azərbaycanımıza yeni-yeni müttəfiqlər qazandıra bilmişdir.

Ulu Öndər bu həqiqəti nəzərə alırdı ki, dünya hadisələrinin qarşılıqlı asılılığının dərk olunması beynəlxalq səhnədə subyektlər arasında münasibətlərin və əlaqələrin prinsipcə və keyfiyyətcə dəyişməsini, bir-birlərinin təfəkkür və davranışlarını manipulyasiya etmək etikasında tərəflərin dialoqu fəlsəfəsinə keçidi labüd edir.

Dövlətlərarası münasibətlərdə diplomatiya həmişə ikinci tərəflə – tərəfdaşla «işləməli» olur. Lakin o, tərəfdaşına müxtəlif cür – ya öz iradəsinə tabe etdirilməli obyekt, ya da öz niyyətləri və məqsədləri olan subyekt kimi yanaşır. Bu, dialoq mədəniyyətində qəbul olunmuş prinsipdir. Dialoq çərçivəsində ünsiyyət ikinci münasibəti nəzərdə tutur və hər şeydən əvvəl, o biri tərəfin də öz «mən»ini (mənafelərini, məqsədlərini, dəyərlərini, nəzər nöqtəsini və həllə yanaşma mövqelərini) qəbul etməyi bildirir. Əgər belə olmasa, tərəflər diktat, hökm tipli ünsiyyətə, yalnız güc diplomatiyasına üstünlük vermiş olarlar.

Dialoq prinsipi həmçinin bunu nəzərə almağı vacib sayır ki, mənafelərin müxtəlifliyi və rəngarəngliyi nəinki təbii və qanunauyğun haldır, o cümlədən hər bir ayrıca dövlətin və bütövlükdə beynəlxalq münasibətlərin inkişafını şərtləndirən məhsuldar stimuldur.

Buna görə də hazırda beynəlxalq ünsiyyətdə birinci yerdə tərəfdaşı başa düşmək, qiymətləndirmək, problemi və anlam vasitəsilə qarşılıqlı məqbul hesab olunan qərarları qəbul etmək niyyəti durur. Bir sözlə, Heydər Əliyev hesab edib ki, ən mühüm diplomatik məsələlərin tərəfdaşla birlikdə təhlil olunması prinsipinə riayət edilməlidir. Ulu Öndərin fikrincə, diplomatiyanın başlıca və məhsuldar inkişaf amili real əməkdaşlıqdır və bu baxımdan milli mənafelərin həyata keçirilmə mexanizmi olan, əməkdaşlığın genişləndirilməsinə üstünlük verən diplomatiya üçün geniş fəaliyyət sahəsi xarici siyasət məkanıdır.

Özünün xarici siyasət fəaliyyətində Heydər Əliyev bilirdi ki, diplomatiyanın vəzifəsi hər iki ölkə arasında ümumi mənafelər məcmusunu aydınlaşdırmaq və uzlaşdırmaq, sonra isə onların uzlaşdırılması imkanlarını müəyyənləşdirməkdir.

Müasir diplomatiyanın önəmli funksiyalarından biri elmi və siyasi dairələrə zəruri informasiyanı təqdim etməkdir ki, bundan da məqsəd real əməkdaşlıqdan ötrü həmin dairələrin vacib daxili dəyişikliklərlə bağlı proqramlara fəal cəlb olunmasıdır. Halbuki, «soyuq müharibə» dövründə, bir qayda olaraq, diplomatlar infor-

masiyanı gizli saxlayır, onunla manipulyasiya edirdilər. Bu, hər şeydən əvvəl, sərhədlərin açılmasını qanunvericilik əsasında həyata keçirmək, ticarət və investisiya üçün əlverişli şərait yaratmaq, süni maneələri aradan qaldırmaq sahələrinə daha çox aiddir.

Bu da aydındır ki, iki ölkə arasında münasibətlər və onların vasitəsilə üçüncü dövlətlə münasibət sahəsində danışıqlar mexanizmi, həmçinin daimi şuraların, komitələrin, ekspert orqanlarının və digər institutların yaradılması məsələsi ilə diplomatiya özü məşğul olmalıdır. Heydər Əliyev nəzərə alırdı ki, «soyuq müharibə» dövründə yaranmış istər rəsmi, istərsə də qeyri-rəsmi ənənəvi əlaqə formaları hətta bu «müharibə»nin başa çatdığı mərhələdə də öz vəzifələrini kifayət qədər yerinə yetirə bilmir, həmin prosesin gedişində yeni mexanizmlərin yaradılması ehtiyacı üzə çıxır. Məsələn, Ümumavropa prosesləri təcili olaraq öz orqanlarının yaradılmasını tələb edirdi. Bu mərhələdə diplomatiyanın başlıca fəaliyyət prinsipi əlavə mexanizmlərin yaradılmasına təşkil impulsu vermək, iki dövlət arasında diplomatik münasibətlərin qurulması modellərinin işlənib hazırlanmasında yaxından iştirak etməkdi. Ulu Öndər bunu da unutmurdu ki, diplomatiya özü əməkdaşlıq sistemi yaradıb dəstəkləmək işində tam və yeganə mexanizm kimi çıxış edə bilməz. O, yalnız real əməkdaşlığın meydana gəlməsi üçün ilkin şərtlər yarada bilər. Yəni o, həmişə olduğu kimi bir əsas keyfiyyətini – «mümkünlük sənəti» olmaq xüsusiyyətini saxlamağa qadirdir.

Əgər diqqət yetirilərsə, Heydər Əliyevin dönmədən yeritdiyi xarici siyasət fəaliyyətində yuxarıda qeyd olunan müasir diplomatiya çalarları tamamilə öz ifadəsini tapmışdır. Məhz elə bu səbəbdən də Heydər Əliyev diplomatiyasının sülhsevərlik imici dünya birliyində özünə getdikcə daha çox tərəfdarlar qazanmaqdadır.

Azərbaycan Respublikasının bu günə kimi yaşadığı beynəlxalq münasibətlər tarixi parlaq surətdə göstərir ki, Heydər Əliyevin müdrikcəsinə rəhbərlik etdiyi yeni Azərbaycan diplomatiyası ölkəmizin dünyanın inteqrasiya proseslərinə cəsarətlə qoşulmasında son dərəcə önəmli rol oynamış və bu ənənə bu gün də davam etməkdədir.

Suveren Azərbaycan Respublikası bu gün İlham Əliyevin diplomatiyası sayəsində beynəlxalq hüquq və beynəlxalq münasibətlər subyekti kimi dünya sivilizasiyasına daxil olduqdan sonra ictimai həyatımızın bütün sahələrində – siyasi, iqtisadi və mədəni sferalarda milli mənafelərimizin, dövlətçilik prinsiplərimizin sosial təbiətindən irəli gələn köklü dəyişikliklər həyata keçirilməyə başlanmışdır. Bütün yeni demokratiyaların təcrübəsinin göstərdiyi kimi Azərbaycanda da cəmiyyətin demokratikləşdirilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesləri, sosial yönümlü bazar iqtisadiyyatına keçid son dərəcə mürəkkəb və məsuliyyətli proses kimi qarşıya çıxmışdır. Ümumiyyətlə, yalnız postsovet məkanında deyil, Şərqi Avropa dövlətlərində də özünün qeyri-müəyyənliyi ilə xarakterizə olunan keçid dövrü tamamilə yeni sosial hadisə kimi məhz ona görə dramatik xarakter kəsb etmişdi ki, yeniləşmənin vəzifə və məqsədləri cəmiyyət tərəfindən düzgün başa düşülmədiyindən, məmurlar yeni idarəçilik mədəniyyətinə dəyərincə yiyələnmədiyi səbəbindən insanlarda ruh düşkünlüyü, bir çox hallarda isə sosial laqeydlik formalaşmışdı. Bu, bizim keçid dövrümüz üçün də səciyyəvi olmuşdu.

Lakin Azərbaycan xalqının ictimai həyatının ağır və təlatümlü illərində tarix ölkəmizə Heydər Əliyev qayıdışı zərurətini bəxş etdi, respublikamızı böhran vəziyyətindən xilas etmək üçün Heydər Əliyev şəxsiyyətini bir daha ölkəmizə və xalqımıza qaytardı. Bu gün biz cəsarətlə deyə bilərik ki, görkəmli siyasətçi və səriştəli diplomat olan Heydər Əliyevin həyata keçirdiyi Azərbaycan diplomatiyası dövlətimizin suverenlik diapazonunu genişləndirmək, onu neqativ, xarici qüvvələrdən qorumaq naminə hərtərəfli və dərindən düşünülmüş fəaliyyət nümayiş etdirdi. Hazırda isə İlham Əliyev diplomatiyası dünya siyasi məkanının reallıqlarına və beynəlxalq hüquq normalarına riayət edərək özünün ümdə milli mənafelərini ləyaqətlə həyata keçirməkdədir.

Bu gün biz iftixarla deyə bilərik ki, Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət proqramı sayəsində Azərbaycan Respublikası dünyanın sivilizasiyalı dövlətləri ilə, bir çox nüfuzlu

beynəlxalq təşkilatlarla geniş diplomatik əlaqələr yaratmış, onlarla münasibətləri pozitiv məcrada inkişaf etdirmək üçün önəmli addımlar atmışdır. Xarici siyasətimizin və onun həyata keçirilməsinin etibarlı mexanizmi olan diplomatiyamızın başlıca məqsədi mövcud geosiyasi reallıqları nəzərə almaqla dövlətimizin təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq, ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şərait yaratmaq, sosial yönümlü bazar iqtisadiyyatının bəhrəsindən bütün cəmiyyət üzvlərinin real istifadə etməsi naminə daxildə sosial-siyasi səfərbərliyi təmin etmək, Azərbaycanın sivilizasiya dünyasında müsbət imicini formalaşdırmaqdır.

Bu məqsədlə yüksək təfəkkürlü geosiyasətçi özünün pozitiv proqramlı diplomatiyasını rəhbər tutaraq planetin nüfuzlu beynəlxalq təşkilatları və qurumları ilə önəmli əlaqələr yaratmış gənc Azərbaycan Respublikasının xarici siyasət məkanını genişləndirmişdi. Lakin xalqımızın milli mənafelərini ləyaqətlə həyata keçirən milli diplomatiyamızın ən böyük qayğısı Dağlıq Qarabağ problemini həll etməkdir. Müasir beynəlxalq siyasətin incəliklərini dərindən bilən İlham Əliyev Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirmək üçün dünyanın bütün sivilizasiyalı ölkələrində dövlət başçılarının dəvəti ilə rəsmi səfərlərdə olmuş, görüşlər zamanı isə Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda dəstək qazanmaqdan ötrü onların diplomatik köməyinə müraciət etmişdir.

Ölkəmizin xarici siyasət potensialından tam istifadə edən Heydər Əliyev hakimiyyət illərində BMT, ATƏT, NATO, AŞ və MDB strukturları ilə geniş diplomatik əlaqələrin yaradılmasında müstəsna fəaliyyət nümayiş etdirmişdir.

Möhtəşəm xarici siyasəti ilə Heydər Əliyev Avropa Şurası ilə əlaqələri daha da genişləndirmək, ölkəmizin bu nüfuzlu beynəlxalq sistemdə üzvlüyünü təmin etmək məqsədilə 1996-cı il iyulun 8-də «Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramını həyata keçirmək üzrə tədbirlər haqqında», 1998-ci il yanvarın 20-də və 1999-cu il mayın 14-də isə bu əmək-

daşlığı daha da dərinləşdirmək tədbirləri haqqında sərəncamlar imzalamışdır. Bu sərəncamlar, həmçinin Ulu Öndərin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 1998-ci il 22 fevral tarixli sərəncamı Azərbaycanın AŞ ilə əməkdaşlığının intensiv xarakter kəsb etməsində böyük diplomatik addım olmuş, bu quruma daxil olmaq işində önəmli işlərin həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb etmişdir.

Məlumdur ki, ATƏT özünün proqram vəzifələrini həyata keçirərək yeni Avropa sivilizasiyalı cəmiyyəti təkmilləşdirmək, bu qitənin dövlətləri ilə dünyanın digər qitələrinin dövlətləri arasında əməkdaşlığı genişləndirmək sahəsində çox mühüm tədbirlər həyata keçirmişdir. Ən önəmlisi isə dünyanın istənilən nöqtəsində baş verən konfliktli vəziyyətləri sülh və danışıqlar yolu ilə həll etmək zəruriliyinin qəbul edilməsidir. Heydər Əliyev Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə həlli üçün bu təşkilatın, habelə onun Minsk qrupunun müxtəlif dövrlərdə sədrləri olmuş rəsmi şəxslərlə görüşmüş, həmin problemin həlli üçün ATƏT-in fəaliyyətindən pozitiv, milli mənafelərimizə uyğun şəkildə istifadə olunmasına maksimum səy göstərmişdir.

Gələcək siyasi elitanın sosial bazasını təşkil edəcək gənc diplomatların hazırlanması və Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin qorunub saxlanması istiqamətində xüsusi rol oynayan mərkəzlərdən biri də Azərbaycan Diplomatik Akademiyasıdır. İlham Əliyevin 2006-cı il 6 mart tarixli Fərmanı ilə təsis edilən Azərbaycan Diplomatik Akademiyası yarandığı gündən öz fəaliyyətində xüsusi ixtisaslı diplomat kadrların hazırlanmasını və beynəlxalq münasibətlər sahəsində elmi tədqiqatların aparılmasını əsas prioritet kimi götürmüşdür. Fəaliyyətə başladığı 2007-ci ildən bəri akademiyada 400 gənc diplomat hazırlanmışdır. 2009-cu ildən bu təhsil ocağında tədris proqramının genişləndirilməsinə və «Beynəlxalq əlaqələr və diplomatiya» sahəsində magistratura proqramının reallaşdırılmasına başlanılmışdır. 2011-ci ildən etibarən isə «Biznesin idarə edilməsi və beynəlxalq münasibətlər» üzrə bakalavr ixtisasları yaradılmışdır. Bu ixtisaslar

üzrə hazırda 250 tələbə təhsil alır. Akademiyada hazırda dünyanın müxtəlif ölkələrindən yüzlərlə tələbə oxuyur.

Məlumdur ki, elitamızın mühüm tərkib hissəsi Azərbaycanın maraqlarını daha böyük uğurla müdafiə edən səfirlərdir. Səfirlər peşəkar diplomatlardır. Onların arasında gənclər də çoxdur, təcrübəli diplomatlar da. Prezident İlham Əliyev Azərbaycan Diplomatik Akademiyasının yeni tədris kompleksinin açılışında demişdir: «Həyat sürətlə inkişaf edir, beynəlxalq münasibətlər dəyişir və beynəlxalq aləmdə yeni məsələlər, yeni çağırışlar ortaya çıxır. Əlbəttə ki, biz xarici siyasətimizə mütəmadi qaydada müəyyən düzəlişlər etməliyik. Nəzərə almalıyıq ki, strateji xəttimiz dəyişməz olaraq qalır. Azərbaycanın xarici siyasətinin istiqamətlərini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Bu gün bu sahədə və bütün başqa sahələrdə strateji xətt icra edilir».

Səfirlər diplomatik səylərini davam etdirirlər. Onların xarici siyasət strategiyasını həyata keçirmək fəaliyyətləri təqdirəlayiqdir.

Bununla belə Heydər Əliyev diplomatiyasının tarixi xidmətlərindən biri yeni elitanın formalaşmasındakı roludur. Bu gün real hakimiyyətdə olan siyasətçilərimiz məhz Heydər Əliyev diplomatiyasının yetirmələridir. İlham Əliyev başda olmaqla Ramiz Mehdiyev, Əli Həsənov, Əli Əhmədov, Hafiz Paşayev və b. siyasətçilər Heydər Əliyev diplomatik məktəbinin istedadlı yetirmələridirlər.

Qeyd etdiyimiz kimi, Ümummilli Lider hakimiyyətə qayıdarkən qarşısında Azərbaycan xalqının siyasi iradəsini ortaya qoymaq və müvafiq ideya-siyasi xarakterli vəzifələrlə bağlı bir neçə problem vardı. O, bunların hamısının həllinə nail oldu, çünki Heydər Əliyev özündən əvvəlki bəzi siyasətçilərin yolu ilə getmədi, milli həyat və milli mədəniyyətin zamanın sınaqlarından çıxmış dəyərlərindən istifadə etməklə yalnız milli varlıq anlayışının təbliği ilə kifayətlənmədi. O, yaxşı bələd olduğu Azərbaycan xalqının milli xüsusiyyətlərinin metodoloji prinsiplərini, elmi həqiqətlərlə əlaqələndirərək qeyri-adi, qeyri-standart siyasət fəlsəfəsini yaratdı.

Qeyd etdik ki, Heydər Əliyev hakimiyyətə Azərbaycanın dərin böhran keçirdiyi mərhələdə gəlmişdi. Azərbaycanda baş verən prosesləri dünya prosesləri sistemindən təcrid etmədən, ölkəmizdəki böhranın mahiyyətinə aydınlıq gətirmək məqsədilə həmin dövrdəki böhranın politoloji təhlilinə nəzər salaq. Bir sıra tanınmış siyasətçilər və politoloqlar Sovetlər İttifaqının dağılması ərəfəsində Rusiyada və digər MDB ölkələrində ümumi böhranın aşağıdakı xarakteristikasına diqqət cəlb edirlər: kütləvi şüurun islahatlara münasibəti; hakimiyyətə etimad böhranı; islahatların real subyektləri; onların dünyagörüşü; fəhlə sinfi və islahatlar; ziyalıların sosial davranışı, islahatlar keçirmək üçün sosial bazanın zəifliyi, bunun dərk edilməsinin sosial-psixoloji çətinlikləri.

Cəmiyyətin inkişaf dinamikası keçmişdən gələcəyə, əvvəlki istehsal üsulundan daha mükəmməl üsullara doğru uzun ziddiyyətli yol kimi dərk edildiyi təqdirdə belə bir fakt danılmazdır ki, əsrlər boyu bu irəliləyiş real həyatda mürəkkəb toqquşmalarla üzləşmişdir. Bu barədə danışmaq bəşəri problemə toxunmaq deməkdir, çünki fərdi, fərdlərarası və beynəlxalq münasibətlərin əvvəlki modellərinin dağılması obyektiv olaraq bəşəriyyətin milyonlarla təbəqələrini qorxu həddinə çatdırmışdı. Adi həyat tərzinə alışmış sıravi adam üçün yeni həyat tərzinin zəruriliyi ideyasını, onun özü ilə gətirəcəklərini dərk etmək çox çətin idi. Belə ki, yeni reallıqlara aparan yol milyonlarla adam üçün mənəvi baxımdan ağrılı idi. Məlumdur ki, təfəkkürdə ətalət, əsasən, insanın məişət həyatı ilə bağlıdır. Sıravi insanın səyləri də məhz belə həyatı qaydaya salmağa yönəldilmişdir. Məişət isə sosiomədəni kontekstdə mühafizəkar anlayışdır.

Digər tərəfdən, yeniliklərin dönməzliyi real biliklərin artımına və tamamlanmasına gətirib çıxaran obyektiv, zəruriliyi sosial-siyasi baxımdan dərk olunmalı bir prosesdir. Təkcə bu amilin mövcudluğu bəşər cəmiyyətinin yeni, keyfiyyətli və bu səbəbdən də özünəməxsus vəziyyətinə yol açmaq üçün şərait yaratmaqla tarixi proseslərə təkan vermişdir.

«Soyuq» və ya indiki politoloji anlamda «üçüncü dünya» müharibəsi ən yeni tarixin mexanikasının ümumi böhranının nə oldu-

ğunu göstərmişdir. Bu, hər şeydən əvvəl, obyektiv olaraq milli-dövlət formasının dəyişməsində ifadəsini tapmışdır. Transmilli korporasiyaların mövqeyinin güclənməsi insanın şəxsən öz taleyini qurmaq modelinin vacibliyini sual altında qoydu. İndi artıq təbii tərəqqi və ya dünyanın təkamül quruluşu ssenarisinin gedişi ilə bağlı konsepsiyalar obyektiv olaraq transmilli korporativ maraqların ümumi kontekstində getməli idi. Belə bir siyasi məqamı da nəzərə almaq lazımdır ki, çox vaxt deyildiyi kimi, yeni korporativlik, hər şeydən əvvəl, cəmiyyətin demokratikləşməsi fenomeninin sivil ifadələrində özünə yer tapmış müasir dövrün qlobal çağırışlarının xarakteri ilə şərtlənir. Bu məsələlərin tədqiqatçısı S.Hantinqtonun fikrincə, dünyada demokratikləşmənin geniş yayılması XX əsrin son onilliyinin ən mühüm hadisələrindən biridir. O, həmçinin qeyd edir ki, Cənubi Avropada – İspaniya, Portuqaliya, Yunanıstanda ilkin əzəli impulslar almış demokratikləşmə dalğası Latın Amerikasına da keçmiş və əslində bu qitənin bütün ölkələrinə təsir etmişdir.

Daha sonra demokratikləşmə ideyası Asiya qitəsinə sirayət etmişdir. Filippin, Tayvan, Cənubi Koreya, Pakistan və Banqladeşdə avtoritar liderləri xalq tərəfindən seçilmiş hökumətlər əvəz etmişdir. 1989-cu ildə «yeni müharibə» Şərqi Avropanı bürümüş, sonra isə kommunizmin «sarsılmaz» dayağı olan Sovet İttifaqını da sarsıtmışdır.

Ümumplanetar demokratikləşmə Yaxın Şərqin qeyri-ənənəvi ölkələrində – Yəməndə, İordaniyada da öz rolunun güclənməsinə gətirib çıxarmışdır. Afrika qitəsinə gəldikdə isə, qeyd edilməlidir ki, orada bir sıra ölkələrdə demokratik dəyərlərin uzunmüddətli inkişafda rolu ilə bağlı müxtəlif siyasi qüvvələrin mötəbər ümummilli konfransları keçirilmişdir. Əlbəttə, bu hadisələrin təkanverici qüvvəsi kimi Cənubi Afrikanın qitədə oynadığı yeni rol da qeyd edilməlidir. O, öz inkişafında demokratikləşmə yolunu tutduğunu elan etmişdir.

1990-cı illərin əvvəllərində Albaniya, Monqolustan, Nepal və Benində də hakimiyyətə xalq tərəfindən seçilmiş hökumətlər gəldilər. Hər halda bu siyasi hadisənin ümumqəbuledilmiş pro-

sedur hissəsi politoloji cəhətcə gözlənilmişdi və zəruri beynəlxalq normalara müvafiq idi.

Ümumiyyətlə, belə təəssürat yaranırdı ki, dünya qlobal demokratik inqilab ərəfəsindədir.

Transmilli korporasiyaların maraqları belə qurulmuşdur ki, demokratikləşmə proseslərinə nəinki müəyyən iqtisadi, həm də mədəni şərtlər uyğun gəlir. Bu şərtlər sisteminə elmi dildə «Qərb mədəniyyəti dəyərləri» adlandırılan dəyərlər də daxildir və bu, bir növ hadisələrin fonunda üstünlük təşkil edir. İqtisadi inkişaf prinsip etibarı ilə demokratik proseslərin inkişafına öz müsbət təsirini göstərməkdən ötrü ölkənin mədəniyyətini də dəyişə bilər. Əgər bu tezis əsas götürülərsə, o zaman S.Hantinqtonun fikrincə, cərəyan edən hadisələr köklü şəkildə Şərqi Asiya bölgəsində inkişafın müsbət sonluğuna labüd surətdə öz təsirini göstərəcəkdir.

Bununla belə, tarixin dialektik hökmü belədir ki, hər hansı ciddi hərəkət son nəticədə öz enerjisini, passionallığını itirir və əks meyil yaradır. A.Zinovyev etiraf edir ki, ilk ictimai reaksiya kimi əks yenidənqurmanın əsasını qoymuş, Qorbaçovun yenidənqurma siyasətinin başına da bu gəlmişdir.

Dünyada milli iqtisadiyyatın böhranlarından yaranmış yeni modellər də «əsrin böhranı» ideyasına aydınlıq gətirir. Belə olduqda hər bir dövlət nəinki qarşılıqlı beynəlxalq əlaqələr sistemində öz statusunu müəyyənləşdirməyə çalışmış, həm də özünün iqtisadi maraqlarını imkan daxilində müdafiə etmək iradəsi ilə çıxış etmişdir. Onu da qeyd edək ki, bu fenomen kifayət qədər problematik səciyyə daşıyır.

Qərbdə geniş yayılmış politoloji konsepsiyalara görə dünyanın gələcək meyillərini irəlicədən müəyyənləşdirən müasir inkişafın ümumi cəhətlərini belə təsəvvür etmək olar: transmilli şirkətlərin «böhran əsrində» yaranmış hərc-mərcliyin tənzimlənməsində və idarə olunmasında iştirakı bəşəriyyətin müasir tarixinin xüsusi əlamətidir. Belə bir hal özlüyündə dövrümüzün də ən mürəkkəb problemlərinin müəyyən səbəbi olur. Bunlardan aşağıdakıları göstərmək olar: beynəlxalq təhlükəsizlik problemləri və silahlara

nəzarət; beynəlxalq terrorizm, narkobiznes və prinsipial ərazi texnologiyaları ilə bağlı problemlər; əhalinin artım dinamikasının dəyişməsi problemləri; ərzaq problemləri; enerji ehtiyatları problemləri; yeni enerji mənbələri problemləri.

Bütün bu problemlərin fonunda dünya cəmiyyətinin inkişafının gələcək modelinin proqnozlaşdırılması daha aktual məsələdir.

Beləliklə, müasir transmilli korporasiyalar öz maraqları daxilində xaotik dəyişiklikləri idarə etməklə planetin gələcəyi baxımından özünəməxsus məsuliyyət daşımalı, bu proseslərin təhlilinə hazır olmalıdır. Bir növ TMK-nın maraqlarını qeyri-iradi olaraq bəşər sivilizasiyasının gələcəyinin əsas amilinə çevirən tarixi anın dinamikası hadisələrin belə məntiqi cərəyan etməsinə zəmin yaradır.

Milli müxtəliflik səviyyəsinin açıq-aşkar artması fonunda dünya təsərrüfat əlaqələrinin güclənməkdə olan inteqrasiyası sürətlə baş verir. Hazırda politoloqlar belə bir yekdil fikirdədirlər ki, dünya bazarı yeni-yeni bölgələri əhatə etməklə onları beynəlxalq əmtəə mübadiləsi prosesinə daxil edir. Latın Amerikası, Afrika, Sakit okean hövzəsinin bir çox ölkələri transmilli korporasiyalar tərəfindən dünya bazarı sisteminə qoşulmaları sayəsində sivil sistemə sıçrayış etmişlər.

Real meyil kimi insanların müasir, elmi-texniki, iqtisadi, mədəni inkişafının əsasında ümumbəşəri amil durur. Bu amil ümumbəşəri dəyərlərə üstünlük verir, çünki qlobal inkişafın əsasını təşkil edən məhz bu dəyərlərdir.

Politoloji təhlil deməyə əsas verir ki, bu gün MDB ölkələrində «kiçik millətlərin böyük millətçiliyi» kimi ideoloji faktor üstünlük təşkil etsə də, qeyd etdiyimiz inteqrasiya meyilləri, mənəvi münasibətlər fenomeni də daxil olmaqla məntiqi şəkildə TMK maraqlarından doğur. Özünütəcridin və milli qapalılığın faciəvi əlamətləri antiimperiya hərəkatının təbii nəticəsi kimi müvəqqəti sosial-psixoloji haldır, çünki o, dünya inkişafının qanunauyğunluqlarına cavab vermir. Sosial təkamüllərin gedişində qlobal inteqrasiya prosesləri ideyasını insan şüurunun özü proqramlaşdırmışdır.

Qərbin canfəşanlıqla dəstəklədiyi Qorbaçov siyasətinin ilk illərində ziyalıların, formalaşmaqda olan yeni elitanın rolu və iştirakı yetərincə fəal olduğu halda, 90-cı illərin əvvəllərində həmin mühitdə bədbinlik psixologiyası yaranmış və o da çox vaxt sol şovinist əhvali-ruhiyyəsinin və s. güclənməsinə təkan vermişdir. Bu da öz növbəsində cəmiyyətdə xalis faşist meyillərinin təzahür etməsinə gətirib çıxarırdı ki, inkişafın obyektiv gedişi məhz belə idi. Hər iki halda faşist hərəkatı «intellektual zəmində» və cəmiyyətin səriştəsiz demokratikləşdirilməsi, onun gözlənilmədən avtoritar patriarxal tipdən açıq cəmiyyətə çevrilməsi əsasında təzahür etmişdir. Bir qayda olaraq, keçid iqtisadiyyatının dərin böhranı demokratiyanın cəmiyyətin şüurunda kifayət qədər kök sala bilməməsi fonunda baş verirdi.

Yeni bazar şəraitinə uyğunlaşma mexanizmlərinin yoxluğu ictimai fikirdə ziyalı nümayəndəsinin səmərəsiz və deməli, yeni oyun qaydalarına görə, özü üçün pul qazana bilməyən qeyri-kamil insan obrazı yaradırdı.

Fəhlə sinfi və islahatların qarşılıqlı əlaqəsi probleminə gəldikdə isə, burada vəziyyət, əsasən, tək bir amillə, əməkhaqqının vaxtında ödənilməsi ilə müəyyənləşirdi. Vəsait isə çatışmırdı. Məsələnin səviyyəsi müəssisə rəhbərinin şəxsi qabiliyyətindən, hər şeydən əvvəl, dövlətin ona etibar etdiyi istehsalı bazar münasibətləri sisteminə daxil etmək bacarığından asılı idi. Bəlkə də bu səbəbdən Rusiyada və MDB-nin digər ölkələrində fəhlələr öz müəssisələrinə daha çox bağlı olurdular, nəinki həmkarlar ittifaqları kimi ictimai-siyasi strukturlara. Bu fenomen bir də ona görə maraqlıdır ki, sonradan həmkarlar ittifaqları hərəkatı MDB-nin əksər ölkələrində lüzumsuz qüvvə kimi qəbul edilmiş, bir növ hadisələrdə öz sözünü deyə bilməyən quruma çevrilmişdi.

Tam siyasi və iqtisadi konfliktlər şəraitində islahatların sosial bazasının yaradılması ideyaları meydana çıxmağa başladı. Prosesin məntiqi gedişinə görə, bu ideologiyanın daşıyıcısı və həyata keçirəni geniş mülkiyyətçilər təbəqəsi olmalı idi. Azərbaycandakı obyektiv proseslər bu dünya böhranının fonunda baş verirdi.

# III FƏSİL

# HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK ÜSLUBU MİLLİ-SİYASİ KONSEPSİYA KİMİ

*Bir halda ki, biz müstəqil dövlətik və müstəqilliyimizi tarixi bir hadisə kimi qəbul etmişik – bu, həqiqətən belədir. Azərbaycanın suverenliyini hər bir Azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir.*

**Heydər Əliyev**
*Ümummilli lider*

## *3.1. Heydər Əliyevin siyasi baxışlarında başlıca kateqoriya – milli şüur*

Azərbaycan dövlətçilik tarixində siyasi şüur hissinin həmişə üstün olması xalqa başçılıq edən bu və ya digər liderlə sıx bağlı olmuşdur. Azərbaycan xalqının siyasi taleyində Cavanşir, Babək, Qızıl Arslan, Şah İsmayıl Xətai kimi liderlər parlaq siyasi simalar kimi tanınmışlar.

Azərbaycan cəmiyyəti tarixən dünyanın ən sabit cəmiyyətlərindən biri olmuş, ötən minilliklər ərzində o, nəinki yer üzündən silinməmiş, əksinə əlverişsiz şəraitdə də müstəqil fəaliyyət göstərərək dinamik inkişaf etmişdir. Qızıl Arslan və onun varislərinin, Uzun Həsənin və Səfəvi sülaləsinin ilk şahənşahlarının dövründə də Azərbaycan inkişaf etmiş, Avropa miqyasında tanınmış dövlət olmuşdur.

İdarəçilikdə işləyən qanun-qaydalar riyaziyyatda və başqa elmlərdə olduğu kimidir. Onları nəzərə almayan siyasətçi üçün dövlət işində uğur qazanmaq qeyri-mümkündür, baxmayaraq ki, bəzən bu qanunlara riayət edənlər də uduzurlar. Zaman göstərir ki, uğur qazanmaqdan ötrü işgüzarlığın, istedadın olması və lide-

rin öz fəaliyyətində qanunlardan əlavə, bu qanunlardakı özünəməxsusluğu nəzərə alması da çox vacibdir.

Siyasət, ümumiyyətlə, ətaləti sevmir. O, dinamik fəaliyyətə üstünlük verir, dinamik fəaliyyət isə liderin imicidir.

Heydər Əliyevin rəhbərlik etdiyi hakimiyyət strukturlarında siyasətçinin qeyri-fəal olmağa haqqı yox idi. Hətta keçmiş sovet dövründə regionun əhəmiyyətini və xüsusiyyətlərini başa düşərək, Moskva Azərbaycanda dinamik siyasətçilərə üstünlük verirdi. Çünki bu, olduqca mühüm keyfiyyətdir. Fransanın keçmiş prezidenti De Qol əbəs yerə deməyib: «Fəal adam nəinki çətinliklərdən qorxmur, əksinə, bu çətinliklərə uyğunlaşır, onları özünə yönəldir, çünki onlarla mübarizə sayəsində özünümüdafiəyə nail olur». Bu özünümüdafiənin fəaliyyət əmsalı o zaman yüksək ola bilər ki, liderin gələcəyə hesablanmış proqramı, öncəgörmə intuisiyası və hissetmə qabiliyyəti iti olsun. Bu zaman elitanın siyasi davranışında gələcək hadisələrin əks-sədası duyulacaq, xidmət etdiyi insanların dünyagörüşündə isə onun müsbət obrazı yaşayacaqdır.

Geosiyasi vəziyyətindən, çoxmillətli tərkibindən, təsərrüfatının inkişafından asılı olaraq və qonşu ölkələrin (Rusiya, İran, Ermənistan) təzyiqini nəzərə alaraq, Azərbaycan şəraitində siyasi elita hərtərəfli dünyagörüşünə, geniş bilik dairəsinə malik, daxilən mütəşəkkil olmalıdır ki, milli mənafelərə uyğun qeyri-populyar qərar qəbul edə bilsin. İkinci Dünya müharibəsi dövrünün məşhur Amerika sərkərdəsi Duqlas Makartur demişdir: «İnsan ləng olanda dostları itirir». Azərbaycan dost qazanmalıdır. Xoşbəxtlikdən Ümummilli Lider bu rasional fəaliyyət ənənəsinin əsasını qoyub, İlham Əliyev isə yüksək elitamızın təmsilçisi kimi bu ölməz işi layiqincə davam etdirir. Belə hallarda yadlaşma prosesi hakimiyyətin yüksək dairələrində özünü daha aydın göstərir. Əgər lider idarəetmədə ətalətlidirsə, onda onun dincliyini qoruyan köməkçilərinin əhatəsindən çıxa bilmir. Köməkçilər isə özləri üçün sərfəli olmayan informasiyaların liderə çatmasına imkan vermirlər. Belə vəziyyətdə lider günümüzün reallıqlarından ayrılaraq özü yadlaşmış fərdə çevrilir. Ən böyük faciə isə ondadır ki, belə təcrid olunmuş

yüksək səlahiyyətli adam yalan informasiyalara əsasən qərar qəbul edir və dövlət strukturları da məhz belə qərarlara uyğun fəaliyyət göstərməli olur. Rəhbərin həyatdan bu cür ayrı düşməsinin necə böyük fəlakətlərə gətirib çıxarmasına keçmiş SSRİ-nin təcrübəsi yaxşı nümunədir. Böyük bir fövqəldövlət gözlərimiz önündə dağıldı. Siyasi təcridçilikdən imtina strategiyası, beynəlxalq həyatla sıx təmas qurmaq yolları əsl liderin real həyat barədə biliklərini daha da zənginləşdirir. Lider qaynar siyasi həyatın içində olmalıdır. Belə deyirlər ki, ABŞ prezidenti Teodor Ruzvelt iş yerinə və evinə əlavə telefonlar qoydurmuşdu ki, Rokfellər, Ford, Morqan, Dyupon kimi nəhəng maqnatlar günün istənilən vaxtı ona birbaşa zəng vura bilsinlər. Görkəmli senatorlar, partiya liderləri güclü siyasi təsir göstərməyə başlayanda isə prezidentin kabinetinə dövlət başçısını onlarla birləşdirən yeni telefonlar qoyulmuşdu.

Ümumiyyətlə, ABŞ və Avropa dövlət başçılarının kabinetində də əlavə telefon olurdu. İstənilən vətəndaş telefonla zəng edib öz problemləri barədə prezidentə məlumat verə bilərdi. Dövlət başçısı məhz bu yolla – ilk mənbədən məlumat almaqla sadə vətəndaşın ona münasibətini öyrənirdi. Sözsüz ki, belə birbaşa informasiya liderin səhvsiz hərəkət etməsinə, problemlərin həlli üçün yollar axtarıb tapmasına və düzgün qərarlar qəbul etməsinə kömək edir. Tarixi təcrübə göstərir ki, dövlət başçılarının, siyasi liderlərin əhatəli informasiyaya malik olması onların öz fəaliyyətlərində uğurlu siyasi qərarlar qəbul etmələrində müstəsna rol oynayır.

SSRİ-də, xüsusilə Qorbaçov dövründə hakimiyyət bütün bunlardan məhrum idi. İnformasiya gizliliyi nəinki düzgün qərarlar qəbul etməyə imkan vermir, hətta rejimin özü tənəzzülə uğrayırdı. L.Abalkin özünün «İstifadə olunmamış imkan» əsərində yazıb: «Biz ictimai fikir uğrunda mübarizənin zəruriliyini vaxtında başa düşmədik. Yeni şəraitdə isə bu, olduqca lazım idi. Özümün doğruluğumu hiss edir, seçilmiş mövqeyin doğruluğuna inanıram. Bu, mənəvi təskinlik verir, özümü sakitləşdirirəm ki, xalq nə vaxt-

sa bizim doğruluğumuzu başa düşəcək və tarix öz düzgün hökmünü verəcək. Lakin təəssüflər ki, adətən, bu, gec baş verir».

Çoxəsrlik ənənələrin ibrət dərsinin öyrənilməsi, ölkənin, dövlətin siyasi varlığının dayağı olan milli xüsusiyyətlərin nəzərə alınması dövlət quruculuğu strukturunda xüsusi əhəmiyyət kəsb edir.

Özünü elitaya aid edən hər kəs dərk etməlidir ki, o, informasiya inqilabı əsrində yaşayır. Ona görə də, dünyanın bütün biliklərini mənimsəməyə çalışmalı və hər zaman bütün hallarda buna can atmalıdır.

Bu gün Azərbaycan özünün hüquqi, demokratik dövlətini uğurla qurmaqdadır və bu məsələdə siyasi şüur inkişaf etmiş dünya dövlətlərinin təcrübələrini mənimsəməyə, yeri gəldikdə isə istifadə etməyə yönəlmişdir. Müasir dünyanın görkəmli alimlərinin, filosoflarının dövlət quruculuğu barədə fikirlərini, ölkəmizin idarə edilməsi ilə bağlı tövsiyələrini mənimsəməklə biz Azərbaycanın bütün sahələrdə inkişafını təmin etməklə hökumətimizə kömək etmiş olarıq.

Sözsüz ki, Azərbaycan kimi qədim bir ölkədə hansı dövlətinsə dövlət quruluşunu, onun idarə etmə qaydalarını olduğu kimi tətbiq etmək qeyri-mümkündür və bu, heç fayda da verməz. Vətəndaşlarımızın qan yaddaşındakı min illərin dövlət və dövlətçilik ənənələrini nəzərə almadan hərəkət edərkən, möhkəm, xalqın, millətin sosial-siyasi varlığına cavab verən və dəstəklənən dövlət qurmaq faydasız əzabdan başqa bir şey deyildir. Bu baxımdan böyük Azərbaycan filosofu, alim və mütəfəkkir Nəsirəddin Tusinin 750 il bundan əvvəl söylədiyi tövsiyələr olduqca əhəmiyyətlidir. Alimin fikrincə, dövlət ancaq ədalət əsasında qurulduqda uzun müddət yaşaya bilər. Ədalətin birinci şərti isə xalqın müxtəlif təbəqələri arasında uyğunluğun yaradılmasıdır. «İnsan sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasında uyğunluq da dörd sinfin qarşılıqlı fəaliyyətində olar» (N.Tusi).

N.Tusiyə görə, bu dörd sinif aşağıdakılardır.

1. Qələm əhli (ziyalılar). Yəni, alimlər, maarifçilər, dini hüquqşünaslar, qazilər, katiblər, riyaziyyatçılar, mühəndislər, mü-

nəccimlər, təbiblər, şairlər. Bunlar təbiətdəki ünsürlərdən (su, od, torpaq, hava) su yerində olarlar.

2. Qılınc əhli. Dünyanın nizam-intizamı bunların varlığına bağlıdır.
3. Müamilə əhli. Yəni, tacirlər, sənətkarlar, bac-xərac toplayanlar. Bunların köməyi olmadan insanların məişətini, dolanışığını təmin etmək mümkün deyildir.
4. Ziraət əhli. Bütün adamların yeməyini-içməyini bunlar hazırlayırlar.

Bunlarsız insanın yaşaması qeyri-mümkündür. Bu dörd sinfin nümayəndələri əlbir, ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət, ədalət və səadət sistemi əmələ gəlir. Böyük filosof dövlət, idarəçilik məsələlərində dövlət başçısının vacib keyfiyyətlərinə xüsusi diqqət yetirmiş və bu məqsədlə dövlətin dörd qisim siyasətlə idarəçiliyi barədə Aristotelin ideyalarına üstünlük verərək aşağıdakı tövsiyələri təklif etmişdir:

Ölkə siyasəti – camaatı elə dolandırmağa deyilir ki, bundan onların fəziləti artsın.

Qələbə siyasəti – nakəs adamlar haqqında görülən tədbirlər.

Kəramət siyasəti – camaatı elə idarə etməyə deyilir ki, bunun nəticəsində onların kəramətləri (peşə və sənətləri) inkişaf etsin.

Camaat siyasəti – ilahi namus (ədalətli vicdan) əsasında tərtib edilmiş müxtəlif qayda-qanuna deyilir. Ölkə siyasəti bütün yerdə qalan siyasətləri əhali arasında yayır və hər təbəqəni özünə müvafiq siyasətlə idarə edir, onların daxili qabiliyyətinin zahiri işə çevrilməsinə nəzarət yetirir. Deməli, bu siyasətlər siyasətidir. (Bu tövsiyələri siyasət fəlsəfəsinin liderlik məktəbinin başlıca prinsipləri hesab etmək mümkündür.)

Ölkə ədalətlə, «siyasətlər siyasəti ilə» idarə olunmadıqda, qayda-qanun pozulduqda icma rəisinə qarşı qəzəb qüvvəsi artar, təəssüb, düşmənçilik, məzhəbi ixtilaflar meydana çıxar. Elə ki, rəisin məhv edildiyini gördülər, hərəsi özlüyündə rəis olmaq xəyalına düşər, hər kəs başqasını tabe etməyə səy göstərər, mübarizə və münaqişələr baş verər. Bu ünsürlər müasir siyasətdə də təzahür edir, lakin başlıca qayə, bunlardan ağıllı istifadə etməkdir.

Heydər Əliyevin siyasət fəlsəfəsinin əsasında da belə bir mühüm ideya dururdu: hakimiyyətin yeganə vəzifəsi insanlara onların özləri üçün edə bilmədiklərini etməkdir. Əsl siyasi və sosial azadlıq sərbəst iqtisadiyyat prinsipi ilə bağlıdır və ölkə başçısının, əsl siyasi liderin vəzifəsi yalnız sərbəst əmtəə bazarının deyil, həm də sərbəst ideyalar bazarının gücündən istifadə edərək, Azərbaycan Respublikasının hər bir vətəndaşının həyat səviyyəsini yaxşılaşdıra biləcək sosial proqramları işləyib hazırlamaqdan ibarətdir. Ulu Öndər məhz bu ideyanı ön plana çəkirdi.

Məlumdur ki, vaxtilə Qərbin tanınmış hüquqşünasları Azərbaycan Konstitusiyası barədə öz tövsiyələrini təklif etmişlər. Təbii ki, onların tövsiyələri öz xarakterinə görə demokratik cəmiyyətə uyğun ümumi xüsusiyyətlərdə yazılmış ümumi prinsiplərdən ibarət olub. Lakin Heydər Əliyev bu tövsiyələrə diqqətlə, yaradıcılıqla yanaşmış və bu gün çox ölkələrə nümunə ola bilən bir konstitusiya yaratmışdır.

«Azadlıq yolunu tutmuş ölkələr üçün konstitusiyanın işlənib hazırlanması» kitabının müəllifi professor Bernand Siqanın konstitusiya barədə tövsiyələrinə yeni yaranmış müstəqil dövlətlərin siyasi dairələrində ehtiramla yanaşırlar. Azərbaycan Konstitusiyası yaranarkən bu müəllifin mötəbər tövsiyələrindən də istifadə olunmuşdur.

Onun fikrincə, Amerika Konstitusiyası dünyanın bugünkü problemlərinə cavab verir və bu keyfiyyəti qısaca belə ifadə etmək olar: «Daha az dövlət tənzimlənməsi və dövləti xidmətdə daha az məmur». Ulu Öndər fəaliyyətində bu prinsipdən yaradıcılıqla istifadə etmiş, sabit, saat kimi dəqiq işləyən idarəetmə sistemi yarada bilmişdir.

Bizə elə gəlir ki, Heydər Əliyevin siyasət fəlsəfəsinin, onun prinsiplərinin siyasi elitanın formalaşması prosesində ən güclü tərəflərindən biri onun intellektual siyasətçilərin, ziyalıların iştirakına və fəaliyyətinə əsaslanan praqmatik yönümlü olmasıdır. Burada söhbət vətəndaşların maraqlarına uyğun gələn ictimai siyasi faydadan gedir. Təcrübədən məlumdur ki, praqmatik fəlsəfənin

bütöv bir xalqın və ölkənin taleyində həlledici rol oynaması halları az olmayıb. Bu baxımdan böyük yapon filosofu və missioneri, «Ölkədə sakitlik və ədalətlilik yaradılması barədə düşüncə və mükalimələrin əsasları» adlı fəlsəfi əsərin müəllifi Niterenin (1222–1282) təlimi xüsusi maraq doğurur. Onun elmi əsəri demək olar ki, bütövlükdə ölkənin tərəqqisinə necə nail olmaq barədə ölkə rəhbərlərinə ünvanlanmış məktubdur. Niterenin sağlığında onun tövsiyələrinə biganə qalmışlar. Sonralar formalaşmış praqmatik niterenizm fəlsəfəsi cəmiyyətin bütün təbəqələrinin dünyagörüşünə çevrilərək ictimai uğur fenomeninə nail olmağa yönəlmiş dövlət ideologiyasını yaratdı. Yapon hökuməti müharibədən sonra bütün qüvvələri ölkənin bərpasına səfərbər etməyi dövlət ideologiyasına çevirdiyi bir dövrdə nitereizmin prinsipləri su və hava kimi gərəkli oldu. O, siyasi-mənəvi dəyərlər sistemində niterenizmin real, praqmatik nəzəriyyəsinə çevrildi. Bu günün dövlətçilik praktikası da göstərir ki, ölməz ideyalar xalqların həyatında daim lazım olur. Ulu Öndər də həmişə keçmişin müdrikliyindən ibrət götürməyi, onun dəyərli ideyalarından istifadə etməyi dönə-dönə tövsiyə etmişdir.

Azərbaycan dövlətçiliyi ideyası bu gün respublika idarəçiliyinin fəaliyyətdə olan formasında ifadəsini tapmışdır. Tarixən idarəetmənin respublika forması ən əvvəl prezident respublikası şəklində meydana çıxmışdır. Hüquqi cəhətdən bunun fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, prezident qərarla naziri işindən çıxarmaq səlahiyyətinə malikdir. Qanunçuluq səlahiyyəti parlamentdədir. Siyasi cəhətdən bu, o deməkdir ki, prezident respublikasında hökumət seçkilərdə qalib gəlmiş partiyalardan (yaxud partiya blokları) təşkil olunur.

Bir qayda olaraq, prezident idarə üsulu baş nazir vəzifəsini nəzərdə tutmur, lakin bəzən qaydadan kənar hallara da rast gəlinir. Prezident respublikası dövlət və hökumət başçılarının səlahiyyətlərini birləşdirməklə yanaşı, aşağıdakı xüsusiyyətlərlə fərqlənir: 1. Prezidentin qeyri-parlament üsulu ilə seçilməsi; 2. Hökumətin qeyri-parlament üsulu ilə təşkili; 3. Parlament məsuliyyəti institutunun olmaması.

Prezident normativ aktlar tərtib etmək hüququna malikdir. Ən əvvəl, söhbət icra strukturlarının yenidən qurulmasını nəzərdə tutan inzibati hökmlərin, hərbi əmrlərin, direktivlərin və s. icrasına dair fərmanlardan gedir.

Prezidentin irəli sürdüyü inkişaf proqramları parlament vasitəsilə həyata keçirilir. Bu barədə qərarların qəbul edilməsinin mexanizmləri müxtəlifdir.

Prezident öz partiyasının nümayəndələri ilə birlikdə parlamentdə ardıcıl yığıncaqlar keçirə, onlarla birlikdə qanunvericilik təklifləri və deputatlara təsir göstərə biləcək taktika işləyib hazırlaya, müxtəlif partiyaların liderlərini, parlamentin nüfuzlu üzvlərini və s. vaxtaşırı məsləhətləşmələrə dəvət edə bilər. Prezidentin deputatlar arasından parlamentlə əlaqə üzrə xüsusi köməkçiləri vardır.

Təcrübə göstərir ki, konstitusiya qanunlarına riayət edildiyi şəraitdə, prezident respublikasında hökumət daha sabit, parlament isə böyük qanunvericilik səlahiyyətinə malik olur.

Prezident respublikası nəzəri cəhətdən hakimiyyətin qəti şəkildə bölünməsi prinsipi üzrə qurulur. Bu, o deməkdir ki, ali qanunvericilik, icra və məhkəmə hakimiyyət orqanları arasında ciddi səlahiyyət bölgüsü olur.

Azərbaycanda qüdrətli prezident hakimiyyətinin mövcudluğu bir çox cəhətdən, xalqın Öz rəhbərini tarixən ənənəvi olaraq, milli lider kimi qəbul etməsi cəhdləri ilə səciyyələnir.

Eyni zamanda o da etiraf olunmalıdır ki, parlament formalarının xeyrinə dövlət islahatlarının perspektivi bir çox cəhətdən həyatımızın bütün sahələrinin demokratikləşməsinin ümumi prosesinin güclənməsindən asılıdır. Buna təkamül yolu ilə getmək lazımdır. İndiki həyatımızın reallığı belədir ki, xalqın birləşdirici şəbəkəsi yalnız ümummilli lider, siyasi elitaya mənsub olan şəxs modeli ola bilər.

Reallıqlarımızın xüsusiyyətlərini nəzərə alaraq, keçid dövründə möhkəm dövlət hakimiyyəti barədə ümumi təsəvvürləri unutmamalıyıq. Bu zaman onu idarəetmənin diktator formasına transformasiyasından qoruyan mexanizm nəzərdə tutulmalıdır. Mövcud şəraitdə milli tərəqqinin yolu hakimiyyətin bütün təbəqələrinin

intellektuallaşdırılması, onun Azərbaycan ictimaiyyətinin intellektual-elita təbəqəsi ilə sıx birgə fəaliyyətinin tam təmin edilməsidir.

Dövlət aparatının təklif olunan modeli prezident idarəsinin əsas prinsiplərinə müvafiq yaradılmışdır. Onun fəaliyyəti deməyə əsas verir ki, bu model Azərbaycan xalqının mentalitetinə uyğun qurulmuşdur. Bu cür hakimiyyət strukturunun yaradılmasında məqsəd elə bir hakimiyyət qurumu formalaşdırmaqdır ki, ən böyük dövlət problemlərini həll etməyə, həyata keçirməyə qadir olsun. Yaradılan struktur mahiyyətcə həm də qlobal siyasi inkişaf proqramlarını işləyib hazırlamağı bacarsın.

Heydər Əliyevin siyasi fəlsəfəsinə söykənən Azərbaycan dövlətçiliyinin fəlsəfi əsasını cəmiyyətdə korporativ münasibətlərin stimullaşdırılmasının və inkişafının mənəvi amillərindən biri kimi «Azərbaycanlılıq» təşkil edir. Yəni ayrı-ayrı vətəndaşların maraqlarından ümumdövlət marağı yaranır.

Bu gün Heydər Əliyevin siyasət fəlsəfəsindən bəhrələnən siyasi elita üçün ən məsul vəzifə hakimiyyətin daha çox intellektuallaşdırılmasına və dövlət aparatında rasional islahatların aparılmasına səy göstərməkdir. Biz əminik ki, bunun sayəsində siyasətin ümumi səviyyəsi yüksələr, cəmiyyətin bütün intellektual potensialı dövlət quruculuğunun təkmilləşdirilməsinə cəlb oluna bilər. Belə bir modelə riayət edilərsə, Azərbaycan Respublikasının böyük siyasətinə təsadüfi adamların gəlməsinin qarşısı alınar.

Xalqın ənənəvi təsəvvürlərinə söykənən cəmiyyətimiz müəyyən çətinliklərlə üzləşməsinə baxmayaraq daim demokratikləşdirilir, bu isə təbii haldır. Bu gün real milli məqsəd həyatımızın bütün sahələrinin demokratikləşdirilməsinin ümumi prosesini sürətləndirməkdir. Bugünkü reallıqlarımız göstərir ki, Heydər Əliyev demokratik islahatların inamla həyata keçirilməsi üçün güclü hakimiyyət yaratmış, bizə misilsiz irs qoyub getmişdir. Mövcud idarəetmədə əsas məqsəd Heydər Əliyevin ənənələrindən istifadə etməklə yanaşı, onun prinsiplərini daha da təkmilləşdirməkdir.

Biz Ulu Öndərin siyasət fəlsəfəsinin problemlərini, o cümlədən milli-siyasi şüur məsələsini məhz liderlik prizmasından nəzərdən keçirəcəyik.

Öncə qeyd edək ki, son illərin araşdırmalarında millət ideyası probleminin tədqiqi mərkəzi yerlərdən birini tutur. Həmin problem keçmiş Sovetlər İttifaqı məkanında yaranmış və demokratik inkişaf yolu seçmiş yeni suveren dövlətlərin dünya birliyinə inteqrasiyası ilə bağlı xüsusi aktuallıq kəsb edir. Təbiidir ki, bu mövzunun müxtəlif aspektlərinə həsr olunmuş və mühüm nəzəri-metodoloji əhəmiyyətə malik bir sıra tədqiqat işlərinin yazılması məhz son illərə təsadüf edir.

Bu gün dünyanın siyasi mənzərəsini müəyyən edən müasir geosiyasi oyanışın başlıca qayəsi iki meyildə ifadəsini tapır: Milli müstəqillik uğrunda mübarizə zəminində ayrılma (bunun bariz nümunəsi keçmiş Sovet İttifaqının dağılmasıdır) və bütün dünyada, ilk növbədə Avropada aydın təzahür edən inteqrasiya prosesi. Qeyd edək ki, çox sürən və kəskin şəkil alan diskussiyaya baxmayaraq, əsl millət anlayışının mahiyyəti barədə bu günə kimi dəqiq anlamın olduğunu demək çətindir. Hətta elə nəzəriyyələr var ki, belə bir fenomenin mövcudluğunu bütövlükdə inkar edir, yəni millət anlayışından, ümumiyyətlə imtina etməyi əsaslandırmağa çalışan təlimlər də mövcuddur. Belə nəzəriyyə müəllifləri xalqların milli şüurunun artmasının yeni mərhələsini yəqin ki, düzgün təhlil etmirlər.

Hətta araşdırılan obyektin mümkün variantlarından birini – millətin meydana gəlməsini – müxtəlif tədqiqatçılar və mütəxəssislər XIX əsr və sənaye epoxasına qədərki dövlətlərlə əlaqələndirirlər. Qəbul edilmiş bu konsepsiyaya, yəni milli-siyasi şüurun daşıyıcısı olan millət kateqoriyasına bir daha müraciət etmək yerinə düşərdi. Lakin biz bəzi tədqiqatçılardan fərqli olaraq Heydər Əliyevin siyasi fəlsəfəsində məsələyə başqa baxımdan yanaşmağa üstünlük veririk. Ona görə ki, son dərəcə vacib bir məsələ – millətin meydana gəlməsi, inkişafı problemi və «millət ideyası» ilə bağlı məsələlər kompleksi fərqləndirilmir. Əgər millət məsələsi

siyasi və iqtisadi sahələrdə müəyyənedici amillərdən biridirsə, millət ideyasının mövcudluğu və onun kəsb etdiyi formalar isə daha çox mentalitet sahəsinə aiddir. Yəni həm fərdi, həm də siyasi şüur sferasında təzahür edib insanın mənlik şüuru formalarından biri, onun cəmiyyətdə özünü identifikasiyası vasitəsi və mövcud cəmiyyətin birliyinin, mahiyyətinin kollektiv dərki kimi çıxış edir. Beləliklə, millət ideyası, əslində milli varlığın gerçəkliyini dərk etmək vasitəsidir.

İnsan özünün sosiuma mənsubiyyətini müəyyənləşdirərkən öz üzərinə müəyyən öhdəliklər götürür. Müasir fransız fəlsəfəsində (1974) göstərildiyi kimi «millət vətənpərvərlik hissinin təzahürüdür». Başqa sözlə, millət ideyası müəyyən mənada bəşəriyyətin mənəvi-siyasi inkişafının meyarıdır. Digər tərəfdən isə, həmin bu mövcud vəziyyət nəsə bir əxlaqi qanundan xəbər verir, özü də qanun o dərəcədə sarsılmaz və dəyişməzdir ki, millətə və qeyri-millətə dinc yolla ayrılmağı və deməli, yüksək əxlaqı qoruyub saxlamağı da mümkün etmir. Kim ki, millət deyilən birlikdən sosial, siyasi, yaxud tarixi səbəbdən kənarda qalıbsa, beləliklə tam hüquqlu əlaqədən məhrum olur və ən yaxşı halda «özgəsi» kateqoriyasında, ən pis halda isə «düşmən» kateqoriyasında hallanır. Buna görə də, birmənalı şəkildə təcavüzkar siyasətə məruz qalır.

Nəyə görə millət ideyası normal vətəndaşın düşüncəsində, anlamında çox zaman cəmiyyətin inkişaf dərəcəsinin meyarı, üstəlik də şəxsiyyətin siyasi mənəvi səviyyəsinin göstəricisi olur? Həmin suala ilk cavab cəhdlərindən biri hələ Fransada bu ideyanın meydana gəldiyi zaman – Böyük inqilab illərində – verilmişdir. Məhz bu inqilab millətin birmənalı dəqiq təyinatını vermədiyindən ilk dəfə olaraq millət ideyası anlamı dəyişməz, bəşəriyyətə əzəli və obyektiv xas olan bir fenomen kimi təqdim edilmişdir. Bu obyektivlik inqilab dövrü mütəfəkkirlərinin fikrincə, öz təzahürünü xüsusilə bunda tapırdı ki, millət əsl millət kimi yalnız bəşər tarixinin müəyyən mərhələsində, ondan ötrü həm obyektiv, həm də subyektiv əlverişli şəraitin yetişdiyi zaman yaranmışsa, onun tam hüquqla meydana atılması millət ideyası

tərəfindən irəlicədən seçilmiş və hazırlanmışdır. İndiki halda millət ideyası cəmiyyətin sosial, siyasi, iqtisadi, hətta əxlaqi-mənəvi birliyi hesabına nail olduğu, əsl millət adı ilə həyata keçirilən tərəqqinin meyarı rolunda çıxış edir. Bu ideyanın ümumi xarakterinin dolayı yolla təsdiqi onun ən müxtəlif siyasətçilər və ideoloqlar tərəfindən oxşar formalarda qəbul edilməsi və başa düşülməsidir. Məsələn, görkəmli fransız tarixçisi və filosofu C.Mişle özünün «Xalq» əsərində (1845) hesab edirdi ki, «Milliyyət, Vətən – dünya həyatında başlıca olandır». Bununla belə onun bu ümumi konsepsiyasına heç də zidd olmayan Q.Morrasın «Mənim siyasi fikirlərim» (1986) əsərindən belə bir mülahizəsini də göstərmək olar: «Millət ideyası», anarxistlərin dediyi kimi, dumanlı ideya deyil, abstrakt terminlərdə güclü reallığın təsəvvürüdür. Millət birləşdirici amillərdən ən genişi, ən möhkəmi və ən təkmilidir. Bunlar və digərləri arasında fərq birlik, həmrəylik üçün obyektiv və real təməl axtarışları problemlərinin meydana çıxdığı yerdə başlayır. Əgər bu təməl obyektiv olmalıdırsa, onda daha məntiqi addım budur ki, onu insan şüurundan asılı olmayan uzun sürən ənənədən götürmək lazımdır. İnsanların irqi mənşəyi, ərazi və dil ümumiliyi, tarixi, o cümlədən, mədəni və dini ənənə amillərini biz adətən ilk növbədə, dövlətin formalaşması prosesini araşdırarkən nəzərə alırıq. Bu amillərin birləşdirici əhəmiyyəti aydındır. Burada problem tamam başqa məsələdir. Bütün bu amillər təbii ki, sosiumun vəhdətini bildirir, lakin onlar sosiumun inkişafını və mənlik şüurunun səviyyəsini heç cürə izah etmir. Bu amillər daha çox sosiumun mövcudluğunun zəruri şərtləridir. Fransız tədqiqatçıları etiraf edirlər ki, köhnə qaydalı fransız cəmiyyəti daha çox katolik cəmiyyəti idi, nəinki fransız, yəni onun vəhdəti müqəddəsləşdirilsə də, könüllü dərk olunmamışdı və deməli, labüd olaraq mühafizəkar amil kimi təzahür etməli idi. Hələ inqilab dövründən millət adlanan yeniliyi müəyyənləşdirmək üçün məhz könüllülü prinsipi həlledici olmuşdur. O dövrdə mütəfəkkirlər hesab edirdilər ki, inqilab millətin bütün təbəqələrini yuxudan oyatmışdı. Əzəli ideyanın şüurlu qəbul edil-

məsi, fərqi yoxdur – millət istər siyasi orqanizm, yaxud da cəmiyyətin mənəvi-əxlaqi birliyi kimi başa düşülsün – eyni dərəcədə vacibdir». Beləliklə, yuxarıda deyilənləri yekunlaşdıraraq və nəzəri girişdən bir növ, xronoloji təhlilə keçərək, deyə bilərik ki, millətin üç müxtəlif baza konsepsiyası məhz eyni vaxtda inqilabda təzahür etmişdir.

Yuxarıdakı fikirlərdən sonra belə qənaətə gəlmək olar: birincisi xalq suverenliyi konsepsiyası, yəni «fərdlər cəmiyyətinin formalaşdırdığı, həyatı eyni qanunlarla, suverenlik mənbəyi ilə tənzim olunan, həmin qanunların qərarlaşdığı zaman formalaşan «hüquqi şəxs» mənasında millət; ikincisi, millətin azadlıq uğrunda mübarizə aparan vətənpərvər birliyi, yəni insan tarixinin zirvəsinə nail olmağa can atmaq zəminində mənəvi birlik mənasında Robespyer anlamı; üçüncüsü, mərkəzçi ərazi konsepsiyası. Maraqlıdır ki, həmin bu üç konsepsiya öz həyatiliyini sübut etmiş və bizim günlərə qədər də real dövlətçilik üstünlükləri, atributları kimi başa düşülməkdədir. Məsələn, P.Aron özünün «Dünya və onun müharibəyə başlayan millətləri» (1962) əsərində göstərir: «Millət üçlü xarakteristikaya malikdir. Birinci, dövlətin həyatında hamının hərbi mükəlləfiyyət və ümumi seçki hüququ vasitəsilə iştirakı; ikinci, həmin siyasi iradənin və ictimai mədəniyyətin üst-üstə düşməsi; üçüncü, milli dövlətlərin xarici amillərdən qeyri-asılılığı». Lakin qeyd edək ki, bu konsepsiyaların inkişafında özünəməxsus meyillər də mövcuddur. Buna görə, həmin meyilləri geniş şərh etməyi məqsədəuyğun hesab edirik.

Milli birliyi, əsasən, ərazi, dil ümumiliyi və etnik mənşə ilə müəyyənləşdirmək fikri bütün zamanlarda müəyyənedici və spesifik, xarakterik olmamışdır. Bu ideya daha çox ənənəvi olaraq fransız siyasi fikrində əks olunan və əslində Fixtenin «Torpaq və qan» konsepsiyasına əsaslanan alman siyasi düşüncəsinə xasdır. Məsələn, Fixte 1807–1808-ci illərdə Napoleon qoşunları tərəfindən işğal edilmiş Berlində nəşr etdirdiyi «Alman milləti qarşısında nitq»lərində öz həmvətənlərinin qonşu xalqlar üzərində üstünlüyünü qeyd etmişdir. Fransa siyasi gerçəkliyində bu ideya yalnız mil-

lətçilik ambisiyaları «oyuna girəndə» təzahür edir. Əksinə, ənənəvi fransız siyasi fikrində siyasi və əxlaqi konsepsiyaları ilk baxışda müxtəlif qütblərdə durmalarına baxmayaraq, hansısa bir vahid nöqtədə qovuşurlar: həm qanunla himayə olunan vətəndaş cəmiyyəti, həm də mənəvi birlik cəmiyyətin mövcudluq əsasları və normalarının onun bütün üzvləri tərəfindən şüurlu və könüllü qəbul edilməsinə əsaslanır. Lakın həmin konsepsiyaların prinsipial oxşarlığı burada bitir və fərqlər başlayır. Bizcə, bu fərqlərin xronoloji nəzərdən keçirilməsi yerinə düşərdi.

XVIII əsrin sonunda baş vermiş fransız inqilabı ilk dəfə aparıcı təməl olmaqla, hələ son orta əsrlər mühitində ölkə mütəfəkkirlərinin irəli sürdükləri millət ideyasından istifadə edərək, öz dövrünə görə, siyasət sahəsinə, siyasi şüur anlayışına bir sıra prinsipial yeni ideyalar gətirmişdir. Belə mühüm ideyalardan biri xalq suverenliyi ideyasıdır. 1789-cu ilin avqustunda qəbul olunmuş «İnsan və vətəndaş hüquqları Bəyannaməsi»ndə deyilir: «Suverenliyin mənbəyi, əslində, millətdə yerləşir. Fransızların hamısı üçün ümumi olan hüquqda millətin heç bir hissəsi üçün heç bir üstünlük, yaxud ziyanlı bir şey mövcud deyildir. Millət ali hakimiyyətin mənbəyi və özünün tarixi-hüquqi bəraətçisi olur». Milli suverenliyin əsas həyata keçirilmə forması parlamentarizmdir. İlk dəfə 1791-ci ildə Fransa konstitusiyasında belə qeyd edilmişdi: «Suverenlik millətə xasdır. O, vahiddir, bölünməzdir, özgələşməyəndir və ayrılmazdır. Xalqın heç bir hissəsi, heç bir şəxs onun həyata keçirilməsini mənimsəyə bilməz... Bütün hakimiyyətlərin mənbəyi olan millət bunu yalnız səlahiyyət yolu ilə həyata keçirə bilər». Fransa konstitusiyası təmsilçi xarakterə malikdir. Təmsilçi, yaxud nümayəndəli orqan belə demək mümkünsə, beləliklə, millətin kollektiv iradəsinin keşiyində durur. Bir siyasi-tarixi nümunə: Sen-Cüst kral seçimi zamanı Konventin deputatlarına müraciət edərkən belə demişdir: «Kral müttəhim deyil, siz də hakim. Siz dövlətin qulluqçularından, millətin nümayəndələrindən başqa bir kəs ola bilməzsiniz». Millətin iradəsi isə daha çox qanunda təcəssümünü tapır. Onun yerinə

yetirilməsini təmin etmək üçün isə təminatlar sistemi yaratmaq lazımdır. Görkəmli mütəfəkkir Monteskyenin bu sözlərini də qeyd etmək yerinə düşərdi. «Əgər yer üzündə ünsiyyətli xasiyyətə malik, qəlbiaçıq, həyatsevər, zövqlü, səlis düşünən, həmişə hövsələsiz, özü də bütün bunlarla yanaşı həmişə xeyirxahlıqda cəsarətli olan, məğrur millət olsaydı, o, heç də bu keyfiyyətləri qanunla məhdudlaşdırmazdı, çünki onda bu, yaxşılığı, məziyyəti məhdudlaşdırmaq olardı». Yeri gəlmişkən, Birləşmiş Ştatların konstitusiyasının əsasında duran başlıca prinsipləri müəyyənləşdirən ideyalardan biri məhz Monteskyenin bu fikridir. Lakin real həyatda bütün bunlar mümkün olmadığından milli ideya daha konkret formalar kəsb edir. Milli suverenliyin qanunverici və inzibati idarəsi millət və dövlət anlayışlarını bir-biri ilə əlaqələndirir. Bir çox tədqiqatçılar bu əlaqəni bir aksioma kimi qəbul etmişlər. Məsələn, «dövlət yalnız millət olan yerdə mövcud ola bilər», «dövlət, əslində hüquqi təşkil olunmuş millətdir» kimi ideyalar siyasi şüuru formalaşdırmaqda mühüm rol oynamışdır. Bu baxımdan Heydər Əliyev tərəfindən suverenlik, müstəqillik ideyaları haqqında deyilmiş fikir Hegelin fikri ilə həmahəng səslənir. O, «Hüquq və fəlsəfə» əsərində yazıb: «Xalq suverenliyi haqqında o mənada danışmaq olar ki, xalq ümumiyyətlə xarici aləmə münasibətdə müstəqildir və öz dövlətini qurur... Dövlətə suverenlik xasdır». Mahiyyətcə millət və dövlət anlayışlarının eyniləşdirilməsi bir ideya kimi təkcə böyük siyasət üçün deyil, həm də siyasi şüurun formalaşması üçün də xarakterikdir. Məsələn, məmləkətdə milli arxivlər, kitabxanalar, muzeylər, xəzinə və s. mövcuddur. Bunlar, şübhəsiz ki, real idarəçilik sistemini tamamilə əks etdirməsə də, hər halda cəmiyyətdə millətə pərəstişin mövcudluğunu parlaq sübut edir. Yuxarıda dediklərimizdən belə nəticəyə gəlmək olar ki, inqilab dövründən başlayaraq millət konsepsiyası siyasi orqanizm kimi, bütün cəmiyyətin mənafeyi naminə, demokratik cəmiyyətin ilkin səbəbi və bəraəti kimi inkişaf etməyə və formalaşmağa başlamışdır. Dövrünə görə bu çox qabaqcıl addım olmuş, üstəlik də aktuallığını itirməmişdir.

Ən müxtəlif siyasi və ideoloji cərəyanların nümayəndələri millətə üz tutar, özlərinin bütün hərəkətlərinə onun mənafeləri uğrunda mübarizə ilə bəraət qazandırardılar. Buna görə tarixin yaratdığı dəyərlər sistemində milli birliyin qazanılması ayrıca vətəndaşın hüquqlarından yüksək tutulurdu. Buna səbəb daha çox millət ideyasının siyasi mübarizənin ən vacib dəyəri olması idi. İnqilab illərində siyasi mübarizənin nəticəsi hakimiyyətə gələn qrupların radikallaşması ilə millət anlayışına verilən dəyərin azalması oldu. Çünki radikallar öz rəqiblərini millətə aid etmirdilər. Bizim dövrdə isə vəziyyəti yüngülləşdirən demokratik ənənənin inkişafı və möhkəmlənməsi ilə cəmiyyətdə sosial və sinfi konfliktlərin təhlükəsinin azalması faktıdır. Lakin bununla belə Lefevrin bu fikri ilə razılaşmaq lazım gəlir ki, formal demokratiya millət ideyasını real millət və insanların psixoloji razılığı üzərində ucaldır. Beləliklə, siyasi və ideoloji birlik, hətta cəmiyyət həyatında real əhəmiyyətinə baxmayaraq, kollektiv tərəfindən öz birliyini dərk etmək üçün vacib şərt olmur. O, heç də həmişə sosiumun daxilində ideologiyadan və siyasətdən fərqli olaraq, keçici olmayan mənəvi birlik hissini müəyyənləşdirmir. Buna görə də, demək olar ki, milli birlik mövzusu – inqilab dövründə çiçəklənmiş, onun özündən sonra da mühüm sosial-siyasi ideyalardan olmuşdur. Təsadüfi deyildir ki, məlum sarsıntılar dövründə xalqımız məhz milli birlik ideyasını nümayiş etdirmişdir. Fransız tarixşünaslığında belə bir ideya geniş yayılmışdır ki, hər bir nəsil millətlə sanki yeni səviyyədə saziş bağlayır, yenidən özünü millət kimi dərk edir. Bu ona görə belə olur ki, millət mənəvi ümumilik olmaqla millətə daxil olan hər kəsdən bu hərəkətin könüllülüyünü və dərk olunmasını, dəstəkləməyi tələb edir. Artıq müasir mənada siyasi fikirdə insan nə irqin, nə dilin, nə dinin, nə uca amalların köləsidir. İnsanların nəinki zəka sayəsində, həmçinin qəlbinin hərarəti ilə böyük birliyi, millət deyilən siyasi şüuru yaranır. Lakin hətta təsəvvür etsək ki, insanın mənəvi siması əsrlərlə dəyişmir, bununla belə dövrün tarixi kontekstinin dəyişməsi yuxarıda adı çəkilən sazişin bağlanılmasında təcrübə

qazanmağa, həmçinin subyektiv amillər hesabına təshihlər etməyə səbəb olur. Bir tərəfdən belə çıxır ki, öz keçmişini qəbul etmək hazırda özünü identifikasiyanın vacib şərtidir. Öz əcdadlarına müraciət insanın müstəsna hüququdur, insanı heyvandan da fərqləndirən budur, millət mahiyyətcə tarixi nəticədir. Lakin burada eyni zamanda həm səciyyəvi, həm də ehtiyatlandırıcı fakt budur ki, müxtəlif adamların bu məsələdə fikirləri radikal şəkildə çulğaşır. İki mülahizəni misal gətirək. Birinci halda geniş mənada götürsək torpağa münasibət hələ vətənpərvərlik demək deyil. Heydər Əliyevin fikrincə, bura öz tarixinə məhəbbət də əlavə olunmalıdır. İkinci fikrə görə, millət irqin və ölkənin qidalandığı və dərk etdiyi ənənələri əks etməsə, o, qüdrətli olmaz, çünki milyonlarla canlı insanın millət kimi yaşadığı ölkədən başqa bir ölkə yoxdur. Avropa təcrübəsi göstərir ki, burada inqilab, eyni zamanda, siyasət və sosial həyat meydanında iki əks reallığı və iki termini – millət və fərdiyyət anlayışlarını ortaya qoymuşdur. Əgər insanın vətəndaş hüquqlarına həmişə riayət olunması, milli birlik və millətin mənafelərinə riayət etməyin nəzərdə tutulması məsələləri daha çox hüquq sahəsinə aiddirsə, siyasətçinin öhdəsinə isə başqa bir məsələ düşür. Məsələnin mahiyyəti belədir: belə bir mövqedən çıxış etsək ki, keçmiş heç də həmişə şərəfli olmur, yüksək insani, mənəvi və əxlaqi dəyərlər isə millət fövqündə yerləşdiyindən belə bir fikirlə də razılaşmalıyıq ki, fransız, yaxud alman tradionalisti, rus, yaxud alman millətçisi olmaq mümkündür, lakin yenə də adam olaraq qalırıq, çünki millətçilik irqi fenomen deyildir. Belə isə onda, hər halda, hansı xüsusiyyətlərə görə insanlar müxtəlif millətlərə bölünüblər? Bu sualı qoymaqla biz faktiki olaraq yenidən müzakirə etdiyimiz problemin köklərinə qayıtmış oluruq. Problemi yenidən həll etmək üçün ən sadə yol «millət» və «Azərbaycan» anlayışlarını sinonimləşdirməkdən ibarətdir. Məsələ burasındadır ki, hazırda anadan olan azərbaycanlılar artıq əsrlər ərzində konkret tarixi şəraitlə və bir-birini əvəz edən nəsillərin qarşılıqlı təsiri ilə formalaşmış xüsusi növ birliyə məxsusdurlar. Millətin iki böyük üstünlüyü mövcuddur,

buna eyni vaxtda heç yerdə rast gəlmək olmaz: millətin həm prinsipi, həm də əfsanəsi var. Bunun sayəsində ən yüksək və humanist ideya yaranmış, millətimiz tarixin daha çox müqəddəsləşdirdiyi ənənəyə malik olmuşdur. Beləliklə, millət daxilində sosial və siyasi səviyyədə mövcud olan konflikt bir növ onun sivilizasiya miqyasındakı əhəmiyyəti və dəyəri ilə aradan qaldırılır. Heydər Əliyevin fikrincə, bizim üçün hər şeydən vacibi yalnız yüksək inkişaf etmiş siyasəti, yaxud çiçəklənən iqtisadiyyatı olan ölkə deyil, məhz Azərbaycan idealı olmalıdır. Bu isə hər şey deməkdir. Məlumdur ki, avropalılar öz dəyərlərini bir daha nəzərə çarpdırmağa səy göstərərək çox zaman ənənələri ilə kifayətlənmirlər, əksinə bütün bəşəriyyətin tarixi irsinə müraciət edirlər. Fransa intellektualları Böyük İnqilabda həmişə antik simvolika görmüş, bununla da bütövlükdə Fransa mədəniyyətinin bəşəriliyini qeyd etmişlər. Dahi V.Hüqonun «Fransızlara müraciəti» əsərində deyilən sözləri xatırlayaq. O, «Fransa bir zamanlar Yunanıstanın və Romanın malik olduqları üstünlüklərə malikdir: ona xətər edən təhlükə sivilizasiyanın tənəzzülünü sübut edir» – söyləyir. Belə bir cəhd Fransanı dünyanın böyük sivilizasiyaları ilə bir sırada görmək, millət ideyasının bəşəriliyini nəzərə çarpdırmaqdır. Fransa ziyalıları Almaniyanın birləşməyə olan meylini alqışlayırdılar, çünki bunu alman millətinin formalaşması kimi qəbul edirdilər. Bu mənada tarixi birlik, tarixə müraciət Azərbaycan xalqının idealıdır.

Bunu da qeyd edək ki, nəticədən səbəbə doğru prinsipinə söykənərək, açıq-aşkar mənfi xarakter daşıyan millətçiliyin cəmiyyətlə şəxsiyyət arasındakı qarşılıqlı münasibəti prinsipinin əsasını axtarmaq lazımdır. Deməli, birinci, millətçilik millət ideyasını bu mənada təshih edir ki, bu ideya sadəcə olaraq müəyyən sosiumda ümumi ideya olur, siyasi şüurun əsasını yaradır. Həm də əldə olunmuş birliyi vətəndaş cəmiyyətindən uca tutur. Millətçilik ilk anlar siyasi və sosial planda tamamilə qeyri-elitar hadisə kimi, yəni millət anlayışı ilə eyniləşdirənlərin hamısını, eyni dərəcədə özünü əhatə edən fenomen kimi nəzərdən keçirilirdi.

Lakin sonralar hakimiyyət inkişaf etdikcə onun siyasi və sosial müxalifəti artdı. Hakim dairələrin ideologiyası isə bir məsələdə dəyişməz qalırdı: hakimiyyətdə olan partiyalar və liderlər öz mövqelərini millətin mənafeləri ilə əlaqələndirir və öz siyasətlərini onun adından həyata keçirirdilər. Heydər Əliyev də məhz belə bir siyasi mövqenin tərəfdarı olmuşdur. Çünki əvvəlki hadisələrin gedişi nəticəsində parçalanmış cəmiyyət həmin ziddiyyətləri vətəndaş cəmiyyəti çərçivəsində saxlaya bilməzdi. Çünki bu cəmiyyətin həyat fəaliyyətinin başlıca prinsiplərindən biri konflikt idi. Millətə və qeyri-millətə bölünmə cəmiyyət üçün konfliktin razılıq üzərində üstünlüyü deməkdir. Belə hal, bir qayda olaraq, vətənpərvərlik, yaxud da yalançı vətənpərvərlik cümləpərdazlığına bürünür ki, buna daha çox səmimi adamlar inanırlar, çünki siyasətçiyə müəyyən mənada «səmimilik» anlayışını aid etmək çətin olur. Konflikt meydana çıxan yerdə labüd olaraq millətçiliyin fərqləndirici cəhətlərindən olan zorakılıq da mövcud olur. Sosiumun daxilində zorakılıq təkcə hakimiyyətdən müxalifətə doğru deyil, əksinə də ola bilər. Bəzən deyilir ki, millət, hər şeydən əvvəl, müxalifətdə olanların və simvola da böyük əhəmiyyət verənlərin yaratdığı obrazdır. Milləti xalq kimi başa düşmək mövqeyini bununla izah etmək olar. Elə bir xalq ki, ümumi məntiqə uyğun olaraq, bir tərəfdən hökumətə qarşı qoyulur, digər tərəfdən isə, onun özü qarşıdurma faktına bəraət qazandırır, çünki xalqın mənafeləri, siyasətçilərin fikrincə, hər cür fəallıq üçün meyar olmalıdır. Bu kontekstdə Ulu Öndər hesab edirdi ki, belə halda siyasətçilərin öz mənafelərini milli mənafelərlə pərdələmələri, yaxud özlərini təbii hüququn və təbii ədalətin daşıyıcıları hesab edən həmin siyasətçilərin təsirinə uymuş «sıravi vətəndaşlar» adlanan kütlə eyni dərəcədə təhlükəlidir. Sonuncu halda öz mənafelərinin real məzmununu dərk etməyən əksəriyyətin mənafeləri uğrunda mübarizəyə qalxdığı zaman ziddiyyətlər yaranır. Xalqın qara camaat adlanan aşağı təbəqələri, şübhəsiz ki, şovinizmə və ksenofobiyaya məruz qalır, amma milli birliyə mənsubiyyət hissini itirmir. Milli zəmində baş verən xarici konfliktlər məkanın

miqyasına görə daha güclü, dağıdıcı qüvvəyə malik olurlar. Hətta birbaşa fiziki toqquşma baş verməsə də, milli müstəsnalıq ideyası beynəlxalq münasibətlərdə müəyyən mürəkkəblik yaradır, siyasi şüura zorakılıq elementi kəsb etdirir. Beləliklə, yuxarıda deyilənlərdən birmənalı nəticəyə gəlmək olar ki, millət ideyası müstəqil siyasi qüvvə kimi meydana atıldığı gündən insan və cəmiyyət həyatına real və güclü təsir göstərmişdir. Millətin dünyaya gəldiyi vaxt barədə məsələ açıq qalsa da, millət ideyasının yarandığı dövr kifayət qədər dəqiq müəyyən edilmişdir. Millət əvvəlcə sosial və siyasi ideya kimi, sonra isə mental ümumilik kimi zamanca ənənəvi aristokratiyanın süqutu və yeni cəmiyyətin qurulması ilə bağlıdır. Əgər mütləqiyyətin başlıca ehkamı milləti dövlət və kralla sinonimləşdirmək idisə, onda bu tərkib hissələrindən birinin qopub düşməsi bütün mövcud hakimiyyət sisteminin iflası demək olardı. Belə bir mülahizə də maraqlıdır: mütləq monarxiyaların və müstəmləkə imperiyalarının dağılması bəşəriyyətə böyük mifyaradıcı və siyasi qüvvə – millət ideyasını vermişdir, elə bir substansiya ki, onun vasitəsilə vətəndaş cəmiyyəti suverenliyə və hakimiyyətə malik olur. Beləliklə, millət ideyası əslində yeni dövr demokratiyasının hüquqi və ideoloji-əxlaqi əsaslandırılmasıdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, bu iki amil bir-birinə elə qovuşub ki, tədqiqatçıların çoxu yeni dövrün burjua cəmiyyətinin və milli ideyanın yüksəlişini və süqutunu sinxronlaşdırırlar, yəni bu iki hadisənin eyni vaxtda baş verdiyini söyləyirlər. Məsələn, bizdə milli dövlətçilik ideyasının inkişafı ölkənin geosiyasi prioritetlərinin formalaşması ilə paralel getmişdir. Bu ideya bir növ cəmiyyətin yeni sistemə – demokratik parlamentarizmə keçidində əlavə amil kimi iştirak etmişdir. Azərbaycanda milli mənlik şüurunun vüsət alması müstəqillik uğrunda mübarizənin mərhələləri ilə birbaşa bağlı olmuşdur. Millət indi total sənayeləşmə əsrində müxtəlif etnosların mədəni-tarixi özünəməxsusluğunun qorunub saxlanmasının dayaq nöqtəsi olmaqdadır. Əlbəttə, bütün unifikasiya prosesləri hələ başa çatmamışdır. Həm də bunun

üçün xeyli vaxt lazımdır, lakin buna baxmayaraq, bu prosesin meyli aydın görünür. Belə bir oxşar mənzərə iqtisadiyyat sahəsində də müşahidə olunur. İqtisadiyyatın dünya iqtisadiyyatına çevrilməsi bu gün milli dövlət vahidlərini tam şəkildə qoruyub saxlamaq siyasətindən daha az şans verir. Bu, indiki dünyamızın ən güclü meyillərindəndir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, milli ideya yalnız müstəqil qüvvə deyildir, o daha çox ümumi meyllərin simptomu kimi çıxış edir. Belə bir fikirlə razılaşmaq olar ki, Fransa inqilabından sonra milli dövlətlər həqiqətən də siyasi həyatın norması olmuş, dövlətin milli mədəniyyətlə birləşməsi hadisəsinə çevrilmişlər. Bu mənada «milləti məhz milli doktrina yaradır» ideyası da müstəqil səslənir. Həmin məcrada gərək təqribən belə sualları da cavablandıra bilək: niyə fransız maarifçilərinin fəlsəfəsi çox qabarıq kosmopolitik xarakter daşımışdır? Niyə kosmopolitizm onlara bütün hədləri aşaraq qabaqcıl Avropa mütəfəkkirlərinin hamısı ilə vahid intellektual ümumilik yaratmağa kömək etmişdir? Yeni dövrün fəlsəfəsi ona görə milli fəlsəfə olmuşdur ki, ilk növbədə insan şəxsiyyətinə müraciət edirdi, çünki o, şəxsiyyətin yeni tipli sosium formalaşdırmaq hüququnu təsdiqləyirdi. Bu ümumi birliyə olan təbii-tədrici meyil yeni siyasi sistemin təşəkkülünü müşayiət edən ziddiyyətlərin zorakı yolla, bu sistemdə hakimiyyət uğrunda ambisiyaların tüğyan etməsi ilə dayandırıldı. Ümumbəşəri dəyərlərin bu gün yeni səviyyədə gündəlikdə qoyulmasına, intellektual sahədə millət üzrə fərqlərin konservasiya edilməsinə ehtiyac qalmır. Fransa maarifçilərinin universalizmi fəlsəfi xarakter daşıdığı və qətiyyən Vətən və millət ideyalarından imtina etməyi nəzərdə tutmadığı kimi, indiki dünyamızda da daxili və xarici ziddiyyətlərin həlli ilə paralel olaraq, yeni səviyyədə özünümüəyyənliyə olan tələbat da artır. Milli amil həm də siyasi faktor kimi burada daha münasib rol oynamağa qadirdir. Bəs insanı millətdə hər cür konfliktdən uzaq olan özünümüəyyənliyini axtarmağa nə vadar edir? Faktik olaraq bu məsələ, birincisi, millət hissi anadangəlmə hissdirmi, yəni – insan öz iradəsindən asılı olmayaraq, bu, ideyanın daşıyıcısı

kimi çıxış edirmi, yaxud bu məsələnin bu və ya digər aspektdə həlli insanın həyatına və millətin taleyinə necə təsir göstərir? – kimi suallara söykənir. Bizcə belə bir mülahizə söyləməyə əsas var ki, millət mənşə, mədəniyyət və mənafeləri dərk etməklə öz birliyinin obyektiv, fərdi əsaslarını üzvlərinin gözləri qarşısında əsaslandırmağa, onu özünə və başqalarına göstərməyə çalışan və nəhayət, öz taleyinə tam müstəqil şəkildə kömək eləməyə hazır olan xalqdır. Millət ideyası, şübhəsiz ki, insanların şüuruna çox güclü təsir göstərir, özlüyündə isə o, insanın millətə mənsubiyyətini müəyyən edə bilmir. Bundan ötrü onun dərk olunmuş hərəkətləri zəruridir.

İkincisi, insanın xoş məramı – onun millətə mənsubiyyətinin müəyyən edilməsində yeganə və hətta heç də həmişə həlledici amil deyildir. Lakin bununla belə olduqca vacib amildir, çünki bunsuz yerdə qalan, hətta hadisələrin ən əlverişli cəhətdən cərəyan etməsi belə heçə enir. Bu və ya digər millətin üstünlük təşkil etdiyi ərazidə yaşayıb, lakin ona bir sıra formal (dil) və mental əlamətlərə görə mənsub olmaq olar. İnsan şəxsiyyəti onun, həyat fəaliyyəti ümumi və obyektiv meyillər çərçivəsindən kənara çıxma hallarına yol verən incə və fərdi orqanizmdir. Millətin və şəxsiyyətin qarşılıqlı təsiri tamamilə eynidir. Bunların arasında göstərdiyimiz ziddiyyət zahiri xarakter daşıyır. Bu, ona söykənir ki, millətin kollektiv şüuru fərdi şüurların, millətin tərkib hissələrinin hesab cəminə bərabər deyildir. Lakin bununla belə, bu heç də o demək deyildir ki, onunla məntiqi əlaqəsi yoxdur, çünki mahiyyətcə ətraf gerçəkliyə münasibətdə, lakin kollektiv miqyasda, özünü identifikasiya vasitəsidir. Millət ideyasının təzahürü insanın dünyanı və özünü dərk etmək mərhələlərindən və vasitələrindən biri olub, konkret tarixi dövrün güclü təshihinə məruz qalır.

İlk növbədə aydın fakt kimi etiraf edilməlidir ki, millətin içində yaşayıb ondan asılı olmamaq mümkün deyildir. O, hər bir insanın həyatına, özü də hərtərəfli təsir göstərir. Əgər nəzərə alsaq ki, birliyin siyasi-hüquqi normalarına riayət etmək milli

suverenliyin reallaşmasının birbaşa nəticəsidir və cinayət xarakterli kənaraçıxma hallarını bir yana atsaq, onda məlum olur ki, bu çərçivənin daxilində şəxsiyyətin özünün ifadəsi üçün böyük meydan açılır. Bir daha fransız mütəfəkkirinin sözlərini xatırlayaq: «Hər kəs öz bildiyi kimi fransız ola bilər. Millət heç kəsin inhisarı deyil, o, ya hər şeydir, ya da heç nə». Milli birləşmə prosesi konfliktləri aradan qaldırmaq vasitəsilə konsensusa doğru hərəkət prosesidir. İqtibası davam etdirək: «Fransızı öldürən eyni zərbə ilə Fransanı öldürür. Fransızı Fransa adından öldürmək olmaz, çünki Fransa fransızlardan başqa bir şey deyildir».

Deyilənlər kontekstində biz Heydər Əliyevin millət barədə konseptual fikirlərini göstərmək istərdik. Onun fikrincə, millət insan birliyinin obyektiv, siyasi-hüquqi, iqtisadi, geosiyasi və digər şərtlərin yarandığı zaman müəyyən inkişaf mərhələsində meydana çıxan insanların kollektiv mövcudluq forması, şəxsiyyətə və kollektivə özünün etnik mənsubiyyətinin əzəli dərk olunmasını yeni səviyyədə reallaşdırmağa və möhkəmlətməyə kömək edən fenomendir. Millət öz müstəqilliyini qoruyub saxlayarkən onun formalaşmasını müşayiət edən daxilində və kənarda mövcud olan konflikt zonalarını tədricən aradan qaldıran meyillərə də üstünlük verir. Hər bir adam dünyaya gələrkən bu və ya digər millətə mənsub olmaq üçün bir sıra obyektiv ilkin şərtlərə – dilə, yaşayış yerinə, irqə malik olur. Onun sonrakı taleyi isə öz əlindədir, çünki hər kəs üçün harada, necə, kimlə yaşamaq, obyektiv yönümlü istiqamətləri ölçüb-biçmək, yaxud axarla getmək kimi insani keyfiyyətləri müəyyənləşdirmək vaxtı gəlir. Ulu Öndərə görə bəziləri üçün özünümüəyyənləşdirmək məqamı hiss edilmədən keçir, kimsə isə ömrü boyu əzab çəkir. Bu məqam siyasi elitanın formalaşması prosesində də özünü göstərir. Kimsə öz millətindən ayrı – qürbətdə yaşayır, kimsə öz millətinin təbiətindən uzaq ömür sürür. Faktik olaraq insan üçün millət ailə kimi bir şeydir. Heydər Əliyevin siyasi irsi ilə tanışlıq göstərir ki, onun mülahizələrinə görə millət ideyası alman mütəfəkkirlərini də dərindən düşündürmüşdür. Onun dedikləri ilə məşhur alman

sosioloqu M.Veberin fikirləri arasında oxşarlıq az deyildir. O da M.Veberin üstünlük verdiyi siyasi dəyərlər sistemində millət anlayışına əsas yer ayırır. O, millət deyərkən nəyi başa düşürdü? Onun nəzəri irsi ilə tanışlıq göstərir ki, o, siyasət elmində milləti içəridən didən sosial ziddiyyətlərin araşdırılmasına xeyli yer vermişdir. O, bütövlükdə siyasəti millət baxımından nəzərdən keçirmişdir. Alman sosioloqunun siyasi baxışları ilə yaxından tanışlıq göstərir ki, M.Veberin millətçiliyi, əslində yaşadığı dövrün millətçiliyinin ifadəsidir. Həqiqətən də Almaniyada siyasi liberalizmlə millətçilik ideyalarının müştərəkliyi bu ölkə üçün xarakterik olmuşdur. M.Veberin anlamında millət və milli dövlət Almaniya imperiyasının yaranmasına xidmət etmişdir. Ulu Öndər də əmin idi ki, milli tariximizin idealı xalqın milli dövlətini qurmaqdır. Məsələnin belə qoyuluşu tarixin inkişaf məntiqinə uyğun gəlirdi. Başqa sözlə desək, sivilizasiyalı dünya üçün, öz müqəddəratını təyin etməkdən ötrü xalqın normal halı milli dövlətini yaratmaqdır.

XX əsrin əvvəlindən belə bir ideya hakim idi ki, milli-siyasi şüur yalnız müəyyən dərəcədə ümumi etnik mənşəyə və dilə söykənir. Buna görə də tədqiqatda müəyyən obyektiv antropoloji tipə deyil, sosial-siyasi birliyə, mənsubiyyəti subyektiv dərk etmək amilinə daha mühüm əhəmiyyət verilir. Heydər Əliyev hələ Hegel dövründən millətin yalnız dil-etnik birliyi olması fikrinin düzgün olmadığını göstərərək, milləti birliyi tərbiyə edən ümumi keyfiyyətlər baxımından deyil, məqsəd baxımından – müstəqil dövlət mövcudluğu, dövlət milli ideyası kimi xarakterizə edirdi. Hegel özünün «Almaniyanın konstitusiyası» (1802) əsərində göstərirdi ki, dövlət hüququ sahəsində mütəxəssis Almaniyanı dövlət hesab edə bilməz, çünki «dövlət olmayan millət xalqdan ibarətdir». Bu mövqe Qərbi Avropa, xüsusilə Amerika mütəfəkkirlərinə xas olmuşdur. Onlar hər bir vətəndaşı subyektiv olaraq özünü mövcud dövlətə mənsub olan, etnik mənşəyindən asılı olmayaraq, millətin üzvü olduğunu dərk edən şəxsiyyət sayırdılar. Heydər Əliyevə görə, ümumiliyin subyektiv dərki

milli-siyasi şüura keçiddir. İnsanları millət edən ümumi siyasi tale və döyüşlərdir. Etnik, dil, dini və mədəni birlik ikinci dərəcəlidir. Bu mənada, demək mümkündür ki, daxili azadlığa və demokratik hüquqlara malik xalq millət ola bilər. Millətin missiyası dünyada qabaqcıl mövqelər tutmaq, özünü ləyaqətlə tanıtmaqdır. Buna görə Ulu Öndər hələ Naxçıvanda olarkən parlament sisteminə keçməyin zəruriliyini həmişə vurğulamışdır. O, millət ideyasının formalaşmasında dövlət strukturlarının təkmilləşdirilməsini vacib saydığından, siyasi görüşlərində Azərbaycanın avtoritar dövlət strukturunun parlamentli demokratiyaya çevrilməsi yollarının tədqiqinə mühüm yer ayırmışdır.

O, həmçinin başa düşürdü ki, inkişaf etmiş millətin dövləti idarə edə bilən parlamenti olmalıdır. Ona görə də, islahat layihəsində parlamentin yaradılmasına, onun fəaliyyətinin xüsusiyyətlərinə xüsusi yer ayırmışdı. O, həmçinin göstərirdi ki, dövlətdən azad demokratiya artıq köhnəlmiş və neqativ məzmun kəsb edir.

Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyevi Azərbaycan mütəfəkkirlərinin milli ideya barədə fikirlərini, parlamentarizmlə əlaqədar söylədiklərini də yüksək qiymətləndirirdi. Məlumdur ki, XIX əsrin 60-cı illərində M.F.Axundzadə milli idealın istibdad idarəçiliyi mühitində həyata keçirilməsinin mümkün olmadığını görür, milli dirçəliş formalarından biri kimi konstitusiyalı monarxiyaya ümid bəsləyirdi. O, güman edirdi ki, xalq ilə hökmdar arasında uçurumu «səltənəti – konstitusion» vasitəsilə aradan qaldırmaq mümkündür. Mütəfəkkir yazırdı: «padşah gərək..., millət ilə ittifaq etsin və millət ilə yekdil və yekcəhət olsun..., parlamentlər tərtib etsin». O, həmçinin parlamentin strukturu və vəzifələrini də göstərirdi»: parlament iki məclisdən, yəni palatadan ibarət olur ki, birində rəiyyətin nümayəndələri, digərində isə əyanların nümayəndələri toplaşaraq iclas edirlər. Dövlətin bütün qanunları birinci palatada tərtib olunub ikinci palatanın müzakirəsinə verilir. Hər iki palatanın təsdiq etdiyi qanunlar padşah tərəfindən imzalandıqdan sonra icra olunur. Padşahın bu qanunlar əleyhinə çıxmaq üçün heç bir ixtiyarı yoxdur».

Dövrün, zamanın siyasi ab-havası, bəzən dünyanın hansı bölgəsində yaşayıb-yaratmasına baxmayaraq, bir çox xalqların mütəfəkkirlərini ruhən birləşdirir. Ulu Öndər mədəni-tarixi irsimizi gözəl bildiyindən o, M.F.Axundzadənin görüşlərindəki qüsurları dövrünün məhsulu kimi qəbul edirdi. Lakin o, Axundzadənin maarifçiliyi ilə fransız maarifçiliyi arasında əlaqəni də göstərirdi. Belə bir «ruhi əlaqə», onun fikrincə, M.F.Axundzadənin «Kəmalüddövlə məktubları» ilə Monteskyönün «İran məktubları» arasında mövcuddur. Fransız alimi adı çəkilən əsərində uydurma İran səyahətçilərinin dili ilə Fransada və Avropanın digər dövlətlərində hökm sürən mütləqiyyəti, dövlətçilikdə yayılmış hərcmərcliyi kəskin tənqid edib. O yazıb: «Hakim, onun saray əyanları və bir çox xüsusi adamlar hər cür varidata malikdirlər, halbuki yerdə qalanlar ifrat yoxsulluq içərisində inləyirlər». Özünün siyasi idealını xalqının ictimai həyatının inkişaf prosesi ilə əlaqədar görən M.F.Axundzadə də xalq kütlələrinin milli dirçəlişinə mane olan ictimai zülmə, ədalətsizliyə qarşı çıxış etmiş, mövcud quruluşa hədsiz nifrətini «Kəmalüddövlə məktubları» ilə bildirmişdir.

M.F.Axundzadə xalqa müraciətində yazıb: «Sənə ancaq yekcəhətlik və yekdillik lazımdır ki, revolyusiya edib emudayyətdən (köləlikdən-müəl.) nicat tapasan». «Kəmalüddövlə məktubları»nda xalqın roluna yüksək qiymət vermək, mütləqiyyətin zülmündən azad olmaq üçün xalqı birlik və ittifaqa səsləmək mütəfəkkirin təkcə siyasi görüşlərində irəliləyiş kimi deyil, həm də Azərbaycan sosial-siyasi fikrində milli ideya axtarışlarının, millət ideyasının formalaşması yolunda mühüm cəhd kimi dəyərləndirilməlidir. Heydər Əliyev M.F.Axundzadənin bu maarifçi mövqeyini yüksək qiymətləndirirdi.

Ulu Öndər Ə.M.Topçubaşovun diplomatik fəaliyyətini də xüsusilə qeyd edir və göstərirdi ki, görkəmli diplomat Ə.M.Topçubaşovun tərtib etdiyi «Memorandum»da... artıq XX əsrin əvvəllərində baş verən hadisələrin fonunda Azərbaycan xalqının da milli-siyasi şüurunun oyanışı əhatəli şəkildə əksini tapıb. O

zaman vətəndaşlıq, dini və siyasi azadlıq ideyaları bütün xalqların şüuruna nüfuz etmişdi. Hər bir kəs aydın başa düşürdü ki, bu ülvi ideyaların dərin mənasını dərk etmək üçün ilk növbədə özünü, öz millətini və bölgəsinin tarixini başa düşməli, cari hadisələrin içərisində olmalı, millətin müasir tələbatlarını, görüşlərini və idealını bilməlidir. Daha dəqiq deyilsə, millətin fərdiyyətliyi, öz milli siması olmalıdır.

Ümummilli Lider milli-siyasi şüurun formalaşmasının təzahürü və inkişafı amili kimi parlament məsələsində Y.V.Çəmənzəminlinin də rolunu yüksək dəyərləndirmişdir. O, diplomatik elitamızın görkəmli simalarından olan Y.V.Çəmənzəminlinin 1918–1919-cu illərdə yazdığı «Xarici siyasətimiz», «Milli və mədəni işlərimiz», «Biz kimik və istədiyimiz nədir?» əsərlərinin adlarını çəkir. Ulu Öndər bu məsələyə Vətən, millət və milli dövlət anlayışı ilə əlaqədar müraciət edir. Millət ideyasının dövlətçiliklə bağlı olduğunu göstərərək yazıçı yazıb: «Üç amil – millət, ölkə və hakimiyyət bir yerdə toplanılır». Yaxud da belə qeyd edib: «Dünyada hər bir milləti təşkil edən üç amildir: torpaq, millət, hakimiyyət». Y.V.Çəmənzəminli «Daxili məsələlər» məqaləsində göstərirdi ki, ölkəmiz parlamentdə oturan «millət vəkillərinin yazdığı qanun ilə dolanacaq», «ölkəmiz qanuna tabe olacaq və qanundan xaric bir iş görülməyəcək». Tarixi təcrübə göstərdi ki, demokratik qanunlara söykənən ilk Azərbaycan parlamenti az ömrü ərzində milli dövlətçiliyin, millət ideyasının yeni səviyyədə dərk olunmasında mühüm işlər görmüşdür.

Heydər Əliyev göstərirdi ki, Azərbaycan mütəfəkkirləri və siyasətçiləri millət ideyasını milli dövlətçilik konsepsiyasından ayırmamış, hər iki amilin mahiyyətinin əsasında milli-siyasi şüurun oyanışının təzahürünü görmüşlər. Bu intellektual mühit, söz yox ki, Azərbaycanda yeni siyasi elitanın formalaşmasında mühüm rol oynamışdır.

Ulu Öndər özünün siyasət fəlsəfəsində belə bir metodoloji məsələyə toxunur: milli şüurun politoloji baxımdan araşdırılmasını şərtləndirən hansı amillərdir?

Hər şeydən əvvəl, Heydər Əliyevin siyasət fəlsəfəsinin aktuallığını əsaslandıran amillərdən biri millət ideyasının özünün tarixən siyasi ideya kimi meydana gəlməsi konsepsiyasıdır. Digər tərəfdən, milli-siyasi şüurun mühüm struktur komponentlərindən, siyasət fəlsəfəsinin mərkəzi anlayışlarından biri məhz bütöv siyasi şüurdur. Milli şüurla siyasi şüurun dialektikası mövcud reallıq olub, siyasi elitanın dünyagörüşünün formalaşmasında müstəsna rol oynayır. Ulu Öndərin mövqeyi belə olub ki, əhalinin müxtəlif təbəqələrinin siyasi yönümlərinin yetkinlik dərəcəsi, daha dəqiq deyilsə, sosial qrup və təbəqələrin siyasətdə iştirakı, siyasi rejimə və mövcud hakimiyyətə münasibəti onların milli-siyasi şüurunun inkişafı səviyyəsindən çox asılıdır. Heydər Əliyevin siyasət fəlsəfəsindən irəli gələn mühüm konseptual ideya belədir ki, hazırda siyasi reallığın müxtəlif sahələrinə – sosial institutlara, siyasi ideya və normalara, liderlərə, siyasi dəyərlərə, yəni siyasi gerçəklikdə subyektin yerini müəyyənləşdirən bütün bu sadalanan amillərə münasibəti öyrənərkən milli-siyasi şüur probleminə toxunmamaq mümkün deyildir. Heydər Əliyevin çıxışlarında irəli sürülən müddəalardan belə bir nəticəyə gəlmək olar: tarixi təcrübə sübut etmiş və etməkdədir ki, suverenliyin, milli dövlətçiliyin təşəkkülü hər bir insan cəmiyyətinin birliyinin vacib amili olan milli-siyasi şüurun formalaşması ilə sıx bağlıdır. Bu fenomen əslində ərazidə yaşayan bütün millətin, ümumiliklərin bərabərliyini təmin edən suveren dövlətin siyasətinə həlledici təsir göstərir. Bu mənada milli-siyasi şüur elitanın siyasi fəaliyyətinin məzmun əsasını təşkil edir.

Bu kontekstdə Heydər Əliyev belə bir metodoloji məsələyə də toxunmağı vacib sayıb: ictimai şüurun demək olar ki, bütün təzahürlərində milli başlanğıc ünsürü vardır. İctimai şüurun bir forması olan milli şüur hər şeydən əvvəl təkcə milli çərçivələrdə deyil, mövcud milli şüurla digər millətlərin praktikası arasındakı siyasi münasibətdə üzə çıxır, yəni milli olanla bu və ya digər millətin ümumi şüuru arasında təmasda aşkarlanır. Milli ümumiliyin şüuru özünə, onun konkret tarixinə məxsus olan milli mədəniyyətdə,

millətin mənəvi həyatında əksini tapan reallıqdır. Cəmiyyətin şüur tipləri bütövlükdə ictimai həyatın mənəvi sahəsindən asılıdır. Bu baxımdan Ulu Öndər haqlı olaraq belə bir müddəa irəli sürüb: millətin ictimai həyatını, onun yaşadığı siyasi reallıqları milli şüurun struktur təhlili edilmədən başa düşmək mümkün deyildir. Onun çıxışlarında milli-siyasi şüur bütövlükdə millətlərin və xalqların mənəvi inkişafının məzmunu, səviyyəsi və xüsusiyyətlərini xarakterizə edən sosial, iqtisadi, mənəvi, estetik, fəlsəfi, dini və s. görüşlərin məcmusu kimi təsnif edilir. Belə nəticəyə gəlmək olur ki, milli-siyasi şüur millətin məzmunu, onun səviyyəsi və mənəvi inkişafını səciyyələndirən ictimai varlığın məcmusu, xalqın həyat fəaliyyətinin obyektiv mövcud olan milli-siyasi amillərinin subyektiv obrazıdır. Xarakterinə və məzmununa görə, konkret tarixi hadisə olan milli-siyasi şüur hər bir xalqln ayrı-ayrı nümayəndələri tərəfindən yaradılmır. Əksinə, milli ümumiliyin kollektiv şüurunda meydana gəlir və hər bir insanda müxtəlif səbəblərdən eyni şəkildə təzahür etmir. Milli-siyasi şüur daim təkamüldə olan ictimai şüur formasıdır. Heydər Əliyevin dünyagörüşündə o, hər şeydən əvvəl özündə millətin, cəmiyyətin müxtəlif dəyərlərinə siyasi münasibəti ehtiva edir, onun tarixi inkişaf prosesini, əvvəlki nailiyyətlərini və gələcək qarşısındakı vəzifələrini əks etdirir. Ulu Öndər milli-siyasi şüura canlı proses kimi yanaşır, belə ki, ona görə bu fenomen millətin öz maddi və mənəvi dəyərlərinə şüurlu münasibəti olmaqla yanaşı, həm də həmin dəyərləri artırmaq naminə yaradıcılıq qabiliyyətini, milli mənafeləri həyata keçirmək yolunda birləşməyin zəruriliyini və digər milli-etnik qruplarla uğurlu qarşılıqlı əməkdaşlığın vacibliyini dərk etməkdir. Milli-siyasi şüurun mühüm struktur elementləri kimi sosial-iqtisadi və dövlət ümumiliyinin dərk olunmasını, milli mənafelərin və tələbatların ümumiliyini, millətlərarası münasibətlərdə öz yerinin və rolunun ləyaqətlə başa düşülməsini göstərmək olar. Lakin bu milli dəyərlərin dərindən dərki milli-siyasi şüurun səviyyəsindən xeyli asılıdır. Bir qayda olaraq, tədqiqatlarda milli-siyasi şüura aydınlıq gətirmək

üçün adi şüurla nəzəri şüur səviyyələrini fərqləndirirlər. Adi şüur deyilərkən milli-etnik psixologiya, yaxud milli-psixoloji səviyyə nəzərdə tutulur. Nəzəri milli şüur süzgəcdən keçirilmiş, elmi cəhətcə formalaşmış və sosial-siyasi mənada yönümlənmiş kütləvi adi milli şüurun müəyyən sosial-siyasi mövqələrdən həyata keçirilən seçmə ünsürlərinin ümumiləşdirilməsidir.

Ulu Öndərə görə, millətin nümayəndələrinin böyük əksəriyyətinin sosial-konkret varlığının mühüm, aktual vəziyyətini əks etdirən adi milli şüurun strukturuna həmin milli-etnik birliyin müəyyən inkişaf mərhələsini əks etdirən gündəlik tələbatlar, maraqlar, dəyərlər sistemi daxildir. Stereotip təsəvvürlər, normalar və davranış nümunələri, tarixi və sosial kökləri olan ənənə və adətlər adi milli şüurun mühüm komponentləridir. Bu şüur səviyyəsində emosional ünsürlər, mürəkkəb hiss kompleksi, əhvali-ruhiyyə, temperament xüsusiyyətləri, emosional-iradi cəhətlər, bir sözlə, milli xarakterə xas olan cəhətlər özünü büruzə verir. Heydər Əliyev belə bir ideyadan çıxış edir ki, adət və ənənələr milli azlıqların və nisbətən böyük olmayan milli-etnik qurumların həyatında sanballı rol oynayır. Bunlar adi milli şüurun daha sabit və dayanıqlı ünsürləridir. Öz milli adət-ənənələrini qoruyub saxlamaq və təbliğ etmək xalqların özünü qorumaq vasitəsi və milli özünütəsdiq formasıdır. Nəzəri milli şüur milli-etnik qrupun özündə milli tarixin təhlili və ümumiləşdirilmiş sistemini, millətin bugünkü vəziyyətini və inkişaf məqsədlərinin məcmusunu ehtiva edən, tərkibində milli-etnik qrupun özünün müstəsnalığı ideyası yerləşən ideologiyasıdır. Lakin bu heç də əsas vermir ki, milli şüurda öz millətinin tarixinin, bugünkü vəziyyətinin və gələcək perspektiv inkişaf problemlərinin nəzəri dərk olunması məqamı millətçiliyə və irqçiliyə şamil edilsin.

Heydər Əliyev şəxsi praktikasında bilirdi ki, unitar totalitar siyasi rejimin çiçəklənməsi, imperiya tipli dövlətin obyektiv varlığının zəruriliyinə hər vasitə ilə bəraət qazandırmağa çalışmaqdır. Yaxın keçmişimizin ehkamçı lenininzm ideologiyası hər cür milli təşəbbüskarlığı millətçiliyə və sosial şovinizmə aid

edir, antoqonizmi yalnız «fəhlə sinfi ilə burjuaziya arasında» konflikt kimi təqdim edən siyasət fəlsəfəsi milli-siyasi şüurun yönümünü azdırır, real inkişafını ləngidirdi. Buna görə də Ulu Öndər milli-siyasi şüurun formalaşmasına kömək edən ideya mənbələrindən biri kimi millətçilik anlayışı üzərində dayanmağı vacib sayırdı.

Heydər Əliyevin siyasi görüşlərində ən önəmli məqam millətçilik ideyasının həm nəzəri, həm də praktik baxımdan düzgün qiymətləndirilməsi məsələsidir. Bir çox sosioloq və politoloqlar dünyada cərəyan edən milli-siyasi prosesləri müxtəlif aspektlərdə izah və təsnif edərkən belə bir ümumi fikrə gəlirlər ki, XX əsr millətçilik əsridir. İki dünya müharibəsinin xarakteri, bir çox bölgə konfliktlərinin xüsusiyyətləri, son illərdə Şərqi Avropada, xüsusilə keçmiş İttifaqda baş verən hadisələrin mahiyyəti bunu sübut edir. Məntiqi olaraq, ilk addımı atarkən linqvistik problemlə üzləşməli oluruq. Məsələ burasındadır ki, rus tədqiqatçıları «millətçilik» sözünün bütün dünyada qəbul olunmuş neytral terminoloji mənasından imtina edərək, həmişə «milli hiss», «milli mənlik şüuru» və s. kimi təsviri əvəzedici sözlər axtarmağa cəhd göstərmişlər. Görünür bu sözdən ehtiyat etdiyi üçün hakim ideologiya hər cür milli zəmində irəli sürülən ədalətli addıma millətçilik damğası vurmuşdur. Maraqlıdır ki, İttifaq Müqaviləsinin layihəsində şovinizm anlayışı ilə yanaşı «millətçilik» sözü də lənətlənir.

1990-cı illərin əvvəllərində işıq üzü görmüş nəşrlər Heydər Əliyevin diqqətindən yayınmır. Burada göstərilir ki, bəzi müəlliflər «millətçilik anlayışının neqativ mənasına üstünlük verməkdən hələ də azad olmamışlar». O, millətçilik fenomeninin araşdırılmasında iki əsas konsepsiyaya – asılılıq inkişafı və modernləşdirmə konsepsiyalarına üstünlük verir. Birinci konsepsiya ikincidən sonra ona müxalif kimi meydana gəlmişdir. Heydər Əliyev asılı inkişaf konsepsiyasının daha tanınmış banilərindən biri «Müasir dünya sistemi» (1989) əsərinin müəllifi İ.Vallerstaynın mövqeyinə müsbət münasibətini bildirir. Kapitalizm dövründə tarixi prosesi vahid dünya təsərrüfat sisteminin araşdırılması və inkişafı kimi

təhlil edərək, o, ölkələri bu sistemdə tutduqları yerə görə, özək, yarımimperiya, periferiya ölkələrinə bölməyi təklif etmişdir. Sistemin inkişafının əsasında özək dövlətlərlə digər dünya dövlətləri arasında qeyri-ekvivalent mübadilə durur. Dünya təsərrüfatı sistemində yarımperiferiya dövlətlərinin rolunu müəyyənləşdirərkən, Vallerstayn onları koloniyaların yerli əhalisinin imtiyazlı qrupları ilə müqayisə edir. Müstəmləkəçilər onlardan öz hökmranlıqlarını həyata keçirməkdə yararlanırlar. Həmin konsepsiyanın ideoloji şərtləri barədə təsəvvürü məhz burada axtarmaq lazımdır. Bu konsepsiyaya görə millətçilik yeni təsərrüfat tipinə keçmək yolunda əzablı çətinliklərlə üzləşən və öz geriliyini başa düşən, istismar olunan yarımperiferik və periferik dövlətlər üçün əlavə inkişaf məhsulu kimi nəzərdən keçirilir.

Bu baxımdan bəzi ideoloqlar türk millətçiliyini milli azadlıq ideyası kimi təqdim etmişlər. Belə halda labüd olaraq, öz geriliyini başa düşən cəmiyyət çalışır ki, «psixoloji narahatlıq»dan yaxa qurtarsın, ya da heç olmasa onu azaltsın, yaxud zəiflətsin. Ziyan çəkmiş şüur bir növ bu ziyanı əvəz edəcək ideyalar axtarır. Öz dövlətçiliyindən məhrum olmuş etnoslarda millətçilik «böyük ideyalar» yaratmışdır. Milli ərazi, öz dövlətinin sərhədləri barədə təsəvvürlər həmin etnosun üstünlük təşkil etdiyi dövlətin ən qüdrətli dövründə formalaşmışdır. Lakin belə bir vəziyyət nəzərə alınmırdı ki, o dövrdə dövlət milli prinsipə deyil, feodal, sülalə ənənəsinə əsaslanırdı. Kontinental imperiyalar Avropası isə materikin Qərbindən fərqli olan reallıq (feodal dövlətlərin sərhədlərinin daha çox mədəniyyətlərin sərhədləri ilə uyğun gələn hissəsinin milli azadlıqların anklavları ilə səpələnmiş məskunlaşma reallığı) yaradırdı. «Böyük ideyalar» öz aralarında öz reallıqları ilə ziddiyyət təşkil edirlər. «Azad vətən»lərin sərhədləri üst-üstə qalanır ki, bu da amansız konfliktlər mənbəyi olur. Həmin asılı inkişaf kontekstində araşdırılan millətçilik konsepsiyası bu anlayışa neqativ məzmun kəsb etdirmək üçün zəmin yaradır. Bu, marksizm ideologiyasına daha yaxın mövqedir. Heydər Əliyev marksizmin «millətçilik geriliyin nəticəsi, uğurlu inkişaf şəraitində ölüb

gedən bir şeydir» ideyasını qəbul etmir. Onun fikrincə, inkişafı gecikmiş ölkələrdə geniş kütlələr, məhz buna görə öz gələcəklərini milli dövlətlərin yaradılmasında görür, Qərb ölkələrində yaranmış milli dövlətlərsə özlərinə siyasi rejim modeli axtarırlar.

Müəlliflərin bir çoxu haqlı olaraq qeyd edirlər ki, milli-siyasi şüurda yalnız etnik ünsürləri, milli-spesifik başlanğıcları görmək mümkün olmazdı. Müasir kommunikasiya vasitələri, iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsi etnik birtərəfliyi aradan qaldırmağa imkan verir. Lakin belə bir fikirlə razılaşmaq olmaz ki, bir çox xalq cəbhələrinin mədəni-maarif, demokratik ideologiyasında qatı millətçilik gizlənir. Əslində keçmiş ittifaq ərazisində yaranmış milli azadlıq hərəkatlarının ideologiyası obyektiv olaraq məhz yuxarıda haqqında söhbət etdiyimiz millətçilik olmuşdur. Qərbin qabaqcıl ölkələrində millətçiliyin funksiyaları haqqında bütöv konsepsiya modernləşmə nəzəriyyəsi çərçivəsində təşəkkül tapmışdır. Qərb tədqiqatlarında millətçilik ideologiyalarının necə meydana gəlməsini deyil, onların yayılması və təkrar istehsalı problemini vurğulayaraq hesab edilir ki, milli-siyasi şüurun formalaşması üçün tələb olunan bu cür sıx və homogenli vahid mədəni məkanın yaranmasından ötrü müəyyən bütöv kommunikasiyalar sistemi lazımdır. Bu da yalnız müasir cəmiyyətdə mümkündür. Bu sahədə ən mühüm addımlar vahid çoxsəviyyəli təhsil sisteminin formalaşması və region fövqündə duran mətbuat bazarının təşəkkülü ilə atılmışdır. Hər iki proses diqqət mərkəzində dil problemini qoymuşdur. Kommunikasiya əlaqələri etnosun əsas hissəsində sabit mədəni dəyərlərdən hansınasa üstünlük vermək keyfiyyətini, ümumi bütövlüyə mənsubiyyəti, fərdi mənafelərlə mədəni ümumilik əsasında qurulmuş bütövlüyün mənafeləri arasında qarşılıqlı əlaqə barədə təsəvvürləri formalaşdırmışdır. Modernizasiya prosesi fərdlə dövlət arasında vasitəçi rolunu oynayan əvvəlki institutları (sexləri, gildiyaları, icmaları və s.) dağıdır. İnsanlar ümumiliklər daxilində həyata gəlir və onların çərçivəsində identifikasiyaya məruz qalırdılar. Siyasi bütövlüyün ayrı-ayrı hissələri özünü həmin bütövlükdə identifikasiya etməyən

institutlardan formalaşır və hakimiyyətlə yalnız həmin institutlar vasitəsilə ünsiyyətdə olurdular. Sənayeləşmə, artan sosial mobillik, siyasi bərabərlik və siyasətdə iştirak tələblərinin geniş yayıldığı belə şəraitdə identifikasiya mexanizminin formalaşması vacibdir. Bir mədəniyyəti əhatə edən və həmin mədəniyyətə məxsus hökumətə malik olan dövlətin konsepsiyası – millətçiliyin mahiyyəti budur. Millətçilik, əsasən, siyasi prinsip kimi çıxış edir ki, bu da «siyasi və milli bütövün üst-üstə düşməsini nəzərdə tutur». Heydər Əliyev bu fikri modernləşmə nəzəriyyəsi çərçivəsində millətçilik konsepsiyasının tam şərhi hesab edir. Beləliklə, belə nəticəyə gəlmək mümkündür ki, millətçilik heç də müdhiş qüvvələri diksindirmək deyil, əksinə yeni qurum formalarının nəticəsidir. Modernləşmənin keçilməz əlavə effekti deyil, onun əhəmiyyətli konstruktiv funksiyanı həyata keçirən mühüm tərkib hissəsidir. Yeni dövrdə siyasi suverenliyin daşıyıcısı olan millətin şüuru millətçilikdən doğur. Heydər Əliyevin bu mühüm mövqeyi ilə razılaşmamaq mümkün deyildir. Bu gün artıq belə bir məsələdə yanılmaq olmaz ki, guya sənaye erası beynəlmiləlçilik dövrü olacaqdır. Hələ ki, ən yeni dövr millətçilik dövrüdür. Bu cür yanaşma millətçiliyə müdhiş qüvvə kimi baxmaq mövqeyindən azad olmağa, onunla mənasız əks qütbdə, qarşıdurmada olmaqdan uzaqlaşmağa kömək edir və millətçiliyi müasir siyasi problemlərin ayrılmaz tərkib hissəsi kimi – həm müsbət, həm də təhlükəli potensialı olan ambivallit nəzərdən keçirməyə imkan verir. Məlumdur ki, XIX əsrin sonu – XX əsrin əvvəlində həllində millətçiliyin iştirak etdiyi bir sıra problemlər bu gün sadəcə ya aktual deyil, ya da ciddi dəyişikliklərə məruz qalmışdır. Hazırda sənayeləşmə, urbanizasiya, ümumi savadlılığı bərqərar etmək vəzifələrini yerinə yetirmiş cəmiyyətimizdə millətçiliyin rolu xeyli dəyişməkdədir. Belə bir faktın qeyd olunması bəzən millətçiliyin pozitiv rolunun inkar olunması kimi başa düşülür. Halbuki, millətçilik ölkəmizdə ən nüfuzlu ideya cərəyanlarından, ən güclü ictimai hərəkatların ideya intizamının, həmin hərəkatda iştirak edən xalqların, millətlərin mənlik şüurunun təzahürü kimi çıxış edən feno-

mendir. Milli şüurun bugünkü, aktual vəziyyətini xarakterizə edən siyasi amilləri öyrənmək və başa düşmək baxımından «keçid» dövründə millətçiliyin rolunu qiymətləndirmək son dərəcə vacib məsələdir. Heç olmasa ona görə ki, totalitarizm sisteminin dağılmasında millətçilik kütləvi siyasi səfərbərlik vasitəsi olmuşdur. Bu gün antikommunist, bir çox hallarda isə demokratik istiqamətli milli hərəkatların mövcudluğu «köhnə rejimin» dağılmasının qarşısıalınmaz siyasi amil olması barədə inamla fikir söyləməyə əsas verir. Millətçilik hərəkatları imperiya bürokratik sisteminin dağılmasına az kömək etməmiş, iqtisadiyyatın və ictimai həyatın digər sahələrinin inhisarçılıqdan azad olmasına xeyli təkan vermişdir. Bir sıra respublikaların daxili həyatında millətçilik yeni siyasi strukturların qurulmasında, yeni siyasi elitaların formalaşmasında və yeni liderlərin irəli sürülməsində mühüm rol oynamışdır. Bu işdə Heydər Əliyev nəzəri irsinin və praktik fəaliyyətinin müstəsna xidməti olmuşdur.

## *3.2. Siyasi elitanın dünyagörüşündə milli-tarixi şüur amili*

Xalqımızın keçmişinin, bugünün və gələcəyinin məntiqi və nəzəri metodlarının dialektik vəhdəti prinsipi Heydər Əliyevin siyasət fəlsəfəsində mühüm mexanizm kimi təqdim edilir. Mədəni-tarixi dəyərlərə söykənmək, dünya sivilizasiyası kontekstində öz ölkəsinin və xalqının inkişaf yollarını müəyyənləşdirmək, müstəqilliyin qorunması və möhkəmləndirilməsi, ənənəvi Şərq təfəkkürü çərçivəsindən çıxmaq və s. kimi keyfiyyətlər Heydər Əliyevin siyasət fəlsəfəsini yüksək elitar biliklər sistemi fəlsəfəsinədək ucaldıb.

Heydər Əliyev özünün sosial-fəlsəfi baxışlarında siyasi-tarixi ideyaların dövrü kontekstində metodoloji baxımdan düzgün müqayisəsini verib. O, keçmişin mənəvi, əxlaqi və bədii dəyərlərinə müraciət edərək, siyasi elitanın formalaşmasında bu dəyərlərdən ağıllı və düzgün istifadə olunmasının əhəmiyyətini xüsusilə vurğulayıb.

Heydər Əliyevin çıxışlarını və nitqlərini fəlsəfi kontekstdə təhlil edərkən, ictimai inkişafın taleyüklü problemlərinə, milli və siyasi həyata, şüura və ictimai psixologiyaya, ideya və dəyər yönümlərinə, insanların dünyagörüşü sistemində tutduğu yerə, o cümlədən Azərbaycan xalqının milli kimliyi məsələsinə necə yanaşmasına əsaslanıb. Onun professional siyasətçi olduğuna bir daha inanırsan. Hesab edirik ki, bu fenomeni Heydər Əliyevin intellektual qabiliyyətində aşkar etmək mümkündür. Onun yaradıcı ziyalılarla, mədəniyyət xadimləri ilə görüşlərini sosiomədəni kontekstdə təhlil etdikcə, bir daha əmin oluruq ki, o, ədəbiyyatı, təsviri sənəti, musiqini, şifahi xalq yaradıcılığını, memarlığı, bütövlükdə milli tariximizi dərindən bilir, siyasi elitanın formalaşmasında başlıca komponent olan milli ideyamızın əxlaqi əsaslarını yüksək qiymətləndirməyi bacarırdı. Milli-siyasi varlıq problemini analitik kimi dərindən dərk edən Heydər Əliyev nəzəri hazırlığını, ədəbiyyat və incəsənəti dərindən bilməsini, siyasi rəhbər və siyasi fəaliyyət təcrübəsini, iti siyasi duyumunu sintetik şəkildə əlaqələndirə bilirdi. Xalqın milli varlığının dərkinə nəzərən, o, elmin, bədii ədəbiyyatın və analitik təfəkkürlü siyasi xadimin mövqeyini üzvü surətdə birləşdirməyi bacarırdı. Beləliklə, milli varlığın siyasi dərkində Heydər Əliyevin çoxcəhətli istedadına və geniş diapazonlu baxışına əsaslanıb demək olar ki, onun siyasət fəlsəfəsinin prinsipləri siyasi elitanın yetişdirilməsində güclü potensiala malik olub.

Yoxsulluq bu və ya digər dərəcədə insanın şəxsi həyatına, mənliyinə toxunmaya bilməz. Yoxsulluq təkcə iqtisadi deyil, həm də siyasi məsələdir. F.Rüzvelt əbəs yerə deməmişdir ki, yoxsullar və işsizlər diktatura üçün kadrlardır. Odur ki, hakimiyyətə gələrkən Ulu Öndər erməni təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın vəziyyətə düşməsinin və dözülməz, ağır şəraitdə yaşadıqlarının, onların yoxsullar təbəqəsinə çevrilmələrinin acınacaqlı mənzərəsindən bir insan kimi sarsılmışdı. O zaman – cəbhəçilərin hakimiyyəti dövründə dağıdıcılıq və baş alıb gedən soyğunçuluq nəticəsində fabrik və zavodların işi dayanmış, minlərlə insan işsiz qalmışdı.

Belə bir acınacaqlı mənzərə Heydər Əliyevi çox qayğılandırmışdı. O, xalqının ağır vəziyyətinə acıyaraq, dövlətin daxili və xarici siyasətində yaranmış çətin vəziyyətdən çıxmağın optimal yollarını axtarmağa çalışırdı.

Yoxsulluq probleminin həlli mexanizmlərinin işlənməsi, təbii ki, iqtisadiyyat elminin və iqtisadçıların müstəsna səlahiyyətinə aiddir. Biz burada yalnız Heydər Əliyevin idarəçilik sənətində bəzi potensial məqamlara toxunmaqla kifayətlənəcəyik. Əvvəla, Heydər Əliyevin hakimiyyətinin ilk illərində özünün də dəfələrlə qeyd etdiyi kimi, istehsalın aşağı düşməsi nəinki dayandırılmış, həmçinin onun artımında müəyyən irəliləyiş olmuşdur. Bu nikbin proqnozlar insanların inamını qaytarmaq üçün çox vacibdir. Son vaxtlara kimi baş alıb gedən böhran tam dayandırılmış, daxili bazardakı hərc-mərcliyi tədricən tənzimlənən iqtisadi və maliyyə həyatı sıxışdırıb çıxarırdı. Digər tərəfdən, Azərbaycan xarici investisiyalara görə MDB ölkələri içərisində Rusiya Federasiyasından sonra ikinci yeri tuturdu. Bu göstərici o deməkdi ki, yaxın gələcəkdə ölkənin iqtisadiyyatında ciddi irəliləyiş üçün real baza yaranır. Bu da labüd olaraq vətəndaşların maddi vəziyyətinə müsbət təsir göstərirdi. 1990-cı illərin əvvəli ilə müqayisədə insanların maddi vəziyyəti xeyli yaxşılaşmışdı. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi cinayətkarlıqla mübarizə üzrə bəzi tədbirlər haqqında» sərəncamında yazılmışdı: «Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyin bərqərar olduğu şəraitdə ölkəmizin iqtisadi dirçəlişi üçün zəruri zəmin yaranmışdır. İqtisadi inkişaf həyatımızın bütün sahələrini əhatə edərək, son illər konkret iqtisadi göstəricilərdə öz əksini tapmış və əhalinin rifahının yaxşılaşdırılmasına təkan vermişdir. Bu gün neft kontraktları artıq suveren Azərbaycan və onun vətəndaşlarının həyatında, bütün Azərbaycan xalqının maddi rifahının yaxşılaşmasında böyük rol oynamaqdadır».

Heydər Əliyevin yaradıcı səyləri, müdrikliyi və uzaqgörənliyi sayəsində respublikada Azərbaycan xalqının bədxahlarını qıcıq-

landıran ictimai-siyasi sabitlik əldə edilmişdi. Bu, bir tərəfdən ölkənin iqtisadi inkişafının real imkanı və zəruri şərti, digər tərəfdən isə milli varlığımızın real müdafiəsinin ən mühüm amili və düşmən qüvvələrin istədiklərinin əksinə olaraq, millətin qarşıdurma qüvvələrinə parçalanmasının qarşısını almağın ən vacib təminatı idi. İctimai-siyasi sabitlik müəyyən qüvvələrin və qrupların düşmənçilik qarşıdurmasına imkan vermirdi. Sabitliyin pozulması ən çox Azərbaycan dövlətçiliyinə və bütövlükdə Azərbaycan xalqının dinc yaşayışına ciddi ziyan vura bilərdi. Müxtəlif siyasi qüvvələrin, xalqın müxtəlif nümayəndələrinin bir-birini məhv etməsi xalqa ciddi zərbədən başqa bir şey ola bilməz, milləti dünya qarşısında, xüsusilə düşmənlərin gözündə nüfuzdan salardı. Müasir sivilizasiyalı, özünə hörmət edən millət isə potensial qüvvə və enerjini əbəs yerə itirməməli, deməli, özünü nüfuzdan salmaq həddinə çatmamalı idi.

Ümummilli Liderin böyük səyləri, qeyri-adi qabiliyyəti, dövlətə rəhbərlik təcrübəsi sayəsində respublikada yaranmış ictimai-siyasi sabitlik Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin həyatında, millətin mənəvi və siyasi dəyərlərinin qorunmasında taleyüklü əhəmiyyət kəsb etdi. Artıq biz onilliklərdir ki, ölkəmizdə ictimai-siyasi sabitlik şəraitində yaşayırıq. Bugünkü sabitlik isə heç də asanlıqla qazanılmayıb. Gəlin, Xalq Cəbhəsinin və «Müsavat»ın hakimiyyəti dövrünü xatırlayaq. O dövrü yadımıza salaq ki, insanlarla yalnız avtomat dilində danışırdılar, camaat qorxusundan evdən həyətə çıxa bilmirdi. Məhz elə bu, millət və cəmiyyət üzərində zorakılıq, milli varlığın alçaldılması deməkdir. Bütün bunları dərk edib, layiqincə qiymətləndirmədən ictimai-siyasi sabitliyin bizim üçün cahanşümul əhəmiyyətini və Heydər Əliyevin siyasət fəlsəfəsinin mahiyyətini, onun tarixiliyini tam başa düşmək mümkün deyil.

Heydər Əliyevin siyasət fəlsəfəsinin başlıca qayəsi insan varlığı olduğundan Azərbaycanda ictimai-siyasi sabitliyi qətiyyətlə möhkəmləndirmək ideyası başlıca məsələyə çevrilmişdir. Bu gün cəmiyyətin normal idarə olunması, vətəndaşlarımızın fəa-

liyyətinin ən mühüm və ən başlıca faktoru olan ictimai-siyasi sabitliyin dəyəri həmişəkindən daha yüksəkdir.

Siyasi iradənin daşıyıcısı olan siyasi elita qətiyyətli şəxsiyyət kimi dünya birliyi qarşısında layiqli təmsil olunmaqla və siyasət aləmində tanınması arzusunu nümayiş etdirməklə öz xalqı barədə rəğbət və xeyirxahlıq doğura biləcək intellektual cəhətlərin və xüsusiyyətlərin daşıyıcısı kimi çıxış edir. Bəzən özünəməxsus psixoloji, lakin heç də sadə olmayan bu rolu həyata keçirmək üçün milli liderlər və ideoloqlar müxtəlif vasitə və priyomlara, o cümlədən xalqın tarixini «qədimləşdirmək» və «əsilləşdirmək» üsullarına əl atırlar. Bu sahədə təcavüzkar qonşularımızın, xüsusilə tarixçilərinin canfəşanlığı misilsiz nümunədir. Bəzi siyasətçilər və ideoloqlar fəaliyyətləri ilə xalqının tarixini və obrazını siyasi və ideoloji məharətlə konyuktur prinsiplərinə uyğunlaşdırmağa çalışırlar ki, onların bu tarixi arqumentasiya axtarışı, Hegelin terminologiyası ilə desək, spekulyativ xarakter daşıyır. Təəssüf ki, öz tarixinə bu cür laqeyd, elmsiz müraciətə hələ də rast gəlinir.

Xalqının və ölkəsinin siyasi nüfuzunu bütün varlığı ilə ucaldan Heydər Əliyev tarixdən bu cür istifadə metodunu elmi cəhətdən qəbul etmirdi. Bu bir siyasətçi və vətəndaş kimi onun dünyagörüşü ilə bir araya sığmırdı. Tarixin ən yüksək missiyasını, xüsusilə onun mədəni-intellektual potensialının xalqın şüurunun formalaşmasındakı rolunu çox yaxşı bilən Ulu Öndər həmişə belə bir ideyanı aşılayırdı ki, tarix millətin mənəvi və əxlaqi dayağı, onun sosial yaddaşının mühafizəçisi və mənbəyidir. Lakin bununla belə, yalan və saxtakarlıq üçün amansız qisas alan məkrli tarix də ona bəlli idi. Heydər Əliyev tarixə milləti formalaşdıran böyük müəllim və böyük məktəb kimi müraciət edərək, müstəqillik qazanmış xalqını mənəviyyat və əxlaqca güclü edən hər bir sosial-tarixi amilə hörmətlə yanaşmağa çağırırdı. «Bizim tariximiz bizə ibrət dərsi verməlidir» – Heydər Əliyevin lider qətiyyəti ilə səsləndirdiyi bu müddəada onun əxlaqı və dünyagörüşü, kredosu ifadəsini tapmışdır: çünki tarixi unutqanlıq millətin ruhunu öldürür, onun mənəviyyatına, dünyagörüşünə ziyan vurur. Öz tarixinin uğurlu və ağrılı dərslərini

öyrənmək, tarixən itirdiklərimizi və əldə etdiklərimizi düzgün ayırd etmək, tarixi hadisələrə və faktlara obyektiv yanaşmaq siyasətçidə siyasi iradə kimi keyfiyyəti tərbiyə etməyə, əcdadlarımızın şərəfli adını və nəcib əməllərini hücumlardan, təhriflərdən və qarayaxanlardan qorumağa, deməli, tarixi şüurun obyektiv formalaşdırılmasına imkan verir. Tarixi unutqanlıq, tarixi hadisələrdən və faktlardan ibrət götürməmək isə obyektiv olaraq millətin başqa xalqlar qarşısında alçalmasına, xalqın mənafelərinin və hüquqlarının təhqir olunmasına gətirib çıxara bilər. Siyasətçilərimiz səhvlərə və yanılmalara yol verməmək üçün Ulu Öndərimizin ibrət dərslərini onun siyasət fəlsəfəsinin təhlili əsasında öyrənə bilərlər. Heydər Əliyev öz dünyagörüşündə ən yaxşı fəlsəfi ənənələrin kvintisensiyasını daşıyaraq diqqəti daim keçmişə, bu günə və gələcəyə yönəltməklə baxışları yetkin tarixi şüurda birləşdirmək zərurətinə cəlb etmişdi. Özünü dərk edən millət tarixinin bütün hadisələrinə, onun formalaşmasında rol oynamış hər bir mühüm tarixi fakta obyektiv münasibət bəsləməli, tarixi prosesin danılmaz məntiqinə «müasirlik» donu geyindirməməli, dəyərlərə yenidən baxmağı bacarmalıdır. Elmi tarix mədəni-tarixi dəyərlərin öz təbii axarında adekvat əksi olmalıdır. Burada subyektiv hərəkətlərin mənası və daşıdığı məqsəd əksini tapmalıdır ki, vətəndaşda tarixi şüurun təkamülü barədə obyektiv təsəvvür yaransın. Heydər Əliyevin milli ideyanın bu aspektinə son dərəcə ciddi münasibəti bütövlükdə Azərbaycan xalqının milli tarixini imperiya dəstxətli saxtalaşdırmalardan, azərbaycanlıların heç də həmişə iradə və mənafelərini əks etdirməyən ideoloji məqsədli prinsiplərin qalın laylarından təmizləməklə izah olunur. Keçmişin unudulmuş mənəvi, əxlaqi-mədəni, sosial və digər tarixi faktlarının bərpası, həmçinin təhlili ona görə vacibdir ki, müasir siyasətçidə əcdadlarımızın minilliklər boyu yaratdıqlarının və miras qoyub getdiklərinin məsuliyyət hissi formalaşsın. Millətdə isə öz keçmişi, əcdadlarının qələbələri, uğursuzluqları, uğurları və müvəffəqiyyətsizlikləri ilə bağlı özünəməxsus etnopsixoloji identifikasiya hissi yaransın. Heydər Əliyevin fəlsəfi dünyagörüşünə məhz bu ideya nüfuz

etmişdi. Onun fikrincə, hər bir siyasətçi formal-akademik «Qədim tarix», «Orta əsrlər tarixi», yaxud «Yeni tarix» anlayışları kimi «mənim tariximi», «mənim ölkəmin, mənim xalqımın tarixi» anlamını da ayıra bilməlidir. Yalnız belə halda siyasətçi bir azərbaycanlı kimi öz tarixi və mədəni dəyərlərini həyata keçirə bilər. Bu isə siyasətçidə tarixi məsuliyyət hissi ilə yanaşı, həm də vətəndaşlıq hissinin formalaşdırılmasının zəruri şərtidir. Ulu Öndər həm də xüsusi vurğulayırdı ki, keçmişə münasibət, özünü identifikasiya sadəcə tarixin müsbət faktları və nümunələri üzərində nümayiş etdirilməməlidir. Heydər Əliyevin tarixi hadisələrə obyektiv münasibət bildirmək metodologiyasının mahiyyəti bunda idi ki, o, ayrı-ayrı faktlara deyil, tarixə bütövlükdə canlı bir proses kimi baxır, ötən əsrlərin və minilliklərin ziddiyyətlərini, pozitiv və neqativ cəhətlərini analitik təhlil edirdi. Bu, çox vacib metodoloji yanaşmadır, çünki bu zaman keçmişin məğlubiyyətlərində və uğursuzluqlarında tərbiyəedici potensial açıqlamaq mümkündür. O, həmişə belə bir fikri vurğulayırdı ki, xalqımızın tarixi yaddaşında ağır, hətta qanlı səhifələr, böhranlı məqamlar az yer almayıb, amma ulu babalarımız ruhdan düşməyib. Onlar qeyrətlərinə güvənərək qüvvələrini səfərbər edə bilmiş, çətinliklərə sinə gərərək düzgün çıxış yolu tapmışlar. Tarixin çətin dövrləri də, hətta onun faciəli səhifələri də, soydaşlarımızda, xüsusilə gənclərdə milli birlik hissini, xüsusilə milli-tarixi şüuru formalaşdırmaq kimi məsuliyyət yüksəldər və nəcib amala xidmət edə bilər. Bu elmi metodoloji yanaşma Heydər Əliyevin siyasət fəlsəfəsinin başlıca məziyyətlərindən biri idi. Onun siyasət fəlsəfəsinin bu keyfiyyəti Antik və Şərq fəlsəfi ənənələrinin ruhu ilə səsləşirdi. Çünki həm Şərq, həm də Qərb fəlsəfi konsepsiyalarında ayrı-ayrı faktların rolu və funksiyaları sistemin daxilində nisbətən tam açılır, yəni fəaliyyət və dəyərlər sistemində, ünsiyyət və tərbiyə sistemində, şüur və mədəniyyət kontekstində, insan-təbiət sistemində və s. nəzərdən keçirilirdi.

Heydər Əliyev geniş diapazonda düşünən mütəfəkkir kimi tərbiyə sisteminə, xüsusilə milli elitanın formalaşmasına spesifik

təsir göstərmək gücünə malik idi. O, xalqımızın, onun mədəniyyətinin, tariximizdə şərəfli yer tutmuş görkəmli şəxsiyyətlərinin rolunun, həmçinin Azərbaycan tarixinin qürur hissi oyadan səhifələrinin, tariximizin milli ruhlu nümunələrinin analitik təhlili əsasında fəlsəfi sistem qurmuşdu. Dahi şəxsiyyətlərin, elm və mədəniyyətimizi, görkəmli nümayəndələrinin adlarını və qəhrəmanların cəsarətlərini birləşdirən bu sistemdə hər bir tarixi fakt bir məqsədə – insanların tərbiyəsi və milli qürur hissinin formalaşdırılması ideyasına xidmət edirdi. Teatrlarda, konsertlərdə olduğu zaman, yubiley təntənələrində çıxış edərkən, o, ziyalılara, ədəbiyyat və incəsənət xadimlərinə onların başlıca vəzifəsini – insanları tərbiyə etmək, onların mədəni və təhsil səviyyəsini qaldırmaq, hər şeydən əvvəl, vətəndaşlarımızın müasir dünyagörüşünü formalaşdırmaq borcunu həmişə xatırladırdı. Çünki təhsilsiz və mədəniyyətsiz, zəruri intellektual potensial olmadan müasir dövrdə milli elitanın formalaşması məsələsindən söhbət gedə bilməzdi. Heydər Əliyev həmişə toxunduğu problemə konkret yanaşırdı. Azərbaycan xalqının ictimai şəraitinə konkret yanaşan Ulu Öndər hesab edirdi ki, qədim tarixə və özünəməxsus mədəniyyətə, güclü intellektual potensiala, yaxşı inkişaf etmiş iqtisadiyyata, demokratik institutlara və sivilizasiyalı formada təşəkkül tapmış ictimai, ailəvi və fərdi həyat qurumlarına malik olan xalqımız tədricən müasir, beynəlxalq iqtisadi, mədəni, informasiya və digər strukturlara da inteqrasiya edə bilər və etməlidir, özünü sivilizasiyalı millət kimi təsdiq etdirməlidir. Millət mədəniyyətə, öz intellektual potensialına, yüksək dərəcədə mütəşəkkillik və milli həmrəyliyə söykənməklə dünya birliyinin nüfuzunu, hörmətini qazana bilər və qazanmalıdır. Ona görə də Heydər Əliyev milli varlıq probleminin perspektiv istiqamətlərinin bu mövqelərdən nəzərdən keçirilməsinə üstünlük verirdi.

Dərin biliyə və yüksək siyasi həssaslığa malik olduğundan, o, milli varlığın müasir fəlsəfi problemlərinin qeyri-analitik şərhinin qəti əleyhinə idi. Ulu Öndər hesab edirdi ki, keçmişə, milli köklərə və tarixi dəyərlərə müraciət edərək, milli şüuru və

mənlik şüurunu formalaşdırmaq üçün zəruri tarixi birliklər və intellektual zəmin axtarmaq lazımdır. O, ulu babalarımızın müdrik kəlamlarına müraciət edərkən xalqının irsini dəyanət və sədaqətlə qorumuş Vətən övladlarına özünün dərin hörmətini nümayiş etdirir, daha dərindən və daha düşünülmüş şəkildə irəliləyişi təmin etmək üçün, ideya-əxlaqi və mənəvi meydan yaratmaqdan ötrü tarixin dəyərlərindən daha çox bəhrələnməyi tövsiyə edirdi.

Heydər Əliyevin nitqlərində, çıxışlarında, müsahibələrində, bütövlükdə, nəşrlərində bir çox ideyalar və fikirlər təkrar olunur. Bu tamamilə təbiidir, çünki Heydər Əliyev müxtəlif adamlarla görüşərkən, müxtəlif auditoriyalarda çıxış edərkən, Azərbaycan cəmiyyətinin inkişafının, dövlətin daxili və xarici siyasətinin prioritet problemlərinə daha çox diqqəti cəlb etməli olurdu. Bununla belə, o, hər dəfə eyni problemə qayıdarkən yeni çalarları, yeni fikirləri və ideyaları vurğulayır, bir növ əvvəllər, həm də başqa müstəvidə söylədiyi ideya və fikirləri tamamlayaraq inkişaf etdirirdi. Bu baxımdan, Heydər Əliyevin fərmanları da müstəsna elmi əhəmiyyət kəsb edir. Belə ki, onun 1997-ci il 18 dekabr tarixli «1949– 1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Fərmanı nəzəri və siyasi fikri əvvəllər tariximizin öyrənilməmiş aspektlərinə, təcavüzkar Ermənistanın və onun havadarlarının həyata keçirdikləri soyqırımın köklərinin dərk edilməsinə yönəldirdi. Adı çəkilən Fərmanın diqqətlə oxunması, azərbaycanlılara qarşı 1948–1953-cü illər soyqırımının ideya və siyasi köklərinin öyrənilməsi, 1905, 1915, 1918–1920-ci illərin ideoloji və siyasi cəhətcə kölgəli, təhrif olunmuş və saxtalaşdırılmış hadisələrinə müraciət bütün XX əsr ərzində Azərbaycan xalqına qarşı ardıcıl həyata keçirilən soyqırımı sistemi üzərində düşünüb-daşınmağa çağırış idi.

Bir qayda olaraq, Prezident Heydər Əliyev fərmanlarında, nitqlərində, çıxışlarında, müsahibələrində və söhbətlərində nəzəri fikri bütöv mənzərəyə cəlb edir, total hadisəni öz bütövlüyündə

və ziddiyyətləri ilə qavramağa, ən vacibi isə əldə edilmiş nəticələrin müasirliklə inteqrasiya olunmuş və tələblərə cavab verəcəyi səviyyədə qavramağa yönəldirdi. Siyasətçi və dövlət başçısı kimi, onun bir sıra tarixi hadisə və faktların qiymətləndirərkən, müəyyən tezisləri, yaxud prinsipləri elan edərkən imkanları məhdud olsa da müəyyən meyli əksetdirən və müəyyən mahiyyəti ifadə edən kütləvi xarakterli hadisələri və faktları qeyd edərkən Heydər Əliyev hissə ilə tamın, ayrıca ilə ümuminin qırılmaz vəhdətinə xüsusi diqqət verirdi. Onun görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin təntənə ilə qeyd olunması haqqında Fərmanını götürək. İlk baxışda bu fərmanı cənublu soydaşımıza, böyük Azərbaycan şairinin şəxsiyyətinə və istedadına xüsusi hörmət və məhəbbət kimi qəbul etmək olar. Lakin bu yalnız «ilk baxışda» belə görünə bilər. Əslində isə söhbət bütün Azərbaycan mədəniyyətinin yubileyindən gedir. Bu fərman 200 il bundan əvvəl iki imperiya tərəfindən Azərbaycan xalqının iki hissəyə bölünməsini, bununla da xalqımızın milli və tarixi şüurunun bütövlüyünə, onun milli ideyasına və sosial ovqatına vurulmuş ağır zərbəni bir daha yada salır.

Heydər Əliyevə görə vətənimizin elm və mədəniyyət nəhənglərinin, siyasi xadimlərinin yubileylərini qeyd etmək xalqın tarixi yaddaşına müraciət, tarixi şüuru canlandırmaq üçün intellektual mahiyyət kəsb edən tədbirlərdir. O, hətta Azərbaycan xalqının tarixi mədəniyyətinin ən qədim abidələrində belə tərbiyəvi əhəmiyyət kəsb edən, milli tarixilik şüurunu formalaşdırmaq üçün lazım olan əlamətləri və faktları tapırdı. Folklor tədqiqatçılarından biri belə yazıb: «Tarixi keçmişlə bağlı rəvayətlər bir növ xalqın poetik tarixi olub, təhsil-tərbiyə funksiyasını yerinə yetirərək kütlələrin tarixi şüurunu formalaşdırır, eyni zamanda onların tarixi təcrübəsinin estetik qavrayışını inkişaf etdirir». Heydər Əliyevin milli mədəniyyətin köklərinə, «poeziya tarixi»nə müraciət etməsini onun insanların tarixi və milli şüuruna yeni impuls vermək, bununla da onlarda milli ovqatın intellektual və mənəvi dayaqlarını gücləndirmək arzusu kimi izah etmək olar.

Dədə Qorqudun, Füzulinin, Şəhriyarın, Rəşid Behbudovun və digərlərinin yubileyləri xalqın tarixinə, onun mənəvi, əxlaqi, sosial və estetik dəyərlərinə müraciət etmək, bugünün və sabahın vəzifələri mövqeyindən tarixən itirdiklərimizin və qazandıqlarımızın nəticələrini dərk etmək, xalqın tarixi yaddaşını qidalandıran və birləşdirən daha sabit dəyərləri müəyyənləşdirmək üçün özünəməxsus tarixi dərsdir. Bu cür yubileylərin keçirilməsi bir daha keçmişə öz milli tarixi kimi yanaşmaq və bugünü həmin keçmişin keyfiyyətcə yeni durumu kimi dərk etmək baxımından yaxşı imkandır.

Əgər sıravi vətəndaşın həyat şəraitini fərdiləşmiş reallıq kimi təsnif etsək, onda xalqın böyük övladlarının həyat şəraitini və millətin dahi yaradıcılarının meydana gəldiyi şəraiti daha böyük – «epoxa» anlayışında ifadə etdiyimiz ümuminin əsas xarakteristikalarını özündə daşıyan, hamı üçün əhəmiyyət kəsb edən bir sistem kimi qəbul etmək olar. Məhz buna görə də tariximiz və mədəniyyətimizlə bağlı yubileylərin keçirilməsi Dədə Qorqudun meydana gəldiyi dövrlər, Füzulinin, Şəhriyarın və Rəşid Behbudovun yaşayıb-yaratdıqları dövrlərin ünsiyyətinin dərk olunması baxımından «tarixi körpünün» salınmasıdır.

Böyük həyat təcrübəsinə və zəngin mənəvi potensialına arxalanan Heydər Əliyev dəyərlərə nəinki xüsusi qayğı göstərir, həmçinin onlardan nəcib fəaliyyəti üçün qüvvə ehtiyatı və impulda alırdı. Onun kitablarında və digər nəşrlərində dövrlər bir-birindən nə qədər uzaq olmasından asılı olmayaraq bir-biri ilə çulğaşır, biri digərini davam etdirirdi. Elm və mədəniyyət sahəsində mühüm hadisələrə həsr olunmuş yubileylərdəki çıxışlarında böyüməkdə olan nəsli mənəviyyatca və əxlaqca ənənələri davam etdirən, bununla da milli aramsız xətt yaradaraq tarixi dövrlərin müdrikliyindən öyrənib tərbiyə olunmağa çağırırdı. Heydər Əliyev tarixə müraciət edərək, milli mədəniyyətin müxtəlif dövrlərdə yaranmış güclü laylarına toxunmuş, millətin tarixi şüurunun sağlamlığı üçün analitik axtarışlar apararaq Azərbaycan xalqının tarixindəki əzəmətli ruhu aşkarlamışdır. O, məhz milli «mən»,

milli şüur və milli ruh kimi fundamental dəyərləri xüsusi fərqləndirərək tarixən formalaşsa da, lakin bu gün də tədqiq edilməmiş, vəhdətdə olan üç ünsürlü sistem kimi nəzərdən keçirir və bu sistemdə tarixi şüuru formalaşdıran potensialı görür.

Milli və tarixi həyatın bu və ya digər problemini nəzərdən keçirərək Heydər Əliyev nəsə qapalı sərt bir sistem yaratmağa cəhd göstərməyib. O, dərindən düşünüb-daşınıb, deyəcəyi formulları axtarıb, arayıb, əvvəlki fikirlərini tamamlayıb və zənginləşdirib. Milli varlıq probleminin çoxcəhətliliyini və bu fenomenin tarix və milli mədəniyyətlə çoxsaylı əlaqələrini nəzərə alaraq, Heydər Əliyev diqqəti digər subyektiv amillər üzərində də cəmləşdirib. Bu, onun milli-tarixi «mən» kontekstində nəzərdən keçirdiyi vətənpərvərlik hissi, milli qürur hissi fenomenləridir.

Keçmiş əvəzsiz sərvətimiz, həm də bununla yanaşı, tarixin sərvəti, yaddaşıdır. Öz tariximizi nə qədər sevsək də, ona ən doğma münasibət göstərsək də, biz həmişə və daim arxaya baxmaqla heç zaman irəli gedə bilmərik. Millət üçün, eləcə də şəxsiyyətdən ötrü özünütəsdiq və özünü realizə etmək şansı bu gün və gələcəkdədir, keçmişdə artıq bu mümkün olmayıb. Buna görə də sivilizasiyalı özünütəsdiq yollarında sivilizasiyalı dünya tərəfindən milləti yalnız bu gün, sabah və daim tanımaq mümkündür.

Heydər Əliyev vaxt amilinə son dərəcə ehtiyatla və düşünülmüş münasibət bəsləyən siyasi xadimlər və mütəfəkkirlər nəslinə mənsubdur. O, tərbiyə və təhsilin, mənəvi böhranın aktual məsələlərindən, əxlaqın təkmilləşməsinin təxirə salınmaz vəzifələrindən, milli varlığımızdan və etnoslararası problemlərdən söhbət açarkən, dönmədən vaxt amilini, dövrün xüsusiyyətlərini və xarakterini nəzərə alıb, bir islahatçı kimi zamanın hökmünə üstünlük verib və tarixi şüurun formalaşmasını bu məcrada görüb. Təbiətin boşluq sevmədiyini, ideya-tərbiyə sahəsində isə boşluğun xüsusilə xoşagəlməz olduğunu çox gözəl bildiyi üçün, o, zamanın özünün, sosial və tarixi hərəkətin məntiqi ilə aktuallaşdırılmış dəyərləri və motivləri təhlil edib. Bunlara plüralizm və ictimai həyatın demokratikləşdirilməsi şəraitində milli və bəşəri dəyərlər aiddir.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: «Heydər Əliyev blokada şəraitində yaşayan Naxçıvanı xilas etdi, naxçıvanlılar da Azərbaycanın xilaskarını qorudu».*



*Ümummilli lider Heydər Əliyev: «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim işləri İlham Əliyev uğurla tamamlayacaq».*

Buna görə də, o, yuxarıda adı çəkilən fundamental dəyərlər sistemini qurarkən metodologiya baxımından milli və bəşəri dəyərlərin düzgün nisbətinin zəruriliyini qeyd edib. Bu sistem özündə siyasi, mənəvi-mədəni, əxlaqi, estetik, dini və digər dəyərləri birləşdirir. Amma dəyərləri onların məzmunu roluna və funksiyalarına görə təsnif edərkən Heydər Əliyev iki qəbildən olan dəyərləri – milli və bəşəri dəyərləri fərqləndirib, onların funksional mahiyyətini açıb, bunların tarixi şüurun formalaşmasında rolunu göstərib. Bu dəyərlərin dərindən təhlili Ulu Öndərin siyasət fəlsəfəsində Azərbaycan cəmiyyətinin sosial və mənəvi tərəqqisinin yolları və istiqamətlərinin analitik təhlilində metodoloji prinsip kimi istifadə olunub.

Məsələ bundadır ki, əvvəlki onilliklərdə ictimai-siyasi və fəlsəfi ədəbiyyatımızda milli və bəşəri dəyərlərin nisbəti, o cümlədən müvafiq olaraq rolu və funksiyalarından, xüsusilə tarixi şüur problemindən ya heç söhbət getməmiş, ya da ötəri qeyd edilmişdir. Plüralizmin təsdiqləndiyi və şüurun demokratikləşdirilməsi şəraitində bu problem xeyli aktual olmuş və ona tez-tez müraciət olunmuşdur. Lakin bu nisbəti tarazlaşdıran elmi meyarlar hələ ki yoxdur. Konkret halda, milli, yaxud bəşəri dəyərlərdən hansı birinə üstünlük vermək barədə elə bir metodoloji prinsip və vasitə də yoxdur. Aydındır ki, milli və bəşəri dəyərlər nisbətinin insanlarda milli varlıq hissinin formalaşdırılmasında rolu ilə əlaqədar problemə müraciət edərkən Heydər Əliyev də bu çətinliklə üzləşib. Lakin görkəmli dövlət xadimi və nadir şəxsiyyət olan Heydər Əliyevə ana təbiət hər bir konkret halda nəyə – milli, yoxsa bəşəri dəyərlərə üstünlük vermək üçün qibtə ediləcək elmi intuisiya və siyasi həssaslıq bəxş etmişdi. Suverenliyini qurub və möhkəmlədən, tarixi yaddaşını və tarixi şüurunu bərpa edən, keçmiş dövrlərin mənəvi simasını canlandıran, öz milli ideyasının mənşəyini axtaran, çox zəngin mədəniyyəti və böyük ənənələri olan Azərbaycan xalqı üçün milli dəyərlərin üstünlüyü tarixi prosesin məntiqi ilə diktə edilir. Heydər Əliyev bunu başqalarından yaxşı başa düşür, incəliklə hiss edirdi. İstər gənclər

təşkilatlarının fəaliyyətindən söhbət getsin, istər ali və orta məktəbdə tərbiyə və təhsil məsələləri müzakirə olunsun, istərsə də mədəniyyətdən, ədəbiyyatdan, incəsənətdən söz düşsün, fərqi yoxdur, Heydər Əliyev daim milli dəyərlərin başlıca rolunu, onların tarixi yaddaş üçün üstün əhəmiyyətini qeyd edib. Xüsusilə qeyd etmək lazımdır ki, vətəndaşlarımızda milli varlıq hissinin formalaşdırılması məsələsində milli dəyərlərə üstünlük verərkən Heydər Əliyev tərbiyə prosesində bütövlükdə bəşəri dəyərlərin rolu və əhəmiyyətini zərrə qədər də azaltmırdı. O, ardıcıl olaraq belə bir ideyanı həyata keçirirdi ki, dünya mədəniyyəti və sivilizasiyası kontekstindən kənarda milli mədəniyyətin, millətin mənəvi həyatının inkişafını təsəvvür etmək çətindir. Dünyagörüşündə ardıcıl olan Ulu Öndər prinsipial mövqedən millətin özünütəcrid niyyətinə həmişə tənqidi yanaşmışdır. Bu məsələdə Heydər Əliyev özünün siyasət fəlsəfəsində təkcə nəzəriyyəçi kimi çıxış etməyib, açığını desək, həm də siyasətçi kimi olduqca uğurlu şəkildə özünün məhsuldar nəzəri-praktiki ideyasını reallaşdırıb. Müxtəlif ölkələrə səfərləri və bu səfərlər zamanı həll etdiyi iqtisadi, siyasi, sosial, mədəni və digər başqa məsələlər bunu əyani təsdiq edir. Amma heyf ki, bu səfərlər və onların gedişində müzakirə olunan problemlər elmi ədəbiyyatda hələ də özünün fəlsəfi-nəzəri ümumiləşdirməsini tapmayıb, kütləvi informasiya vasitələri isə, əsasən, reportajlar və rəsmi informasiya verməklə kifayətlənib.

Bu eynilə tarixi şüurun dərk edilməsində mühüm amillər olan milli hiss və milli ruh probleminə də aiddir. Bu mürəkkəb nəzəri məsələləri tədqiq edərkən, milli və ziddiyyətli sistem olan millət probleminə əvvəlki yanaşmaların birtərəfliliyini getdikcə daha aydın hiss edirik. Milləti mədəni-tarixi ümumilik kimi nəzərdən keçirərkən politoloqlar və kulturoloqlar əsas diqqəti səbəb-nəticə münasibətlərinə, əvvəlki hakim ideologiyanın prinsip və məqsədlərinə uyğun olan keyfiyyətlərin formalaşdırılmasının səbəbləndirici amillərinə yönəldirdilər. Onlar sanki unudurdular ki, bu birliyin, mədəni-tarixi sistemin canı, ruhu var, o hiss etmək və əzab çək-

mək kimi unikal qabiliyyətə malikdir. Həqiqətlə yalanın, ruhun əzəməti ilə cılız hərisliyin, istedadla orta səviyyəlinin, ideoloji basmaqəliblə varlığın bütün sirlərinə nüfuz etməyə səy göstərən idrakın hüdudsuz imkanlarının toqquşduğu bir şəraitdə milli hisslərin elmi-fəlsəfi ədəbiyyatda yer alması son dərəcə çətin məsələ idi. Milli hisslər problemi bizim fəlsəfi və ictimai-siyasi araşdırmalarda bir də ona görə bəsitləşdirilirdi ki, o, onilliklərlə kommunist rejiminin özünə zidd idi. Bu problemin dərindən araşdırılmasına rəsmi ideologiyanın tələbatı bir də ona görə yox idi ki, bu problemi prinsipcə tarixi yaddaşsızlıq məkanında, xalqın tarixi şüurunun bərpa olunmadığı bir şəraitdə araşdırmaq olmazdı.

Biz, milli hissin bu gün sosial-psixoloji ədəbiyyatda kifayət qədər tədqiq olunmadığından danışarkən xalqın qəlbini nurlandıran, milli-tarixi şüuru bəzəyən, nəcibləşdirən, ehtiyatlandıran hisslər məcmusunu nəzərdə tuturuq. Biz başqasının dərdinə şərik olma və şəfqət hissini, milli qürur hissini, etnik, milli «mən» hissini nəzərdə tuturuq. Biz uzun illər sovet milli siyasətindən doğan milli inciklik və intiqam hissini unutmuruq, milli vətənpərvərlik və tarixi ədalət hissinə ciddi yanaşırıq. Bütün dünya bilir ki, XX əsr ərzində Rusiyadakı imperiya qüvvələrinin və sovet rəhbərliyinin havadarlıq etdiyi ermənilər azərbaycanlılara qarşı fiziki və mənəvi soyqırımı həyata keçirmişlər. Xalqımıza qarşı tarix boyu, dəfələrlə ədalətsiz aksiyalar həyata keçirilmişdir: soydaşlarımız öz tarixi-etnik torpaqlarından qovulmuş, minlərlə insan fiziki məhvə (1905, 1915, 1918–1920, 1948–1953, 1988–1993 və digər illərdə) məruz qalmış, yüzlərlə və minlərlə azərbaycanlıların yaşayış məntəqələri yer üzündən silinmiş, Azərbaycan xalqının tarixi-mədəni sərvətləri ermənilər tərəfindən vəhşicəsinə məhv edilmiş və həyasızcasına mənimsənilmişdir. Ən ədalətsiz tarixi fakt budur ki, əzəli Azərbaycan torpaqlarında indiki erməni dövləti yaradılmışdır.

Aydındır ki, bütün bunlar Azərbaycan xalqının milli hisslərində, onun sosial ovqatında iz buraxmaya bilməzdi. Lakin bunlar barədə danışmaq və yazmaq yasaq edilmişdi. Ermənilər isə bilə-

rəkdən həqiqətlə yalanın yerini səhv salırdılar: azərbaycanlıların əzəli tarixi-etnik torpaqlarını əllərindən alan ermənilər indi də bütün dünyaya car çəkirdilər ki, guya azərbaycanlılar onların torpaqlarına sahib çıxıblar. Dünya isə, bir qayda olaraq, rəğbətini gizlətməyərək ermənilərə inanırdı.

Tarixilik hissini itirmiş bəzi dünya ziyalılarının gözü qarşısında bu gün də azərbaycanlıların ləyaqəti və hissləri təhqir olunmaqda, hüquqları həyasızcasına tapdalanmaqda davam edir. Buna ən yaxşı halda yalnız təəssüflərə bilərik.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidentinin 18 dekabr 1997-ci il tarixli «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya olunması haqqında» Fərmanı müstəsna, biz deyərdik ki, tarixi əhəmiyyət kəsb edir. Bu tarixi sənəd Azərbaycan xalqının milli və tarixi keçmişinin dərindən və hərtərəfli dərk olunmasına, kütləvi tarixi yaddaşsızlığa gətirib çıxarmış səbəblərin öyrənilməsinə güclü təkan vermişdir. Fərmanın mühüm məziyyəti bəlkə də daha çox bundadır ki, o, bu yaxınlara kimi «xalqların dostluğuna və qardaşlığına» xidmət edən Kreml siyasətinin əsl mahiyyətinin düzgün dərkinə kömək edir. Prezident Heydər Əliyevin Fərmanı müasirlərimiz və gələcək nəsillər qarşısında siyasi cinayətlərin pərdəsini qaldırıb və Qafqaz xalqları, eləcə də Qara dəniz hövzəsi torpaqları hesabına erməni qəsbkarlarının «Böyük Ermənistan» yaratmaq kimi sərsəm ideyaya xidmət edən Azərbaycan xalqına qarşı ardıcıl soyqırım siyasətinin vəhşi simasını açıb, gələcəyə sayıqlıqla baxmağa sövq edib. Bu fərmanda yazılıb: Tarixi ittiham olan «Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış,

xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir».

Burada iki yüz il ərzində Rusiya imperiyasının mürtəce dairələrinin, o cümlədən sovet Stalin-Qorbaçov rəhbərliyinin məkrli erməni ideoloqları ilə sıx əlbir hərəkətdə Azərbaycan xalqına qarşı mərhələ-mərhələ və ardıcıl olaraq törətdikləri soyqırımını sübut edən danılmaz tarixi hadisələr və faktlar göstərilib. Bu siyasətin nəticələrindən biri xalqın tarixinin faciəli səhifələrini əks etdirən faktlara və hadisələrə müraciət etmək zərurəti, milli psixologiyada və fərdi şüurda formalaşmış qorxu hissidir. Dəhşətli hal budur ki, hələ son zamanlaradək iki imperiyanın bizi iki yerə bölməsini – bu isə XIX əsrin ən böyük cinayətidir – eləcə də, qatı düşmən olan Andronik və S.Şaumyan kimi baş kəsənlərin azərbaycanlıları məhv etmələrini, diri-diri yandırmalarını, şəhər və kəndlərimizi necə talan etmələrini, maddi və mənəvi sərvətlərimizi mənimsəmələrini, özü də bütün bunları Rusiyanın hərbi, iqtisadi, siyasi, diplomatik, maliyyə, ideoloji himayə etdiyini ucadan deməyə qorxurduq. İki yüzillik ərzində xalqın şərəfi alçaldılmış, millətin psixologiyasına və şüuruna ardıcıl və metodik şəkildə şərə müqavimət göstərməmək, heç bir mənəvi ölçüyə sığmayan təhqirlərlə barışmaq, düşmənin hərəkətlərinə alçaldıcı dözüm ideyası aşılanmışdı. Hadisələrin gedişi və millət fövqündə duran qüvvələrin və strukturların niyyəti sayəsində biz elə bir vəziyyətə düşmüşdük ki, ən məkrli düşmənimizi «qardaş», bu düşmənin havadarını isə «böyük qardaş» deyə çağırmaq məcburiyyətindəydik. Belə imperiya şəraitində xalqımız öz dərdindən və tarixi yaralarından, ona qarşı törədilən tarixi ədalətsizlikdən, cinayətlərdən və təhqirlərdən danışmaq imkanından məhrum idi. Təbii ki, bütün bunlar xalqın milli və mənlik şüurunu ölgünləşdirir, insanlarda öz tarixi keçmişinə laqeydlik formalaşdırır, tarixi şüurun formalaşmasının nəzəri və praktik istiqamətlərinin obyektiv öyrənilməsini son dərəcə çətinləşdirirdi. Soyqırım barədə fərdi və ictimai şüura informasiyanın çatdırılmasına tam qadağa qoyulduğundan onilliklər boyu dünyagörüşümüzdə tarixi yaddaşsızlıq

deyilən bir boşluq yaranmışdı. Bu səbəbdən də millətin tarixi keçmişi, onun şüuru və psixologiyası çox zaman təhrif edilirdi.

Məhz buna görə hesab edirik ki, xalqımızın tarixi şüurunun daha dərindən öyrənilməsinə bu gün də böyük ehtiyac var. Biz əminik ki, bu problemin tədqiqində Heydər Əliyevin fəlsəfi-metodoloji irsi müstəsna rol oynayacaqdır.

### *3.3. Heydər Əliyevin siyasi konsepsiyasında siyasi sosiallaşma prosesinin yeri*

İnsanın siyasət aləminə daxil olması prosesi müasir sosial-siyasi elmlərdə «siyasi sosiallaşma» adlanır. Hələ Aristotel insanın mahiyyətini müəyyənləşdirərkən onu siyasi heyvan adlandırmış və bununla da vətəndaşlıq keyfiyyətlərini yetkin şəxsiyyətin ayrılmaz xarakteristikası hesab etmişdir.

Siyasi fikir tarixi boyu müdrikləri və düha sahiblərini düşündürən «Hakimiyyətlə insan arasında münasibət necə olmalıdır?», «Siyasi sistem öz dəyərlərini və məqsədlərini bir nəsildən digərinə necə ötürür?» kimi suallar indiki nəsillərin də düşüncələrinə hakim kəsilmişdir. Heydər Əliyev gözəl bilirdi ki, Azərbaycan cəmiyyəti də bu suallarla üzləşəcək və siyasi həyatı öyrənmək üçün vacib olan bu suallara cəmiyyətimiz cavab tapmalıdır. Lakin vacib suallara nəzəri və praktik cavablar tapmaq üçün siyasət nəzəriyyəsində xüsusi istiqamət son onilliklərdə meydana gəlmişdir. Bu problemə – «siyasi sosiallaşma» prosesinin təhlilinə həsr olunmuş ilk tədqiqat işi ABŞ-da 1959-cu ildə işıq üzü görmüşdür. «Siyasi sosiallaşma» anlayışı elmi ədəbiyyata D.İston və Q.Q.Fayman tərəfindən daxil edilmişdir. Məhz bundan sonra «siyasət» kateqoriyasının öyrənilməsi ilə bağlı çətinliklərə baxmayaraq, çoxsaylı «siyasi sosiallaşma» tərifləri meydana gəlmişdir. Son illərdə isə politoloqların, filosofların, sosioloqların və psixoloqların şəxsiyyətin siyasətə cəlb olunmasına, onun siyasi davranışının və şüurunun genezisinə dair maraqlı araşdırmalarını Ulu Öndər də diqqətlə izləmiş və qeyd etmişdi ki, hər bir cəmiyyətdə şəx-

siyyətin siyasətə cəlb olunması ictimai tələbatdan yaranır. Lakin bu anlayış həm də «sosiallaşma» termini ilə analoji anlayış kimi meydana gəlmişdir. 1950-ci illərin sonunda sosiallaşma anlayışı şəxsiyyətin siyasətə daxil olmasını təsvir etmək məqsədilə istifadə olunmağa başlamışdır. Bu prosesin siyasi aspektinin öyrənilməsi üçün əsas yol sosiallaşmanın ümumnəzəri araşdırılmasından tətbiqi tədqiqatlara qədər aparan yoldur. Qərb filosofları və politoloqları konsepsiyanın bu çalarını işləyərkən insan fəaliyyətinin konkret sahələrinə, yəni mədəniyyətə, iqtisadiyyata və siyasətə müraciət etmiş, bununla şəxsiyyətin təşəkkülünün ümumi qanunauyğunluqlarını dərk etməyə çalışmışlar. Bu mərhələdə cəmiyyətşünasları siyasət sosial normaları mənimsəmək üçün yalnız məxsusi hadisə kimi maraqlandırmışdır. Lakin 1960-cı illərin ortalarında gur siyasi hadisələrin baş verməsi, Qərb aləmində böhran hallarının üzə çıxması və siyasi sosiallaşmaya olan maraq bu sahədə intensiv nəzəri-praktik araşdırmalara böyük təkan verdi və demək olar ki, politoloji fikrin üstün sahəsinə çevrildi.

Heydər Əliyevin siyasət fəlsəfəsində belə bir ideya irəli sürülür ki, şəxsiyyətin siyasətə cəlb olunması mexanizmi barədə tam təsəvvürə malik olmaq üçün qeyri-siyasi və siyasi amillərin rolunu xüsusi öyrənmək lazımdır. Şəxsiyyətin siyasi sosiallaşması prosesi təkcə onun yetkinləşməsi ilə deyil, həm də sosial mühitlə səbəblənir. Belə halda fərdin siyasi şüuru və davranışı yalnız siyasi amillərin deyil, həmçinin qeyri-siyasi amillərin – insanın siyasi cəhətcə yetişdiyi şərait və mühitin təsiri ilə də formalaşır. Politoloji ədəbiyyatda qeyri-siyasi amillərə siyasi qaydaların, görüşlərin və dəyərlərin ötürülməsində böyük rol oynayan ailə, yaşıdlar qrupu, məktəb, iş, dini ənənə, mədəniyyət, kütləvi informasiya vasitələri aid edilir. Ənənəvi amillərlə yanaşı 1960-cı illərdən başlayaraq, gənclər mədəniyyəti məsələləri də qeyri-siyasi amillərə aid edilir. Makrososial amilləri, sosial-iqtisadi münasibətləri, həyat tərzini, milli ənənələri və s. qeyri-sistem amillərə aid etmək olar.

Sistem yaradan siyasi amillər, məsələn, dövlət quruluşunun xarakteri və tipi, rejim, siyasi institutlar, partiyalar, təşkilatlar, hərəkatlar şəxsiyyətin siyasi sosiallaşması mexanizmində əhəmiyyətli yer tutur. Real həyatda siyasi və qeyri-siyasi amillər şəxsiyyətin siyasi sosiallaşması prosesində bir növ sintez şəklində çıxış edirlər. Həmin amillər sosial formalaşma vasitələri kimi fərdin siyasi davranışını təshih edir, ona nəzarət funksiyasını yerinə yetirirlər.

Fərdin siyasi sosiallaşmasında siyasətdən uzaq amillər də, məsələn, əmək, insanın təbiətə münasibətinin xarakteri kimi də-yərlər də vacib şərtlərdəndir. Əsas məsələ həmin amillərin daxili və xarici siyasət kontekstində daxil olmasındadır.

Ulu Öndərin siyasət fəlsəfəsində siyasi sosiallaşmanın tarixi xarakteri məsələsi mühüm yer tutur. Belə ki, tarixi inkişafın hər yeni mərhələsində şəxsiyyətlə siyasi sistemin qarşılıqlı uyğunlaşma prosesinin getməsi labüddür. Çünki sosial və siyasi strukturların dəyişməsi hər nəsildə şəxsiyyətin formalaşması üçün həmin tarixi mühitdən irəli gələn şərtləri və şəraiti yaradır. Ümumiyyətlə, siyasi sosiallaşma mexanizmlərinin tarixən dəyişməsi və yeni keyfiyyət kəsb etməsi özlüyündə mürəkkəb xarakter daşıyır. Müasir inkişaf mərhələsində sosial və milli xarakterli ənənəvi ziddiyyətlər sivilizasiyanın qlobal ziddiyyətlərində də iz buraxır. Siyasi sistemlərin ənənəvi disfunksiyasının (funksiyanın pozulması) texnoloji inkişafın güclənməsi və bir çox sosial proseslərin qlo-ballaşması ilə uzlaşması son illərdə şəxsiyyətin inkişafı üçün yeni vəziyyət, şərait yaratmışdır. Amillərin bu unikal nisbəti in-sanın dövlətlə, hakimiyyətlə, siyasətlə münasibətlərini ciddi şəkildə modifikasiyaya uğratmış və siyasi sosiallaşma prosesinin böhranına gətirib çıxarmışdır. Bunu ən müxtəlif siyasi yönümlü ölkələrin siyasi mənəvi həyatında müşahidə etmək mümkündür.

Bunu da qeyd edək ki, XX əsrin sonuna yaxın ictimai ger-çəklikdə siyasi sosiallaşma prosesi təzadlı xarakter kəsb etməyə başlayıb. Belə ki, bir tərəfdən, şəxsiyyətin siyasi inkişafına olan ictimai tələbatın güclənməsinin, onun siyasətə fəal şəkildə cəlb

olunmasının, mənlik şüurunun artmasının şahidi olmuşuq. Bu hal ən müxtəlif tipli siyasi sistemlərin və rejimlərin demokratikləşdirilməsi prosesində daha bariz şəkildə təzahür edib. Digər tərəfdən isə şəxsiyyətin dövlətdən, onun sosial institutlarından özgələşməsi, siyasi qərarların qəbulu prosesinə biganə qalması kimi ləngidici amillərlə üzləşmişik. Heydər Əliyevin siyasət fəlsəfəsinə görə birinci meyli sübut edən hallar şəxsiyyətin siyasi fəallığının artması, onun siyasət barədə geniş informasiyaya malik olması, kütləvi siyasi davranışda və şüurdakı dəyişikliklər, əvvəllər siyasətdən kənarda qalmış təbəqələrin nümayəndələrinin siyasətə cəlb olunmasıdır. İkinci meyil vətəndaşların siyasi özgələşməsində, onların məyusluğunda və biganələyində, rəsmi siyasətə inamlarının itməsində, siyasi institutları, partiyaları, dövləti müdafiə etmək fəallığının azalmasında təzahür edir. Lakin bu təzadlı vəziyyət müəyyən konfliktlərlə müşayiət olunsa da, hər halda siyasi davranışın yeni tənzimləmə mexanizminin təşəkkülü və yeni siyasət subyektinin formalaşması üçün örnək olaraq qalır. Belə ki, fəal siyasət barədə məlumatlı, müstəqil olaraq məsuliyyətli qərarlar qəbul etməyə qadir elitar şəxsiyyət yetişdirmək üçün siyasi iqlim yaranır. Bu isə şübhəsiz ki, insanla siyasətin qarşılıqlı əlaqəsini optimallaşdırmaq naminə yeni tənzimləmə mexanizmlərinin formalaşmasının vacibliyini də nəzərdə tutur.

Siyasi sosiallaşma mexanizmləri içərisində siyasətin təsiri ilə şəxsiyyətin şüurunda əks olunan təlqin, təqlid, identifikasiya (tutuşdurma) kimi amillər az rol oynamırlar. Siyasətdə olan şəxsiyyət bununla yanaşı, siyasəti öyrənmək, siyasi stereotipləri əxz etmək kimi sosiallaşma amillərini qəbul edir. Daxili şəxsiyyət səviyyəsində siyasi sosiallaşmanın mexanizmləri kimi siyasətdə şəxsiyyətin davranışını idarə edən tələbatlar, motivlər, dəyər yönümləri, məqsədlər çıxış edir.

Heydər Əliyevin siyasi görüşlərində şəxsiyyətin siyasətdə iştirakı problemi ilə bağlı maraqlı istiqamətlərdən biri haqqında söhbət gedən məsələnin – siyasi təhsil nəzəriyyəsinin bazis, təməl problemi kimi təqdim edilməsidir. Əgər siyasi təhsili siyasi

idrakın idarə olunan və təşkil hissəsi kimi nəzərdən keçirsək, onda həmin idrakın obyekti və məqsədlərini də səviyyələr üzrə götürmək olar: ilk növbədə siyasi-ontoloji məqsədlər irəli sürən siyasi aləmi bütöv dərk etmək imkanlarının siyasi sosiallaşma səviyyəsi – belə halda cəmiyyət nəsillərin qarşısında cəmiyyət həyatının bir hissəsi olan mövcud siyasətin qəbul etdiyi «oyun qaydalarını mənimsəmək» məsələsini qoyur; siyasi funksional səviyyə – bu səviyyədə konkret tarixi inkişaf mərhələsində sosiumun, yaxud onun qrup və institutlarının cari məsələlərini həll etmək üçün siyasi təhsil sisteminin resursları səfərbər olunur. Siyasi elitanın formalaşmasının müəyyən mexanizmlərini isə bu faktorların mahiyyətində axtarmaq lazımdır.

Bununla əlaqədar siyasi sosiallaşma amilinin formalaşması baxımından siyasi aləm anlayışı qısaca da olsa nəzərdən keçirməlidir. Ümumiyyətlə, müasir elmdə kifayət qədər araşdırılmamış bu kateqoriya siyasi təhsil nəzəriyyəsinin məxsusi məsələlərini əlaqələndirməklə inteqrativ əhəmiyyət kəsb edir. Mövcud ədəbiyyatda qeyd olunduğu kimi, «siyasi aləm» anlayışını elmə Qərbi Almaniya politoloqu Qreman Qizeke «Siyasi təhsilin didaktikası» (1965) əsərində gətirmişdir. Onun fikrincə, siyasi təlimin predmeti siyasətdir, yəni özündə ziddiyyətlər, təzadlar daşıyan konfliktli aktuallıqdır. Sərvətlə siyasi təhsilin münasibətlərini əsas götürən alman politoloqu siyasi təhsildə dörd sahəni fərqləndirir: bilik təhsili sahəsi, yönümləşdirən bilik sahəsi, siyasi davranış sahəsi və «hərəkətləri bilmək» sahəsi. Biliklərin təlimini o, siyasi şüur üçün normalar sistemi hesab edir. Yönümləşdirən bilik sahəsini araşdırarkən politoloq siyasi aləmin özünün funksional qarşılıqlı əlaqələrini vəhdətdə götürən tam metod kimi nəzərdən keçirir. O, siyasi davranış anlayışının mühümlüyünü qeyd edərək bunu «obyektiv yönəlmiş biliyin subyektiv tərəfi» kimi göstərir. Bu anlayışı siyasi mikrokosm adlandırmaq olar, çünki Qizekeyə görə, siyasi makro və mikrokosmlar qarşılıqlı təsiri əlaqələndirən anlayışlar sistemindən keçir. Beləliklə, ictimai və xüsusi, obyektiv və subyektiv siyasi aləmlər ahəngdar olurlar.

Dördüncü sahə, bir növ, özündən əvvəl gələn anlayışların hamısının məzmununu özündə birləşdirir. Lakin bu sahənin özünəməxsusluğu bundadır ki, o, bu məzmunu siyasi konfliktdə aktuallaşdırır. Göstərilən kateqoriyaların siyasət nəzəriyyəsində kompleks şəkildə istifadə olunması cəmiyyətdə qrupun və şəxsiyyətin fəaliyyətində siyasi aləmin nə dərəcədə tam və adekvat əks etdirməsini aşkar edən mühüm metodoloji yanaşmadır. Əgər siyasi aləmin cəmiyyətdə inikasının siyasi şüur nəzəriyyəsinin predmeti olduğunu da nəzərə alsaq, bunun elitanın siyasi sosiallaşması üçün mühüm əhəmiyyət kəsb etdiyini görmək də mümkündür. Dövrünün zəngin politoloji konsepsiyalarından yaradıcılıqla bəhrələnən Heydər Əliyevin siyasət fəlsəfəsinə görə, şəxsiyyətin siyasi inkişafında mühüm rol oynayan siyasi təhsilin ən vacib və öncül vəzifəsi elitanın dünyagörüşündə elmi siyasi fikir formalaşdırmaqdır. Əgər belə düşünmək mümkünsə, nə sıravi vətəndaşlar, nə də siyasətçilər və politoloqlar arasında xalis şəkildə yüksək səviyyəli siyasi şüura malik olana rast gəlmək olar. Əlbəttə, şərti deyilsə, nəinki müstəqil surətdə siyasi ideyaları dərk etmək səviyyəsində düşünən qrup, həmçinin siyasət nəzəriyyəsi yarada bilən şəxslər mövcuddur. Əgər söhbət elitanın formalaşması baxımından siyasi təhsil qarşısında duran vəzifədən gedirsə, bu zaman əsas məsələ siyasi didaktikanın vasitə və metodlarının köməkliyi ilə öz şüurunda bütün siyasi aləmi olduğu kimi əks etdirmək qabiliyyətinə malik ideal «homo politicus» modelini yaratmaq kimi utopik məqsəd güdmək deyil, əksinə, siyasəti şüurun hər bir səviyyəsində, yəni adi və nəzəri şüur səviyyələrində elmi biliyin rolunu artırmağa səy göstərmək lazımdır. Belə bir keyfiyyət siyasi elitanın fəaliyyətinin ayrılmaz hissəsi olmalıdır.

Siyasi şüur siyasi sahə haqqında təsəvvürlərin məcmusu kimi siyasi həyatda bütün çoxcəhətliliyi ilə əks edilən biliklərin, əhvali-ruhiyyənin, zövqlərin, instinktlərin qaynağıdır. Bundan əlavə, siyasi şüurun immanent keyfiyyətli mənafeləri nəinki üst-üstə düşməyən, hətta hər birinə tam zidd olan dövlətin, siniflərin, qrupların və şəxsiyyətlərin güzgüsündə əks olunaraq, bu qeyri-

yekcinsliyi daha da artırır. Siyasi şüurun səviyyələri onun adi şüurdan elmi-nəzəri şüura qədər elmi strukturlaşmasının göstəricisidir. Adi və nəzəri şüur arasında keçid dövrü yerləşir. Adi siyasi şüur səviyyəsi şayiələrin, miflərin, kütləvi informasiya vasitələrinin təsiri ilə aşılanan fikirlərin qarşılığından ibarət sistemsiz biliklərdir. Siyasətdə dərin və zəngin təcrübəyə malik Heydər Əliyev yaxşı bilirdi ki, siyasət barədə təsəvvür daha çox təlqinli-intuitiv xarakter daşıyır, siyasi informasiyanın özü isə qeyri-tənqidi, həyat təcrübəsi boyu qazanılmış stereotiplərlə qavranılır. Bununla bağlı belə bir psixoloji məqam yaranır: informasiyanın, ümumiyyətlə, siyasi biliklərin bu cür qavranılması həm siyasətçiləri, həm də politoloqları qıcıqlandıra bilər. Çünki stereotiplərlə qavranılan şüuru manipulyasiya etmək prosesi çətinləşir. Digər tərəfdən isə, həmin siyasi şüur növünün real həyat praktikasında kök salması, deməli, onun obyektivliyi ilə barışmamaq olmur. Heydər Əliyevin fikrincə, şüurdakı bu mühafizəkarlığı nəzərə almamaq bir sıra xeyirxah proqramların və böyük planların puç olması deməkdir. Qəribədir ki, belə olduqda çox zaman siyasəti səriştəsiz həyata keçirən «elita» deyil, «nadan, savadsız» xalq günahlandırılır. Şüurun keçid dövrü səviyyəsi, yaxud da keçid dövrü şüurunun səviyyəsi özündə adi şüur səviyyəsindən təkcə siyasət barədə təsəvvürləri deyil, həmçinin rəsmi-elmi informasiyanı müstəqil, sərbəst qavrayıb dərk etməyi ehtiva edir. Belə halda tənqidi qavrama çox vaxt qeyri-dəqiq, birtərəfli olur. Onu da qeyd edək ki, belə şüurun kütləvi daşıyıcıları bu və ya digər siyasi liderlərin, hərəkatların «xammal»ına çevrilirlər. Psixoloji baxımdan məhz bu cür şüurun sahibi potensial olaraq «avtoritar şəxsiyyətin» daşıyıcısıdır. Başqa sözlə, keçid dövrü şüurunun daşıyıcısının niyyətini və nə edəcəyini əvvəlcədən bilmək olmur, əgər o, əqidəsini dəyişdirirsə, deməli, kökündən dəyişir. Bu deyilənlərə əsaslanıb Ulu Öndərin siyasət fəlsəfəsindən belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətimizdə demokratikləşdirmə prosesinin uğurlu gedişinin təmin olunmasında siyasi şüurun və bütövlükdə siyasətə şəxsiyyətin şüurlu cəlb

olunmasının əhəmiyyəti son dərəcə böyükdür. Siyasi elitanın formalaşması üçün mühüm örnək olan Heydər Əliyevin siyasət fəlsəfəsinin ümumi ruhundan çıxış edərək sosiallaşmanın tərifini belə vermək olar: «Sosiallaşma fərdlərin öz sosial rollarına uyğun gələn bacarıqlarının və sosial məqsədlərinin formalaşması üsullarıdır. Siyasi sosiallaşma isə uşaqların və yeniyetmələrin mövcud ümumilik üçün tipik olan ideyaları, siyasi mövqeləri və davranışları əxz etmələrindən ibarət inkişaf prosesidir». Sosiallaşma və siyasi təhsil problemlərinin bir nöqtədə qovuşması məhsuldar elmi nəticə verdiyindən tədqiqatçıların, həmçinin politoloqların marağına səbəb olmuşdur. Siyasi təhsilin təriflərindən biri – onun siyasi sosiallaşmanı idarə edən bilik sahəsi olması heç də təsadüfi deyil. Ümumiyyətlə, sosiallaşma (eləcə də siyasi sosiallaşma) nəzəriyyələri ilə tanışlıq belə bir həqiqəti sübut edir ki, sosiallaşmanı geniş mənada təlim prosesi kimi də başa düşmək olar. Bu fikir Heydər Əliyevin siyasət fəlsəfəsində mühüm konseptual məqamdır.

Heydər Əliyevin siyasət fəlsəfəsində, bir qayda olaraq, «nə», «necə», «nə vaxt» və «nə ilə» suallarına cavab axtararkən siyasətdə sosiallaşmanı, bu prosesdə siyasi elitanın hansı keyfiyyətlərə malik olmasını müəyyənləşdirən mikro və makro şəraitin öyrənilməsinə xüsusi diqqət yetirməli oluruq. Aydın olur ki, makro şəraitin tədqiqi daha vacib sayılır. Ulu Öndərin siyasi görüşlərində obyektiv şərait, yəni iqtisadi istehsal üsulunu institutlaşmış siyasət, həmçinin onların «subyektiv» işlənib hazırlanması, yenidən açıq hərəkət və davranış yolu ilə obyektiv şəraitdə təsiri fərqləndirilir.

Siyasi sosiallaşmanın universal metodoloji əhəmiyyəti bundadır ki, onu bu gün politologiya, psixoanaliz, psixologiya, sosiologiya və pedaqogika elmləri öz kontekstlərində öyrənir. Həmin elmlərin birgə səyi ilə öyrənilən sosiallaşma problemi artıq mövcud nəzəriyyələrdə müxtəlif anlayışlar yaratmışdır. Məsələn, belə anlayışlara nümunə olaraq elmi aparatda öz yerini tapmış kateqoriyaları göstərmək olar: sosializant, yaxud sosiallaşma subyekti; sosiallaşma

agenturaları – burada sosiallaşmaya kömək edən institutlar nəzərdə tutulur və nəhayət, sosiallaşma agentləri, yaxud sosializatorlar. Sonuncu kateqoriya sosiallaşmanın məzmununu vasitələndirən şəxsiyyətləri nəzərdə tutur. Sosiallaşma agentləri şəxsiyyətin sosiallaşmasına kömək edən fərdlər, sosial qruplar və institutlar hesab edilir.

Bu gün siyasi elitanın formalaşması ilə bağlı siyasi reallıqları nəzərə almaq sosiallaşma, xüsusilə siyasi sosiallaşma prosesinə yeni baxımdan yanaşmağı tələb edir. Hazırda Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər göstərir ki, siyasi sosiallaşma probleminin tədqiqi və öyrənilməsi müasir kütləvi cəmiyyətin həyatında baş verən hadisələrin dərindən dərk olunmasını tələb edir. Siyasi məlumatın qıtlığı, siyasi reallığın nə dərəcədə adekvat qiymətləndirilməsi, həm konfliktliyə, həm də tolerantlığa (dözümlülüyə) qabil və hazır olmaq səviyyəsi kimi problemlərin öyrənilməsi tezliklə sosiallaşma ilə bağlı məsələlərə cavab tapılması deməkdir.

Heydər Əliyevin siyasət konsepsiyasının əhəmiyyəti bir də bundadır ki, o, siyasi sosiallaşmanın davranış problemi ilə əlaqəsi olan nəzəri təhlil modellərinin işlənməsinə də diqqət yönəldir. Belə modellərin mahiyyəti bundadır ki, elitanın bütün ömrü ərzində, permanent olaraq təhsilə, təlimə olan qabiliyyətini əks etdirir. Ümumiyyətlə, siyasət fəlsəfəsinin mühüm qayəsi bundadır ki, burada şəxsiyyətlə ətraf mühitin, eləcə də siyasi aləmin fəal dialoquna, siyasi təhsilin nəzəriyyəsi və praktikasına xüsusi əhəmiyyət verilir. Başqa sözlə, burada elitaya siyasi və sosiomədəni təsirin aktuallığı xüsusi problem kimi daim nəzərdən keçirilir. Heydər Əliyevin siyasət fəlsəfəsinin ruhundan çıxış edərək belə bir ideyanı alqışlamaq istərdik: Respublika universitetlərinin politologiya kafedralarının qüvvəsi ilə «gənc liderlər məktəbi», «liderlik elmləri akademiyası», «uşaq gənclər parlamenti» kimi yeniyetmə birlikləri yaradılıb. Belə birliklərdə uşaq və gənclərin siyasi idraka, siyasi iştiraka olan marağının formalaşması prosesi cəmiyyətimizə böyük fayda verir. Burada sosiallaşma enerjisi ilə

biliklərə yiyələnməyə daha çox şərait yaradılır. Almaniyada, İsraildə bu sahədə formalaşmış uşaqların hazırda liderliyi davam etdirmələri belə məktəblərin xeyli səmərəli fəaliyyətinə sübutdur.

Siyasi elitanın formalaşması prosesini təhlil edərkən məlum olur ki, bu işdə «rollar təlimi» az əhəmiyyət kəsb etmir. Siyasi proseslərdə siyasət «qaydalara görə oyun», siyasi təhsil isə həmin qaydaları öyrədən vasitə kimi çıxış edir. Heydər Əliyevin siyasət fəlsəfəsi öyrədir ki, fərd universal sistemə «siyasi aləm subyekti» kimi inteqrasiya edə, həmçinin bu yolda sosial məcburiyyətdən azad olaraq öz muxtariyyətinə nail ola bilər. Heydər Əliyevin siyasət fəlsəfəsində «translyasiya» (ötürmə) təliminin prinsiplərini duymaq mümkündür. Baxmayaraq ki, o bu barədə xüsusi əsər yazmamışdı. Onun təlimində sosiallaşmanın uğuru hakim dəyər və normaların daxilləşməsindən (internalizasiya) asılı fenomen kimi nəzərdən keçirilib. Qeyd edək ki, translyasiya təlimində sosializatorla sosializant arasında əks rabitəyə daha çox üstünlük verilir. Bu, əslində «Mədəniyyət və uşaq aləmi» modelində perfıqurativ mədəniyyətə, yəni uşaqlardan böyüklərin təlim alması mədəniyyətinə verilən qiymətlə uyğundur. Elitanın formalaşması problemi belə bir aktual məsələni də aşkarlayır ki, şəxsiyyətin şüurunun və davranışının strukturları müəyyən həyat mərhələlərində sosial tarixi əhəmiyyətli hadisələr vasitəsilə əks olunur.

Heydər Əliyevin siyasət fəlsəfəsindən irəli gələn mülahizələr deməyə əsas verir ki, sosiallaşma ideyaları daha çox bizcə tədqiqatçıları – politoloqları, filosofları, sosioloqları, analitikləri maraqlandırmalıdır. Ali məktəblərimizin politologiya və pedaqogika kafedralarının kollektivlərinin də həmin problemə maraq göstərmələri məqsədəuyğun olardı, çünki son tədqiqatlar bir daha sübut etdi ki, daha parlaq hadisələr şəxsiyyətə erkən uşaqlıqda deyil, məhz 17–25 yaşlarında güclü təsir göstərir, generasiyanı «kollektiv yaddaşla», yalnız ona xas olan dəyərlər və əqidələrlə zənginləşdirir. Siyasi elitanın formalaşması üçün belə sosiallaşma

bir növ transformator rolunu oynayır: «sosial neofitlərin» (yeni dini qəbul edən) siyasi baxışlarını cəmiyyətin verdiyi parametrlərə uyğunlaşdırır. Əgər siyasi sosiallaşmanın müxtəlif dairələrdə müxtəlif nəticələrə gətirib çıxardığını nəzərə alsaq, haqqında bəhs etdiyimiz Heydər Əliyev siyasət fəlsəfəsinin elmi aktuallığına bir daha əmin olarıq.

Beləliklə, Heydər Əliyevin siyasət fəlsəfəsinin mühüm məqamlar ilə tanışlıqdan belə nəticəyə gəlmək olar: Özünü siyasi elitaya aid edən hər bir siyasətçi fəaliyyətini mövcud dünyanın vəziyyətindən ayrı deyil, onu dəyişməyə qadir olan bugünkü proseslərin davamı hesab etməlidir.

## *3.4. Siyasi qətiyyət anlayışı Heydər Əliyevin xarizmasında mühüm cəhət kimi*

Heydər Əliyevin müstəqilliklə bağlı verdiyi bəyanatlarda lider mövqeyinin siyasi qətiyyətə söykənməsi birmənalı şəkildə müsbət dəyərləndirilir.

1991-ci il dekabrın 8-də imzalanmış «Belovejsk» sazişini ləğv etmiş Rusiya Federasiyası Dövlət Dumasının 15 mart 1996-cı il tarixli qərarı ilə əlaqədar Heydər Əliyevin verdiyi bəyanat qətiyyətli dövlət başçısının mövqeyini əks etdirirdi. Qətiyyətlilik onun hər bir nitqində hiss olunur, müstəqilliyin əbədiliyinə qəti inamı diqqətdən yayınmırdı. O deyirdi: «Sovet İttifaqı dağılmalı idi, geriyə yol yoxdur, bərpa edilə bilməz. Azərbaycanın mövqeyi aydındır, müstəqilliyimizdən əl çəkə bilmərik, Azərbaycanın dövlət müstəqilliyi əbədidir. Yaxud başqa bir çıxışından sitat: «Bu barədə nə deyə bilərəm? Təəccüb doğuran bir qərardır. Hesab edirəm ki, bu mənasız bir işdir. Çünki 1980-ci ilin əvvəllərindən başlayaraq dünyada, o cümlədən keçmiş Sovet İttifaqında gedən tarixi, ictimai-siyasi və tamamilə təbii, obyektiv qanunlara uyğun olan proseslərin nəticəsində Sovetlər İttifaqı dağılmışdır. O dağılmalı idi və dağıldı. Heç kəs yenidən Sovetlər İttifaqını bərpa edə bilməz».

Ulu Öndər qəti əmin idi ki, Azərbaycan müstəqil dövlət kimi yaşayacaqdır, lakin bu yolda milli səfərbərlik, güclü həmrəylik lazımdır. Deyirdi: «Biz öz dövlət müstəqilliyimizdən əl çəkə bilmərik, yəni onu əlimizdən verə bilmərik. Mən dəfələrlə demişəm, bu gün də bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir. Biz də onu əbədi etmək üçün çalışacağıq və hamı çalışmalıdır».

Sovetlər imperiyası dağılan kimi müstəqillik yoluna qədəm qoyan gənc respublikanın dünya birliyinə qovuşması, inteqrasiya prosesində beynəlxalq ictimaiyyəti inandırmaq, demokratiya yolunu seçmiş respublikaya kömək edilməsinə nail olmaq baxımından Heydər Əliyevin XX əsrin 90-cı illərində siyasi baxımdan qətiyyətli çıxış, nitq və bəyanatları hələ illər sonra da «siyasi natiq» kontekstində dərindən öyrənilməlidir. O, qətiyyətli nitqində demokratiyanın inkişafına, siyasi plüralizm və insan haqlarının müdafiə prinsiplərinə əməl olunacağına dərindən inanırdı: «Heç kəsin şübhəsi olmasın ki, Azərbaycanın bir demokratik respublika kimi bundan sonra inkişaf etməsinə kimsə mane ola bilməz. Azərbaycan dünya demokratik birliyinə daxil olmuş bir dövlətdir və siyasi plüralizm və insan haqlarının qorunması prinsipləri əsasında bundan sonra da inkişaf edəcəkdir».

Heydər Əliyevin müstəqilliyimizlə bağlı nitq və çıxışlarındakı siyasi qətiyyəti dünyanın müxtəlif ölkələrində keçirilən diplomatik görüşlərdə, auditoriyalardakı çıxışlarında da yaxşı duyurdular: «Mən hər yerdə demişəm ki, respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik».

Heydər Əliyevin şəxsiyyətini və həyat tərzini xarakterizə edən siyasi qətiyyət fenomeni onun müstəqilliyimizin qorunması ilə bağlı çıxışlarında daha inamla səslənir: «Artıq dövlət müstəqilliyi reallığa çevrilibdir. Lakin bütün məhrumiyyətlərə dözərək Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamalıyıq».

Müstəqilliyimizin qorunması naminə o, «şəxsi iddia və ambisiyalardan» əl çəkməyi qətiyyətlə tələb edirdi: «Bunun üçün

Azərbaycanın hər bir vətəndaşı öz payını verməlidir. Bunun üçün Azərbaycanın keçid dövründə, xüsusən xaricdən cürbəcür təsirlərə məruz qaldığı bir dövrdə insanlar öz şəxsi iddialarından, öz şəxsi ambisiyalarından əl çəkməlidirlər». Heydər Əliyev başa düşürdü ki, əgər lider qətiyyətli mövqe nümayiş etdirməzsə, ölkədə – özü də ağır bir şəraitdə – sabitliyi bərpa etmək mümkün olmaz.

Heydər Əliyevin müstəqilliyin ilk dövründəki çıxışlarında siyasi qətiyyətliliyi realist məntiqə söykənirdi. Bunu başa düşmək çətin deyildir, çünki müstəqilliyimizə təhlükələrin mövcud olduğu illərdə – ölkəni ağır sosial-psixoloji vəziyyətdən xilas etmək yolunda ciddi addımların atılması son dərəcə vacib idi.

Müstəqilliyin ilk illərində təhsilimizlə bağlı məsələlərdə Heydər Əliyevin lider qətiyyəti sayəsində bütün nazirliklər səfərbər edilir, təhsil işçiləri arasında gələcəyə inam hissi aşılanırdı: «Mən sizə tapşırıram; həm şəhərlərdə, həm də kəndlərdə müəllimlərin dekabr və yanvar ayları üçün məvacibləri təcili surətdə, bir həftənin ərzində ödənilməlidir. Aydındırmı? Bir həftənin içində ödəyib, mənə şəxsən məlumat verməlisiniz! İşğal olunmuş ərazilərdən qaçqın düşmüş müəllimlərin, habelə onların yerləşdirildiyi məktəblərin vəziyyətinə xüsusi diqqət yetirilməlidir».

Vaxtilə Azərbaycan maarifinə yaxından qayğı göstərmiş Heydər Əliyev real təcrübədən yaxşı bilirdi ki, müəllimin maaşı təkcə maddi məsələ deyil, hər şeydən əvvəl, siyasi məsələdir, çünki müstəqil ölkənin gələcək kadrlarını tərbiyə edən müəllimin sosial təminatı layiqli olmalıdır, cəmiyyətdə müəllimin nüfuzu uca tutulmalıdır.

Siyasi arena elə bir sahədir ki, liderin, siyasi elitamızı təmsil edən diplomatların bütün intellektual potensialı məhz burada açılır. Azərbaycanın müstəqilliyinin dünya birliyində təsdiqləndiyi ilk illərdə ölkə rəhbərliyindən çevik hərəkət, xüsusi qətiyyət tələb olunurdu. Biz burada Lissabon zirvə görüşünü (2 dekabr 1996-cı il) xüsusilə xatırlatmaq istərdik. O zaman Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyi məsələlərinin həllinə təhlükə göz

qabağında idi. Ulu Öndərin qətiyyəti tam dolğunluğu ilə məhz bu zirvə görüşündə üzə çıxmışdı: «yol verə bilmərik» kimi qətiyyətli mövqe diplomatik ləyaqətin nümayişi idi: «ATƏT-in Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddiaları beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacağıq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik».

BMT Təhlükəsizlik Şurasının sədrinə ünvanlanan bəyanat siyasi qətiyyətə malik liderin bəyanatı idi: «İndiki şərait BMT nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik Şurasına verilmiş səlahiyyətlər əsasında onun işə qarışmasını təkidlə tələb edir. Təcavüzkarın cilovlanmasına, qan tökülməsinin dayandırılmasına və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəldilmiş təxirəsalınmaz tədbirlər gərəkdir. Deyilənlərlə əlaqədar Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş edirəm». Mətndəki «təxirəsalınmaz tədbirlər» ifadəsi nəinki öz həqiqətləri naminə müstəqil dövlətin qətiyyətli mövqeyini ortaya qoyur, həmçinin müstəqil respublikanın bərabərhüquqlu beynəlxalq münasibətlər subyekti kimi real mövqeyini əks etdirirdi.

Qətiyyətli söz demək, həlledici qərar qəbul etmək yalnız milli liderlik səviyyəsinə ucalmış dövlət başçısına xas ola bilər. 20 Yanvar faciəsi ilə bağlı Moskvadakı tarixi hadisə – Kommunist Partiyasını, Sovetlər Birliyini ifşa etmək, təqiblərə cəsarətlə sinə gərmək, xalqına sədaqətlə xidmət edən siyasi xadimə xas olan psixoloji keyfiyyətdir.

Siyasi qətiyyət anlayışının qüdrətinin nə olduğunu bilmək üçün Ulu Öndərin (13 noyabr 1996-cı ildə) Türkiyədə TQRT telekanalının «Üz-üzə» proqramına verdiyi müsahibəyə nəzər salmaq kifayətdir: «1990-cı ilin yanvarında Azərbaycana qarşı bir təcavüz edildi. Onda mən Moskvada idim. Mən o vaxt Moskvada bununla əlaqədar keçirilən mitinqə getdim. Orada Qorbaçovun, Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə sözlər dedim. Onları mühakimə etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz

etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz cinayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar». Bu kiçik epizodda öz varlığını xalqının taleyindən ayrı təsəvvür etməyən, xalqına, vətəninə qarşı təcavüzü qətiyyətlə lənətləyən Heydər Əliyevin böyüklüyünü görürük.

Heydər Əliyev həmişə beynəlxalq siyasi əhəmiyyət kəsb edən məsələlərə də qətiyyətli münasibət bildirmiş, sırf praqmatizmə söykənən bürokratizmi kəskin tənqid etmişdir. Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» yatağında əldə edilmiş nəticələrlə bağlı təqdimat mərasimindəki yekun nitqində neft strategiyamızı milli mənafelərimizə uyğun müəyyənləşdirərkən o, işə mane olan bürokratik əngəllikləri belə pisləyib: «Bizim bu işimizə indi də mane olanlar vardır. Ancaq heç kəs heç bir şeyə nail ola bilməyəcəkdir. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilibdir. Biz bu strategiyanı bundan sonra da ardıcıl surətdə həyata keçirəcəyik». Bu gün cəsarətlə deyə bilərik ki, İlham Əliyevin həyata keçirdiyi neft diplomatiyası məhz bu strategiya əsasında layiqincə həyata keçirilir.

Torpaqlarımızın erməni işğalından azad olunması, eləcə də ərazi bütövlüyümüzlə bağlı məsələlərdə Ulu Öndərin qətiyyətli mövqeyi özünü daha bariz şəkildə nümayiş etdirib. Belə çıxışlar həm beynəlxalq tribunalarda, həm də Azərbaycanda xalqla görüşlərdə səslənib. Buna bariz nümunə Heydər Əliyevin 2 aprel 1997-ci il tarixdə Kəlbəcər qaçqınları ilə görüşündəki çıxışıdır: «Biz öz torpaqlarımızın bir qarışını belə heç vaxt Ermənistana verməyəcəyik, bunu onlar bilməlidirlər. İşğal olunmuş torpaqlarımızın hamısı azad edilməlidir. Respublikamızın ərazi bütövlüyü bərpa olunmalıdır, bunu onlar bilməlidilər. Dünyanın böyük dövlətləri, beynəlxalq ictimaiyyət, Minsk qrupuna həmsədrlik edən dövlətlər bunu artıq dərk edir və bəyan edirlər».

Heydər Əliyevin qəti mövqeyi həm də beynəlxalq birliyin bu işdə qətiyyətli olmasına yönəlmiş çağırış idi.

«Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt, heç kəsə verməyəcəyik»

ideyası siyasi elitanı qətiyyətli olmağa səsləyir, dünya ictimaiyyətinin diqqətini isə Qarabağ probleminin həllinə yönəldirdi.

Heydər Əliyevin siyasət fəlsəfəsinin mühüm məziyyətlərindən biri bu idi ki, o, auditoriyanı intellektual səviyyəli çıxışları ilə həqiqətin dərk olunmasına dəvət edirdi. Ən böyük həqiqəti – ölkəmizin dünya birliyində tanınmasını isə xüsusi qətiyyətlə çatdırırdı: «Dövlətimizin suverenliyini, sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü bütün Dünya Birliyi təsdiq etmişdir. Bu prinsiplərin hər hansı şəkildə pozulması sülh və sabitlik yaradılmasına əngəl törədir, qarşıdurmanı gücləndirir, xalqların dinc və firavan gələcəyə bəslədikləri ümidləri puça çıxarır. Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacağıq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik». Necə deyərlər, siyasi qətiyyətin mahiyyətinin açılması üçün izaha ehtiyac yoxdur.

Heydər Əliyevin siyasət fəlsəfəsindən irəli gələn liderlik qətiyyəti sayəsində Azərbaycan həqiqətləri beynəlxalq təşkilatların diqqətinə tez-tez çatdırılırdı. O, İslam Konfransı Təşkilatının işində iştirak edərkən demişdi: «Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız». «Siyasi iradənizi qətiyyətlə bildirməlisiniz» fikri hesab edirik ki, hər bir siyasətçinin, milli siyasi elitamızın düşüncəsinin vacib elementi olmalıdır. Ən mühüm isə bu idi təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin vacibliyi susmaqda olan dünya birliyinə qətiyyətlə çatdırılırdı.

«Azərbaycanın tarixi torpaqları qayıtmalıdır. Xalqımız da daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur,

hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar geri qayıtmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqdır». Bu fikirləri söyləyən Ulu Öndər ümid edirdi ki, gələcək nəsillər də bu məsələdə qətiyyətli iradə nümayiş etdirəcəklər.

Özbaşınalıqlara yol verməmək, hamının qanunlara riayət etməsi demokratik rejimin siyasi həyatı üçün vacib şərtdir. Ulu Öndər, elə bu səbəbdən qətiyyətlə qeyd edirdi ki, heç kəsə özbaşınalıq etmək imkanı vermək olmaz: «Mən imkan verə bilmərəm ki, Azərbaycanda özbaşınalıq olsın. Qanun-qayda, qanunun aliliyi hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün xüsusi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var və hami bunlara tabe olmalı, riayət etməlidir».

Heydər Əliyev xaosu aradan qaldırmaqla siyasi rejimin nüfuzunu artırmağa çalışırdı. Ona görə elita məhz siyasi nüfuzu sabit olan ölkədə yetişə bilərdi.

Heydər Əliyevin çıxışlarında tez-tez səslənən «qanunun aliliyi» konsepsiyası onun siyasət fəlsəfəsində irəli sürülən «ölkədə siyasi durumun yaxşılaşdırılması» konsepsiyası ilə tam səsləşirdi. Ulu Öndər ölkədə siyasi sabitliyi hər vasitə ilə pozmağa cəhd göstərən antimilli qüvvələrə, qanunsuzluğa qarşı həmişə amansız mübarizə aparmış, bunu hüquqi dövlətçiliyin inkişafında və qorunmasında başlıca vəzifə saymışdı. Onun bu məsələyə qətiyyətli münasibəti aşağıdakı sözlərində daha bariz səslənib: «Yenə də deyirəm: heç bir partiyanın, təşkilatın silahlı dəstəsi ola bilməz. Silah ancaq dövlətə mənsubdur və qeyri-qanuni silah saxlayan hər bir şəxs, hər bir təşkilat Cinayət Məcəlləsinin müvafiq maddələrinə görə cinayət məsuliyyətinə cəlb olunmalıdır. Bunu hamı bilməlidir».

O dövrdə Ulu Öndər ölkədə xaosun aradan qaldırılmasının ən optimal yolunu müxalif qüvvələrlə dialoqa girməkdə görürdü.

Reallıqlar göstərdi ki, müxalifətin dar mədəniyyəti çərçivəsində siyasi dialoq aparmaq məhsuldar addım deyildir. O, dövlətçiliyimizin qorunması yolunda iqtidar-müxalifət qarşıdurmasının sivil, demokratik yolla aradan qaldırılmasına çalışırdı ən ağrılı

problemlərin dialoq yolu ilə həllinin tərəfdarı olduğunu xüsusi vurğulayırdı: «Mən bütün müxalifət qüvvələrini dialoqa dəvət edirəm, məsələləri ancaq danışıq yolu ilə həll etməyə dəvət edirəm. Heç kəs Azərbaycanda güc yolu ilə, zorla heç bir şeyə nail ola bilməz. Bu artıq xülyadır. Bu artıq 1991-ci, 1992-ci il deyil, 1993-cü il də deyildir. Azərbaycanın müstəqil, qüdrətli dövləti vardır, Azərbaycanın dövlətçiliyini qorumaq üçün ölkənin dövlət strukturları vardır. Onlar Azərbaycanda kimsə tərəfindən güc işlətməyə, güclə nəyəsə nail olmağa heç vaxt imkan verməyəcəkdir. Prezident kimi mən bəyan edirəm ki, bəli, mən Azərbaycan xalqının, onun müstəqilliyinin keşiyində 1993-cü ildən durduğum kimi, bundan sonra da duracağam və heç kəs mənim iradəmi sındıra bilməz». Ulu Öndərin bu müddəası gənc siyasətçilər nəsli üçün siyasi qətiyyətin nümayiş etdirilməsi sahəsində nümunə olmalıdır.

Ulu Öndər daha sonra qətiyyətlə qeyd edirdi ki, hüquqi dövlətin qanunlarını heç kəsin pozmağa haqqı yoxdur. O, ölkəmizdə hüquqi dövlətin yarandığını, müstəqilliyimizin misilsiz dəyərləri olan Konstitusiyamızı, dəyərli qanunlarımızı, çox dəyərli parlamentimizi və dövlət sturukturlarımızın fəaliyyətini xüsusilə qeyd edirdi. Ona görə, kiminsə qanunu pozmasına yol verə bilməzdi: «Vətəndaşlarımız bilməlidirlər: müstəqilliyimizə ziyan vuran hüquqi pozuntu hallarına yol verilməyəcəkdir».

Onun hər bir göstərişi, siyasi təcrübəsi yüksək intellektli liderin siyasi iradəsinin parlaq təzahürü idi. Ulu Öndər vətəndaşlarımızı daim hüquqi dövlət quruculuğuna, qanunun aliliyinə hörmət etməyə səsləyirdi.

Onun göstərişlərinin həyatiliyi, inandırıcı ruhu bunda idi ki, fəaliyyətində sözü ilə əməli bir idi. Ulu Öndərin fikrincə, bu keyfiyyətə yiyələnməyən siyasi elita siyasətdə heç bir uğur qazana bilməz. Ulu Öndərin siyasət fəlsəfəsinin müdrik müddəalarından biri məhz bu idi.

Heydər Əliyevin siyasət fəlsəfəsində siyasi elita qarşısında qoyulan başlıca prinsip «etimadı doğrultmaq» müddəası idi. Bu

ifadə sözsüz ki, gənc siyasətçiləri siyasətə sağlam fenomen kimi baxmağa kökləyir. Əsl siyasətçi cəmiyyətdəki dövlətçiliyə xəta vuracaq qüsurlarla barışmamalıdır. Ulu Öndərin əqidəsincə «hamı bilməlidir ki, göstərilən etimadı işlə və sağlam mənəviyyatla, professionallıqla doğrultmaq lazımdır». «Kobuddur, «qudurmaq» sözüdür, mən bunu işlətmək istəmirəm ancaq bəzən belə olur. Ancaq praktikada aydın olur ki, bəziləri etik normaları pozaraq həvalə olunan vəzifəni yerinə yetirmək əvəzinə, bu vəzifədən öz şəxsi məqsədləri üçün istifadə etməyi daha üstün tuturlar». O, bütün bunları mənəviyyatımıza zidd olan keyfiyyətlər kimi qiymətləndirir, belə hallara qarşı barışmaz mübarizə aparırdı. Qaydanı pozan məmura ilkin olaraq xəbərdarlıq etməyi etika baxımından vacib bilirdi. Onun qətiyyətli hər bir xəbərdarlığı səfərbəredici, eyni zamanda tərbiyəvi xarakter daşıyırdı. Ölkədə siyasi durumun sabiliyinin pozulmaması, hüquqi dövlətin demokratik əsaslarla qurulması naminə siyasi müxalifətdə olan partiyalara xəbərdarlıq edirdi. «Mən bunu xüsusi vurğulayıram və xəbərdarlıq edirəm ki, heç bir partiyada heç bir silahlı qüvvə olmamalıdır və hər bir siyasi partiya ancaq siyasi yollarla mübarizə aparmalıdır, başqa yollara əl atmamalıdır».

Heydər Əliyev fəaliyyətində diplomatik qətiyyət fenomeninə də ciddi fikir verirdi. Önəmli cəhət budur ki, bu gün də Ulu Öndərin siyasi qətiyyət konsepsiyası yetirmələri tərəfindən uğurla həyata keçirilir. Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin AZƏRTAC-a verdiyi müsahibələrin birində (17 may 2014-cü il) söylədiyi fikirlər bir daha göstərir ki, Heydər Əliyevin siyasi qətiyyət konsepsiyası Azərbaycan dövlətçiliyinin fəaliyyətində, siyasi elitanın əqidəsində bu gün də yaşamaqdadır.

Ulu Öndərin bir çox nitqlərində və çıxışlarında «cəzalandırılmalı», «məsuliyyətə cəlb olunmalı» ifadələrinə də rast gəlirik. Bəzi halarda çox kəskin səslənən bu ifadələr əslində insanların qanunlara hörmət etməsinə hesablanıb. Heydər Əliyevin siyasi partiyalarla bağlı müddəaları, onun gənc siyasətçilərə tövsiyələri

təəssüf ki, hələ də dəyərincə tədqiq olunmamışdır. Bu sahədə boşluq aradan qaldırılarsa, Ulu Öndərin siyasət fəlsəfəsinin nəzəri məziyyətlərini daha dərindən öyrənmiş olarıq.

Heydər Əliyev üçün siyasi elita və siyasi sabilik anlayışları «dövlət və siyasi partiya münasibətləri necə olmalıdır» sualına cavab kimi vəhdətdə olan kateqoriyalar sistemidir. Əgər partiya qanun çərçivəsində fəaliyyət göstərirsə, qanundan kənara çıxmırsa, deməli, o, dövlətçiliyin fəaliyyəti üçün vacib şəraitin yaradılmasına kömək edir. Əlbəttə, dövlətin də mühüm funksiyalarından biri partiyanın qanuni hüquqlarının pozulmasına yol verməməkidir. Dövlət buna cavabdehdir. Lakin bunu da hər kəs bilməlidir ki, bu sahədə qanunu pozanlar qanun qarşısında cavab verməlidirlər. Burada qarşılıqlı anlaşma tələb olunur. Əgər söhbət qanunun aliliyindən gedirsə, deməli, partiyaların da qanunu pozmağa haqları yoxdur və qanunla buna yol verilməməlidir.

Heydər Əliyevin siyasət fəlsəfəsində siyasi qətiyyətə yönümlənmiş elitanı formalaşdıran amil kimi informasiya mədəniyyətinə də xüsusi fikir verilib. Çünki informasiyaya əsaslanmadan nə normal fəaliyyət göstərmək, nə də qəti və dügün qərar qəbul etmək mümkündür. İnformasiya mədəniyyəti siyasi mədəniyyətin ayrılmaz hissəsidir və bunsuz siyasi elitanın formalaşmasından söhbət gedə bilməz. Heydər Əliyev həmişə bu barədə özünün fəlsəfi düşüncələrini gənclərlə bölüşməyi başlıca etik norma sayırdı. O, məntiqli çıxışları ilə ilk illər Azərbaycanın informasiya blokadasından çıxmasında misilsiz fəaliyyət göstərmişdi. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində informasiyanın xarici ölkələrə ötürülməsi prinsiplərinin işlənib hazırlanmasını böyük siyasi fəaliyyət sahəsi, dövlətin qətiyyətli mövqeyini bildirmək imkanı kimi başa düşürdü. Qarabağ həqiqətlərinin çatdırılması onun siyasət fəlsəfəsində yüksək mənəvi vətəndaşlıq borcu kimi aşılanır. Bununla belə o, çox haqlı olaraq deyirdi ki, informasiya blokadasından çıxmaq üçün hələ çox iş görülməlidir: «Biz çox çalışmalıyıq ki, dünyanın hər bir yerində Azərbaycanı layiqincə tanısınlar, sülhsevər xalqımızın tarixini, nailiyyətlərini,

əxlaqi-intellektual keyfiyyətlərinin dəyərlərinin mahiyyətinə varsınlar». Ulu Öndər, Azərbaycanın layiqli beynəlxalq münasibətlər subyekti kimi tanınmasını özünün diplomatik fəaliyyətinin başlıca qayəsi hesab etmiş, bu işdə informasiya mədəniyyətinin rolunu xüsusilə vurğulamışdı.

Heydər Əliyev özünün siyasət fəlsəfəsində Azərbaycan gənclərinin intellektual səviyyəsinin artırılmasına xüsusi diqqət verilməsini dəfələrlə qeyd etmiş, bunsuz qətiyyətli siyasətçi yetişdirməyin, siyasi elitanı formalaşdırmağı mümkün olmadığını bildirmişdi. Milli əhəmiyyətli işlərin həyata keçirilməsində isə məhz əxlaqi keyfiyyətlərə söykənən siyasi qətiyyət tələb olunurdu. Belə olmasa, dövlət əhəmiyyətli strukturlara təsadüfi adamlar, ciddi dövlət işlərini öz üzərinə götürmək iqtidarı olmayanlar soxula bilərdilər. İstedadlı, bacarıqlı, dəyərli kadrların qorunmasının, onlardan dövlət işlərində istifadənin vacibliyini daim xüsusi vurğulayan Ulu Öndər deyirdi ki, biz Azərbaycanın parlaq gələcəyini belə gənclərin fəaliyyəti ilə bağlayırıq. Ona görə də, istedadlı, bacarıqlı, dəyərli kadrları qorumaq, bununla da gələcək elitanın layiqli bazasını formalaşdırmaq üçün onlara kömək etmək, onları irəli çəkmək lazımdır. Güclü kadr ehtiyatı yaratmaq üçün isə bu işdə proteksionizmə yol verilməməlidir. Onun fikrincə, Azərbaycan gənclərinin intellektual səviyyəsi ölkəmizin aktual sosial-siyasi problemlərinin uğurlu həlli üçün çox gözəl örnək idi. Yalnız bu işdə dövlət strukturları, hakimiyyət ciddi siyasi addımlar artmalıydı.

Siyasi elitada qətiyyət keyfiyyətinin formalaşmasında mühüm dəyər həm də islam dininin təbliği və qorunmasıdır. Heydər Əliyev siyasət fəlsəfəsində buna mühüm yer ayırıb o, təkidlə bildirirdi ki, dinimizə qara ləkə vuranların, şər qüvvələrin cəmiyyətdə ayaq açmasına yol verilməməlidir. İslamın təhriflərdən qorunması və ağıllı təbliği bizim doğma işimiz olmalı, dövlət strukturları bu işdə kütləsləri islamın əsl dəyərləri ətrafında səfərbər etməlidir. O, həmişə qeyd edirdi ki, siyasətlə məşğul olanlar islam dinini azərbaycançılıq ideyasının ayrılmaz elementi kimi

başa düşməlidirlər. Buna görə də islam dininin tədris olunmasını günün mühüm tələblərindən biri kimi qiymətləndirən Heydər Əliyev ayrı-ayrı şəxslərin və qüvvələrin öz şəxsi mənafelərini güdərək islam dininin pərdəsi altında çıxış etmələrini pisləyirdi.

Biz arxeoloq Əsədulla Cəfərovun «Heydər Əliyev və Azərbaycanda arxeologiya elminin inkişafı» adlı məqaləsində 1970-ci illərin ortalarında qədim paytaxt şəhəri Qəbələnin məhv olmaq təhlükəsini aradan qaldırmaqla bağlı Tarix İnstitutunun direktoru, akademik İqrar Əliyevin o vaxt Azərbaycan KP MK-nın I katibi işləyən Heydər Əliyevə məlumat verməsini, sonra Ulu Öndərin nüfuzu və dəmir məntiqi sayəsində qədim Qəbələdəki tarixi abidələrin məhv olmaq təhlükəsindən xilas edilməsi barədə yazını xatırlatmışdıq.

Azərbaycan SSR-in rəhbəri Heydər Əliyev bu məsələ ilə bağlı qəti addımlar atandan sonra qədim Qəbələ üzərində qurulmuş bütün qurğular sökülərək, tarixi abidədən uzaqlaşdırılmış, Azərbaycan xalqının dövlətçilik abidəsi olan Qəbələ şəhəri xilas edilmişdi.

Bu hadisə sovet dövründə yüksək rütbəli şəxs tərəfindən siyasi qətiyyətin bariz nümunəsi idi. Heydər Əliyevin siyasi qətiyyətli bu addımı Azərbaycan tarixçilərində milli vətənpərvərlik hissini daha da artırmışdı.

Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev muxtar respublikada fəaliyyət göstərən, bir sıra hallarda hərbi intizamı kobudcasına pozan və özbaşına hərəkətlər edən sovet hərbi hissələrinin zabit və əsgərlərinin gələcəkdə baş verə biləcək hər hansı xoşagəlməz təxribatlarının qarşısını almaq məsələsində də qətiyyət göstərmişdi. Naxçıvanda diviziya komandiri milliyətcə belarus, qərargah rəisi isə milliyətcə ukraynalı idi. Böyük siyasi nüfuza malik Heydər Əliyev həm Belarusiyanın prezidenti Şuşkeviçlə, həm də Ukraynanın prezidenti Kravçukla dialoqa girmiş, bu əsas iki hərbçinin – diviziya komandirinin və qərargah rəisinin həmin ölkələrdə uyğun vəzifələrə təyin olunmaları üçün hər ikisindən razılıq almış və rus-sovet ordusunun problemsiz, inti-

zamlı şəkildə Naxçıvandan yola salınmasını məharətlə planlaşdırmışdı.

Ulu Öndər orduda qulluq edən bir qrup digər millətlərdən olan əsgər və zabit analarını Naxçıvana dəvət etmiş və onlara başa salmışdı ki, artıq SSRİ dağılıb, Azərbaycan müstəqil respublikadır, ərazimizdə başqa millətlərdən olan əsgərlərin Azərbaycan sərhədlərini qoruması məntiqə sığmaz. Azərbaycanlı əsgərlər özləri vətənimizin sərhədlərini qorumağa qadirdirlər. Heydər Əliyev onlara Qars müqaviləsi ilə yanaşı, digər beynəlxalq müqavilələrin hüquqi qüvvəsini və mahiyyətini də başa salmışdı. Analardan xahiş etmişdi ki, həqiqətləri komandir, zabit, əsgər oğullarına da çatdırsınlar.

Analar hərbi hissələrdə həqiqətləri öz övladlarına başa salmışdılar və onları heç bir insident olmadan Naxçıvanı tərk etməyə inandırmışdılar. Bu problemlər sırf etik normalar əsasında həyata keçirilmiş, nəticədə zirehli texnikanı, silahları Naxçıvanda qoyub getmək şərti ilə danışıqlar uğurla başa çatdırılmışdı.

Bir maraqlı məsələ də diqqəti cəlb edir: analar missiyalarını başa çatdırandan sonra bir xahiş etmişdilər: hər biri ayrılıqda Heydər Əliyevlə şəkil çəkdirmək istəyir. Ulu Öndər onların bu arzusunu dərhal gerçəkləşdirmiş, şəkilləri çıxartdıraraq yola düşməmiş hamısına çatdırmışdı. Sonda isə onları hörmət- izzətlə yola salmışdı. Bir sözlə, bütün xərclər Heydər Əliyev tərəfindən ödənilmişdi. Siyasi qətiyyətin və ağıllı diplomatiyanın bariz nümunəsi məhz budur. Bu, Heydər Əliyevin bütün nəsillərə örnək olacaq əsl siyasi qətiyyətidir.

Naxçıvan ordusu qərargahının yerləşdiyi indiki ərazidə böyük mitinq keçiriərkən həmin mitinqdə Heydər Əliyev və diviziya komandiri vida çıxışı etmişdilər. Heydər Əliyev çıxış edən zaman AXCP, Müsavat üzvləri hay-küy salmaqla onun çıxışını pozmaq istəyiblər. Amma o, qətiyyəti, səbri ilə çıxışını pozmaq istəyənləri natiqliyi sayəsində susdurub, nitqinin ortasında artıq sakitlik çöküb. Çünki Heydər Əliyevin əsl məramının nə olduğu bütün detalları ilə hamıya çatıb, mitinqdə iştirak edən minlərlə insan onu alqışlamağa başlayıb.

Həmin gün heç kimin ağlına gəlmirdi ki, keçmiş Sovet İttifaqında çox böyük bir hadisə baş verir: ilk dəfə olaraq sovet ordusu bir respublikadan çıxarılır. Bir gilizi belə rus-sovet ordusu özü ilə apara bilmədi. Göründüyü kimi, Ulu Öndər xalqın və dövlətin mənafelərinin müdafiə olunmasında daima qətiyyət nümayiş etdirmiş, bu keyfiyyəti ilə gənc siyasətçilərə parlaq nümunə olmuşdur.

9 dekabr 1996-cı ildə Təzəpir məscidindəki çıxışında «Respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün xalqımız daha da sıx birləşməlidir, həmrəy olmalıdır, millətimiz bir olmalıdır..» tezisini irəli sürərkən o, bu işdə islam dininin həmrəyliyini uca tutmağın əhəmiyyətini qeyd edib. Həqiqətən də islam həm humanizmi, həm də etiqadda qətiyyətli olmağı təbliğ edir.

«Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmlənməsi naminə, respublikamızın ərazi bütövlüyünün bərpa olunması naminə, işğal edilmiş torpaqlarımızdakı Ermənistan silahlı qüvvələrinin çıxarılması və bu torpaqların azad olunması naminə hamınızı birliyə, həmrəyliyə dəvət edirəm» – bu qətiyyətli ifadələrdə Heydər Əliyevin siyasi fəlsəfəsindəki milli həmrəylik, sağlam birlik konsepsiyasının ruhu duyulur.

Onu da qeyd etmək vacibdir ki, belə siyasi qətiyyəti Ulu Öndər hələ sovet dövrü fəaliyyətində də nümayiş etdirmişdir. Bir neçə nümunəyə nəzər salaq.

Müasir Azərbaycanda milli elitanın formalaşmasının öz spesifikası vardır. Politoloji ədəbiyyatda bu prosesin üç mərhələsini göstərirlər. Ötən əsrin 70-ci illərində, Heydər Əliyevin təşəbbüsü ilə minlərlə gənc azərbaycanlı təhsil almaq üçün Sovet İttifaqının müxtəlif şəhərlərinə göndəriləndə, o dövrdə ölkəmizin təsərrüfat-iqtisadi, mədəni, yaradıcı, hərbi, siyasi elitasının formalaşmasına böyük ehtiyac duyulurdu. O dövrdə sovet rejiminin qeyri-rus xalqlarına münasibəti baxımından bu məqsədlə qəbul edilən qərarlar siyasi-ideoloji çətinliklərlə üzləşirdi. Məhz Heydər Əliyevin yaxından iştirakı ilə qəbul edilən siyasi əhəmiyyətli qərarlar kadrların yetişdirilməsi, rotasiyası, əvəzlənməsi və dövlət qulluğunda

işə yeni, intellektual və bacarıqlı gənclərin cəlb olunması prosesinə təkan vermişdi.

Siyasət meydanında ilk addımlarını atan hər bir azərbaycanlı kadra milli dəyər kimi yanaşan Heydər Əliyevin xidmətlərindən biri də onun bizim gənclərin orduda xidmət etdikləri vaxt, onların əsasən, tikinti hissələrinə və ya yardımçı işlərə göndərilməsi «ənənəsinə» son qoyması oldu. Azərbaycanlılar arasından müxtəlif qoşun növləri üçün zabitlər hazırlanmasına o, yalnız qətiyyətli mövqeyi sayəsində nail ola bilmişdi.

Sovet Azərbaycanında ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq Heydər Əliyevin fəaliyyətində kadr siyasəti çox mühüm bir istiqamət olmuşdu. Dövrün siyasi idarəçilik xarakterinə uyğun keçmiş komsomol və məsul partiya işçiləri özlərinin bilik və təcrübələri çərçivəsində Azərbaycanda ən yüksək vəzifələrə irəli çəkilmiş və sonralar siyasi elitanın əsas özəyini təşkil etmişdilər. Biz bununla heç də devrilmiş sovet rejiminin üstünlüyünü qeyd etmək niyyətində deyilik. Əksinə, Sovet Azərbaycanı rəhbərliyinin müdrikliyi bunda idi ki, o, dövrün xüsusiyyətlərindən çıxış edərək idarəçilərin yeni elitasının yaradılması üçün zaman kəsiyinin keçilməsinin və Azərbaycan gənclərinin – gələcəyin milli elitasının nümayəndələrinin intellektual səviyyəsinin artırılmasına yönəlmiş bir sıra idarəçilik prinsiplərinin təkmilləşdirilməsinin vacibliyini başa düşürdü.

1987-ci ilin axırlarında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini vəzifəsindən kənarlaşdırılandan sonra kadr siyasətində əldə edilmiş pozitiv təcrübəyə biganə yanaşıldı. Kremlin elitası ilə Azərbaycan hakimiyyətinin əvvəlki əlaqələri qırıldı. Bizcə, məsələnin belə konfliktli vəziyyətə düşməsi əvvəlki hakimiyyətin siyasi təfəkkürünün zəifliyi və bu fenomenin dövlətçiliyin yaradılması və idarə edilməsi üçün həddindən artıq vacib olmasının başa düşülməməsi ilə bağlı idi.

Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan hökumətinin kadr siyasəti cəmiyyətin inkişaf təkamülünün müəyyən edilməsinə simmetrik yanaşmaya əsaslanır. Başqa sözlə desək,

kadrların yeni, intellektual və müstəqil düşüncəli insanlarla əvəz edilməsinin təkamül xarakteri əvvəlki nəsillərin ənənələrinin və təcrübəsinin qəbul olunması, onlara hörmət edilməsi, müasir inkişafın və postmodernist məntiqin tələblərinə uyğun olaraq yenilik gətirən ideyaların tətbiq edilməsi prinsipi əsasında qurulur. Artıq danılmaz faktdır ki, vərdiş olunmuş normaları bir anda dəyişmək mümkün deyildir. Belə bir transformasiya üçün vaxt və qüvvə, dövlətin və cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsində dövrün siyasi reallıqlarının nəzərə alınması tələb olunur.

Bu gün humanitar ədəbiyyatda ölkəmizin innovasiyalı inkişafına keçidin zəruriliyi məsələsi çox ciddi problem kimi ortaya qoyulmuşdur. Bu kontekstdə insan kapitalının reallaşdırılmasına, ümumi rifah səviyyəsini təkmilləşdirmək məqsədi ilə insanların potensial imkanlarından səmərəli istifadəyə əsaslanan strategiyanın işlənib hazırlanmasına ehtiyac duyulur. Belə qərarları qəbul etmək səlahiyyətinə malik müasir hakim elitanın üzərinə düşən vəzifə kontekstində XXI əsrdə innovasiyalı inkişaf prosesi iki istiqamətdə başa düşülür: innovasiya layihələrini reallaşdırmaq və innovasiya potensialının inkişafı. Cəmiyyətdə innovasiya mədəniyyətinin istənilən səviyyədə olmaması innovasiya durğunluğu kimi arzuedilməz vəziyyət yaratmışdır. Hər cür innovasiya inkişafı yalnız əsas innovasiya prosesi deyil, həmçinin onun həyata keçirilməsi üçün vacib olan faktorlar və şəraitin inkişafıdır, yəni innovasiya prosesinin inkişafıdır. Ölkəmizdə innovasiyanın başlıca funksiyası Azərbaycanın siyasi, iqtisadi və sosiomədəni institutlarını modernləşdirməkdən ibarətdir. Özü də bu proses bütün sahələrdə kompleks yanaşma nəzərə alınmaqla getməlidir. Bilməliyik ki, Azərbaycanın ən cəlbedci ölkəyə çevrilə bilmək potensialı var və çevrilməlidir. Elitanı bu gün təmsil edən və onu sabah təmsil edəcək insanların məsuliyyətinin mahiyyəti bundan ibarətdir.

Əgər, azad insanın inkişafı dövlətimizin qəti prioritetidirsə, deməli, gənc nəslin təhsil səviyyəsinin artırılması millətin özünü qoruyub saxlamasının və təkmilləşdirməsinin vacib şərtidir. Bizcə, başlıca amil gənc, kreativ və intellektual insanların istedadından

istifadə edilməsi, dövlətin innovasiyalı inkişafının və həyata keçirilən siyasətin varisliyinin təmin edilməsi qabiliyyətidir. Ona görə də, milli təhsil sistemi müasir dövrün tələblərini və standartlarını, yeni nəslin yetişdirilməsinə və tərbiyə olunmasına zəruri olan bilikləri və texnologiyaları, dünyada cərəyan edən ümumi meyillərə müvafiq olan metodları əhatə etməlidir. Bilməliyik ki, gənc insanın yaradıcı zəkası və intellekti ona başqalarından fərqlənmək, öz potensialını cəmiyyətin səadəti naminə reallaşdırmaq imkanı verir.

Yalnız belə yanaşıldıqda ölkədə yeni hakim elitanın və əks elitanın formalaşmasına şərait yarana bilər. Çünki aydın məsələdir ki, Azərbaycan cəmiyyətində baş verən transformasiya prosesləri şəraitində elitanın strukturlaşması perspektivdə indiki elitanı əvəz etməli olan gələcək nəsillər üçün baza yaradır. Sabah milli elitanı təmsil edəcək insanlar arasında, məsələn, Prezident İlham Əliyevin təşəbbüsü ilə bu gün xaricdə təhsil alan və ya gələcəkdə təhsil almağa göndəriləcək 5000 gəncin bir qismini də görəcəyik. Ona görə də, ölkə Prezidenti bu nəcib işə rəvac verərək, yeni siyasi, iqtisadi, mədəni, intellektual elitanın formalaşmasının Azərbaycanın sivilizasiyalı gələcəyi üçün vacibliyini və aktuallığını nəzərə almışdır.

Prezident İlham Əliyevin milli idealının əsasında belə bir nəcib məqsəd durur: Azərbaycan elə bir sosiomədəni məkana çevrilməlidir ki, burada hər bir azərbaycanlı özünün inkişafı üçün imkanlarını və arzularını reallaşdıra bilsin. Lakin biz heç də cənnət yaratmaq xülyasında olmasaq da, reallıqlarımızdan çıxış edərək dərk etməliyik ki, fərdin özünü yalnız peşəkar və yaradıcı baxımdan reallaşdırması, prinsipial məsələlərdə özünə sağlam tənqidi mövqedən yanaşması istedadlı gəncin siyasətə qoşulmasında mühüm addımdır.

Dövlət qulluğunda çalışan təcrübəli kadrlar etiraf edirlər ki, Prezident Adminstrasiyasında rəhbər strukturlarda işləməyə başlayanlar 26–36 yaşlarında cavanlardır. Onlar üçün dövlət işi Qərbin transmilli korporasiyaları ilə orta və ya uzunmüddətli

müqavilədən daha maraqlıdır. Prezident İlham Əliyev öz qabiliyyətini xarici şirkətlərdə sınayan insanların istedadına qayğı ilə yanaşmağı, gənclərimizi dövlət idarəçiliyi işinə hazırlamağı öz konsepsiyasında ön plana çəkir. Onun fikrincə, sağlam ambisiyalı gənclərin özlərindən yaşca böyük və daha təcrübəli olanlarla rəqabət aparmaq istəyini idarəçilik baxımından düzgün qiymətləndirmək lazımdır. Bu cür gənclər dövlət qulluğuna təzə, faydalı yeniliklər gətirə bilər. İdarəçilikdə məhz belə gənclərə arxalanmaqla, biz inkişafımıza mane olan çox əngəlləri aradan qaldıra bilərik. Dövlətimizin gələcəyi üçün belə gənclər nəinki örnək ola, hətta sağlam elitanın özəyi statusuna yiyələnə bilərlər.

Milli elitanın əsas missiyası dövlət müstəqilliyini, mədəni-tarixi dəyərləri, cəmiyyətin milli identikliyini qoruyub saxlamaqdan ibarətdir. Bütün bunlar yalnız o zaman mümkün ola bilər ki, milli elita öz millətini dünyadakı inkişaf mərhələsinə uyğun olan iqtisadi, sosial və hərbi-siyasi mövqelərlə təmin edə bilsin. Elitanın fəaliyyətinin əsas mənasını, onun amalını millət və dövlət qarşısında məsuliyyət kimi ifadə etmək olar.

Qloballaşma prosesləri dünyamızın mənzərəsini sürətlə dəyişdirir. Bu şəraitdə dinamik qlobal transformasiyaların mahiyyətini dərk edərək qlobal düşünüb, lokal hərəkət edən kreativ insanların rolu daha real əhəmiyyət kəsb edir. Eyni zamanda, nəzərə alınmalıdır ki, yeni idarəçilərin keyfiyyəti zamanın tələbləri və dərin qloballaşma, postsənaye dəyərlərinin gözə görünməyən təzyiqi şəraitində sürətlə inkişaf etməkdə olan yüksək texnologiyaların meyarları ilə ayaqlaşmalıdır.

Bəşəriyyətin tarixi təcrübəsi göstərir ki, müxtəlif dövrlərdə elitanın rolu cəmiyyətin vəziyyətini, onun transformasiya dinamikasını müəyyənləşdirib. Bir daha aydın olub ki, cəmiyyətin daxili və xarici dəyişikliklərinin əsas istiqamətləri elitanın fəaliyyəti, intellekti ilə bağlıdır. 1993-cü ildən 2003-cü ilə qədər milli elitanın rolu ölkədə xaosu aradan qaldırmaq, onu parçalanmaqdan qorumaq məqsədi ilə mürəkkəb, qeyri-standart qərarlar qəbul etməkdən, milli inkişaf strategiyasını işləyib hazırlamaqdan,

sabitliyə nail olmaqdan, ümumi maliyyə böhranını aradan qaldırmaqdan, asayişi və qanunçuluğu bərpa etməkdən, ölkənin idarə olunmasında dövlət institutlarının rolunu artırmaqdan, cəmiyyətin sosial-siyasi həmrəyliyini təmin etməkdən ibarət idisə, bu gün elitanın missiyası yeni tələblər irəli sürən şəraitin ümumi mənzərəsindən çıxış edərək əhəmiyyətli dərəcədə yeniləşmiş, transformasiya etmişdir. Buna müvafiq olaraq, o dövrdə təkcə siyasi elitanın deyil, bütövlükdə milli elitanın formalaşması da məhz xalqımızı və ziyalılarımızı düşündürən məsul vəzifələrin həlli nəzərə alınmaqla baş verir, bunun üçün gərgin düşüncə, siyasi iradə, çeviklik, həssaslıq, yüksək məsuliyyət hissi, müdriklik və istedad tələb olunurdu. Bütün bunlar müstəqil dövlətin qurulması strategiyasını düzgün müəyyənləşdirməyə və dövlətçiliyin möhkəmləndirilməsini təmin edən səmərəli institusional bazanın təməlini qoymağa imkan verirdi. Bu, dialektik bir proses idi.

Ölkəmizin bu mürəkkəb tarixi dövrü yeni ziyalı nəslinin düşüncə obyekti olmuşdu. Təkcə daxili deyil, həm də xarici xarakterli bir sıra ciddi problemləri, həmçinin iqtisadi inkişafın çatışmazlıqlarını və sosiomədəni transformasiyanın çətinliklərini nəzərə almaq vacib idi. Belə ki, Azərbaycan cəmiyyəti bir sıra siyasi, iqtisadi və sosiomədəni problemlər kontekstində transformasiya proseslərinə hazır olmaması faktı ilə üzləşdi. Cəmiyyətimiz çoxdan can atdığı müstəqilliyə nail olmuş, lakin müstəqillik suveren inkişafın başqa amillərini üzə çıxarmışdı. Hakimiyyətin prosesləri idarə etməyə qabil olan səmərəli dövlət idarəçiliyi sistemini yaratmaq, yaxud qondarma «demokratikləşmə»nin cəmiyyət daxilində qarşılıqlı münasibət prinsiplərinin müəyyənləşməsi üçün mümkün variantları arasında seçim etmək lazım gəlirdi. Bəzi dövlətlərin təcrübəsi göstərir ki, müstəqil dövlətçiliyin təşəkkülü dövrlərində mərkəzləşmiş və güclü hakimiyyətin olmaması mərkəzdənqaçan qüvvələrin fəallaşmasına şərait yaradır, bunun da nəticəsində hakimiyyətin nüfuzu və dövlətin imici itirilir. Məhz buna görə də ötən əsrin 90-cı illərində – Heydər Əliyevin hakimiyyəti dövründə ölkənin ali idarəedici təbəqəsini təmsil

edən elita bütünlüklə dövlət hakimiyyətinin bərpasına, dövlətə zidd silahlı qruplaşmalara, hakimiyyətsizlik, anarxiya və özbaşınalıq dövrünün mənfi nəticələrinə qarşı mübarizəyə səfərbər edilmişdi.

Azərbaycanda hakim elita başa düşürdü ki, ölkədə bir neçə il davam etmiş anarxiya və ixtilaflar dövründən sonra inkişaf vektorunu tez bir zamanda kökündən dəyişmək, bütün siyasətçilər tez bir vaxtda başqaları ilə əvəz etmək olduqca çətin işdir. Yeni təfəkkürlü, qabiliyyətli və peşəkar kadrların idarəetmə sisteminə mərhələlərlə cəlb edilməsi ilə məşğul olmaq lazım idi. R.Mehdiyev düzgün olaraq qeyd edib ki, buna görə də tələsməmək, əvvəlki iqtidarın vəzifəyə təyin etdiyi bir sıra şəxslərə «möhlət vermək» və onların əslində kim olduqlarını cəmiyyətə göstərmək üçün tələsmədən hərəkət etmək lazım gəlirdi. O dövrdə elitanın bütün qrupları başa düşmürdü ki, vətəndaşların səbri tükənməz deyil və bu şəraitdə cəmiyyət həmin qruplar arasında gedən «tayfalararası dava» kimi problemli bir dövrdən keçməli idi.

Heydər Əliyevin kadr təyinatına, kadr seçiminə nə qədər diqqətlə yanaşmasını onunla sıx təmasda olan elita nümayəndələri yaxşı bilirlər. Onun kadr siyasəti dövlətçiliyin formalaşmasının başlanğıc mərhələsində vəzifəyə yeni təyin olunanların səmərəli işini təşkil etməyə, eyni zamanda kadr ehtiyatı perspektivləri barədə düşünməyə imkan verirdi. Lakin təcrübə bunu da göstərirdi ki, kadrların heç də hamısı hakimiyyət sınağından uğurla çıxmır, tələblərə cavab vermir və qarşılarında qoyulan vəzifələri səmərəli şəkildə yerinə yetirə bilmirlər. Hər halda bu və ya digər vəzifədə çalışarkən öz işində kobud nöqsanlara və səhvlərə yol verənlərin adları ictimaiyyətə məlumdur. İnsanın özü fəlsəfi baxımdan mürəkkəb sosiomədəni sistemdir, ona görə də təəssüf ki, onu bütünlüklə tanımaq asan məsələ deyildir. Bütün bunlara baxmayaraq, kadr siyasətinin mahiyyəti obyektiv olaraq Azərbaycan cəmiyyətinin inkişaf dinamikasına cavab verməyənləri üzə çıxarmaqdan, onları yeni, daha bacarıqlı və bilikli kadrlarla əvəz etməkdən ibarət idi.

Heydər Əliyevin hakimiyyəti illərində – bu isə bir epoxadır – siyasi elitanın təkamülü kadrlarda dövlətçilik təfəkkürünün gücləndirilməsi meyli ilə səciyyələnirdi. Eyni zamanda onun məqsədi bütün cəmiyyətin birliyinə nail olmaq idi. Qloballaşma əsrində nütuzlu dövlət hakimiyyəti sistemi qurmaq üçün ilk növbədə təsirli idarəetmə mexanizminin təməlini qoymaq, qarşıdakı islahatların və dəyişikliklərin institusional bazisini yaratmaq, cəmiyyətin inkişaf strukturunu formalaşdırmaq və təkmilləşdirmək ön plana çəkilmişdi. Başqa sözlə, Prezidentin təyin etdiyi məsul işçilərin siyasi uzunömürlülüyü, onun komandasının fəaliyyət səmərəliliyi qarşıda duran vəzifələri düzgün təyin etmək və bacarıqlı komanda seçmək səriştəsindən asılı idi. Bu kontekstdə dövlətçiliyin möhkəmləndirilməsinin artıq növbəti mərhələsində obyektiv olaraq kadr təyinatlarının keyfiyyət probleminin həllinə olan tələblər daha da artmışdı.

Müstəqillik əldə edildikdən sonra Sovet dövründə Heydər Əliyevlə çiyin-çiyinə işləyənlərlə yanaşı, yeni dövrün gənc və intellektual, nümayəndələrinə də yeni dövlətçiliyin qurulmasında iştirak etmək imkanı verilmişdi. Bəzən qeyri-populyar qərarlar qəbul etməyin vacib olduğu yeni şəraitdə həmin gənclərin çoxu sınaqlardan bacarıqla çıxdılar.

Ötən əsrin 70-ci illərində olduğu kimi, 90-cı illərinin ortalarında da Heydər Əliyevin idarəçilik sistemində kadr dəyişiklikləri və təyinatlar başlananda ilk növbədə vicdanlılığı və dövlətçilik ideyalarına sədaqəti şübhə doğurmayan insanlara ehtiyac duyulmuşdu. O dövrdə, heç kəs və heç vaxt hakimiyyətdə olanlara sədaqət barədə danışmırdı, halbuki, dövlət strukturlarında çalışanlar üçün ləyaqət və loyallıq həmişə prioritet məsələ olmuşdur. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə və bu gün – İlham Əliyevin Prezidentliyi dövründə dövlətçilik etikası üçün vacib olan əsas keyfiyyətlərə – dövlətçiliyə, Vətənə sədaqət, əməksevərlik, məsuliyyət, təşəbbüskarlıq və təvazökarlıq və s. kimi etik-əxlaqi keyfiyyətlərə üstünlük verilib və bu gün də verilir.

## *3.5. Diaspor məsələsi: diaspor elitamızın milli dəyəri kimi*

Heydər Əliyevin siyasət fəlsəfəsinin mahiyyətinə vararkən hiss edilir ki, onun başlıca idealı insana verilən dəyərdir. Deməliyik ki, Azərbaycan diasporu fenomeni onun insan fəlsəfəsinin ayrılmaz elementi kimi götürülməlidir. O, hər bir azərbaycanlının prezidenti kimi xaricdəki həmvətənlərimizin də təşkilatlanması üçün böyük səy göstərmişdir. Məlumdur ki, Azərbaycan Respublikası da daxil olmaqla dünyanın 70-dək ölkəsində təqribən 50 milyona yaxın azərbaycanlı yaşayır. Tarixi ərazilərdə yaşayan, hər hansı mühacirət faktı baş vermədən, yalnız müəyyən ictimai-siyasi hadisələrin gedişində yaranan sərhəd dəyişmələri nəticəsində xarici ölkə vətəndaşlarına çevrilmiş həmvətənlərimiz – İranda, Gürcüstanda və Rusiya Federasiyasının Azərbaycanla həmsərhəd rayonlarında yaşayan etnik azərbaycanlılar diaspor hesab olunmur. Dünyanın digər ərazilərinə – Amerika qitəsinə (1300000 nəfər), Avropa qitəsinə (1500000 nəfər), Afrika qitəsinə (1200000 nəfər), Asiya qitəsinə (3250000 nəfər), Türkiyəyə (3000000 nəfər), Avstraliya qitəsinə və Okeaniyaya (10000 nəfər) müxtəlif zamanlarda köç etmiş soydaşlarımızın sayı 10 milyondan artıqdır və bu rəqəm ekspertlərin rəyinə görə, Azərbaycan diasporunun ümumi sayı kimi qəbul edilə bilər.

Müəyyən ictimai-siyasi, iqtisadi-sosial və digər səbəblər nəticəsində tarixi-etnik ərazilərindən kənara zorla, yaxud könüllü mühacirət edərək xaricdə kompakt icma halında yaşayan, milli-mədəni mənsubiyyətini qoruyub saxlayaraq və inkişaf etdirən, tarixi vətəni ilə mütəmadi əlaqələr quran həmvətənlər, həmçinin dil, din, mənəvi-mədəni dəyərlərə bağlılıq baxımından özünü azərbaycanlı sayan şəxslər Azərbaycan diasporunu təşkil edir. Azərbaycan diasporu xalqımızın milli tarixinin ayrılmaz hissəsidir. Xüsusilə qeyd etməliyik ki, Heydər Əliyev Azərbaycan diasporunun tarixini çox gözəl bilir, daim onun fəaliyyəti ilə maraqlanırdı.

Azərbaycan diasporunun təşəkkülü, formalaşması və inkişaf tarixi bilavasitə xalqın mühacirət tarixi ilə bağlıdır. Azərbaycanlıların xarici ölkələrə mühacirəti tarixən qədim köklərə malik olsa da, sistemli şəkildə bu proses XIX əsrin birinci yarısındakı siyasi-hərbi münaqişələr, İran-Rusiya müharibələri, Qafqaz regionundakı məcburi miqrasiya prosesləri ilə bağlıdır. 1929-cu ildə Türkmənçay müqaviləsindən sonra tarixi Azərbaycan ərazilərinin Araz çayı boyunca iki yerə parçalanması, Şimali Azərbaycan xanlıqlarının çar Rusiyası təbəəliyini qəbul edərək vahid inzibati-ərazi bölgüsü halında birləşməsi, bir tərəfdən xalqın təmərküzləşməsi prosesinə təkan vermişdisə, digər tərəfdən çarizmin siyasətindən narazı qalanların xarici ölkələrə kütləvi mühacirəti ilə nəticələnmişdi. XIX əsrdə ayrı-ayrı azərbaycanlıların imperiya mərkəzinə könüllü mühacirəti də baş vermişdi. Bu əsrdə Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Mirzə Əbuturab Vəzirov, Xan Naxçıvanski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və b. tanınmış azərbaycanlılar Rusiyanın elm, mədəniyyət, xarici siyasət və digər sahələrində çalışmaqla dövlətin iqtisadi, siyasi, hərbi qüdrətinin artmasına yardım göstərmişdilər.

XX əsrdə azərbaycanlıların xarici ölkələrə mühacirəti intensiv xarakter almışdı. Bu müddət ərzində baş vermiş iki dünya müharibəsi, istər Şimali, istərsə də Cənubi Azərbaycanın daxil olduğu metropoliyalarda köklü ictimai-siyasi dəyişikliklər, sosial inqilablar həmvətənlərimizin növbəti dəfə xaricə kütləvi köç etmələri ilə nəticələnmişdi. Bu köç əsrin sonlarında Azərbaycanın müstəqil dövlətçilik ənənələrini bərpa etməsi zamanınadək aşağıda adı çəkilən mərhələlərlə həyata keçmişdir:

a) 1905–1907-ci illər Birinci Rus inqilabı və Cənubi Azərbaycanda Səttərxan hərəkatı;
b) Birinci Dünya müharibəsi, 1918–1920-ci illər AXC-nin yaranması və süqutu, Cənubi Azərbaycanda Xiyabani inqilabı;
c) İkinci Dünya müharibəsi; Cənubi Azərbaycanda 1945–1946-cı illərdə Azərbaycan Milli Hökumətinin yaranması və süqutu;

ç) 1970–1980-ci illərdə keçmiş Sovet Azərbaycanından digər ittifaq respublikalarına könüllü miqrasiya, 1979-cu ildə İran İslam inqilabı nəticəsində Cənubi Azərbaycandan əsasən Avropaya siyasi miqrasiya;

d) Türkiyədə yaşayan azərbaycanlıların 1950–1960-cı illərdə Avropaya iqtisadi miqrasiyası.

AXC-nin süqutundan sonra Azərbaycandan Türkiyə Cümhuriyyətinə mühacir axını kəskin artaraq 50 mini ötmüşdü.

Xaricdə siyasi mühacirətin əsas hissəsini təşkil edən şəxslərin (M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, M.Məmmədzadə, C.Hacıbəyli, M.Vəkilov, Ə.Ağayev, S.Ağaoğlu, Ə.Hüseynzadə, X.P.Sultanov, Ş.Rüstəmbəyov, M.S.Aran, K.Odər, Ə.Şeyxülislamov, N.Şeyxzamanlı və b.) məqsədyönlü ictimai fəaliyyətləri o dövrədək müxtəlif vaxtlarda vətəndən mühacirət etmiş digər azərbaycanlıların fəaliyyətlərindən əsaslı fərqlənirdi. XX əsrin 20-ci illərindən xaricdə nəşr olunan Azərbaycan diasporunun ilk mətbu orqanları – «Yeni Qafqaziya» (1923, İstanbul), «Azəri–Türk» (1928–1931, İstanbul), «Odlu Yurd» (1929–1930, İstanbul), «Bildiriş» (1929–1931, İstanbul), «İstiqlal» (1932–1934, Berlin), «Qurtuluş» (1934, Berlin), «Azərbaycan» (1952, Ankara) kimi qəzet və jurnallar, bundan əvvəl qonşu ölkələrdə azərbaycanlıların nəşr etdirdikləri «Əxtər (1875–1995, İstanbul), «Şahsevən» (1988, Təbriz), «Şəms» (1899–1920, Təbriz), «Fikri-İstiqbal» (1910, İstanbul), «Bürhani-Tərəqqi» (1906–1911, Həştərxan) «Millət» (1918, Simferopol), «Nur» (1906–1909, Sankt-Peterburq), «Kavə» (1915–1921, Berlin), «İranşəhr» (1921, Berlin) və digərlərindən fərqli olaraq sırf diaspor problemlərini, vətənin siyasi-ictimai, iqtisadi-sosial durumunu diqqət mərkəzinə çəkir, mətbuat vasitəsilə mühacirət həyatı yaşayan həmvətənləri vahid mərkəz ətrafında cəmləşdirməyə çalışırdı.

Xaricdə ilk mütəşəkkil milli icmaların meydana gəlməsi İkinci Dünya müharibəsindən sonrakı dövrə aiddir. 1949-cu ilin fevralında Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaradılmış «Azərbaycan Kültür

Dərnəyi» Azərbaycan diasporunun təşkilatlanması yönündə ilk addım olmuşdu. 1956-cı ildə təsis edilən «Azərbaycan-Amerika Cəmiyyəti» (AAC, qərargahı Nyu-Cersi ştatında yerləşir) Azərbaycan diasporunun nüfuzlu qurumlarından biri idi. Cəmiyyətin qurucusu və ilk sədri AXC-nin Milli Təhlükəsizlik naziri Nağı Şeyxzamanlınm qardaşı Saleh Şeyxzamanovdu. AAC Ermənistan-Azərbaycan münaqişəsi və digər ümummilli məsələlərdə həmişə prinsipial mövqe nümayiş etdirmiş, vətənin milli maraqları keşiyində durmuş, ABŞ-da erməni diasporu tərəfindən yayılan antiazərbaycan təbliğatına mane olmağa çalışmışdı. Bu gün də cəmiyyət fəaliyyətdədir. 28 May, Novruz kimi dövlət və milli bayramlar, Azərbaycanın işğal günü – 28 aprel, 20 Yanvar, Xocalı faciələri qeyd edilib. ABŞ-da Azərbaycanın milli maraqlarını müdafiə edən bu təşkilat Şuşanın işğalı günü – 2003-cü il mayın 8-də BMT qərargahı önündə möhtəşəm etiraz nümayişi keçirib. Etiraz aksiyasına minlərlə azərbaycanlı qatılıb. Cəmiyyətin sədri Amerika – Türk Assosiasiyaları Assambleyasının (ATAA) vitse-prezidenti, eyni zamanda, ATAA Nyu-York şöbəsinin rəhbəridir. AAC 2003-cü ilin dekabrında ATAA tərəfindən «ən çalışqan təşkilat» mükafatına layiq görülüb.

1987-ci ilin sonlarında erməni diasporunun fəal yardımı ilə Ermənistanın tarixi Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları ilə çıxış etməsi xaricdə yaşayan azərbaycanlıların da diaspor fəaliyyətinə təsir etmiş, bir sıra cəmiyyət və mədəniyyət mərkəzlərinin yaranmasına səbəb olmuşdu. Xüsusilə 1990-cı il 20 Yanvar faciəsindən sonra yaranan yeni diaspor təşkilatları fəaliyyətlərini daha da canlandırdılar.

Həmin illərdə xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərindən biri də Moskva şəhərində yaşayan ziyalılar, elm və mədəniyyət xadimlərinin təşəbbüsü ilə 1988-ci ildə əsası qoyulmuş «Ocaq» Mədəniyyət Mərkəzi idi. Cəmiyyətin üzvləri arasında 25 elmlər doktoru, 50-dən artıq elmlər namizədi, onlarla həkim, rəssam, mühəndis, inşaatçı, sahibkar vardı. «Ocaq» yarandığı gündən Azərbaycanın milli mənafelərini müdafiə

etməyi qarşısına məqsəd qoymuşdu. Moskva şəhərində mütəmadi keçirilən konfranslarda, simpoziumlarda cəmiyyət üzvləri – tarix elmləri doktoru, professor Saleh Əliyevin, tibb elmləri doktoru, professor Svetlana Qasımovanın, Rusiya Texniki Elmlər Akademiyasının həqiqi üzvü Əli Nəsibovun, fəlsəfə elmləri doktoru, professor Rafiq Qurbanovun və b. Azərbaycanın ərazi bütövlüyü, Qarabağ münaqişəsinin tarixi kökləri haqqında çıxışları o zamanlar yalnız erməni alimlərinə cavab vermək baxımından deyil, Rusiyada yaşayan Azərbaycan icmasının cəmiyyət halında birləşməsi, diaspor quruculuğu prosesinin fəallaşması baxımından da böyük əhəmiyyət kəsb edirdi. Bu fəaliyyətin ən mühüm cəhətlərindən biri həm də bu növ cavablarla dünya ictimaiyyətinin diqqətini Qarabağ probleminə cəlb etmək olmuşdu. Yaranmasından az sonra – 1988-ci il mayın 28-də «Ocaq» Azərbaycan Xalq Cümhuriyyətinin 70 illik yubileyini qeyd etmişdi. Tədbirdə Moskva şəhərində yaşayan azərbaycanlıların bir çox görkəmli nümayəndələri ilə yanaşı, digər millətlərin təmsilçiləri də iştirak etmişdilər.

«Ocaq» cəmiyyətinin «Çıraq» adlı mətbu orqanı da nəşr olunur.

Keçmiş SSRİ məkanında meydana gəlmiş Azərbaycan cəmiyyətləri sırasında ötən əsrin 80-cı illərində Baltikyanı ölkələrdə yaradılmış diaspor təşkilatları da fəaliyyət göstərir. Məsələn, Litva Respublikasında «Litva azərbaycanlıları cəmiyyəti» (1988, Vilnüs), Latviya Respublikasında «Azəri» cəmiyyəti (1988, Riqa) və Estoniya Respubikasında «Ocaq» icması (1988, Tallinn). Hər üç respublikada ümumilikdə 20 mindən artıq azərbaycanlı yaşayır. Onların əksəriyyəti ittifaqdaxili iqtisadi əlaqələr zəminində bu respublikalara miqrasiya etmişlər. «Azəri» cəmiyyətinin təşəbbüsü və təşkilati dəstəyi ilə 1990-cı ildə Bakı-Riqa incəsənət festivalı keçirilmişdir. 1990-cı il 20 Yanvar faciəsindən az sonra – fevralın 1-də 3 Baltikyanı ölkədə yaşayan azərbaycanlılar Vilnüs şəhərində matəm mərasimi təşkil etmişdilər. 1992-ci ildən Riqada Bazar günü məktəbləri fəaliyyət göstərir və burada azər-

baycanlı uşaqlar Azərbaycan dili və ədəbiyyatı, tariximizlə yaxından tanış olurlar.

«Azərbaycan Mədəniyyət Cəmiyyəti» (1990) Avstriyanın paytaxtı Vyanada təsis edilmişdir. Cəmiyyətin ilk sədri, doktor Əhməd Pənahi təşkilatın yarandığı ilk günlərdən tarixi vətənlə sıx əlaqələr yaratmağa çalışmış, «Vətən» cəmiyyəti ilə əməkdaşlıq münasibətləri qurmuşdur. Bunun nəticəsi olaraq, 1994-cü ildə Rəşid Behbudov adına Mahnı Teatrı Vyana şəhərində qastrol səfərində olmuşdur.

1990-cı il noyabrın 3-də İstanbul şəhərindəki Atatürk Kültür Mərkəzində Azərbaycan cəmiyyətlərinin beynəlxalq qurultayı keçirilmişdi. Qurultayın işində Azərbaycan nümayəndə heyəti, eyni zamanda xarici ölkələrdəki (İngiltərə, Almaniya, Fransa, İsveç, Norveç, İspaniya, Estoniya və s.) bir sıra Azərbaycan cəmiyyətlərinin təmsilçiləri iştirak etmişdilər. Bu, Azərbaycan diasporunun güclənməsi, vahid mərkəz ətrafında birləşməsi istiqamətində irəliyə doğru addım idi. Qurultayın gedişində İstanbul, Bakı və Hamburq şəhərlərində Azərbaycan diasporunun regional mərkəzlərini, Azərbaycan Mədəniyyət Mərkəzləri İttifaqını yaratmaq haqqında qərarlar qəbul edilmiş, diaspor quruculuğuna ümumi nəzarət məqsədilə Əlaqələndirmə Şurası təsis olunmuşdu. İstanbul qurultayından sonra – 1991-ci ilin yanvar ayında Azərbaycan SSR Nazirlər Kabineti «Ayrı-ayrı respublikalarda yaşayan azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, dilin və ənənələrin inkişafında onlara kömək göstərmək tədbirləri haqqında» xüsusi qərar qəbul etmişdir. Həmin ilin mart ayında respublikadan kənarda fəaliyyət göstərən Azərbaycan icmaları sədrlərinin iştirakı ilə Bakı şəhərində seminar, iyun ayında konfrans keçirilmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycan SSR-nin Mədəniyyət Nazirliyi xətti ilə Azərbaycan cəmiyyətlərinə bəzi maddi-texniki yardımlar göstərilmişdir.

1991-ci ildə Azərbaycan Respublikasının müstəqil dövlətçilik ənənələrini bərpa etməsi, bunun ardınca isə ölkədə baş verən ic-

timai-siyasi hadisələr xalqın mühacirət tarixində də iz buraxmışdır. 1991–1993-cü illərin siyasi hərc-mərcliyi, ozamankı respublika rəhbərliyinin dövlət idarəçiliyində səriştəsizliyi nəticəsində bir-birinin ardınca baş verən dövlət çevrilişləri ölkə daxilindən xarici siyasi mühacir axınına səbəb olmuş, yalnız ümummilli lider Heydər Əliyevin 1993–1995-ci illər ərzində apardığı məqsədyönlü fəaliyyət bu prosesə son qoymuşdur. 1995-ci ildən başlayaraq ölkə xaricinə miqrasiya özünün xarakterini dəyişərək, sırf iqtisadi xarakter qazanmış, dünyanın digər inkişaf etməkdə olan ölkələrində olduğu kimi sivil formalar almış, beynəlxalq hüquq normaları çərçivəsinə düşmüşdür. Həmin ildən etibarən Heydər Əliyevin, sonralar Prezident İlham Əliyevin xarici ölkələrdə yaşayan həmvətənlərin problemləri ilə yaxından maraqlanmaları, xaricə edilən bütün rəsmi və qeyri-rəsmi səfərlərində soydaşlarımızla yaddaqalan görüşlər keçirmələri, bu görüşlər zamanı diaspor və lobbi məsələlərini dövlət əhəmiyyətli iş kimi önə çəkilmələri müstəqillik illərində ali dövlət rəhbərliyinin diaspor problemlərinə yeni meyarlarla yanaşmalarından xəbər verir. Dövlət səviyyəsində görülmüş tədbirlər qısa vaxt ərzində öz bəhrəsini vermiş, xaricdə meydana gəlmiş milli cəmiyyət və təşkilatların fəaliyyətlərində keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dünya azərbaycanlılarının harada yaşamalarından asılı olmayaraq Azərbaycan dövlətçiliyi naminə çalışmaq onların başlıca amallarına çevrilmişdir. Müxtəlif ölkələrə səpələnmiş azərbaycanlıların öz milli mənsubiyyətlərini qorumaqla mədəni-siyasi həmrəyliyi müstəqil Azərbaycan Respublikasının dövlət maraqlarına uyğun gəlir və onun strateji məqsədlərindən biridir. Müstəqilliyin və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli həllinə nail olunması xarici ölkələrdə diaspor fəaliyyəti ilə məşğul olan təşkilatların vahid mərkəz ətrafında birləşməsini zəruri edir.

Dünya azərbaycanlılarının yaşadığı ölkələrdə monolit qüvvə kimi çıxış etmələri onların milli və vətəndaş hüquqlarının qorunmasına da əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə xüsusilə 1993-cü ildən etibarən aparılan məqsədyönlü işlər artıq bir sıra aparıcı dünya dövlətlərində özünün konkret nəticələrini vermişdir.

**Rusiya Federasiyası (RF)**

Rusiya ərazisində yaşayan azərbaycanlıların ümumi sayı 3 milyona yaxındır və onların əksəriyyəti son 10 ildə iqtisadi miqrasiya nəticəsində Federasiyanın müxtəlif subyektlərinə köç etmiş soydaşlarımızdır. Ölkədə fəaliyyət göstərən ən güclü Azərbaycan diaspor təşkilatı «Ümumrusiya Azərbaycanlıları Konqresi»dir. 2001-ci il 5 mart tarixli təsis qurultayında Rusiya və Azərbaycanın yüksək dövlət rəhbərləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə yaradılan konqres Rusiya Federasiyası ərazisində millətlərarası barışığın və vətəndaş sülhünün möhkəmləndirilməsi, Rusiya dövləti ilə Azərbaycan Respublikası arasında sosial-iqtisadi və mədəni əməkdaşlığın inkişaf etməsi və dərinləşməsi prosesinə yardım göstərməyi qarşısına məqsəd qoymuşdur. Azərbaycanlıların milli özünəməxsusluğunu, adət-ənənlərini, dilini, dinini, mədəniyyətini qoruyub saxlamaq, hüquq və azadlıqlarının, sosial təminatının müdafiəsi, Rusiya ərazisində yaşayan digər xalqların milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə hörmət ÜAK-ın başlıca vəzifələrindəndir. Eyni zamanda, konqres Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin, siyasi əlaqələrin inkişaf etdirilməsi istiqamətində real addımlar atmışdır. 2003-cü il oktyabrın 6-da Moskvanın «Lujniki» idman kompleksində İlham Əliyevin Azərbaycandakı prezident seçkilərində, 2004-cü il martın 11-də isə «Bakı» kinoteatrında V.V.Putinin Rusiyadakı prezident seçkilərində namizədliklərini dəstəkləmək məqsədilə ÜAK tərəfindən təşkil olunmuş aksiyalarda minlərlə azərbaycanlı iştirak etmişdir.

Rusiya ərazisində yaşayan azərbaycanlıların bir çox görkəmli nümayəndələri konqresin işinə cəlb olunmuşlar: Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, RF Dövlət mükafatı laureatı, professor Məmməd Əliyev, «Krokus İnterneşnl» şirkətinin prezidenti, iqtisad elmləri namizədi Araz Ağalarov, RF-nin 1-ci dərəcəli ədliyyə müşaviri, siyasi elmlər namizədi Natiq Ağamirov, «Lukoyl» neft şirkətinin prezidenti, iqtisad elmləri doktoru Vahid Ələkbərov, Rusiya EA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, Əhməd İsgəndərov və b. Rusiya EA-nın müxbir üzvü, RF Dövlət mükafatı laureatı, mərhum Fərman Salmanov Sibir yataqlarının kəşfində böyük rol oynamışdır. Rusiya Federasiyasında təşkilatın 73 regional şöbəsi fəaliyyət göstərir. Bundan əlavə, digər milli cəmiyyət və icmalar ÜAK-ın kollektiv üzvləridir. «Ocaq» Mədəniyyət Mərkəzi (Moskva), «Azərbaycan» Cəmiyyəti (Moskva), «Azərbaycan-türk xalqları» (Kirov vilayəti), «Nizami» Cəmiyyəti (Ulyanovsk), «Azəri-Dərbənd»(Dağıstan), «Odlar Yurdu» (Stavropol), «Abşeron» (Kalininqrad), «Dostluq-Drujba» (Tula), «Dalğa» (Perm), «Xəzri» (Novosibirsk), «Azərbaycan Mədəniyyət Mərkəzi» (Buryatiya), «Ozan» (Çelyabinsk), «Əhli-Beyt» (Moskva), Tver, Kostroma, Tümen vilayətlərində fəaliyyət göstərən milli-mədəni təşkilatlar və s. Eyni zamanda, RF-nin Şimal-Qərb, Volqaboyu, Ural, Sibir və Uzaq Şərq federal dairələrindəki yerli şöbələrin fəaliyyətlərini əlaqələndirmək məqsədilə ÜAK-ın dairə şuraları yaradılmışdır. Konqresin mərkəzi strukturuna «İqtisadi İnkişaf fondu», «Hüquqi Müdafiə Mərkəzi», «Азербайджанский Конгресс» qəzeti də daxildir. Rusiya ərazisində azərbaycanlıların ilk teleradio şirkəti, RF-də verilişlərini milli dildə yayımlayan «İnter–Azərbaycan» şirkəti, «Millətin səsi», «Asudə vaxt» qəzetləri, «İrs» elmi-publisistik jurnalı, «Azərbaycan» kommersiya mərkəzi də ÜAK-ın yardımı ilə fəaliyyət göstərir. Cəmiyyət özünün məqsədyönlü fəaliyyəti sayəsində Rusiya ərazisində nüfuzlu ictimai təşkilatlardan birinə – Azərbaycan diasporunun maraqlarını müdafiə edən əsas

quruma çevrilmiş, iqtisadi əməkdaşlıq üzrə Azərbaycan–Rusiya hökumətlərarası komissiyasının və Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması parlamentlərarası Komissiyasının daimi üzvü olmuşdur. 2004-cü il aprelin 6–7-də Bakıda ÜAK, Azərbaycan–Rusiya İşgüzar Əməkdaşlıq Palatası, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə «Azərbaycan–Rusiya iqtisadi-ticari əməkdaşlığı: inkişafın tendensiya və perspektivləri» adı altında iqtisadi forum keçirilmişdir. Rusiyanın dövlət orqanları, elmi və ictimai təşkilatları ilə birgə müstəqil Azərbaycan Respublikasının 10 illik yubileyi, həmçinin RF ilə Azərbaycan arasında diplomatik münasibətlərin 10 illiyi münasibətilə bir sıra elmi konfranslar təşkil olunmuşdur. İctimai təşkilatların tarixində ilk dəfə olaraq, Rusiya və Azərbaycan təhsil nazirlikləri Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komitəsi ilə birgə Azərbaycanın rusdilli məktəb məzunları üçün Rusiya ali təhsil ocaqlarına müsabiqədənkənar qəbul imtahanları keçirmişdir.

Azərbaycan diasporunun Rusiya ərazisindəki strukturlarından biri də 1999-cu il oktyabrın 1-də qeydiyyatdan keçmiş «Azərros» federal milli-mədəni muxtariyyətidir (FMMM). Moskva, Tver, Yaroslavl şəhərlərində fəaliyyət göstərən regional milli-mədəni muxtariyyətlərin bazasında təşkil olunmuş cəmiyyətin məram və vəzifələri Rusiyada daimi və müvəqqəti məskunlaşan azərbaycanlıları mütəşəkkil icma halında cəmləşdirmək, tarixi vətəndən kənarda milli mədəniyyətin, adət-ənənələrin qorunmasına yardımçı olmaq, Rusiyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların yerli mühitə adaptasiyasını, hüquqi müdafiəsini təşkil etməkdir. 2001-ci ildən təşkilatın «Азербайджанцы России» qəzeti nəşr olunur. Cəmiyyətin fəal dəstəyi ilə «Azərmedya» nəşriyyat evi, «Şəhriyar» ədəbi-ictimai məclisi fəaliyyət göstərir. FMMM-ə regional icmalarla (Moskva, Tver, Yaroslavl, Komi, Sankt-Peterburq, Kostroma şəhər şöbələri) birlikdə «Бакинец» cəmiyyəti

və son zamanlar Volqoqrad, Saratov, Həştərxan, Voronej, Arxangelsk və Novosibirsk şəhərlərində yaradılmış milli mədəniyyət ocaqları da daxildir. «Azərros»un işləri sırasında Azərbaycan filosofu və mütəfəkkiri Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr olunmuş konfrans, Dağlıq Qarabağın tarixinə həsr edilmiş «Rusiya və Azərbaycan: tarix və müasirlik» konfransını; Çingiz Hüseynovun ikicildlik «Doktor N» romanının nəşrini, Abdulla Hüseynovun «Пилигрим из Ширвана» və «Сто знаменитых XX века» kitablarının nəşrini və s. göstərmək olar. Təşkilat Ukrayna, Moldova, Belarus, Estoniya, Qazaxıstan, Kanada və ABŞ-da fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri ilə də əlaqələr yaratmışdır.

Rusiyadakı regional milli diaspor təşkilatları arasında fəaliyyəti ilə seçilən cəmiyyətlərdən biri də Sankt-Peterburq şəhərində 1999-cu ildə yaradılmış «Azərbaycanlıların milli-mədəni muxtariyyəti»dir. Rusiya Federasiyasının bu ikinci böyük şəhərində azərbaycanlıların sayı 1988–1993-cü illər ərzində xüsusilə artmışdır. Həmin illərdə burada «Dayaq», «Azəri», «Azərbaycan» kimi milli cəmiyyətlər meydana gəlmiş, o dövrdə azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı bir sıra mühüm addımlar atılmışdır.

Cəmiyyət Sankt-Peterburqun ictimai-siyasi həyatında yaxından iştirak edir, Azərbaycan Respublikasının dövlət və qeyri-hökumət təşkilatları ilə Rusiyanın digər regionlarında fəaliyyət göstərən milli cəmiyyətlərlə faydalı əməkdaşlıq əlaqələri qurur. AMMM-in fəal dəstəyi ilə artıq bir neçə ildir ki, Sankt-Peterburqda azərbaycanlıların Bazar günü məktəbi, «Çinar» uşaq rəqs ansamblı fəaliyyət göstərir, «Azəri» qəzeti və «Диалог цивилизации» jurnalı nəşr olunur. «Muxtariyyət'in təşkilatı və maliyyə yardımı ilə şəhərdə Nizami Gəncəvinin abidəsi ucaldılmış, soydaşımız Süleyman Əlisanın «Встреча на берегах Невы» kitabı çap olunmuşdur. Cəmiyyətin fəalları Sankt-Peterburq və Leninqrad vilayəti yunan–Roma güləş federasiyasına, «Zenit» futbol klubuna, «Юность России» güləş məktəbinə, eyni zamanda Azərbaycandakı

bir sıra ümumtəhsil və idman məktəblərinə maddi yardımlar göstərirlər.

**Orta Asiya Respublikaları**

«Turan» Azərbaycan Mədəniyyət Cəmiyyəti (1993) Azərbaycan Respublikası ilə Qazaxıstan dövləti arasında ictimai-siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsində yaxından iştirak edir. Rəsmi məlumata görə, Qazaxıstanda təqribən 106 min azərbaycanlı yaşayır. Onlar, əsasən, Cambul, Çimkənd, Almatı, Taldı-Kurqan vilayətlərində məskunlaşıblar. «Turan»ın təşəbbüsü ilə Almatıda «Ozan» Mədəniyyət Cəmiyyəti, digər vilayətlərdə (Kustanay, Cambul, Taldı-Kurqan, Petropavlosk) diaspor təşkilatları yaradılmışdır. 1992-ci ildən Qazaxıstan dövlət radiosunda Azərbaycan dilində «Dostluq» proqramı, 2002-ci ildən azərbaycanlıların Bazar günü məktəbi fəaliyyət göstərir. «Turan» öz işini Qazaxıstan ərazisində fəaliyyət göstərən 17 Azərbaycan cəmiyyəti ilə («Qobustan» – Almatı, «Dostluq» – Aktyubinsk vilayəti, «Novruz» – Atırausk vilayəti, «Azəri» – Cənub vilayəti, «Vətən» və «Azərbaycan» – Pavlodar vilayəti və s.) birlikdə qurur.

Özbəkistan Respublikasında fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası 2003-cü ilin yanvarında təsis edilmişdir. Cəmiyyətin nəzdində «Azəri» qızlar rəqs ansamblı fəaliyyət göstərir. Kollektiv 2003-cü ildə Özbəkistanda keçirilən dostluq və mədəniyyət festivalının laureatı olmuşdur. Daşkənd şəhərində «Qardaşlıq» Azərbaycan Mədəniyyət Mərkəzi, «Azərbaycan Evi» də fəaliyyət göstərir. «Azərbaycan Evi»ndə ana dili və kompüter üzrə siniflər, güləş zalı, kitabxana, Heydər Əliyev adına muzey, «Azərbaycan xalqına qarşı genosid» ekspozisiyası mövcuddur.

Qırğızıstan Respublikasında yaşayan azərbaycanlıların «Azəri» ictimai təşkilatı 1992-ci ildə yaradılmışdır. Ölkədə təqribən 20 min azərbaycanlı yaşayır. Onların böyük əksəriyyəti XX əsrin 30-cu illərində repressiyalar zamanı sürgün edilmiş Azərbaycan vətəndaşlarıdır. «Azəri» cəmiyyəti yarandığı gündən qarşısına

həmvətənlərin hüquqlarını qorumaq, Qırğızıstanın ictimai həyatında aktiv iştirak etmək, tarixi vətənlə mütəmadi əlaqələr saxlamaq məqsədini qoymuşdur. Qırğızıstan Milli Teleradio Şirkəti nəzdində «Azəri» şöbəsi fəaliyyət göstərir. Bişkek şəhərində azərbaycanlı uşaqlar üçün Bazar günü məktəbi açılmış, «Ulduzlar» folklor özfəaliyyət ansamblı yaradılmışdır. Qırğızıstanda yaşayan azərbaycanlılar arasında 4 elmlər doktoru, 10 elmlər namizədi var, 7 nəfər Qırğızıstan Respublikasının əməkdar işçisidir.

**Türkiyə Cümhuriyyəti**

Türkiyədəki Azərbaycan diasporunun əksər icma və təşkilatları Azərbaycan Respublikası ilə ictimai-siyasi, iqtisadi, mədəni əlaqələrin möhkəmlənməsində, dövlət strukturları ilə sıx əməkdaşlıq qurulmasında fəal iştirak edirlər. Türkiyə ərazisində 1991–2002-ci illərdə «İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi», «Manisa Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi», «Bursa Azərbaycan Evi», «Kocaeli Azərbaycan Evi Dərnəyi», «Çanakkale Azərbaycan Evi Dərnəyi», «Balıkesir Azərbaycan Evi Dərnəyi» «Aydın Azərbaycan Evi Dərnəyi», «Muğla Azərbaycan Evi Dərnəyi», «Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi», «Antalya Azərbaycan Evi Dərnəyi», «Ankara Azərbaycan Kültür və Dayanışma Dərnəyi», «İğdır Azərbaycan Kültür və Dayanışma Dərnəyi», «Hatay Azərbaycan Türk Kültür Mərkəzi», «İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi», «Edirnə Azərbaycan Evi Dərnəyi» və s. cəmiyyətlər yaradılmışdır. 2004-cü ilin mayında İsgəndərun şəhərində Türkiyədəki Azərbaycan təşkilatlarını özündə birləşdirən «Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası» (TADF) təsis olunmuşdur. Federasiya ölkənin 20-yə yaxın şəhərində (Ankara, İstanbul, İzmir, Balıkesir, Tire, Dörtyol, Çanaqqala, İqdır və s.) fəaliyyət göstərən «Azərbaycan Evi» cəmiyyətlərini əhatə edir. Qurum Türkiyədə Azərbaycan maraqlarının təbliğatçısıdır. Azərbaycan təşkilatlarının işini əlaqələndirir. Türkiyədəki Azərbaycan dərnəkləri fəaliyyət göstərdikləri bölgənin ictimai-siyasi, iqtisadi-sosial və mədəni həyatında fəal rol oyna-

yırlar. Ölkə parlamentinin Azərbaycan əsilli üç millət vəkili – Türkiyə Parlamentinin Xarici Əlaqələr Komissiyasının sədri Mehmet Gülgür, Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədr müavini Yücel Artantaş və Dursun Akdeniz diaspor işində yaxından iştirak edir. «İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi» 2004-cü ilin yanvarından «Azərbaycan Dünyası» adlı jurnal buraxır. Azərbaycan əsilli Türkiyə vətəndaşı Bayram Tanverdiyə məxsus «Bayram FM» radiosu İstanbul şəhərində fəaliyyət göstərir.

**Avropa ölkələri**

2004-cü il aprel ayının 17-də Almaniyanın paytaxtı Berlində «Avropa Azərbaycanlıları Konqresi»nin (AAK) təsis edilməsi müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində əhəmiyyətli hadisə oldu. Dünyanın 28 ölkəsində 5-dən artıq diaspor təşkilatı – Rusiya, Ukrayna, Belarus, Moldova, İsveç, İsveçrə, Norveç, Danimarka, Fransa, Niderland, Avstriya, Bolqarıstan, Rumıniya, Macarıstan, Belçika, Finlandiya və Almaniyadakı Azərbaycan icmaları AAK-ın kollektiv üzvləridir. Regionda azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi maraqlarını təmin etmək konqresin əsas vəzifələrindəndir. AAK-ın fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdir. Təşkilat Avropada, MDB-də və digər regionlarda fəaliyyət göstərən diaspor qurumları ilə əməkdaşlıq edir.

Avropada ən fəal diaspor təşkilatlarımızdan biri də 1999-cu ilin martında yaradılmış «Ukrayna Azərbaycanlıları Konqresi»dir (UAK). Cəmiyyət Ukrayna ərazisində yaşayan azərbaycanlıların milli-mədəni ənənələrinin qorunmasında, sosial-iqtisadi və ictimai-siyasi problemlərinin həllində mühüm rol oynayr.

Ukraynanın 27 inzibati mərkəzində (Vinnitsa, Dnepropetrovsk, Donetsk, Jitomir, Lvov, Odessa, Poltava, Sevastopol, Ternopol, Xarkov, Xerson, Çerkassk, Çemiqov və s.) UAK-ın regional

şöbələri vardır. Konqres fəaliyyət göstərdiyi ölkənin ictimai-mədəni həyatında fəal iştirak edir, müxtəlif ictimai-mədəni və xeyriyyə aksiyaları keçirir, Ukraynadakı digər diaspor mərkəzləri, ictimai və dövlət təşkilatları, xeyriyyə fondları ilə əməkdaşlıq əlaqələri qurur. Cəmiyyətin xətti ilə çernobılçılara, Zakarpatyedə təbii fəlakətlərdən, Donbass şaxtalarında baş vermiş qəzalardan ziyan çəkmişlərə, həmçinin uşaq evlərinə, internatlara, müharibə veteranlarına maddi yardım göstərilir. Konqresin vəsaiti hesabına 2000-ci ilin martında Kiyev vilayətinin İrpen şəhərində Ukrayna şairi Taras Şevçenkoya, 2004-cü ildə isə Kiyev şəhərində Heydər Əliyevə abidə ucaldılmışdır. Konqresin nəzdində «Azərbaycan» ansamblı fəaliyyət göstərir. Cəmiyyətin bir sıra regional şöbələri nəzdində Bazar günü məktəbləri işləyir. Kiyevdə konqresin «Голос Азербайджана» qəzeti nəşr olunur. Konqresin təşəbbüsü ilə Azərbaycan və Ukrayna arasında tələbə mübadilələri, elmi müəssələrin əməkdaşlığı haqqında müqavilələr imzalanmışdır. Konqres Azərbaycan və Ukraynanın dövlət və milli bayramlarının, tarixi günlərinin qeyd olunmasında, Ukraynanın ictimai-siyasi, iqtisadi, mədəni tədbirlərində fəal iştirak edir.

İsveçdə təqribən 20 min azərbaycanlı yaşayır. Onların böyük əksəriyyəti 1980–1985-ci illərdə İran İslam Respublikasından mühacirət etmiş azərbaycanlılardır. 2001-ci ildə «Azərbaycan–İsveç Komitəsi» yaradılmışdır. Cəmiyyətin işində bir sıra nüfuzlu İsveç vətəndaşı da iştirak edir. Avropa Parlamentinin üzvü Olle Şmidt, İsveç parlamentinin Xarici Əlaqələr Komissiyasının sədri Marie Qrünland, həmin komissiyanın üzvü Yoran Lindbland, Malmö şəhər bələdiyyəsinin üzvü, iş adamı Tore Robertson, İsveç Qırmızı Xaç Cəmiyyətinin nümayəndəsi Brita Asbrinq, Boras Universitetinin rektoru, professor Səid İrandost və b. komitənin üzvləridir. Komitə Avropa Parlamentinə Dağlıq Qarabağla bağlı məruzə hazırlamış Pyer Qahrtonla Azərbaycan–Ermənistan münaqişəsinin tarixi kökləri, müasir durumu haqqında müzakirələr aparmışdır. Komitə həmçinin Nobel Fondunun sədri Mixael Sohlmana Nobel mükafatı təqdimetmə

mərasiminə Azərbaycan Respublikasından nümayəndə heyətinin dəvət edilməsi barədə müraciət etmişdir. İsveçdə Cənubi Azərbaycandan mühacirət etmiş azərbaycanlılar 2000-ci ilin iyununda «Azərbaycan–İsveç Federasyonu»nu təsis etmişlər. Cəmiyyət Azərbaycanla bağlı 14 icmanı, o cümlədən, «Ərk», «Ulduz», «Tribun», «Savalan» və s. birləşdirir.

Avstriyada 2002-ci ilin oktyabrında yaradılmış «Azərbaycan akademik dərnəyi» Xocalı faciəsinin 12-ci ildönümü ilə bağlı alman dilində broşurlar nəşr etdirmişdir. 2004-cü il iyunun 7-də Afrika–Asiya İnstitutunda «Bir neftin hekayəsi – Azərbaycan nümunəsi» adlı seminar keçirilmişdir. Cəmiyyət Azərbaycan Respublikasının dövlət strukturları, ictimai təşkilatları ilə sıx əməkdaşlıq edir.

Niderland Krallığında fəaliyyət göstərən «Azərbaycan–Niderland Cəmiyyəti» 2003-cü ilin avqustunda yaradılmışdır. Təşkilatın 2004-cü ildən «Benilüks» qəzeti nəşr olunur. Niderland Krallığının Den-Haaq şəhərində 1993-cü ildən «Azərbaycan-Türk Kültür Dəməyi»fəaliyyət göstərir. Təşkilat Azərbaycan Respublikasının ölkə ictimaiyyətinə tanıdılması istiqamətində bir sıra konkret işlər görmüşdür. Təşkilatın təşəbbüsü ilə Den-Haaqda yerləşən beynəlxalq təşkilatların binaları qarşısında 20 Yanvar, Xocalı soyqırımının ildönümlərində mitinqlər təşkil edilmişdir. Azərbaycandakı qaçqın və köçkünlərə yardım göstərilmiş, təşkilatın vəsaiti hesabına Gəncədə Qarabağ şəhidlərinin xatirəsinə bulaq kompleksi tikilmişdir.

Azərbaycan diasporunun ən geniş təmsil olunduğu Avropa ölkələrindən biri Almaniyadır. 1988-ci ildən bu ölkədə fasilələrlə onlarla cəmiyyət fəaliyyət göstərmiş, bir çoxu bu gün də işini davam etdirir. 1988-ci ildə Berlin şəhərində yaradılmış, «Azərbaycan–Almaniya Cəmiyyəti» Ermənistan–Azərbaycan münaqişəsinin kökləri haqqında Avropa ictimaiyyətinə doğru məlumatların çatdırılmasında mühüm işlər görmüşdür. Tanınmış rəssam İ.Əhrari 90-cı illərdə bir neçə dəfə Azərbaycanda olmuş, Bakıda öz əsərlərindən ibarət sərgilərdən əldə olunan vəsaiti

Qarabağ müharibəsi veteranlarının hesabına köçürmüş, məşhur dünya rəssamlarının bir neçə orijinal əsərini Azərbaycan İncəsənət Muzeyinə bağışlamışdır.

Berlində «Azərbaycan–Alman Akademiyası» (1986), «Azərbaycan Kültür Ocağı» və onun nəzdində «Savalan» jurnalı, «Ocaq» Cəmiyyəti (1988), «Odlar Yurdu» Mədəniyyət və Təhsil Cəmiyyəti, Bonn şəhərində «Azərbaycan Kültür Ocağı», Düsseldorf şəhərində «Alman–Azərbaycan Cəmiyyəti» (1991), Frankfurt şəhərində «Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti», Köln şəhərində «Azərbaycan Kültür Cəmiyyəti» (1990), Nümmerq şəhərində «Azərbaycan Kültür Dərnəyi» (1990), Limburq şəhərində «Azərbaycan Evi» (1997) və s. diaspor təşkilatları Azərbaycan Respublikası ilə Almaniya arasında ictimai-mədəni və iqtisadi əlaqələrin inkişafında yaxından iştirak etmişdi.

1996-cı ildə Almaniyadakı Azərbaycan cəmiyyətləri vahid strukturda – «Almaniya–Azərbaycan Cəmiyyətləri Federasiyası»nda (AACF) birləşmişlər. Federasiyanın əsas məqsədi diaspor təşkilatları arasında əlaqələri daha da gücləndirməkdir. Cəmiyyətin ilk böyük aksiyalarından biri 1997-ci ilin mayında Bonn şəhərində Rusiya səfirliyi qarşısında keçirilən mitinqdir. Federasiya Rusiyanın Ermənistana bir milyard dollar həcmində hərbi döyüş texnikası, silah verməsinə etiraz olaraq yürüş keçirmişdir. Bununla əlaqədar Federasiya adından NATO-nun Baş Katibinə, BMT-yə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin başçılarına, ATƏT-ə və s. beynəlxalq təşkilatlara etiraz məktubları göndərilmişdir. 1999-cu il avqustun 21–22-də AACF-nin Bonnda I qurultayı keçirilmişdir.

2004-cü ilin oktyabrında Berlin şəhərində Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu fəaliyyətə başlamışdır. İnstitutun yaradılmasında məqsəd beynəlxalq konfranslar, mədəniyyət günləri, konsertlər və s. mədəni-kütləvi tədbirlər keçirmək, Azərbaycan Respublikası ilə Almaniya arasında mədəni əlaqələrin möhkəmləndirilməsinə yardımçı olmaq, Azərbaycan ədəbiyyatı nümunələrini alman dilinə tərcümə etmək, Azərbaycan mədə-

niyyətini, incəsənətini, dilini, tarixini araşdırmaqdır. İnstitutun nəzdində tərcümə və xəbər mərkəzləri işləyir. Eyni zamanda, alman və Azərbaycan dili kursları açılmış, kompüter və musiqi dərsləri tədris olunmağa başlamışdır.

**Fransada** Azərbaycan mühacirətinin ilk nümayəndələri (Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli və b.) XX əsrin əvvəllərində fəaliyyətə başlasa da, mütəşəkkil diaspor təşkilatlarının formalaşması son 15–20 ilə təsadüf edir. Fransada bir neçə milli mədəniyyət mərkəzi, o cümlədən, «Azərbaycan Evi» Assosiasiyası fəaliyyət göstərir. 2003-cü ilin noyabrında azərbaycanlı tələbələr və gənclər tərəfindən «Azərbaycan–Fransa Gənclik Assosiasiyası» (AFGA) yaradılmışdır. Cəmiyyətin məqsədi ölkədə fəaliyyət göstərən azərbaycanlı tələbə təşkilatlarının işini əlaqələndirməkdir. 2004-cü ildən assosiasiyanın «Körpü-Le Pont» jurnalı nəşr olunur. Fransa Respublikasında bir sıra görkəmli Azərbaycan ziyalıları və mədəniyyət xadimləri yaşayır və tarixi vətənlə əlaqələrin gücləndirilməsi istiqamətində konkret işlər görürlər. Belə şəxsiyyətlər sırasında Parisdəki Beynəlxalq Diplomatik Akademiyanın əməkdaşı, Strasburq Universitetinin və Bakı Dövlət Universitetinin fəxri doktoru, «Turkika» fransız jurnalının baş redaktoru İren xanım Melikoffun qızı Şirin xanım Melikoffun fəaliyyəti xüsusi yer tutur. Şirin xanım anası ilə birgə Fransada ilk dəfə «Azərbaycan: keçmişi və indisi» mövzusunda beynəlxalq kollokvium keçirmişdir. Şirin xanım Bakıda «Etnik əfsanədən operayadək: Azərbaycanda Koroğlu mövzusunun inkişafı» kitabını, 1989–1992-ci illərdə Qarabağ hadisələri haqqında 4 kitab və Azərbaycan dilində M.S.Ordubadinin «Qanlı illər» kitabını nəşr etdirmişdir. Onlar Fransa kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ problemi ilə bağlı müntəzəm çıxışlar ediblər.

**Amerika Birləşmiş Ştatları və Kanada**

Azərbaycan mühacirətinin ən geniş təmsil olunduğu ölkələrdən biri ABŞ-dır. Burada yaşayan azərbaycanlıların sayı haqqında

dəqiq məlumat olmasa da, müxtəlif mənbələrdə onların sayı 400 mindən 1 milyona qədər göstərilir. ABŞ-ın Los-Anceles şəhərində 1997-ci ildə yaradılmış Dünya Azərbaycanlıları Konqresi (DAK) yalnız Amerika ərazisində deyil, dünyanın müxtəlif ölkələrindəki Azərbaycan cəmiyyətlərinin fəaliyyətini əlaqələndirməyə çalışır. 1997–2004-cü illərdə dünyanın müxtəlif ölkələrində DAK-ın 8 qurultayı keçirilmişdir. Sonuncu qurultay 2005-ci ilin may ayında İsveç Krallığının Stokholm şəhərində keçirilmişdir. Qurultayın işində Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri, Milli Məclis üzvləri, siyasi partiya təmsilçiləri, KİV rəhbərləri iştirak etmişlər. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbrik məktubu oxunmuş, DAK-ın ötən müddət ərzində fəaliyyəti müzakirə olunmuş, təşkilatın gördüyü işlərə müsbət qiymət verilmişdir. Qurultay iştirakçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparmış, Prezidentin bu istiqamətdə səylərini dəstəkləmişlər.

1970-ci ildə ABŞ-da yaranmış «Amerika–Türk Assosiasiyalar Assambleyasının (ATAA) Amerika və Kanadada 57 şöbəsi fəaliyyət göstərir. ATAA bir sıra dövri nəşrlər, o cümlədən, «The Turkish World» jurnalını (1989) dərc etdirir. ATAA Türkiyə və Türk–Amerika icmalarının keçirdiyi forumlarda yaxından iştirak edir, digər icmalarla sıx əlaqə yaradır. 2004-cü ilin yanvarında Vaşinqtonda təşkilatın 24-cü qurultayı Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi ilə birlikdə keçirilmiş və qurultayın bir günü bütövlükdə Azərbaycanın təbliğinə həsr edilmişdir. Qurultay ATAA-nın gələcək fəaliyyətində türk diasporu ilə yanaşı, Azərbaycan diasporunun da maraqlarını müdafiə etməsi haqqında qərar qəbul etmişdir.

2014-ci il aprelin 16-da Kanadanın Toronto şəhərində Kanada–Azərbaycan Əməkdaşlıq Assosiasiyası, Azərbaycan Təhsil və Mədəniyyət Mərkəzi, Kanada–Azərbaycan Qadınlar Assosiasiyası, Azərbaycan–Kanada Dostluq Cəmiyyəti, Kvebek Azər-

baycanlıları Assosiasiyası, Ontario Azərbaycanlıları Cəmiyyəti, Kanada–Azərbaycan Alyansının iştirakı ilə Azərbaycan Təşkilatları Federasiyasının təsis konfransı keçirilmişdir.

**Avstraliya və Yeni Zelandiya**

Bu ölkələrdə təqribən 10 min azərbaycanlı yaşayır. Avstraliyada «Azərbaycanlılar Cəmiyyəti» (1996, Sidney) və «Avstraliya–Azərbaycan Cəmiyyəti» (2003, Sidney), Yeni Zelandiyada isə «Azərbaycan–Yeni Zelandiya Dostluq Cəmiyyəti» (2004, Okland) fəaliyyət göstərir. Azərbaycanlıların əksəriyyəti İran və Türkiyədən köçmüş mühacirlərdir.

Azərbaycan Respublikası XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etməklə, cəmiyyətin bütün sahələrində olduğu kimi, tarixi vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlılarla əlaqələr yaratmaq istiqamətində də əsaslı dönüş yaratmışdır. Lakin Azərbaycan dövlətinin vahid qüvvə kimi formalaşması və təşəkkülü, ilk növbədə, ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti ilə bağlıdır. XX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərindən başlayaraq milli dirçəliş, iqtisadiyyatın, mədəniyyətin, elmin, təhsilin inkişafı, mənəvi mühitin sağlamlaşması bütövlükdə milli özünüdərkə təkan vermişdir. 70–80-ci illərdə Heydər Əliyev xalqının qədim tarixinin qorunmasına, mədəniyyətin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışmışdır. Həmin dövrün mövcud siyasi reallığı diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılmış, respublikamızın nailiyyətləri təbliğ edilmiş, dünya azərbaycanlılarının tarixi vətənlə əlaqəsinə xidmət edəcək hər imkandan istifadə olunmuşdur. Xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin («Vətən» cəmiyyəti) yaradılması soydaşlarımızın birliyinə xidmət edən mühüm addımlardan idi. 1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə Heydər

Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra dünya azərbaycanlıları ilə əlaqələr sahəsində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlamışdı. Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan MR Ali Məclisində 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi hər il qeyd olunması təşəbbüsünü qaldırmışdı. O, çoxşaxəli fəaliyyətində daha bir milli-tarixi missiyanı – dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını üzərinə götürmüş, dünya azərbaycanlıları ilə işi dövlət əhəmiyyətli strateji məsələyə çevirmişdi. Bu sahədə dövlət konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz tərkib hissəsi hesab edilməsi, Azərbaycan Respublikasının bütün soydaşlarımızın vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində icma şəklində formalaşması, lobbiçilik perspektivi, azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması və s. məsələlər də məhz onun tərəfindən irəli sürülmüşdür.

Xarici səfərlərinin proqramına azərbaycanlılarla görüşlərin daxil edilməsi, mühüm qərarların qəbulu və icrası dünya azərbaycanlılarının mütəşəkkilliyini, siyasi-mənəvi inteqrasiyasını, təşkilatlanmasını sürətləndirdi. Milli dövlətçilik tariximizdə ilk dəfə Heydər Əliyevin simasında siyasi prinsiplər və milli-mənəvi meyarlar vəhdətdə təzahür etdi, onun rəhbərliyi ilə dövlət səviyyəsində dünya azərbaycanlılarını doğma vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevirmək yolunda ciddi fəaliyyət başlandı. Dövlət başçısı xarici səfərləri zamanı həmvətənlərimizlə görüşlərində onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələrini verir, səfirliklərimizi bu işə cəlb edir, soydaşlarımızı ölkəmizin ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka çağırırdı (məs., 20 oktyabr 1995-ci il ABŞ, Nyu-York; 1 iyul 1996-cı il, Almaniya, Bonn; 15 yanvar 1997-ci il, Fransa, Paris; 22 iyun 1998-ci il, Böyük Britaniya, London; 22 iyun 2000-ci il, Rusiya Federasiyası, Moskva). Həmvətənlərimizin milli-mədəni birliyində önəmli hadisə olan bu görüşlər ölkə rəhbərliyinin bəyan etdiyi prioritet məsələnin həllində – diasporumuzun mütəşəkkil qüvvə kimi

formalaşmasında həlledici amillərdən olmuşdur. Ümummilli lider Heydər Əliyev böyük siyasi məharət, səbr və qətiyyətlə dünya azərbaycanlılarını, Dağlıq Qarabağ problemi ətrafında birləşdirə bilmiş, onlarda vətən eşqi, milli təəssübkeşlik yaratmışdı. Cəmi 10–15 il əvvəl ayrı-ayrı fərdlər, ən yaxşı halda mədəni-ictimai fəallığı ilə seçilən icmalar halında yaşayan həmvətənlərimiz hazırda ümummilli ideya ilə birləşən, tarixi vətənə xidmət əzmində olan, xalqın iradəsini dünya səviyyəsində ifadə edən fəal siyasi qüvvəyə çevrilmişlər. Xalqımızın mənəvi birliyi, azərbaycançılıq idealları Heydər Əliyevin təşəbbüsü və qərarı ilə 2001-ci ilin noyabrında Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında öz təcəssümünü tapdı. Qurultay xaricdə yaşayan azərbaycanlıların ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etdi, diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin – quruculuq və təşkilatlanma mərhələsinin əsasını qoydu. Qurultay nümayəndələrinin təklifləri nəzərə alınaraq, diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 2002-ci ilin dekabrında qəbul olunmuş «Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Qanun bu sahədəki prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəyyənləşdirilmiş siyasi xəttə sadiq qalaraq, dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərinə xüsusi diqqət yetirir, bu istiqamətdə zəruri tədbirlərin görülməsini təmin edir. 2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II qurultayı diaspor quruculuğu prosesində irəliyə doğru növbəti addım oldu. Qurultayda qəbul olunmuş sənədlər – Dünya Azərbaycanlılarının II qurultayının qətnaməsi, qurultayın Azərbaycan Respublikası Prezidentinə və dünya azərbaycanlılarına müraciətləri, qurultayın Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici

ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatına (UNESCO), Azərbaycan və türk diaspor təşkilatlarına müraciətləri xaricdə yaşayan azərbaycanlıların qurultaydan sonrakı müddətdə konkret fəaliyyət proqramıdır.

Son illər fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi və mədəni həyatında Azərbaycan cəmiyyətlərinin fəal iştirak etmələri diaspor quruculuğu işinin ən mühüm istiqamətlərindən biridir. Bir sıra ölkələrin qanunvericilik, icra hakimiyyəti, yerli özünü-idarəetmə orqanlarında təmsil olunmaları, kompakt yaşadıqları ərazilərdə Bazar günü məktəblərinin açılması, müxtəlif icma və birliklərin nəzdində 27 qəzet, 10 jurnal, 3 radio və 1 televiziyanın fəaliyyət göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif tədbirlərin təşkil edilməsi Azərbaycan diasporu nümayəndələrinin ictimai- siyasi fəallığının artmasının göstəricisidir.

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının qanunu xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini, bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.

İlham Əliyev Azərbaycan Diplomatik Akademiyasının yeni tədris kompleksinin açılışında demişdir: «Azərbaycan diaspor təşkilatlarının sayı artır, onların fəaliyyətinin keyfiyyəti yüksəlir. Dünyada vaxtaşırı keçirilən nümayişlər, etiraz piketləri, tədbirlər, konfranslar göstərir ki, biz doğrudan da güclü diaspor təşkilatları yarada bilmişik, və səfirliklər də diaspor təşkilatları ilə sıx əlaqədə olmalıdırlar. Əksər hallarda bu, belədir, istərdim ki, hər bir yerdə belə olsun. Çünki bu, bizim gücümüzü daha da artırır, xaricdə yaşayan azərbaycanlıları öz Vətəninə daha da bağlayır. Bir tərəfdən, biz xaricdə yaşayan azərbaycanlılara daha da böyük dəstək göstəririk. Onlar da bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti vardır. Bizim üçün diaspor təşkilatlarının

fəaliyyəti, xüsusilə Ermənistan-Azərbaycan məsələsi ilə bağlı çox önəmlidir. Bu istiqamət daim diqqət mərkəzində olmalıdır.

Əlbəttə, səfirlərimiz dövlət orqanlarının nümayəndələri ilə sıx əlaqədə olmalıdır, çalışdıqları ölkələrin nazirlikləri ilə əlaqədə olmalıdırlar. Bununla bərabər, hesab edirəm ki, qeyri-hökumət təşkilatları ilə əlaqələr daha da fəal olmalıdır. Bu, yaddan çıxmamalıdır. Media ilə əlaqələr daha fəal qurulmalıdır. Çünki hələ də erməni lobbisinin təhriki ilə hərdənbir Azərbaycana qarşı əsassız ittihamlar səslənir. Biz bilirik bu, haradan qaynaqlanır. Əlbəttə ki, bu cür çirkin yazıların birinci mənbəyi erməni lobbisidir».

Beləliklə, demək mümkündür ki, Azərbaycan dövlətinin qayğısını yaxından hiss edən Azərbaycan diasporu tarixən olduğu kimi bu gün də inkişaf dinamikası, milli dəyərlərimizin təbliğ edilməsində həmrəylik fəaliyyəti və yaşadığı ölkələrin siyasi həyatında aktiv rolu ilə diqqəti cəlb edir. Diaspor sahəsində əldə olunan nəticələr, qazanılan uğurlar gələcəyə daha inamla və ümidlə baxmağa əsas verir. Bu gün İlham Əliyevin böyük uğurla həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycan diasporunun daha da təşkilatlanmasına, Azərbaycan diasporu elitasının formalaşmasına səmərəli təsir göstərir. Bu isə inamla söyləməyə əsas verir ki, Azərbaycan diasporu dünya siyasətində baş verən proseslərdən geri qalmayacaq. Bu işdə, təbii ki, yuxarıda adlarını sadaladığımız diaspor elitamızı təşkil edən görkəmli şəxsiyyətlərimizin fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir.

Respublika rəhbərliyinə qayıdaraq xalqı ilə çiyin-çiyinə fəaliyyət göstərən Heydər Əliyev qısa bir müddətdə misilsiz işlər gördü:

– Müharibə bölgəsində atəşkəsə nail olundu, bununla da Azərbaycanın yeni ərazilərinin işğalının qarşısı alındı;

– Çətin və ağır diplomatik məcrada keçən neft danışıqları uğurlu oldu, əvvəlki iqtidarların heç birinin bacarmadığı məsələ həllini taparaq «Əsrin müqaviləsi» neft kontraktı imzalandı. Bununla da neft sənayesi iqtisadiyyatın digər sahələrinin böhrandan

çıxarılması və inkişafı üçün başlıca iqtisadi mexanizm rolunu oynamağa başladı;

– Ölkədə möhkəm və dönməz sabitlik yaratdı, qeyri-qanuni silahlı dəstələr tərk-silah olundu, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişinə cəhdlərin qarşısını böyük qətiyyətlə aldı və beləliklə, Azərbaycanda zorakılıqla hakimiyyətə gəlişin qeyri-demokratik ənənəsinə son qoyuldu;

– Yeni Konstitusiya layihəsinin referendum yolu ilə qəbul edilməsinə, bazar münasibətlərinə keçidlə bağlı təkmil hüquqi qanunvericilik bazasının yaranmasına nail olundu;
– Onun rəhbərliyi ilə iqtisadi, siyasi, hüquqi islahatlar həyata keçirildi, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu sahəsində uğurlu addımlar atıldı, Azərbaycan Avropa Şurasına üzv seçildi;
– Özəlləşdirmə proqramları çərçivəsində dövlət əmlakı dövlətsizləşdirildi, bazar iqtisadiyyatı münasibətləri bərqərar olundu;
– Aqrar islahatlar sayəsində torpaq Azərbaycan tarixində ilk dəfə pulsuz olaraq əsl sahibinə – kəndlilərə qaytarıldı, bununla da ən çətin proseslərdən biri uğurla başa çatdırıldı;
– Milli Ordu quruculuğu sahəsində mühüm addımlar atıldı, zabit kadrlarının hazırlanması üçün müasir tələblərə uyğun hərbi məktəblər formalaşdırıldı, ordunun gücləndirilməsi başlıca dövlət prioriteti oldu.
– Azərbaycan informasiya blokadasından çıxdı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, problemin ədalətli həlli ilə bağlı beynəlxalq qurum və təşkilatlarda səmərəli fəaliyyətin təməli qoyuldu;
– Azərbaycana xarici sərmayənin yatırılması üçün əlverişli biznes mühitinin yaradılması istiqamətində əhəmiyyətli işlər görüldü;
– Regionların inkişafı, qeyri-neft sektorunun və sahibkarlığın yüksəlişi sahəsində dönüş yaradıldı;

– Qaçqın və məcburi köçkünlərə daim dövlət qayğısı göstərilməsi, yeni qəsəbələrdə onların yaşayış şəraitinin durmadan yaxşılaşdırılması dövlət siyasətinin prioriteti oldu;
– Demokratik proseslərin dərinləşməsi, mətbuat və söz azadlığı, çoxpartiyalı sistem, fikir plüralizmi təmin edildi, Azərbaycan demokratik cəmiyyət quruculuğunda mühüm uğurlar qazandı;
– Azərbaycançılıq dövlətçilik ideologiyasına – ölkədə yaşayan bütün millətləri, etnik qrupları və müxtəlif konfessiyaları dövləti maraqlar ətrafında birləşdirən qüvvəyə çevrildi;
– Dünya azərbaycanlıları ilə əlaqələr möhkəmləndirildi, diasporun təşkilatlanmasına diqqət və dövlət dəstəyi konkret proqram çərçivəsində həyata keçirildi;
– Azərbaycan Avropanın enerji daşıyıcıları ilə təminatında etibarlı tərəfdaşa, Cənubi Qafqazda lider dövlətə çevrildi.

Bütün bunlar ümummilli lider Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin və uğurlu siyasətinin bariz təzahürü olmaqla, müstəqil və müasir Azərbaycanın ən yeni tarixinə yazılan şərəfli səhifələrdir.



Biz nəyi, nə zaman və necə etməyi
özümüz hamıdan yaxşı bilirik!

**İLHAM ƏLİYEV**

# IV FƏSİL

# İLHAM ƏLİYEV – YENİ YÜZİLLİYİN YENİ LİDERİ

*İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

**Heydər Əliyev**
*Ümummilli lider*

## *4.1. İlham Əliyev şəxsiyyəti: «Xalq-Lider-Elita» müstəvisində*

İnsanın intellektual təfəkkürlü vətəndaş kimi formalaşmasında, tərbiyəsində ailənin rolu müstəsnadır. İnsan üçün ailənin əhəmiyyəti nə qədər böyükdürsə, ailə üçün də sevgi və hörmət mühitinin əhəmiyyəti o qədər önəmlidir. Sosiologiya elmində həmişə ailə kiçik bir cəmiyyət kimi araşdırılmışdır. Sosiumun intellektual mühitinin formalaşmasında, yetkinləşməsində ailənin rolu əvəz olunmazdır. Elə ailələr var ki, o nəinki yaşadığı cəmiyyət üçün örnəkdir, eyni zamanda millətə, xalqa, dövlətə əsl nümunədir. Belə ailədən tərbiyə vasitəsilə götürülmüş bütün müsbət keyfiyyətlər cəmiyyətin intellektual inkişafı üçün faydalıdır.

Təcrübə göstərir ki, əxlaqi özülü düzgün qoyulan ailə nəsillərə örnəkdir. Böyük şəxsiyyətlər, müdrik insanlar, mübarizlər yetirən ailənin qayğısı da çox olur, tərbiyəvi problemləri də. İlham Əliyevin

ideal tərbiyə aldığı Əliyevlər ailəsinin böyük şəxsiyyətlər, mübarizlər yetirən, millətini, xalqını, dövlətini dünyada tanıtdıran ailələrdən olması danılmaz həqiqətdir. Bu ailəni tale sanki millətinin, xalqının inkişafı, yetkinləşməsi, dünyaya tanıdılması üçün yaratmışdır. Bu ailədən müdrik şəxsiyyətlər çıxmışdır. Heydər, Həsən, Cəlal, Aqil, Hüseyn, Rəfiqə, Şəfiqə, Zərifə Əliyevlər. Bu insanların cəmiyyətimizin inkişafı, millətimizin tanınması üçün etdikləri milli tariximizin qızıl səhifələridir. Böyük əxlaqa söykənən kiçik bir ailənin dövlət, xalq üçün nə qədər əhəmiyyətli olması bu ailənin timsalında daha aydın, daha gözəl görünür. Məhz bu ailənin timsalında demək olar ki, ailə özü düzgün idarə olunan dövlətdir. Təkcə Əliyevlər ailəsinin deyil, bütün Azərbaycan adlı bir ölkənin övladı olan, nadir tarixi şəxsiyyət kimi yetişən Heydər Əliyevin siyasi iradəsi, analitik təfəkkürü, uzaqgörənliyi, cahanşümul əməlləri, tükənmək bilməyən enerjisi nəinki onun özünü, hətta bütün dünya azərbaycanlılarını planet miqyasında tanıtmışdır. Mənalı ömrünü xalqına, Vətəninə həsr etmiş bu nadir tarixi şəxsiyyətin həyat yolu dərin fəlsəfi köklərə bağlı böyük bir siyasi məktəbdir. XX əsrin sonunda siyasi tariximizə qurucu və siyasi rəhbər kimi daxil olmuş Heydər Əliyevin xalqına qoyub getdiyi zəngin irsi politoloqlar, tarixçilər tərəfindən hələ uzun müddət öyrəniləcəkdir. Heydər Əliyev fenomeninin məzmununun lazımi səviyyədə qiymətləndirilməsi olduqca vacib məsələlərdəndir. Heydər Əliyev şəxsiyyəti və onun həyatı elə fəlsəfi müqəddəs məktəbdir ki, gələcək nəsillər bu siyasi bilik ocağının saflıq, paklıq və halallıq kimi insani keifıyyətlərindən bəhrələnəcək, qüdrətlənəcək və milli ənənəyə dərin bir inamla bağlanacaqdır.

Azərbaycan xalqı haqlı olaraq yalnız fədakar oğlunu, yalnız Heydər Əliyevi özünün yeganə milli lideri, müstəqilliyinin təminatçısı, Azərbaycan dövlətçiliyinin memarı hesab edir. Çətin, çoxsahəli və zəngin fəaliyyəti nəticəsində Heydər Əliyev dünyada tanınmış ictimai-siyasi xadim kimi tarixi şəxsiyyətə çevrilmişdir. Siyasi uzaqgörənlik, qətiyyət, möhkəm iradə, fədakarlıq, tarixi prosesləri analitik təhlil etmək, milli təəssübkeşlik hissi, xalqına,

Vətəninə sonsuz məhəbbət kimi keyfiyyətləri ilə səciyyələnən bu görkəmli siyasətçini nəhəng dövlət başçıları ilə müqayisə edir, öz misilsiz xidmətləri ilə millətimizin və xalqımızın inkişafına çalışan yaşadığımız əsrin ən müdrik Azərbaycan vətəndaşı kimi qiymətləndirirlər. Həqiqətdir ki, Heydər Əliyev öz siyasi fəaliyyəti dövründə daim xalqının maraqlarını həyata keçirmək naminə məqsədyönlü iş aparmışdır.

N.Baybakovun «Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram» – ifadəsində real Heydər Əliyev şəxsiyyətini görürük.

«Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam». Ulu öndərin bu kəlamı onun həyat fəlsəfəsinin kvintisensiyasıdır.

Hər bir xalqı yaşadan onun mədəniyyəti, elmi və incəsənətidir. Əliyevlər ailəsinin görkəmli yetirməsi Həsən Əlirza oğlu Əliyev Azərbaycan torpağının ekologiyasını qorumaq üçün daim mübarizə aparan, onun meşələr və heyvanlar aləmini dərindən bilən, bölgələrimizi qarış-qarış gəzən vətəndaş alimlərdən biri olub.

Həsən müəllim özü haqqında belə deyirdi: «Mən ədəbiyyatçı və rəssam olmağı arzulayarkən taleyim məni başqa sahəyə – təbiətə, torpağa bağladı. Əlimə qələm alarkən torpağın tədqiqinə başladım. Torpağın dərdi çoxdur. Onu düşünmək, görmək və hiss etmək lazımdır». Azərbaycan torpağının zənginliyini bütün dünya elminə çatdıran məhz Həsən Əliyevdir.

Həsən Əliyevin də taleyinə, uşaqlıq illərinə az çətinliklər düşməmişdir. Mübarizələr, qarşıya qoyulan məqsədə nail olmaq, ailəsini, xalqını, millətini düşünmək kimi müsbət məziyyətlər bu insanın həyat kredosu olmuşdur. Dözümlülük, möhkəm iradə Həsən Əliyevin bir insan, alim, ictimai xadim kimi formalaşmasında müstəsna rol oynamışdır. Təbiətə, torpağa bağlılığı, hər şey vətən üçün, hər şey xalq üçün amalı bu gün gənclərimiz üçün intellektual məktəbdir.

Əliyevlər ailəsinin yetirməsi, AMEA-nın akademiki, Milli Məclisin deputatı olmuş Cəlal Əliyevin də Azərbaycan elmi, təhsili üçün etdikləri danılmaz həqiqətdir. Onun yetişdirdiyi buğda sortları bütün dünyada yüksək qiymətləndirilib. Cəlal Əliyevin elmi əsərlərinin, kəşflərinin sorağı elm aləmində böyük əks-səda yaradıb. Onun yetişdirdiyi elmi kadrlar bu gün Azərbaycan elminin ön sıralarında gedirlər. Xeyirxahlıq, millətə, vətənə bağlılıq kimi kateqoriyalar Cəlal Əliyevin həyat fəlsəfəsi olub. Bu həyat fəlsəfəsini gələcək nəsillər bu gün bir sərvət kimi öyrənirlər.

Akademik, iqtisad elmləri doktoru, professor Aqil Əliyev, Əməkdar elm xadimi Rəfiqə xanım, Şəfiqə xanım, görkəmli rəssam Hüseyn Əliyev Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin inkişafında misilsiz xidmətləri olan şəxsiyyətlərdir. Əliyevlər ailəsinə şərəf gətirən bu şəxsiyyətlər təkcə bir ailənin deyil, bütün xalqın, millətin övladlarıdır.

Qeyd etdiyimiz kimi, insanın tərbiyəsində, xeyirli işlər görməsində, xeyirxah və nəcib insan kimi yetişməsində ailənin çox böyük rolu vardır. Gözəl alim, nəcib insan kimi yaddaşımızda qalmış Zərifə xanım ülvilik təcəssümü olub. Zərifə xanımın ictimai xadim, görkəmli tibb işçisi kimi ömür yolu xalqımız tərəfindən yüksək qiymətləndirilib, indi də xatirəsi ehtiramla yad edilir.

Heydər Əliyev Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə layihəsi çərçivəsində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 85 illiyi ilə əlaqədar multimedia diski və saytı hazırlanmışdır – www.zarifa-aliyeva.az. Üç dildə – Azərbaycan, ingilis və rus dillərində hazırlanan multimedia diski və internet saytı 6 əsas bölmədən ibarətdir. Hər bölmədə 50-yə yaxın fotoşəkil və mətn yerləşdirilmiş, Zərifə xanım Əliyevanın həyat və yaradıcılığından söhbət açılmış, həkim və alim kimi fəaliyyəti ətraflı işıqlandırılmışdır. Fotolar titrlər verilməklə Azərbaycan bəstəkarlarının ölməz əsərlərinin müşayiəti ilə təqdim edilir. Bölmələrdə eyni zamanda Zərifə xanım Əliyeva ilə bağlı müxtəlif səpkili videomateriallar da yerləşdirilmişdir.

«Portret» adlanan bölmədə Zərifə Əliyevanın uşaqlıq dövründən başlayaraq həyatının müxtəlif anlarının əks olunduğu fotoşəkillər toplanmışdır. Bu bölmədə Zərifə xanım Əliyevanın ailəsindən söhbət açılır və qeyd olunur ki, Zərifə xanım Əliyevanın tanınmış bir ailədə tərbiyə alması və böyüməsi onun bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynamış, gələcək həyat və yaradıcılıq fəaliyyətində açıq-aydın əksini tapmışdır.

«Həkim-oftalmoloq» bölməsində Zərifə xanım Əliyevanın tələbəlik illərinin və sonrakı fəaliyyət dövrünün müxtəlif maraqlı məqamlarının əks olunduğu fotoşəkillər yerləşdirilmişdir. Bu bölmədə, həmçinin, akademik Nesterov Arkadi Pavloviçin və Elmi-Tədqiqat İnstitutunun sabiq direktoru Kseniya Trutnevanın Zərifə xanım Əliyeva haqqında xatirələrinin lentə alındığı videomaterial da yer alıb.

«Ömür-gün yoldaşı» adlı bölmədə Heydər Əliyev və Zərifə xanım Əliyevanın birgə ömür yolunu əks etdirən fotoşəkillər toplanmışdır. Bölmədə yerləşdirilən videomateriallarda Heydər Əliyevin Zərifə xanım Əliyeva ilə bağlı xatirələrindən bəhs olunur. «Ana» adlanan bölmədəki videomaterialda Sevil xanım Əliyeva və İlham Əliyevin sevimli anaları – Zarifə xanım Əliyeva ilə bağlı xatirələri lentə alınmışdır.

«Xatirələr» və «Elegiya» bölmələrində də olduqca maraqlı fotoşəkillər və videomateriallar toplanmışdır. «Xatirələr» bölməsində Müslüm Maqomayevin və professor Brovkina Alextina Fyodorovnanın Zərifə xanım Əliyeva ilə bağlı xatirələri əksin tapmışdır.

Diskdə ki, «Virtual muzey» adlanan bölmədə Zərifə xanım Əliyevanın iş otağı ilə virtual olmaq mümkündür.

Zəngin və mənalı ömür yolu keçmiş Zərifə xanım Əliyevanın elmdə qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Fitri istedada malik Zərifə xanımın böyük həyat yolunu bir diskdə işıqlandırmaq o qədər də asan deyil. Onu da qeyd edək ki, layihənin icrasına Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı

səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva bilavasitə rəhbərlik etmişdir.

Əliyevlər ailəsini öyrənərkən bir daha əmin olursan ki, İlham Əliyevin tərbiyə qaynaqlarının diapozunu geniş, əxlaqi-intellektual təsir qüvvəsi unikaldır.

Moskvalı həmyerlimiz, Zərifə xanımı tələbəlik illərindən tanıyan tibb elmləri doktoru, professor A.İmaməliyevin xatirələrində maraqlı bir məqam var: «İnsan taleləri bir-birinə oxşayır, ancaq bir-birini tamamlamır. Bir-birinin tam eyni olan insanlar da yoxdur. Zərifə Əziz qızı ilə Heydər Əlirza oğlu da bu mənada istisna deyillər. Onlar da hamı kimi balalarını böyüdür, valideynlərinin qayğısına qalır, hərdən sevinir, hərdən də kədərlənirdilər. Xidməti qulluqda, ictimai yerdə də uğurlar və uğursuzluqlar bir-birini əvəz edirdi. Ancaq onlar heç nəyə baxmadan bir-birini mənən zənginləşdirir, çətinliklərə bir yerdə mərdliklə sinə gərirdilər... Onlar birlikdə həqiqətən də Böyük və Parlaq bir ömür yaşadılar».

Bu Böyük və Parlaq ömrün həyat fəlsəfəsi istedadlı övlad İlham Əliyev üçün önəmli insanlıq məktəbi olmuşdur.

Zərifə xanımı tanıyanların hamısı onu son dərəcə mədəni, mənən səmimi insan kimi səciyyələndirir, olduqca təbii cazibədarlığa, müstəsna ünsiyyət qabiliyyətinə malik ana, rəfiqə kimi qiymətləndirirlər. O, Azərbaycanın böyük elm və mədəniyyət xadimlərinin – Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Əbülfəz Qarayevin, Mirəsədulla Mirqasımovun, Bülbülün, Səməd Vurğunun mənəvi dühasının mühitində böyümüşdür. Onun ömrü boyu möhkəm, qırılmaz tellərlə bağlandığı iki fenomen – Ailə və Elm olmuşdur. Zərifə xanım ana olarkən etiraf edirdi ki, uşaqlıq çağları insanın özünü dərk etməsində həlledici dövrdür və insanın bütün ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil. İnsan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır.

Qeyri-adi ana olan bu qadın övladlarına öz ailəsində aldığı tərbiyəni irsən, məhəbbətlə ötürürdü, uşaqlarını Ulu Tanrının bəxşişi, payı hesab edirdi. Bütün enerjisini layiqli övlad yetişdirməyə

sərf edən Zərifə xanım öz analıq borcunu yerinə yetirməkdə bənzərsiz Ana idi. Onu yaxından tanıyan rəfiqələri etiraf edirdilər ki, Zərifə xanımı bir ana kimi heç kəslə müqayisə etmək olmazdı. Doğrudur, bütün analar övladlarını hədsiz sevirlər, necə deyərlər, hər bir bala anası üçün əzizdir, doğmadır. Lakin Zərifə xanımın öz övladlarına məhəbbəti heyrətamiz, bənzərsiz bir analıq borcunun təcəssümü olmuşdur. O, övladın tərbiyəsinin ailə və cəmiyyət üçün son dərəcə vacib ictimai borc, valideynlər üçün tam məsuliyyətli funksiya olduğunu dərindən dərk edən ana idi. Deyə bilərik ki, bu keyfiyyət Zərifə xanımda bir professional, ilahi vergi idi.

Ailəsində övladlarına saf tərbiyə verməklə səmimi və fədakar ana olduğu kimi, Zərifə xanım elmdə də, qəlbən məftun olduğu həkimlik peşəsində də yüksək professional, bir fanatik idi. 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirdikdən sonra o, traxoma xəstəliyinin öyrənilməsi üzrə apardığı tədqiqatları başa çatdıraraq oftalmologiya sahəsində aktuallıq kəsb edən qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı elmi araşdırmalara başlamışdı. Onun tədqiqatlarından irəli gələn rasional ideyalar sonralar klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin tədqiqatları üçün önəmli qaynaq oldu. Zərifə xanımın zəngin həkimlik təcrübəsi, onun bu sahədəki erudisiyası və professionallığı barədə həmkarları çox səmimi və dəyərli fıkirlər, rəylər söyləmişlər. Bu barədə elmi məcmuələrdə, dövri mətbuatda xeyli yazılmış və deyilmişdir.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, dövlət mükafatı laureatı M.M.Krasnov Zərifə xanım barədə xatirələrində yazır: «Hətta ən istedadlı fərziyyənin ətrafında həmişə müxtəlif şişirtmələr, qəsdən və bilməyərəkdən müxtəlif uydurmalar, bir az da kəskin desək, şarlatanlıq dolaşır. Suallar öz həllini tapanacan onları təbiətin qarşısında qoymaq lazımdır. Təsadüfi deyildir ki, başqa birisi yox, məhz Zərifə xanım «Pridodiaqnostika» kimi nəhəng elmi monoqrafiyanı yazmağa və nəşr etməyə səy göstərirdi.

Həmin monoqrafiya kitab mağazalarının rəflərində görünən kimi yoxa çıxdı. Zərifə xanımın elmi cəsarəti onun elmi təvazökarlığı ilə üst-üstə düşürdü. Hər iki insani keyfiyyət bir-biri ilə çox vaxt ziddiyyətdə olmasına baxmayaraq, onlar Zərifə xanımın timsalında eynilik təşkil edirdi. Elmi nailiyyətlərinə görə o, Tibb Elmləri Akademiyasının mükafatına layiq görüldükdə bütün səmimiyyətilə təəccüblənmişdi: «Nə üçün məhz mənə?». Zərifə xanım təkcə elm aləmində yox, həyatda da məhz bu cür səmimi idi».

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru, akademik, Filatov adma mükafatın laureatı V.V.Şmelyovanın xatirəsindəki bu sözlərdən təsirlənməmək olmur: «Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu «Əvəzolunmaz insan haqqında povest» adlandırardım».

Necə deyərlər, şərhə ehtiyac yoxdur.

Alman maarifçisi Uohan Zeymcin bu sözləri sanki Əliyevlər ailəsi haqqında söyləyib: «Ailədə ədalətsizliyə dözməyənlər cəmiyyətdə də buna yol verməz». Ailədə qazanılmış bu tərbiyəvi keyfiyyət siyasi elitamızın öndəri İlham Əliyevin həyat fəlsəfəsinin, onun dövlətçilik fəaliyyətinin başlıca qayəsidir.

Bu gün Azərbaycan siyasətinin lideri, Heydər Əliyev ocağının parlaq nümunəsi olan İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatındakı fəaliyyəti, kamil bir siyasətçi kimi yetişməsi, xalqına, millətinə layiq bir övlad olması Əliyevlər ailəsinin intellektual mühitinin bəhrələri kimi səciyyələndirilməlidir. Əliyevlər ailəsinin nümunəsində tam əminliklə demək mümkündür ki, intellektual yetkinlikdə ailənin rolu əvəzsizdir. Ailədə azad fikir, plüralizm, qarşılıqlı hörmət ailənin xoşbəxtliyidir. İlham Əliyevin belə xoşbəxtlik haqqında verdiyi dolğun cavab budur: «Məqsəd insanlara, xalqa gərəkli olmaq, cəmiyyətə daha çox fayda verməkdir. Valideynlərimdən mən həmişə bu sözləri eşitmişəm».

Əliyevlər ailəsinin tərbiyə fəlsəfəsinin ali ideyası belədir: xalqa gərəkli olmaq, cəmiyyətə fayda vermək. Bu ailədə millətə, xalqa, vətənə bağlılıq sevgisi barədə tədqiqatçıların araşdırmaları

həmişə aktuallıq kəsb edəcəkdir. Qəlbi millətin arzularına açıq olan Əliyevlər ailəsi indiki və gələcək nəsillər üçün çox yararlı keyfiyyətlər qoymuş, millət, xalq üçün tərbiyə təcəssümünə çevrilmişdi.

Millətə elit övladlar vermiş, bu ailə daha dərindən tədqiq olunmalı bir məktəbdir. Bu məktəbin tərbiyəsindən bəhrələnmək, öyrənmək, yararlanmaq lazımdır. Əliyevlər ailəsi əyani surətdə göstərib ki, əsl milli ideal cəmiyyət, dövlət, millət üçün şəxsiyyətlər yetirməkdir.

İlham Əliyev barədə bir siyasətçi kimi düşüncələrə dalarkən istər-istəməz Amerikanın keçmiş prezidentlərindən biri Corc Buşun (ata) «Dünya başqa cür olub» əsərində söylədiyi bir fikir yada düşür: «Prezidentin rəhbərlik rolu əvvəlkindən daha mühümdür. Daxili siyasət baxımından ölkənin xarici siyasətinin baş konstitutsion ötürücü rolunu bütün ciddiliyilə başa düşməli, məqsədləri işləyib-hazırlamalı və prioritetləri müəyyənləşdirməli, hansının maraqlarına uyğun gələn işi görməli və bunları dəstəkləmək üçün ölkəni ayağa qaldırmalıdır».

Bu gün Azərbaycan yeni, demokratik cəmiyyət quran, müasirtipli sosial institutların fəaliyyət göstərdiyi müstəqil dövlətdir. İlham Əliyev böyük siyasətə atıldığı ilk günlərdən bilirdi ki, Azərbaycan xalqının gələcək rifahı ölkəmizin təbii-coğrafi şəraitindən, xalqın yüksək intellektual potensialından, təhsil səviyyəsindən, azərbaycanlıların mənəvi və humanist xarakterindən, zəngin insan resurslarından səmərəli istifadə olunmasından xeyli asılıdır. Buna görə də belə qlobal vəzifənin uğurlu həllində hakimiyyət sükanının kimin, hansı liderin əlində olmasının əhəmiyyəti xüsusilə böyükdür. Ümumiyyətlə, millətimizin tarixində, xalqımızın ictimai şüurunda hakimiyyət həmişə kütlənin sidqi-ürəklə inandığı sanballı lider fenomenində təcəssüm tapmışdır. Ona görə də xalq özünün taleyüklü problemlərinin həllini güclü və ağıllı rəhbərin əzmkar fəaliyyəti, onun şəxsi və bənzərsiz keyfiyyətləri ilə bağlamışdır.

Vaxtilə «Üç nöqtə» qəzetinə müsahibə verən tanınmış siyasətçi, Prezidentin İcra Aparatı İctimai-siyasi şöbənin müdiri Əli Həsənov

bildirmişdi ki, iqtidar «iqtidar-müxalifət dialoqunun» tərəfdarıdır və eyni cərgədə addımlaya bilər, təki burada dövlət maraqları hər şeydən üstün olsun. O yerdə ki onların dövlətçiliyimizə zidd hərəkətlərini görürük, biz susa bilmərik. Bu gün də biz hesab edirik ki, bizim müxalifətdə həddən artıq qabiliyyətli, istedadlı, dövləti, xalqı, vətəni sevən, onun xoşbəxtliyinə çalışan insanlar var. Biz istərdik ki, gələcəkdə müxalifətçilər güzgümüz olsun, biz dövlət idarəçiliyində daha məsuliyyətlə işləyək. Lakin təəssüflər olsun ki, bəzən bu güzgü saydığımız düşərgədə elə hallar baş verir ki, dövlətin mövqeyində duran adamlar bu işdə onlarla birgə addımlaya bilmir».

Əlbəttə, bu iqtibası gətirməklə biz heç də prinsipcə siyasi müxalifətin əleyhinə deyilik. Hər bir sivilizasiyalı ölkədə sağlam müxalifət olmuş və bundan sonra da olacaqdır. Lakin inkişaf etmiş demokratiyalarda müxalifət mədəniyyəti cəmiyyətin artıq siyasi dəyərlərindən birinə çevrilmişdir. Daha dəqiq deyilsə, vətəndaş cəmiyyəti qurmuş demokratik ölkələrdə müxalif qüvvələr iqtidara qarşı vicdan müxalifətində dururlar, yəni dövlətin intellektual potensialını təşkil edən ziyalılar özlərinin rasional təklifləri ilə mövcud iqtidarın həm daxili, həm də xarici siyasətinin düzgün aparılması, təkmilləşdirilməsi üçün sanballı tövsiyələr verirlər, hakimiyyət strukturlarında baş verən əyintiləri sağlam düşüncə baxımından tənqid edərək, vəziyyətin normallaşdırılması üçün faydalı təkliflər irəli sürürlər. Bu mənada orada bizim şahid olduğumuz qərəzçi müxalifət qarşıdurması yoxdur. Bizim müxalifət isə, hər vasitə ilə hakimiyyətə can ataraq, siyasətlə məşğul olmağı yeganə ideal sayır və buna görə də mövcud iqtidarın fəaliyyətində heç bir müsbət addımı görmək belə istəmir.

Bəşər sivilizasiyasının inkişaf məntiqi dəfələrlə sübut etmişdir ki, keçmişdə olduğu kimi, indi də milli-azadlıq hərəkatlarında ən ülvi ideya – azadlıq idealı naminə tökülən qanlar, əvəzsiz qurbanlar, insan kədərinin miqyası, verilən maddi və mənəvi itkilər xalqların tarixi yaddaşından heç zaman silinmir. Bəlkə də tarixin ibrət dərsinin müdrikliyi bundadır ki, hər bir millətin sosial

təfəkkürünü məhz onun tarixi gerçəkliyinin ağrılı, faciəli məqamları formalaşdırır, onda tarixi qüsurları vaxtında aradan qaldırmaq immunitetini yaradır, gələcəyə nikbin baxmaq potensialını artırır.

Azərbaycan xalqı da belə bir taleyi yaşamışdır. Yaxın keçmişdəki təlatümlərlə dolu, insan faciəsi və qaçqınlıqla bağlı illərimizə nəzər salmaq kifayətdir. Bu illər xalqımız üçün daha çətin, ağır dövr olmuşdur. Lakin buna baxmayaraq, ulu öndər Heydər Əliyevin respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşündəki nitqində dediyi kimi, «ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik». Bununla yanaşı bu dövrdə xalqımız belə bir həqiqətlə də üzləşdi: müstəqilliyimizin bərpa edilməsindən Qurtuluş gününədək Azərbaycanın siyasət səhnəsində pafoslu və populist ideyaları ilə siyasətə təşrif gətirən hakim qüvvələrin heç biri xalqın böyük əksəriyyətinin nüfuzuna, rəğbətinə nail ola bilmədi.

Xalqla ana dilində ünsiyyət yaratmağı bacarmayan Ə.Vəzirovun hakimiyyət illəri «faciəli komediya janrını» xatırladırdı. Bütün gələcək faciələrimizin, xalqın taleyinə düşəcək bəlaların özülü onun respublikaya rəhbərlik etdiyi illərdə qoyuldu. O, artıq «siyasi meyit» olduğundan barəsində ətraflı və təfsilatlı danışmağı sadəcə lazım bilmirik. Tarix artıq öz hökmünü vermişdir.

Həqiqəti desək, həm Ayaz Mütəllibov, həm də Əbülfəz Əliyev komandası siyasi reytinq şkalasında həmişə aşağıya doğru enən fəaliyyət nümayiş etdirmiş, xalqın layiqli etimadını qazanmamışlar. Hər iki komanda hakimiyyətdə olarkən, nəinki Qarabağ torpaqlarını azad edə bilməmiş, üstəlik nadan, səriştəsiz siyasətləri sayəsində hərbi iflasa uğrayaraq, yüzlərlə gəncin vaxtsız həyatdan köçməsinin baisi olmuşdur. Siyasətin meyarını populist vədlərdə görən hər iki keçmiş prezidentin hakimiyyəti illərində xalqın nəinki elementar sosial tələbatı ödənilməmiş, əksinə sovet dövründən respublikaya miras qalmış böyük iqtisadi potensial məhv edilmişdir. Faciəli paradoks bundadır ki, bu ağlın sahibləri

mövcud sosial-iqtisadi potensialı inkişaf etdirməyə qabil olmadıqları halda, «Azərbaycanı Küveytə çevirəcəyik» kimi spekulyativ vədlərlə kütlələri aldatmışlar. Elmi potensial olmadan iqtisadiyyatın inkişafının mümkünsüzlüyünü dərk etməyən həmin «liderlər» elmi elitanı hakimiyyət strukturlarına yaxın buraxmamış bu səbəbdən də, xalqın «düşünən beyinləri» normal elmi yaradıcılıqdan soyumuşdular. Qısa müddətli hakimiyyət dövründə onlar demokratik dəyərlərin cəmiyyətdə qərarlaşmasına çalışmaqdansa, əslində mental populist şüarlara üstünlük vermiş, hakimiyyətlərini kütləyə əxlaqi-mənəvi sərvətlərin təcəssümü kimi təqdim etmişlər. Lakin ən ağrılı və əzablı etiraf budur ki, onların hakimiyyət illəri xalqımızın inkişaf tarixinə hələ bir müddət kölgə salacaqdır.

20 Yanvar faciəsindən sonra Mütəllibov komandası Moskvanın siyasi vassallığını könüllü qəbul etməklə, əslində kommunist kreslosunun ömrünü uzatmış və totalitar ictimai-siyasi formasiyanın sosial-əxlaqi dayaqlarına – sosial zorakılıq və ideoloji yalançılıq metodlarına söykənərək, kütlənin düşüncəsini böyük və mühüm islahatlar ətrafında nəinki səfərbər etməmiş, əksinə Qarabağ torpaqlarının erməni təcavüzkarları tərəfindən işğal olunması üçün ilkin şərtlərin yetişməsinə faktiki şərait yaratmışdır. O zaman kütlənin təzyiqi və xalqa yaxın qüvvələrin qətiyyətli tələbi sayəsində kommunist partiyası ilə üzləşəndə də, hələ «sosializmi təkmilləşdirmək, mümkün qədər çox sosializm ideologiyası altında əslində imperiya siyasətini təmsil edən də, Ali Sovetin saxta mandatını alıb, respublikanın müstəqillik aktını qəbul etmək məcburiyyətində qalanda da, vaxtilə məftun olduğu «birinci katib» postunu «Prezident» kreslosu ilə həvəslə dəyişəndə də Ayaz Mütəllibov Moskvanın monopoliya siyasətinin əbədiliyinə inanaraq Azərbaycandan əl çəkmək istəmədən imperiya qüvvələrinin havadarlığına bel bağlamış, bununla da mahiyyətcə xalqa zidd siyasətin başında durmuşdur. Sonrakı hadisələrin məcrasında istefa verib bir müddət geriyə çəkilmək taktikasına rəvac verməsi, daha sonra mərkəzdəki «Mütəllibov dostlarının» köməkliyilə yenidən hakimiyyət kreslosunda oturmaq arzusu, siyasi səriştəsizlik

və fərsizlik üzündən vətəni tərk edib illər uzunu könüllü mühacir həyatını yaşamaq kimi rüsvayçı bir missiya ilə barışması – onun çıxışlarının məğzini də əlavə etsək – göstərir ki, o, Azərbaycan cəmiyyətində lazımi (hər halda özünü böyük siyasətçi hesab edən üçün) sosial bazaya malik deyil, onun yenidən siyasətə qayıtması isə uzun illərin zəhməti sayəsində ölkədə yaranmış sabitliyin pozulması cəhdi kimi qiymətləndirilməlidir. Bu həmçinin belə başa düşülməlidir ki, xalqın həyati mənafelərini Moskvanın Cənubi Qafqaz maraqlarına qurban verən Azərbaycan vətəndaşı olsa belə, xalq çox şeyləri bağışlamayacaqdır. Buna baxmayaraq, Prezident İlham Əliyev böyük humanistlik edərək onun vətənə qayıtmasına, vətənində ömür sürməsinə icazə vermişdir.

Milli-azadlıq hərəkatımız ağrılı, ziddiyyətli olmuş, çox zaman ağılagəlməz hadisələrlə müşayiət olunmuşdur. Azərbaycan Xalq Cəbhəsi və onun «lideri» Əbülfəz Əliyevin, həmçinin hərəkatımızın mentalitetinin populist dalğalarında üzə çıxan, bir müddət hakimiyyət strukturlarında öz «iradələrini» nümayiş etdirmiş İsa Qənbərlərin, Pənah Hüseynovların, Rəhim Qazıyevlərin və başqalarının faciəsini şərtləndirən amilləri başa düşmək çətin deyildir. İlham Əliyev həmin illərdə vətənin bu ağrıları ilə yaşamışdır.

Qanlı yanvar hadisələri sübut etdi ki, cəbhəçi «liderlər» xalqın faciəli anlarında, cəmiyyətin taleyüklü problemlərinin həllində ağılagəlməz qətiyyətsizlik göstərir, özlərinin gurultulu populist çıxışları, cılız siyasi ambisiyaları ilə xalq işinə sağalmaz zərbə vururlar. Cəbhəçilərin sonrakı «liderlik fəaliyyəti», xüsusilə AXC-nin ayrı-ayrı liderləri, təəssüf ki, bir çox «zəka sahibləri»nin qeyri-professional qaraguruhçu hərəkətləri bunu bir daha təsdiq etdi. Bu barədə çox danışmaq olar. Unutmaq olmaz ki, vaxtilə, cəbhəçilər İlham Əliyevin rəhbərliyə, liderliyə hazır olmaması barədə nəinki qərəzli mövqelərini əsaslandırmağa çalışır, hətta az qala bu sərsəm ideyaları naminə geniş kütlədən dəstək gözləyirdilər.

Diplomatiyadan tam xəbərsiz olan bu «liderlər»in düşünülməmiş bəyanatları Azərbaycanı dünyanın aparıcı dövlətləri içə-

risində ictimai nüfuzdan salır, demokratik dövlətlərin siyasi himayəsindən məhrum edirdi. Bütün bunlar isə «baş lider», «Türkün bayrağı Çində, Hindistanda dalğalanacaq» deyən, dövlətçilik təfəkkürü olmayan Əbülfəz Əliyevin hakimiyyəti dövründə, onun komandasının gözləri önündə baş verirdi.

O dövrdə «İzvestiya» qəzeti yazırdı: «...Əbülfəz Əliyevin gecə ikən paytaxtdan «kiçik vətənə» yola düşməsi Azərbaycan əhalisinin böyük əksəriyyəti tərəfindən məhz adicə qaçmaq kimi qiymətləndirilmişdir. O, prezidentliyinin son günlərində öz obrazının xalqın gözündə mümkün olan qədər kiçildilməsi üçün hər şeyi etmiş, faktik parlament onu işdən kənar edənə qədər bir çoxlarının gözündə prezidentlikdən düşmüşdü. Ölçülüb-biçilməmiş son addımları ona ləyaqətlə çıxıb getməyə imkan verməmiş, lakin getməsi üçün əvvəlcədən şərait yaratmışdır».

Həmin hadisələrlə əlaqədar olaraq, o dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev «Ostankino» teleşirkətinə müsahibəsində AXC «liderlər»inin hakimiyyəti dövrünə qiymət verərək demişdi: «...Əbülfəz Əliyev və AXC-nin rəhbər vəzifələr tutan digər liderləri... hiss edirdilər ki, onların nüfuzu gündən-günə aşağı düşür, xalq onlara olan etibarı itirir və onlar respublikanı idarə edə bilmirlər... Xalq bunu görürdü. Xalq Cəbhəsinə olan əvvəlki hörmət indi yoxdur, eləcə də AXC-nin sosial bazası yoxdur».

Xalqın gözü qarşısında həm siyasi, həm də mənəvi iflasa uğramış, hər cür məsuliyyətdən qaçmağa çalışan AXCP «liderlər»inin hakimiyyətə hərisliklə can atmaları bir yana qalsın, onlar hələ üstəlik öz mətbuatlarda İlham Əliyev ətrafında siyasi möhtəkirlik edir, onun haqqında səviyyəsiz yazılar verirdilər.

Ümumiyyətlə, xalq qarşısında öz borcunu yerinə yetirən iqtidar haqqında ağ yalanlar, cəfəng və cılız yazılar vermək, əslində, Xalq Cəbhəsi liderlərinin on üç aylıq hakimiyyəti illərində xalqın yaddaşında yazılanları unutdurmaq cəhdidir.

Onu da deyək ki, biz Xalq Cəbhəsinin «liderlər»i barədə danışarkən real gerçəklikdən çıxış edirik, əgər belə demək olarsa,

qədim latın kəlamını – «Sine ira et Sfudio» – «qəzəbsiz və qərərsiz» prinsipini rəhbər tuturuq. Hamımız bilirik ki, xalq cəbhəsi, hər şeydən əvvəl, xalqın birliyi deməkdir, bu mənada o müqəddəs anlayışdır. Xalq hərəkata qoşularkən bu anlayışa həmişə ideal münasibət bildirmişdir. Halbuki, cəbhəçilərin tələsik, səriştəsiz qəbul edilmiş qərarları və sağlam düşüncəyə söykənməyən hərəkətləri ölkədə hərc-mərclik, daha acınacaqlısı isə ziyalı-kütlə qarşıdurması yaratdı. Biz tarixin inadcıl, danılmaz məntiqi ilə mübahisəyə girmək niyyətində deyilik, milli tariximizin hər bir məqamına məntiqli qiymət veriləcəkdir. Lakin bir məsələ haqqında indidən qəti fikir söyləmək mümkündür: Hər halda cəmiyyətimizin çox bəlalarının baisi olan cəbhə «liderlər»inin siyasi davranışını tarix çətin ki, müsbət qiymətləndirsin.

Əslində, xalq o dövrdə onun siyasi idealını həyata keçirə biləcək liderdən nə gözləyib? Onda qabaqgörənlik «vergisi» olmalı, o, ölkənin perspektivli inkişaf proqramının aparıcı istiqamətlərini düzgün və aydın işləyib hazırlamalı, ardınca gələnlərin, ideyalarını dəstəkləyənlərin rəyinə və arzularına həssaslıqla yanaşmalı, dövlətin milli idealı və xalqın milli ideyası naminə əhalinin müxtəlif təbəqələrinin təmsilçilərini idarəçiliyə cəlb etməyi bacarmalıdır. Lider hər şeydən əvvəl cəmiyyətin bütün üzvlərini – ən vicdanlı zəka sahiblərini, intellektualları, yaradıcı qüvvələri birləşdirməli, bununla da ölkənin mədəni-iqtisadi resurslarının potensialını ümdə məqsəd naminə istiqamətləndirməlidir. Bundan ötrü müasir yaradıcı təfəkkürə malik olmalı, ictimai rəydə təzahür edən ən kiçik tərəddüdə belə həssaslıqla reaksiya verməli, siyasətdə heç olmasa iki-üç «gedişi» irəlicədən görə bilməli, öz hərəkətlərinin və qəbul etdiyi qərarların nəticələrini məsuliyyətlə dərk etməlidir. Zaman göstərdi ki, Prezident İlham Əliyev bütün bu keyfiyyətləri hələ böyük siyasətə başladığı gündən nümayiş etdirə bilmişdir.

İlham Əliyevin fəaliyyətində belə bir faktor qiymətləndirilməlidir ki, o, xalqın mənafeyinə diqqətlə yanaşan və öz fəaliyyətini, enerjisini xalqın mənafelərinin ödənilməsinə sərf edən şəxsdir.

Biz bu gün şahidiyik ki, «xalq sifətli siyasət» əhalinin müxtəlif qruplarının aktual mənafelərini formalaşdırmaq və uzlaşdırmaq siyasətidir. Siyasətçi, siyasi elitanın nümayəndəsi yüksək intellektə, müasir idarəçilik bacarığına malik olmalı, təmkinlik, loyallıq, yüksək ünsiyyət mədəniyyəti nümayiş etdirməlidir. Bir qədər irəli gedərək göstərək ki, hakimiyyət konsepsiyasında liderin şəxsi keyfiyyəti nə qədər yüksək olsa da, müxtəlif situasiyalarda həm liderdən, həm də siyasət iştirakçılarından müxtəlif şəxsi qabiliyyətlər və keyfiyyətlər tələb olunur. Belə ki, lideri yalnız onun öz fərdi keyfiyyətləri baxımından dəyərləndirmək onun fəaliyyət diapazonunu daraltmaqdır. Buna görə də İlham Əliyevin fikrincə, lider fenomenində başlıca cəhət rəhbər işçinin şəxsi keyfiyyətlərinin onun tabeçiliyində olanların keyfiyyətləri, fəaliyyətləri və vəzifələri ilə uzlaşdırmaq bacarığıdır. Lider nəinki problemin həllinə yaradıcı yanaşmalı, həmçinin, hər şeydən əvvəl, «orta insanın» intellektual potensialını hərəkətə gətirməlidir. Belə bir xarizma İlham Əliyevdə vardır.

Xoşbəxtlikdən tarix xalqımıza Heydər Əliyevin simasında bütün bu sadalanan parametrlərə tam cavab verən ümummilli siyasi lider bəxş etmişdir. O, elə bir liderdir ki, onun siyasət ideyası, sosial-iqtisadi və mədəni potensialı XXI əsrdə Azərbaycan dövlətinin qəbul ediləcək siyasi xadimi üçün son dərəcə önəmlidir. Buna görə də, Heydər Əliyevin siyasi-intellektual mühitində formalaşmış, Zərifə xanım kimi qeyrətli azərbaycanlı qızından tərbiyə almış İlham Əliyevin böyük siyasətdə cəsarətlə addımlaması heç də genetik hadisə, yaxud Heydər Əliyev siyasi xəttinin bir ovuc simasını itirmiş əleyhdarlarının təlqin etdiyi kimi bir ailənin subyektiv niyyəti deyil, cəmiyyətimizin ictimai-siyasi reallıqlarının, obyektiv məntiqin və sosial gerçəkliyimizin demokratikləşməsi prinsipinin labüdlüyü ilə şərtlənən zərurətdir. Sevimli bəstəkarımız Qara Qarayev həmişə deyərdi: «Müəllim odur ki, şagird yetişdirir». Bu gün Əliyevlər ailəsi iftixarla deyə bilər ki, Prezident İlham Əliyevin simasında təkcə mükəmməl savada malik, ata məhəbbətinə və əqidəsinə sadiq övlad deyil, həmçinin XXI əsr Azərbaycan

siyasəti və diplomatiyasında özünə mühüm yer tutmuş istedadlı siyasətçi tərbiyə edib. Bunun bəhrələrindən bu gün biz də tam mənəvi qürurla sevinirik.

Biz qətiyyətlə deyərdik ki, İlham Əliyev hələ 1998-ci il martın 31-də San-Fransiskodakı ABŞ-da ən nüfuzlu, görkəmli siyasətçilər yetişdirmiş təhsil ocağı, işgüzar dairələrin geniş əlaqə saxladığı intellektual mərkəz olan Stenford Universitetindəki sanballı çıxışı və ləyaqətli iştirakı ilə özünü bacarıqlı və savadlı diplomat kimi təmsil etmiş, xalqımızda gələcəyin milli lideri obrazını formalaşdıra bilmişdi.

İlham Əliyevin adı çəkilən universitetdə dərin və professional çıxışının doğurduğu maraq yığıncaq iştirakçıları tərəfindən xüsusilə vurğulanmışdı. Həmin yığıncağa sədrlik edən ABŞ-ın keçmiş müdafiə naziri cənab Uilyam Perri «strateji cəhətdən çox böyük əhəmiyyətli ölkə olan Azərbaycanın hazırkı iqtisadi inkişafını, respublikada yaranmış möhkəm ictimai-siyasi sabitliyi yüksək qiymətləndirmiş, bütün bunların Amerikanın strateji mənafelərinə uyğunluğunu, Azərbaycanla əlaqələrin daha da möhkəmləndirilməsini» xüsusi qeyd etmişdi.

Azərbaycanda islahatların gedişi, Qafqazda xarici ölkələrin hərbi hissələrinin yerləşdirilməsi, Xəzərin Azərbaycan sektorunda hasil ediləcək nefti dünya bazarına çıxaracaq kəmərlərin marşrutları və tikintisi, Xəzər dənizinin statusu, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli, o dövrdə daha çox müzakirə obyekti olan Konqresin 907-ci düzəlişinə və digər suallara İlham Əliyevin dolğun cavabları yığıncaq iştirakçılarının yekdil fikrincə, Azərbaycan haqqında həqiqətlərin Amerikada geniş yayılmasına əvəzsiz təsirini göstərmişdi. Məsələn, ABŞ-ın dövlət katibi Corc Şults dəyərli çıxışı üçün İlham Əliyevə təşəkkür etmiş, onun dərin təhlilə əsaslanan mülahizələrini diqqətlə dinlədiyini bildirmişdi. Cənab C.Şults demişdi: «Cənab İlham Əliyev, sizin öz qüvvənizə arxalanmağınız, işlərinizi uğurla irəli aparmağınız məndə böyük rəğbət doğurur. Mən inanıram ki, müstəqil Azərbaycan Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi

ilə yaxın illərdə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir».

Amerika siyasətçisinin İlham Əliyevin çıxışına reaksiyası bir daha göstərir ki, o, geniş siyasi arenaya çıxan siyasətçini və millət vəkilini «şahzadə» kimi yox, artıq böyük siyasətdə öz sözü ilə iştirak edən səriştəli diplomat kimi qiymətləndirmişdi.

Azərbaycanın əzablı yollarla formalaşmaqda olan demokratik mətbuatı gənc siyasətçinin bu mühüm uğurlarını xalqa operativ şəkildə çatdırırdı.

Təbii ki, həmin illər xalq da yerli və xarici mətbuatı diqqətlə izləyir, gələcək liderin uğurlarına ürəkdən sevinirdi.

İlham Əliyev yeni siyasətçilər formasiyasının nümayəndəsi kimi demokratik liberalizm istiqamətində fəaliyyət göstərir, buna görə də islahatçılığın vacibliyini düzgün dərk edirdi. Ümumiyyətlə, yenilik duyğusu, siyasi dəyərlərin zamanla həmahəng səslənməsini vaxtında qiymətləndirmək bacarığı demokratk liberalizm ideologiyasının mühüm prinsiplərindən biridir və bu mənada İlham Əliyevin bütövlükdə dünyagörüşü, siyasi idealı müasir siyasətin praktiki parametrlərinə cavab verir.

Şübhəsiz ki, İlham Əliyev Moskva Beynəlxalq Əlaqələr İnstitutunda təhsil aldıqdan və oranı müvəffəqiyyətlə bitirdikdən sonra müəllim-mühazirəçi kimi çalışarkən müasir politoloji fikirdə mövcud olan beynəlxalq münasibətlər nəzəriyyələrini, xarici siyasət konsepsiyalarını dərindən öyrənmiş və tədris etmişdir. Müasir fəlsəfi nəzəriyyələr, pozitiv siyasi təlimlər son nəticədə liberal dünyagörüşünə söykənir. Məsələ burasındadır ki, ictimai fikirdə liberal dünyagörüşü yaranan gündən həmişə fərdi azadlıq idealı universal məqsəd kimi dəyərləndirilmişdir. Liberal dünyagörüşün ilkin şərti insanın fərdiliyini vurğulamaq, insanın öz hərəkətləri üçün həm özü, həm də cəmiyyət qarşısında məsuliyyətini dərk etmək ideyasını, bütün insanların əzəli bərabərliyi haqqında təsəvvürləri qəbul etməkdir. Məhz buna görə də liberalizm ilkin mərhələdə lider üçün vacib olan keyfiyyətlərə – şəxsiyyətin ləyaqəti, dözümlülük, başqalarından seçilmək

qabiliyyəti və öz mənliyində özünəməxsusluğunu saxlamaq bacarığı kimi mühüm dəyərlərə üstünlük vermişdir. Hətta liberalizmin banilərindən olan ingilis filosofu və sosioloqu C. Mili belə bir fikir söyləyir: «İnsan ona nəyin lazım olduğunu hər bir hökumətdən yaxşı bilir». Belə bir fəlsəfi ideal sosial iyerarxiya üzrə tez bir zamanda irəliləmək, təşəbbüskarlıq, uğur qazanmaq üçün inadla yollar axtarmaq, əməksevərlik, novatorluq və digər keyfiyyətlər aşılayır. Bu gün cəsarətlə demək olar ki, kapitalizmin dinamik sistem kimi formalaşmasında da məhz bu dəyərlər mühüm rol oynamışdır. Müasir mərhələdə isə başlıca məsələ bu liberal dəyərlərdən reallıqlara uyğun istifadə etməkdir.

İlham Əliyev hesab edir ki, kapitalizmin inkişaf məntiqinə görə, azadlıq ideyası mülkiyyət ideyası ilə birgə inkişaf edir və biz aktiv fəaliyyətlərimiz üçün məhz mülkiyyəçilik hissinə minnətdarıq. Bilməliyik ki, fəaliyyətin məhsulu fəaliyyət subyektindən özgələşməməlidir, çünki fəaliyyətin məhsulları insanın mahiyyət davamıdır və bu günün bazar iqtisadiyyatı, iqtisadi islahatlar da sübut edir ki, şəxsiyyəti bunsuz təsəvvür etmək mümkün deyildir. Plüralizm – istər siyasi, istərsə də iqtisadi-liberalizmin mühüm komponenti olsa da, hər halda onu qeyri-məhdud azadlıqla, özbaşınalıqla, cəmiyyətdə qəbul olunmuş normalara və oyun qaydalarına məhəl qoymamaq prinsipləri ilə eyniləşdirmək düzgün deyil.

Liberalizmdə mühüm cəhət dövlətin pozitiv funksiyalarına, dövlətin hər bir vətəndaşın hüquq və azadlıqlarını qorumaq təəhhüdlərinə üstünlük verilməsidir. Hələ A.Smit «Xalqların sərvəti» əsərində deyirdi ki, mülkiyyət insana hüquq verir, lakin bu hüquqdan elə istifadə etmək lazımdır ki, cəmiyyətin digər üzvlərinin hüquqları pozulmasın.

Liberal-demokratik sistemdə hüquqi dövlətçilik açıq cəmiyyətin sosial institutları ilə təmasda fəaliyyət göstərir. Bu məcrada liberalizm siyasi demokratiyanı formalaşdıran konstitusion prinsiplərin, parlamentçilik və hüquqi dövlət konsepsiyalarının işlənib hazırlanmasına böyük töhfə vermişdir.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 illik fəaliyyəti ilə sübut etdi və bu gün də sübut etməkdə davam edir ki, Azərbaycan xalqı ona elə Heydər Əliyevə inandığı kimi inanır, arxalanır və güvənir.*



*Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında qərar tutur.*

İlham Əliyev özünün liberal görüşlərində müəyyən tarixi təshihlərə məruz qalsa da, klassik liberalizmin təməl ideyaları nəinki yaşamaqdadır, o, özünün «yeni həyatını» yaşamaqla dövlət, hakimiyyət və liderlik institutlarının təkmilləşməsinə kömək edəcək müasir siyasi-iqtisadi hadisələrin ideologiyasına çevrilmişdir. İlham Əliyevin dövlətçilik təfəkkürünə üstünlük verən liberalizm konsepsiyası bunu deməyə əsas verir ki, müasir liberalizmin bir çox rasional ideyaları siyasi lider üçün son dərəcə önəmli olan intellektual fəaliyyətin bir peşə kimi anlamında mühüm rol oynayır.

Məhz buna görə də, İlham Əliyev hesab edir ki, bu gün Azərbaycan siyasətinə gələn hər hansı şəxs liberalizm ideyalarından bəhrələnməli, intellektual fəaliyyətilə real praktikada bunlardan yaradıcılıqla istifadə etməli, milli dövlətçiliyin «işləyən» prinsiplərinə çevirməyi bacarmalıdır.

İlham Əliyevin çıxışlarında müasir siyasətlə bağlı söylədiyi fikirlər onda radikalizmə dözülməz olan liberal dünyagörüşünü aşkarlayır. Bu təqdirəlayiqdir, çünki hüquqi dövlət quruculuğu, sosial yönümlü bazar iqtisadiyyatı, demokratik institutların təkmilləşdirilməsi və inkişafı kimi siyasi prinsiplərə üstünlük verməsi onda liberal baxışlı lider imicini, siyasətdə elitanın rolu ideyasını formalaşdırmışdır. Sağlam cəmiyyətin yaşarlığı onun üzvlərinin siyasi və iqtisadi baxımdan azad olması dərəcəsi və dövlət siyasətinin öz vətəndaşlarının maraqları ilə üst-üstə düşməsi ilə şərtlənir. Ona görə də İlham Əliyevin əqidəsinə görə, demokratik prinsipləri rəhbər tutaraq, «əldə etdiyimiz nailiyyətləri iqtisadiyyatda, siyasətdə, xarici siyasətdə davam etdirsək, o zaman Azərbaycan xalqı üçün «dəmir əl» lazım olmayacaq». Bizcə, cəmiyyətimizdə siyasi və iqtisadi uğurlara söykənən sabitlik deməyə əsas verir ki, bu ideya kütləvi şüurda öz yerini tapmışdır.

Deməli, başlıca siyasi xətt islahatçılıq yoludur, islahatçılar komandasına arxalanaraq korrupsiya və rüşvətə qarşı barışmaz mübarizədir. Konseptual yanaşma bundan ibarətdir ki, sosial rifahın təmin olunmasına söykənən islahatçılıq iqtisadiyyatın

dirçəldilməsinə, neft sənayesinin inkişafına, aqrar və özəl sahələrin genişləndirilib inkişaf etdirilməsinə, bu gün iqtisadi siyasətin ağrılı, təkmilləşməli sahəsi olan vergi sisteminin yenidən qurulmasına xidmət etməlidir. Bu məqsədlə İlham Əliyev kadr potensialından səmərəli istifadə etməyin qızğın tərəfdarıdır. Əlbəttə ki, İlham Əliyevin islahatçılıq ideyalarını dəstəkləyən gənc islahatçılar Azərbaycan cəmiyyətinə fayda verməyə böyük səy göstərir və göstərməkdədirlər.

Həyatın dialektikası belədir: cəmiyyət, onun sosial institutları inkişaf etdikcə nəsillər nəsilləri əvəz edir, yeni nəsil yaşlı nəsli əvəzləyir. Cəmiyyətin inkişaf dinamikasını məhz bunda axtarmaq lazımdır. Biz gerçəkliyimizdə bu reallıqla hesablaşmalı, varislik prinsipinin obyektiv gedişini izləməli və nəzərə almalıyıq ki, yenilikçilik ruhu gətirən, ümumi inkişafımıza impuls verən, gənclərə yol verməklə həyatımızın bütün sahələrinə, xüsusilə siyasi-iqtisadi sferaya investisiya qoymuş oluruq. Bu problemlə əlaqədar ulu öndər Heydər Əliyev demişdir: «Mən dəfələrlə demişəm ki, bizim dövlət orqanlarında, hakimiyyət orqanlarında – hökumətdə, icra orqanlarında gəncləri daha cəsarətlə irəli çəkmək, gənclərə yol açmaq lazımdır. Gənclər Azərbaycanın gələcəyi olaraq bu gün təcrübələnməli, möhkəmlənməli və Azərbaycanı gələcəkdə inkişaf etdirməlidirlər». Problemin vacibliyini vurğulayan Ulu Öndər fikrini davam etdirərək belə bir məqamı da qeyd etmişdi ki, rəhbər təşkilatların sayını artırmaq lazımdır ki, yaşlı nəsildən olan təcrübəli adamlar da rəhbər orqanlarda olsunlar və öz təcrübələrini gənclərə öyrətsinlər. Onun çıxışında belə bir müdrik fikir də səslənmişdir ki, gərək gənclər özlərindən yaşlı olan partiya üzvlərinə hörmət etsinlər, onların xidmətlərini qiymətləndirsinlər, təcrübələrindən səmərəli istifadə etsinlər. Bununla yanaşı imkan verilməməlidir ki, yaşlı nəsil orta nəsil ilə gənc nəsil arasında ziddiyyət yaratsın, başqa sözlə, hökmən varislik prinsipi öz yerini tutmalıdır. Bu baxımdan bu gün Yeni Azərbaycan Partiyasında islahatçılarla mühafizəkarların, gənclərlə yaşlıların konflikti barədə lazımsız söhbətə qətiyyən ehtiyac yoxdur. Bununla əlaqədar

təəssüflə qeyd etməliyik ki, vaxtilə gənc siyasətçi, liderlik keyfiyyətlərinə yiyələnmiş İlham Əliyevi də yaşlılara qarşı qoyur, onun liderlik üçün yetişməməsi barədə yersiz söhbətlərə yol verilirdi.

Başlıca məsələ budur ki, siyasətimizdə siyasi elitanın potensialından səmərəli istifadə olunmalı, siyasi varislik prinsipinə riayət edilməlidir. Həqiqətən də, əgər varislik prinsipi pozularsa, nəinki partiya intizamı və məsuliyyət hissi pozular, daha acınaqcaqlı hal bu olar ki, hər hansı bir rasional ideyanın inkişafına təkan verən təşəbbüskarlıq boğula bilər.

İlham Əliyevi «xalq–lider–elita» kontekstində xarakterizə edən mühüm parametrlərdən biri vaxtilə onun millət vəkili missiyasını ləyaqətlə yerinə yetirməsi olmuşdur. Bunu onun öz seçiciləri ilə mütəmadi keçirdiyi görüşlərdə ona olan məhəbbət hissinin təzahüründə də görmək çətin deyildi. Məsələn, Qaradağda quruculuq işləri bu rayonun zəhmətkeşlərinin deputatı olmuş İlham Əliyevin adı ilə bağlıdır. O, Qaradağ rayonundan millət vəkili seçiləndən sonra çox böyük işlər görmüşdür. İlham Əliyevin Qızıldaş–Lökbatan yolunun abadlaşdırılmasında, Lökbatan qəsəbəsində mədəniyyət və istirahət parkının salınmasında çox iş görməsi, səhiyyə müəssisələrinə iki «təcili yardım» avtomobili verməsi göstərdi ki, o, xalqla canlı təmasda olmağa üstünlük verən millət vəkili kimi böyük idarəçilik potensialına malikdir. Şəhid ailələri üçün inşa olunmuş və onların istifadəsinə verilmiş yaşayış binası İlham Əliyevin təşəbbüsü və qayğısı sayəsində tikilmişdir. Millət vəkilinə el məhəbbətini bir şəhid anası belə bildirmişdi: «Bu yaşayış binasının istifadəyə verilməsi hər şeydən əvvəl İlham Əliyevin seçiciləri qarşısındakı verdiyi sözə sadiqliyinin parlaq təzahürüdür».

Elə bir bayram olmamışdı ki, həmin regionda şəhid ailələri və əlillər İlham Əliyevin maddi köməyindən sevinməsinlər. Onun təşəbbüsü ilə o dövrdə Qobustanın Quşçu qəsəbəsində xalça sexi yaradılmışdı. Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Prezident Heydər Əliyevə və İlham Əliyevə xatirə hədiyyələri

təqdim edərkən demişdi: «Cənab Prezident, Sizdən çox xahiş edirik, rayon ictimaiyyətinin xatirə hədiyyəsini – üzərində dövlətimizin rəmzi olan üçrəngli bayraq toxunmuş xalçanı qəbul edəsiniz. Siz bizim həm dövlətimizin, həm də xalqımızın rəmzisiniz. Onu da nəzərinizə çatdırırıq ki, bu xalça hörmətli İlham Əliyevin təşəbbüsü ilə tikilən xalça sexinin ilk nümunəsidir».

Xarici səfərlərində həmişə vətəni Azərbaycan haqqında dərin ehtiramla danışan İlham Əliyev 1997-ci il noyabrın 19-da Vaşinqtonda Amerika–Azərbaycan Ticarət Palatası, Amerika–Rusiya İşgüzar Şurası və Kembric Enerji Araşdırmaları Assosiasiyasının «Xəzər boru kəmərləri yeni neft sıçrayışları açarıdır» mövzusunda keçirdikləri birgə konfransdakı çıxışında Qərb işgüzar dairələrinin Azərbaycana böyük miqdarda sərmayə qoya bilmələrinin mühüm səbəblərindən danışarkən göstərmişdir ki, «bizim tərəfdarlarımız, sərmayəçilərimiz Azərbaycanda özlərini rahat hiss edirlər». Bu, onun fikrincə, «birincisi, ona görə mümkündür ki, Bakı çox gözəl şəhərdir. Azərbaycan çox gözəl ölkədir». Bəlağətə yol vermədən deyə bilərik ki, İlham Əliyevin ingilis dilində söylədiyi çıxışlarındakı bu ifadə natiqlik məharətini xarakterizə etməklə yanaşı, həm də incə diplomatik gedişdir. Məsələ burasındadır ki, istər xoş məramlı görüşlərdə, istərsə də ciddi siyasi dairələrlə təmasda olarkən vətəninə bağlılığı ön plana çəkən diplomat həmişə ölkəsinə, dövlətinə şərəf və nüfuz gətirib. Xarici diplomatlar hiss edirdilər ki, müstəqil Azərbaycanda İlham Əliyevin simasında yeni tipli siyasi elita formalaşmağa başlayır.

İlham Əliyev 1997-ci ilin noyabrında Vaşinqtonda keçirdiyi görüşdə Vətən övladına xas olan vətənpərvərlik hissini belə ifadə etmişdi: «Əgər məndən soruşsalar Azərbaycan bu gün necə ölkədir? Onda mən fəxrlə deyərəm: Azərbaycan bu gün sabit və intensiv inkişaf edən bir ölkədir. Azərbaycan bu gün demokratiya və inkişaf yolu ilə irəliləyən müstəqil bir ölkədir». 1997-ci ildə deyilmiş bu sözlər vətənpərvəlik aktuallığını bu gün də saxlayır. İlham Əliyev, sanki deyir: əsl diplomatiya vətəndən başlayır, xalqa, onun müdrikliyinə bağlıdır.

Elə bir ictimai əhəmiyyətli tədbir yoxdur ki, İlham Əliyev öz xalqı, onun qədim tarixi və mədəniyyəti ilə fəxr etməsin. Bakı Əyləncə Mərkəzində Yeniyetmə boksçuların IV Avropa çempionatının iştirakçıları şərəfinə təşkil olunmuş qəbulda İlham Əliyev o dövrdə Respublika Milli Olimpiya Komitəsinin Prezidenti kimi çıxış edərkən Azərbaycanın çox böyük və zəngin mədəniyyəti barədə iftixarla danışmış, məclis iştirakçılarının nəzərinə hələ 20 min il bundan əvvəl Azərbaycan ərazisində qədim insanların məskunlaşdığını vətəndaş ehtirası ilə çatdırmışdı. Qonaqların Azərbaycanın qədim abidələri, görkəmli yerləri ilə tanış olması üçün tədbirlərə bilavasitə rəhbərlik edən İlham Əliyev demişdi: «Biz istəyirik ki, siz vətəninizə dönəndə müstəqil Azərbaycan Respublikası haqqında ən xoş fikirlər və təəssüratlar aparasınız...». Bu, Böyük Vətəndaşın, elitar təfəkkürlü siyasətçinin həyat kredosudur.

## *4.2. İlham Əliyevin «Hakimiyyət» konsepsiyası: milli dövlətçilik ölçülərində*

«Bizim respublikamız cəmiyyətdə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur». Heydər Əliyevin bu müddəası Prezident İlham Əliyevin dövlətçilik siyasətinin başlıca ideyasıdır. Bu, alman filosofu F.Hegelin «Hüquq fəlsəfəsi» əsərində söylədiyi konseptual bir fikirlə üst-üstə düşür: «Dövlət mənlik şüuruna malik mənəvi substansiyadır». Əlbəttə, dövlət onu yaradan xalqın əsrlər boyu təşəkkül tapmış ənənəsinə, mənəviyyatına söykənməli, keçmişin pozitiv siyasi irsindən bəhrələnməlidir. Öz dövlətini isə, tarixin sübut etdiyi kimi, yalnız inkişaf etmiş mənlik şüuruna malik xalq yarada bilər.

İlham Əliyev özünün «hakimiyyət» konsepsiyasında belə bir ideyaya əsaslanır ki, hüquqi dövlətçiliyi və milli suverenliyi olmayan xalqın sivilizasiya miqyasında real tanınması mümkün deyildir. Başqa sözlə, dünya birliyində öz hüquqi və ləyaqətli yerini tapa bilməyən xalq dünyanın iqtisadi, siyasi, mədəni, sosial-mənəvi məkanında beynəlxalq münasibətlər subyekti kimi

öz milli mənliyini təsdiq etməkdən məhrumdur. Bu, İlham Əliyevin «hakimiyyət» konsepsiyasının kredosudur. Çünki milli mənliyini təsdiq etdirə bilməyən dövlət, sözün əsl mənasında, siyasi elitanın formalaşması üçün real mühit yarada bilməz.

Müasir sivilizasiyanın inkişaf yolu və məntiqi göstərir ki, dövlətin normal sosial-siyasi institut kimi fəaliyyət göstərməsi üçün təkcə beynəlxalq aləm tərəfindən deyil, onun öz əhalisi, cəmiyyətin üzvləri tərəfindən qətiyyətlə dəstəklənməsi son dərəcə vacibdir. Xoşbəxtlikdən, İlham Əliyev öz prezidentliyi illərində ölkədə belə bir etimad mühiti yarada bilmişdir. Bu, politoloji dildə deyilsə, dövlətçilik institutunun aşağılar tərəfindən qanuniləşdirilməsidir, yəni kütləvi şüur tərəfindən xalqın mənafeini və təhlükəsizliyini qoruyan idarəetmə strukturlarının real tanınmasıdır. Heydər Əliyevin siyasət fəlsəfəsindən bəhrələnən İlham Əliyev özünün dövlətçilik fəaliyyətində bu prinsipi rəhbər tutur. O, hesab edir ki, xalqın qəbul etdiyi dövlət yüksək mənəviyyata, mədəniyyətə, o cümlədən siyasi mədəniyyətə söykənməlidir. Siyasət fəlsəfəsi dilində desək, bu, «xalqın mövcud varlığında substansional məqsəd» deməkdir. İlham Əliyevin əqidəsincə, sivilizasiyalı və hüquqi dövlət qanunun aliliyinin hökm sürdüyü dövlətdir. Cəmiyyətdə bütün sosial-siyasi institutların əsası ictimai həyatın bütün sahələrində fəaliyyət göstərən diplomatik prinsiplərin qərarlaşmasıdır. Hüquqi dövlətin vətəndaşları söz, vicdan azadlığına malikdirlər, onlar dinindən, milliyyətindən, dilindən asılı olmayaraq eyni hüquqlara malik olmalı və ölkənin azad insanları kimi yaşamalıdırlar. O, hesab edir ki, Heydər Əliyevin daim təbliğ etdiyi hüquqi dövlətin parametrləri olan bu amillərin tədricən və təmkinlə həyata keçirilməsi nəticəsində Azərbaycan gerçəkliyində xeyli iş görülmüşdür və bu iş davam etdirilməlidir. Bu mənada Azərbaycan dövlətçiliyinin təkmilləşdirilməsi, suverenliyimizin möhkəmləndirilməsi İlham Əliyevin fikrincə milli varlığımızın rəhnidir.

Özünün keçid dövrünü yaşamış respublikamızda, bütün sahələrdə, o cümlədən dövlətçiliyin, cəmiyyətin institutlarının demokratikləşməsi işində təqdirəlayiq islahatlar aparılmaqdadır.

İlham Əliyev hesab edir ki, doğrudur, keçmiş totalitar rejimin dərin izləri bu prosesin rahat deyil, ağrılı keçməsini səbəbləndirsə də, hər halda xalqın əzmkarlığına və siyasi mədəniyyətinə arxalanmaqla, demokratik dəyərlərdən bəhrələnməklə Azərbaycan xalqına yeni-yeni uğurlar qismət ola bilər.

Məhz bu «hakimiyyət» konsepsiyasına üstünlük verən təcrübəli siyasətçi hüquqi dövlətin fəaliyyət fəlsəfəsinin mahiyyətini təşkil edən insan azadlığını xüsusilə vurğulayır, fərdin azad və müstəqil olmasını legitim hakimiyyətin varlığı ilə bağlayır. Buna görə də insanlar mühüm dövləti qərarların həllində və qəbul edilməsində kiminsə təzyiqi nəticəsində deyil, bu işdə məhz şüurlu iştirak etməlidir. Hansı siyasi ideyanın ardınca getməyi, hansı əqidəyə etiqad etməyi azad şəxsiyyət özü müəyyənləşdirməlidir. Qeyd edək ki, İlham Əliyev beynəlxalq səviyyədə özünün dövlətçilik idealını hələ 1997-ci ilin noyabrında Vaşinqtonda nüfuzlu biznesmenlərin və tanınmış siyasətçilərin iştirak etdiyi mötəbər konfransda belə ifadə etmişdir: «Bizim məqsədimiz iqtisadi cəhətdən güclü və siyasi cəhətdən müstəqil dövlət qurmaqdır». O, bu gün də özünün «siyasət» konsepsiyasında bu ideyanı inkişaf etdirməkdədir.

İlham Əliyev Azərbaycan dövlətçiliyinin sosial rifahın qərarlaşmasındakı rolundan bəhs edərkən siyasi azadlığın rəhni və təzahürü olan mühüm bir sosial-iqtisadi məsələyə – «orta sinfin» yaranması və formalaşması probleminə toxunur. O, əmindir ki, Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaransa, insanlar iqtisadi baxımdan da qorunmuş olar. Burada istər-istəməz Amerika sosioloqu C.Dyuinin «mülkiyyət şəxsiyyətin ləyaqətidir» kəlamı yada düşür. Həqiqətən də, əgər vətəndaş hansısa müəssisənin, mülkün sahibidirsə, əgər o, dövlət məmurundan, vəzifəli şəxsdən iqtisadi cəhətcə asılı deyilsə, onda o, hər hansı qərarı azad və şüurlu insan kimi qəbul edər. Əgər bu parametrlər yoxdursa, azad şəxsiyyətdən söhbət gedə bilməz.

Yuxarıda misal gətirdiyimiz Hegel belə bir maraqlı müddəa söyləyib: «Hökumət xüsusi müdriklikdir». Bu ideyanın təsdiqini

biz İlham Əliyevin də dövlətçilik fəaliyyətində görürük. Əvvəla hökumətə müdrik şəxslər, siyasi səriştəli və əxlaqi imici yüksək olan liderlər rəhbərlik etməlidir. Bu dialektik prosesin ikinci cəhəti budur ki, lider dövlət və hökumət strukturlarında zəruri müdriklik məktəbi keçir, xalqını, vətəndaşlarını daha yaxından, deyərdik ki, insanilik ölçülərində daha yaxşı tanıyır. Buna görə də, «mədhiyyə ilə rüşvət arasında elə bir böyük fərq yoxdur» deyən İlham Əliyev dövlətçiliyin siyasi aqibətini qorumaq məqsədilə məddahlığa nifrət edir, məddahlıq və yaltaqlıq yolunu seçənlərin gec-tez satqınlıq girdabına düşəcəklərinə inanır. Daha dəhşətlisi budur ki, mədhiyyə və yaltaqlıq hüquqi dövlətin təməl daşlarından biri olan ədalət prinsipinin «işləməsinə» mane olur, cinayət isə cəzasız qalır. Onun belə əqidədə olması bunu deməyə əsas verir ki, çoxdan formalaşmış, artıq siyasi arenada müstəsna keyfiyyət olan dövlətçilik təfəkkürü bu gün onun siyasi-diplomatik uğurlarının təminatı kimi çıxış edir..

Bir zamanlar müxalif qüvvələr İlham Əliyevin Olimpiya Komitəsinə rəhbərliyini ciddi qarşılamırdılar. Məgər Azəbaycanın Milli Olimpiya Komitəsinin prezidentindən təşkilatçılıq qabiliyyəti, səriştəlik, hadisələrə real qiymət vermək tələb olunmurmu? Yeri gəlmişkən qey edək ki, sivilizasiyalı ölkələrdə dövlət adamının idman işlərinə sponsorluq etməsi, olimpiya və dünya birinciliyinə həsr olunmuş idman tədbirlərinin təşkilində yaxından iştirakı, ümumiyyətlə, siyasətçi üçün yüksək imic sayılır. Ona görə ki, ölkə idmançısı öz vətənini təmsil edir, qalib yer tutmuş idmançının şərəfinə ölkəsinin dövlət bayrağı qaldırılır. Belə bir faktı yadımıza salaq. 1980-ci ildə olimpiya oyunları ilk dəfə olaraq SSRİ-də keçirilirdi. Sovet ordusunun Əfqanıstana təcavüzünə siyasi etiraz əlaməti olaraq ABŞ başda olmaqla ölkələrin çoxu olimpiya oyunlarını baykot etmişdi. Lakin protokola görə belə bir şərt qoyulmuşdu: baykot edən ölkənin idmançısı olimpiya oyunlarında könüllü iştirak edərsə, onun qalib yer tutduğu təqdirdə, təmsil etdiyi dövlətin bayrağı qaldırılmamalıdır. Belə bir vəziyyət həqiqətən də baş verdi. İtaliyadan gəlmiş bir idmançı qızıl

medala layiq görülmüşdü, lakin qalib kürsüsünə çıxarkən onun dövlətinin himni çalınmamış və bayrağı qaldırılmamışdı. Bu hadisədən vətənpərvər kimi mənəvi sarsıntı keçirən İtaliya idmançısının göz yaşlarını saxlaya bilməməsinə həyacansız baxmaq mümkün deyildi. İdman vətənpərvərlikdir, millətin beynəlxalq imicinin bir çalarıdır, geniş kontekstdə götürsək, sülh və xalqların yaxınlaşması siyasətidir. Bu mənada, o dövrdə İlham Əliyevin Olimpiya Komitəsinə rəhbərlik etməsi həm onun təşkilatçılıq qabiliyyətindən, həm də vətənpərvərliyindən xəbər verir. O, bu gün də Prezident kimi Azərbaycan idmançılarının beynəlxalq oyunlarda iştirakını təmin etmək üçün əlindən gələni edir.

İlham Əliyevin mövqeyi belədir ki, hakimiyyət fəlsəfəsi yalnız azadlığı, insanın sosial-siyasi hüquqlarını vəsf və tərənnüm etməklə kifayətlənməlidir. Başlıca məsələ, vətənadaşa qayğı, onu zorakılıqdan qorumaq, insanın əxlaqi-intellektual ləyaqətilə bağlı hər bir hadisəyə həssaslıqla yanaşmaqdır. Belə bir mövqeyi, o, ardıcıl olaraq həyata keçirir.

Bəs mövcud iqtidarın daxili və siyasi siyasətini, dövlətçilik fəaliyyətini tənqid hədəfi seçmiş AXC «liderləri»nin hakimiyyəti illərində biz hansı «cahanşümul» hadisələrin, milli suverenliyimizi «möhkəmləndirən», millətin imicini artıran hansı tədbirlərin şahidi olmuşuq? Onların kadr siyasəti «xalqın substansional məqsədi»nin həyata keçirilməsinə, Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində ləyaqətlə təmsil olunmasına hansı «töhfələr» vermişdir? Ümumiyyətlə, AXC-nin 13 aylıq hakimiyyəti, onun şərəfsiz iflası, son hadisələrlə bağlı bir daha nüfuzdan düşməsi bu günün siyasi reallıqları prizmasından nə deməkdir?

Etiraf edirik ki, bu gün «AXC epoxası»nın sosial gerçəkliyimizdə o qədər də ləyaqətli iz qoymaması barədə danışmaq ağrılı bir psixoloji məqamdır. Çünki bu dövr tariximizin danılmaz, onun sosial yaddaşından silinməz həqiqətdir, lakin indinin özündə belə bu barədə susmaq, tarixi unutqanlığa rəvac vermək ən azı öz vicdanı qarşısında qeyri-səmimi olmaq deməkdir.

Azərbaycan xalqının tarixinə önəmli ictimai irəliləyişlər və sarsıntılar, sosial gözləmələr və doğrulmayan ümidlər, dövlət quruculuğu və milli suverenlik sahəsində tarixi nailiyyətlər, 90-cı ilin Qara Yanvarının faciəli itkiləri, səriştəsiz aparılan Qarabağ müharibəsində hələ də qəlbləri göynədən qurbanların verilməsi onilliyi də daxil olmuşdur. 1999-cu ildə «Latviyas Layke» qəzetində dərc olunmuş «Müharibə gedir. Bu xalq müharibəsidirmi?» məqaləsində müxbirin yazdıqlarını ürək ağrısız, həyəcansız oxumaq olmur: «...Qarabağ torpağından Bakıya qayıdarkən paytaxtın dincliyinə və bayram əhvalına təəccüblənirsən. Sanki müharibə böyründə, sənin evinin içində yox, haradasa başqa ölkədə gedir... Hələ Lev Tolstoy «Hərb və sülh» romanını yaradarkən strategiyadan çox xalqın və ordunun ruh yüksəkliyinin böyük əhəmiyyətini qeyd etmişdi. Böyük Vətən müharibəsi Müqəddəs müharibə elan edilmişdi. Burada – Dağlıq Qarabağ cəbhəsində ön və arxa cəbhənin vəhdəti, ruh yüksəkliyi necə də gərəkdir! Ermənistanın silahlı qüvvələrinin «Laçın koridoru»nu genişləndirdikləri, Zəngilan rayonunun kəndlərinə basqın etdikləri, Azərbaycan ərazisində açıq döyüş əməliyyatları keçirdikləri bir vaxtda paytaxt başa düşməlidir ki, o, ön cəbhədən çox da uzaq deyil».

Biz çoxdan yazılmış bu iqtibası əbəs yerə misal gətirmədik, çünki, ümumiyyətlə, hər bir dövlətçiliyin, yeni demokratiya dövlətlərinin ən mühüm atributu ordu quruculuğu, dövlətçiliyi qorumaq funksiyası, onu yerinə yetirən vahid institutdur.

Vahid komandanlığa və ciddi intizama məhəl qoymayan silahlı qruplaşmalar feodal pərakəndəliyini xatırladırdı, ordumuz Azərbaycana deyil, sanki xüsusi mənafelərə xidmət edirdi. Səriştəsiz rəhbərlik, milli mentalitetimizə ziyan vuran naşılıq, ölçüyə gəlməz biganəlik nəticəsində hərbi potensial dağıdılmış, onun böyük hissəsi düşmən əlinə keçmişdi. Üstəlik də, heç bir siyasi mədəniyyət keyfiyyətlərinə malik olmayan «liderlər»in hakimiyyət davası. Beləcə, gənc, ordunun texnoloji arsenalının üstünlüklərinə bələd olmayan döyüşçü dəstələri professionalların yox, sözləri

bir araya gəlməyən məhdud məqsədli «vətənpərvər» guruhçuların nəzarətinə keçdi. O, dövrdə böyük siyasətə hazırlaşan İlham Əliyev bunları görür və təhlil edirdi.

AXC-nin «öz köynəyindən çıxmış» başçılarının şəxsi ittihamlarla çarpışdığı şəraitdə orduda hansı siyasi və mənəvi işdən, milli ruhdan söhbət gedə bilərdi. Siyasətçi görürdü ki, keçmiş «politrabotniklər»in fəaliyyətini lağa qoyan cəbhəçilər, hər şeydən əvvəl, xalqda, onun qeyrətli balalarında sosial-siyasi, əxlaqi keyfiyyət olan vətənpərvərlik hissinə hələ uzun müddət sağalmayacaq zərbə vururlar. Topxana üçün canlarından keçməyə hazır olan igid oğlanlarımız cəbhədəki bəzi «feodal» zabitlərin həqarətindən sınmış, ruhdan düşmüşdülər. O dövrdə «Komsomolskya pravda» qəzeti Azərbaycanın Milli Ordusunu «fəhlə-kəndli ordusu», yəni kasıbların, imkansızların balalarından təşkil olunmuş ordu adlandırmışdı. Lakin dəmir intizamlı sovet «fəhlə-kəndli ordusu»ndan fərqli olaraq bizim «kasıb balalar» ordusunun əsas tərkibi «başçılar»ın cinayətkar məsuliyyətsizliyinin qurbanı oldu.

Hüquqi dövlət quruculuğu fəaliyyətinin tərkib hissəsi olan bələdiyyə seçkilərinin maksimum demokratik keçirilməsi üçün ilk bələdiyyə seçkilərindən söhbət gedir, iqtidar səviyyəsində kifayət qədər tədbirlər düşünülmüş, həmin prosesin hüquqi-siyasi prosedurları müəyyənləşdirilmişdi. Seçki kampaniyalarında iştirak etmədən bunun necə keçiriləcəyi barədə «analitik düşüncə»lərə dalmaq müxalifətçilərin başlıca «qayğı»sına çevrilmişdi. Onların müxtəlif bəhanələr irəli sürməklə ilk seçkilərdə iştirak etməkdən imtina «çağırış»ları cəmiyyətdə soyuq qarşılanmışdı ki, bu da yalnız müxalif qüvvələrin sosial bazasının son dərəcə zəif, bəlkə də yox dərəcədə olması ilə izah olunurdu. Cəmiyyətdə mövqelərinin zəifliyini yaxşı dərk edən müxalifətçilərin qəribə hərəkətlərinin mahiyyətini başa düşmək olmurdu. Onlar bir tərəfdən seçkilərdə iqtidara qarşı mübarizə kampaniyasını qızışdırır, digər tərəfdən isə, sanki seçkilərin keçiriləcəyini unudaraq iqtidara qarşı ideoloji niyyəti məlum olmayan kütləvi-siyasi aksiyalar keçirməyə üstünlk verirdilər. Paradoksal mövqe

bundan ibarətdi ki, müxalif qüvvələr seçkilərdə qalib gələ bilməyəcəklərini irəlicədən bilərək, ictimaiyyətin diqqətini Qarabağ məsələsinə cəlb etmək məqsədilə (guya iqtidarın bu problemə diqqətinin zəifləməsini bəhanə edərək) siyasi aksiyaların keçirilməsini xüsusilə vurğulayırdılar.

«Kompromis», «bağlı qapılar arxasında danışıqlar», «üçüncü tərəfin vasitəçiliyi» kimi politoloji anlayışlar İlham Əliyevə Moskvadakı təhsil illərindən məlum olsa da, bu terminlər siyasi praktikamıza müstəqillik illərində daxil olduğundan, bu hal nəinki müxalif qüvvələr içərisində, bütövlükdə ictimaiyyətdə birmənalı qarşılanmırdı, bəzən də məyyən qüvvələrin təsirilə kütləyə həmin anlayışların siyasi mahiyyəti təhrif olunmuş şəkildə təqdim edilirdi. Onlar qətiyyən dərk etmirdilər ki, bu düşünülməmiş hərəkətləri ilə xalqın siyasi mədəniyyətinin formalaşmasına bağışlanmaz ziyan vururdular.

Məlumdur ki, beynəlxalq praktikada münaqişə tərəfləri arasında müxtəlif səviyyələrdə təkbətək görüşlər qəbul olunmuş diplomatik ünsiyyət formasıdır. Bir qayda olaraq, belə görüşlər konkret sənədlərin imzalaması ilə başa çatandan sonra protokola əsasən ictimaiyyətə geniş və ətraflı məlumat verilir.

Kompromis məsələsi kontekstində Azərbaycan tərəfi mövcud konfliktli problemlə əlaqədar rəsmi və qeyri-rəsmi görüşlərdə qətiyyətlə bildirmişdi ki, Azərbaycan Dağlıq Qarabağın erməni icmasını münaqişə tərəfi kimi deyil, maraqlı tərəf kimi qəbul etdiyindən onunla birbaşa danışıqlara getməyəcək. Ermənistanla Azərbaycan arasında münaqişə yalnız nizama salındıqdan sonra, yəni rəsmi razılaşma əldə edildiyi təqdirdə erməni icması danışıqlar prosesinə qoşula bilər.

Qarabağ probleminin həllinə kömək etməkdənsə, özlərinin məsuliyyətsiz bəyanatları ilə məsələnin həlli prosesini daha da mürəkkəbləşdirən müxalif qüvvələr, görünür kompromis analyışının mahiyyətini dərk etmədiklərindən bu sözü çeynəməkdən yorulmurdular. Kompromis – əgər buna sağlam siyasi düşüncə, siyasi realizm mövqeyindən yanaşılsa belə deyilməlidir: bu, diplomatik

danışıqlar təcrübəsində hər hansı bir konfliktin tənzimlənməsində zəruri siyasi vasitədir. Bu prinsip olmadan konflikt tərəfləri dəyirmi masa arxasında əyləşə bilməzlər, heç bir taleyüklü siyasi problem həll olunmaz. Bu, danılmaz həqiqətdir və müasir siyasi praktika, dövlətlərarası münasibətlər sferası bunu dəfələrlə sübut etmişdir.

Prezident İlham Əliyev bir diplomat kimi belə fikirdədir ki, kompromis konkret siyasi məkanda «işləyir» və bundan istifadənin də müəyyən hüdudları var. Siyasi reallıqdan çıxış etməyən kompromis metodu, şübhəsiz ki, diplomatik məğlubiyyətlə nəticələnə bilər.

İlham Əliyev tam əminliklə bildirirdi ki, milli qayğımız olan Qarabağ probleminin həllinə kömək sosial demaqoqluqla deyil, respublikamızda bütün siyasi qüvvələrin konstruktiv siyasi dialoqu sayəsində mümkündür.

O dövrdə Prezident Heydər Əliyev haqlı olaraq deyirdi: «İndi üzdə olan müxalifətin fəaliyyətinə baxırsan, bunlar hamısı o vaxtlar təkcə Azərbaycanın milli mənafelərini müdafiə etmək üçün yox, bu fürsətdən istifadə edib hakimiyyəti əldə etmək – əsas bu fikirlə mübarizə aparırdılar. Ona görə də bunlar artıq on ildir ki, hakimiyyət xəstəliyi ilə yaşayırlar... Hakimiyyətə gəlməyə bir il imkanları oldu, ancaq hakimiyyəti saxlaya bilmədilər. Bundan sonra belə imkanları yoxdur. Ona görə yoxdur ki, bunları etiraf etmirlər». Həqiqətən də səhvlərini etiraf etməyən, onları analitik təhlil etməyi bacarmayan partiya, sözün müasir anlamında, siyasi həyatdan geri qalar.

İlham Əliyev o dövrün hadisələrini təhlil edərək başa düşürdü ki, AXC dövründə Azərbaycan dövlətçiliyini dağıdan, daha doğrusu, onun heç dirçəlməsinə imkan verməyən dəhşətli amillərdən biri müharibəni biznes sahəsinə, varlanmaq mənbəyinə çevirmək hərisliyi olub. Müharibə meydanında həlak olanların ailələrinə dövlət qayğısının göstərilməməsi, yaralıların müalicəsinin təşkilinə biganəlik, əlillərə qanuni dövlət güzəştləri verilərkən rüşvət hallarının olması orduda ruh yüksəkliyini öldürür, gənclərin

ordudan yayınmasına və fərariliyin artmasına gətirib çıxarırdı. Ən dəhşətlisi bu idi ki, cəbhədə qüvvələr nisbəti getdikcə düşmənin xeyrinə dəyişirdi. Bu idi «ordu quruculuğu»nun real mənzərəsi, bu idi milli vətənpərvərliyin təzahürü. Bütün bunlardan sonra müxalifətin iqtidarın ordu yaratmaması barədə «narahatçılığı»nı necə izah etmək olar?!

Ümumiyyətlə, demokratiya yoluna yenicə qədəm qoymuş milli dövlətçiliyimizin inkişafının ilkin şərti ölkədə sabitliyin təmin olunması idi. Ona görə də, İlham Əliyev bu gün də cəmiyyətdə sabitliyi təmin edən sosial-siyasi faktorların roluna xüsusi əhəmiyyət verir. Hadisələrin cərəyan etməsinə analitik təfəkkürlə yanaşan İlham Əliyev şahidi olduğu hadisələrə seyrçilik mövqeyindən deyil, mükəmməl diplomatik təhsil görmüş, sosioloji biliyə malik siyasətçi kimi yanaşır, onları mövcud reallıqları müstəvisində düzgün qiymətləndirir. Buna görə də o, 1990-cı illə müqayisədə 1993-cü ildə xalq qarşısında, bütövlükdə cəmiyyət qarşısında təcili həllini gözləyən, keyfiyyətcə tamamilə başqa-başqa sosial-siyasi problemlərin durduğunu söyləyir. O, haqlı olaraq deyib: «1993-cü ildə Azərbaycan ictimaiyyətini narahat edən tam başqa problemlər idi, yəni gündəlikdə tam başqa problemlər dururdu – Azərbaycanı parçalanmaqdan xilas etmək, vətəndaş müharibəsinə son qoymaq, Ermənistanla Azərbaycan arasında müharibəni dayandırmaq, atəşkəsə nail olmaq, qeyri-qanuni silahlı birləşmələri tərk-silah etmək, sabitlik yaratmaq, asayişi bərpa etmək». Həqiqətən də bu məsələlər milli dövlətçiliyimizi, xalqımızı, bütün Azərbaycan vətəndaşlarını narahat edirdi. Cəmiyyət bu məsələlərin təcili və ağıllı həllini gözləyirdi. Sevindirici haldır ki, bütün bu taleyüklü problemlər müdrik və təcrübəli dövlət başçısı, xalqın vaxtında dəvət etdiyi Prezident Heydər Əliyevin səriştəli fəaliyyəti sayəsində öz həllini tapa bildi. Geniş perspektivdə götürüldükdə həmin problemlərin vaxtında operativ həlli Azərbaycan dövlətçiliyinin təhlükəsizliyini təmin etdi, Azərbaycan xalqının, onun tükənməz enerjiyə malik Prezidentinin nüfuzunu birə yüz artırdı. Bütün bunlar Azərbaycanın hüquqi

dövlət quruculuğu yolunda vaxtında atdığı danılmaz tarixi addımlardı.

Bu konteksdə İlham Əliyevin hakimiyyət konsepsiyasında «müharibə və sülh» məsələlərinin hərtərəfli təhlili onun həmin problemə sağlam düşüncə baxımından yanaşdığından xəbər verir. O, haqlı olaraq qeyd edib ki, hazırkı geosiyasi vəziyyətdə hər hansı bir etnik və ya ərazi konfliktini, ümumiyyətlə, etnosiyasi problemləri müharibə yolu ilə həll etmək mümkün deyil. O, bütün planet səviyyəsində ziddiyyətli mülahizələr meydana gətirmiş BMT və NATO kimi beynəlxalq strukturlar barədə birmənalı olmayan ictimai rəyin yaranmasına səbəb olmuş Kosovo hadisələrini nümunə gətirir və o dövr üçün düzgün olaraq göstərirdi ki, bu gün Qarabağ uğrunda müharibəyə başlasaq, real uğurlar qazana bilməyəcəyik. Çünki yenidən xalq məhrumiyyətlərə düçar olacaq, evlərə cənazələr gələcək, döyüş cəbhələrində onsuz da bütün problemləri həll olunmamış əlillərimizin sayı daha da artacaq, uşaqlar yetim, qadınlar dul qalacaq. Ümdə problemləri hələ axıra kimi həll olunmamış cəmiyyətimizin belə fəlakətlərlə yenidən üzləşməsinin ümumi milli inkişafımız üçün nəyə başa gələcəyini dərk etmək çətin deyildir. Üstəlik də, bu, məsələnin hələ bir tərəfidir. İkincisi, dünya ictimaiyyəti bizim Ermənistana qarşı müharibəmizi təcavüz kimi qiymətləndirəcək, çünki Lissabon sammitinin rəsmi sənədlərinə görə tərəflər, yəni Ermənistan–Azərbaycan, Qarabağ problemini Azərbaycanın ərazi bütövlüyünü tanımaq şərtilə sülh yolu ilə həll etməlidirlər. Bu mənada dünya ictimaiyyəti bizə bu addımı atmağa imkan verməz. Buna görə də yeganə mümkün yol problemi siyasi, sülh yolu ilə həll etməkdir».

Lakin bununla belə İlham Əliyev bir siyasətçi kimi belə əqidədədir ki, geosiyasi vəziyyətin tələbinə görə dövlətçiliyimizin və milli təhlükəsizliyimizin rəhni kimi ordu quruculuğu problemləri ilə ciddi məşğul olmaq lazımdır. O deyib: «Bizim qüdrətli ordumuz olmalıdır. Elə ordu qurmalıyıq ki, o, qarşıya qoyulan məsələləri hər an həll edə bilsin». Bu gün biz cəsarətlə deyə bilərik

ki, İlham Əliyev Ali Baş Komandan kimi bu problemin həllinə şərəflə nail olmuşdur.

İlham Əliyevin ordu quruculuğu məsələsində tutduğu mövqedə önəmli cəhət budur ki, o, bu sahədə dünya təcrübəsinin nailiyyətlərindən istifadə etməyi vacib sayır. Bu da sevindirici faktdır ki, biz ordu quruculuğu sahəsində bir çox dəyərli və rasional cəhətləri qardaş Türkiyə ordusunun nümunəsində öyrənmişik.

O, haqlı olaraq göstərib: «Türkiyə Cümhuriyyətinin ən böyük sərvətlərindən biri onun qüdrətli ordusudur».

İlham Əliyev ordunun cəmiyyətdə, dövlətçilik fəaliyyətində bir sosial institut kimi roluna mövcud siyasi reallıqlar mövqeyindən yanaşır, dövlətlərarası münasibətlərdə onun özünəməxsus funksiyasını diplomatik baxımdan qiymətləndirə bilir. O, Türkiyə ordusu fenomeni üzərində dayanarkən, düzgün olaraq hesab edir ki, ordu heç də hər münaqişəni yatırmaq üçün hərəkətə gətirilməməlidir. Məsələn, əgər Türkiyənin müasir hərbi-texniki potensiala malik ordusu varsa, bu heç də o demək deyildir ki, özünün ənənəvi münaqişəli münasibətlərdə olduğu Yunanıstana, Şimali Kiprə qarşı ondan hökmən istifadə etməli, bu dövlətlərlə bağlı problemləri zor gücünə həll etməlidir.

İlham Əliyevin fikrincə, amma hər halda «güclü ordu hamı üçün böyük göstəricidir, yəni Türkiyə ilə heç kəs zarafat edə bilməz. Biz də o yolu seçməli, güclü ordu yaratmalıyıq».

O, bir siyasətçi kimi hesab edir ki, əgər Ermənistanla Azərbaycan arasında Qarabağ problemi məsələsində danışıqlar konstruktiv nəticə vermirsə, tərəqqiyə nail olmaq mümkün deyilsə, mənasız bir situasiya yaranıbsa, onda son sözü xalq və onun ordusu deməlidir. Onun fikrincə, belə halda yeganə sivilizasiyalı metod referendum keçirmək, ictimai rəyin nəticələrini nəzərə almaqdır. Burada mühüm məqam ictimai rəyin nəzərə alınması mexanizmi – son dərəcə siyasi praktiki əhəmiyyət kəsb edən məsələdir. Real düşüncə tərzinə malik siyasətçi doğru olaraq qeyd edir ki, müharibə olarsa, Qarabağ cəbhəsində siyasətçilər deyil, xalq vuruşacaq. Belə halda, şübhəsiz ki, sülh, yaxud

müharibə məsələsi barədə qərarı xalq qəbul etməlidir. Özünün dediyi kimi xalq «qərar qəbul etsə ki, müharibə – hamımız gedib vuruşarıq».

İlham Əliyevin hakimiyyət konsepsiyasında siyasi təfəkkür mühüm yer tutur. Onun siyasi təfəkkürünün yetkinlik səviyyəsinin mühüm göstəricisi budur ki, o, bu günə qədər siyasətçilərin heç birinin çıxışlarında səslənməyən bir həqiqəti ictimaiyyətə çatdırmışdır: müharibənin iştirakçıları siyasətçilər deyil, xalq olacaq, onun taleyi mənsəbpərəst siyasətçilərdən deyil, qeyrətə qurşanıb cəbhəyə yollanacaq sadə azərbaycanlılardan asılıdır.

Bir qədər də onun hakimiyyət konsepsiyasına işıq salan ikinci bir danılmaz həqiqət haqqında: xarici siyasətimizdə bu günə qədər «neft diplomatiyası»na üstünlük verən bir lider kimi tanınan İlham Əliyev hələ o dövrdə dövlətçiliyimizin taleyüklü siyasi problemlərinə səriştəli münasibətilə seçilməyə başlayır. Fikrimizcə, bu, böyük siyasətə doğru atılan düşünülmüş cəsarətli addımdır.

Xarici siyasət məsələlərinə savadlı diplomatik mövqedən yanaşan İlham Əliyevin ordu fenomenindən dövlətçiliyin müstəsna atributu kimi danışarkən, Türkiyəni nümunə gətirməsi, əlbəttə, çox təqdirəlayiqdir. Lakin bu heç də o demək deyildir ki, o, sosial institutların formalaşmasında yalnız və yalnız Türkiyə modelinə üstünlük verir. Moskva Beynəlxalq Əlaqələr İnstitutunun intellektual ab-havalı auditoriyalarında mükəmməl nəzəri-diplomatik təhsil almış İlham Əliyev dünya sistemində baş verən inteqrasiya proseslərinin qlobal mahiyyətini çox gözəl dərk etdiyindən planetin bütün dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərə üstünlük verir, inkişaf etmiş ölkələrin təcrübəsindən faydalanmağı bu gün də olduqca önəmli sayır. Prezidentliyi dövründə o, özünün siyasət konsepsiyasında daim bu amala xidmət etmişdir.

İlham Əliyevin dövlətçilik idealında önəmli məqam budur ki, o, güclü iqtisadi potensialı milli suverenliyimizin möhkəmləndirilməsində ən vacib siyasi resurs sayır, onu xarici siyasətimizdə,

diplomatiyamızda kəsərli faktor kimi qiymətləndirir. O, Heydər Əliyevin «güclü iqtisadiyyatı olan dövlət güclü olar» devizini daim rəhbər tutur, bunu diplomatiyamızın uğurla həyata keçirilməsində mühüm xarici siyasət mexanizmi kimi dəyərləndirir.

Hələ Prezident seçilməmişdən əvvəl İlham Əliyevin xarici şirkətlərin nümayəndələrilə görüşlərdə nümayiş etdirdiyi nəzəri hazırlıq və biliklər onu tutduğu vəzifələrdə təcrübə baxımından zənginləşdirməklə bərabər, Azərbaycanın milli dövlətçilik kontekstində siyasi və iqtisadi perspektivlərinin diplomatik səviyyədə hazırlanmasında və həyata keçirilməsində də son dərəcə gərəkli olmuşdur. O, yaxşı bilir ki, biz informasiya dövründə yaşayırıq, inkişaf etmiş ölkələr isə rifah naminə bilik cəmiyyəti quruculuğuna üstünlük verirlər.

İlham Əliyevin mükəmməl savadını, yüksək intellektini, geniş diapazonlu dünyagörüşünü onun opponentləri də dana bilməzlər. Onun danışıqlar prosesində ana dilində, rus dilində, xüsusilə ingilis dilində tərcüməçisiz çıxışları müqabil tərəflərin prinsipial məsələlərdə konsensusa gəlməsi situasiyasını rəvanlaşdırır. Moskva Beynəlxalq Əlaqələr İnstitutunda bəhrələndiyi diplomatik biliklər, görkəmli siyasətçi Heydər Əliyevlə istər evdə, istərsə də xidməti vəzifədə ünsiyyəti zamanı qazandığı metodoloji təcrübə Azərbaycan hakimiyyətinin mənafelərini siyasi dialoqda əsaslandırmağa kömək edir.

İlham Əliyevin istər seçiciləri, istərsə də həmkarları ilə ünsiyyətində onu lider kimi təcəssüm etdirən bir keyfiyyəti də üzə çıxır: o, təbiətən ciddi olduğu kimi, həm də çox təvazökar və sadə bir insandır. Məhz bu keyfiyyət ona öz komandasına intellekti, təmizliyi, işgüzarlığı, təşəbbüskarlığı, milli dövlətçiliyimizə sədaqəti ilə seçilən siyasətçilər cəlb etməyə imkan verir. Belə bir mövqe, şübhəsiz ki, onun liderlik imicinə yeni dividendlər gətirir. F.Ruzveltin belə bir maraqlı fikri var: «Mən demişəm ki, hamıdan ağıllıyam, amma başqalarından fərqli olaraq mən öz ətrafıma ağıllı insanları toplayıram». Bəlkə də elə bu keyfiyyətinə görə amerikalılar onu dördüncü dəfə prezident seçmişlər. İlham

Əliyev də nə qədər təvazökar olsa da, komandasına bacarıqlı siyasətçiləri toplamışdır.

İlham Əliyevin hakimiyyət konsepsiyasında mühüm yer tutan siyasi idealından danışarkən, onun üzvü olduğu Yeni Azərbaycan Partiyasından söhbət açmamaq mümkün deyildir. Siyasətlə, dövlət işləri ilə yaxından məşğul olan Azərbaycan xarici siyasətinin aparıcı diplomatlarından biri kimi İlham Əliyev hələ o dövrdə Yeni Azərbaycan Partiyasının iclaslarında, mühüm tədbirlərində iştirak edərkən, özünün məzmunlu və sanballı çıxışları ilə partiyada böyük nüfuz qazanmış, hərtərəfli biliyi, intellekti, təcrübəsi, insani keyfiyyətləri ilə böyük siyasətə hazır olduğunu layiqincə nümayiş etdirə bilmişdi. Çıxışlarında partiyanın fəaliyyətini yüksək qiymətləndirmiş, onun ən böyük siyasi partiya kimi respublikanın siyasət məkanında böyük nüfuza, kütlə içərisində yüksək reytinqə malik olduğunu, gənc siyasətçilərin formalaşmasında potensialını həmişə qeyd etmişdi. Lakin bununla belə o, partiyanı keyfiyyətcə daha yüksək fəaliyyət zirvəsinə çatdırmağı da xüsusi vurğulamış, xalqımızı narahat edən taleyüklü məsələlərdən danışmış, partiyanın yaradılmasında yaxından iştirak etmiş üzvlərinin xidmətlərini layiqincə qiymətləndirmişdir.

Lakin o, nitqlərində bəzi rəhbər işçilərin partiya etikasına sığmayan hərəkətlərini, müxalifət partiyalarının şirnikləndirici vədlərindən həvəslənərək məsuliyyətsiz mövqe tutanların riyakarlığını da pisləmişdir. «Lakin bu gün deyilməlidir: hazırda partiya intizamına yetərincə riayət etməyən, intriqa oyununu ortaya atan ünsürlər partiyada olmamalıdırlar». Partiyanın lideri İlham Əliyev bu gün belə qətiyyətli mövqedədir.

Ümummilli lider Heydər Əliyev YAP-ın idarə heyətinin siyasi şurasının, partiyanın qurultayına hazırlıq üzrə təşkilat komitəsinin üzvləri və mərkəzi aparatın rəhbər işçiləri ilə görüşdə demişdir: «Bu pariya onu həqiqətən sevənlərin, partiya ilə eyni fikirdə, eyni əqidədə olanların, partiyanın proqramını, nizamnaməsini və bütün prinsiplərini qəlbən qəbul edənlərin partiyası ola bilər».

İlham Əliyev hesab edir ki, partiya inkişaf etdikcə onun tərkibi təzələnməli, ideologiyası təkmilləşməlidir. Ona yeni sağlam qüvvələrin gəlməsi təbii dialektik prosesdir. Belə bir həqiqət hökm sürməlidir ki, partiyada əqidəli, sədaqətli kim varsa, tutduğu vəzifədən asılı olmayaraq, partiyanın bütün prinsiplərini qəbul edibsə, o kəs partiyanın həqiqi üzvüdür. Konyuktura məqsədi güdən, özünün şəxsi məqsədləri və maraqlarını həyata keçirmək niyyətində olan, ikiüzlü mövqe tutan şəxs partiyadan getməli, onun işinə mane olmamalıdır. Siyasət sferası üçün normal sayılan bu faktor partiya üzvləri tərəfindən də normal qəbul edilməlidir.

Bizcə, üzdəniraq YAP üzvlərindən qurtarmaq üçün partiya konfranslarının prinsipial, tənqidi ruhda keçirilməsi yaxşı imkandır. İlham Əliyev hesab edir ki, məhz konfrans kampaniyaları zamanı partiyanın prinsiplərini, siyasi xəttini ürəkdən qəbul etmiş əqidəli siyasətçilər YAP-da qalmalı, partiyanın qurultayının hazırlanmasında və keçirilməsində fəal iştirak etməlidirlər.

Şübhə etməmək olar ki, keçmişdə Ulu Öndərin, bu gün isə Prezidentimizin nüfuzuna görə Yeni Azərbaycan Partiyasına daxil olmaq istəyən çoxdur. Lakin bununla belə partiyaya qəbul məsələsində etnik prinsiplər, partiyadaxili normalar meyar kimi tətbiq edilməlidir. Bizə elə gəlir ki, bu gün İlham Əliyevin qətiyyətli mövqeyi partiyaya kortəbii axına yol verməz. Çünki hələ Ulu Öndər öz iş təcrübəsində dəfələrlə YAP-ın üzvü olmayan, lakin şəxsi keyfiyyətlərinə, ixtisasına və digər insani göstəricilərinə görə layiqli şəxsləri vəzifəyə təyin etmək nümunəsi nümayiş etdirmişdi. Bu prinsip partiyanın ədalətə söykənən mühüm prinsipidir.

Prezident Heydər Əliyevin bu siyasi iş təcrübəsi bu gün də bacarıqla davam etdirilir. Bu problemə ona görə həssas yanaşılır ki, AXC dövründə kadr siyasətinin acı nəticəsini indi də unutmaq olmur. O vaxt əvvəlki iqtidar kadrlarının bacarığına, istedadına məhəl qoymadan respublikanı idarə etməyin nə olduğunu bilməyən layiqsiz adamları iş başına qoymuşdu. Nəticəsini də bütün xalq

gördü. İlham Əliyev məhz ona görə xalqın elitar lideridir ki, ölkəni ağır vəziyyətə salan kadr siyasətini qəbul etmir, respublikamızda məsuliyyətsizlik, ictimai ədalətsizlik psixologiyasının hökm sürməsinə yol vermir. Deməli, o, milli-siyasi elitanın formalaşması üçün lazımi mühitin yaradılmasına da səy göstərir. Bu baxımdan İlham Əliyev haqlı olaraq hesab edir ki, kim harada lazımdırsa, orada da çalışmalıdır. Əsl kadr siyasətinin kvintisensiyası məhz budur. O, özünəməxsus təvazökarlıqla deyib: «Mən indi də, bundan sonra da özümü vəzifəyə hazırlamalıyam, amma o mənada ki, öz biliklərimi təkmilləşdirməli, savadımı artırmalı, öyrənməliyəm və gələcək həyat, fəaliyyət üçün daha hazırlıqlı olmalıyam».

Sağlam düşüncə baxımından söylənmiş bu fikir bir daha göstərir ki, hakimiyyət strukturlarını süni surətdə kadrlarla artırmağa qətiyyən ehtiyac yoxdur. Məhz bu cür axın zamanı dövlət hakimiyyəti orqanlarına layiqsiz, intellekt səviyyəsi olmayan, bacarıqsız adamlar, mənsəbpərəst, karyera düşgünləri soxulmuş olurlar.

Lakin bununla yanaşı belə bir həqiqət də danılmazdır ki, YAP Azərbaycanda yeganə partiyadır ki, burada ən yüksək intellektə malik üzvlərin sayı daha çoxdur. Bunun sayəsində hakimiyyət strukturlarına zəngin dünyagörüşlü, təcrübəli, yüksək biliyə, elm potensiala malik işçilər cəlb olunur. Onlar dövlətin tədbirlərinin təşkilində, həyata keçirilməsində fəal iştirak edirlər. Belə bir şəraitdə şübhəsiz ki, yaşlı nəsillə orta nəsil, gənc nəsil arasında ziddiyyətlərə yol verilməməlidir. Dövlət strukturlarında çalışan hər bir şəxs tutduğu vəzifədən asılı olmayaraq müasir dövlətçilik prinsiplərinə riayət etməli, siyasi elitanı formalaşdıran mühitin saflığına çalışmalıdır. Heydər Əliyev demişdir: «Bu gün sənin hərəkətlərin, danışığın çıxışların partiyanın hörmətini qaldırırsa, partiyanı möhkəmləndirirsə, iqtidarın hörmətini qaldırırsa, iqtidarı möhkəmləndirirsə, çox gözəl! Amma sən keçmişdəki xidmətlərinə görə bu gün belə, sabah başqa bir fikir söyləyəsən ki, həm iqtidara, həm də partiyaya zərərdir – biz belə şeylərə dözə bilmərik.

Belə şeylərə dözə bilmərik və heç kəs də öz keçmiş xidmətlərindən sui-istifadə etməsin». Məhz belə prinsipial mövqe xalqla liderin birgə siyasi anlamını təmin edən mühit yarada bilər.

Bu gün müxalifətin iqtidara qarşı qeyri-sağlam münasibəti, onun siyasətinə qarşı yalanlar, böhtanlar, uydurmalar yağdırdığı, müxtəlif ağlagəlməz şayiələrin yayıldığı bir zamanda xalq və lider tandemi daha fəal, daha həmrəy olmalıdır. Lakin bağışlanmaz haldır ki, iqtidardan olan bəzi vəzifəli şəxslər, yaxud millət vəkilləri belə ağ yalanlara, ədalətsiz böhtanlara, əsassız uydurmalara qarşı nəinki dəyərincə mübarizə aparmır, əksinə müxalifətin dediklərinə qoşularaq «Azərbaycanda hər şey pisdir, hər şey bərbaddır» psixologiyasının təsirinə düşürlər.

Şübhəsiz ki, Azərbaycan xalqının, millətçiliyinin, dövlətçiliyinin inkişafı və çiçəklənməsi hakimiyyət sükanının arxasında məsuliyyətli və səriştəli siyasi xadimin olmasına həmişə ehtiyac duymuşdur. Zaman göstərir ki, nəinki insani sədaqət və şüurlu vətənpərvərlik nümayiş etdirənlər, həmçinin siyasi-intellektual səviyyəsi, yorulmaz işgüzarlığı, mənəvi keyfiyyətləri ilə Heydər Əliyevin siyasət fəlsəfəsinin dəyərlərinə yiyələnənlər Azərbaycanda Prezidentlik institutunun təkmilləşdirilməsində iştirak edib, Ulu Öndərin yolunun davamçıları ola bilərlər. Lakin bunun üçün yetişmək, Heydər Əliyevin siyasət məktəbinin incəliklərini öyrənmək, onun siyasi rəhbərlik mədəniyyətinin prinsiplərinin mahiyyətinə varıb, zəngin təcrübəsini dərindən dərk etmək, Prezident İlham Əliyevin hakimiyyət konsepsiyasının müasir ruhunu mənimsəmək lazımdır. Bir sözlə, böyük siyasətin burulğanında bişib-yetişmək gərəkdir.

Ümummilli Lider YAP-ın idarə heyətinin, siyasi şurasının, partiyanın qurultayına hazırlıq üzrə təşkilat komitəsinin üzvləri və mərkəzi aparatın rəhbər işçiləri ilə görüşdə demişdir: «Qruplaşma, ayrı-ayrı adamların bir-birinə simpatiyası, yaxud antipatiyası vardır. Belə hallar hər yerdə, burada sizin içərinizdə də vardır. Ona görə də demokratiya mütləq təmin edilməlidir. Partiyada demokratik prinsiplər kök salmalıdır, əsas prinsiplər kimi olmalıdır.

Amma eyni zamanda, elə etmək lazımdır ki, ayrı-ayrı adamlar demokratiyadan istifadə edərək öz şəxsi məqsədlərinə nail olmasınlar. Buna yol vermək olmaz».

Hakimiyyət strukturlarında özünü təkmilləşdirmək, böyük siyasətlə məşğul olmaq üçün, hər şeydən əvvəl, sağlam mühitin yaradılması tələb olunur. İlham Əlyevin hakimiyyət konsepsiyası daim belə etik prinsipi rəhbər tutur: Ləyaqətli siyasət saf, yüksək əxlaqi keyfiyyətlərə cavab verən şəxsiyyətin nəsibidir.

Yeri gəlmişkən, bir məsələni də qeyd edək. Bəzən nədənsə siyasi arenada iştirak edənləri islahatçılara və mühafizəkarlara bölmək bir dəb olubsa da, İlham Əliyev möhtəkir söhbətlərə fikir vermir. Siyasi elitamızın zirvəsində duran lider ləyaqəti heç bunu özünə sığışdırmaz da. O, özünün dediyi devizə – «əsl siyasət konkret, real iş görməkdən ibarətdir» – idealına sadiqdir. Çoxdan deyilmiş bu fikir hələ o dövrdə onun artıq yetkin siyasətçi kimi intellektinin mühüm göstəricisi olmuşdur.

Bu gün dünyada millətlərin üstünlüyü, əsasən, ölkə əhalisinin öz ərazisində qazandığı maddi rifahla ölçülür. Buna görə də müstəqil Azərbaycana, onun siyasi elitasına, hər şeydən əvvəl, mənəvi nüfuz, maddi rifah və öz resurslarından səmərəli istifadə kimi ümdə prinsipləri rəhbər tutmaq olduqca vacibdir.

Xoşbəxtlikdən tale xalqımıza Heydər Əliyev simasında ən nüfuzlu siyasi dövlət başçısı, İlham Əliyev kimi istedadlı elitar siyasətçi vermişdir. Başlıca məsələ prezidentimiz, dövlətçilik idealı ətrafında xalqın daha da sıx birləşməsidir, çünki Azərbaycanın milli mənafelərini layiqli həyata keçirmək üçün bu, möhtəşəm faktordur.

Bu gün İlham Əliyevin «hakimiyyət» konsepsiyasından irəli gələn başlıca ideya budur: Azərbaycanın ləyaqətini, şərəfini qorumaq, ölkənin qüdrətini, sərvətini artırmaq, respublikamızın millətlər birliyində yerini layiqincə təmsil etdirmək. Bu, dövlət başçısının, siyasi liderin, milli elitamızın müdriklik səlahiyyətidir. «Trend» agentliyinə verdiyi müsahibədə özünü Heydər Əliyev komandasının sıravi üzvü hesab edən İlham Əliyev bu gün böyük siyasət sükanını yetkin lider kimi idarə etməkdə davam edir.

O, müstəqil Azərbaycanın qüdrətini artırmaq, hər bir vətəndaşı ləyaqətli həyatla təmin etmək naminə istedad və bacarığını bu gün də əsirgəmir. Çünki bu, Azərbaycan dövlətçiliyinin, xalqla liderin həmrəyliyini təmin edən İlham Əliyevin «hakimiyyət» konsepsiyasının başlıca fəlsəfi-əxlaqi qayəsidir.

## *4.3. Sosial sahə mühüm istiqamət kimi*

Cəmiyyətdə insan problemi ilə bağlı bütün məsələlər nəticə etibarilə sosial sahə kimi səciyyələnir. Bir ictimai-siyasi sistemdən digərinə keçid dövründə kəskin və qlobal problemlərlə yanaşı, cəmiyyətdə sosial təbəqələşmə də təbii proses kimi qəbul edilir. Bu proses sinifsiz totalitar cəmiyyətdən demokratik cəmiyyətə və bazar iqtisadiyyatı prinsiplərinə uyğun sistemə keçərkən baş verir. Birinci mərhələdə təbəqələşmə bütün keçid dövlətlərində olduğu kimi Azərbaycanda da ağrılı keçib. İlk dövrlərdə yoxsulluq artsa da, sonrakı mərhələdə yoxsulların sayı tədricən azalıb, orta təbəqə üstünlük təşkil etməyə başlayıb. Ölkə başçısı sosial inkişaf və sosial təminat sahəsində sosial siyasətin, əsasən, 4 modelini təqdim edib. Məlumdur ki, hər dövlətin sosial siyasəti onun maliyyə imkanlarına, mövcud vəziyyətinə görə müəyyənləşdirilir. Bununla belə, sosial siyasətin qurulması üçün ehtiyaca tam cavab verən konkret model yoxdur. Ümumi modellər isə bunlardır: katolik, konservativ, liberal və sosial-demokratik modellər.

Azərbaycanda sosial siyasətin bir neçə modelinin sintezindən ibarət yeni – daha mütərəqqi model yaratmağa istiqamət götürülüb. Ölkə Prezidenti və parlamenti dövlətin sosial siyasətini konkret müəyyənləşdirmək, onun sabitliyini və dinamikasını təmin etmək məqsədilə bu sahənin qanun yaradıcılığına xüsusi diqqət yetirir.

Məlumdur ki, ən yeni tariximizdə bizim üzləşdiyimiz sosial problemlərin, demək olar ki, hamısı əsasən keçid dövrü problemlərilə bağlı olub. Ölkəmizin bazar prinsiplərinə keçməsi bir sıra qlobal məsələlərin həllini tələb edirdi. Bunu da qeyd edək ki, ərazimizin 20 faizi işğal edilmişdir. Bir milyon insan qaçqın

və məcburi köçkün vəziyyətinə düşüb, sosial cəhətdən az təmin olunan bu sayda insan daha çox problem yaradan faktorlardan biridir. Qeyd etdiyimiz kimi, 1992–1993-cü illərdə ölkənin istər daxili, istərdə də xarici siyasəti düzgün təşkil olunmamış, ölkədə hərc-mərclik, xaos hökm sürmüş, maddi və mənəvi sərvətlər talan edilmişdir. Belə bir vəziyyət, təbii ki, əhalinin sosial vəziyyətini daha da pisləşdirirdi. İlk illərdə həyata keçirilən qüsurlu iqtisadi islahatlar nəticə etibarilə Azərbaycanda sosial siyasətə biganə münasibətə, vəziyyətin kəskin şəkil almasına gətirib çıxarmış, hakimiyyətdə olan səriştəsiz qüvvələrin siyasət problemləri artmışdı. Belə vəziyyətə düçar olmuş ölkəni dirçəltmək asan deyildi. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, iqtisadiyyatda, o cümlədən sosial sferada əsaslı dəyişikliklərə başlanıldı. Təcrübəli siyasətçi Heydər Əliyev sosial sahədə həyata keçirilən ilk tədbir kimi sosial problemlərin öyrənilməsini, sosial prioritetlərin müəyyənləşdirilməsini irəli sürmüşdü. Məlumdur ki, hər bir sosial problemin subyektiv və obyektiv tərəfləri olur. Sosial problem həm sosial sferanın obyektiv reallığını, həm də cəmiyyətdə narazılıq hallarının aşkara çıxarılması üçün ictimai rəyin öyrənilməsini tələb edir. İlham Əliyevin fikrincə, cəmiyyətin müxtəlif sahələrində sosial nəticələrin, sosial qərarların təhlili sosial problemlərin mahiyyətinin dərkinə, proqnozlaşdırılmasına, problemin meydanaçıxma səbəblərinin qabaqcadan müəyyənləşdirilməsinə əsas verir və onların həllini qismən asanlaşdırır. Bu elmi sosioloji amil əsas götürüldükdə ilk növbədə ölkədəki sosial problemlərin başlıca dairəsi təyin edilir. Hökumət də işini məhz bu müstəvidə qurmuşdu. Heydər Əliyev sosial sistemlərin mövcud cəmiyyətin tələblərinə uyğun vəziyyətinə nail olmaq üçün diqqəti metod və vasitələrin işlənib hazırlamasına cəlb etdi. Sosial qruplar, təşkilatlar, institutlar, dəyər və normativ sistemin elementləri öyrənildi. Azərbaycanda konkret dövr üçün birinci dərəcəli, həlli təxirəsalınmaz sosial məsələlər, sosial prioritetlər müəyyənləşdirildi.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilmiş sosial siyasətdə əhalinin bütün təbəqələrinin ehtiyac və tələbatı nəzərə alındı və aztəminatlı ailələrin, uşaqların, qocaların sosial müdafiəsi məsələlərinə xüsusi əhəmiyyət verildi. Əhalinin sosial müdafiəsini və yaşayış tərzini layiqli təmin etmək məqsədi ilə ölkədə genişmiqyaslı pensiya islahatları həyata keçirildi, əlillərin və şəhid ailələrinin böyük bir qrupu dövlət vəsaiti hesabına mənzillərlə və minik maşınları ilə təmin edildi.

Bazar iqtisadiyyatına keçidlə bağlı sosial siyasətdə də bir sıra islahatların həyata keçirilməsi, bu sahədə indiyədək mövcud olan bəzi stereotiplərin aradan qaldırılması labüd idi. Çünki mövcud qaydalar bəzi mənfi hallara yol açırdı. Bunun qarşısının alınması üçünsə güzəştlərin məqsədli kompensasiyalarla əvəz olunması hökmən vacib idi. Prezidentin qanunvericilik təşəbbüsü yolu ilə parlamentə təqdim etdiyi 2002-ci ilin büdcə qanunları paketində imtiyazların strukturlaşdırılması və ünvanlanması ilə bağlı layihənin qəbul edilməsi sosial sahədə uğurlu yeniliklərin başlanğıcı oldu. Heydər Əliyev yaxşı bilirdi ki, bu, dünya dövlətlərində öz nəticələrinə görə çox səmərə verən, özünü doğruldan bir xətdir. Burada bir neçə məqamı qeyd etməyə dəyər.

Birincisi, güzəştin fəlsəfəsi dəyişdi. Məsələn, əvvəllər işığa görə güzəşt var idi, ancaq bunun həddi müəyyənləşməmişdi. Bu, əslində, bazar prinsiplərinə tamamilə zidd bir məsələdir. Ümumiyyətlə, diferensiasiya prinsipinə əməl olunmaması bütün siyasət formalarında uyğunsuzluq yaradır. Ən düzgün addım bu güzəştlərin pul kompensasiyası ilə əvəzlənməsidir. Belə ki, bu zaman güzəştləri əvəz edən imtiyazlar strukturlaşdırılır, onların ünvanları dəqiq olur. Bunun nəticəsində kompensasiyaların ünvanlarına çatdırılması mexanizmi daha da şəffaflaşır və buna ictimai nəzarətin təsiri artır. Bundan əlavə, orta aylıq əməkhaqlarının, pensiyaların və digər müavinətlərin artırılması fonunda daxili bazar qiymətlərinin sabit saxlanılması və hətta azaldılması nəticəsində əhalinin aztəminatlı hissəsinin sosial rifahının yüksəlməsi prosesi baş verir.



*Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur.*



*Biz həmişə populizmdən, populist ritorikadan uzaq olmuşuq. Bəzən hətta çalışmışıq ki, özümüzü o qədər də nümayiş etdirmədən, sadəcə, ölkənin uğurla inkişaf etməsi üçün lazım olan işi görək.*

Bu islahatın nəticəsi olaraq sosial müdafiənin daha etibarlı mexanizminin yaradılması üçün «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» Qanun, «Sosial sığorta haqqında» Qanuna əlavə və dəyişikliklər qəbul olundu, onların tətbiqi mexanizmi barədə Prezident fərmanları imzalandı və həmin normativ-hüquqi aktların uğurla tətbiqinə başlanıldı.

Səhiyyə sistemində aparılan islahatlar çərçivəsində bu istiqamətdə də hüquqi normativ baza yaradıldı. Milli Məclis tərəfindən qəbul olunan «Əhalinin sağlamlığının qorunması haqqında», «Əczaçılıq fəaliyyəti haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Tibbi sığorta haqqında» və s. qanunlar artıq uğurla fəaliyyət göstərməkdədir. Bütün bunlar Ulu Öndərin təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilmişdir.

Tarixi həqiqətlərin axarında zaman onu da təsdiq edir ki, ulu öndər Heydər Əliyevin bilavasitə xalqa xidmət edən çox düzgün, müdrik və uzunmüddətli siyasi kursunun bir bölümü də Azərbaycanın regionları, onun kəndləri ilə bağlıdır. Prezident İlham Əliyevin 2003-cü ildəki seçkiqabağı təbliğat kampaniyasını məhz rayonlardan, kəndlərdən başlaması da təsadüfi deyildi. O zaman kənd əhalisinin sosial sifarişləri Prezident tərəfindən siyasi texnologiyalarda sınaqdan çıxmış «maraqların aqreqasiyası» metodu ilə dəqiq müəyyənləşdirilmişdi.

İlham Əliyev beş ilə 600 min iş yerinin yaradılması ideyasını irəli sürərkən elmi proqnozlaşdırma prinsiplərini, real perspektivlərin nə verəcəyini nəzərə almışdı. Seçkiqabağı platformada daha çox əmək tutumlu müəssisələrin açılmasına, xüsusən aqrar bölmədə işlərin canlandırılmasına diqqət yetirmək nəzərdə tuturdu.

Prezident dövlət başçısı kimi fəaliyyətə başladığı elə birinci aylarda «Regionların sosial-iqtisadi inkişafı» Dövlət Proqramının vacibliyi əsaslandırıldı və bu proqram əməli sənəd kimi qəbul edildi. Burada ilk dəfə sosial inkişaf baxımından çox düzgün və konkret olaraq on bölgə müəyyənləşdirildi. Onların hər birində özünəxas coğrafi, iqlim, əmək şəraiti, istehsalat ənənələri, təbii

ehtiyatlar və digər üstünlüklər nəzərə alınmaqla görüləcək işlərin proqramı təsdiq olundu.

Azərbaycan kəndi bundan sonra arxada qalan XX əsrin 70-ci illərinin intibah dövrünün dirçələn həyatını, sanki yenidən daha yüksək həyat keyfiyyətilə yaşamağa başladı. Bu proqramın həyata keçirilməsi ilə bağlı onlarca normativ-hüquqi akt qəbul olundu, islahatlarını həyata keçirilmə proqramlarının hüquqi bazası daha da genişləndi. İcra strukturları daha dəqiq və konkret iş planları müəyyənləşdirdilər, maliyyə orqanları və kredit təşkilatları kəndə vəsait ayrılmasına üstünlük verdilər. Ulu Öndərin təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» Proqramı ilə bölgələrdə çox müasir, kompüterlərlə təchiz edilən ümumtəhsil tədris ocaqları tikilib istifadəyə verildi. Regionlarda yüksək tələblərə cavab verən idman qurğuları və olimpiya kompleksləri ucaldılıb, müasir tibbi avadanlıqlarla təchiz olunmuş diaqnostika mərkəzləri inşa edilərək əhalinin istifadəsinə verilib. Bölgələrdə modul elektrik stansiyalarının quraşdırılması, ən ucqar dağ rayonlarına yeni asfalt örtüklü yolların çəkilməsi regionlarda əhalinin rifahının daha da yaxşılaşdırılmasına xidmət edir. Rayondaxili, kəndarası yolların çəkilməsi və təmiri burada yaşayanları doğma yurdlarına daha möhkəm bağlayır. Statistik məlumatlara görə, son illərdə miqrasiyanın şəhərə axın tendensiyası azalmışdır. Sevindirici haldır ki, ölkə Prezidenti müəyyənləşdirdiyi proqramların həyata keçirilməsinə bilavasitə özü nəzarət edir, ən ucqar rayonlarda belə dəfələrlə olur, kənd əhalisinin qaldırdığı bütün problemlərin həlli üçün yerindəcə, operativ tapşırıqlar verir.

Müşahidələrimiz və elmi təhlillər bir daha onu göstərir ki, ümummilli liderimiz Heydər Əliyevin regional siyasəti ölkə daxilində sosial müdafiənin və sosial təhlükəsizliyin təmin olunmasında ən vacib şərtlərdən biri kimi qalmaqdadır. İndi xalqın rifahını ön plana çəkən Prezident İlham Əliyev həmin siyasətin varislik və davamlılıq prinsiplərini fəaliyyətinin baş xətti kimi ardıcıl olaraq daha da təkmilləşdirir. Müasir Azərbaycan kəndində

gedən inkişaf və yeniləşmə ilə müşahidə olunan sosial transformasiya proseslərinin bundan sonra da səmərəli nəticələr verəcəyinə hər kəs möhkəm inanır. Bu, ondan irəli gəlir ki, uzaqgörən Heydər Əliyevin dövlət quruculuğu modelinin əsası dəyişməkdə olan real gerçəkliklərə söykənir.

Dünyaya inteqrasiya edən bir dövlətdə kənd məhz belə bir idarəetmə kursu ilə irəli gedə və yeni-yeni uğurlar qazana bilər. Bu siyasətin yüksələn xətlə icrası isə Prezident İlham Əliyevin düşünülmüş inkişaf ideyaları ilə yeni keyfiyyətdə, daha sürətlə, daha geniş miqyasda, daha cəsarətlə həyata keçirilməkdədir.

Hazırda nəinki bölgənin, hətta dünyanın ən aparıcı ölkəsinə çevrilmək iddiasını siyasətində qarşısına məqsəd qoyan Azərbaycan bu niyyətini gerçəkləşdirmək üçün siyasi, sosial və iqtisadi prioritetlərə malikdir. Daha doğrusu, ötən illər ərzində ölkəmiz iqtisadi qüdrətini hərbi, sosial və mədəni gücə çevirməyi bacarıb. Nəticə isə həqiqətən qürur hissi keçirməyə əsas verir: Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyaya nümunə olan bir milli inkişaf modeli işlənib hazırlanmışdır. Bu modelin qayəsi Azərbaycan dövləti modelidir.

Modern dövlət quruculuğu işində inamlı addımlar atan Azərbaycanda sosial müdafiə, təbii ki, başlıca yer tutur. Sosial müdafiədə ünvanlılıq baş xətdir və belə bir əhəmiyyətli sosial kursun təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Məhz bu böyük insanın şəxsiyyəti və misilsiz milli inkişaf siyasəti sayəsində, adətən, çox ağrılı və əziyyətli olan bu transformasiya – keçid prosesləri Azərbaycan üçün ağrısız keçmişdir.

Bu, avropatipli sosial müdafiə modelidir. Burada dövlətin başlıca nailiyyəti budur ki, insan özü özünü müdafiə edir. İkincisi, fəaliyyət sistemi elə qurulur ki, ailənin sosial müdafiədə iştirakı təmin olunur. Üçüncüsü, sosial müdafiədə qeyri-hökumət strukturlarının iştirakı təmin edilir. Artıq Prezidentin fərmanı ilə qeyri-dövlət təşkilatlarını özündə birləşdirən struktur fəaliyyətə başlamış və onun sosial müdafiədə iştirakı üçün dövlət tərəfindən vəsait də ayrılmışdır. Dördüncüsü, sığorta sisteminin təkmilləşməsi

davam etdirilir və tibbi sığorta, bədbəxt hadisələrdən, sığorta genişlənir. Beşincisi isə dövlətin özünün sosial müdafiədə iştirakıdır.

Prezident İlham Əliyevin modern sosial siyasətinin qloballığı və humanist əhəmiyyətliliyi ondadır ki, o, bu siyasətin həyata keçirilməsinin optimal istiqamətlərini də təklif etmişdir. Belə ki, birinci istiqamətə görə sosial müdafiənin elementi olan müavinət sistemindən sığorta sistemi ayrılmışdır. Prezidentin modern sosial siyasətində ikinci mühüm addım regionların idarə olunmasıdır. Bu gün Azərbaycanda regionların sosial-iqtisadi inkişaf proqramları mövcuddur. Məhz regionlardakı infrastrukturların bərpası vasitəsilə əmək ehtiyatlarının üzə çıxarılmasını və nəticə etibarilə əhalinin sosial müdafiəsini təmin edən, onların kəndlərdən şəhərə axınını minimuma endirən bir neçə dövlət proqramı həyata keçirilmişdir. Xüsusən pul-kredit vasitəsinin regionlara yönəldilməsi sahibkarlığın inkişafı üçün münbit şərait yaradır.

Üçüncü istiqamət, İlham Əliyevin sosial müdafiənin ayrı-ayrı sahələrini dəqiq dövlət proqramları ilə inkişaf etdirmək ideyasının icrası əks etdirir. Bu istiqamət üzrə şəkərli diabetə qarşı mübarizəyə, gənc ailənin müdafiəsinə, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinə və bu kimi onlarla sosial sahəyə dair proqramlar uğurla həyata keçirilir. Hər bir proqram konkret sahəni öyrənir, həmin sahədə problemlər araşdırılır və həlli üçün maliyyə vəsaiti ayrılır. Bu işdə konkretlilik və səmərəlilik vacib şərtdir. Dördüncü–çox mühüm faktor olan bu istiqamətdə isə sosial problemləri yaradan səbəblər aşkarlanır. Çox təəsüf ki, dünyanın bir çox ölkələrində bu gün də problemlərin həllində məhz nəticə ilə mübarizə aparırlar. Ancaq Prezident İlham Əliyevin sosial siyasətində nəticəyə deyil, problemləri yaradan səbəblərə qarşı xüsusi dövlət proqramları daha vacib sayılır. Məsələn, həmin proqrama uyğun olaraq hazırda kəndlərdə əhalinin içməli su təminatından ötrü müasir qurğular quraşdırılır.

Prezident İlham Əliyevin modern dövlət modelində sosial siyasətin beşinci istiqamətində başlıca məsələ qeyri-hökumət

təşkilatlarının nümunəsində cəmiyyətin sosial müdafiəyə cəlb olunmasıdır. Bunun fonunda ən böyük aparıcı qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu artıq dünya miqyasına çıxıb və xeyriyyəçiliklə, sosial müdafiənin təşkili ilə davamlı məşğul olur.

İlham Əliyevin sosial siyasətinin digər bir önəmli istiqaməti milli-mənəvi dəyərlərə hörmət göstərilməsi və insanlarda humanist xeyriyyəçilik ruhunun tərbiyə olunmasıdır. Bu mənada, muğam mərkəzlərinin açılması, dini abidələrin bərpası və yenilərinin tikilməsi, həmçinin Prezidentin dini tədbirlərdə iştirakı əhəmiyyətli hadisələrdir.

Bu gün ulu öndər Heydər Əliyevin qurduğu müasir və modern dövlət modeli Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun 2003-cü ildən başlanan prezidentlik fəaliyyətilə Azərbaycan respublikasının milli inkişafında yeni nailiyyətlər əldə olunub. Cənab İlham Əliyevin hakimiyyəti illərində əsası Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi sosial islahatlar davam etdirilib və nəticəsi hazırda göz qabağındadır. İlham Əliyevin rəhbərliyi ilə əmək münasibətlərinin tənzimlənməsi sahəsində ciddi tədbirlər hazırlanıb həyata keçirilmişdir. Onların içərisində minimum aylıq əməkhaqqının mütəmadi olaraq artırılması qeyd oluna bilər. Qeyri-məşğul əhalinin işlə təmin olunması, müasir məşğulluq sisteminin formalaşdırılması, yeni iş yerlərinin açılması daim diqqət mərkəzindədir. 2003–2008-ci illərdə ölkədə 766 min yeni iş yeri açılmışdır ki, onların 548 mini daimi olub. Yalnız 2008-ci ildə açılan iş yerlərinin sayı 120 mindən çox idi. Bu iş yerlərinin böyük hissəsi isə qeyri-neft sektoruna və regionlara aiddir.

Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının yerinə yetirilməsi də uğurla davam etdirilmiş, ölkədə təbii artım, o cümlədən əmək qabiliyyətli yaşda əhalinini sayının artması davamlı xarakter almış, uşaq ölümü səviyyəsi aşağı düşmüşdür.

Sosial siyasət sahəsində ən mühüm addımlardan biri sosial yardım sisteminin dünya təcrübəsinə uyğunlaşdırılması olmuşdur.

Belə ki, 2006-cı il iyul ayından ünvanlı sosial yardım sisteminin tətbiqinə başlanmışdır. Sığorta-pensiya sisteminin dövlət sosial yardım sistemindən ayrılması və sosial pensiyaların müavinətlərlə əvəz edilməsi də mühüm yeniliklərdən sayılmalıdır. Azərbaycan Respublikasında vahid sığorta-pensiya sistemi pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmişdir.

Azərbaycan Respublikası Milli Məclisində sosial siyasət xəttinə uyğun olaraq qanun yaradıcılığı prosesi də davam etdirilmiş, «Dərman vasitələri haqqında», «Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında» qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının Əmək və Ailə məcəllələrinə, «Gənclər siyasəti haqqında», «Sosial sığorta haqqında», «Əmək pensiyaları haqqında», «Sosial müavinətlər haqqında» və b. qanunlara dəyişikliklər və əlavələr olunmuşdur.

Azərbaycanın ən aparıcı siyasi qüvvəsi olan YAP, həmçinin ölkənin iqtisadi inkişafını sürətləndirmək və sosial islahatlar aparmaq yolu ilə vətəndaşların layiqli həyat şəraitini təmin etməyə, insanlara sağlam həyat tərzi aşılamaq üçün məqsədyönlü sosial siyasət yürütməyə çalışmışdır. Partiyanın üstünlük verdiyi sosialyönümlü iqtisadi model sosial ədalətin və sosial müdafiənin təminatı, eləcə də iqtisadi-sosial həyatın humanistləşdirilməsi məsələlərini ön plana çəkir. Bu model sosial yönümlü bazar iqtisadiyyatı ilə mərkəzləşdirilmiş planlı iqtisadiyyat arasında önəmli mövqe tutur. Sosial yönümlü bazar iqtisadiyyatı bir tərəfdən iqtisadi azadlığın, digər tərəfdən sosial dövlət ideyası ilə əlaqədar sosial müdafiə və sosial ədalət ideyalarının vəhdətinə əsaslanır. Bu modelin əsas qayəsi onun güclü sosial siyasət sisteminə malik olmasıdır. Bu siyasət əhalinin gəlirləri arasında mövcud fərqləri minimuma endirmək məqsədilə dövlətin həyata keçirdiyi yenidən bölgü prinsipini, sosial müdafiə və sosial sığorta sisteminin inkişaf etdirilməsini, minimum yaşayış həddinə təminatın mövcudluğunu və digər zəruri tədbirləri nəzərdə tutur. Azərbaycan dövlətinin fəaliyyətində ölkənin sosial siyasətinin mahiyyəti

dolğun şəkildə əksini tapmışdır. Dövlətin sosial siyasət sahəsində strateji inkişaf proqramının qarşısında insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması, sosial ədalət prinsipinin daim qorunması və müxtəlif sosial qruplar arasında kəskin təbəqələşmənin yumşaldılması durur.

İlham Əliyevin sosial siyasətinin qayəsi belədir: hər bir insanın yaxşı yaşamağa haqqı var və zəngin təbii ehtiyatlara malik Azərbaycanın vətəndaşları üçün layiqli həyat səviyyəsinin təmin edilməsi ən başlıca vəzifədir. Hökumətimiz əməkhaqqı və pensiya təminatı sistemində islahatlar aparılmasını, əməkhaqqının, pensiyaların, sosial ödənişlərin artırılmasını, yeni iş yerlərinin açılmasını özünün başlıca vəzifələrindən hesab edir. Eyni zamanda, ana və uşaqların, işsiz qadınların, qoca, ahıl və əlillərin, ailəbaşçısını itirmiş ailələrin sosial müdafiəsinin gücləndirilməsini, bu kateqoriyadan olan vətəndaşlara layiqli təqaüd və müavinətlərin verilməsini xüsusi diqqət mərkəzində saxlayır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında milli iqtisadi inkişaf modelinin əsas prioritetləri hüquqi kontekstdən göstərilmiş, insanların firavan yaşayışının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Konstitusiyada mülkiyyətin çoxnövlüyü, təbii sərvətlərin xalqa məxsusluğu, habelə hər bir vətəndaşın sosial təminat, əmək, azad sahibkarlıq, mülkiyyət, mənzil toxunulmazlığı və s. hüquqları, habelə dövlətin üzərinə götürdüyü iqtisadi öhdəliklər əksini tapmışdır. Əsas Qanunun 16-cı maddəsinin I hissəsində göstərilir ki, «Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır».

İlham Əliyevin sosial siyasətinin həyata keçirilməsində yaxından iştirak edən Heydər Əliyev Fondu ölkəmizdə bir çox mühüm layihələr həyata keçirir. İlk növbədə, gələcəyimiz olan yeni nəslin sağlam ruhda böyüməsi üçün Fondun gördüyü işləri xüsusi vurğulamaq istərdik. Uşaqları ölkəmizin sabahı adlandıran,

cəmiyyəti onların problemlərinə biganə qalmamağa çağıran Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyeva uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, kimsəsiz və valideyn himayəsindən məhrum, təhsildə xüsusilə fərqlənən uşaqları daim diqqət mərkəzində saxlayır. Üç uşaq anası kimi, analıq missiyasının həyata keçirilməsini həyatın ən ümdə vəzifəsi hesab edən və uşaqların müəyyən hissəsinin valideyn himayəsindən kənarda böyüməsi faktının hamını narahat etməli olduğunu vurğulayan Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun hər il «Buta» sarayında uşaqlar üçün keçirdiyi Yeni il şənlikləri artıq ənənə halını alıb. Mehriban xanım Əliyeva bu şənliklərə qatılır, uşaqlarla səmimi söhbət edir, təbriklərini, arzularını çatdırır, dərslərini yaxşı oxumalarını, sağlam böyümələrini, uğurları ilə hər kəsi sevindirmələrini istəyir, onlarla şəkil çəkdirir. Tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar istedad və bacarıqlarını göstərir, respublikamızın tanınmış estrada müğənniləri, məktəblilərin özfəaliyyət kollektivləri, rəqs qrupları, gənc istedadlar oynaq, şux mahnıları, rəqsləri ilə bayram şənliyini daha da rövnəqləndirirlər. Heydər Əliyev Fondunun təşkil etdiyi Yeni il şənliklərində hər dəfə 2 minə yaxın uşaq iştirak edir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hər il qaçqın və məcburi köçkün uşaqları üçün Yeni il hədiyyələri ayırır, Novruz bayramında xüsusi şənliklər təşkil edir. Yeni tədris ilinin başlanğıcında «Təhsilə dəstək» layihəsi üzrə Heydər Əliyev Fondunun qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərini məktəb ləvazimatları ilə təmin etməsi də ənənə halını alıb. Mehriban Əliyevanın təşəbbüsü ilə hər il Heydər Əliyev Fondunun əməkdaşları qocalar evlərində ahıllara baş çəkir, Ramazan bayramında iftar süfrələri açılır. Bu xeyirxahlığın sərhədləri indi ölkəmizin hüdudlarını da aşıb və bununla bağlı bir çox nümunələr qeyd etmək olar. Məsələn, Qurban bayramında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Pakistanda imkansızları sevindirməsinə münasibət

bildirən Pakistan Müsəlman Həmrəylik Liqasının sədri, siyasətçi Səlim Seyfulla Xan belə bir aksiyanın keçirilməsini yüksək qiymətləndirib, bunun əsl mənada dostluq və qardaşlıq münasibətinin göstəricisi olduğunu vurğulayıb. Bu aksiya maddi vəziyyəti çətin olan və daim təhlükə ilə üzləşən bölgə sakinləri üçün təkcə maddi deyil, eyni zamanda, böyük mənəvi dəstək mənbəyidir.

Azərbaycanın birinci xanımının təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə tikilən məktəblərin və təmir edilən uşaq evlərinin sayı xüsusilə diqqət çəkir. Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən «Uşaq evlərinin və internat məktəblərin inkişafı» proqramı çərçivəsində respublikada uşaq müəssisələri əsaslı təmir olunaraq yeni avadanlıqlarla təchiz edilir. Mərhəmət və xeyriyyəçilik fəaliyyəti baxımından örnək olan nümunələr sözsüz ki, hökumətin siyasətinə geniş rəğbət oyadır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycan xalqının milli mədəniyyətinin inkişafında, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında, milli həqiqətlərimizin dünyaya çatdırılmasında, o cümlədən cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik ənənələrinin möhkəmlənməsində müstəsna xidmətləri var. Onun milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqət birbaşa müqəddəs kitabımızın bəşər övladına təlqin etdiyi keyfiyyətlərlə tamamlanır. Birinci xanımın yorulmadan şəhid ailələrinin, kimsəsizlərin, xəstələrin, fiziki qüsuru olan şəxslərin qayğısına qalması müsəlman xanımının necə yüksək insani keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərir.

Mehriban xanım Əliyeva həm də UNESCO və İSESCO-nun xoşməramlı səfiri kimi şərəfli bir missiyanı yerinə yetirir. Xoşməramlı səfirlər özlərinin nüfuz və təsir imkanlarından istifadə edərək dünyada təmsil etdikləri qurumun ideyalarını dəstəkləyir və təbliğ edir, həyata keçirilən layihə və proqramlara öz töhfələrini verirlər. UNESCO-nun xoşməramlı səfirləri dünyada savadsızlığın azaldılması və digər əhəmiyyətli kampaniyalarda da yaxından

iştirak edirlər. Xoşməramlı səfir və Heydər Əliyev Fondunun prezidenti kimi bu məsələlərə böyük diqqət yetirən Mehriban xanım Əliyeva bütün dünyada çox böyük nüfuza malikdir.

Xalq seçimini edərək 2003-cü ildə özünün Prezidentini seçib. Xalq Ona inanıb, güvənib. İlham Əliyev də xalqın inamını ləyaqətlə doğruldaraq 2008-ci ildə yenidən bu etimadı qazanıb. Azərbaycanın son illərdəki dinamik inkişafı beynəlxalq təşkilatlar və dünyanın inkişaf etmiş ölkələri tərəfindən də etiraf edilir. Bu gün Azərbaycan başdan-başa böyük quruculuq meydanına çevrilmişdir. Təkcə paytaxtda deyil, ən ucqar bölgələrdə də quruculuq işləri böyük vüsətlə gedir. Bölgələrdə yeni iş yerləri yaradılır, əhalinin sosial vəziyyəti gündən-günə yaxşılaşır. Həyata keçirilən uğurlu daxili və xarici siyasət respublikamızın beynəlxalq aləmdə nüfuzunu artırır. Azərbaycan bu gün bölgədə sosial-iqtisadi potensialına görə lider ölkələrdən biridir. Təbii ki, xalqın sosial həyatına müsbət təsir göstərən bu uğurlar bilavasitə Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin sayəsində mümkün olmuşdur. Xalq da bu uğurları görür və qiymətləndirir. Əminliklə demək olar ki, elə bu səbəbdən də 2013-cü ildə keçirilmiş prezident seçkilərində xalq yenidən İlham Əliyevə səs verib. Niyə məhz İlham Əliyev sualının cavabı isə hər kəsə tamamilə aydındır: son illərdə Azərbaycanda həyata keçirilən quruculuq işlərini, ölkənin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsini bu işin təməlini qoyan özü də davam etdirməlidir. Özünün sosial siyasətində İlham Əliyev daim xalqa arxalanır, xalqdan güc alır və Heydər Əliyev məktəbinin layiqli yetirməsi bir sıra liderlik keyfiyyətləri ilə istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarlarda böyük hörmət və nüfuz qazanmışdır.

İstər ölkə daxilində, istərsə də beynəlxalq görüşlərdə, müxtəlif tədbirlərdə hər kəsə qarşı ləyaqətlilik və təmkinlilik göstərməsi İlham Əliyevin rəhbər obrazını tamamlayan keyfiyyətlərdəndir. Bu keyfiyyətlər özünü xüsusilə də geniş xalq kütlələri ilə görüşdə, xalqın taleyi ilə bağlı hər hansı bir məsələyə operativ və obyektiv münasibət bildirməsində daha çox üzə çıxır.

Hələ millət vəkili olduğu vaxtlardan İlham Əliyev həm də qayğıkeşliyi ilə fərqlənmiş, seçicilərinin, eyni zamanda, qaçqın və məcburi köçkünlərin rəğbətini qazanmışdı. O, seçiciləri ilə tez-tez görüşərək onların mənəvi-sosial sıxıntılarının aradan qaldırılmasına, əhvali-ruhiyyələrinin yüksəldilməsinə çalışır. Çadır düşərgələrində yaşayan qaçqın və məcburi köçkünlərin məişət qayğılarının və digər problemlərinin həlli həmişə onun diqqət mərkəzində olmuş, hər kəsin üzləşdiyi çətinliyin aradan qaldırılmasına canıyananlıqla yanaşmışdır. Xüsusilə də zəlzələ və digər təbii fəlakətlərdən zərərçəkənlərin ağrı-acılarına şərik olmuş, çətinliklərin aradan qaldırılmasına şəxsən nəzarət etmişdir.

Prezident İlham Əliyevə ümumxalq sevgisi qazandıran şəxsi keyfiyyətlərdən biri də onun insanları sevməsi, xeyirxahlığı, mənəvi, hüquqi və sosial baxımdan yaranmış hər hansı bir problemin dərhal aradan qaldırılmasına nail olması, bir sözlə, humanistliyidir. Cənab Prezidentin humanistliyi özünü həm də cəzaçəkmə müəssisələrindəki məhbuslara münasibətdə göstərir. Son illər minlərlə məhbus əfv edilib, qəbul edilmiş amnistiya aktı sayəsində cəzasından tam və ya qismən azad olunub.

Dövlət xadimini xalq arasında sevdirən, bir siyasətçi kimi nüfuzunu artıran, ona ümumxalq məhəbbəti qazandıran keyfiyyətlərdən biri də səmimilikdir. Prezident İlham Əliyev görüşlər zamanı insanlarla qayğı ilə davranır, müsahibini nəzakətlə dinləyir. İstər rəsmi görüşlər olsun, istərsə də mətbuat və ictimaiyyət nümayəndələri ilə görüş, o, həmişə səmimidir. Prezident İlham Əliyev nüfuzlu daxili və xarici siyasəti ilə cəmiyyəti də özü ilə bərabər ucaltmağı bacarır.

Onun fəaliyyətinin əsasını Azərbaycanın indiki inkişafını dönməz və ardıcıl prosesə çevirmək, başladığı islahatları uğurla başa çatdırmaq təşkil edir. İnanırıq ki, Azərbaycan Prezidentinin humanist sosial siyasətini layiqincə qiymətləndirən xalqımız İlham Əliyevə etimad göstərərək hələ neçə-neçə uğurlu islahatını davam etdirməkdə ona dəstək olacaqdır.

Seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi, xalqın öz iradəsini tam sərbəst şəkildə ifadə etməsi üçün

zəruri şəraitin yaradılması imkan verir ki, növbəti seçkilərdə də xalqımız özünün iradəsini ortaya qoyaraq düzgün seçimini etsin. Şübhəsiz, insanlar seçimlərini edərkən bu günün reallıqlarını nəzərə alacaqlar. Günümüzün reallığı isə budur ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin milli maraqlara hesablanmış, ölkənin hərtərəfli inkişafını təmin edən, onun beynəlxalq nüfuzunu yüksəldən daxili və xarici siyasətini birmənalı şəkildə dəstəkləyir. Prezidentlik fəaliyyətində daim xalqa söykənən, onun yüksək etimadına arxalanan dövlət başçısı tərəfindən qəbul edilən bütün qərarlar cəmiyyət tərəfindən təqdir olunur və yüksək qiymətləndirilir. Ölkəyə rəhbərliyi dövründə – 2003-cü ildən bu günə kimi cənab Prezident xalqın etimadını tam doğrultmuşdur. İctimai rəy göstərir ki, bu günə kimi Azərbaycanın inkişafı ilə bağlı həyata keçirilən siyasət və sistemli tədbirlər davam etdiriləcəkdir. 10 illik perspektivə hesablanmış «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının reallaşdırılması artıq təmin olunmuşdur. Bu reallıqları nəzərə alaraq, birmənalı şəkildə demək olar ki, qarşıdan gələn illərdə də Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə doğru addımlamaqda davam edəcək.

Azərbaycan reallıqlarının bugünkü üstünlüklərindən bəhs edərkən həqiqətən də inanırsan ki, Ulu Öndərin ən böyük xidmətlərindən biri inkişaf strategiyasının layiqli siyasi davamçısı İlham Əliyev kimi siyasətçini yetişdirməsidir.

Prezident İlham Əliyev ölkəyə rəhbərliyə başladığı ilk gündən – 2003-cü ilin oktyabrından daim Heydər Əliyev siyasi kursuna sədaqətini nümayiş etdirmiş, Ümummilli Liderin və xalqın inamını əməli fəaliyyəti ilə doğrultmuşdur. Xalqımız və müstəqil dövlətimiz üçün onun alternativsiz siyasi strategiyası uğurlu fəaliyyətinin başlıca amilidir.

İlham Əliyev bu siyasəti dönmədən davam etdirəcəyini bəyan etmişdir: «Azərbaycan xalqına vəd etmişəm ki, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm, çünki o, yeganə düzgün siyasətdir. Bu siyasət ona gətirib çıxartdı ki, Azərbaycan xaos, hərc-mərclik, vətəndaş müharibəsi vəziyyətindən quruculuq və tərəqqi, sülh

və sabitlik mərhələsinə keçdi. Mən ondan çox şeyi öyrənmişəm və onun təcrübəsini, məsələlərə baxışını öyrənməklə hələ çox şeyi əxz edəcəyəm. Hər hansı bir qərar qəbul etməzdən əvvəl düşünürəm ki, bu vəziyyətdə Heydər Əliyev necə hərəkət edərdi. Çalışıram ki, mənə inanan, mənə səs verən adamlar məndən razı qalsınlar. Prezident üçün ən yüksək mükafat onun ideyalarına inamdır, bunsuz işləmək çox çətindir, ona görə də mən çalışacağam ki, Heydər Əliyevin bütün prinsipləri həyatda öz təcəssümünü tapmaqda davam etsin».

Qısa tarixi təcrübəmiz göstərdi ki, Heydər Əliyevin zəngin dövlətçilik irsi ölkənin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn təkmil siyasi konsepsiyadır. Bu siyasətin əsas prinsiplərini yeni dövrün nəzəri-praktik tələblərinə uyğun təkmilləşdirən İlham Əliyev əsl vətənpərvər və qurucu lider əzmi ilə xalq qarşısında verdiyi vədləri əməli işi ilə doğruldaraq hər bir vətəndaşın əzmkar Prezidenti və Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı olduğuna cəmiyyəti inandıra bilmişdir. Bu kurs Azərbaycan xalqı üçün ən əsas siyasi və mənəvi istinadgahdır! Xalq bu məqamı şəxsi təcrübəsində dəfələrlə hiss edib. Zaman Heydər Əliyev siyasətinin alternativsizliyini və xalqın İlham Əliyevi dəstəkləməklə ən doğru addım atdığını göstərir.

«İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cavan, eyni zamanda təcrübəli, enerjili, peşəkar liderə malik oldu. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev Azərbaycan dövlətçiliyini yaratdı, Azərbaycan millətini birləşdirdi və təbii ki, bu, ölkədə hakimiyyət dəyişikliyi zamanı özünü göstərdi. İlham Əliyev xaricə səfərləri zamanı təkcə Azərbaycan üçün deyil, bütün bölgə, eyni zamanda mənim ölkəm üçün çox iş görür». Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin Azərbaycan Prezidenti İlham Əliyev haqqında dediyi belə səmimi sözləri dünyanın əksər dövlət başçıları da söyləyirlər. Prezident İlham Əliyevlə ünsiyyətdə olan siyasi və dövlət xadimlərinin hamısı onun iti zəka, dərin təfəkkür, yüksək mədəniyyət sahibi olduğunu etiraf edir.

Müasir beynəlxalq qurum və təşkilatlar da birmənalı şəkildə etiraf edirlər ki, İlham Əliyev dövlət sükanı arxasına keçdikdən sonra Azərbaycanın inkişafı sürətlənmiş, ölkəmiz ümumidaxili məhsul istehsalının artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilmişdir. Xalq İlham Əliyevə səs verməklə, əslində, Heydər Əliyev sosial-siyasi strategiyasına inamını nümayiş etdirdi. Azərbaycanın dünya birliyində özünə layiqli yer tutaraq söz sahibinə çevrilməsinə, Xəzər neftinin və qazının çoxvariantlı marşrutla dünya bazarına çıxarılmasına, tikinti, quruculuq və abadlıq işlərinin daha da genişləndirilməsinə, enerji və nəqliyyat təhlükəsizliyinin davamlılığına, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, təbii sərvətlərimizin Avropanın enerji təchizatındakı rolunun yüksəlməsinə, Azərbaycanın Qafqazdakı lider rolunun artırılaraq MDB-nin lider ölkələrindən birinə çevrilməsinə, sahibkarlığın inkişafına və yeni iş yerlərinin açılmasına, güclü və müasir ordu quruculuğuna, bütövlükdə Azərbaycanın sürətli və davamlı inkişafının yeni mərhələyə qaldırılmasına, ölkə vətəndaşlarının xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Prezident İlham Əliyev də fəaliyyətinin ilk günlərindən müdrik siyasəti, Heydər Əliyev ideyalarına sədaqəti, təmkin və uzaqgörənliyi, bir də xalqına sonsuz sevgisi ilə xalqın sonsuz məhəbbətini qazandı. Təbii ki, o, bir siyasi lider kimi hər işi qətiyyətlə, inamla görür və buna görə də yüksək nəticəyə nail olur!

Müstəqilliyin ən mühüm şərti olan ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanılması naminə ilk gündən nümayiş etdirdiyi siyasi prinsipiallıq və əzmkarlıq da İlham Əliyevin konfliktli situasiyada çevik qərar qəbul edən qətiyyətli lider olduğunu göstərmişdir. 2003-cü və 2005-ci illərin postseçki mərhələsi nihilist, radikal və ziddiyyətli qarşıdurma ilə müşayiət olunsa da, İlham Əliyev siyasi peşəkarlıq göstərərək ölkənin sosial-siyasi həyatını pozmağa yönəlmiş bu neqativ meyillərin qarşısını məhz xalqına xidməti uca tutan dövlət başçısı kimi almış, respublikamızın yenidən anarxiya və xaos girdabına

yuvarlanmasına imkan verməmişdir. Sonrakı illərdə də dövlətçilik əleyhinə yönəlmiş xarici və daxili təhdidlərin qətiyyətlə aradan qaldırılması İlham Əliyevin xalqın dəstəyinə arxalanan, müstəqilliyin möhkəmləndirilməsi üçün zəruri keyfiyyətlərə malik prinsipial lider imicini daha da artırmışdır. Eyni zamanda, İlham Əliyev prezidentlik səlahiyyətlərinin icrasına başladığı ilk gündən cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dini-etnik konfessiyalarının birliyini təmin etmək istiqamətində ardıcıl siyasət yürütmüş, müstəqilliyin sosial-siyasi bazasının daha da möhkəmləndirilməsinə nail olmuşdur.

Siyasi elitamızın layiqli təmsilçisi kimi İlham Əliyev şəxsiyyətinin ən dəyərli xüsusiyyətlərindən biri lider sözünə daim əməl etməsidir. Onun prezidentliyi dövründə Azərbaycan xalqı bu mənəvi və mərdlik keyfiyyətinin dəfələrlə şahidi olmuşdur. Bu gün Azərbaycan xalqı əmindir: onun Prezidenti verdiyi vədi hökmən yerinə yetirəcəkdir. «Azərbaycan xalqı xoşbəxt, firavan yaşamağa layiqdir və bundan ötrü əlimizdən gələni əsirgəməyəcəyik» – vədini də İlham Əliyev xüsusi əzmkarlıqla yerinə yetirməkdədir.

Xalqın xoş gününə, rahat yaşayışına çalışan dövlət rəhbəri ən çətin və qayğılı günlərində də insanların yanında olmuş, onlarla fikir və düşüncələrini bölüşdürmüş, onlara diqqət və qayğısını, köməyini, sevgisini əsirgəməmişdir. Xalqla birbaşa təmasa üstünlük verərək yerlərdə sıravi vətəndaşlarla görüşüb, onlarla səmimi söhbətləşərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul edib. Prezident İlham Əliyevin xaraktercə sadə və səmimi insan, praktik fəaliyyətində isə psixoloq siyasətçi olması onun sıravi vətəndaşlarla ünsiyyətində mütəmadi üzə çıxır. O, bütün müdrik rəhbərlərə xas istedadı sayəsində hər kəslə dil tapmağa, dövlət məmurları ilə sadə vətəndaşlar arasındakı psixoloji səddi aradan götürməyə və sağlam, etibarlı ünsiyyət körpüsü yaratmağa nail olmağı bacarır. Bütün bunlar isə dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırıb. Xalqının inamına və əzmkarlığına söykənən İlham Əliyev böyük layihələri qısa

zamanda gerçəkləşdirə bilmişdir. Ulu Öndərin həyata keçməmiş ideyalarını real şəkildə gerçəkləşdirməklə xalqa rəhbərlik missiyasının öhdəsindən layiqincə gəlmişdir.

O, öz fəaliyyətində insan və şəxsiyyət faktoruna üstünlük verməklə, dövlətin hər bir vətəndaşın maraqlarının qayğısına qaldığını nümayiş etdirir. Prezidentin son illərdə imzaladığı sərəncamlarla mütəmadi şəkildə, bəzən ildə bir neçə dəfə minimum əməkhaqları, pensiyalar, müavinətlər, təqaüdlər, qaçqın, məcburi köçkün və şəhid ailələrinə yardımların miqdarı artırılmış, yoxsulluğun faizi kəskin şəkildə aşağı düşmüşdür.

Hazırda ölkəmizin ərazisi respublikamızın çiçəklənməsi naminə intensiv tikinti məkanına çevrilmişdir. Ölkədə həyata keçirilən sosial infrastruktur layihələri hər bir azərbaycanlının firavan həyatının təmin olunmasına hesablanmışdır. Elə bir vətəndaşımız yoxdur ki, öz gündəlik həyatında ölkənin iqtisadi uğurlarını hiss etməmiş olsun. Yaşayış binaları, evlər, məktəb və xəstəxanalar, sosial obyektlər tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, tarixi binalarda yenidənqurma işləri aparılır. Son illərdə Azərbaycanın siması hamının gözü qabağında tanınmaz dərəcədə dəyişmişdir. Bu, ölkəmizə gələn qonaqların da diqqətini cəlb edir.

İlham Əliyev ölkədə sosial-iqtisadi inkişafı təmin etməklə yanaşı, Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin yoluna qoyulmasına da nail olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmiş, vaxtilə çoxlarının əfsanə hesab etdiyi bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına daşınmasını təmin etmişdir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsini xarici ekspertlər də danılmaz fakt hesab edirlər.

Dövlətin müstəqilliyini inkişaf etdirən amillər çoxdur. Ən ümdə şərtlərdən biri xalqın öz təbii sərvətlərinin legitim sahibi olmasıdır. Bu, artıq real həqiqətdir. Ölkə Prezidenti Azərbaycan

xalqının və dövlətinin milli maraqlarına cavab verən iqtisadi yüksək professionallıq səviyyəsində müqavilələr imzalayır. İkinci şərt isə dövlətin müstəqil xarici siyasət yürütməsidir. Artıq tarazlaşdırılmış və balanslaşdırılmış deyil, tam müstəqil siyasət yürüdən cənab İlham Əliyev üçün Azərbaycanın dövləti maraqları hər şeydən ucadır! O, həmişə belə bir siyasi texnologiyanı qeyd edir ki, daxildə möhkəm ictimai-siyasi sabitliyə, qanunçuluğa nail olmadan, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda kompleks addımlar atmadan xarici siyasət sahəsində hansısa uğurlu nəticələr əldə etmək qeyri-mümkündür. Azərbaycan Prezidentinin uğurlu diplomatik fəaliyyəti sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan respublikamızın bütövlükdə Avratlantik coğrafi arealında sülh, tərəqqi və əməkdaşlıq paytaxtına, habelə beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin layiqli müəlliflərindən birinə çevrildiyini bütün dünya birliyi etiraf edir. Hələ Heydər Əliyev tərəfindən işlənən xarici siyasət strategiyası müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə bərabər hüquqlu əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi üzərində qurulmuşdur.

Azərbaycan hazırda sülh və əməkdaşlıq məkanı kimi tanınır və belə bir müsbət imicin formalaşmasında İlham Əliyevin təşəbbüsü ilə respublikamızda keçirilən beynəlxalq forumlar müstəsna əhəmiyyət kəsb edir. Avropa ailəsinə inteqrasiya edən Azərbaycan cəmiyyəti özünü bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqlarının təminatı və demokratikləşmə sahəsində mühüm uğurlar qazanmış nüfuzlu beynəlxalq münasibətlər subyekti kimi tanıtmışdır. Ötən dövrdə Avropa Şurası qarşısında götürülən öhdəliklərin yerinə yetirilməsi prosesi başa çatmış, ölkəmiz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti», «Şərq tərəfdaşlığı» proqramlarına, habelə NATO-nun «Fərdi əməkdaşlıq üzrə fəaliyyət planı»na qoşulmuş və modern ordu quruculuğunu təşkilatın standartlarına uyğunlaşdırmaq istiqamətində mühüm addımlar atmışdır.

Ümumilikdə, İlham Əliyevin 2003–2013-cü illərdə daxili və xarici siyasəti deməyə əsas verir ki, onun dövlət başçısı kimi çoxşaxəli fəaliyyətində milli dövlətçilik maraqları həmişə olduğu kimi, bu gün də Azərbaycan dövlətinin sülh diplomatiyasının öncül istiqamətidir. Dövlət başçısı istər Dağlıq Qarabağ məsələsində, istər qonşu dövlətlərlə münasibətlərdə, istərsə də xalqın təbii sərvətlərdən səmərəli istifadəsində, ilk növbədə, xalqın milli maraqlarını ön plana çəkir.

Beləliklə, İlham Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyev milli-siyasi strategiyasının ən layiqli davamçısı olması şəksiz reallığa çevrilmiş, Azərbaycan tarixinə qurucu dövlət başçısı, sülhsevər diplomat, siyasi elitamızın parlaq təmsilçisi kimi daxil olmuşdur.

Hakimiyyətdə olduğu dövrdə Azərbaycanı Cənubi Qafqazın ən güclü, müasir və modern dövlətinə çevirən İlham Əliyev ölkənin enerji, nəqliyyat və ərzaq təhlükəsizliyinin təminatçısı olmuşdur.

İlham Əliyevin siyasi iradəsi sayəsində Azərbaycanın bütün bölgələrinə fasiləsiz elektrik enerjisinin verilməsi, yol infrastrukturunun yaradılması, əhalinin içməli su ilə təchizatı qaydaya salınıb, ölkənin başdan-başa qazlaşdırılması, kənd yollarının təmiri və yenilənməsi, rayon mərkəzlərində kanalizasiya şəbəkəsinin qurulması isə sürətlə davam etməkdədir.

Azərbaycan Prezidentinin göstərişi və tövsiyələri əsasında hazırlanan «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının müstəqil dövlətimizin uzunmüddətli, davamlı və tarazlı inkişafını bundan sonra da təmin edəcəyinə heç kəsin şübhəsi yoxdur. Bu mənada Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının V qurultayında cənab İlham Əliyevin növbəti müddət üçün prezidentliyə namizədliyinin irəli sürülməsi bütövlükdə Azərbaycan xalqının seçimi olmuşdur. Prezident seçkiləri demokratik norma və prinsiplər əsasında, aşkarlıq, şəffaflıq, dinclik və xalqın böyük fəallığı şəraitində uğurla başa çatmışdır.

Seçkilər bir daha sübut etdi ki, Azərbaycan xalqı növbəti dəfə dövləti məharətlə idarə edəcək, müstəqilliyi qoruyub saxla-

yaraq möhkəmləndirəcək, Azərbaycanın nüfuzunu beynəlxalq aləmdə daha da artıracaq, iqtisadiyyatı və xalqın rifahını sürətlə yüksəldəcək, bir sözlə, ölkə vətəndaşlarının arzu və istəklərini gerçəkləşdirəcək ən layiqli namizədə səs verdi. Bu, həm də cəmiyyətimizin siyasi şüurunun inkişafından xəbər verir.

Seçkilərin ən mühüm göstəricilərindən biri də bu oldu ki, ölkədə uzun müddət siyasi həyatın sabitliyini nümayiş etdirən ən məsuliyyətli prosesin son akkordları vuruldu.

Xalq bir daha Heydər Əliyev ideyalarına sadiq qaldığını, İlham Əliyevin Azərbaycan xalqının və dövlətinin inkişafı, müstəqilliyimizin möhkəmlənməsi naminə gördüyü geniş və çoxcəhətli fəaliyyətini ürəkdən bəyəndiyini sübuta yetirdi.

Azərbaycan xalqı öz arzularının gerçəkləşməsinə, onun daha güclü və sabit, firavan və inkişaf edən, dünyada tanınan və sayılan dövlətdə yaşamasını təmin edən liderinə, növbəti dəfə səs verdi!

Azərbaycan xalqı Azərbaycan mədəniyyətini inkişaf etdirən, tarixi və mənəvi irsini qoruyan, insana yenidən səs verdi!

Azərbaycan xalqı respublikamızda Cənubi Qafqaz iqtisadiyyatının 80 faizinin cəmləşməsinə nail olan, Bakı–Tbilisi–Qars dəmiryolu və TANAP transmilli layihələrini öz hesabına maliyyələşdirməyi bacaran dövlət başçısını layiqincə dəyərləndirərək ona bir daha səs verdi!

Azərbaycan xalqı öz vətəndaşına daim qayğı və diqqət göstərən, neft kapitalını insan kapitalına çevirən, Azərbaycanı idman dövləti edən Prezidentinə yenidən səs verdi!

Azərbaycan xalqı hər bir vətəndaşına sahiblik edən – döyüş tapşırığını qəhrəmanlıqla yerinə yetirərkən həlak olan Mübariz İbrahimovun cəsədini Vətənə gətirərək hörmət və izzətlə dəfn edən, ədalətsiz şəkildə xarici dövlətdə ömürlük həbs cəzasına məhkum olunan Ramil Səfərovu geriyə qaytararaq əfv edən, 50 illik yubileyini məcburi köçkünlərlə keçirən mərd və qeyrətli oğluna səs verdi!

Azərbaycan xalqı məcburi köçkünlərə, şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına, idmançılara, Kür daşqınlarında və

Zaqataladakı zəlzələdə zərərçəkənlərə, jurnalistlərə dövlət hesabına ev tikdirərək hədiyyə edən böyük ürək sahibinə səs verdi!

Azərbaycan xalqı ölkədə fasiləsiz elektrik enerjisi olmasına, mənzillərdə mavi alovun şölələnməsinə, içməli su gəlməsinə, kanalizasiya şəbəkəsinin işləməsinə, modern ordu yaradılmasına, sovet dövrü əmanətlərinin qaytarılmasına nail olan qurucu İlham Əliyevə səs verdi!

«Mən dəfələrlə müxtəlif tədbirlərdə Azərbaycanın gələcəyi ilə bağlı öz fikirlərimi xalqla bölüşmüşəm. Görülən işlər haqqında xalqa daim hesabat verirəm. Bu gün də bildirmək istəyirəm ki, Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcəkdir. Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcəkdir və bütün beynəlxalq təşəbbüslər Azərbaycan xalqının maraqlarını müdafiə edəcəkdir» – deyərək göstərdiyi dəstəyə görə xalqa minnətdarlığını bildirən dövlət başçısı bu dəstəyin zəruriliyini xüsusi vurğulamışdır: «Mən bütün addımlarımda xalqın dəstəyini hiss edirdim, bu dəstəyə güvənirdim. Əgər bu dəstək olmasaydı, biz heç bir işi görə bilməzdik. Məhz xalqla iqtidar arasındakı birlik, vəhdət Azərbaycanı fərqləndirən amillərdən biridir».

Rəhbərin gücü xalqına arxalanmasındadır!

Xalqın qüdrəti ona müdrik və uzaqgörən insanların rəhbərlik etməsindədir!

Xalq öz qələbəsindən qürur duyur, onu sevinc və iftixarla bayram edir!

Çünki taleyindən arxayındır!

Bilir ki, qarşıdakı illərdə də daim inkişaf edərək yüksələcək, müstəqilliyi etibarlı şəkildə qorunacaq, arzu və istəkləri həyata vəsiqə qazanacaqdır!

Elə Prezident İlham Əliyev də hamını buna əmin edir: «Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm, daim Azərbaycanın dövlət maraqlarını müdafiə edəcəyəm... Biz birlikdə hələ böyük qələbələrə imza atacağıq».

Təvazökarlığı, xalqa bağlılığı, qətiyyətliliyi ilə Azərbaycan xalqının könlünə yol tapan, onun liderinə çevrilən cənab İlham Əliyev dövlət səviyyəsində olan tədbirlərin və digər mərasimlərin həmişə işgüzar şəraitdə, təvazökar qaydada keçirilməsinin tərəfdarı olub. Çıxış və bəyanatlarında dəfələrlə dövlət məmurlarının qarşısında müxtəlif tədbirlərin, o cümlədən ad günlərinin, yubileylərin və digər mərasimlərin təmtəraqdan, dəbdəbən uzaq, sadə şəkildə keçirilməsi tələbini qoyub. Dövlət başçısının daim sadə insanlarla təmasları, bölgələrə səfərləri zamanı vətəndaşların qayğı və problemləri ilə yerindəcə maraqlanması və digər faktlar Azərbaycan Respublikası Prezidentinin şəxsi timsalında sadəlik və təvazökarlıq nümunəsidir.

Prezident İlham Əliyevin fəaliyyəti onun Heydər Əliyev ideyalarını yeni dövrün nəbzinə, zamanın ruhuna uyğun davam etdirən, təkmilləşdirən qətiyyətli siyasi lider olduğunu təsdiqlədi. Siyasətə ideyaların reallaşdırılması vasitəsi kimi yanaşan və «Əsl siyasət konkret, əməli iş görməkdən ibarətdir» – deyən dövlət başçısı hakimiyyətə, xalqa təmənnasız xidmət vasitəsi kimi yanaşır, hər bir fərdin maraq və mənafeyini uca tutur. Ölkə vətəndaşları ürəkdən inanırlar ki, Azərbaycanın hərtərəfli tərəqqi və yüksəlişinə xidmət edən bu siyasət qarşıdakı illərdə də inamla davam etdiriləcək, Azərbaycanın xarici siyasətinə və diplomatiyasına yeni-yeni uğurlar gətirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin sentyabrında Bayraq meydanının açılışı mərasimində demişdir: «Bu gün Azərbaycan artıq iqtisadiyyat sahəsində keçid dövrünün başa çatdığı inkişaf etməkdə olan ölkədir. Biz inkişaf etmiş ölkələr sırasına daxil olmalıyıq. Azərbaycan beynəlxalq səhnədə layiqli yer tuta bilmişdir. Hər gün bizim xarici tərəfdaşlarımızın sayı artır. Azərbaycanın gözəl beynəlxalq imici vardır. Bizim xarici siyasətimiz bir məqsəd güdür – Azərbaycanın milli mənafelərini maksimum dərəcədə təmin etmək, Azərbaycan xalqının daha yaxşı yaşaması üçün dövləti möhkəmləndirmək».

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək cənab İlham Heydər oğlu Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti elan etdi. Bu, xalqın öz liderinə göstərdiyi etimadın ən bariz nümunəsi idi. Milli Məclisdə keçirilən andiçmə mərasimindəsə o, çıxış edərək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirdi və bundan sonra da xalqa və vətənə ləyaqətlə xidmət edəcəyini söylədi: «Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir».

Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atıb. Dünyadakı mövqelərini möhkəmləndirən, hazırda çox müsbət beynəlxalq reputasiyaya malik olan ölkəmizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət və dəstək var. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir. Belə uğurlu inkişafın əsl səbəbi, sözsüz ki, Azərbaycan xalqının birliyi, həmrəylik nümayiş etdirməsidir. Azərbaycançılıq məfkurəsinin Azərbaycanda tam bərqərar olmasını, Azərbaycan xalqının vahid milli ideya ətrafında birləşdiyini fəxrlə vurğulayan İlham Əliyev 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimindəki çıxışı zamanı demişdir: «Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək».

Bu həqiqətdir ki, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Sözsüz ki, kimdənsə asılısansa, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan! Ölkəmizdəki islahatlar böyük səmərə verəndən sonra Azərbaycan da iqtisadi müstəqilliyə nail oldu. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə

artıb. Bu, çox yüksək göstəricidir. Bu uğurda neft amilinin xüsusi yeri olsa da, qeyri-neft ixracımız da 15 il ərzində dörd dəfədən çox artıb. Ölkəmizə 230 milyard dollardan çox sərmayə də qoyulub. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətə qabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə ölkəmiz 3-cü yerdəyik. İqtisadi sahədə qazandığımız bütün bu nailiyyətlərin nəticəsidir ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beynəlxalq təşkilatlar da ölkəmizi nümunə göstərirlər: «Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bizi nümunə göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o səviyyədə artıbdır. Əgər nəzərə alsaq ki, indi dünyada, o cümlədən Azərbaycanda yeni texnologiyalar tətbiq olunur və bu texnologiyalar bəzi hallarda insan əməyini aradan götürür, yeni texnoloji müəssisələrin yaradılması bizim planlarımızdadır. Biz yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmalıyıq».

Prezident İlham Əliyevin fəaliyyəti onun Heydər Əliyev ideyalarını yeni dövrün nəbzinə, zamanın ruhuna uyğun davam etdirən, təkmilləşdirən qətiyyətli siyasi lider olduğunu təsdiqlədi. Siyasətə ideyaların reallaşdırılması vasitəsi kimi yanaşan və «Əsl siyasət konkret, əməli iş görməkdən ibarətdir» – deyən dövlət başçısı hakimiyyətə, xalqa təmənnasız xidmət vasitəsi kimi yanaşır, hər bir fərdin maraq və mənafeyini uca tutur. Ölkə vətəndaşları ürəkdən inanırlar ki, Azərbaycanın hərtərəfli tərəqqi və yüksəlişinə xidmət edən bu siyasət qarşıdakı illərdə də inamla davam etdiriləcək, Azərbaycanın xarici siyasətinə və diplomatiyasına yeni-yeni uğurlar gətirəcəkdir. İlham Əliyev 2018-ci ildə Prezident seçilərkən andiçmə mərasimindəki çıxışında yekun olaraq demişdir: «Azərbaycan artıq iqtisadiyyat sahəsində keçid dövrünün başa çatdığı inkişaf etməkdə olan ölkədir. Biz inkişaf etmiş ölkələr sırasına daxil olmalıyıq. Azərbaycan beynəlxalq

səhnədə layiqli yer tuta bilmişdir. Hər gün bizim xarici tərəfdaşlarımızın sayı artır. Azərbaycanın gözəl beynəlxalq imici vardır. Bizim xarici siyasətimiz bir məqsəd güdür – Azərbaycanın milli mənafelərini maksimum dərəcədə təmin etmək, Azərbaycan xalqının daha yaxşı yaşaması üçün dövləti möhkəmləndirmək.

Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik».



İnam və səmimiyyət olan yerdə yaradıcılıq
əzmi xariqələr yaratmağa qadirdir.

**MEHRİBAN ƏLİYEVA**

# V FƏSİL

## MEHRİBAN ƏLİYEVA – MİLLİ-SİYASİ ELİTAMIZIN QADIN OBRAZI

Azərbaycan dövlətçiliyinin bərpasının ölçüyəgəlməz sosial mədəni məziyyətlərindən biri odur ki, bu dünyagörüşü sistemi yeniləşməkdə olan cəmiyyətimizin həyatında qadının ictimai fəaliyyəti üçün real imkanlar açmışdır. Bəşər tarixi göstərir ki, qadının sosail vəziyyəti onun yaşadığı ölkənin ənənələri, dini və etik mədəniyyəti ilə şərtlənmişdir. Keçmiş Rusiya imperiyasında baş verən təhsil islahatları bu imperiyanın tərkibində olan Azərbaycanda da qadınların mübarizə əzmini artırmış, yeniləşən həyatımızın dəyərli səhifələrindən birinə çevrilmişdir. Azərbaycan milli mənlik şüurunun formalaşmasında mühüm mərhələ olan maarifçilik fəlsəfəsini inkişaf etdirən demokrat ziyalılar qadın azadlığı probleminə böyük diqqət yetirmişlər. 1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Respublikası müstəqillik haqqında Bəyannamə ilə Azərbaycan qadınına seçki hüququ verdi. Məişətdə inqilaba bərabər tutulan bu mühüm siyasi addım ilə Azərbaycan zamanca bir çox ölkələri, o cümlədən bir sıra Avropa dövlətlərini qabaqlamış oldu. Bu onu göstərir ki, Azərbaycan qadınları hələ XX əsrin ilk onilliklərində gender bərabərliyinə nail olmuş, Azərbaycan qadınları dünyanın bütün qadınları kimi bərabərlik, inkişaf və əmin-amanlıq kimi ülvi amalı öz əqidələrinin ayrılmaz hissəsinə çevirmişlər.

Ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevadan söhbət düşərkən Azərbaycanın məhşur qadınlarından bəhs etməmək mümkün deyildir. Gözümüzün önünə Azərbaycanın qadın dövlət xadimləri Mömünə xatun, Sara xatun, Ağabəyim ağa və başqa bu kimi qadınlarımız gəlir. Məhsəti Gəncəvi, Gövhər ağa, Xurşudbanu Natəvan, Həmidə xanım Cavanşir, Nabat xanım Aşurbəyova, Liza xanım Muxtarova kimi məhşur qadınlar xalqı-

mızın xoşbəxtliyi naminə nə qədər işlər görmüşlər. Çox önəmli faktdır ki, XII əsrdə şairə Məhsəti Gəncəvi xurafatın hökm sürdüyü bir mühitdə qadın azadlığı, azad məhəbbət ideyaları səsləndirmiş, xeyirxahlığı ilə el-obanın dərin rəğbətini qazanmış Nabat xanım Aşurbəyli isə öz vəsaiti hesabına Təzəpir məscidini tikdirərək müsəlman aləmində savab iş görmüşdür.

Adlarını rəğbətlə çəkdiyimiz belə qadınları – zadəgan, xan, bəy qızlarını, milyonçu zövcələrini, əqidələrinə görə xalqımızın milli-siyasi elitasının ilk nümayəndələri hesab etmək olar.

Xalqımızın tarixinə yazılmış qadın obrazları. Bu, bir daha göstərir ki, Azərbaycan cəmiyyətində qadının statusu yüksək olmuşdur. Maraqlıdır ki, varlı zümrəyə aid olmayan qadınlarımız da cəmiyyətdə böyük nüfuza malik idilər. Həmidə xanım Cavanşir «Xatirələrim» kitabında yazırdı: «Səadət xalam çox yoxsul idi, lakin ağıllı qadın idi, kəndin ağsaqqallar yığıncağına həmişə onu da çağırardılar». Həmidə xanım özü də Avropanın rasional təhsil sisteminin tərəfdarı olmuş, Azərbaycan qadının maariflənməsini birinci dərəcəli milli vəzifə saymışdır.

Milli elitamızın genezisi baxımından Azərbaycanda qadın hərəkatının inkişaf mərhələlərinə qısaca da olsa nəzər salmaq yerinə düşər.

1906–1907-ci illərdə Azərbaycanda qadın azadlığı uğrunda maarifçilərimiz, mətbuatımız mübarizə aparsalar da o dövrdə konkret qadın təşkilatı olmamışdır. 1915-ci ildə 11 qadın gimnaziyası fəaliyyət göstərmişdir. Həmin illərdə Gövhər Qacar, Həmidə Cavanşir, Nigar Şıxlinskaya «Qafqazda qadın xeyriyyə cəmiyyəti» adlı təşkilat yaratmışlar. 1911–1912-ci illərdə «Molla Nəsrəddinçilər»in təşəbbüsü ilə «İşıq» adlı ilk qadın jurnalı işıq üzü görmüşdür. Qadınlarımız 1912–1914-cü illərdə Bakıda, Gəncədə, Şəkidə inqilabi hərəkatda iştirak etmişlər.

1917-ci ilin 15–20 aprelində Bakıda keçirilmiş «Qafqaz müsəlmanlarının qurultayı»nda M.Ə.Rəsulzadənin təşəbbüsü ilə «qadın məsələsi» üzrə qərar qəbul edilmişdir. Artıq həmin dövrdə qadınların siyasi və vətəndaş hüquqları uğrunda mübarizəsi geniş

vüsət almışdı. Əhəmiyyətli məqam bu idi ki, bir çox tədbirlər məhz qadınların təşəbbüsü sayəsində həyata keçirilirdi. AXC dövründə Milli Şuraya seçkilərdə kişilərlə bərabər qadınların da iştirak etməsi Şərqdə inqilabi hadisə oldu. Beləliklə, Azərbaycanın qadın elitasının yetişməsi üçün gündən-günə münbit şərait yaranırdı.

Azərbaycan cəmiyyətində qadına dərin ehtiram həmişə yüksək əxlaqi norma sayılıb. Bu gün demokratik vətəndaş cəmiyyəti quruculuğu prosesini, siyasi-mədəni dəyişiklikləri qadınsız təsəvvür etmək çətindir. Müstəqillik illərində Azərbaycan cəmiyyətində qanunvericilik və seçki sistemi sahəsində həyata keçirilən islahatlar sayəsində qadının statusu xeyli artmış, kişilərlə yanaşı, qadınların da ictimai-siyasi həyata inteqrasiya səviyyəsi yüksəlmişdir. Qadınlarımız müasir mərhələdə dövlət idarəçiliyində keyfiyyətcə daha səriştəli səviyyədə iştirak edir, siyasət, elm, təhsil, iqtisadiyyat, mədəniyyət sahələrində daha fəal çalışırlar. Bu işdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bütün qadınlarımız üçün bariz nümunədir. «Mən dünyanı dəyişmək niyyətində deyiləm, mənim üçün özümü dəyişmək maraqlıdır – daha yaxşı olmaq. Bu, məncə daha faydalı işdir». Bu müdrik kəlamın sahibi Mehriban xanım Əliyeva öz ictimai və siyasi fəaliyyətinə bu ülvi amalın daşıyıcısı kimi başlamışdır.

Azərbaycanın birinci xanımı 23 saylı orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. İkinci kursdan təhsilini İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunda davam etdirmiş, 1988-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Mehriban xanım təhsilini başa vurduqdan sonra, 1988–1992 illərdə Moskvadakı Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda akademik Krasnovun rəhbərliyi altında çalışmışdır. Yüksək yaradıcılıq və təşkilatçılıq qabiliyyəti sayəsində o, 1995-ci ildə xalqımızın mədəniyyətini dünya ictimaiyyətinə tanıtmaq məqsədi ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmışdır. Ölkəmizin birinci xanımının indiyədək rəhbərlik etdiyi fond xalqımızın

mədəni dəyərlərinin dünya mədəniyyətinə inteqrasiya olunması, yeni beynəlxalq əlaqələrin yaradılması baxımından həyata keçirdiyi ideyaları özündə cəmləşdirir. Artıq Fond faydalı və xeyirxah tədbirlərin sosial institutuna çevrilmiş, beynəlxalq səviyyəli tədbirlər – festivallar, konsertlər, sərgilər təşkil etməklə əslində mədəniyyətimizin mükəmməl təbliğatçısı kimi tanınmışdır. Xalq musiqisinin, ecazkar muğamlarımızın, əvəzsiz poeziyamızın inkişafında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə «İpək yolunun musiqisi» festivalı, muğam dəsgahları, Yaponiya mədəniyyət günləri kimi tədbirlərin təşkil olunması dünyanın tanınmış mədəniyyət mütəxəssisləri tərəfindən təqdirəlayiq hadisə kimi qiymətləndirilmişdir. 1996-cı ildən etibarən Fondun təşəbbüsü ilə üç dildə (Azərbaycan, ingilis, rus) «Azərbaycan–İRS» jurnalı nəşr olunur. Tez bir zamanda nüfuz qazanmış bu jurnalın səhifələrində Azərbaycan beynəlxalq arenada təkcə neft və qazla zəngin ölkə kimi deyil, həm də əksər sahələrdə – musiqi, arxitektura, təsviri və tətbiqi incəsənət sahələrində şedevrlər yaratmış bir ölkə kimi təmsil olunur.

2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti, 2004-cü ildə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin və Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü seçilən Mehriban xanım Əliyeva ona olan hər cür etimada böyük hörmət və məsuliyyətlə yanaşdığından qısa zaman kəsiyində bütün bu sahələrdə çox böyük uğurlar və nailiyyətlər əldə edib.

Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasına prezidenti seçildikdən sonra idman həvəskarları bu sahədə mühüm canlanmanın şahidi oldular. Federasiyanın məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində Azərbaycanda bədii gimnastikamızın zəngin ənənələrini davam etdirməyə qadir olan beynəlxalq dərəcəli idman ustası Dinarə Gimatova, üçqat Azərbaycan çempionu Nurcahan Əsgərova, Xədicə Hacıyəhyayeva, Dina Qorina, Valeriya Yeqay kimi perspektivli gimnastlar nəsli yetişməkdədir. Bu əzmkar qadının rəhbərliyi altında Azərbaycan Gimnastika Federasiyasının qısa müddət ərzində gördüyü işləri yüksək qiymətləndirən Beynəlxalq Gimnastika Federasiyası Afi-

nada keçirilən 74-cü konqresində Dünya Kubokunun «A» kateqoriyalı mərhələsinin 2003-cü il avqustun 7–11-də Azərbaycanda keçirilməsini qərara almışdır. Ölkəmizin Birinci xanımının yüksək səviyyədə qayğısı və Milli Olimpiya Komitəsinin gərgin əməyi sayəsində Azərbaycanda digər idman növləri ilə yanaşı, bədii gimnastika da diqqətdən kənarda qalmamışdır.

Bütün ruhi rahatlığını insanların xoş əhvali-ruhiyyəsində tapan, yalnız sosial-ictimai fəaliyyəti ilə deyil, həm də xoş ünsiyyəti, təvazökarlığı, xeyirxahlığı ilə seçilən Mehriban xanım Əliyevanın həyatda tutduğu yol – neçə-neçə nəslə uğurlu fəaliyyətin sirlərini öyrətmək, mənəviyyatımızın saflığını, zənginliyini qorumaq yoludur.

Nəcib fəaliyyəti ilə dünya ictimaiyyətinin diqqətini cəlb edən Mehriban Əliyeva – Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Türkiyənin nüfuzlu «Siyasət» jurnalının «2004-cü ilin Birinci Xanımı» mükafatına layiq görülmüşdür. Nəşrin idarə heyətinin sədri, tanınmış jurnalist, ictimai xadim və iş adamı xanım Gül Kılıcaslanın səfirliyə göndərdiyi məktubda vurğulanıb ki, Mehriban xanım Əliyeva «Siyasət» jurnalının təsis olunmasının on birinci ili ilə əlaqədar keçirilmiş rəy sorğusunun nəticələri əsasında və Azərbaycan–Türkiyə əməkdaşlığı və qardaşlığının inkişafı, milli-mədəni dəyərlərin qorunması, qadınların, kimsəsiz uşaqların yaşayış şəraitinin yaxşılaşdırılması, Azərbaycanda və beynəlxalq miqyasda onların problemlərinə diqqət yetirilməsi sahəsində səylərinə görə bu mükafata layiq görülmüşdür.

Fəaliyyəti ərzində Fondun Azərbaycanda keçirdiyi xarici ölkə incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. tədbirlər beynəlxalq nüfuzlu hadisələr olmuşdur. Dünya şöhrətli incəsənət xadimlərinin – həmyerlilərimiz maestro Mstislav Rostropoviçin, ABŞ-ın Culyard Musiqi Akademiyasının professoru, pianoçu Bella Davidoviçin, Belfast simfonik orkestrinin baş dirijoru, violinoçu Dmitri Sitkovetskinin, «Most-Vivaldi» kamera orkestrinin, Nadejda Pavlova və Vyaçeslav Qordeyev kimi balet

ulduzlarının, İqor Moiseyevin rəhbərlik etdiyi Rus Dövlət Rəqs Ansamblının Bakıdakı çıxışları bu qəbildəndir. Ölkəmizin mədəni həyatının tanıdılmasında mühüm rol oynayan tədbirlər arasında «Musiqinin Böyük İpək Yolu» Beynəlxalq Klassik Musiqi Festivalı və SEBA (Seul-Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası ilə birgə keçirilən Koreya mədəniyyəti günləri də xüsusi qeyd olunmalıdır.

Azərbaycan Mədəniyyətinin Dostları Fondu daha bir neçə böyük layihənin təşəbbüsçüsü və təşkilatçısıdır. Bunların arasında «Bakı payızı» Beynəlxalq Festivalı, IX Şərq–Qərb Bakı Beynəlxalq Kino Festivalı, «Reklam acgözləri gecəsi» – beynəlxalq reklam filmlərinin nümayişi, 2007-ci ildə artıq üçüncü dəfə keçirilən Beynəlxalq Bakı Caz Festivalı ənənəyə çevrilmişdir. Azərbaycan Mədəniyyətinin Dostları Xeyriyyə Fondunun təşəbbüsü ilə xüsusi aylıq təqaüd təsis olunmuşdur ki, müğənnilər, teatr xadimləri, rəssamlar, muğam ifaçıları bu təqaüdlə təmin edilirlər.

«Yeniləşən Azərbaycana yeni məktəb», «Təhsilə dəstək» layihələri ilə yüzlərlə orta məktəb binasının təməlinin qoyulması və bərpası Birinci vitse-prezidentin təşəbbüsü sayəsində mümkün olmuşdur. Həmin məktəblər müasir-texniki avadanlıqlarla, kompüterlərlə, idman qurğuları ilə təchiz edilib.Belə möhtəşəm layihələr hətta ən ucqar dağ kəndlərində, çadır şəhərciklərində də  gerçəkləşdirilib. Qax, Zaqatala və Balakən bölgələrində yaşayan gürcü dilli inqiloylar üçün «Təhsilə dəstək» proqramı çərçivəsində tikilən yeni məktəblər tədris ləvazimatları və dərsliklərlə təmin olunub. Bakıda yəhudi uşaqları üçün Xabad-Or-Avner təhsil mərkəzinin təməli qoyulub. Uşaq evləri və internat məktəbləri Birinci xanımın qayğısı, mərhəmət hissi ilə yeniləşən Azərbaycanın bir parçasına çevrilib.

Bir vaxtlar İbrahimxəlil xanın nəvəsi Qarabağın sonuncu xanı Mehdiqulu xanın qızı Xurşudbanu Natəvan Qarabağın Üzeyir bəy Hacıbəyli kimi istedadlı gənclərini Qurani-Kərimin altından keçirərək Qori Müəllimlər Seminariyasına oxumağa göndərirdi.Bu müdrik və uzaqgörən Xan qızı sərmayəsini səxavətlə maarifə və elmə sərf edirdi. Sonralar bu müqəddəs ənənə Azərbaycanın iki

qüdrətli maarifpərvərinin – XX əsrin əvvəllərində neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin və XX əsrin 70-ci illərində isə Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevin ömür yoluna çevrildi.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə ölkəmizin Birinci xanımı Mehriban Əliyeva İSESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. (İSESCO – Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatıdır. Azərbaycan dövləti İSESCO ilə yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir). İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Bakıda IV İslam Həmrəyliyi oyunlarının keçirilməsini və tədbirin Təşkilat Komitəsinə Mehriban Əliyevanın başçılıq etməsini təqdirəlayiq hadisə kimi qiymətləndirmişdir. O, demişdir: «Bu oyunların yüksək təşkili sayəsində islam əməkdaşlığı təşkilatının üzv ölkələrinin gənc iştirakçılarını bu idman tədbirləri çərçivəsində birləşdirmək və sağlam rəqabətini təmin etmək mümkün olmuşdur». Bu tədbirin uğurlu təşkili Azərbaycanın sülhün dözümlülüyü və rahatlığın platforması kimi mühüm rolunun daha bir nümunəsi oldu.

Bakı şəhərinin 2009-cu ildə İslam paytaxtı elan olunması Azərbaycanın dinamik həyatında əlamətdar hadisə olmuşdur. İSESCO-nun xoşməramlı səfiri adına layiq görülən ilk azərbaycanlı qadın–Mehriban xanım Əliyeva həmişə qeyd edir ki, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa qadın gözü ilə baxmaq lazımdır. Qadın olan yerdə məhəbbət, hörmət, səmimilik vardır, nifrətə və konfliktə yer ola bilməz. Qadın potensialı dialoqun möhkəmləndirilməsində böyük rol oynaya bilər.

2006-cı il noyabrın 23-də Heydər Əliyev Fondunda Fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının xoşməramlı səfiri adının verilməsinə həsr edil-

miş mərasim keçirilmişdir. Mərasimdə iştirak edən elm və təhsil xadimləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində görülən işləri yüksək qiymətləndirmiş və son iki ildə respublikamızda 130 məktəbin tikilməsində və bir o qədər də məktəbin əsaslı təmir edilməsində Heydər Əliyev Fondunun təşəbbüsünü təhsilin inkişafı yolunda əvəzsiz töhfə kimi dəyərləndirmişlər.

Azərbaycan Mədəniyyətinin Dostları və Heydər Əliyev fondlarının xətti ilə sənətə və mədəniyyətə doğma işi kimi yanaşan Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində UNESCO-nun xətti ilə Azərbaycanın tarixi abidələri, muğamları dünyanın maddi-mədəni inciləri sırasına yazılıb. Mehriban xanım respublika Prezidenti İlham Əliyevin və UNESCO-nun Baş katibi Koişiro Matsuuranın iştirakı ilə Dənizkənarı Milli Parkda Muğam Mərkəzinin təməlini qoyub. Bu xalq musiqisi ocağı bu gün nəcib fəaliyyətini uğurla davam etdirir. Muğamın inkişafı və təbliği istiqamətində atılan vətənpərvərlik addımı «Azərbaycan muğamları» layihəsi çərçivəsində bu gün də uğurla həyata keçirilir. Bu layihə sayəsində musiqisevərlərimizə hədiyyə olan Qarabağ xanəndələri albomu mədəniyyətimizi yaşadan muğam ifaçılarını dünyanın musiqi ictimaiyyətinə tanıtmaq üçün gözəl hədiyyə oldu. Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Zülfi Adıgözəlov, Bülbül kimi muğam dünyamızı zinətləndirən Şərqin bənzərsiz muğam ifaçıları bu gün Qarabağ həqiqətini muğamın sehirli dili ilə dünyaya bəyan edirlər.

2005-ci ilin martında Parisdə UNESCO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında «Qarabağ xanəndələri» albomunun təqdimatı yüksək səviyyədə keçirilmişdir. «Muğam-Dəsgah» layihəsi muğam-dəsgahların konsertlərdən birbaşa yazıya alınması və gələcək nəsillər üçün qoruyub saxlanması kimi ülvi məqsəd daşıyır. «Muğam Ensiklopediyası» layihəsi çərçivəsində Azərbaycan muğamına həsr olunmuş «Muğam Ensiklopediyası»nın nəşri həm elektron, həm də kitab variantlarında həyata keçirilib. «Muğam-İnternet» layihəsini həyata keçirməkdə məqsəd internetdə muğamla bağlı audio və video materiallar əsasında muğam-portal yaratmaqdır. Hazırda «Muğam dünyası»

layihəsinə əsasən simpoziumlar və muğam sənəti ilə bağlı beynəlxalq konfranslar, müxtəlif festival və yarışlar keçirilir. «Muğam-Antologiya» layihəsi çərçivəsində isə muğamla bağlı zəngin nəzəri musiqi irsinin dəyərli nümayəndələrindən olan Səfiəddin Urməvinin, Fətullah Şirvaninin və digər görkəmli müəlliflərin əsərləri qədim musiqi incilərimizin təbliğində müstəsna rol oynayır.

Fondun təşəbbüsü ilə UNESCO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. Azərbaycan və dünya musiqisinin incisi olan muğamların qorunub saxlanması, dünyada yayılması və beynəlxalq muğam tədbirlərinin keçirilməsində Bakı Beynəlxalq Muğam Mərkəzinin rolu əvəzsizdir.

«Televiziya muğam müsabiqəsi–2005»in keçirilməsi respublikamızın mədəni həyatında mühüm tədbir olmuşdur. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin anadan olmasının 120 illiyi münasibətilə bir il davam edən muğam telemüsabiqəsi, Heydər Əliyev adına Sarayda müsabiqə iştirakçılarının və muğam ustalarının konserti xalq musiqisinin təntənəsinə çevrilmişdir.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya yüksək mükafat – «Qızıl ürək» beynəlxalq mükafatı təqdim olunmuşdur.

Təhsilin inkişafı sahəsində də əsl ziyalı qadın kimi Mehriban xanımın xidmətləri misilsizdir «Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı» çərçivəsində keçirilən monitorinqlərin nəticəsi olaraq respublikamızın bütün regionlarında əhalinin xidmətində olan uşaq-tərbiyə müəssisələrində günün tələbi olan problemlərin həllinə yönələn dörd əsas istiqamət – texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq aparıcı fəaliyyət istiqamətləri olmuşdur. Respublikamızda 29 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, əlavə yardımçı binalar inşa olunmuş, yaşayış üçün

rahat kommunal şərait yaradılmış və təzə avadanlıqla komplektləşdirilmişdir.

«Yeniləşən Azərbaycana yeni məktəb proqramı» bu gün təhsilin səviyyəsinə birbaşa təsir edən aktual problemlərin həllini – maddi bazanın yaxşılaşdırılmasını, tədris prosesinin keyfiyyətinin yüksəldilməsini ön plana çəkmişdir. Bu istiqamətdə Azərbaycanın bütün regionlarını əhatə edən 62 rayonda 200-dək yeni məktəb tikilib istifadəyə verilmiş və ən müasir avadanlıqlarla təchiz edilmişdir. Bununla da 2005–2006-cı illərdə 38 min 964 şagird yerlik məktəblərin inşasına və yenidən qurulmasına nail olunmuşdur. 100, 200, 240, 300 və daha artıq şagird yerlik məktəblərin hər birində laboratoriya, kompüter otaqları, idman zalları və meydançaları, kitabxana, yeməkxana, ayrıca istilik sistemi vardır.

Əhaliyə səhiyyə sahəsində yardımçı olan «Diabetli uşaqlara ən yüksək qayğı» layihəsi Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın «Novo Nordisk» şirkəti ilə birgə əməkdaşlıq nəticəsində həyata keçirilir. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004–2006-cı illər ərzində müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin edilmişlər». «Talassemiyasız həyat naminə» layihəsinin həyata keçirilməsi də müstəsna humanist mahiyyət daşıyır. Nə qədər ağrılı olsa da, qeyd edilməlidir ki, Azərbaycan talassemiya xəstəliyinin geniş yayıldığı ölkələrdən hesab olunur. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Mehriban xanımın təşəbbüsü ilə Məsləhət Şurası yaradılmışdır. Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması məqsədilə donor xidmətinin inkişafı, bu sahədə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilir. Tibb müəssisələrinin yenidən qurulması və müasir avadanlıqla təchizatı işində Fondun təşəbbüsü ilə paytaxtın Xəzər rayonunun Türkan qəsəbəsində poliklinika, təcili yardım stansiyası, aptek, Şüvəlan qəsəbəsində xəstəxana, İsmayıllı rayonunun İvanovka kəndində poliklinika yenidən qurulmuş və avadanlıqla

təchiz olunmuşdur. Almaniyanın «Fresenius Medical Care» şirkətinin Heydər Əliyev Fonduna hədiyyə etdiyi 10 ədəd hemodializ aparatı və «Storz» şirkətinin hədiyyəsi olan endoskopik avadanlıq tibb müəssisələrinin istifadəsinə verilmişdir. Fransanın «Servye» şirkəti tərəfindən fonda verilmiş «Diabeton MR» preparatları diabetdən əziyyət çəkən insanlara paylanılmışdır.

Maddi mədəniyyət abidələrinin qorunması və bərpası işində Mehriban Əliyevanın şəxsi təşəbbüsləri əvəzsiz vətənpərvərlik nümunəsidir. Məsələn, Fondun dəstəyi ilə Gəncənin sonuncu xanı Cavad xanın qəbri üzərində gözəl məqbərə tikilmişdir. Bu layihə Gəncə sakinlərinin müraciətlərinə cavab olaraq həyata keçirilmişdir. 1674-cü ildə bu sarayda yaradılmış muzey dünyanın mədəni irs siyahısına salınmışdır. Fond tərəfindən açıq səma altındakı iki nadir heykəlin bərpası işləri aparılmışdır.

Vaxtilə Tbilisi şəhərində yaşayıb-yaratmış görkəmli Azərbaycan şəxsiyyətləri Mirzə Şəfi Vazehin və Mirzə Fətəli Axundovun, Fətəli xan Xoyskinin və digər tanınmış simaların qəbirüstü abidələrinin yenidən qurulması və Gürcüstanda xiyaban yaradılması işləri, eləcə də Pir Həsən ziyarətgahının yenidən qurulmasında Fondun fəaliyyəti təqdirəlayiqdir. XVI əsrə aid Pir Həsən ziyarətgahında dəfn edilmiş böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin, onun özünə böyük ustad-müəllim hesab etdiyi Turab ağanın və Hacı Zeynalabdinin qızı Sara xanımın məzarları bərpa olunmuş, ətraf abadlaşdırılmış və xiyaban salınmışdır. Möhsün Səlim məscidi yenidən qurulmuş, onun qəza vəziyyətində olması barədə Binə qəsəbəsi ağsaqqallarının müraciətindən sonra memarlıq üslubu qorunub saxlanılmaqla bina əsaslı təmir edilmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu ilin iyulun 7-də Bakının Türkan qəsəbəsində müasir tələblər səviyyəsində inşa olunmuş Mədəniyyət Mərkəzinin açılışı olmuşdur. Qeyd edək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə ümumi sahəsi 1500 kvadratmetr olan mərkəzin inşasına 2009-cu ilin fevralında başlanılmışdı. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Hazırda Türkan və ətrafdakı qəsəbələrin

uşaqları burada fəaliyyət göstərən bir çox dərnəklərdə məşğul olurlar. İkimərtəbəli binanın foyesində Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində mədəniyyətin inkişafı üçün gördüyü tədbirlərini, incəsənət xadimləri ilə görüşlərini əks etdirən fotostend qurulmuşdur. Mərkəzin oxu zalı və kitabxanası ilə tanışlıq zamanı məlum olur ki, burada Azərbaycan, rus, ingilis dillərində müxtəlif sahələri əhatə edən kitablar toplanmışdır. Kitabxanada Ulu Öndər haqqında materiallar, onun adını daşıyan Fondunun nəşrləri də nümayiş etdirilir. Burada idmanın intellektual növünə həvəs göstərən gənclər üçün şahmat dərnəyi fəaliyyət göstərir. Təcrübəli mütəxəssislər uşaqlara şahmatın sirlərini öyrədirlər. Mehriban xanım Əliyeva uşaqların informasiya-kommunikasiya texnologiyalarına yiyələnmələri üçün mədəniyyət mərkəzində fəaliyyət göstərən kompüter dərnəyi ilə tanış olmuşdur. Burada gənclərə internetə çıxışı olan kompüter bilikləri verilir, müxtəlif proqramlar öyrədilir. Mədəniyyət mərkəzində ikinci mərtəbədə müxtəlif tədbirlərin keçirilməsi üçün 250 nəfərlik ən son avadanlıqla təchiz edilmiş geniş akt zalı vardır.Mədəniyyət mərkəzi üçün ayrılan ərazidə gözəl park salınmışdır.

Heydər Əliyev Fondu yeniyetmə və gənclərin təlim-tərbiyəsinə, fiziki və intellektual inkişafına da daim xüsusi qayğı göstərir. Onların mükəmməl təhsil almaları, fiziki və mənəvi tərbiyəsi, vətənə və cəmiyyətə yararlı insan kimi yetişməsi problemlərinə milli məsələ kimi xüsusi diqqət yetirir. 2011-ci ilin oktyabrın 18-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuş Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbi istifadəyə verilmişdir.700 yerlik gimnaziyada 38 sinif otağı, multimedia və fənn kabinetləri, 2 kompüter sinfi, kimya və fizika laboratoriyaları, zəngin kitabxana mövcuddur.

Mehriban Əliyeva 2011-ci ilin oktyabrın 19-da Bakının Xəzər rayonunda yenidən qurulmuş üç təhsil müəssisəsinin açılışında iştirak etmişdir. Binə qəsəbəsindəki S.Abbasov adına 117 saylı tam orta məktəbin, yararsız vəziyyətdə olan binası 2010-cu ilin dekabrında Fondun «Yeniləşən Azərbaycana yeni məktəb»

layihəsi çərçivəsində yenidən tikilmişdir. 3 hektar ərazini əhatə edən məktəb 2040 şagird, 81 sinif, 4 kompüter otağı, akt və idman zalları, laboratoriyalar, kitabxana, həkim kabineti, əmək emalatxanalarından ibarətdir. Azərbaycanın Birinci xanımı 2011-ci ilin oktyabrın 19-da Zirə qəsəbəsində Heydər Əliyev Fondunun «Təhsilə dəstək» layihəsi çərçivəsində yeni istifadəyə verilmiş uşaq bağçasının açılışında da iştirak etmişdir.

2012-ci ilin sentyabrın 14-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində Prezident İlham Əliyev və xanımı Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yenidən inşa edilmiş 5 nömrəli texniki peşə məktəbinin də açılış mərasimi olmuşdur.

2007-ci ilin aprelin 27-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva İslam Konfransı Təşkilatı Gənclər Forumunun «Sivilizasiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə» mükafatına layiq görülmüşdür.

2009-cu ilin sentyabrın 14-də Milli Məclisin deputatı Mehriban Əliyeva Polşa Respublikasının «Xidmətlərə görə» Böyük Komandor Xaçı ordeni ilə təltif edilmişdir. Heydər Əliyev Fondunda ordenin təqdimetmə mərasimində Polşanın ölkəmizdəki səfiri Kşiştof Krayevski bildirmişdi ki, Prezident Lex Kaçinski Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanımı bu ordenlə təltif etmişdir.

Avropa miqyasında böyük nüfuza malik Mehriban xanım Əliyeva Fransa Respublikası Prezidentinin Sərəncamı ilə «Şərəf Legionu» ordeninin zabit dərəcəsi ilə təltif edilmişdir.

Müsəlman Şərqinin tanınmış siyasətçisi Mehriban xanım Əliyevaya Pakistanin Ali Mükafatı – 2012-ci ilin «Humanizm rəmzi – Dünya miqyasında apardığı xeyirxah fəaliyyətinə, bəşəriyyətin ülvi ideyalarına xidmətinə görə» qadın mükafatı təqdim edilmişdir.

Mehriban xanım Əliyeva həm də işgüzar bir deputat kimi seçicilərinin böyük hörmətini qazanmışdır. Onun təşəbbüsü ilə Mərdəkan, Binə, Şüvəlan, Türkan, Zirə və s. qəsəbələrdə geniş tikinti-abadlıq işləri həyata keçirilmişdir. Küçələr qaydaya

salınmış, bir sıra yerlərə içməli su xətləri çəkilmiş, elektrik enerjisi şəbəkəsi bərpa və təmir olunmuşdur. Mehriban xanımı vaxtaşırı məktəblərdə, uşaq bağçalarında, sadə adamların ailəsində, çay süfrəsində görmək bu gün adi hala çevrilib. 23 noyabr 2006-cı ildə Mehriban xanın Əliyeva mərasimdə çıxış edərək demişdir: «Biz öz fəaliyyətimizlə milli-mədəni irsin qorunmasına çox diqqətlə yanaşırıq. Eyni zamanda Heydər Əliyev Fondu dünyanın bir sıra elm mərkəzləri ilə çox sız əməkdaşlıq edir. Biz bir il ərzində foudumuzda bir neçə beynəlxalq konfrans keçirmişik. Bütün bu tədbirlərə dünyaşöhrətli alimləri dəvət edirik və ölkəmizdə olan reallıqları, həqiqətləri onlara çatdırmağa çalışırıq. Bu da öz növbəsində dünyada Azərbaycanın həqiqi imicinin formalaşmasında böyük rol oynayır». Mehriban xanım Əliyevanın yorulmaz çalışqanlığının, işgüzarlığının, insanlara doğma və mehriban münasibətinin nəticəsidir ki, yüksək səviyyəli bir Azərbaycan xanımı kimi nüfuzu və hörməti gündən-günə artır.

Fondun hər Yeni ildə, Novruz şənliklərində, yeni dərs ilinin başlanmasında, əlamətdar bayramlarda şəhid, əlil, məcburi köçkün ailələrində və aztəminatlı ailələrdə böyüyən, eləcə də valideyn himayəsindən məhrum olan uşaqlara sovqatlar göndərməsi, onlardan ötrü əyləncəli şənliklər keçirməsi də artıq ənənəyə çevrilmişdir.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Heydər Əliyev Fondu onlara əlavə imkanlar yaratmaq mexanizmi kimi informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadəni zəruri sayır. Bu məqsədlə «Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair» layihə hazırlanmışdır. Üç mərhələdən ibarət olan bu layihə BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilir. Birinci mərhələdə məqsəd kor və görməqabiliyyəti zəif olan insanların İKT ehtiyaclarını müəyyənləşdirmək, onlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə milli strategiya hazırlamaqdır. İkinci mərhələdə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün internat

məktəblərdə model İKT sinfinin yaradılması istiqamətində iş aparılacaqdır. Xüsusi kompüter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması bu mərhələdə başlıca işdir.

Kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün kitabxana və təlim mərkəzinin yaradılması isə layihənin üçüncü mərhələsini əhatə edir. Bu müddətdə audio-kitabxana və bütün növ ədəbiyyatı audio formata çevirmək üçün səsyazma studiyasının yaradılması, bu studiyanın və nəşriyyatın yardımı ilə mövcud kitabxanalarda Brayl şriftli və audio kitabların bərpası, internetə çıxış, İT-əsaslı təlim kursları, xidmətləri təmin edən kompüter mərkəzinin yaradılması və təlimatçıların hazırlanması həyata keçiriləcəkdir.

2004-cü il dekabrın 4-də Fondda «Diabetli uşaqlara ən yüksək qayğı» layihəsinin təqdimatından sonra Heydər Əliyev Fondu Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın yüksək keyfiyyətli insulin istehsalı sahəsində dünyada lider olan Novo Nordisk şirkəti ilə birgə layihənin icrasına başladı. Layihənin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə yönəltmək, bunların həllinə kömək etmək və Beynəlxalq Diabet Federasiyasının bu sahədə iştirakının fəallaşdırılmasına nail olmaqdır.

Azərbaycanda bu xəstəliyə tutulmuş 14 yaşınadək 310 nəfər uşağın insulinlə təminatında əvvəllər böyük çətinlik mövcud idi. Layihə çərçivəsində həmin uşaqlara yarımillik insulin preparatları və şpris-qələmlər verilmişdir. 2005-ci ilin may ayından başlayaraq, Heydər Əliyev Fondu tərəfindən hər növbəti yarımil üçün insulin preparatları və şpris-qələmlər paylanılır və bu iş indi də müntəzəm davam edir. Bu yaxınlarda respublikamızda qeydiyyatda olan 2-ci qrup şəkərli diabet xəstəliyinə tutulmuş 100 pasiyentin hər birinə birillik müalicə üçün nəzərdə tutulmuş 1200 qutu diabeton preparatı verilmişdir. Dərman preparatlarının kəşfi, tədqiqi, istehsalı sahəsində dünyada ikinci ən böyük, tanınmış müəssisə olan Fransanın «Servye» şirkətində hazırlanmış preparatların diabetli

xəstələrə, onların ailələrinə, doğma və əzizlərinə çatdırılması Heydər Əliyev Fondunun əvəzsiz hədiyyəsi olmuşdur.

Səhiyyə sahəsində Fondun həyata keçirdiyi digər layihə isə ölkədə talassemiyanın qarşısının alınmasına yönəlmişdir. Respublikanın bəzi rayonlarında bu xəstəlik geninin yayılma tezliyi xüsusi təşviş doğurduğundan, bu sahə Heydər Əliyev Fondunun daim diqqətindədir.

Fondun təşəbbüsü ilə ölkəmizdə talassemiyalı xəstələrinin sayı, vəziyyəti, müalicə imkanları ilə bağlı müvafiq informasiya toplandıqdan sonra 2005-ci ilin fevral ayında «Talassemiyasız həyat naminə» mövzusunda keçirilən «dəyirmi masa»da ictimaiyyətin, beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə birgə əməkdaşlıq imkanları müzakirə edilmişdir. Geniş diskussiyadan sonra Fondun «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmışdır.

Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də diqqət yetirilir.

Mehriban xanımın təşəbbüsü ilə talassemiya ilə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsrail dövlətlərindəki təcrübə öyrənilir, bu ölkələrin müvafiq qurumları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində işlər görülür. Artıq bir neçə ölkənin talassemiya sahəsində tanınmış mütəxəssislərinin Azərbaycana səfərləri təşkil edilmiş və praktiki əhəmiyyət kəsb edən müzakirələr aparılmışdır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması üçün başqa ölkələrlə mütəxəssis mübadiləsinin təşkili də Fondun fəaliyyətinin mühüm istiqamətidir.

Fondun humanitar fəaliyyətinin nəticəsidir ki, Almaniyanın «Frezerius» şirkətinin istehsalı olan 7 hemodializ aparatı da Ba-

kıdakı M.Əfəndiyev adına 2 nömrəli şəhər klinik xəstəxanasına hədiyyə edilmişdir.

Heydər Əliyev Fonduna səhiyyə problemləri ilə bağlı 4 minədək məktub daxil olmuş, məktublardakı xahişlər diqqətlə öyrənilmiş, müvafiq tibb müəssisələrinə göndərilmişdir. Daxil olan çoxsaylı xahişləri nəzərə alaraq, müxtəlif xəstəliklərə düçar olmuş insanlara kömək göstərilməsi məqsədilə Fondun qayğısı sayəsində 2500-dən çox insana yardım göstərilmişdir ki, onların çoxu ürək xəstəliklərindən əziyyət çəkən azyaşlı uşaqlardır. Fond müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların bir qisminin mütəmadi olaraq zəruri tibbi müayinə üçün müxtəlif ölkələrə göndərilməsini də diqqət mərkəzində saxlayır.

2005-ci ildə metropolitenin «Bakı Soveti» (indiki «İçərişəhər») stansiyasında baş vermiş qəza nəticəsində xəsarət almış insanların müalicə olunmasını Heydər Əliyev Fondu öz üzərinə götürmüşdü.

Dahi Üzeyir Hacıbəylinin «Arşın mal alan» əsərinin səhnələşdirilməsi haqqında Vyana kamera teatrı ilə razılığın əldə edilməsi də xalqımızın milli mədəniyyətinin dünyada təbliği yolunda mühüm hadisədir. Dahi bəstəkarın bütün əsərlərinin, o cümlədən klavirlərinin yenidən çap olunması ilə yanaşı, onların CD və DVD-də buraxılması Fondun fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Fondda Böyük Vətən müharibəsinin veteranlarına da maddi yardımlar göstərilmişdir.

Fondun bilavasitə təşkilatçılığı ilə Bakıda keçirilmiş «Fərqli mədəniyyətlərin qovuşuğu» beynəlxalq sərgi-konfransı, «Azərbaycan: keçmişin və bu günün sivilizasiyalararası dialoqu», «Orta əsr əlyazmalarında tibb və əczaçılıq» mövzusunda I Beynəlxalq konfrans respublikamızın mədəni həyatında diqqətəlayiq hadisəyə çevrilib. Bu konfranslarda Mehriban xanımın, eləcə də Latın Mədəniyyəti Akademiyasının Baş katibinin, Roma Klubunun sədri-İordaniya Haşimilər Krallığının şahzadəsinin, UNESCO-nun Baş direktorunun müavininin, dünyadakı yəhudi təşkilatlarının

rəhbərlərinin çıxışlarında Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycanın yeri və roluna, mövqeyinə yüksək qiymət verilmişdir.

Fondun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə zənginliyinə görə analoqu olmayan «Azərbaycan» portalı yaradılıb. Bu ideyani həyata keçirmək üçün yüksək ixtisaslı mütəxəssislərdən təşkil edilmiş işçi qrupu ilkin mərhələdə müvafiq təşkilatların dəstəyi ilə geniş məlumat bazası yaradıb. Qısa müddət ərzində əldə edilən zəruri məlumatlar portalın müvafiq bölmələrində yerləşdirilib.

Dünyanın 100-dən artıq ölkəsində 1 milyarddan çox istifadəçinin qoşula bildiyi internet məkanında yer alan portalda məlumatlar üç dildə təqdim olunur. Portalın ünvanına müxtəlif ölkələrdən gələn minnətdarlıq məktubları sübut edir ki, portalın işinin yaxşı təşkil olunması istifadəçilərin coğrafiyasının geniş olmasına imkan yaradır.

Portal 12 bölmədən ibarətdir: «Xəbərlər», «Ümumi məlumat», «Təbiət», «Tarix», «İqtisadiyyat», «Mədəniyyət», «Cəmiyyət», «Dövlət hakimiyyəti», «Azərbaycan beynəlxalq aləmdə», «Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi», «İnzibati ərazi vahidləri» və «Xəritələr». Hər bölmə bir neçə hissədən ibarətdir və burada toplanmış konkret məlumatlar bütövlükdə Azərbaycanla bağlı istənilən mövzuda informasiyanın əldə olunmasına imkan verir. Respublikamızın hər bir rayonu haqqında verilən ətraflı məlumat xarici iş adamlarının bölgələrə marağının artması və ölkəmizdə turizmin inkişafı baxımından faydalı informasiya yükü daşıyır.

Ermənilərin xarici mətbuat vasitəsilə yaydığı yalanları ifşa etmək, əsl Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün «Azərbaycan» portalında yaradılan xüsusi bölmədə Qarabağın tarixi, Dağlıq Qarabağ problemi və erməni məsələsi, Azərbaycana qarşı erməni təcavüzü, Xocalı soyqırımı, humanitar fəlakət, erməni terrorizmi, Azərbaycan ərazilərinin işğalının ağır nəticələri haqqında məlumat toplanmış, tarixi

sənədlər təqdim edilmişdir. «Xəbərlər» bölməsinin təqvim arxivinin köməyi ilə günün istənilən məlumatı ilə tanış olmaq mümkündür. İstifadəçilərin işçi qrupuna göndərdiyi irad və təkliflər diqqətlə araşdırılır. Portalın müxtəlif brauzerlərə adaptasiyası həyata keçirilmişdir. Portal haqqında istifadəçilərin fikirləri «Rəylər» bölməsində yerləşdirilmişdir. Təqdimat mərasimi 2005-ci ildə keçirilən «Azərbaycan» internet portalı «Azərbaycan Elektron kontent-2005 mükafatı» milli müsabiqəsində E-cəlbetmə nominasiyası üzrə qalib gəlmişdir.

Fondun Prezidenti Mehriban xanımın 2004-cü ilin avqustundan UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyəti də xalqımız, dövlətimiz üçün, sözün əsl mənasında, Azərbaycan qadınının adına şərəf gətirən dəyərli hadisə olmuşdur. Qeyri-maddi irsin qorunması sahəsində UNESCO ilə Azərbaycanın əməkdaşlığı xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır.

Göründüyü kimi, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti çoxşaxəli və rəngarəngdir. Dünyanın bir çox ölkəsində, o cümlədən Rusiya Federasiyasında nümayəndəliyi olan Heydər Əliyev Fondu yüksək beynəlxalq nüfuza malikdir. Ona beynəlxalq aləmdə tanınmış institut nüfuzunu gətirən başlıca faktor humanitar və sosial xarakterli layihələrin reallaşdırılması vasitəsilə konstruktiv xarici siyasətin yeni modelini təqdim etməsidir. Bu cəhət diplomatiyanın resurs potensialının keyfiyyətindən, yeniləşdirilməsindən xəbər verir, başqa sözlə, bu o deməkdir ki, qonşu dövlətlər arasında münasibətlər yalnız hakimiyyət dəhlizlərində qurulmur, həmçinin hökumətlərarası əlaqələr konkret yaradıcı əsasa malik olub, ictimai, sosial və mədəni səviyyələrdə yaradılır. Fondun fəaliyyətində bu istiqamət Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun möhkəmləndirilməsinin mühüm tərkib hissəsidir. Belə bir düşünülmüş fəaliyyət perspektivdə hərtərəfli inkişaf üçün zəruri olan qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin miqyasının formalaşdırılmasında və genişləndirilməsində mühüm rol oynayır.



*Bu gün Azərbaycan qadını Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın timsalında dövlət idarəçiliyində və siyasətdə yüksək peşəkarlıqla təmsil olunur.*



*Mehriban xanım Əliyevanın dərin analitik intellektə söykənən hər bir addımı Azərbaycan cəmiyyətinin sosial reallığını pozitiv surətdə dəyişdirir.*

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən ölkələrdə humanitar layihələrə qoyulan vəsait o qədər də sabit olmayan dünya prosesləri şəraitində ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi üçün müstəsna şərtdir. Bu kontekstdə Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin keyfiyyətcə yeni səviyyədə qurulmasında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fondun ictimai fəaliyyətinin rolu müstəsna yer tutur. Bu real faktdır ki, XXI əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətləri strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu prosesdə Heydər Əliyev Fondunun rolu misilsizdir.

Dünya siyasəti prakrtikası göstərir ki, müasir dövrdə sosial-siyasi arenada qadınların iştirakına və fəaliyyətinə ciddi əhəmiyyət verilir. Azərbaycanda qadın ləyaqətinə həmişə böyük ehtiramla yanaşılıb. Cəmiyyətdə humanizmin tərbiyə olunması kimi qlobal bir problem Azərbaycan qadınlarının əzmkarlığının bəhrəsi olmuşdur. Azərbaycan qadınları doğma ocağa dayaq olmaqla yanaşı, həm də övladlarını vətənpərvərlik ruhunda tərbiyə etmiş, insanları saf əməllər sahibi olmaq idealını ön plana çəkmişlər. Bu gün isə Azərbaycan qadınları keyfiyyətcə yeni səviyyədə dövlətin idarəçiliyində iştirak edir, siyasət sahəsində əsl professional kimi çalışırlar. Onlar böyük vüsətlə inkişaf edən demokratik Azərbaycan dövlətinin yeni üfüqlərə doğru inamla hərəkəti üçün öz töhfələrini əsirgəmirlər. Bu kontekstdə bunu xüsusilə qeyd etmək lazımdır ki, ümumiyyətlə, dünya miqyasında son 50 ildə qadınların siyasətdə rolu xeyli artmışdır.

Müasir siyasət dünyasının görkəmli qadın liderləri sırasında öz ölkəsinin sosiohumanist və mədəni modernizasiyasını milli idealın bir hissəsi kimi həyata keçirən ölkəmizin Birinci xanımı Mehriban xanım Əliyeva siyasətdə artıq öz layiqli yerini tutmuşdur. Şübhə etməmək olar ki, gələcəkdə tarixçilər bu fenomeni böyük həvəslə öyrənəcəklər. Mehriban xanım Əliyevanın şəxsiyyətini dərk etmək üçün qadınlıq ləyaqətinin mücəssəməsi olan bu insanın inkişaf genezisini dərk etmək vacibdir. Hər şeydən əvvəl

mühüm faktor budur ki, vətənimizin ictimai-siyasi həyatında bu fenomenin öz sözü ilə siyasətə gəlməsi xalqın siyasi taleyi üçün bir uğurdur. Sağlam düşüncə baxımından yanaşılsa, onun təşəbbüsləri və təklifləri müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkəmizin sosiohumanitar və mədəni moderinizasiyasının hərəkətverici faktorudur. Digər tərəfdən, deyilməlidir ki, Birinci xanımın vitse-prezident kimi milli siyasi məkanda meydana gəlməsi faktı tamamilə dünya trendinə uyğundur. Şərqin Avrasiya bölgəsinin siyasi-tarixi baxımından «Əliyeva faktoru» qadınların siyasətə inamla və yüksək intellektlə daxil olmasının qanunauyğun təzahürüdür. Bu kontekstdə bir çox ölkələrin idarəçilik strukturlarında qadınların iştirakı dövrün inkişaf məntiqi baxımından milli zərurətdir. Bu məntiqi reallıqdan çıxış etsək Avrasiyanın «qadın siyasəti»ndə Mehriban xanımın tutduğu layiqli yer danılmaz həqiqətdir. Bu gün tam əminliklə demək olar ki, Heydər Əliyev Fondu öz fəaliyyəti ilə dövlət siyasətinin mühüm problemlərinin həyata keçirilməsində müstəsna rol oynamaqdadır. Şəxsən Mehriban xanım Əliyevanın əzmkar fəaliyyətində bunun canlı şahidiyik. Bu gün tam həqiqətdir ki, Mehriban Əliyevanın ictimai fəaliyyəti İlham Əliyevin uğurla həyata keçirdiyi ümummilli siyasətinin ayrılmaz hissəsidir. Milli missiyanın beynəlxalq siyasi əhəmiyyəti də məhz bundadır. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev Fondunun fəaliyyəti xalq diplomatiyasının bariz nümunəsidir.

Birinci xanımın əzmkar fəallığı və nüfuzu sayəsində Bakıda möhtəşəm şəkildə təşkil olunmuş və keçirilmiş ilk Avropa oyunları tədbiri Avrasiya məkanında Avropa idmanına yeni Azərbaycan impulsu vermiş, ölkəmizin Avropa dəyərləri ölçüsündə nəyə qadir olduğunu bariz şəkildə göstərmiş və beynəlxalq reytinqini daha da artırmışdır.

Mehriban xanım Əliyevanın valehedici zövqü, memarlıq sənətinin incəliklərinə profesionallıqla nüfuz etməsi qədim Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişdir. Şəhərimizin memarlıq simasının gündən-günə yaxşılaşması bu vətənpərvər qadının siyasi mahiyyət kəsb edən misilsiz ictimai fəaliyyətinin

uğurla həyata keçirilməsinin bariz göstəricisidir. Birinci xanımın bu nəcib əməli dərin fəlsəfi məna kəsb edir: Azərbaycanın dünyada kompleksli humanitar «brend» kimi daha da irəli getməsi və ölkəmizin sistemli sosiomədəni inkişafının sintez şəklində həyata keçirilməsi. Bu iki sosiomədəni prosesin dialektik vəhdətdə uğurla davam etməsi dünya ictimaiyyətində Mehriban xanım Əliyevanın siyasi nüfuzunu daha da artırmışdır. Sevindirici haldır ki, belə bir ölçülüb-biçilmiş fəaliyyətində o, faydalı işlərini bir məmur kimi deyil, mütərəqqi ideyalara söykənən, öz əqidəsini xalqa xidmət kimi nəcib bir işə həvəslə kökləyən vətənpərvər insan olaraq həyata keçirir.

«Hər kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olur. Yalnız şəxsi, dərk edilmiş məsuliyyət öz həyat kitabını yazmağa imkan verir. Bu kitabda hər kəs özünü, öz şəxsi həyatını və dünyanı yaradanın, yaxud məhv edənin obrazında təcəssüm etdirir». Şübhə etmirik ki, Mehriban xanım Əliyevanın da ömür kitabına illər ötdükcə yeni-yeni uğurlar yazılacaq.

Üç övlad tərbiyə edib böyüdən bir ananın belə enerji və əzmkarlıqla doğma işinə can yandırması hər bir azərbaycanlı qadın üçün bənzərsiz nümunədir. Onun dərin analitik intellektə söykənən hər bir addımı mübaliğəsiz demək olar ki, Azərbaycan cəmiyyətinin sosial reallığını pozitiv sürətdə dəyişdirir.

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin sevimli gəlini və ölkə Prezidenti İlham Əliyevin sadiq silahdaşı heç zaman siyasətə biganə qalmayıb və qala bilməzdi də. Həqiqətən də müasir bilikləri yaradıcılıqla mənimsəyən yüksək erudisiya və universal istedad sahibi kimi o, dövlətçiliyin müasir sivilizasiya üçün nə demək olduğunu bütün professionallığı ilə dərk edir. Siyasi həyatın gərgin ritminə baxmayaraq, Mehriban xanım Əliyeva öz təkrarsız və bənzərsiz imicini qoruyub saxlaya bilir – buna yüksək vətənpərvərlik, vətəndaşlıq mövqeyi və qeyri-adi həyatsevərlik sayəsində nail olmaq mümkündür. Qeyd edək ki, imic anlayışının çoxlu sayda tərifləri mövcuddur. Bunun bir səbəbi ondadır ki,

imic termini müxtəlif aspektlərdə – struktur, funksional, predmet və s. kontekstlərində işlədilir. İnsan mədəniyyətində çoxcəhətli rol oynayan imic anlayışı müxtəlif mədəni-tarixi mənaları özündə birləşdirir.

Siyasi imic siyasət, proqram və liderlər haqqında siyasi partiyaların, yaxud siyasətçilərin yaratdığı müsbət, yaxud mənfi təsəvvürlərdir. Termin ilk dəfə XX əsrin əvvəlində ingilis politoloqu Kulles tərfindən təklif edilmişdir. İmiclə reputasiya anlayışlarını qarışdırmaq olmaz, imic əvvəl yaranır, reputasiya isə imic əsasında formalaşır və daha uzun ömürlü olur. Siyasətçi qadının imici müxtəlif sosial qrupların gözü önündə xüsusi formalaşdırılan obrazdır.

Romantizm və praqmatizm aktuallığı dərk edən və əbədiliyin mənasını parlaq zəkada və əzmkar əməkdə görən, qadın məlahəti və təvazökarlıq, liderlik kimi keyfiyyətləri sintez şəkildə fəaliyyətində birləşdirən Mehriban xanım Əliyevanı dünya ictimaiyyəti müasir Şərqin qadın obrazı kimi qəbul edir. Məhz XXI əsrin əvvəllərində cəmiyyətin «güclü» və «zəif» qüvvələri arasında həddin «yuyulduğu», qlobal təbiət və texnogen bəlaların qarşısında bütün bəşəriyyətin birləşməyə və həmrəyliyə ehtiyacı olduğu bir vaxtda bu «dəmir iradəli» qadının – Mehriban xanımın uğurla həll etdiyi problemlər Azərbaycan xalqı üçün həyat və taleyüklü əhəmiyyət kəsb edib.

Tariximiz sübut edir ki, hələ qədim dastanlarımızda – «Dədə Qorqud»da və «Koroğlu»da Azərbaycan qadınları igidlikdə kişilərdən heç də geri qalmamış, doğma ocağın qoruyucusu və vətənin mərd müdafiəçiləri olmuşlar. Bu, dünya mədəniyyətində Azərbaycan qadınına şərəf gətirən danılmaz faktdır. Fəaliyyətinin çoxşaxəliyi baxımından qiymətləndirilsə, Mehriban xanım Əliyeva Azərbaycan tarixində və postsovet məkanında unikal və müstəsna hadisədir, qlobal proseslərin siyasətdə açdığı imkanlar kontekstində – obyektiv fenomenidir. Bu, həmçinin son 50 ildə siyasətdə qadının rolunun artmasını göstərən daha bir parlaq nümunədir. Bu prosesə təkan verən fakt 1960-cı il iyulun 21-də dünyada ilk

dəfə Sirimavo Bandaranikanın Şri-Lankanın baş naziri seçilməsi olmuşdur. Onun rəhbərliyi altında dünyanın bu unikal adası müstəmləkə asılılığından və müharibədən qurtula bilmişdir. Bu istedadlı siyasətçi qadın sonralar xalqının iradəsilə iki dəfə baş nazir seçilmişdir. Xüsusilə qeyd etmək istərdik ki, Asiyada və dünyada maraqlı və mütərəqqi dəyişikliklərin baş verməsi qadınların siyasətə gəlməsi ilə bağlıdır. Hindistanda İndira Qandi, əhalisi əsasən müsəlmanlardan ibarət olan Pakistanda – ilk müsəlman qadın Benazir Buxutto, Filippində Korasan Akino (Asiyada ilk qadın prezident) – göründüyü kimi Asiya qitəsində siyasətin feminizasiyası təqdirəlayiq hadisə olmuş, siyasət aləminə yeni nəfəs gətirilmişdir. Bu meyil hazırda da davam edir. Bəzi dövlətlərdə artıq bu gün prezident, yaxud baş nazir vəzifəsində qadınlar çalışır. Məsələn, Latviyada dövləti bu yaxınlara qədər Vayra Vike-Freyberq idarə etmiş, Argentinada 2007-ci il prezident seçkilərində Kristina Kişner qələbə çalmışdı. Cənubi Koreyada 2006-cı ildən hökumətə Xan Men Sok başçılıq etmişdi. Almaniyanın hazırkı Kansleri Angela Merkeldir. 2000-ci ildən Finlandiyanın Prezidenti Tarya Kaarina Halonen olmuşdur. O, 2006-cı ildə ikinci dəfə seçilmişdir. Maraqlıdır ki, 1999-cu ildə Yeni Zelandiyanın baş naziri vəzifəsinə Helen Elizabet Klark layiq görülüb. Bundan əlavə, Hindistanda, Çində, Liberiyada, San-Tome və Prinsipidə, Mozambikdə, Peruda, İndoneziyada, Filippində hakimiyyətdə liderlik mövqeyini qadınlar tutmaqdadırlar.

Sevindirici həqiqətdir ki, Mehriban xanım Əliyevanın adı da müasir dünyanın lider qadınları sırasında çəkilməkdədir. Bu, bəlkə də taleyin çağırışı və hökmüdür. Hər halda, bu gün demək mümkündür ki, Azərbaycanın siyasi reallıqlarında Mehriban xanım Əliyeva xalqın iradəsinə cavab verən lider, dünyada diplomatiya aləmində artıq iz qoymuş dövlət xadimidir. Beynəlxalq təşkilatlar Mehriban Əliyevanın çoxsahəli və miqyaslı fəaliyyətilə müstəqil dövlətin və xalqın rifahının yaxşılaşdırılması işinə verdiyi töhfəni layiqincə qiymətləndirirlər. Bütün bunların qiyməti dünya ictimaiyyətinin gözü önündə baş vermişdir. Belə ki, qeyd

etdiyimiz kimi, Mehriban xanım 2004-cü ildə, UNESCO-nun xoşməramlı səfiri, üstündən iki il keçmiş İSESCO-nun xoşməramlı səfiri seçilmişdir. 2007-ci ildə «Qızıl ürək» beynəlxalq mükafatına layiq görülmüşdür. Bu gün Mehriban xanımın siyasi taleyi çox maraqlı məcrada davam edir. O, bir tərəfdən Qərb üçün Şərqin qeyri-formal səfiridir, öz vətənində və Asiyada isə klassik Qərb dəyərlərinin rəhbəri olan Avropanı təmsil edir. Bunu demək kifayətdir ki, Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Avropa islam-xristian dialoqunda böyük rol oynamışdır. Hazırda da bu dialoq aktuallığını saxlamaqdadır.

Bu kontekstdə bir qədər haşiyəyə çıxmaq istərdik. II Vatikan Camesindən sonra bu baş məclisin «Keçmişi unudaq və qarşılıqlı anlama doğru» səmimi səyə çağırışı bütövlükdə həm katolik kilsəsində, həm də müsəlman dünyasında müsbət reaksiya yaratmışdı. Lakin bu çağırışın həyata keçirilməsi problemin nə qədər mürəkkəb və çətin olduğunu bir daha üzə çıxardı. Belə ki, ilk növbədə kilsənin özündə dialoqa müxalif qüvvələr vardı. Camedə belə bir müxaliflik əsasən müsəlmanların azlıq təşkil etdiyi Asiya və Afrika din xadimlərindən irəli gəlir, müsəlman ölkələrində fəaliyyət göstərən kilsə nümayəndələri isə dialoqu fəal dəstəkləyirdilər.

Camelərdən sonra katolisizmdə islama münasibətin üç meyli göstərilir. Bunun tərəfdarlarının çoxu öz mövqelərini Camenin qərarları və sonrakı pontifikatın sənədlərilə əsaslandırırlar. Onlar iki din arasında «ruhi əlaqəni» qəbul edir və bunun teist dünyagörüşündə təzahür etdiyini göstərirlər. Teoloqların fikrincə, xristianlarla müsəlmanlar arasında qarşılıqlı anlam və əməkdaşlıq «sosial ədalət və dinclik» doktrinasına söykənməlidir.

İkinci istiqamətlə razılaşanlar da iki din arasında dialoqun mümkünlüyünü məqbul sayırlar, lakin dialoqun çərçivəsini dünyəvilik sahəsi ilə məhdudlaşdırır kilsəni və islam icmasını bağlayan dini problematikadan çıxış edirlər. Şimali Afrika yepiskoplarının «Afrika xristianları: görüşlərin mənası» məktubunda şərh edilmiş müddəaları ardıcıl müdafiə edənlərin mövqeyi, ilk növbədə,

xristianların azlıq təşkil etdikləri və diaspor olan ölkələrdəki dini vəziyyətini nəzərdə tutur.

Üçüncü istiqamətin tərəfdarlarının ideya-dini mövqeyi yepiskop P.Bassiminin məktubunda aydın əksini tapmışdır. Məktub müəllifi islamın siyasi-hüquqi doktrinasının bəzi müddəalarını mütləqləşdirir və israr edir ki, müsəlmanlar üçün yeganə qəbul edilən sosial-siyasi və dini inteqrasiya forması icmadır. Ona görə də islam dünyası hüdudlarında heç bir bərabərlikdən söhbət gedə bilməz. P.Bassimin fikrincə, təkcə bu fakt heç bir dialoqu mümkün etmir. Bu istiqaməti dəstəkləyənlər üçün, görünür 14 əsrlik qarşıdurma faktoru başlıca ruhi əngəllikdir.

Avroasiya dini-etnomədəni məkan olaraq qitədə minilliklər ərzində məskunlaşmış xalqların yaratdıqları unikal konqlomerat mənəvi ənənələrin ərazisidir. Bu səbəbdən də planet əhalisinin ¾ hissəsinin yaşadığı bir ərazidə dini münasibətlərin vəziyyəti və inkişafı tədqiqatçıların diqqətini cəlb etməyə bilməz. Məsələn, ultramodernizmin tərəfdarlarının fikrincə, xristianlıq öz həyatiliyini itirmiş anaxronizmidir və müasir Qərb həyatı ilə uyuşmur. F.Fukuyama isə qəti şəkildə qeyd edir ki, «xristianlıq müəyyən mənada öz məqsədlərini seksiyalaşdırma yolu ilə özünü rədd etməkdir». Daha düşündürücü bir məsələ: Avropa İttifaqı bu günə kimi Konstitusiyasına «Xristian irsi» ideyasını daxil etməkdən imtina edir.

Məhz belə bir qlobal dini mürəkkəblik şəraitində Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva müxtəlif dinlərə məxsus düşüncə sahiblərini mədəniyyətlərarası dialoqa dəvət edir, onların dinc, əmin-amanlıq şəraitində birgə yaşayışının baş tutacağına inanır. Belə bir humanist missiyanı yerinə yetirmək üçün Mehriban xanım Əliyevada siyasi cəsarət vardır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ictimai və siyasi fəaliyyətinin mühüm aspekti, azərbaycançılığın mahiyyətini dünya ictimaiyyətinə çatdırılmasının real intellektual imkanlarından biri Bakı forumlarının təşkil edilməsidir. Qeyd edək ki, Bakı forumlarının humanitar məqsədi «dəyirmi masalar» vasitəsilə dünya intellektuallarının dialoqunu təşkil etmək, bununla sadə insanlardan

tutmuş dövlət liderlərinə qədər insanların düşüncəsini və qəlbini narahat edən qlobal problemləri müzakirə etmək, forumun bəyannamələrinin köməkliyi ilə dünya ictimaiyyətinə sülh və humanizm ideyalarının bəşəri mahiyyətini çatdırmaqdır. Bu kontekstdə akademik Ramiz Mehdiyevin elmi ictimaiyyətə təqdim etdiyi əsəri «V Bakı Beynəlxalq Humanitar Forumunu cəmiyyətin hansı istiqamətdə hərəkət etdiyini anlamağa imkan verən dünyamiqyaslı məkandır» adlandırmasının özü çox təqdirəlayiq və ölkəmizdə uğurla keçirilən humanitar forumların ülvi məqsədinin göstərilməsi baxımından olduqca aktual səslənən hadisədir.

Prezident İlham Əliyev belə forumların keçirilməsini dövlətimizin prioritet fəaliyyət prinsipi kimi dəyərləndirmişdir. Məhz ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə Bakıda 2008-ci il dekabrın 2–3-də Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iştirakı ilə «Mədəniyyətlərarası dialoq: Sülhün və Avropanın və qonşu bölgələrin davamlı inkişafının əsasıdır» mövzusunda konfrans keçirilmişdir. Burada ilk dəfə olaraq Azərbaycan tərəfinin təşəbbüsü sayəsində 10 islam dövlətinin iştirakı ilə əməkdaşlığın yeni formatının əsası qoyulmuşdur. Beynəlxalq dialoqu başlıca missiyası sayan həmin konfransda 48 ölkənin yüksək vəzifəli nümayəndələri və 8 beynəlxalq təşkilatın, həmçinin bir sıra qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak etmişlər. Konfrans iştirakçılarının sonda qəbul etdikləri «Bakı bəyannaməsi» bütün dünyanı mədəniyyətlərarası dialoqun genişləndirilməsinə çağırışın mühüm sənədi kimi tarixi əhəmiyyət kəsb etmişdir.

Akademik Ramiz Mehdiyev yazır: «Bizim bu sahədəki fəaliyyətimiz yüksək qiymətə layiq görüldü və bu görüşə, bu təşəbbüsə «Bakı prosesi» adı verilmişdir.

«Bakı prosesi»nin «ruhunu» saxlamaq məqsədilə 2009-cu il oktyabrın 13–15-də Bakıda İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı keçirilmişdir. Önəmli haldır ki, konfransın işində 10-dan artıq Avropa ölkəsinin nümayəndəsi iştirak etmişdir. Konfransın gedişində Avropa Şurasının üzv dövlətlərilə İslam

Təşkilatı Konfransının ölkələri arasında «Bakı prosesi sivilizasiyalar arasında dialoqa yeni çağırışdır» birgə kommünike qəbul edilmişdir. 2010-cu il sentyabrın 23-də BMT-nin Baş Məclisinin 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini bəyan etmişdir. Beləliklə «Bakı prosesi» regional çərçivədən çıxaraq qlobal hərəkata çevrilmişdir. Bu gün «Bakı prosesi» dünya siyasətində mühüm yer tutaraq, ölkəmizin beynəlxalq aləmdə imicini daha da artırmışdır. Bakı bununla beynəlxalq birliyin həyata keçirdiyi bütün proseslərdə qlobal oyunçuya çevrilmişdir. Dünya əhəmiyyətli bu tədbirlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılıq fəaliyyəti misilsiz əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, siyasət, xüsusilə qadın üçün çox mürəkkəb fəaliyyətdir. Siyasət ona «pənah gətirən»dən dövrün tələb etdiyi keyfiyyətlərə riayət olunmasını birinci şərt sayır, bu keyfiyyətlərin daşıyıcılarından asılı olmayaraq, siyasətçinin davranışını zaman və şərait müəyyən edir. Hakimiyyətdə qadın problemi o zaman pozitiv həll olunur ki, qadınlar və kişilər qadında şəxsiyyət keyfiyyətlərini, onun öz arzuları, səyləri, nailiyyətlərilə bağlı məsələləri həll etmək qabiliyyətini qəbul etsinlər.

Qadın ona görə siyasətçi olur ki, onun fikrincə, siyasət təkcə kişilər üçün deyil, həm də qadınlar üçün maraqlı, öz intellektual imkanlarının fəaliyyət sahəsidir. Bu fəaliyyət isə «döyüşdə qazanılan» çoxlu keyfiyyətlər tələb edir.

Öz siyasi qabiliyyətinə inam; insanlara fayda gətirmək istəyi; tanımağa can atmaq arzusu; bir şəxsiyyət kimi özünü reallaşdırmaq, karyera qurmaq; əhalinin müəyyən qruplarının maraqlarıni müdafə etmək; insanlara məhəbbət hissi ilə yanaşmaq; ictimai sahəyə maraq göstərmək; öz şəxsiyyətinin əhəmiyyətli olmasına diqqəti cəlb etmək; öz şəxsi həyatını qurmaq; maddi-maraq, tərəfdaşlar, dostlar qazanmaq; əlaqələr yaratmaq – məhz belə keyfiyyətlər Azərbaycanın Birinci vitse-prezidentinə məxsusdur.

Öz fərdi psixologiyasına malik qadın bilməlidir ki, siyasət aləmi öz tərzilə tamamilə yeni fəaliyyət sferasıdır. Onun imici elə sxemlə qurulur ki, bu zaman bəzi qadın xarakteristikalarından imtina etmək lazım gəlir. Siyasətci qadın, siyasətçi kişiyə nisbətən mümkün olmayan pozitivə malikdir. Belə ki, o, siyasətdə tam hüquqlu oyunçu kimi iştirak edir. Deməli, siyasətçi qadın qəbul etdiyi oyunda öz statusu, öz qaydaları ilə fərqlənməlidir. Statusu zənginləşdirən, ona sosiallıq kəsb etdirən isə imicdir. Amerikanın MTV telekanalının direktoru Metyu Qoldsteynin Mehriban xanım haqqında təəssüratı çox maraqlıdır: «Mən Birinci xanıma olan tamamilə fantastik məhəbbətin və hörmətin şahidi oldum. Deməliyəm ki, Birinci xanımı seçməmək mümkün deyil. Mehriban xanım üç fundamental keyfiyyəti – gözəlliyi, ağılı və ruhi nəcabəti özündə unikal şəkildə əlaqələndirə bilir». O, təəssüratını belə yekunlaşdırır: «Mən çox istərdim ki, o, bizim ölkəmizdə bizim bələdçimiz olsun, çünki dünyada onun imici çox yüksəkdir».

Qeyd edək ki, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsini dünya siyasətçiləri özünəməxsus şəkildə qarşılamışlar. Bu kontekstdə «The Huffington Post» Amerika onlayn qəzetində Mellori Moss Katsın dərc etdiyi məqalə xüsusi maraq doğurmuşdur. Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu xəttilə ictimai fəaliyyətini dəyərincə qiymətləndirən müəllif təəssüf hissilə bildirir ki, Birləşmiş Ştatlarda qadının siyasətdə roluna biganə yanaşırlar. O, yazır: «Açığını deyim ki, bu günün təlatümlü vaxtında mən fəxr edərdim ki, Mehriban xanım Əliyevanı öz ölkəmin vitse-prezidenti adlandıram və ümid edirəm ki, haçansa ABŞ bu nümunəni rəhbər tutacaq və ölkədə qadınları yüksək vəzifəyə seçəcəklər. Necə deyərlər, şərhə ehtiyac yoxdur. Biz isə böyük inamla qeyd etmək istəyirik ki, ölkəmizin Birinci xanımı və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti öz möhtəşəm işləri, əzmkar fəaliyyəti ilə Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycana dəyərli xidmətin misilsiz nümunəsidir.

# VI FƏSİL

# YENİ AZƏRBAYCAN PARTİYASI – CƏMİYYƏTİMİZİN SİYASİ AVANQARDI

## *5.1. Yeni impuls –91 ziyalının müraciəti*

«91-lər»in mövqeyi Azərbaycanın müstəqillik tarixində – ən yeni tarixində siyasi varlığımızı əks etdirən ilk ziyalı mövqeyi olub.

Bu ziyalıların siyasi məqsədi, əxlaqi məramı milyonlarla vətəndaşın Heydər Əliyevə olan ümumxalq etimadını və seçimini siyasi-ictimai cəhətdən təşkil etməkdən; onların Heydər Əliyevlə bağlı siyasi istək və arzularını, azad seçim hüquqlarını bərpa etməkdən; Azərbaycanın siyasi proseslərində Heydər Əliyevlə bağlı ümumxalq mənafelərinə əsaslanan demokratik mühiti və demokratik siyasi ənənələri yaratmaqdan; xalqla Heydər Əliyev birliyinin demokratikliyini və sarsılmazlığını, bu birliyin xalqın milli iradəsinə əsaslandığını bəyan etməkdən ibarət olmuşdur.

Məşhur müraciətin ideyası və amalı Xalq-Heydər Birliyinin tarixi, milli, siyasi zərurətini geniş ictimai fikrə və sosial-siyasi rəyə daxil etməkdən, ideyaca əsaslandırmaqdan ibarət idi.

Heydər Əliyevə xalqımız həmişə yüksək ehtiramla yanaşmış, milli-siyasi oyanış proseslərindəki, ölkəmizin demokratik, iqtisadi, sosial, mədəni inkişafındakı misilsiz xidmətlərinə hər zaman layiqli qiymət vermişdir. Ürəkdən gələn sözlərdir: «Xalq özünün milli, siyasi lideri ilə həmişə bir yerdə olmuş, onun bütün fəaliyyətini dəstəkləmişdir. Azərbaycan xalqının tarixi keçmişində, bu günündə və gələcəyində, Azərbaycan xalqının qəlbində və yaddaşında bu dahi şəxsiyyətin, müasirliyin bu böyük siyasət və dövlət xadiminin əbədi heykəli ucalmışdır».

Amma siyasət ona görə siyasətdir ki, onun gözlənilməz döngələri, paradoksal səhnələri, çıxışı görünməyən labirintləri, siyasi

cılızların nəhənglərə ədalətsiz hücumları da olur. Qeyd edək ki, Heydər Əliyevə qarşı təkcə SSRİ başçısı M.Qorbaçovun ermənipərəst komandası tərəfindən yox, elə onun öz vətənində də antitəbliğat kampaniyası, siyasi və mənəvi repressiyalar həyata keçirilirdi. M.Qorbaçov hakimiyyətə gələndən sonra onun xüsusi tapşırığı ilə Azərbaycanda da Heydər Əliyevi xalqın yaddaşından silmək, şəxsiyyətinə mənfi rəy formalaşdırmaq üçün xüsusi planlar, tədbirlər həyata keçirilirdi. Rusiya mətbuatında Heydər Əliyev xalqa, Azərbaycan rəhbərliyinə zidd olan şəxsiyyət kimi təbliğ edilirdi. Bu qərəzli, antimilli, qeyri-etik, qeyri-demokratik və antihumanist siyasətin arxasında dayanan qüvvələr – onu həyata keçirənlər, dəstəkləyənlər və təbliğ edənlər isə Heydər Əliyevin vaxtilə idarəçilikdə pillə-pillə ucaltdığı, məmur «nərdivanı»nda əlindən tutub yuxarı qaldırdığı, bir kadr kimi yetişmələri üçün əlindən gələni əsirgəmədiyi, oxumağa, işləməyə göndərdiyi insanlar idi.

Siyasi və mənəvi cəhətdən belə antidemokratik və qeyri-obyektiv, təhqiredici, mənəvi repressiv şəraitdə tanınmış elm, mədəniyyət və ictimai xadimlərin, önəmli ziyalıların, obyektiv mətbuatın ağıllı arqumentlərə əsaslanmış dəstəyi çox lazım idi. Ən azı ona görə ki, Heydər Əliyevin Kremldəki siyasi və milli düşmənləri də, «sapı özümüzdən olan baltalar» da aydın görməli və dərk etməli idilər ki, onların qərəzli, əxlaqsız, mənəviyyatsız, qeyri-humanist, səhv siyasi kampaniyalarına qarşı Azərbaycanda çox ciddi ümumxalq hərəkatı, ziyalı etirazları yaşanır. Azərbaycan xalqına qarşı birləşmiş antimilli qüvvələrə göstərmək lazım idi ki, Heydər Əliyevi xalqımız yenə də sevir, qiymətləndirir, dəstəkləyir və həmişə onunla birlikdədir. Belə məqsəd və məram ziyalıların siyasi hərəkatının yaranmasına səbəb oldu.

1990–1993-cü illərdə Azərbaycanda siyasi, iqtisadi, sosial vəziyyət ağlasığmaz dərəcədə ağır, acınacaqlı, faciəli idi. Respublikada ayrı-ayrı siyasi qruplaşmaların hakimiyyət davası bütün sahələri iflic vəziyyətə salmışdı, sabitlik yox idi. Mənəvi dəyərlər də, mədəniyyət, elm və təhsil də tamamilə yaddan çıxmışdı. İnsanları fobiya, qorxu, kin-küdurət məngənəsinə salmışdılar. Cəmiyyətdə

hakimiyyətə qarşı, Kremlin antimilli canişinlərinə qarşı kütləvi inamsızlıq, etiraz dalğası yaranmışdı. Respublika vətənsevərlərin gözü qarşısında vətəndaş müharibəsinə sürüklənirdi. Belə vəziyyətdən sui-istifadə edən xarici ölkələrin casus şəbəkələri ermənilərlə və daxili pozucu qüvvələrlə əlbir olub, Azərbaycan ərazisində respublikalar yaratmaq planını həyata keçirmək istəyirdi. Artıq bu respublikaların xəritəsi də hazırlanmışdı. Azərbaycan nəinki müstəqil dövlət kimi, hətta bir respublika kimi də dünya siyasi xəritəsindən, tarixdən silinmək üzrə idi. Belə bir vaxtda yeganə ümid, inam, etimad Heydər Əliyevə yönəlmişdi.

Lakin Heydər Əliyevin Naxçıvandan çıxıb respublika səviyyəsində siyasi proseslərə qatılmasına, xalqın dəstəyi ilə hakimiyyətə gəlməsinə müxtəlif bəhanələrlə, qadağalarla əngəllər, maneələr yaradılırdı. Hətta Naxçıvanla telefon əlaqələri qəsdən kəsilmişdi. Naxçıvanla telefon danışıqları izlənilir, Heydər Əliyevlə əlaqə saxlaya bilənlər hər cür qanunsuz təqiblərə məruz qalırdılar.

Xalqın Heydər Əliyevə siyasi dəstəyi, siyasi etimadı təşkilatlanmalı, Heydər Əliyevi siyasətçi, lider kimi dəstəkləyən siyasi çoxluğun partiyası yaradılmalı, Heydər Əliyev bu partiyanın sədri, lideri olmalı idi. Zamanın, dövrün, ictimaiyyətin, geniş xalq kütlələrinin arzu-istəyi, tələbi, milli amalı belə idi.

Xalq Heydər Əliyev ətrafındakı dönməz və sarsılmaz birliyini siyasi cəhətdən təşkilatlandırmaq, liderin ölkəyə demokratik yolla rəhbər seçilməsini qanuniləşdirmək istəyirdi. Heydər Əliyevin demokratikliyi, dövlətçilik təcrübəsi mədəniyyətinə görə qanunların və xalqın rəyindən, millətin tələb və istəyindən kənar qeyri-obyektiv mübarizə metodunu qəbul edə bilməzdi. Elə bu proseslərin məcrasında, xalqın arzu və istəyini əks etdirən müraciət hazırlandı. Ziyalılar müraciətdə Heydər Əliyevdən siyasi partiya yaradılmasını və bu partiyaya sədrlik etməsini xahiş edir və bu xahişin xalqın milli iradəsini ifadə etdiyini vurğulayırdılar. Ziyalılar əminliklərini bildirirdilər ki, əgər Heydər Əliyev bu ümumxalq xahişinə razılıq verərsə, Azərbaycanın da xilası, bütün sahələrdə inkişafı, dövlətin möhkəmlənməsi reallaşa bilər.

Bu müraciət tarixə «91-lərin Heydər Əliyevə müraciəti» kimi yazıldı. Tarixçilərin hələ çox müraciət edəcəyi bu sənəd özünün siyasi-tarixi aktuallığını, siyasi proqram xarakterini saxladığı üçün onun tam mətnini veririk:

***Azərbaycan Sizin sözünüzü gözləyir***
*(Heydər Əliyevə müraciət)*

*Möhtərəm Heydər Bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, iqtisadi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, «real vəziyyətə uyğun» fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsası olmadan yaradılıb fəaliyyət göstərir.*

*Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.*

*Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar görünür demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin*

*siyasi naşılığından, idraəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə, biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.*

*Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı– yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.*

*Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.*

*Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri – Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda «sürətli artım» ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında, sözün əsl*

*mənasında, geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.*

*Möhtərəm Heydər Bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısında qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar.*

*Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox böyük bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.*

*Heydər Bəy! Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir».*

Xalq arasında ən çox gözlənilən isə Heydər Əliyevin cavabı idi. Heydər Əliyev Azərbaycan millətinin və dövlətinin xilası, yaşaması, inkişafı və gələcəyi naminə xalqın gözlədiyi bu cavabı verdi, onun ziyalılara cavabı mətbuatda dərc olundu.

Heydər Əliyevin ziyalılara cavabı, əslində müstəqil dövlət quruculuğunun proqramı idi. Bu sənədin də siyasi elitanın formalaşmasında müstəsna rolunu bir daha qiymətləndirərək onun tam mətnini veririk:

***Yeni, müstəqil Azərbaycan uğrunda***
*(Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı)*

*Hörmətli ziyalılar !*

*16 oktyabr 1992-ci il tarixli «Səs» qəzetində dərc olunan Sizin müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirə layiqdir.*

*Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir.*

*Eyni zamanda bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.*

*Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm.*

*Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən 80-ci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist partiyasının tarix səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.*

*Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu, tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.*

*Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu, ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.*

*Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, genişplanlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir.*

*Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur.*

*Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakılardan ibarətdir:*

*Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyir. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.*

*İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5–6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.*

*Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.*

*Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.*

*Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.*

*Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.*

*Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.*

*Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.*

*Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.*

*Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.*

*Beşinci. Son zamanda Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir.*

*Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.*

*Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir.*

*Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.*

*Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.*

*Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.*

*Dərin hörmətlə Heydər Əliyev. 24 oktyabr, 1992-ci il. Naxçıvan şəhəri».*

Maraqlıdır ki, bu cavabında Heydər Əliyev Azərbaycanın müstəqil dövlət qurucusu vəzifələrini konkret olaraq hər sahə üzrə göstərmiş, daxili və xarici siyasət, iqtisadi və sosial islahatlar, Qarabağ problemi, siyasi sabitlik, elm, mədəniyyət və təhsilin inkişafı, Azərbaycanın mövqelərinin beynəlxalq miqyasda möhkəmlənməsi sahələrində qarşıda dayanan vəzifələri ayrı-ayrı bəndlərdə bir-bir yazmış, onları əsaslandırmış, təhlil etmişdir.

Ziyalılarımız düzgün olaraq göstərirdilər ki, cavabın mətnini oxuyanda, bu siyasət dahisinin Azərbaycanda dövlət quruculuğunun istiqamətlərini, inkişaf perspektivlərini hələ neçə il əvvəl dəqiqliyi ilə təhlil edə bilməsinə, bu yolları göstərə bilməsinə, onun güclü uzaqgörən, strateq siyasətçi təfəkkürünə və təcrübəsinə heyrət etməmək mümkün deyildir.

Heydər Əliyevin ziyalılara cavab məktubu mahiyyətcə onun dövlətçilik, xilas, quruculuq, islahat və inkişaf platforması idi.

Azərbaycanın müstəqil dövlət quruculuğuna, siyasi sabitliyin bərqərar olmasına və davamlı inkişafa aid Heydər Əliyevin yazdığı bu ilk siyasi proqram sənədi sonrakı illərdə Heydər Əliyevin siyasi rəhbərliyində tam və uğurla həyata keçdi.

Heydər Əliyev sonrakı illərdə də ziyalılarla ünsiyyətdə oldu, mütəmadi görüşdü, onları dinlədi, etimad göstərdi, onların əməyinə və xidmətlərinə dövlət səviyyəsində qiymət verdi.

Yeni Azərbaycan Partiyasının bütün qurultaylarında, tədbirlərində məruzə edən Heydər Əliyev hər dəfə 91-ləri yüksək qiymətləndirir,

hər dəfə bu qədirbilən ziyalıları Azərbaycanın dəyərli, cəsur insanları adlandırır, hər dəfə onlara böyük hörmətlə yanaşdığını bəyan edirdi. Bunu Heydər Əliyevin məruzə və çıxışlarında, ziyalılar haqqında söylədiyi səmimi ürək sözlərində görürük. Onun verdiyi siyasi qiymət siyasi və tarixi reallığımızın əbədiyaşar sənədləridir.

Ulu Öndərin 91-lərə yüksək qiyməti, qayğısı, obyektiv və ədalətli münasibəti, hörməti və etimadı ilə həmişə fəxr edən, onun hakimiyyətə qayıdışı üçün imza atmış 91 nəfərdən biri – keçmiş deputat Şahlar Əsgərov həmin hadisələri belə xatırlayır: «1992-ci il ölkənin həyatında həm müsbət, həm mənfi hadisələrlə zəngin idi. Müsbət hadisələrdən onu demək olar ki, Azərbaycan müstəqilliyini bəyan etmişdi. Böyük dövlətlər Azərbaycanın müstəqilliyini tanıyırdılar. Amma bununla bərabər ölkə daxilində bir xaos yaranmışdı, böhranlar sistemi başlamışdı. Azərbaycanın bu böhranlar sisteminə daxil olması bir qrup insanları narahat edirdi. O cümlədən məni də narahat edirdi. Mən bu dövrü bir şans bilirdim və güman edirdim ki, bu şansdan istifadə edib, müstəqil bir dövlət, Avropaya bənzər bir dövlət qurmaq mümkündür. Amma tezliklə aydın oldu ki, Heydər Əliyevi bu prosesə cəlb etmək lazımdır. Hökmən lider şəxsiyyəti ortada olmalıdır. Azərbaycanda bu cür xüsusiyyətlərə malik ikinci belə bir insan tanımırdım. Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi var, idarəetmə təcrübəsi var. Dünyanın böyük dövlətlərinin başçıları bu adamı tanıyır və bununla tez söhbətə girə bilərlər. Güman edirəm ki, bizim fikirlərimiz özünü doğrultdu. Məktubu yazdıqdan sonra – 1992-ci il noyabrın 20- si onunla görüşüb söhbət etdik.

Heydər Əliyevin bizə dediyi söz o oldu ki, mənim yaşım 70-dir. İndi bura cavan adam lazımdır. Ya da siz əsaslandırın görək mən ora niyə lazımam.

Bizə dedi ki, indi siz məni inandırın ki, mən Bakıya lazımam.

Mən həmin gecəni gözəl xatırlayıram. Gecə saat 1-ə işləyirdi. Gecə saat 12-nin yarısında İrandan gələn nümayəndə heyəti ilə görüşüb qurtarandan sonra bizi qəbul etdi. O vaxt Heydər Əliyevə müraciət forması çox sərbəst idi. Biri Heydər müəllim

deyirdi, biri Heydər bəy, biri Heydər Əliyeviç deyirdi. O, bunların hamısını qəbul edirdi. Çünki kommunistlər Heydər Əliyeviç deyirdi, cavanlar Heydər bəy, mənim kimi insanlar Heydər müəllim deyirdi. Mən dedim ki, Heydər müəllim, mən öz fikrimi Əbdürrəhman Caminin «Baharıstan» kitabından bir hekayə ilə deməyə çalışacam. Hekayə belədir ki, Hindistan padşahı Bağdad xəlifəsinə çoxlu hədiyyə və bir həkim göndərir. Xəlifə hədiyyələri qəbul edir və həkimdən hansı dərdlərə dərman bildiyini soruşur. Həkim bildiyi dərdlərin dərmanlarını sayır. Deyir ki, bir dərmanım da var ki, siz onu qəbul edəndən sonra ağ saçlarınız qaralacaq. Xəlifə qeyzlənib deyir ki, mən o dərmanı atmaqdan imtina edirəm. Ağ saç şəfəq rəngindədir, ondan xalqın yoluna işıq düşər. Qara saç zülmət rəngindədir, ondan xalq əziyyət çəkər. Mən öz ağ saçlarımı qara saçlara dəyişmərəm.

Bu o demək idi ki, biz gəlmişik sənin ağ saçlarının şəfəqindən istifadə edək»...

Bu qısa xatirə göstərir ki, Heydər Əliyev həqiqətən xalqın tələbi, təkidilə hakimiyyətə qayıtmışdır.

Çox önəmli haldır ki, 91-lərin adı siyasi məqalələrə, monoqrafiyalara, Heydər Əliyev haqqında kitablara, orta məktəblərin tarix dərsliklərinə salınmışdır.

Fəxr edirik ki, Heydər Əliyev yoluna – Azərbaycanımızın azadlığı, dövlətçiliyi, möhkəmlənməsi, inkişafı, qələbələri yoluna sədaqətlə xidmət edənlərdən biri də məhz ziyalılar olub.

Yüksək ziyalılıq, yüksək vətəndaşlıq Heydər Əliyevin nəcib, humanist təbiətində, amalında, əməlində, mövqeyində, sözündə və işində, xalqa və dövlətə xidmətində, azərbaycançılıq ideyasında idi.

Heydər Əliyev Azərbaycanın ən böyük, ən nümunəvi millət ziyalısı, elitamızın zirvəsi, ən böyük Azərbaycan Vətəndaşıdır.

Beləliklə, 91-lərin müraciəti yeni dövlətçilik təfəkkürünə yiyələnməyin təzahürü oldu. Bu hərəkat ölkəmizin siyasi həyatına yeni ziyalı nəfəsi gətirdi, hərəkatı izləyən və onu dərk etməyə çalışan gənclərimiz üçün böyük örnək oldu.

## *5.2. Yeni Azərbaycan Partiyasının fəaliyyət dinamikası*

Çox önəmli hadisədir ki, Yeni Azərbaycan Partiyası respublikamızın ictimai-siyasi həyatında həlledici rol oynayır, partiyanın qərarları, bütövlükdə fəaliyyəti ölkəmizin inkişafını təmin edir. 21 noyabr 1992-ci ildə partiyanın Naxçıvanda keçirilən təsis konfransında Heydər Əliyev YAP-ın sədri seçilib. Konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edib. Beləliklə, ölkəmizin siyasi həyatında cəmiyyətdəki qüvvələr nisbətini real əks etdirən və gələcəkdə Azərbaycanın ictimai-siyasi səhnəsində baş verəcək hadisələri konstruktiv surətdə nizamlayan bir partiya yaranıb.

Yeni Azərbaycan Partiyası qısa bir müddətdə geniş şohrət qazanaraq cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bilmiş, ümumxalq partiyası imicini qazanmışdır.

1993-cü ildə YAP-ın sədri Heydər Əliyevin Prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyulmuşdur. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, iqtidar partiyasına çevrilərək ölkənin siyasi həyatında tutduğu movqeyini möhkəmləndirmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirmişdir. 1995-ci ildə keçirilən Parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri olduğundan YAP iqtidar partiyasına çevrilmiş, ona olan ümumxalq inamı bir daha təsdiq edilmişdir.

1999-cu ildə keçirilən bələdiyyə seçkiləri də YAP-ın inamlı qələbəsilə başa çatmış, partiyanın yerlərdəki nüfuzu xeyli artmışdır.

2000-ci ildə MM-ə keçirilən seçkilərdə YAP yenidən qalib gəlməklə 124 deputat yerindən 75-ni tutmuş, cəmiyyətdəki siyasi imicini və kütlələrə təsir gücünü daha da artırmışdır.

Yeni Azərbaycan Partiyasının 1999-cu ilin dekabrında və 2001-ci ilin noyabrmda keçirilən I və II qurultayları xalqın milli

maraqlarını əks etdirən mühüm qərarlar qəbul etmişdir. YAP-ın II qurultayında partiyanm nizamnaməsinə dəyişikliklər edilmiş və sədrin birinci müavini vəzifəsinə yekdilliklə İlham Əliyev seçilmişdir. Qurultay partiyanın rəhbər orqanlarını – 108 nəfərdən ibarət Siyasi Şura üzvlərini və onların arasından 26 nəfərdən ibarət İdarə Heyətini seçmişdir.

Yeni Azərbaycan Partiyası parlament tipli sağ mərkəzçi siyasi partiyadır. Azərbaycan Respublikası Konstitusiyasının çərçivəsində öz Proqram və Nizamnaməsinə uyğun fəaliyyət göstərən YAP hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək, ölkədə bəşəri və milli dəyərlər, demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq, insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə söykənən güclü və sosial yönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatı, rifahı uğrunda mübarizə aparır.

Azərbaycan reallıqlarının siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Xalq içərisində dərin nüfuza malik olduğundan partiya, 25 ildir ki, iqtidardadır. 25 il ərzində Yeni Azərbaycan Partiyası bütün seçkilərdə böyük üstünlüklə qələbə qazanaraq, sözün əsl mənasında, xalq partiyasına çevrilmişdir. Cəmiyyətimizin bütün təbəqələri və bütün yaş qrupları bu partiyada birləşərək ölkəmizin uğurlu inkişafı üçün öz töhfələrini verir.

Hazırda Yeni Azərbaycan Partiyasına böyük axının olduğunu hamı etiraf edir. Bu, özlüyündə çox mühüm sosial-siyasi göstəricidir. Bu, həm də onu göstərir ki, partiyanın məramı, ideyaları vətəndaşlarımızın böyük əksəriyyəti üçün cəlbedicidir. Xüsusilə, gənclərin partiyaya axını sevindirici hal olmaqla yanaşı, həm də onu göstərir ki, partiyanın fəaliyyətini də, ideyalarını da, cəmiyyətdəki rolunu da gənclərimiz ürəkdən bəyənir və uğurlardan ruhlanan, gənc Azərbaycan vətəndaşları ona dəstək verirlər.

1992-ci ildə Ümummilli Liderin başçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılması böyük tarixi hadisə idi. Yaşlı nəsil yaxşı xatırlayır ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır

keçmişdir. Ovaxtkı cəbhəçilər iqtidarı ölkəni uçuruma aparırdı. Səriştəsiz, bacarıqsız, biliksiz insanlar, demək olar ki, Azərbaycanın dövlət müstəqilliyinə böyük zərbə vururdu. Heydər Əliyevin ətrafında birləşən insanlarsa, çox böyük cəsarət göstərdilər. Təkcə bunu qeyd etmək kifayətdir ki, ovaxtkı iqtidar hətta partiyanın təsis qurultayının Bakıda keçirilməsinə də imkan verməmişdi.

Heydər Əliyevin 1970–1980-ci illərdə gördüyü işlər, Azərbaycanın inkişafına verdiyi töhfələr, Sovet İttifaqının dağılma ərəfəsindəki fəaliyyəti, müstəqilliyə doğru cəsarətli addımları, qanlı 20 Yanvar faciəsinin pisləməsi, Kommunist Partiyası sıralarını tərk edilməsi, Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi təsis edilib ucaldılması, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi, Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməməsi – bütün bu amillər əlbəttə ki, xalqda ona olan məhəbbəti, onun təşkilatçılıq qabiliyyətinə olan inamı birə on artırırdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi «1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq. Nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır».

Ən önəmli hadisə bu idi ki, Yeni Azərbaycan Partiyasının yaradılması, eyni zamanda, müasir siyasi sistemin yaranmasından xəbər verirdi. Bildiyimiz kimi, o vaxta qədər Azərbaycanda fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq çox primitiv səviyyədə aparırdılar. Siyasi sistem, siyasi institutlar yox idi. Bu mənada Yeni Azərbaycan Partiyasının yaradılması sosial-milli reallıqlarımızda yeni hadisə olan siyasi sistemin yaradılması idi. Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi yaradılması, bir daha göstərir ki, siyasi gerçəkliyimizdə əsl müxalifət partiyası yaranmışdı. Bu partiya dünya praktikasında fəaliyyət göstərən partiya kimi yaradılmışdı, yəni, ümumiyyətlə necə fəaliyyət göstərməyin, necə sağlam düşüncə mövqeyindən mübarizə aparmağın nümunəsi idi. Bu gün Yeni

Azərbaycan Partiyası cəmiyyətə milli inkişaf naminə əsl sivil fəaliyyət göstərən partiya modelini təqdim etmişdir.

Yeni Azərbaycan Partiyası xalqa zidd siyasət yeridən ovaxtkı iqtidara müxalifətdə idi. Yeni Azərbaycan Partiyasının fəaliyyətə başladığı gündən əsas amalı dövlətçilik, müstəqillik, milli inkişaf, təhlükəsizlik olmuşdur. Bu partiya iqtidara gələndən sonra həmin ideyalar, xalqı gələcəyə ruhlandıran amillər Azərbaycan gerçəkliyində reallığa çevrilmişdir.

Təsadüfi deyildi ki, partiyanın yaranmasından bir il keçməmiş Azərbaycan xalqı öz qətiyyətini göstərmiş, xalqa zidd qüvvələrin hakimiyyətdən getməsinə nail olmuş və ulu öndər Heydər Əliyevə müraciət edib təkidlə hakimiyyət sükanının arxasında durmağa dəvət etmişdi.

Bu gün, sözün əsl mənasında, demək mümkündür ki, partiyanın tarixi müstəqillik tarixi ilə üst-üstə düşür. Ulu öndər Heydər Əliyevin Azərbaycanda Prezident kimi fəaliyyəti də Yeni Azərbaycan Partiyasının güclü dəstəyi ilə sıx bağlı olmuşdur. Heydər Əliyevin müdrik siyasi xətti və Yeni Azərbaycan Partiyasının fəaliyyəti bizim siyasi xəttimiz, Azərbaycan xalqının milli idealının təcəssümüdür. «Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur». Bu həqiqəti qəbul edərkən, demək mümkündür ki, müasir Azərbaycan dövlətinin quruculuğu tarixi məhz Yeni Azərbaycan Partiyasının yarandığı tarixdən başlayır.

İlham Əliyev düzgün olaraq belə qeyd edib: «1992-ci ildə bu tarixi hadisə bugünkü Azərbaycan reallıqlarını faktiki olaraq şərtləndirmişdir. 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı. Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır».

Ümummilli liderin rəhbərliyi ilə Azərbaycan böyük və şərəfli yol keçdi. 1993–2003-cü illər ölkəmizin tarixinə sabitlik və inkişaf illəri kimi həkk edildi və xalqın yaddaşında belə də qalacaq. Bu illər

ərzində milli dövlətçiliyin sarsılmaz əsasları qoyulmuş, Azərbaycan dünya birliyinə inteqrasiya edərək özünü nüfuzlu dövlət kimi təqdim edə bilmişdir. Beynəlxalq əlaqələrimizin uğurlu inkişafı ölkəmizin Dünya xəritəsində özünə layiqli yer tutması ilə nəticələnmişdir.

Siyasi və iqtisadi islahat modellərinin hazırlanmasında və uğurla həyata keçirilməsində Yeni Azərbaycan Partiyasının da xidməti az olmamışdır. Azərbaycanın bir neçə beynəlxalq təşkilata üzv olması onun beynəlxalq münasibətlər subyekti kimi dünya birliyində möhkəmlənməsinə səbəb olmuş, ölkəmizə böyük həcmdə investisiyaların cəlb edilməsilə nəticələnmişdir. Bunun sayəsində, xüsusilə Azərbaycanın iqtisadiyyatı bu gün sürətlə inkişaf etməkdədir. Heydər Əliyevin milli inkişaf strategiyasının ayrılmaz hissəsi olan xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaş imici qazanmışdır. Bu sahədə siyasi elitamızın iştirakı çox vacib məsələ kimi qiymətləndirilməlidir. Məhz uğurlu xarici siyasət sayəsində o dövrdə Azərbaycan haqqında dünya birliyində kifayət qədər obyektiv təsəvvür yarana bilmiş, bir çox mənfi stereotiplər sarsılmışdı. Azərbaycanı dünya birliyinə əsl müstəqil dövlət kimi təqdim etmək Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndərin müdrik siyasətinin prinsiplərinin rəhbər tutulması hesabına mümkün olmuşdur.

Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini həm ölkə daxilində, həm beynəlxalq müstəvidə genişləndirə bilmişdir. Bu gün Yeni Azərbaycan Partiyası müxtəlif qitələrdə fəaliyyət göstərən partiyalarla faydalı əməkdaşlıq əlaqələri qura bilmişdir. Şübhə yoxdur ki, bundan sonra da pozitiv əməkdaşlığın diapazonu genişlənəcəkdir.

Heydər Əliyevin siyasət məktəbinin prinsiplərinin, onun siyasət fəlsəfəsinin ideyalarının rəhbər tutulması sayəsində Azərbaycanın yüksək templə inkişafı 2003-cü ildən sonra da yeni bəhrələr vermişdir. Bu inkişaf modelinin uğur qazanmasında şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının çox böyük xidməti olmuşdur. Tarix göstərdi ki, Azərbaycan dövlətçiliyinə, onun lideri Heydər Əliyevə xalq sədaqəti, Yeni Azərbaycan Partiyasının xalq işinə sədaqəti ən ciddi sınaqlardan çıxmağa qadirdir.

2003-cü ildə demək olar ki, gələcəkdə milli inkişafın parametrləri müəyyən edilirdi: bu həm də müəyyən dərəcədə, çətin il olmuşdur. Belə ki, Azərbaycan iki sxemlə üzləşmişdi, o ya inkişaf yolu ilə getməli, ya da yenə tənəzzülə uğramalı idi. Yeni Azərbaycan Partiyasının mütəşəkkil fəaliyyəti, öz liderinə sədaqəti, Azərbaycan xalqının bu siyasətə verdiyi dəstək hesabına Azərbaycan inkişaf yolunu seçdi və bu inkişaf modeli ölkəmizi irəliyə apardı. Ölkəmizin inkişafı bu gün də davam etməkdədir. Bugünkü reallıqlarımız göstərir ki, deməli Azərbaycanın inkişaf modeli özünü doğrultmaqdadır.

Dünyanın tanınmış ekspertləri etiraf edirlər ki, Azərbaycan son illərdə dünyada ən sürətli templə inkişaf etmiş ölkəyə çevrilmişdir. Cəsarətlə demək olar ki, dünya xəritəsində Azərbaycan qədər uğurlar əldə edə bilmiş ikinci belə bir ölkə tapılmaz. Uğurlarımız çoxşaxəlidir, bütün sahələri əhatə edir.

Ölkəmizin sürətlə inkişafı faktını artıq bütün mötəbər beynəlxalq təşkilatlar etiraf edirlər. Yeni Azərbaycan Partiyasının rəhbəri İlham Əliyev bu haqda belə deyib: «Azərbaycanın təcrübəsi artıq ən müsbət təcrübə kimi öyrənilir. Sirr deyildir ki, bizim keçdiyimiz yol inkişafda olan, yaxud da ki, çətinliklər içində yaşayan bəzi ölkələr üçün bir işıq yoludur, bir istiqamətdir. Bu, öz növbəsində, bizim üzərimizə daha da böyük məsuliyyət qoyur. 2003–2013-cü illərdə – son 10 il ərzində Azərbaycan beynəlxalq aləmdə ən böyük zirvələri fəth edə bilmişdi. Heydər Əliyevin əsasını qoyduğu sülh diplomatiyasının siyasəti sayəsində Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu dövlətçiliyimizin qələbəsidir, təntənəsidir».

İlham Əliyevin başçılıq etdiyi YAP hazırda qlobal problemlərin həllində fəal iştirak edir. Diplomatiyamızın mövqeyi güclüdür, Yeni Azərbaycan Partiyasının sıralarında çalışan siyasi elitamızın nümayəndələrinin səsi dünya məclislərindən gəlir. Onlar xalqımızın milli maraqlarını cəsarətlə müdafiə edirlər. Önəmli haldır ki, Azərbaycan elitası üzv olduğumuz təşkilatlarda nəinki maraqlarımızı müdafiə edir, həmçinin həmin təşkilatların inkişafına da siyasi töhfələr verir.

Azərbaycanın ikitərəfli formatda qurduğu xarici siyasət modeli bir çox ölkələr üçün nümunə ola bilər. Bu – İlham Əlyevin həyata keçirdiyi bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı, hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qurulmuş siyasət Heydər Əliyev siyasətinin yaradıcılıqla davam etdirilməsidir. Azərbaycan elitası bu prinsiplərə sadiqdir. Ölkəmiz heç bir ölkənin daxili işinə qarışmır, o yalnız öz maraqlarını müdafiə edir. Qloballaşan dünyada baş verən meyillər beynəlxalq əməkdaşlığın inkişafına daha da kömək edər. Əslində, qloballaşma daha çox siyasi prosesdir, çünki o qlobal, regional və yerli siyasi strukturlara təsir edir. Ona görə də siyasi elitanın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlardakı fəaliyyəti uğurla həyata keçir. Çünki İlham Əliyevin ümumi xarici siyasət konsepsiyası təqdirəlayiqdir, dünyada böyük nüfuz qazanmışdır. Bu prioritetlər daxili siyasətimizə təkan verir. Hər bir ölkənin ümdə fəaliyyət prinsipi cəmiyyətdə sabitlik, sülh, əmin-amanlıq yaratmaq, ölkədaxili proseslərin normal müstəvidə inkişafıdır.

Daxili siyasətlə bağlı YAP-ın rəhbəri İlham Əliyev belə deyib: Azərbaycanda kadrların yetişdirilməsində Yeni Azərbaycan Partiyası çox böyük işlər görmüşdür. Ölkəmizin siyasi durumu göstərir ki, Yeni Azərbaycan Partiyası sosial-siyasi sistemimizin ən əsas sütunudur və ən böyük nüfuza malik olan partiyadır. Ölkəmizdə siyasi islahatların uğurla həyata keçirilməsində Yeni Azərbaycan Partiyasının xüsusi payı və məsuliyyəti vardır. Azərbaycan iqtisadi islahatların aparılması sayəsində dünyanın ən sürətli iqtisadi inkişaf tempinə malik ölkəsi imicini qazanmışdır.

Prezident İlham Əliyevin çıxışından: «İkinci belə ölkə tapılmaz ki, on il ərzində iqtisadiyyat üç dəfədən çox artsın və bütün başqa statistik göstəricilər də ən yüksək səviyyədə olsun. Hər bir ölkə üçün bu, nümunə ola bilər. Yoxsulluq 6 faizə, işsizlik 5,2 faizə düşübdür. Bir milyon 100 mindən çox yeni iş yeri açılmışdır. Xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bütün beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Ölkəmiz artıq rəqabət qabi-

liyyətliliyinə görə dünya miqyasında 46-cı yerdədir. Bu, həqiqətən də dünya miqyasında danılmaz həqiqətdir».

Təbii ki, bu reallıqlar xalqımıza, gələcəyə nikbinliklə baxmağa əsas verir. İlham Əliyevin başçılığı ilə «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının həyata keçirilmə mexanizmlərinin izlənib hazırlanması mühüm strateji əhəmiyyət kəsb edir. Dövlət siyasəti həmişə gələcəyə baxır. Bu gün gələcəyə hesablanmış Yeni Azərbaycan Partiyası da Azərbaycanda layihələrin həyata keçirilməsinə çalışır. Çünki məqsəd birdir: ölkəmizin uğurlu, davamlı inkişafı təmin edilsin. Partiyanın sıralarının monolitliyi, onun problemlərin həllinə nikbin yanaşması deməyə əsas verir ki, partiya bu missiyanı uğurla yerinə yetirir və yetirəcəkdir.

Azərbaycanda bütün istiqamətlərdə əldə edilən böyük nailiyyətlərin təməlində Heydər Əliyevin milli inkişaf strategiyası, onun siyasət fəlsəfəsinin prinsipləri durur. Bu nəcib işdə, şübhəsiz ki, ölkəmizin siyasi avanqardı kimi Yeni Azərbaycan Partiyasının da payı vardır. Sosial məsələlərin həllində, xarici siyasətlə, iqtisadi islahatlarla, daxili siyasətlə bağlı bütün sferalarda böyük inkişaf göz qabağındadır. Bizim siyasətimizin mərkəzində duran Azərbaycan vətəndaşıdır.

Sosial rifah, insanların maddi vəziyyətinin yaxşılaşdırılması, müxtəlif sosial proqramların həyata keçirilməsi Azərbaycan dövlətinin fəaliyyətində prioritet istiqamətlərdən biridir. Sovet dövründən qalmış əmanətlərin insanlara verilməsi də bu humanist siyasətin təzahürü idi. Bu gün deməyə əsas var ki, dövlətimizin gələcəkdə məqsədyönlü fəaliyyəti Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına yönələcəkdir.

Ölkəmizin siyasi-iqtisadi və mədəni inkişafını təmin etmiş, bütün islahatlarda, uğurlarda, əlbəttə ki, Yeni Azərbaycan Partiyasının payı çoxdur. Milli inkişafda iştirak partiyanın cəmiyyətdəki nüfuzunu daha da artırır. Bu gün Yeni Azərbaycan Partiyasının siyasi səhnədə ciddi rəqibi yoxdur, çünki onun sıralarında formalaşan istedadlı siyasətçilər öz elitar biliyi və yüksək intellekti sayəsində ən mürəkkəb problemlərin öhdəsindən bacarıqla

gəlirlər. Partiya, tam əminliklə demək olar ki, siyasi elitamızın örnəyidir. Bu, reallıqdır. Nüfuzlu siyasi qüvvə kimi, o, fəaliyyətini Heydər Əliyevin siyasət məktəbinin prinsipləri əsasında qurmuşdur. Bu prinsiplər əsasında görülən işlər, islahatlar insanların yaşayış şəraitinin yaxşılaşmasına, ölkəmizin, beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə uğur gətirir. Bu isə dünya birliyində Azərbaycana olan tərəfdaşlıq inamını daha da artırır. Qloballaşma prosesləri göstərir ki, siyasi mübarizə daha çevik və daha optimal aparılmalıdır. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi Yeni Azərbaycan Partiyası üçün mühüm fəaliyyət prinsipidir: «Yeni Azərbaycan Partiyası siyasi davranış qaydalarını da müəyyən etmişdir və çox şadam ki, siyasi fəaliyyətlə məşğul olan əksər siyasi partiyalar bu sivil siyasi davranış qaydalarına əməl edirlər.

Son 20 ilin tarixi belə bir həqiqəti təsdiq edir ki, Azərbaycanın gələcəyini, müstəqilliyini düşünməyən siyasi partiyaya Azərbaycanın siyasət səhnəsində yer yoxdur. Biz müstəqil dövlət qurmuşuq. Ulu Öndər canı hesabına müstəqil dövlət qurmuşdur. Biz müstəqilliyi qoruyuruq, saxlayırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillik sadəcə olaraq dövlət atributlarına malik olmaq deyildir. Müstəqillik müstəqil siyasət aparmaq, öz maraqlarını müdafiə etmək, öz milli maraqlarını hər şeydən üstün tutmaqdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən, sözün əsl mənasında, müstəqil dövlətdir. Biz bu müstəqilliyi möhkəmləndirməliyik».

Bir daha qeyd edək ki, Azərbaycan dünya diplomatiya məkanında hər bir tərəfdaşla bərabərhüquqlu münasibətlər qurmuşdur. Başqa yol ola da bilməz. Yeni Azərbaycan Partiyasının heç bir üzvü istəməz ki, bizə rəqib olmaq arzusunda olanlar xarici dairələrin təlimatı ilə fəaliyyət göstərsin. Çünki onlar öz fəaliyyətlərində xaricdən verilən vəsaiti, təlimatları əsas götürürlər. Onlar hakimiyyətə gəlmək üçün istənilən vasitələrə əl atmağa hazırdırlar.

Biz bu məsələyə bəlkə də toxunmazdıq, lakin fakt budur ki, bu, artıq, siyasi səhnədə bir reallıqdır. Biz tam əminik ki, Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq qabiliyyətində olan

heç bir siyasi qüvvə yoxdur. Ona görə ki, göstərdiyi açıq siyasətlə cəmiyyətdə ona olan etimad daha da artırmışdır.

Lakin biz çox istərdik ki, milli maraqlarımıza zidd olan hallara qarşı siyasi mübarizəmiz dövlətçilik əsasında qurulsun. Sivil prinsip budur ki, dövlətçiliyə, xalqın milli maraqlarına, müstəqilliyə bütün siyasi qüvvələr sadiq olsunlar. Partiya sıralarına qəbul ön plana çəkilməli, partiyaya təsadüfı adamların düşməsinə yol verilməməlidir. Partiya yeni rəhbər kadrlar formalaşdırmalı, siyasi elitanın bazasını möhkəmləndirməlidir.

Partiya fəaliyyətini uğurla inkişaf etdirmək üçün gənclərin və qadınların potensialından tam gücü ilə istifadə etməlidir. Onun amalı qüdrətli Azərbaycandır, müstəqillikdir, inkişafdır, sosial rifahdır. Ölkə qarşısında duran vəzifələr məhz Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə bundan sonra da əzmlə həyata keçirilə bilər. Bu vəzifələrin arasında, əlbəttə ki, ilk növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dayanır. Azərbaycan tərəfinin mövqeyi prinsipialdır. Bu, Yeni Azərbaycan Partiyasının bütün qurultaylarında qətiyyətlə səslənmişdir. Azərbaycan xalqı və Yeni Azərbaycan Partiyası konfliktin sülh yolu ilə həllini birmənalı şəkildə düzgün hesab edir. İlham Əliyev qətiyyətlə bildirir: «Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və olmayacaqdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Azərbaycan öz suverenliyini, ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 4 Qətnaməsi əsasında öz həllini tapa bilər. Heç bir başqa variant nəzərdən keçirilmir, heç bir başqa variant qəbul edilə bilməz».

Yeni Azərbaycan Partiyasının hər bir üzvü əmindir ki, bu məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaqdır. Ölkəmizin inkişafda olan xarici və daxili gücü, artan ordu potensialı və iqtisadi inkişaf qələbəmizi təmin edəcəkdir.

Ermənistanda isə hakimiyyəti zəbt etmiş kriminal korrupsioner diktatura rejimi ölkəni uçuruma aparır, o, tamamilə iflasa uğra-

mışdır. Ölkədə kütləvi miqrasiya prosesi gedir. Hər il 100 minə qədər vətəndaş ölkəni həmişəlik tərk edir. Ona görə ki, ölkənin gələcəyinə ümidləri yoxdur. İqtisadiyyat demək olar ki, iflic vəziyyətdədir. Ölkəni idarə edən qaniçən, gözü doymayan kriminal quldur rejim insanlara divan tutur. Bütün seçkilər Ermənistanda kütləvi şəkildə saxtalaşdırılır, siyasi mübarizə qanlı faciələrə gətirib çıxarır. Bu ölkə terrorçu ölkədir və terrorçu, quldur normaları ilə idarə olunur. Hadisələrə əsaslanıb belə deyə bilərik: nə qədər ki, indiki kriminal iqtidar orada rəhbərlikdədir, Ermənistan o qədər də tez, tamamilə çökəcəkdir.

Yeni Azərbaycan Partiyasının mövqeyi qətidir: biz mütləq ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunun üçün vaxt və güclü, realist siyasət lazımdır. Prezident İlham Əliyevdə fıkrində qətidir: «Yalnız bizim iqtidar bütün təzyiqlərə, təhdidlərə, təxribatlara dözə bilər. Bizə qarşı aparılan kampaniyanın təməlində bir çox hallarda məhz bu münaqişə dayanır: Azərbaycanı zəiflətmək, ləkələmək, imicinə zərbə vurmaqla, Qarabağ məsələsində bizdən güzəştlər qoparsınlar. Bu, keçməyəcəkdir. Çünki bizim işimiz haqq işidir və xalq da bizim siyasətimizi dəstəkləyir».

Azərbaycanda demokratiyanı daha da inkişaf etdirən Yeni Azərbaycan Partiyasına görə söz azadlığı, vicdan azadlığı, din azadlığı, sərbəst toplaşma azadlığı ilə bağlı problemin ədalətli həlli demokratiyanın inkişafı üçün əsas vasitədir. Əminik ki, Azərbaycan demokratiyanın inkişafına görə heç bir ölkədən geridə qalmır. Hətta bir çox məsələlərdə ölkəmizdəki demokratik institutlar başqa ölkələr üçün örnək ola bilər.

Ölkəmizin iqtisadi potensialını daha da artırmaq işində Yeni Azərbaycan Partiyasının xidmətləri mühümdür. Qəbul edilmiş bütün qərarların həyata keçirilməsində partiya fəal iştirak edir. Bundan sonra sənayeləşmə prosesi daha sürətlə gedəcək, böyük sənaye kompleksləri yaradılacaqdır. Bu, Yeni Azərbaycan Partiyasının qarşısında duran əsas vəzifələrdən biridir. Partiyanın liderləri və sıravi üzvləri dərk edirlər ki, sosial məsələlərin həllində bundan sonra da çox ciddi addımlar atılmalıdır. İlham Əli-

yev qeyd edir ki, «məcburi köçkünlərin yaşayış səviyyəsini qaldırmaq üçün bundan sonra da işlər görüləcəkdir. Biz bütün istiqamətlər üzrə öz siyasətimizi davam etdirəcəyik. Ərzaq təhlükəsizliyini tam şəkildə təmin etməliyik. Bir neçə il bundan əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin edək. Biz bu hədəfə də yaxınlaşırıq».

Modern dövlət quruculuğu yolu ilə inamla addımlayan Azərbaycanda sosial müdafiədə ünvanlılıq əsas xətdir və belə bir əhəmiyyətli sosial strategiyanın təməlini Ulu Öndər Heydər Əliyev qoyub. Məhz bu insanın şəxsiyyəti və xarizması sayəsində, adətən, çox ağrılı və əziyyətli olan bu transformasiya–keçid prosesləri ölkəmiz üçün ağrısız başa çatdı.

Prezident İlham Əliyevin sosial siyasətinin qloballığı və əhəmiyyətliliyi ondadır ki, onun prioritet istiqamətləri var. Belə ki, birinci istiqamətdə sığorta sistemi sosial müdafiənin elementi olan müavinət sistemindən ayrıldı. Prezidentin sosial siyasətində ikinci mühüm addım regionlarda idarəetmədir. Bu gün Azərbaycanda regionların sosial-iqtisadi inkişaf proqramları fəaliyyətdədir. Məhz regionlardakı infrastrukturların bərpası vasitəsilə əmək ehtiyatlarının üzə çıxarılmasını və nəticə etibarilə əhalinin sosial müdafiəsini təmin edən, kəndlərdən şəhərə axını minimuma endirən bir neçə dövlət proqramı həyata keçirilib.

Fəaliyyəti dövründə YAP həyata keçirilən sosial-iqtisadi siyasətə ciddi və davamlı dəstək göstərərək milli inkişafa öz payını vermişdir. Daha doğrusu, siyasi subyekt kimi YAP dövlətin sosial-iqtisadi siyasətinin fəal təbliğatçısı qismində çıxış edib və bu gün də etməkdədir. Məlumdur ki, YAP-ın ideoloji arsenalında sosial məsələlər xüsusi yer tutur. Bu mənada YAP-ın da əsas prinsiplərindən biri sosial ədalətin təmin olunmasına yönəlmiş fəaliyyətdir. Bir sözlə, partiyanın daxili siyasət strategiyasında da sosial və iqtisadi məsələlər önəmli yer tutur. Belə ki, YAP hər zaman ölkəmizin iqtisadi inkişafını sürətləndirmək, sosial islahatlar yolu ilə vətəndaşlar üçün layiqli həyat şəraiti yaratmaq, xalqın əmək və ictimai fəallığını artırmaq, ictimai-siyasi sabitliyi qoruyub saxlamaq,

insanlara sağlam həyat tərzi aşılamaq üçün fəal və məqsədyönlü şəkildə sosial siyasət aparmağa üstünlük verib. Təbii ki, YAP-ın sosial siyasət sahəsində strateji inkişaf proqramının əsasında insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması, sosial ədalət prinsipinin daim qorunması və müxtəlif sosial qruplar arasında kəskin təbəqələşmənin yumşaldılması durur. Partiya belə hesab edir ki, hər bir insanın yaxşı yaşamağa haqqı vardır. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin sosial siyasəti də hər bir vətəndaşın zəngin, firavan, yüksək rifah şəraitində yaşamasına xidmət edir. YAP fəaliyyətində dövlətin bu humanist siyasətinə həmişə ciddi dəstək vermişdir. Partiya fəalları hökumətin bu istiqamətdə reallaşdırdığı tədbirləri, icra olunan proqram və layihələri əhali arasında geniş təbliğ edirlər. Bununla yanaşı, YAP-ın təşkilatçılığı ilə imkansız ailələrə, ahıl insanlara və valideyn himayəsindən məhrum olmuş uşaqlara mütəmadi olaraq yardımlar edilir, milli bayramlar münasibətilə onlarla görüşlər keçirilir və bayram sovqatı təqdim edilir. Məsələn, Novruz, Qurban və Ramazan bayramlarında Bilgəh qəsəbəsində yerləşən müharibə və əmək əlilləri üçün pansionatın sakinləri ilə görüşmək, onlara bayram sovqatları təqdim etmək YAP-da ənənə halına çevrilib.

Məlum olduğu kimi, regionların inkişafı ilə bağlı 2004-cü ildən başlayaraq milli inkişafın daha da gücləndirilməsini nəzərdə tutan proqramlar həyata keçirilir. Proqramlar əsasında kompleks tədbirlərin icrasının mövcud tendensiyası, qazanılmış misilsiz nailiyyətlər tam əsasla bir real tezisi meydana çıxarır: son illərdə Azərbaycan iqtisadi, sosial, siyasi, ictimai, humanitar, elmi-mədəni cəhətdən əsaslı dönüşə və yüksək indikatorluğa nail olan, iqtisadiyyatını bir neçə dəfə inkişaf etdirməklə dünya üzrə ən proqressiv meyarlara malik tam modernləşən dövlətə çevrilib. Prezident İlham Əliyevin birbaşa nəzarəti altında davam etdirilən bu siyasi-iqtisadi regional inkişaf formulu ölkənin iqtisadi inkişafında yeni dinamizm elementlərinin yaranmasına, respublikanın hərtərəfli sosial-iqtisadi tərəqqisinə səbəb olub.

Azərbaycanın iqtisadi inkişafının əsas təzahürlərindən biri «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004–2008 və 2009–2013-cü illərə dair) respublikamızın sıçrayışlı inkişafını təmin etməklə yanaşı, insanların sosial həyatının yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında mühüm rol oynayıb. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası, yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, aqrar sektorda intensiv metodlardan istifadə, fermerlərə və digər kənd təsərrüfatı işçilərinə xidmət məqsədilə müxtəlif servis mərkəzlərinin və yeni iş yerlərinin açılması investorların regionlara cəlb olunması üçün əlverişli işgüzar şəraitin yaradılması və s. tədbirlərin görülməsi nəticəsində regionların sosial-iqtisadi inkişafında dönüş yaranıb. Şübhəsiz ki, regionların inkişafı bütövlükdə respublikanın ümuminkişaf göstəricilərinə təsir edən mühüm faktordur.

2014–2018-ci illəri əhatə edən üçüncü dövlət proqramının həyata keçirilməsində də YAP yaxından iştirak edib. Bu proqramın reallaşması nəticəsində regionların sosial-iqtisadi inkişafı üçün vacib olan bütün sosial-iqtisadi məsələlər də öz həllini tapıb.

Dövlətimiz enerji siyasəti sahəsində də ciddi və düşünülmüş addımlar atır. Enerji təhlükəsizliyi məsələləri daxildə tam şəkildə həll olunmuşdur. İndi Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllində də Avropa ilə bu istiqamətdə tərəfdaş kimi çalışır, geniş fəaliyyət göstərir. Ölkəmiz «Cənub qaz dəhlizi»nin təşəbbüskarı və əsas iştirakçısıdır. Prezident İlham Əliyevin dediyi kimi: «Azərbaycanda qəbul edilən qərarlar gələcəkdə enerji təhlükəsizliyi ilə bağlı olan bütün yeni məsələlərə əsas istiqamət verəcəkdir. Bu, böyük uğurumuzdur və böyük məsuliyyətimizdir. Biz bu məsuliyyətə hazırıq. Çünki Ulu Öndərin qoyduğu Azərbaycanın neft strategiyası bu günə qədər uğurla icra edilibdir. Bu gün qaz amili də bu strategiyanı daha da zənginləşdirir». Bu, Azərbaycan elitasının uğurları, dövlət strukturlarında çalışanların məsuliyyətli qərarları həyata keçirmələrinin nəticəsidir.

Yeni Azərbaycan Partiyasının rəhbərliyi dərk edir ki, məsuliyyətli vəzifələr hələ irəlidədir və kifayət qədərdir. Partiya gələcək inkişafımıza görə tam nikbin mövqedədir, onun bütün vəzifələrin yerinə yetiriləcəyinə heç bir şübhəsi yoxdur. Azərbaycan inamla, uğurla irəliyə gedəcəkdir. Bunu təmin etmək üçün Partiya Heydər Əliyevin siyasət məktəbinin üstünlüklərinə söykənməli, onu daim inkişaf etdirməlidir.

## *5.3. Yeni zirvələrə doğru*

Bir daha qeyd edək ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı dovründə ölkədə vəziyyət çox ağır idi. Ölkəni qanunlar yox, siyasi nadanlar, başıpozuq, səriştəsiz qruplar idarə edirdilər. Dövlətə və dövlət rəhbərinə inam itmişdi, insan haqları və hüquqları tanınmırdı, demokratiyadan əsər-əlamət yox idi. Vəzifə uğrunda didişmə gedirdi, siyasi intriqalar səngimək bilmirdi, hər şey dağıdılır, talan edilirdi. Xarici təcavüzlə paralel olaraq, ölkəmiz həm də vətəndaş müharibəsi həddində idi. Bu vəziyyəti özlərini «xalqın xilaskarı» kimi təqdim edən cəbhəçilərin heç bir çərçivəyə sığmayan səriştəsizliyi yaratmışdı.

Yeni Azərbaycan Partiyası öz fəaliyyətində daim bu həqiqəti rəhbər tutur: XX əsrin ikinci yarısında Azərbaycanın bir müdrik xilaskarı olub – Heydər Əlirza oğlu Əliyev. O, 1969-cu ildə Azərbaycanı gerilikdən xilas etdi, respublikanı birincilər sırasına çıxardı. 1993-cü ildə isə suverenliyini itirmək üzrə olan müstəqil Azərbaycanı qorudu. Müasir tipli partiya yaratmaqla ölkəyə yeni siyasi mədəniyyət gətirdi, siyasi elitanın formalaşdırılması üçün siyasi məktəb yaratdı. Milli mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan azərbaycançılığı milli birlik ideologiyası kimi formalaşdırdı.

Yeni Azərbaycan Partiyasının Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş I və II qurultaylarında Ulu Öndər siyasi mühitin sağlamlaşdırılması üçün çox dəyərli proqramlar, tövsiyələr vermiş, partiyanın rəhbər tutduğu ideyaları isə digər partiyalara əməli iş görmək üçün nümunə göstərmişdir. Partiyanın və hakimiyyətin

sağlam əqidəli, millətsevər şəxslər tərəfindən idarə edilməsi zərurəti insanlarda siyasi partiyaya inamı daha da artırmışdır.

2003-cü ildən etibarən YAP-ın fəaliyyətinə güclü şəxsiyyət, yüksək liderlik keyfiyyətinə malik olan müasir təfəkkürlü, dünya liderləri arasında özünün qətiyyəti, işgüzarlığı, yüksək nüfuzu ilə seçilən hörmətli İlham Heydər oğlu Əliyev rəhbərlik edir. O, eyni zamanda, həmin ildən ölkənin andına sadiq Prezidentidir və öz missiyasını bu gün də ləyaqətlə yerinə yetirir.

Heydər Əliyevin axıra çatdıra bilmədiyi quruculuq işlərini davamlı surətdə həyata keçirən İlham Əliyev Azərbaycanı dünya dövlətləri içərisində sayılan, təcrübəsinə istinad olunan, dinamik inkişaf edən ölkə səviyyəsinə çatdıra bildi. İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş YAP-ın III və IV qurultaylarında nəzərdə tutulmuş proqramlar da bütövlükdə yerinə yetirilib. Yeni azərbaycançılar fəxr edirlər ki, YAP 25 ildir ki, hakim partiyadır. Partiyanın liderləri – xalqa ləyaqətlə xidmət edib. Heydər Əlirza oğlu və İlham Heydər oğlu isə dövlət başçısı kimi onun yolunu layiqincə davam etdirir.

Ulu Öndərimiz partiyanın I qurultayında belə demişdi: «Yeni Azərbaycan Partiyası yarandığı dövrdən indiyə qədər Azərbaycanın ictimai-siyasi həyatında özünün dəyərli yerini tutubdur və bu yeri heç kəsə verməyəcək, get-gedə öz yerini möhkəmləndirəcəkdir».

Bu müddəa bu gün də qüvvəsini saxlayır, ona əməl etmək isə hər bir partiya, üzvünün borcudur.

26 il əvvəl – 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilən Yeni Azərbaycan Partiyası ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında elə bir tarixi yol keçmişdir ki, bu yol həm də müstəqil Azərbaycanın müqəddəratını təyin edən mühüm bir tarixi mərhələ olmuşdur.

Beləliklə, milli dövlətçiliyin sabahına ciddi təhlükə yarandığı bir dövrdə Azərbaycanı böhran girdabından çıxararaq işıqlı gələcəyə aparan bir siyasi gücün – Yeni Azərbaycan Partiyasının yaradılması xalqımızı səfərbər edərək ümummilli problemlərin həllində iştirak etmək, bu istiqamətdə öz zəruri xidmətlərini göstərmək məqsədi daşıyırdı.

Ümummilli Liderimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993–2003-cü illər dünyanın siyasi xəritəsində Azərbaycan Respublikasının strateji mövqeyinin təmin edildiyi, müstəqilliyimizin möhkəmləndirilməsi və əbədi varlığı üçün bütün zəruri siyasi addımların atıldığı, müstəqil Azərbaycanın dövlətçilik konsepsiyasının nəzəri əsaslarınm formalaşdırıldığı və bu əsasda möhkəm bünövrənin qoyulduğu taleyüklü bir mərhələ oldu. Ulu öndər Heydər Əliyev özünün dərin siyasi zəkasının, zəngin və mükəmməl dövlətçilik təcrübəsinin məhsulu və şah əsəri olan müstəqil Azərbaycan Respublikasını gələcək nəsillərə miras qoydu.

Ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinin İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə xalqımız ürəkdən sevinir. Onun 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə xalqın böyük dəstəyi ilə Prezident vəzifəsinə, 2005-ci ilin martında isə YAP-ın III qurultayında Yeni Azərbaycan Partiyasının sədri vəzifəsinə seçilməsi Ümummilli Liderimizin varisi, onun siyasi kursunun layiqli davamçısı kimi ona bəslənilən sonsuz inam və məhəbbətin parlaq təzahürü idi.

Vətənini, xalqını sevən hər bir şəxs, Yeni Azərbaycan Partiyasının hər bir üzvü İlham Əliyevin yeritdiyi uğurlu daxili və xarici siyasəti ürəkdən bəyənir, müdafiə edir və bu siyasətin ölkəmizə bundan sonra da nailiyyətlər gətirəcəyinə inanır. Ölkə rəhbəri kimi onun regionlara səfərləri, verdiyi qiymətli tövsiyə və tapşırıqlar, inkişaf və tərəqqini yüksək dəyərləndirməsi partiya üzvlərini daha əzmlə çalışmağa ruhlandırır. Ölkədə həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri, sürətli yüksəliş məhz ulu öndər Heydər Əliyevin dövlətçilik və siyasət fəlsəfəsinin milli maraqlarımıza uyğun olaraq davam etdirilməsi sayəsində mümkün olmuşdur.

İlham Əliyevin əzmkar fəaliyyətində reallaşan möhtəşəm quruculuq tədbirləri Azərbaycan üçün yeni intibah erası açmışdır. Ölkəmizin hərtərəfli inkişafına, dövlətimizin dünya birliyində müasir beynəlxalq münasibətlər subyekti kimi yerinin daha da möhkəmləndirilməsinə göstərdiyi ardıcıl diqqət və qayğıya görə o, xalqın siyasi elitasının liderinə çevrilmişdir.

Ümummilli Liderin «Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir» sözləri partiyanın bütün üzvləri – İlham Əliev ətrafında birləşən siyasi həmfikirlər üçün də sağlam əqidə, əzmkar fəaliyyət meyarıdır. Yeni Azərbaycan Partiyası bu yüksək amala xidmət edənləri öz ətrafında birləşdirməsi ilə fəxr edir. Prezidentimiz İlham Əliyein 2003-cü ildə dediyi sözləri xatırlatmamaq mümkün deyildir: «Mən hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam!»

Ötən 15 il aşkar şəkildə göstərdi ki, İlham Əliyev fəaliyyəti dövrünü bu ülvi amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqlllik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dovlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

Yeni Azərbaycan Partiyasının V qurultayında qaçqınların nümayəndəsi Prezident İlham Əliyevin fəaliyyətini belə qiymətləndirmişdi: «Mən inanmıram ki, dünyanın heç bir ölkəsində on ildə bu qədər tərəqqiyə nail olunsun – istər sosial-iqtisadi cəhətdən, istərsə də xarici siyasətdə. Həqiqətən də Prezident İlham Əliyev çox uğurlu siyasət aparır. Buna görə də heç bir dövlət dövlətimizin daxili işlərinə qarışa bilmir. Bu, ən böyük uğurdur. Çünki, açıq deyək, bizi istəməyən qüvvələr də var. O qüvvələr heç cür istəmirlər ki, bu gözəl Azərbaycan, bu müstəqil Azərbaycan, bu azad xalq fıravan yaşasın. Amma bir daha təkrar etməli oluruq ki, doğrudan da Prezident İlham Əliyev qətiyyətlidir, iradəlidir, bütün təzyiqlər qarşısında dəyanətlə dayanır və Azərbaycanın daxili və xarici siyasətini inamla həyata keçirir».

Prezident İlham Əliyev tərəfindən YAP-ın iştirakı ilə regionlarda aparılan istər sosial-iqtisadi, istərsə də xarici siyasətin nəticəsində Azərbaycan dünyanın ən qabaqcıl dövlətləri səviyyəsinə çatıb.

Onun göstərişi ilə çadır düşərgələri ləğv olunub. Məcburi köçkünlər üçün 78 müasir qəsəbə salınıb. Hazırda minlərlə qaçqın və məcburi köçkün rahat, gözəl mənzil şəraitində yaşayır. Prezident İlham Əliyev demək olar ki, məcburi köçkünlər üçün salınmış bütün qəsəbələrin açılışında iştirak edib.

«Bir tarixi yadınıza salmaq istəyirəm. 2011-ci il 24 dekabr. İnanın mənə, elə bir dövlət rəhbəri tanımıram ki, özünün yubileyini qaçqın və məcburi köçkünlərlə keçirsin. Bu, yalnız Ulu Öndərin həyat məktəbini keçən, xalqını, Vətənini, onun müstəqilliyini sevən, bayrağını uca tutan, bütün dünyada tanıtdıran İlham Əliyev cənablarına xasdır.» Prezidentinə hədsiz sadiq olan bir qaçqının səmimi sözlərinin, bizcə, izahına ehtiyac yoxdur.

YAP-ın V qurultayında xüsusilə vurğulanmışdır ki, bugünkü Azərbaycan gəncliyi ümummilli liderimiz Heydər Əliyevin Vətənimiz qarşısındakı nəhəng xidmətlərini taleyüklü misilsiz işlər kimi dəyərləndirir, onun xalqımıza bəxş etdiyi minlərlə əvəzsiz nemətlər içərisində Azərbaycanın müstəqilliyini, elmin və təhsilin inkişafını, iqtisadi yüksəlişi, gəncliyə açılan yolları, nəhayət, qurultayına toplaşdıqları Yeni Azərbaycan Partiyasını dahi siyasətçi Heydər Əliyevin şah əsəri hesab edir.

Ulu öndər Heydər Əliyevin bünövrəsini qoyduğu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün gənclərimiz ölkənin ictimai həyatında fəal iştirak etməklə yanaşı, beynəlxalq miqyasda da ardıcıl uğurlar qazanırlar. Gənclərimiz fəxr edirlər ki, bu gün dövlətimiz inkişafın Azərbaycan modelini yaradaraq yüksək və dinamik sosial-iqtisadi sıçrayışa nail olmuş, geniş beynəlxalq müqavilələr sisteminə qoşulmuş, nüfuzlu beynəlxalq təşkilatların üzvü olmuş, özünün demokratik, hüquqi dövlət imicini beynəlxalq aləmdə tam formalaşdırmışdır. Nəhayət, Azərbaycanın ən ali qurum olan BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi Heydər Əliyevin siyasət məktəbində formalaşmış, onun siyasət fəlsəfəsindən bəhrələnmiş Prezidentin və dövlətimizin tarixi qələbəsidir.

Qurultayda dövlətin gənclər siyasətinin uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının birinci xanımı, hörmətli Mehriban Əliyevanın əvəzsiz xidmətləri də xüsusi qeyd edilmişdir. Məhz Mehriban xanımın yüksək təşkilatçılıq bacarığı sayəsində Bakıda keçirilən «Eurovision» musiqi yarışı bu gün də öz möhtəşəmliyinə görə digər dövlətlərə nümunə olmaqdadır. Təsadüfı deyil ki, məhz bu uğurları rəhbər tutaraq beynəlxalq idman cəmiyyəti ilk Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar vermişdir.

Ölkə Prezidenti barədə Azərbaycan xalqının və onun avanqard təbəqəsi olan gəncliyin ümumi qənaəti belədir: «Yalnız Siz böyük, zəngin və qüdrətli Azərbaycanın təminatçısı və rəhbəri ola bilərsiniz. Yalnız Sizin rəhbərliyiniz altında ölkəmiz tarixi nailiyyətlərinin davamlılığını təmin edə bilər. Yalnız Sizin simanızıda Azərbaycan xalqı öz firavan gələcəyinin qarantını və qüdrətli dövlət xadimini görür».

Qurultay nümayəndələri bir daha vurğulamışlar ki, Ulu Öndərin xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi tariximizin parlq səhifəsidir.

Ulu Öndər çox qısa müddət ərzində özünün geniş təcrübəsindən istifadə edərək sabit, güclü bir dövlət yaratdı. Ölkəmiz separatizmdən xilas oldu, ölkədə demokratiya bərqərar oldu. Ən ali qanun – insana hörmət, hər şey insan naminə – bu ideya ilə Ulu Öndər ölkədə çox böyük sosiomədəni mühit yaratdı. Heydər Əliyev özünün 10 illik hakimiyyəti dövründə Azərbaycanın gələcək inkişafı üçün çox möhkəm, monolit bir bünövrə qoydu.

Qurultay nümayəndələri qətiyyətlə söyləyirdilər ki, 1993–2003-cü illər Azərbaycanın dirçəliş illəri hesab olunur. Amma ölkəmizin geniş mənada inkişafı dövrü isə İlham Əliyevin Prezidentliyi dövrünə təsadüf edir. YAP-ın V Qurultayında yekdil fikir belə olmuşdur: «Cənab Prezident, Siz dünyada analoqu olmayan bir iş gördünüz. İrs-varis prinsiplərinə sədaqətinizi göstərdiniz. Siz dünyada sübut etdiniz ki, cahanşümul cahangirin, fateh sələfın cəngavər xələfısiniz.

Bu on ildə rəhbərliyiniz altında Azərbaycan çox böyük, iri addımlarla inkişaf etdi. Ulu Öndərin müəyyənləşdirdiyi yolla gedərək güclü, inkişaf etmiş, analoqu olmayan bir Azərbaycan dövləti yaratdınız. Bunu Siz yeni tarixi dövrün azərbaycançıları ilə Azərbaycan xalqı ilə bir yerdə etdiniz. Siz xarizmatik lidersiniz». (Əli Əhmədov)

Prezident İlham Əliyev bəlkə çoxlarının mühafızəkar adlandırdığı partnomenklaturanı, yeni fıkirli, yeni azərbaycanlıları və herentokratiya adlandırılan elektoratı birləşdirərək gözəl idarəçilik sistemi və komandasını yaratmış, dünya birliyinin gözü önündə misilsiz qələbələrimizi təmin etmişdir. Yeni Azərbaycan Partiyasının hər bir üzvünün borcu bundan sonra bunu qorumaqdır. Bu elə bir milli dəyərdir ki, bunu xalq öz Prezidenti ilə bir yerdə qoruyacaqdır.

Ölkə Prezidentinin on illik fəaliyyətinin uğurlarını tükənməz tədqiqat mənbəyi kimi qiymətləndirilən qurultayda konkret olaraq üç tezisə diqqət yönəldildi. Partiyanın sədr müavinlərindən biri Əli Əhmədov demişdi: «Sizinlə nəyə nail olduq: güclü Azərbaycan qurduq, çox gözəl iqtisadi təmələ malik olduq və biz beynəlxalq, regional layihələrdə gücümüzü göstərdik. Bir sıra layihələrin də müəllifı Siz oldunuz, Azərbaycan oldu. Güclü xarici siyasət yeritdiniz. Bayaq məcburi köçkün qardaşımız çox gözəl dedi. Böyük dəyanət, iradə, əzm göstərərək, heç kimdən çəkinməmiş, dünyanın görkəmli dövlət başçıları ilə diplomatik görüşlərdə əsl Prezident ləyaqəti nümayiş etdirmisiz». Həqiqətən də Heydər Əliyevin diplomatik məktəbinin nümayəndəsi kimi Prezident İlham Əliyev Azərbaycanın sözünü, gücünü göstərə bilmişdir.

Zaman sübut etdi ki, İlham Əliyev Heydər Əliyev məktəbinin ən layiqli müdavimidir və bu məktəbin ikinci belə müdavimi yoxdur. Bir daha dünya birliyinə nümayiş etdirildi ki, Azərbaycan diplomatiyasının yolu Heydər Əliyev yoludur. Yeni Azərbaycan Partiyası da bu yolu seçmiş, özünün güclü liderilə bu yolla gedəcəkdir.

Yeni Azərbaycan Partiyası bir çox layihələrin müəllifidir. Partiyanın hər bir üzvü bundan sonrakı layihələridə Prezident İlham Əliyevlə birlikdə işləməyə ürəkdən hazırdır.

Qurultayda belə bir yekdil fikir səslənmişdir ki, Azərbaycanda yaşayan bütün etnoslar, xalqlar və millətlər İlham Əliyevin ölkə Prezidenti olmasına dəstək vermiş və buna ürəkdən sevinmişlər.

Yeni Azərbaycan Partiyasının 600 min üzvünü təmsil edən V qurultay nümayəndələrini bu sıraya toplayan, onların növbəti qələbələrə köklənmiş ovqatını formalaşdıran bir səbəb vardı – Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2013-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsi. Bu təklif xüsusi qürur hissilə qəbul edilmişdir.

Əslində Yeni Azərbaycan Partiyasının rəsmən qəbul etdiyi qərar ölkənin ictimai rəyində çoxdan formalaşmışdı, xalqın tam arzusuna uyğun idi. O dovrdə Azərbaycan xalqının mütləq əksəriyyətinin seçkiqabağı ovqatı bütünlüklə cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üzərində köklənmişdi. İlham Əliyevin şəxsində xalqımız Azərbaycanın müasir gücünün və qüdrətinin həlledici ifadəsini görməkdədir. Xalq İlham Əliyevi millətin müasir inkişafının memarı sayır. Hazırda hər bir azərbaycanlı yalnız bu günümüzü deyil, eyni zamanda Azərbaycanın gələcəyini Prezident İlham Əliyevin fəaliyyətindən ayrı düşünmür, ona güvənir və etibar edir. Bunu da qeyd etmək tamamilə yerinə düşər ki, YAP-ın V qurultayında İlham Əliyevin növbəti prezident seçkilərində namizədliyinin irəli sürülməsi, hər şeydən əvvəl, vətəndaşlarımızın daxili inamına əsaslanır, xalqın özünə layiqli rəhbər seçmək haqqını ifadə edir və bu səbəbdən yüksək ictimai dəyərə və gücə söykənirdi.

Xalqın öz iradəsini sərbəst şəkildə ifadə etməsi, ölkəyə layiqli rəhbər seçmək haqqına sahib olması nəinki demokratiyanın, bəlkə də xüsusilə müstəqil dövlətçilik düşüncəsinin əsas meyarıdır. Hər dəfə Prezident seçkiləri ərəfəsində seçicilərin əksəriyyətinin birmənalı olaraq İlham Əliyevin namizədliyini qətiyyətlə dəstək-

ləməsi əslində xalqın öz taleyinə sahib olmaq istəyinin aydın ifadəsi hesab olunmalıdır. Xalq o zaman güclüdür ki, iradəsini açıq şəkildə ifadə etməyi bacarır, uğurların başlıca səbəbini Prezidentin şəxsiyyətində görür. Ona görə də V qurultay İlham Əliyevin namizədliyini irəli sürməklə, xalq tərəfindən onu qətiyyətlə dəstəkləməklə Azərbaycan demokratiyasının gücünü, qüdrətini və əzəmətini bir daha nümayiş etdirmiş oldu.

YAP-ın V Qurultayında nümayəndələr əmin olduqlarını bildirmişlər ki, cəmiyyətimizin Prezident İlham Əliyevə və onun həyata keçirdiyi siyasətə dərin inamının 10 illik uğur, nailiyyətlər və milli yüksəliş kimi etibarlı sınaq təcrübəsi vardır. Bu illərin təcrübəsi deməyə tam əsas verir ki, xalq öz taleyini inamla, hər hansı riskə getmədən yenidən İlham Əliyevə etibar etsin. 10 ilin inkişaf, sabitlik və əmin-amanlıq təcrübəsi elə bir etibarlı təməldir ki, insan növbəti illərdə də özünü və ailəsini daha gözəl həyatla təmin edəcəyinə dərindən inanır.

Yeni Azərbaycan Partiyasının V qurultayında 10 ilin inkişaf tarixinə nəzər salınaraq xüsusi iftixar hissi ilə vurğulanmışdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə və onun fəaliyyəti sayəsində Azərbaycanın son illər dünyanın ən uğurlu dövlətlərindən birinə çevrilməsi, ölkəmizin ən dinamik iqtisadiyyata sahib olması və bu günə qədər həmin potensialı qoruyub saxlaya bilməsi,10 il ərzində ölkə iqtisadiyyatının 3 dəfə, dövlət büdcəsinin isə təxminən 20 dəfə artmasının təmin edilməsi, Azərbaycanın kosmik ölkələr sırasına qoşulması, bir milyondan artıq yeni iş yerinin açılması, yoxsulluq səviyyəsinin 50 faizdən təxminən 5 faizə qədər endirilməsi kimi möhtəşəm sosial vəzifələrin yerinə yetirilməsi, erməni təcavüzünün acı nəticəsi olan çadır şəhərciklərinin birdəfəlik müasir yaşayış məskənləri ilə əvəz olunması, möhtəşəm infrastruktur layihələri sayəsində Azərbaycanın simasının kökündən dəyişdirilməsi və müasirləşdirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun və əhəmiyyətinin durmadan artmasını təmin edən xarici siyasət konsepsiyasının uğurla həyata keçirilməsi, Azərbaycanın dünyanın ən mötəbər beynəlxalq qurumu olan

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv seçilməsi, paytaxt Bakının dünyanın siyasi, mədəni və idman yarışları arenası kimi tanıdılması və 2015-ci ildə ilk Avropa Oyunlarının keçirilməsi haqqının qazanılması, ölkəmizin gündən-günə artan iqtisadi gücünün hərbi, siyasi və diplomatik amilə çevrilməsi sayəsində Ermənistan–Azərbaycan, Dağlıq Oarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın haqlı mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmlənməsi – bütün bunlar ölkə rəhbərinə ümumxalq etimadının əhəmiyyətli dərəcədə güclənməsinin əyani sübutudur. Heç şübhəsiz ki, bu etimad 2013-cü ilin seçki kampaniyasının da başlıca seçki resursu olmuşdur.

Prezident İlham Əliyevin qurultaydakı proqram xarakterli çıxışı inkişafımızın növbəti oriyentirlərini müəyyən etməklə ölkəmizin qarşıda yeni, daha əzəmətli uğurlar qazanacağına hamımızın inamını artırdı. Prezidentin qarşıya qoyulan vəzifələr və onların yerinə yetirilməsi ilə əlaqədar konkret proqramı əks etdirən nitqi isə bariz ifadə edir ki, İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Heydər Əliyev siyasəti təkcə tarixə çevrilmiş nailiyyətlərimizin deyil, həm də gələcək uğurlarımızın həlledici əsasıdır. Bu səbəbdən Yeni Azərbaycan Partiyasının V qurultayının nümayəndələri İlham Əliyevin növbəti Prezident seçkilərində iştirakını xalqın qəlbinin dərinliyindən qopub gələn sosial sifariş hesab etdi və həmişə olduğu kimi, xalqın səsinə səs verməyi özünün şərəfli borcu saydı.

Prezident İlham Əliyev bu gün çox güclü liderdir. Azərbaycan xalqı bunu dərk edir, qiymətləndirir və özünün taleyini, İlham Əliyev şəxsiyyətilə, onun Prezidentliyi ilə, onun elitar mədəniyyətilə bağlayır. Hər bir azərbaycanlı qəti şəkildə dərk edir ki, Prezident seçkilərində İlham Əliyevə səs verməklə düzgün seçim etmişdir.

YAP-ın icra katibi Əli Əhmədov YAP-ın V qurultayında belə bir faktı qeyd edib: «Prezident İlham Əliyevin regionların inkişafına verdiyi diqqəti bu faktorlar tam aydınlığı ilə nümayiş etdirir: Prezidentimiz regionların sosial-iqtisadi inkişafına aid iki Dövlət Proqramını həyata keçirmək üçün regionlara doqquz il yarımda

284 dəfə səfər etmiş, 860-dan artıq əsaslı, sanballı mühüm tədbirin iştirakçısı olmuşdur. O, 560-dan artıq respublika əhəmiyyətli sənaye müəssisəsinin, obyektin təməlqoyma və açılış mərasimlərində şəxsən özü iştirak etmişdir.

İlham Əliyevin gördüyü bu işləri sovet hakimiyyəti illərində görülmüş işlərlə müqayisə edəndə məlum olur ki, ölkə Prezidenti il yarım ərzində, – 70 illik sovet hakimiyyəti dövründə ölkəyə 16 nəfər rəhbərlik edib, – 16 nəfərin 70 ildə regionlarda olduğundan İlham Əliyev doqquz il yarım ərzində bir dəfə yarım artıq regionlarda olub. Möhtəşəm fəaliyyət nümunəsidir!

Bu ölkədə regionlarda o qədər iş görülüb ki, indi sosial-mədəni strukturuna görə regionlarla şəhərin fərqi yoxdur. Bizcə, bu işdə insana fıtri istedad və nəsildən gələn keyfıyyətlər lazımdır. Bu keyfıyyətlər ona müstəqil Azərbaycan dövlətinin memarı böyük Heydər Əliyevdən və anası, akademik Zərifə xanım Əliyevadan miras qalmışdır».

Yeri gəlmişkən, qeyd edək ki, bütün bu müddət ərzində Prezident İlham Əliyevin gördüyü bütün işlərdə, bütün məsul məsələlərin həllində Mehriban xanım İlham Əliyevin yanında onun ən yaxın silahdaşı kimi fəal iştirak etmişdir.

YAP-ın icra katibi Əli Əhmədov qurultay nümayəndələrinin arzusunu nəzərə alaraq demişdir: «Hörmətli sədrimiz, Sizin Azərbaycana rəhbərliyiniz nə qədər uğurlu olubsa, partiyamıza rəhbərliyiniz də partiyamız üçün o qədər uğurlu olub. Bu illər ərzində partiyamız sürətlə inkişaf edib, möhtəşəm, əzəmətli bir partiyaya çevrilib. İnanırıq ki, Sizin partiyamıza növbəti rəhbərliyiniz dövründə Yeni Azərbaycan Partiyası daha da güclənəcək, daha da möhtəşəm bir siyasi təşkilat olaraq daim Sizin ətrafınızda sıx birləşərək, ölkəmizin inkişafına töhfələr verəcəkdir».

Prezident İlham Əliyev isə ona göstərilən yüksək etimada görə Yeni Azərbaycan Partiyasına minnətdarlığını bildirmiş, partiyanın üzvlərini əmin etmişdir ki, bundan sonra da partiyanın işində fəal iştirak edib və Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir.

Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev qurultaya yekun vuraraq demişdir:

– Mənə göstərilən böyük etimada görə qurultaya minnətdaram. Bu, böyük etimaddır, böyük məsuliyyətdir. Mən bunu dərk edirəm və son 10 il ərzində çalışmışam ki, bu etimadı doğruldum. Çalışmışam ki, öz işimlə, öz fəaliyyətimlə ulu öndər Heydər Əliyevin qoyduğu siyasətə öz töhfəmi verim. Mənim bir məqsədim, bir amalım vardır. Bu, güclü Azərbaycan dövlətidir. Ulu Öndərin bizə miras qoyduğu dövlətçiliyi möhkəmləndirmək, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək mənim əsas vəzifələrimdir və son 10 il ərzində çalışmışam ki, bütün istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafını təmin edim.

Bu gün səslənən çıxışlarda görülən işlərin bir hissəsi diqqətə çatdırıldı. Doğrudan da, son illər ərzində görülmüş bütün işləri sadalamaq üçün bir neçə gün vaxt lazım olacaqdı. Kərim müəllim çox maraqlı statistikanı diqqətimizə çatdırdı. Mən, sözün düzü, bölgələrə etdiyim səfərləri saymıram. Amma şadam ki, bu statistika da artıq diqqətdən kənarda qalmayıbdır. Əlbəttə ki, bölgələrə göstərdiyim diqqət bölgələrin inkişafına çox böyük təkan vermişdir. Çünki bizim birinci qəbul etdiyimiz ciddi proqramımız, əsas proqramımız regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı olmuşdur. 2004–2008-ci illəri əhatə edən proqram artıqlaması ilə icra edilmişdir və proqramın əsas məqsədi məhz kəndlərlə şəhərlər arasındakı fərqi azaltmaqdan ibarət idi, təbii ki, kəndlərin inkişafı hesabına. Bu proqramın və ondan sonra qəbul edilmiş ikinci Dövlət Proqramının uğurlu icrası demək olar ki, Azərbaycanın hərtərəfli inkişafına həlledici töhfə vermişdir. Bu gün Azərbaycan iqtisadiyyatının çoxşaxəli iqtisadiyyat kimi inkişafı məhz bu proqramların hesabına mümkün olmuşdur. Bu gün regionlarda gedən canlanma, inkişaf, abadlıq, quruculuq işləri göz oxşayır. Hər bir vətənpərvər vətəndaş qürur hissi ilə bunu görür. Hər bir vətəndaş, bölgələrdə yaşayan sakinlər öz işi ilə bu ümumi işimizə dəstək olurlar.

Ancaq görülən bu işlər və müstəqillik dövründəki işlər sovet dövrü ilə müqayisədə təkcə mənim fəaliyyətimlə bağlı deyildir. Bu, müstəqilliyin təzahürüdür. Bu, bir daha onu göstərir ki, müstəqillik öz əlimizdə olan zaman, Azərbaycan xalqı öz taleyinin sahibi olduğu bir halda böyük işlər görmək mümkündür. Biz uzun illər – onilliklər, əsrlər boyu müstəqillikdən məhrum idik. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Xalqımız inkişaf edibdir. Baxmayaraq ki, müstəqil olmamışıq, Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmişdir, öz Azərbaycan dəyərlərini hər şeydən üstün tutmuşdur və bu dəyərlər üzərində bu gün müstəqil dövlət qurulmuşdur. Ancaq bu müstəqillik dövrü və ondan əvvəlki dövrlərlə müqayisə açıq-aydın göstərir ki, müstəqilliyin nə qədər böyük üstünlükləri vardır. Biz bunu real işlərdə, tikilən infrastruktur layihələrində, abadlaşan şəhərlərdə, artan imkanlarımızda hiss edirik, görürük. Bizim təbii sərvətlərimiz də, nəhayət, Azərbaycan xalqının maraqlarına xidmət göstərir.

Müstəqillik ən böyük sərvətdir, ən böyük dəyərdir və 20 il ərzində – 1993-cü ildən başlayaraq bu günə qədər müstəqilliyimiz möhkəmlənir. Ancaq 1993-cü ilə qədər müstəqillik şərti xarakter daşıyırdı, təhlükə altında idi və Ulu Öndərin xalq, millət, tarix qarşısında gördüyü işlər çox böyük qiymətə layiqdir. Azərbaycan xalqı Heydər Əliyevin əziz xatirəsini qəlbində yaşadaraq bu hörmət və ehtiramı onun xatirəsini ifadə edir.

Biz müstəqil ölkə kimi inkişaf edirik. Biz bundan sonra əbədi müstəqil olacağıq. Azərbaycan xalqı dünyaya sübut edib ki, müstəqil dövlətdə yaşaya, müstəqil dövləti qura, müstəqilliyi qoruyub saxlaya bilər. Son 10 il ərzində biz bu yolda boyük uğurlara imza atmışıq. Bu yolda təzyiqlər də, təxribatlar da, təhdidlər də oldu. Azərbaycanın dostları çoxdur, Azərbaycan ilə dostluq, əməkdaşlıq etmək istəyən ölkələrin sayı durmadan artır. Bu da təbiidir. Çünki Azərbaycan güclü dövlət, etibarlı tərəfdaş kimi, ədalətli mövqeyinə görə dünya miqyasında böyük şöhrət qazana bilmişdir. Ancaq buna baxmayaraq, – bu gün çıxışlarda da bu, səsləndi, biz də bunu görürük və bilirik, – elə dairələr var ki,

Azərbaycanın uğurlu inkişafını həzm edə, qəbul edə bilmirlər, uğurlarımıza qısqanclıqla, paxıllıqla yanaşırlar. Azərbaycanın hətta dünyanı bürümüş böhran illərində də uğurlu inkişafını qəbul edə bilmirlər. Biz onları tanıyırıq, bilirik.

Son 10 il ərzində bütün təxribatlara, təzyiqlərə, böhtan kampaniyalarına baxmayaraq, biz yolumuzdan dönməmişik və dönməyəcəyik. Əgər hər bir insan haqlı olduğunu bilirsə, buna əmindirsə, o yoldan dönməməlidir. Azərbaycan öz inkişafı, öz qətiyyəti ilə, bölgədə gedən proseslərə öz münasibətilə sübut edib ki, biz müstəqil dövlətik və biz öz maraqlarımızı qoruya bilərik. Ölkə daxilində və ölkəmizin xaricində bu bölgədə gedən proseslərə təsir imkanlarımız artır və biz öz milli maraqlarımızı istənilən yolla müdafiə edirik, bunu bacarırıq və bunu sübut etmişik. Milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Bizim bütün ideologiyamız, bütün səylərimiz milli maraqların qorunmasına yönəldilibdir. Əlbəttə, gənc, müstəqil dövlət üçün bu, təbiidir. Çünki bu salonda əyləşənlərin böyük əksəriyyətinin ömrünün bir hissəsi, yarısı, yaxud da ki, böyük hissəsi sovet dövrünə təsadüf edir. Ancaq biz xoşbəxtik ki, müstəqil Azərbaycanı gördük. Bizdən əvvəlki nəsillər müstəqillik arzuları ilə, müstəqillik eşqi ilə yaşamışlar. Ancaq müstəqilliyi görə bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil Azərbaycan dövlətində yaşayırıq. Bizim məsuliyyətimiz ondadır ki, biz – bax, burada toplaşan cəmiyyətimizin əsas siyasi fəalları bu müstəqilliyi möhkəmləndiririk, qoruyuruq, əbədi, dönməz edirik, uzunmüddətli inkişaf strategiyamızı müəyyən edirik, Azərbaycanın uzunmüddətli dayanıqlı inkişafını təmin edirik.

Bizim tərəfimizdən irəli sürülmüş layihələr – enerji layihələri, iqtisadi layihələr, siyasi təşəbbüslər ölkəmizin uzun illər, onilliklər bundan sonra da uğurlu inkişafını təmin edəcəkdir. Təki siyasi xətt dəyişməz olaraq qalsın və mən heç şübhə etmirəm ki, bundan sonrakı illərdə də, onilliklər bundan sonra da siyasi xəttimiz dəyişməz olaraq qalacaqdır. Çünki son 20 il ərzində görülən işlər və müstəqilliyimizin tarixi sübut edib ki, bu, yeganə düzgün siyasətdir, yeganə düzgün yoldur.

Mən çox şadam ki, son 10 il ərzində çalışmışam ki, bu böyük məsuliyyəti öz çiynimdə aparım. Çalışmışam ki, Ulu Öndərin siyasətinə layiq olum. Çalışmışam ki, onun siyasi xəttini sizinlə bərabər, Azərbaycan xalqının dəstəyi ilə yaşadım. Oürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir.

Bu gün biz – ulu öndər Heydər Əliyevin siyasi varisləri, davamçıları onun ölməz xatirəsi qarşısında bir daha söz verir və and içirik ki, bu yolla gedəcəyik, bu yoldan dönməyəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik!»

Prezident İlham Əliyev həmçinin qeyd etmişdir ki, yeni Azərbaycan Partiyasının yaradılması, eyni zamanda, Azərbaycanın müasir siyasi sisteminin yaranması idi: «Çünki o vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq çox primitiv səviyyədə aparmağa cəhd edirdilər. Ölkənin siyasi sistemi yox idi. Yeni Azərbaycan Partiyasını yaranması siyasi sistemin yaradılması idi».

Bu müddəa ölkənin siyasi sisteminin politoloji təhlili baxımından olduqca vacib nəzəri-konseptual fıkirdir. Həqiqətən də 1990-ci illərin əvvəllərində Azərbaycanın siyasi sisteminin formalaşması kortəbii xarakter daşıyırdı. Siyasi sistemin gələcəyini, perspektivlərini müəyyənləşdirəcək və siyasi sistemin monolitliyini təmin edəcək konseptual ideya yox idi. Sovet ideologiyasının məngənəsindən yenicə qurtulmuş xalq üçün siyasi mədəniyyətin cəmiyyətdə vacibliyi dərk edilmirdi. Çünki Azərbaycan cəmiyyəti total, monoideoloji bir sistemin varisi idi. Yeni Azərbaycan Partiyasının Azərbaycan siyasi sisteminə daxil olmasının əhəmiyyəti məhz onda idi ki, o normal siyasi partiya və demokratik siyasi sistem haqqında təsəvvür formalaşdırma missiyasını üzərinə götürmüşdü. Qısa müddətdən sonra hakimiyyətə gələn YAP ölkənin siyasi sistemini inkişaf etdirməklə cəmiyyətin siyasi mədəniyyətinin formalaşmasına da güclü təsir göstərməyə başladı. Partiya öz fəaliyyəti ilə siyasi mədəniyyət prinsiplərinə uyğun olaraq, yeni

elitanın formalaşmasına da şərait yaratdı. Bu mənada Yeni Azərbaycan Partiyası cəmiyyətimizin demokratik sisteminin yaradıcısı rolunda çıxış etməyə başladı. Heydər Əliyevin siyasət fəlsəfəsindən bəhrələnən YAP sonrakı illərdə də bu, missiyanın öhdəsindən məharətlə gəldi.

Hazırda Yeni Azərbaycan Partiyası ölkəmizdə ictimai-siyasi sistemin sosiomədəni strukturunu tam təmsil edir. YAP 25 ildən çoxdur ki, hakimiyyətdədir. Bunun real obyektiv siyasi səbəbi İlham Əliyev tərəfindən aydın izah edilib. Yeni Azərbaycan Partiyasının 25 il hakimiyyətdə olması və onun getdikcə daha da güclənməsi siyasət tarixində az təsadüf olunan nümunələrdəndir. Təcrübə göstərir ki, əksər cəmiyyətlərdə iqtidar partiyaları bir neçə ildən sonra səs itirməyə, ya da tamamilə nüfuzdan düşməyə başlayır. Azərbaycanda belə halın şahidi olmadıq. Bizə elə gəlir ki, bunun əsas səbəbini ilk növbədə, YAP-ın müəllifi Heydər Əliyevin, sonrakı onillikdə isə İlham Əliyevin liderlik keyfiyyətlərində, siyasi elitanın inkişaf perspektivlərinə diqqət yetirmələrində axtarmaq lazımdır. Bu faktın özü aktual politoloji problem kimi daha dərindən araşdırılmalıdır. Hər bir siyasi partiya üçün onun liderinin keyfiyyətləri ən mühüm məsələlərdən biridir. Çünki bildiyimiz kimi, partiya bir liderin ətrafında birləşən üzvlərin cəmidir. Burada hər bir partiya üzvünün maraqları mövcuddur. Bu maraqlar bəzi hallarda ümumi, bir çox hallarda isə fərdi olur. Partiyanın siyasi sistemdə rolu isə ondan ibarətdir ki, fərdi və kollektiv maraqları təmin edə bilsin. Əks təqdirdə, partiya dağıla bilər. YAP isə Azərbaycan xalqının maraqlarını təmin etməklə ildən-ilə üzvlərinin sayını artıra və keçirilən bütün seçkilərdə əhalinin daha çox faizinin səsini qazana bilmişdir. YAP-ın fəaliyyəti Azərbaycanın siyasi elitası tarixində yeni keyfiyyət dəyişikliyinin təcəssümü kimi də qiymətləndirilə bilər. YAP-ın hər seçkidə daha çox səs toplamasının əsas səbəbi də məhz bundan ibarətdir.

Müasir dövlətçilik təcrübəmiz və real hakimiyyət strukturlarının fəaliyyəti göstərir ki, Yeni Azərbaycan Partiyasının əməli işi,

siyasəti bugünkü Azərbaycan iqtidarının işi ilə birbaşa bağlıdır və onunla vəhdət təşkil edir.

Ulu Öndər müəllifı olduğu Yeni Azərbaycan Partiyasının potensialını həmişə yüksək qiymətləndirmişdir: «Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır. Yeni Azərbaycan Partiyası qurultayının bu qədər məzmunlu, mənalı, mütəşəkkil və nikbin əhvali-ruhiyyədə keçməsi partiyanın cəmiyyətimizdə hörmətini daha da yüksəklərə qaldırır və qaldıracaqdır. Yeni Azərbaycan Partiyasının ətrafında Azərbaycanın daha da çox vətəndaşları toplaşacaqdır».

Ulu Öndər Partiyanın ideya saflığını qorumağı da həmişə ön plana çəkmişdir. O, partiyanın I qurultayında özünəməxsus siyasətçi təmkini ilə xəbərdarlıq edirdi: «Ən təhlükəlisi odur ki, Yeni Azərbaycan Partiyasına əqidəsi olmayan adamlar qatılmasın. Ötən dövr bu barədə bir çox nümunələr verdi. Ancaq bunu da dramatikləşdirmək lazım deyildir. Bu, təbii prosesdir. Cəmiyyətdə konyunktur məqsədlər güdən insanlar həmişə olubdur. Hər bir partiyada, hər bir yerdə olubdur – bundan xilas olmaq mümkün deyildir. Ona gorə də kim Yeni Azərbaycan Partiyasına hansısa şəxsi məqsəd, təmənna, hansısa konyunktur məqsədlər üçün gəlmişdisə, onlar partiyadan kənarlaşdılar. Əgər bu gün belələri varsa, mən güman edirəm, dərk etməlidilər ki, onların yolu partiyanın yolu ilə düz gəlmir. Partiyada əqidə adamları olmalıdır. Partiyaya xidmət etmək Vətənə xidmət etmək, millətə xidmət etmək, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir. Ona görə də patiyamız məhz bu cür əqidəli insanlarla böyüməli, inkişaf etməli və genişlənməlidir.

Yeni Azərbaycan Partiyasının mövcud fəaliyyəti göstərir ki, onun hər bir üzvü Ulu Öndərin müdrik tövsiyələrinə layiqincə əməl edir. Bu mənada biz Yeni Azərbaycan Partiyasının yeni zirvələr fəth edəcəyinə qətiyyətlə inanırıq.

Yeni Azərbaycan Partiyasının 8 fevral 2018-ci ildə keçirilən VI qurultayı da ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə oldu. Sıraları gündən-günə genişlənən, hazırda 700 mindən çox üzvü olan, 25 il ərzində uğurlu və şərəfli yol keçən YAP bu gün də Azərbaycanda aparıcı siyasi qüvvədir.

Məhz elə bu səbəbdən də xalq Azərbaycanda 1-ci olan partiyanın – YAP-ın qərarlarını bəyənib razılıqla qarşıladı. Yeni Azərbaycan Partiyasının VI qurultayında deyilirdi:

«Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən keçən müddət müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş nöqtəsi kimi daxil olub. Bu illər ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyat üç dəfədən çox artıb, Azərbaycan dünyaya özünün nadir iqtisadi inkişaf modelini təqdim edib.

Ölkənin iqtisadi potensialı əsaslı şəkildə artırılıb, maliyyə imkanlarımız maksimuma çatdırılıb. Azərbaycan Cənubi Qafqazın və ətrafın coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirməkdədir. Bütün bunların nəticəsində təbii olaraq Azərbaycanın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib.

Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması, 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi kimi tarixi nailiyyətlər qeyd olunmalıdır. Bu müddət ərzində maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə, əhalinin real gəlirləri orta hesabla 2,6 dəfə artıb.

Sosial infrastrukturun yenilənməsi sahəsində əldə olunan nailiyyətlər, sözün həqiqi mənasında, möcüzə sayıla bilər. 2003-2017-ci illərdə 3100 məktəb tikilib və ya əsaslı surətdə təmir olunub, 642 xəstəxana qurulub istifadəyə verilib, 43 müasir idman kompleksi yaradılıb.

Məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 92 qəsəbə və yaşayış kompleksi, 48,3 min mənzil və ya fərdi ev tikilib istifadəyə verilib, 245 min məcburi köçkün müasir mənzillərlə təmin olunub.

Ölkənin siması köklü surətdə yenilənib, modernləşmə Azərbaycanın müasir tarixinin fərqləndirici xüsusiyyətinə çevrilib. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb, bölgələrdə həyatın keyfiyyəti köklü surətdə dəyişdirilib. Əzəmətli infrastruktur layihələrin miqyası inşa olunan 12,3 min kilometr müasir yollarda, 443 körpü və yol qovşağında, qazlaşdırmanın 93 faizə çatdırılmasında, əhalinin içməli su ilə təminatının 67 faizə yüksəlməsində ifadə olunur.

Hərtərəfli siyasi islahatlar ölkənin siyasi sisteminin təkmilləşməsini və müasir standartlara uyğunlaşmasını əsaslı surətdə təmin edib. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı tam təmin edilib, idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması sahəsində ciddi addımlar atılıb.

2016-cı ildə keçirilən referenduma əsasən baş tutan Konstitusiya islahatları, vitse-prezident institutunun yaradılması siyasi islahatların dərinləşməsi istiqamətində ən uğurlu addımlardan sayıla bilər. Mötəbər beynəlxalq təşkilatlarda Azərbaycanın layiqincə təmsil olunması, tam müstəqil xarici və daxili siyasət yürütməsi dövlətimizin qüdrətinin və müstəqilliyinin ən bariz ifadələridir. Bu qüdrətin digər bir ifadəsi isə ordumuzun döyüş qabiliyyətinin heç zaman olmadığı qədər yüksəlməsi hesab edilməlidir. 2016-cı ilin aprel döyüşlərində düşmənə endirilən sarsıdıcı zərbə, düşmən işğalından azad olunaraq yenidən qurulan Cocuq Mərcanlı qəhrəman Azərbaycan Ordusunun döyüş şücaə-

tinin unudulmaz səhifələri, Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrikliyinin parlaq nümunəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitkin, sistemli xarakter daşıyaraq, əsl mənada intibah kimi müasir həyatımıza və tariximizə daxil olub. Bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət, idman sahələrində də əzəmətli layihələr həyata keçirilib və keçirilməkdədir. Azərbaycanın «Eurovision» mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, İslam Həmrəyliyi Oyunlarına, bir sıra mötəbər beynəlxalq təşəbbüslərə və tədbirlərə ev sahibliyi etməsi Azərbaycan intibahının miqyasının və beynəlxalq etiraf dərəcəsinin aydın göstəricisidir.

Yeni Azərbaycan Partiyasının VI qurultayı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatlarının gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini, habelə Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü maddəsinə istinad edərək qərara alır:

***İlham Heydər oğlu Əliyev 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürülsün»***.

2003-cü ildən bu günə qədər həm görülmüş işlər, həm də planlarla bağlı Azərbaycan ictimaiyyətinə daim məlumat verən Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında çıxış edərək demişdir: «Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Çünki bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.

Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir».

2018-ci ilin sürətli inkişaf ili olacağına, kənd təsərrüfatı və sənaye sahəsində həyata keçirilən layihələrin tezliklə bəhrə verəcəyinə inanan Prezident İlham Əliyev öz çıxışında qürurla onu da vurğulamışdır ki, iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, ən qabaqcıl texnologiyalardan istifadə etmək inkişafımız üçün əsas amil olub. O, fəxrlə demişdir: «Mən əminəm ki, Azərbaycan növbəti illərdə də öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək. Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi Ulu Öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. 1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. O, ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, – o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi – onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik».

Bəli, xalq öz liderinə inanır və etimad göstərir. Xalq inanır ki, cəmiyyətdə mütləq çoxluğun alternativsiz lider olaraq qəbul etdiyi cənab İlham Əliyev ölkəmizin inkişafı üçün qarşıda duran strateji hədəfləri bundan sonra da inamla gerçəkləşdirəcək. Azərbaycançılıq ideologiyası ilə silahlanmış, qarşıya qoyulmuş hədəflərə çatmanın üsul və vasitələrini doğru və düzgün müəyyənləşdirməyi bacaran Azərbaycanın yeni təfəkkürlü milli-siyasi elitası da bu işdə Prezidentə etibarlı dəstək olacaq.

# HEYDƏR ƏLİYEV – GƏLƏCƏK

*(Nəticə əvəzi)*

Bu, danılmaz bir həqiqətdir ki, Azərbaycan vətəndaşı ölkəsinin gələcəyini Heydər Əliyevin siyasi kursundan kənarda təsəvvür etmir.

Şübhəsiz ki, belə bi bir qərarın, qənaətin, nəhayət, ciddi bir məntiqi inamın arxasında respublikamızın, Azərbaycan xalqının 25 il ərzində əldə etdiyi fövqəladə nailiyyətlər dayanır.

Bəzi faktları xatırlatmaq yerinə düşər.

2018-ci ildə Cümhuriyyətimizin böyük təntənə ilə qeyd olunan100 illik yubileyi həm də bir sıra möhtəşəm tarixi məqamlarla müşayiət olundu.

Dahi Öndərimizin 1993-cü ildə prezident seçilməsindən 25, İlham Əliyevin 2013-cü ildə siyasi varislik məsuliyyətini öz üzərinə götürməsindən 15 il keçir.

Bu, bir gerçəklikdir ki, Azərbaycan 1993-cü ildə parçalnmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Amma parçalanmaq ifadəsi o dövrün ictimai-siyasi gərginliyini və mürəkkəbliyini bütün çalarlarıyla özündə ehtiva etmək iqtidarında deyil. Zənnimizcə, 1993-cü ilin iyun günlərində Azərbaycan dövlətçiliyi çilik-çilik dağılmış, Azərbaycan cəmiyyəti pərən-pərən düşüb səpələnmişdi.

Belə bir vəziyyətdə hakimiyyətə gələn Heydər Əliyev qısa bir müddətdə Azərbaycan dövlətçiliyinin fundamental əsaslarını yartadı.

Azərbaycan Respublikasının Prezidenti olduğu 10 il ərzində Heydər Əliyev çox böyük, möhtəşəm işlər gördü.

Bu barədə Ulu Öndər 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına etdiyi tarixi müraciətdə belə deyib: «**Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.**

**İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.**

**İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq.**

**Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik».**

Heydər Əliyev Azərbaycan xalqı, dövləti üçün taleyüklü bir məsələni həll etməyi bacardı – müstəqilliyimizin dönməzliyini təmin etdi.

Bəzi məsələləri isə həll etmək mümkün olmadı. O, təəssüflə demişdi: **«Xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik».**

Ulu Öndərimiz bəzi işləri tamamlaya bilmədiyini də qeyd edirdi: **«Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım».**

Dahi Öndər tarixi müraciətində həmçinin vurğulayıb: «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim işləri İlham Əliyev uğurla tamamlayacaq. Mən ona özüm qədər inanıram.»

Ulu Öndərimiz Heydər Əliyevin inamla və uzaqgörənliklə dediyi bu sözlər özünü bütün dəqiqliyi ilə doğrultdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 illik fəaliyyəti ilə sübut etdi və bu gün də sübut etməkdə davam edir ki, Azərbaycan xalqı ona elə Heydər Əliyevə inandığı kimi inanır, arxalanır və güvənir.

İlham Əliyevin Prezidentliyi Azərbaycana müstəsna nailiyyətlər bəxş edib.

Bu gün Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir.



*Azərbaycanın gələcəyi adı Vətən qədər müqəddəsləşmiş Heydər Əliyevin adı ilə bağlıdır.*

Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusunun sıralarında qərar tutur.

Azərbaycanın enerji layihələri Avropanın enerji təhlükəsizliyində həlledici mövqeyə sahibdir.

Azərbaycanın razılığı və iştirakı olmadan regionda heç bir layihə həyata keçirilə bilməz.

Azərbaycan kosmik dövlətlər klubunun üzvüdür. Süni peyklərimiz ölkəmizin müqəddəs bayrağını kosmosun ənginliklərində daşıyır.

Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və Şuraya iki il sədrlik edib.

Neft müqavilələrinin müddəti 2050-ci ilə qədər uzadılıb.

Bir sözlə, Cənab Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan heç vaxt iqtisadi və hərbi baxımdan indiki qədər qüdrətli və güclü olmayıb.

Uca mənəviyyata sahib şəxsiyyət – Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, zəngin təcrübəsi və rəhbərlik istedadına malik olması, həyatını dövlətə xidmətə, onun təsisatlarının təkmilləşdirilməsinə, iqtisadiyyatın inkişafına və sosial rifahın təmin olunmasına həsr etməsi hazırda ölkəmizin dünyada davamlı irəliləyiş nümayiş etdirməsinə, siyasi kursunun isə xalq tərəfindən yüksək səviyyədə dəstəklənməsinə səbəb olub.

Bu gün Azərbaycan qadını Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın timsalında dövlət idarəçiliyində və siyasətdə yüksək peşəkarlıqla təmsil olunur. Hesab edirik ki, ötən əsrin 1918-ci ilində Azərbaycan qadınına Şərqdə ilk dəfə seçib-seçilmək hüququ verən Xalq Cümhuriyyətinin 100 illik yubileyinə bundan böyük töhfə ola bilməz.

Bu gün gənc Heydər Əliyev Azərbaycan Ordusunun sıralarında mətin addımlarla irəliləyir.

Ulu Öndərimizin siyasi dühası Azərbaycanımızın müstəqil siyasi perspektivini həll edən yeganə, alternativsiz istinadgah mənbəyi olaraq qalır.



*Azərbaycan Ordusunun sıralarında gənc Heydər Əliyev mətin addımlarla irəliləyir.*

Azərbaycanın gələcəyi adı Vətən qədər müqəddəsləşmiş Heydər Əliyevin adı ilə bağlıdır!

1993-cü ilin ikinci yarısında Azərbaycan dövləti öz fəaliyyətini sistemli bir xarici siyasət strategiyası əsasında qurmağa başlamışdı. Bu strategiyanın prinsipləri qlobal geosiyasi mühitin nəbzini tutan, beynəlxalq münasibətlər sistemində dövlətimizin diplomatik fəaliyyəti üçün əlverişli şərait yaradan, ölkənin bütün regionlarında yerləşən dövlətlərlə əməkdaşlığını təmin edən istiqamətlərdən ibarət idi. Bununla yanaşı, həmin strategiyada bazar iqtisadiyyatına keçid zamanı yaradılan əngəllərin aradan qaldırılması və insan hüquqlarına əməl olunmasını təmin edəcək proritetlər mühüm yer tuturdu.

O zaman qloballaşan və dəyişən dünya nizamının sosial-siyasi ziddiyyətləri də hər ölkəyə müstəqil siyasət yeritməyə imkan vermirdi. Beynəlxalq münasibətlər sistemində kəskin konfliktlər, iqtisadi böhran, enerji təhlükəsizliyi məsələlərinin getdikcə daha da aktuallıq kəsb etməsi bir sıra ölkələri həyata keçirdikləri siyasətə yenidən baxmağa vadar edirdi. Həmin ölkələr bəzən öz siyasətlərini kənar təsirlərlə uzlaşdırmaq, müəyyən çağırışları qəbul etmək məcburiyyətində qalırdılar.

Hazırda postsovet ölkələrinin əksəriyyətində bu mənzərə yenə müşayiət edilir. Onlardan fərqli olaraq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tamamilə müstəqil olması isə bu gün bütün dünyanın qəbul etdiyi reallıqdır. Ulu Öndərin əsasını qoyduğu siyasi strategiyanı layiqincə davam etdirən və bu strategiyanı dəyişən dünyanın yeni çağırışlarına uyğunlaşdıraraq daha da zənginləşdirən Prezident İlham Əliyevin hələ əvvəllər dediyi «Azərbaycanla təzyiq dilində danışmaq olmaz» ifadəsi real həyatımızda, ölkəmizin xarici siyasətində bu gün də hər an öz təsdiqini tapmaqdadır.

Qeyd etdiyimiz kimi, Heydər Əliyevin uğurla apardığı Azərbaycanın xarici siyasətinin başlıca istiqaməti ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Ona görə də Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz

qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutur.

Azərbaycanın bugünkü sülhsevər xarici siyasət strategiyası region səviyyəsində pozitiv geosiyasi dəyişikliklərə güclü təkan verir. Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq əməkdaşlıq və inteqrasiyanı daha üstün bilir. Ölkəmiz yeni beynəlxalq enerji layihələri, iqtisadi əməkdaşlıq proqramları və mədəniyyətlərarası dialoqa xidmət edən tədbirlər həyata keçirdikcə antimilli qüvvələrin, antiazərbaycançı şəbəkənin təxribatçılıq hərəkətləri də müşahidə olunur. Lakin bütün bu təhdidlərə baxmayaraq, Azərbaycanı öz maraqlarında güzəştə getməyə vadar etmək mümkün deyil. Məhz bu amil müstəqilliyimizi əbədiləşdirir. 2018-ci il aprelin 18-də Prezident İlham Əliyev andiçmə mərasimində mövqeyini belə bildirmişdir: «Azərbaycan xalqı öz taleyinin sahibidir və Azərbaycan heç vaxt tarixdə bu qədər güclü olmamışdır. Heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır. Biz hamımız bundan sonra da çalışmalıyıq və çalışacağıq ki, ölkəmizi inkişaf etdirək, müstəqilliyimizi əbədi, dönməz edək».

İndi dünyada geosiyasi situasiya elə dəyişir ki, hər bir dövlət nəinki müstəqil xarici siyasət yeritməyə, hətta öz maraqlarını qorumağa qadir olmalıdır. Azərbaycanın bugünkü inkişaf templəri, dünya birliyindəki yeri və nüfuzu, beynəlxalq münasibətlər sistemindəki mövqeyi ölkəmizin tam müstəqil xarici siyasət yeritdiyini, özünün milli maraqlarını uğurla qoruduğunu təsdiq edir.

Bütün bunlar deməyə əsas verir ki, heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır.

Heydər Əliyevin siyasət fəlsəfəsinin başlıca ideyalarını rəhbər tutan Azərbaycanın xarici siyasətinin uğurlarını digər istiqamətlərdə də görmək mümkündür. Ölkəmizin beynəlxalq təhlükəsizlik məsələlərində tutduğu fəal və aparıcı mövqe Azərbaycanın, sözün əsl mənasında, müstəqil dövlət olduğunu təsdiq edir. Prezident İlham Əliyevin dediyi kimi, əməkdaşlıq meydanı olan Azərbaycanın beynəlxalq sanksiyalarla üzləşmiş İranla bağlı baxışları dövlətimizin müstəqil, kənar təsirləri və təzyiqləri qəbul etməyən siyasət ye-

ritməsinin göstəricisidir. Azərbaycanda xarici hərbi bazanın olmaması da ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin müstəqilliyinin təsdiqidir. Bir müddət əvvəl Qəbələ Radiolokasiya Stansiyası ilə bağlı cərəyan edən proseslər də göstərdi ki, nəticə etibarilə Azərbaycan öz maraqlarını əsas tutan xarici siyasət həyata keçirir. Azərbaycanın 2012–2013-cü illərdə BMT TŞ-nin üzvü seçilməsi də Prezident İlham Əliyevin yeni dövrün çağırışlarına uyğun həyata keçirdiyi uğurlu, düşünülmüş və məqsədyönlü xarici siyasətinin göstəricisi idi. Müstəqil siyasətin nəticəsidir ki, Azərbaycan region ölkələrini və dünyanın iri şirkətlərini cəlb edərək «Əsrin müqaviləsi» ilə müqayisə olunan «Şahdəniz-2» üzrə yekun investisiya qərarını imzalayıb. Bir sözlə, biz bu gün tam əminliklə deyə bilərik ki, müstəqilliyimiz heç vaxt son illərdəki qədər yenilməz olmamışdır.

Bu işdə, təbii ki, Heydər Əliyevin siyasi dühasının nəzəri-praktiki ideyalarını rəhbər tutan siyasi elitamızın da rolu müstəsnadır. Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı rolu bir daha göstərdi ki, Azərbaycanda Heydər Əliyevin siyasət məktəbinin yetirmələri olan, Azərbaycanın ümdə maraqları uğrunda barışmaz mübarizə aparan yenitipli siyasi elita aktiv fəaliyyət göstərib və yorulmadan bu gün də fəaliyət göstərməkdədir.

# ƏDƏBİYYAT

1. **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Azərnəşr, 1997–2012-ci illər
2. **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Azərnəşr, 2008–2018-ci illər
3. Azərbaycan vahid və bölünməz Avropada (Heydər Əliyev və İlham Əliyevin çıxışları). «Heydər Əliyev İrsini Araşdırma Mərkəzi», 2011
4. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk konstitusiyası. «Azərbaycan», 2011.
5. Heydər Əliyev və Şərq. «Çaşıoğlu», 2005–2006, VI cilddə.
6. Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi. «Azərbaycan», 2007.
7. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun araşdırmalarında. «Atatürk mərkəzi», 2004.
8. Ümummilli lider Heydər Əliyev və milli dövlətçiliyimizin inkişafı məsələləri. 2006.
9. Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrədəki Azərbaycan Cəmiyyətinin idarə heyətinin bir qrup üzvü ilə görüşü. 30 yanvar 2000-ci il. İsveçrə, «Dirçəliş–XXI əsr», 2000, №2.
10. Davos iqtisadi forumunda «Qafqaz və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya «böyük oyun» mövzusunda sessiyada Heydər Əliyevin çıxışı. «Dirçəliş», 2000, №2.
11. Azərbaycanın xarici siyasəti. «Garisma» MMC, 2008.
12. **Mehdiyev R.** XXI əsrdə milli dövlətçilik. 2003.
13. **Mehdiyev R.** Azərbaycan 2003–2008. Zaman haqqında düşünərkən. 2009.
14. **Mehdiyev R.** Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. 2001.
15. **Mehdiyev R.** Fəlsəfə. «Şərq-Qərb», 2010.

16. **Mehdiyev R.** Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. XXI əsr. Yeni nəşrlər evi, 2005.
17. **Mehdiyev R.** Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. «Şərq-Qərb», 2008.
18. **Mehdiyev R.** Vətəndaş cəmiyyətinə yol açan ideyalar. «Azərbaycan», 2006.
19. **Həsənov Ə.** Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991–1996). Azərnəşr, 1998.
20. **Həsənov Ə.** Azərbaycan. ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru. 1997.
21. **Həsənov Ə.** Azərbaycan və ATƏT. 1997.
22. **Həsənov Ə.** Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. «Azərbaycan», 2007.
23. **Mirələmov H.F.** Zəfər yolu, «Gənclik», 2003.
24. **Mirələmov H.** Həqiqət. «Azərbaycan», 2003.
25. **Mustafayev R.** Azərbaycan cəmiyyətinin mümkün inkişaf yolları. 1996, Doktorluq diss. avtoreferatı.
26. **Mustafayev R.** Fikir azaddır. İnsan Hüquqları İnstitutu, 2000.
27. Beynəlxalq münasibətlər tarixi. ABU, 2007.
28. **Cəfərov N.** Heydər Əliyev. AzAta M., 2002.
29. **Əlimərdan bəy Topçubaşov.** Paris məktubları. «Şərq-Qərb», 1998.
30. **Əliyev Q.** Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. «Qismət», 2003.
31. **Hüseynov Ş.** Əhməd bəy Ağaoğlunun dünyagörüşü. Azərnəşr, 1988.
32. **Quliyev İ., Nəbiyev F.** Kremli fəth etmiş türk oğlu. 2008.
33. **İsmayılov Ə., Əliyev Q.** Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. «Təbib», 1998.
34. **Qasımov Ə.** Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası. «Təhsil», 2009.

35. **Qurbanov B.** Heydər Əliyev və Azərbaycan tarix elmi. «Təhsil», 2004.
36. **Mahmudov V.** Heydər Əliyev ideyalarının zəfər yürüşü. «Təhsil», 2011.
37. **Axundova E.** Heydər Əliyev: şəxsiyyət və zaman: 1923–1990. «Ozan», 2007, IV kitabda.
38. Azərbaycan Demokratik Respublikası. Sənədlər. http://www.google.az/vebhp?sourceid=instant2Rion.
39. Azərbaycan Respublikası. 1991–2001. XXI əsr – Yeni nəşrlər evi, 2001.
40. Azərbaycan Respublikasının x. 2010.
41. Azərbaycan Xalq Cümhuriyyəti: 1918–1920. Stenoqrafik hesabatlar. «Azərbaycan», 1998.
42. **Seyidzadə D.** Azərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar. BOKAO, 2004.
43. Ürəklərdə anılan abidə.Heydər Əliyev adına Xeyriyyə Fondu. 3 clddə, 2005, I c. III c.
44. **Zamanov N.** Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. «Elm və təhsil», 2013, I kitab.
45. **Abdullayev V.** Milli şüur və siyasi proseslər. «Təbib», 1998.
46. **Abdullayev V.** O, böyük siyasətə hazırdır. «Azərbaycan», 1998.
47. **Abdullayev V.** Azərbaycan yeni diplomatiya məkanında. «Azərbaycan», 2000.
48. **Abdullayev V.** Müstəqilliyimizin strategiyası. «Azərbaycan», 2002.
49. **Abdullayev V.** Sülh və sabitlik Prezidenti. «Azərbaycan», 2004.
50. **Abdullayev V.** Planetar təfəkkürlü Lider. «Şərq-Qərb», 2007.

*Vaqif İdris oğlu Abdullayev*

HEYDƏR ƏLİYEV –
MİLLİ-SİYASİ ELİTAMIZIN ZİRVƏSİ

Bakı, «Təhsil», 2019.

Nəşriyyat redaktoru ***Aida Quliyeva***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları ***Səbinə Məmmədova,***
***Təhmasib Mehdiyev***
Korrektoru ***Mətanət Kərimova***

Çapa imzalanmışdır 18.12.2018. Kağız formatı 70x100 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 25,5. Sifariş 195. Tiraj 500.

«Təhsil» nəşriyyat-poliqrafiya müəssisəsinin
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Bakı, AZ 1052, F.Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29
e-mail: tahsil_az@yahoo.com